

(1141-1209)



(1932-1994)

# NİZAMİ GƏNCƏVİ

## LİRİKA

## «SİRLƏR XƏZİNƏSİ»

## «YEDDİ GÖZƏL»

«İDEAL-PRINT»
BAKI – 2011

Tərtib edəni:
**Firəngiz xanım Ulutürk,**
*AMEA Nizami adına Ədəbiyyat İnstitutunun fəxri doktoru,*
*Azərbaycan Neft Akademiyası İctimai elmlər kafedrasının baş müəllimi, akad. Y.Məmmədəliyev, R.Rza, X.R.Ulutürk və Araz ali ədəbi mükafatları laureatı*

Redaktor və ön sözün müəllifi:
**Əlizadə Əsgərli**

X49 **Nizami Gəncəvi**
**Lirika:** Qəzəllər, qəsidələr, rübailər.
**Poemalar:** «Sirlər xəzinəsi», «Yeddi gözəl»
Bakı: «İdeal-Print», 2011, 800 səh.

Kitabda xalq şairi, milli ideal mücahidi Xəlil Rza Ulutürkün tərcüməsində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin lirik şeirləri (qəzəllər, qəsidələr, rübailər), «Sirlər xəzinəsi» və «Yeddi gözəl» poemaları verilmişdir.

Yalnız Şərq deyil, Avropa və Qərb ədəbiyyatına da təsir göstərmiş Nizami Gəncəvi poemaları Xəlil Rza Ulutürkün tərcüməsində orijinala yaxınlığı ilə seçilir.

Kitab dünya şöhrətli sənətkar Nizami Gəncəvinin anadan olmasının 870 illiyi münasibətilə nəşrə hazırlanmışdır.

X 4702060200 / 122

© «İDEAL-PRİNT», 2011



# NİZAMİ ƏSƏRLƏRİ YENİ POETİK NƏFƏSDƏ

Kitab Xəlil Rza Ulutürkün tərcüməsində Nizami Gəncəvinin "Lirika", "Sirlər xəzinəsi", "Şərəfnamə" (Bakı: "Elm", 1998) və "Yeddi gözəl" (Bakı: «Azərbaycan Ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyi, 2000) əsərləri əsasında hazırlanmışdır.

X.R.Ulutürk Azərbycan tərcümə məktəbinin görkəmli nümayəndəsidir. Onun tərcümə nəzəriyyəsi və təcrübəsinə dair "Moabit dəftəri"nin tərcüməsinə dair", "Poetik tərcümədə şairliyin elmi-filoloji əməyə arxalanması zərurəti", "Bədii tərcümə bədii kəşf olmalıdır", "Bədii tərcümə milli mədəniyyətin ayrılmaz hissəsi kimi", "Mayakovski və çağdaş Azərbaycan poeziyasının aktual problemləri", "Rusiyada kimin günü xoş keçir" epopeyası və onun tərcüməsinə dair", "Tərcümənin bədiiliyi uğrunda"[1] məqalələri də vardır.

X.Rza 1955-ci ildən tərcüməçiliklə məşğul olmağa başlamış, bu yolu ömrünün sonunadək davam etdirmişdir. Onun tərcümə kitabları kiril əlifbası ilə şairin sağlığında nəşr olunmuşdur. Latın qrafikasına keçdikdən sonra, təbii ki, şairin əsərlərinin nəşrinə ehtiyac yaranmış və bu işi sənətkarın həyat yoldaşı Firəngiz xanım Ulutürk öz üzərinə götürmüşdür. Biz də həmin kitab əlyazmalarını diqqətlə oxumuş, onlara redaktorluq etmiş və ön söz yazmışıq. Bu baxımdan indiyədək X.R.Ulutürkün "Turan çələngi" (2005) və "Dünyaya pəncərə" (2010) kitabları çap olunmuşdur. Bu kitaba isə N.Gəncəvinin əsərlərinin tərcüməsi daxil edilmişdir. 2011-ci ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 870 illiyi tamam olur. Hesab edirik ki, bu yeni kitab şairin yubileyinə yaxşı hədiyyələrdən biri olacaqdır.

X.Rzanın dünya ədəbiyyatından etdiyi tərcümələr toplanıb

1. Bax : X.R.Ulutürk «Dünyanın ədəbi xəritəsi». Bakı: Çinar-çap, 2008

nəşr edilmişdir. Hətta, belə kitablara şairin indiyədək çap edilməmiş bir sıra tərcümələri də daxil olunmuşdur. Çalışmışıq ki, şairin arxivindən tapılmış yeni bədii nümunələri də təzə kitablarına daxil edək.

Firəngiz xanım Ulutürk müstəqillik dövründə X.Rzanın N.Gəncəvi haqqında tərcümə kitablarını – "Yeddi gözəl" və "İsgəndərnamə"ni nəşr etdirmişdi. "İsgəndərnamə" 2003-cü ildə latın əlifbası ilə çap olunmuşdu. Kiril əlifbasında olan kitabların nəşrinə ciddi ehtiyac yaranmışdı. Bu ağır işi dahi şairin 870 illiyi ərəfəsində yerinə yetirməyə nail olduq. Kitabın ön sözünü X.Rzanın elə öz sözü əsasında hazırladıq. Yəni "Yeddi gözəl" poemasının ön sözünü – "Bədii sözün tanrısı" adlı iri həcmli məqaləsini bu kitabda da saxladıq. Əlavə sözə ehtiyac duymadıq. Bu məqalə vaxtilə şairin "Xəlil Rza. Azərbaycan SSR əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru" imzası ilə nəşr edilmişdi. Biz də belə hərəkət etdik. 1988-ci ildə çap olunmuş kitab dünya ədəbiyyatı kitabxanası seriyasından buraxılmışdı. XVI cild idi. "Lirika" və "Sirlər xəzinəsi"nə şərhlər və lüğət X.Rzanın, "Şərəfnamə"yə izahlar isə Əkrəm Cəfərin idi. Həmin cildi redaksiya heyəti nəşrə hazırlamışdı.

2000-ci ildə "Azərbaycan Ensiklopediyası" Nəşriyyat Poliqrafiya Birliyinin çap etdiyi kitab "Yeddi gözəl" idi. Onun tərtibi Firəngiz xanım Ulutürk, tərcümə və redaktoru isə X.R.Ulutürkün özü olmuşdu.

Yeni nəşrdə lirika bölməsini qəzəllər, qəsidələr və rübailər təşkil edir. Əvvəlki nəşrdə olduğu kimi. Bu bölməyə şərhlər və izahlar da verilmişdir. X.Rzada olduğu kimi. Biz də elə hərəkət etmişik.

"Sirlər xəzinəsi" poeması tərcümə bilicilərinin verdiyi qiymətə görə şairin əhəmiyyətli tərcüməsidir. Bu barədə prof. Rüstəm Əliyev, prof.Əkrəm Cəfər, prof.Əbülfəz Hüseynli və prof. Azadə Rüstəmova qiymətli elmi fikir söyləmişlər. Şairin arxivində "Sirlər xəzinəsi"nin tərcüməsilə bağlı üç rəyə rast gəlmişik. Onlardan biri Ə.Cəfər, o birisi Ə.Hüseynli, üçüncüsü isə A.Rüstamovanındır. Ə.Cəfərin rəyinin sonunda 31.12.1979-cu il tarixi yazılmışdır. Məlum olur ki, X.Rza artıq 70-ci illərin axırlarında poemanı dilimizə çevirib qurtarmışdı. Hər iki rəyçi əsərin çapını lazım bilmişdir.



A.Rüstəmova isə onun tərcümə nəşrini yüksək qiymətləndirmişdir. Poemanın çapı 1988-ci ildə mümkün olmuş və X.Rza kitaba yuxarıda deyildiyi kimi qiymətli ön söz –"Bədii sözün tanrısı" adlı elmi-nəzəri məqalə də yazmışdı. Ə.Hüseynlinin yazdığı rəydən məlum olur ki, qədim nüsxələrdə "Sirlər xəzinəsi"nin həcmi 2250, X.Rzanın tərcüməsində isə 2246 beytdir. Bunu X.Rza özü 4492 misra göstərir. Dünya kitabxanalarında "Sirlər xəzinəsi"nin saysız-hesabsız əlyazmaları vardır. Bunlardan ən qədim nüsxə Əfqanıstan Dövlət Kitabxanasındadır. Əsər ilk dəfə 1844-cü ildə ingilis şərqşünası Natan Bland tərəfindən Londonda nəşr edilmişdir. 50 dəfə Hindistanın müxtəlif şəhərlərində, Azərbaycan, Orta Asiya, Türkiyə, İran, Əfqanıstan və başqa ölkələrdə dönə-dönə çap olunmuşdur.

Poema XIX əsrdə Orta Asiyada və Tatarıstanda qismən tərcümə edilmişdir. Türk dilinə sətri tərcüməsini məşhur türk alimi M.Nuri Gencosman 1964-cü ildə həyata keçirmiş və ona ön söz yazmışdır. Bu, "Sirlər xəzinəsi"nin Ankarada olan üçüncü nəşridir. X.Rza tərcüməyə girişərkən elmi-filoloji əməyə arxalanmışdır. O, "Nizaminin yalnız bu əsərini deyil, ümumən bütün yaradıcılığını, ruhunu, dünyagörüşünü, fikir sistemini öyrənmək, mənimsəmək uğrunda mübarizə aparmış və buna müəyyən dərəcədə nail olmuşdur" (Ə.Hüseynli). Əlyazma şairin arxivində saxlanılır.

X.R.Ulutürk "Sirlər xəzinəsi" poemasını orijinaldan, farscadan tərcümə etmişdir. Bununla belə, M.Nuri Cencosmanın "Sirlər xəzinəsi"nin türkcə tərcüməsindən də faydalanmışdır. "Həm orijinalı, həm də türkcəyə sətri tərcüməni dərindən öyrənməsi, mənimsəməsi X.Rzaya "Sirlər xəzinəsi"ni dərindən qavramağa, Azərbaycan dilinin sehrkar gözəlliklərini nümayiş etdirməyə, qüdrətli və kamil bir tərcümə əsəri yaratmağa imkan vermişdir".(Ə.Hüseynli)

X.Rza heca vəzninin on dördlük bölgüsünü seçsə də, "onun misralarında artıq söz yoxdur, əksinə Nizamini açmaq, onun mahiyyətini aşkara çıxarmaq, XII əsrə məxsus mətləbləri XX əsrin oxucularına yetirmək bacarığı vardır. Yeni bədii tərcümənin mühüm üstünlüklərindən biri budur ki, X.Rza hərfi tərcümənin əsiri olmamış, yaradıcı tərcüməçi yolunu tutmuş, tərcüməyə çətin yatan qəliz ifadə və tərkiblərin azərbaycancasını kəşf edə bilmişdir"(Ə.Hüseynli). "Bir küll halında götürdükdə deməliyəm ki,

tərcüməçi Nizamini mənimsəmək və azərbaycanca doğma, güclü, təbii səsləndirmə uğrunda mübarizə aparmışdır."(Əkrəm Cəfər)

Məlumdur ki, poemada başlıca keyfiyyət güclü insan xarakteri olmuş, o, dərin və mənalı ictimai kontekstə əsaslanmışdır. Bu insan milli-bəşəri idealların, xalq təfəkkürünün daşıyıcısı olmaqla bərabər, şərə, eybəcərliyə, antihumanizmə dözməmiş, ədalətsizləri ədalət divanına çəkmiş, ictimai yaramazlıqları işıqlandırmışdır. Həmin insan yalnız xalqa və həqiqətə xidmət amalı ilə yaşayan lirik qəhrəmandır. "Bədii gözəlliyinə vurulduğumuz üçündür ki, tərcümə zamanı biz hər sözün yerində və dürüst işlədilməsi uğrunda mübarizə aparmış, Nizamiyə layiq poeziya nümayiş etdirmək qayğısı çəkməyi bircə an unutmamışıq" (X.R.Ulutürk).

X.R.Ulutürk ensiklopedik zəka sahibi N.Gəncəvinin irsi ilə dərindən məşğul olmuşdur. Nizami dühasının bəşəriliyi və humanizmi X.Rzanı dahi şairə yaxınlaşdırmış, nəticədə onun lirik, habelə, "Xəmsə" əsərlərini dilimizə çevirmişdir.

"Yeddi gözəl" poeması demək olar ki, dünyanın əksər dillərinə tərcümə olunmuşdur. Poemanın Tehran kitabxanasında saxlanılan ən qədim əlyazma nüsxəsi isə 1903-cü ilə (Pəncab Universiteti Kitabxanası) aiddir. Dünya kitabxanalarında "Yeddi gözəlin" "Xəmsə" daxilində 450, ayrıca isə 47 əlyazması mövcuddur.

"İsgəndərnamə" (1881), "Yeddi gözəl"(1924), "Leyli və Məcnun" (1936), "Sirlər xəzinəsi" (1945) C. Atkinson, K. Vilson, B. Klark və Q.Darab tərəfindən həm nəsr, həm də nəzmlə ingilis dilinə çevrilib nəşr edilmişdir. XVII əsrdə "Yeddi gözəl" poemasının bir əlyazması Cənubi Azərbaycandan İtaliyaya aparılmış və italyan dilinə tərcümə olunmuşdur. 1824-cü ildə F.Rükert "Yeddi gözəl"dən bəzi parçaları almancaya tərcümə etmişdir. F. Erdman da əsərin alman dilinə tərcüməsi üzərində çalışmışdır. 1959-cu ildə P.Gelpk "Yeddi gözəl"i almaca tam tərcümədə nəşr etmişdir. Poema 1741-ci ildə isə İ. Klerembol tərəfindən fransız dilinə tərcümə olunmuşdur.

"Yeddi gözəl" qazax dilinə X. Bekxojin və K.Cümağaliyev tərəfindən tərcümə edilərək 1980-ci ildə capdan çıxmışdır. Əsərin XIX əsrin ortalarına aid olan özbəkcəyə tərcüməsi A.Məhəmmədrizoya məxsusdur.1988-ci ildə "Yeddi gözəl" alim və



tərcüməçi M. Todua tərəfindən gürcü dilinə tərcümə edilmişdir. Poemanın Azərbaycan dilinə tərcüməsi ötən əsrin 40-cı illərinə aiddir. Əsərin hələlik son tərcüməsi isə Xəlil Rza Ulutürkündür.

Nizaminin "Yeddi gözəl" poeması şərhsiz və izahsız çap olunmuşdur. Əvvəlki nəşrdə də belədir. Şair və tərcüməçilər nədənsə onun şərhinə, izahına ehtiyac görməmişlər. X.Rzanın tərcüməsində "Yeddi gözəl" poeması 5165 beyt və farscadan çevirmənin tamamlanması tarixi «24 ocaq 1984, Türkan» göstərilir. Kitab X.Rzanın "yırtıcı ilhamla" çevirdiyi (öz sözüdür) tərcümə əsəridir.

Oxucuların ixtiyarına verilən bu kitab hesab edirik ki, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ensiklopedik irsinə, onun anadan olmasının 870 illik yubileyinə Azərbaycan mədəniyyətinin göstərdiyi layiqli hədiyyədir.

**Əlizadə Əsgərli,**
*AMEA Nizami adına*
*Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi,*
*Bakı Qızlar Universitetinin elmi*
*işlər üzrə prorektoru,*
*filologiya elmləri doktoru,*
*professor*

## BƏDİİ SÖZÜN TANRISI

Saysız-hesabsız ağız ədəbiyyatı inciləri-bayatılar, laylalar, qoşmalar, nağıllar, dastanlar, məsəllər, atalar sözləri, mərasim nəğmələri, bəzəmələr, ağılar, holavarlar... və «Dədə Qorqudun kitabı» kimi əzəmətli xalq abidəsi ilə zəngin olan mədəniyyətimizi öz kökü üstündə bitmiş həyat ağacına bənzətsək, deyə bilərik ki, sağlam və dərin rişələri bərəkətli milli zəmindən su içən bu orman nəhəngi başqa qaynaqlara da biganə qalmamış, bəzən tarixi zərurət, yaxud təsadüf nəticəsində bu yurda gəlib çıxan irmaqları da nuş etmişdir. Azərbaycan dühası özünü təsdiq edib bəşər sərvətinə çevrildiyi çağlarda qardaş mədəniyyətlərə və dillərə nəinki arxa çevirməmiş, bəlkə əksinə, onları öyrənib mənimsəmək və özününküləşdirmək uğrunda mübarizənin bir sıra inkişaf mərhələlərini aşıb keçmiş, milli və qeyri-milli təsirlərin uyuşması, qaynayıb-qarışması nəticəsində necə bədii möcüzələrin yarandığını sübut etmişdir. XII əsrdə Türk (Azərbaycan) islam renesansının bir cüt yüksək zirvəsi adlanmağa layiq Əfzələddin Xaqani (1120-1199) və Nizami Gəncəvi (1141-1209) yaradıcılığı buna ən parlaq misaldır. Hər iki dahi, heç şübhəsiz, XII əsr Azərbaycanında ən böyük mədəni hadisələrdir. Müəyyən tarixi şərait və səbəblər ucbatından başqa qılafda, fars dilində yaransa da bu ədəbi hadisə öz mahiyyətini dəyişmir. Azərbaycan gerçəkliyinin, Azərbaycan zəkası və mənliyinin bədii ifadəsi olaraq qalır.

Maraqlıdır ki, ömrü boyu yalnız şairlik etmiş Nizami Gəncəvi, hətta, böyük hərflər ilə yazdığımız «ŞAİR» sözünə sığmır, adı hər dəfə çəkiləndə fəlsəfə, astronomiya, hüquq, təbabət tarixi, dilçilik, etnoqrafiya kimi elm sahələrinin mahir bilicisi epitetlərini söyləməyi sanki bizdən tələb edir. Görünür, böyüklüyü də elə bundadır ki, saydığımız və saymadığımız epitetlərin hamısını o, bircə «ŞAİR» anlayışına sığdıra bilmiş və bu kəlməyə o vaxtacan misli görünməmiş məzmun və məna, şərəf və ləyaqət nuru gətirməyi bacarmışdır. Parlaq və alovlu yay günəşi aydın və sakit dənizin aynasında necə bərq vurursa, Azərbaycan xalqının XIII yüzilədək keçdiyi tarixi keşməkeşlərin çoxəsrlik zəngin təcrübəsi, fikir və ehtiras



burulğanları, maddi və mənəvi mədəniyyətinin böyüklüyü, çörək və istiqlal uğrunda qarşısıalınmaz mübarizəsi Nizami Gəncəvinin poeziya aynasında eləcə aydın görünür. Nizami yaradıcılığı o vaxtaqədərki Azərbaycan gerçəkliyinin və mənliyinin bədii ensiklopedisidir. Ulusun və xüsusən də, zəhmətkeş xalqın elə bir müqəddəs niyyəti, fikir və ümid çırpıntısı yoxdur ki, bədii möcüzə kimi yaranmış Nizami poeziyasında əbədiləşməsin, şeirin ecazkar gücü ilə misralarda şəfəqlənən söz materialına çevrilməmiş olsun.

Nizami sözün qüdrətinə inanırdı. Bəşər həyatının ən yüksək xariqəsi olan sözü, elmi və bədii sözü Tanrı vergisi adlandıran Nizami felən sübut edirdi ki, insanları və müxtəlif nəsilləri bir-birinə bağlayan, keçmiş ilə bu gün və sabah arasında qırılmaz körpü yaradan və beləliklə, bəşəriyyətin vahidliyini, ölməzliyini, tarixi tərəqqinin yürüşünü təmin edən az qala yalnız sözün qüdrətidir, bir də sözün işə, əmələ çevrilməsi, insan ruhunun ölməzliyidir!

Səkkiz əsrdən çoxdur ki, bədii sözün qədrini bilən bəşəriyyətin müxtəlif qitələrdən yönələn nəzərləri Nizaminin Azərbaycanda ucalan əzəmətli heykəlinə zillənmişdir. Bunun səbəbi odur ki, öz əsrinin ən böyük övladı, dünya vətəndaşı adlanmağa layiq Nizami bütün əsrlər, zamanlar üçün öz bədii gucunü saxlayan ölməz əsərlər yarada bilmiş, Azərbaycan poeziyasının beşiyi başında dayanmış, ona tamamilə yeni mündəricə, inqilabi ruh və o vaxtacan misli görünməmiş xəlqilik, bəşəri qayələr ilə aşılanmış romantika, həqiqət işığı gətirmişdir. Nə sağlığında, nə də vəfatından keçən illər ərzində Nizami irsinə maraq, məhəbbət heç vaxt soyumayıb, azalmayıb. Azərbaycan milli hadisəsi olsa da, milli hüdudlara sığmır Nizami!

Xoşnaxışdır dahilər. Onlar bu dünyaya vida deyib öz gözlərini yumarkən belə, xalqın gözlərini açırlar. Onlar öləndən sonra belə inkişafdan, yürüşdən qalmır, yaratdıqları mənəvi sərvət sayəsində yeni-yeni ürəkləri, şüurları, ölkələri fəth edirlər. Bu mənəvi fəth heç bir vaxt dayanmır, əksinə öz hüdudlarını genişləndirir. Tarixi tərəqqinin hər hansı kəsimində, xoş və bəlalı günlərində biz onsuz keçinə bilmirik. Səkkiz əsri arxada qoyub doqquz əsrə nüfuz edən dahi bu illərin keşməkeşləri, tufanları arasından yalqız, tənha keçməyib, yaratdığı və dünya vətəndaşına çevirdiyi qəhrəmanları ilə bir sırada addımlamışdır. Adama elə gəlir ki, başı buludlara dirənmiş əfsanəvi Bisütun dağını qəlpə-qəlpə qoparıb Şirinin eşqilə süd arxı çəkən, nəfəsilə qayaları əridən qəhrəman təkcə Fərhad deyil,

həm də Nizamidir. Nuşirəvanın qayğısızlığı və biganəliyi ucbatından ölkədə xarabalıqların artmasından sevinən bayquşların söhbətini yozan, hökmdarı ədalətli olmağa dəvət edən də əslində Nizaminin özüdür ki, şahı düşünməyə və bu sözləri deməyə vadar edir:

Nə vaxtacan tökəcəm, yoxsa ömrüm uzunu
Həm xalqımın qanını, həm üzümün suyunu?!

Yanından hamının ikrahla keçib getdiyi it cəsədinin mirvari kimi dişlərini görən də İsa peyğəmbərdən daha çox Nizaminin gözləridir. Qeyri-insani cəmiyyətdən qaçıb səhralara, heyvanlara pənah aparan Məcnunun məhəbbətə layiq bir aləm axtarışında, ərə verildikdə belə öz bakirəliyini və Məcnuna eşqini qoruyub saxlayan Leylinin əbədi sədaqətində, dirilik suyu axtaran və bunu yalnız yaradıcı insan zəkasının qüdrətində tapan İskəndərin müdrikliyində, əyninə kəfən geyib zalım şahın hüzuruna gələn və acı həqiqəti onun üzünə çırpan zahidin cəsurluğunda, ac aslanlar arasından öz qismətini, tacını götürən Bəhram şahın mərdanəliyində, susuzluqdan yandığı və can verdiyi halda, sevgilisi Şirini oyatmağa qıymayan, yalnız eşq sayəsində kamala yetən Xosrovun həqiqətə böyük çətinliklər bahasına çatmasında Nizaminin qeyri-adi şəxsiyyətini, azad, xoşbəxt insan cəmiyyəti yaratmaq naminə qanad çalan ülvi xəyallarını, bəşəriyyət üçün alovlanan məşəl ürəyini görmək heç də çətin deyil.

* * *

Nizamiyə dünya şöhrəti qazandıran ölməz «Xəmsə»si olmuşsa da, heç şübhəsiz, onun yaradıcılığının əsasını lirika divanı təşkil etmiş, ilk araşdırıcıların 20 min beyt həcmində nişan verdikləri bu divanın təəssüf ki, zəmanəmizə cüzi bir hissəsi gəlib çatmışdır. Dahi şairin azərbaycanlı oxuculara təqdim olunan hələlik son «Lirika» kitabında onun qələmindən çıxdığı şübhə doğurmayan 6 qəsidəsi, 135 qəzəli, 31 rübaisi, habelə, bir neçə qitə və beyti təqdim olunmuşdur . Professor Rüstəm Əliyevin rusca təqdimində bu «Lirika» sərvətləri bir az da məhdudlaşır: vur-tut 5 qəsidə, 60 qəzəl, 2 qitə, 8 rübai. Əlbəttə, Nizami irsinin tam aşkarlanması uğrunda mübarizə davam edir. SSRİ, İran və ümumən dünya nizamişünaslığı bu irsin tam ləyaqəti ilə üzə çıxarılması yolunda əzmlə çalışır. Bu sahədə hələlik ən böyük qələbə Nizami əsərlərinin elmi tənqidi mətninin yaradılmasında, nəşrində və araşdırılmasında ədəbi, elmi qəhrəmanlıq örnəyi göstərmiş şair və alim Vahid Dəstgerdiyə məxsusdur. Dahi şairin lirika nümunələrini səkkiz əlyazması və iki cüng əsasında yaratmış Vəhid Dəstgerdinin axtarışlarını davam etdirən alimlərin gec-tez daha ciddi uğurlar qazanacağına ümid bəsləmək olar. Axı, Nizami divanı müəyyən zamanlarda Türkiyədə, Orta Asiyada, Səfəvilərin saray kitabxanasında olmuş, «Nüzhətül məcalis» müəllifi Cəmaləddin Xəlil Şirvani (XIII əsr), «Asarül-bilad» yazarı Zəkəriyyə Qəzvini (XIII əsr), «Təzkirətüş-şüəra» müəllifi Dövlətşah Səmərqəndi (XV əsr), «Səfinə-yi-Sano» almanaxının dahi yaradıcısı Saib Təbrizi (XVII əsr) bu divanı görmüş, ondan bəhs açmış, yeri gələndə örnəklər vermişlər .

Professor Rüstəm Əliyev belə bir ehtimalında tam haqlıdır ki, Nizami kimi qaynar ilhamlı yaradıcı bircə Divan ilə yetinə bilməzdi. Onun həm gənclik, həm də qocalıq Divanı olmuş, ömrünün sonlarına yaxın özü, yaxud bəlkə də başqa bir qələm sahibi bu lirika örnəklərini vahid və əzəmətli bir Divanda birləşdirmişdir. Bəlkə də həmən Divan dünyanın hansı bir kitabxanasının küncündə, rəfində mürgüləyir, kataloqa düşməsini və öz araşdırıcısını gözləyir .

Bu ehtimallar nə qədər ümidli və xoş olsa da, ehtimal halında qalır, bizim üçün şəksiz gerçəklik isə budur ki, əldə edilmiş lirika örnəkləri həcmcə kiçiksə də, məna və bədii siqlətcə böyükdür, bunları Nizami okeanından qəvvas nizamiçilərin, fədakar filoloqların zəhməti və can yanğısı sayəsində çıxarılmış mirvarilər adlandırmaq olar.

Adətən tərtibçilər Nizami lirikasını qəsidələrilə başlamağı üstün tutur, bundan sonra qəzəlləri, qitələri, rübailəri təqdim edirlər. Bizdən olsaydı, qəzəlləri ön plana keçirərdik. Bunun səbəbi odur ki, qəzəllərin Nizami lirikasının səciyyəsini dərk etməyə daha çox imkan verir. Dahi sənətkarın bəzi qəsidələrində, məsələn, hökmdar Nüsrətəddin Əbu Bəkr ibn Məhəmmədə (1194-cü ildə hakimiyyət başına keçmişdir) həsr olunmuş mənzumədə mədhiyyəçilik, saray ədəbiyyatı təsiri görünürsə də, qəzəl və rübailərində belə bir təmayül yoxdur. Hətta Nizaminin başqa əsərlərində, poemalarında sufilik təlimlərindən irəli gələn «tərki-dünya» motivləri burada əsla görünmür, əksinə aşıb-daşan həyat sevgisi çağlayır, həyatın gözəlliyinə vurğunluqdan doğan vəcd, heyranlıq, böyük məhəbbət dilə gəlir.

Adətən qəzəldə iki qəhrəman olur: sevən və sevilən, lirik qəhrəman nə lirika obyekti. Nizami lirikasında da belədir. Nizaminin məhəbbət konsepsiyası insan haqqında dünyabaxışının bir hissəsi və məğzidir. Dahi şairin fikrincə insan kainatın ən böyük yetirməsi, nəfəsli dürdanəsidir. Belə bir dürdanə qız və qadın olduqda, ikiqat, üçqat ülviləşir. Nizami Gəncəvinin birinci eşq obyekti türk gözəlidir. «Türk» sözünün məna çalarlarından biri də «gözəl» olduğundan burada gözəl anlayışı ikiqat ülviləşir. Nizami poeziyasında bu gözəl yer adamıdır, gerçək bir varlıqdır, heç də sufilərin təbliğ və təqdim etdikləri Allah deyil, ancaq az qala allah mərtəbəsinə qaldırılan, əlçatmaz bir yüksəkliyə ucaldılan gözəllik və məhəbbət qaynağıdır, ürəyin qibləsidir, bütün dini anlayışlardan geri qalmayan, bəlkə üstün duran müqəddəslikdir. Nizami öz türk gözəlindən heç vaxt həyəcansız, aşıb-daşan sevgisiz, heyrətsiz bəhs edə bilmir. Görkəmli nizamişünas Y. E. Bertelsin belə bir fikrinə haqq vermək lazım gəlir ki, «Nizami dərindən və ehtirasla sevmişdir» .

Nizamidə gözəl, müxtəsər desək, türk gözəli kainatın yalnız əşrəfi deyil, yaşayıb yaratmağın stimulu, şah damarıdır, hərəkətverici qüvvəsidir, ən böyük məhəbbət və səadət qaynağıdır. Tanrı bu gözəli damağının çağ vaxtında yaratmışdır, buna görə onu bütün xilqətlərin fövqünə qaldırmışdır:

On namə yazdı Tanrı doqquz fələk altında,
Altı yön, yeddi ulduz, səkkiz behişt açanda,
Üç ruhdan, dörd ünsürdən, beş duyğudan sənintək
Bir kimsə yaratdımı məgər iki cahanda?!

Ey mələk qızı mələk, ey dürdanə, ey bahar!
Heç xəbərin oldumu, bir gün neylədi rüzgar:
Tutdu ağ biləyindən, apardı göy sahilə,
Dənizə tənə vurdu:-Dürrü belə doğarlar .

Doğrudan da, bu cür yaza bilmək üçün çox dərindən və çox böyük ehtirasla sevməyi bacarmaq lazımdır. Məhəbbət aləmində vüsal da var, hicran da, dəli, çılğın sevinc qəhqəhələri də var, acı göz yaşları da, böyük həsrətin doğurduğu sarsıntılar, iztirablar da. Nizaminin fikrincə, bunların hamısı gözəldir və sevəni sınaqdan çıxarmaq vasitəsidir. Yalnız böyük ürək, böyük idrak sahibləri sevgi sınaqlarından, dərd, qəm girdablarından, ayrılıq burulğanlarından alnıaçıq, üzüağ çıxa bilirlər və yalnız güclü, iradəli aşiqlər sevilmək



səadətinə layiqdirlər.

Nizami lirikasında insanın kainat qədər geniş, sonsuz mənəvi həyatı verilmişdir. Burada sevgi dünyanı idrak vasitəsinə çevrilir, bəlli olur ki, sevgisiz həyat mənasızdır, heç bir kəşf, ixtira mümkün deyil, ən böyük qəhrəmanlığın, fədakarlığın da əsasında sevgi durur. Buna görə Nizami üçün gözəl, bəşəriyyətin timsalıdır. Kainatı və insanlığı sevmək bir fərdi sevməkdən başlanır. Fərdi sevə bilməyən milləti, ulusu, bəşəri də sevə bilməz, bu barədə söz söyləməsi boşdur, gərəksizdir. Bu yüksək qayələrə gəlib çatdığı üçündür ki, istedadsızların qələmində yıpranmış, əyləncəyə, mədhiyyə vasitəsinə çevrilmiş qəzəl, qəsidə, qitə və rübai kimi lirik janrlar Nizami ilhamında dirilmiş və əbədiyyətə həyat vəsiqəsi almışdır. Dahi şairimiz özünədək dəbdə olan və çox vaxt yalnız bir ovuc hökmdarlara, tacidarlara, sərvət, mənsəb sahiblərinə xidmət edən saray ədəbiyyatı tilsimini qırmış, poeziyanı bütünlüklə xalqın istifadəsinə vermiş, estetik meyar olaraq əməkçi insanın zövqünü, məsləkini əsas götürmüşdür. Buna görə biz Nizami poeziyasını inqilabi poeziya adlandırırıq. Bu keyfiyyət onun lirikasında daha bariz biçimdə aşkarlanır. Nizami lirikası eyni zamanda gözələ eyib gətirən cəhətləri, alçaq, yaramaz quruluşun doğurduqu eybəcərlikləri, kirli və alçaq ehtirasları insan varlığından qoparıb atmaq, könülləri saflaşdırmaq uğrunda ardıcıl mübarizə aparır. Nizami Gəncəvini tərcümə edən Əliağa Vahid, Nigar Rəfibəyli kimi incə lirika ustaları, habelə, Cəfər Xəndan, Mirvarid Dilbazi, Osman Sarıvəlli kimi istedadlı şairlərimiz, bütün kəsirlərinə baxmayaraq, qeyri-adi bir poeziya məbədi önündə dayandıqlarını hiss etmiş, buna görə Nizami qələmindən çıxmış, yaxud Nizamiyə isnad edilən hər bir şeir nümunəsini oxucuya ləyaqətlə çatdırmağa çalışmışlar.

Nizaminin ruscaya tərcüməsindən danışarkən Y. E. Bertels demişdir: «Bu tərcümələrdən böyük əksəriyyəti heç də pis deyil, ancaq etiraf etmək lazımdır ki, Nizami şeirini tam qüvvəti və dərinliyi ilə vermək bu vaxtacan hələ heç bir tərcüməçiyə nəsib olmamışdır. Onun poeziyası ilə yalnız tərcümə əsasında tanış olan oxucular bilməlidirlər ki, bunlar (bu tərcümələr-X. R.) əzəmətli simfonik orkestr üçün yazılmış simfonik poemanın fortopianoda ifa olunmasına bənzəyir. Bu ifa orijinal haqqında müəyyən təsəvvür yarada bilər, lakin çətin ki, orijinal təkin sarsıtmağa, həyəcanlandırmağa qadir olar» .

Eyni sözləri Azərbaycan dilinə tərcümələr haqqında da de-

mək olar. Səməd Vurğun qələmindən çıxmış «Leyli və Məcnun», Rəsul Rza ilhamı sayəsində işıqlanmış «Xosrov və Şirin» poemalarının tərcüməsi istisna edilərsə, başqa epik nümunələrin tərcümədə zədəli olduğu dərhal bilinir. Lakin ümidsiz olmağa dəyməz. Nəzərdən qaçırmayaq ki, həm şairlik qüdrətinə malik, həm də orijinalın dilini, üslubunu bilməyə qadir sənətkar tərcüməçilər meydana çıxdıqca bu kəsir azalacaq, tədricən aradan qalxacaqdır. Klassik irsin gözəl bilicisi, istedadlı şairimiz Əliağa Vahidin gözəl tərcümələri fikrimizi bir daha təsdiq edir:

Saçların dağnıqmıdır, dünyamı, ya karım mənim?
Zərrədən ağzınmı dardır, ya dili zarım mənim?
Gecəmi, qəlbinmi, ya halımmı, ya xalın qara?
Bal şirinmi, ya ləbin, ya incə qoftarım mənim?
Ayla gün parlaqmıdır, fikrimmi, ya ruyin sənin?
Taleyimmi tez dönən, rəyin, ya rüzgarım mənim?
Səbrim azmı, ya gözəllərdə vəfa, ya səndə şərm?
Hüsnün artıq, ya bu hədsiz qüssəm, azarım mənim?
Gözlərim çox qan tökür, şahın qılıncı, ya fələk?
De, qılınc kəskinmi, qəmzən, ya ki bazarım mənim?

Dahiyanə tərcümədir və əslində təəccüblü deyil. Çünki Nizamini bizdən ayıran 845 il ərzində Azərbaycan misilsiz inkişaf yolu keçmiş, Həsənoğludan tutmuş dahi Şəhriyaradək bənzərsiz söz ustadlarının, elm və incəsənət xadimlərinin, saz və söz bahadırlarının can yanğısı və yaradıcı qüdrəti ilə cilalanmış, az qala hər gün dünya poeziyasının təsiri və nüfuzedici qüvvəsi ilə bir az da zənginləşən milli poeziyanın sonsuz xəzinələri yaranmışdır.

«Sirlər xəzinəsi»ni tərcümə edib başa çıxlıqdan sonra mənə bəlli oldu ki, Nizami üçün başlıca məsələ insan uğrunda mübarizədir. İnsan uğrunda mübarizə onun, demək olar ki, bütün əsərlərindən yağışdan sonrakı səmada görünən göy qurşağı kimi keçib gedir. Nizaminin fikrincə, insan dünyanın əşrəfidir. Başqa varlıqlardan fərqli olaraq təbiət ona zəka bəxş etmişdir. Buna görə o, bəxtiyardır və bütün xilqətlərin həyatına cavabdehdir. Zira insan bu canlı, cansız xilqətlərdən kənarda yaşaya bilməz. İnsan şərəfinə deyilmiş bu misralar nə qədər müasir səslənir:



Sən ey fələklər qədər uca, dəyərli İnsan!
Nazını çəkməkdədir bu yer, bu göy, kəhkəşan.

Heç xəbərin varmı ki, səsin yetişir hara?
Sənin zənn etdiyindən xeyli ucalıqlara!

...Sən dünya çəmənində bir az zəif, kəmnəfəs,
Fəqət ən çevik ceyran sənlə yarışa bilməz.

Bütün canlı xilqətlər qulundur qoşun-qoşun.
Onlar toruna düşmüş quşların, qəfəs quşun.

Onların üstündə sən hüma quşu kimisən.
Yerində əyləş, az ye, incitmə onları sən.

«Sirlər xəzinəsi» yaradıcısının fikrincə, ulduzların fövqünə belə qalxmağa qadir olan insan xar və zəlil hala salınıb. O, qanadlanmalı ikən sürünür. Məğrur, azad və qüdrətli olmalı ikən miskin, müti və aciz görünür. Nə üçün belədir?

Nizami burada iki səbəb görür. 1. Yaramaz ictimai quruluş. 2. İnsanın heyvan dünyasından tam ayrıla bilməməsi, zəkasını dinləmək əvəzinə, öz nəfsinə qul olması.

Yaramaz ictimai quruluşa dair fikirlərini Nizami fələk, çərx, qəza, tale, div, şeytan, iblis məcazları və başqa bədii vasitələr ilə xatırladırsa, insanın özündən asılı olan qüsurları nəfsdə, tamahda, sərvət və şöhrət düşkünlüyündə, öz idrakının imkanlarını gərəyincə qiymətləndirməməkdə görür. Nizami insan uğrunda mübarizə apararkən heç də bütün təqsiri fələyin, yaramaz ictimai quruluşun boynuna yıxmır, birinci növbədə insanın öz qüvvəsini yardıma çağırır. Bu qüvvə-ağıldır. Yalnız ağıl sayəsində insan alçaqlıqdan qurtulub yüksələ bilər.

Əgər yar olmasaydı, ağlın, idrakın sənə,
Səni kim qaldırardı insanlıq pilləsinə?

Ağıl-Məsihadır, bil. Ondan üz döndərmə sən,
Ulaqsanmı, palçığa ulağını sürürsən?

Ya get ağıl yoluyla, çıraq tapıb işıqlan.
Ya da biryolluq əl çək sən ağıl qapısından.

Zəka əhli ilə nadan, humanist ilə qeyri-humanist, həssas ilə kütbeyin, gözü-könlü toxla tamahkar arasında gedən mübarizə və münaqişə əslində Nizaminin bütün əsərlərinin, xüsusilə «Sirlər xəzinəsi»nin dramatizmini təmin edən başlıca konfliktlərdir. Bu barışmaz konfliktlərin bədii həllində Nizami nə qədər müasir və aktual səslənir. «İkiüzlülərdən əlhəzər» fəslində oxuyuruq:

Daim özünə bənzər saxta sikkələr kəsən
Qəlbi kimi boş qəlib yapanları tanı sən.

Gendən bax, üzdən tanı, onların içi zülmət.
Sirr vermə, barmağına dolar səni kəmfürsət.

Qarşında işıq kimi parlaq görünər onlar,
Arxanca kölgə kimi oğrun sürünər onlar.

Üzdə şam kimi dümdüz, içi ud kimi düyün.
Düzlüyün arxasında əyrilikdir gördüyün.

Səndən min həzər vurar nöqsanını görənlər,
Yaxşını tez unudub yamanını görənlər.

Öpüb qucarlar səni, sözdə məhəbbətləri
Dərinlərdə qıvrılar kinləri, nifrətləri.

Nitqləri alovlu, cigərləri buz kimi.
Ürəklər çoxdan ölmüş, özləri toppuz kimi.

Vurma can məhənginə, çiy olduğu bilinər.
Ayaq basma o yerə, əsrik deyilsən əgər.

Xəzinə gizlədiblər dağda, bu sirri açma.
Rüsvay edərlər səni, yanlarında danışma!

Amansız və dərin münaqişə alovu ilə dolu olan bu kimi parçalar və ümumən «Sirlər xəzinəsi» Nizaminin şair xarakteri haqqında son dərəcə güclü material verir. Fitnə-fəsad əhli olan alçaq və şərəfsiz adamların əlindən bunca yaralı, qəzəbli olmasaydı, Nizami öz ilk möhtəşəm poemasını bu dərəcədə təsirli yarada bilməzdi.



«Sirlər xəzinəsi» bir daha sübut edir ki, poeziya ilə antipoeziya arasında gedən mübarizə az qala əzəli və əbədi bir qanunauyğunluqdur. Məddahlıq edən saray şairi, yaxud şeirbaz ilə sənətkar arasındakı mübarizə az qala bütün dövrlər üçün tipikdir:

Qızıl sözü qızıla dəyişənlər alçalır,
Zülmətə işıq salan ləli verir, daş alır.

«Zülmətə işıq salan» ləl-poeziyadır. Məgər poeziyanı da pul, şöhrət, təltif vasitəsinə çevirmək olarmı?

Bu küt, nadan, ağciyər şeirbazlar ki, vardır,-
Yüksək yer tutsalar da, alçaq zavallılardır.

Bəs çıxış yolunu Nizami nədə görür? Yalnız mübarizədə, həm də daha çox daxili mübarizədə! Zəifliklərinə, naqisliklərinə qarşı, ilk növbədə insan özü döyüşməlidir. Saray məddahı olan şeirbaz da bu alçaq peşədən əl çəkmək üçün özündə qeyrət tapa bilsə, özünə uyğun işin qulpundan yapışsa, cəmiyyətə, məsələn, bağban, dəmirçi, kərpickəsən kimi xeyir verə bilər. Nizaminin sərraf gözləri cəmiyyəti saf-çürük edərkən əməkçini müftəxordan, halallıq əhlini haramyeyənlərdən qətiyyətlə ayırır. Onlar əxlaq və dünyagörüşcə daban-dabana zidd olan təbəqələri, zümrələri təmsil edirlər. Nizami bəşəriyyətə nümunə ola biləcək insanları yalnız və yalnız əməkçilər, öz zəhmətinə güvənənlər, halallıq dalınca gedənlər sıra da tapır. «Süleyman peyğəmbər ilə əkinçinin hekayəti», «Kərpickəsən qoca ilə işsiz dəliqanlının hekayəti» bölmələrində yaşamağa dair iki konsepsiya öz bədii ifadəsini tapmışdır.

Dəni külə döndərən bu təşnə çöllərdə sən
Yandırsan da canını nə qazana bilərsən?

Süleyman peyğəmbərin bu sorğusuna əkinçinin verdiyi cavab əslində Nizaminin insanlığa tövsiyəsidir:

Mən bilmirəm heç suyu varmı, yoxmu tarlanın?!
Əkmək mənim işimdir, yetişdirmək Tanrının.

Bax, budur suyum mənim-alnımdan süzülən tər,
Lingim, belim, külüngüm bu dırnaqlar, bu əllər.

Bu taxılı şeytanla şərik əkməmişəm mən,
Yəqin birə yeddi yüz verəcək bu halal dən.

Halallıq ləyaqət meyarıdır. Hər xilqətin hörmət və nüfuzunu müəyyənləşdirən, qarşısına qoyduğu məqsədin böyüklük dərəcəsidir.

Kərgədan fil boynunu parçalayıb, yeyəndə,
Qarışqa çəkə bilməz birçə çəyirtkəni də.

Yüz nəhri nuş etsə də, səs çıxarmaz ümmanlar,
Arx isə bircə seldən coşar, hay-haray salar.

Bu göy qübbə altında tanıyırlar hər kəsi,
Mərdliyinə görədir hər kəsin mərtəbəsi.

Kərpickəsəni işcillikdə ittiham edən, «Bir doyumluq çörəyi səndən kim əsirgəyər?» fəlsəfəsi ilə çıxış edən dəliqanlıya qocanın verdiyi cavab daha kəskin, daha sərrastdır.

Qoca dedi: - Ay bala, dəliqanlılıq etmə,
Öz işinlə şuğullan, mənə ağıl öyrətmə.

Hər sənətin sahibi öz işilə yaşayar,
Qocalar kərpic kəsər, kölələr yük daşıyar.

Əziyyətli olsa da, öyrəndim bu sənəti.
Ki, boynumda qalmasın bir kimsənin minnəti.

Xəzinə yığmıram ki, məsxərəyə qoyulum,
Əlimin zəhmətilə dolanıram, ay oğlum!



Bu sətirlərdən hər biri qızıl suyu ilə yazılmağa layiqdir. Çünki cahanda üzü ağ, başı uca, məğrur yaşamağın yeganə yolunu göstərir.

Ümumiyyətlə, Nizaminin əsərlərində dünyada insancasına yaşayıb yaratmağın məramnaməsi verilmişdir. Öz əməyinə güvənmək, zəhməti ləyaqət bayrağına çevirməyi bacarmaq, sirr saxlamaq qüdrəti, dost seçmək həssaslığı, var-dövlət üstündə dayanarkən lovğalanıb özünü itirməmək, həyatın daimi dəyişmələr gedişində olduğunu nəzərə alıb çətin gündə ruhdan düşməmək, hər kədərin bir sevinc gətirəcəyini anlamaq, hər şeyi dərhal bəyənməmək, səbirli, təmkinli olmaq haqqında öyüdlər dünyanı mütəfəkkirəsinə qavramış dahi şairin dərin həyat təcrübəsinin yekunları kimi ortaya çıxmışdır. Bu hikmətləri diqqətlə öyrənənlər üçün yaşamağın bir çox bilməcələri aydınlaşır.

...Bəllidir ki, eyni poetik əsər müxtəlif tərcüməçilər tərəfindən dürlü vəznlərdə tərcümə edilə bilər. Bu, heç də o demək deyil ki, həmin vəznlərin hamısı məqbuldur. Bizcə, həmin vəznlərdən biri obyektiv və zəruridir, qalanları qeyri-obyektiv, qeyri-zəruri. Bəs zəruri vəzn hansıdır? Yalnız orijinalın məzmunu ilə biçim vəhdətini maksimum dərəcədə yenidən canlandırmağa qadir vəzni zəruri, gərəkli saymaq lazım gəlir. Orijinalın vəzninə sədaqət tələbi ehkama çevrildikdə, başqa sözlə desək, orijinaldakı məzmun ilə biçim vəhdətini yenidən tam dolğunluğu ilə canlandırmağa mane olduqda isə, ondan imtina etmək vacibdir. Zira orijinal üçün təbii və zəruri olan vəzn tərcümə üçün qeyri-zəruri ola da bilər. Axı hər dilin öz xüsusiyyətləri, hər dildə meydana çıxan poetik mədəniyyətin özünəxas doğuluş tərzi var. Azərbaycan poeziyasının iki parlaq nümayəndəsi-Səməd Vurğun və Rəsul Rza Nizamini tərcümə edərkən ilk baxışda orijinalın vəzninə sadiq qalmayıblar. Nə Səməd Vurğun, nə Rəsul Rza qələmindən çıxmış «Leyli və Məcnun», «Xosrov və Şirin» tərcüməsi vəzn baxımından orijinala uyğun deyil. Ancaq bu möhtəşəm poemaların tərcümə vəzni böyük şair həssaslığı ilə kəşf olunmuşdur. Zira bu ciddi tərcümə əsərlərinin onbirlikdən ibarət vəzn metrikası həm müasir azərbaycanlının bədii təfəkkür tərzini, həm Nizami Gəncəvinin bu əsərlərdə ortaya çıxmış poetik dühasını, habelə orijinalın bədii mahiyyətini yenidən aşkarlamağa maksimum dərəcədə imkan verən ölçüdür. Çeşid-çeşid vəznlər içərisində ən vacibini, ən dürüstünü, ən uyarlısını seçib kəşf edə bilmək şair-tərcüməçi sənətkarlığının mühüm əlamətlə-

rindən biridir. Ən dürüst vəzn isə orijinalın mahiyyətini, ilk növbədə məzmun zənginliyini, fikir və hisslər qaynağını, emosional qüdrətini, ilham gücünü aşkara çıxarmağa və bundan əlavə tərcümə edilən dilin bugünkü bədii kəsərini göstərməyə xidmət edən vəzndir.

Nizami Gəncəvinin hər hansı əsəri, xüsusilə «Sirlər xəzinəsi» fikir və duyğuların zənginliyi, mürəkkəbliyi, rəngarəngliyi baxımından heyrət doğura biləcək dərəcədə siqlətlidir. Tərcüməçi elə vəzn seçməlidir ki, bu zənginliyi, mürəkkəbliyi, rəngarəngliyi qoruyub saxlamağa imkan versin. Vəzn fikri dar bir qəlibə sıxışdırmasın, hisslər boğulmasın, korşalmasın, anlaşıqlı olmaqdan başqa cümlə azad nəfəs alsın və estetik təsir oyatmağa qadir olsun. İyirminci məqalədə «Zəmanə adamlarının həyasızlığı» fəslində Nizami yazır:

Bədii tərcüməsi:

Bunlar ləli çamura atandan daha murdar,
Ürəyi parçalayan dərddilər, zəqqumdular.

Tüstü olub boğarlar bircə zəka görsələr,
Yel olub söndürərlər, bir çıraq yansa əgər.

Halına bax dünyanın, gör kimlərdi rəhbəri?
Kimlər məngirləməkdə ən gözəl mövqeləri!

Evdə öz namusunu qoruya bilməyənlər
Öz əhdi tək məni də bəlkə sındırmaq istər?

Bu parçanın vəzni Azərbaycan şeirində geniş yayılmış hecanın ondördlük bölgüsündədir. Orijinalın vəzninə sadiq qalmağa, Nizaminin seçdiyi əruzun səri bəhrində yazmağa çalışdıqda isə orijinala məxsus bir sıra keyfiyyətlərin, ilk növbədə emosional qüdrətin aradan qalxdığını müşahidə edə bilərik. Yuxarıdakı parçanı səri bəhrində səsləndirməyə çalışaq:

Alçağa bax, ləli basır palçığa,
Dərd gətirir, qəm gətirir varlığa.



Görsə hünər, tüstü olub məhv edər,
Yansa çıraq, xəzri olub söndürər.

Aləmə bax, kimdi görün rəhbəri?
Kimdi tutan ən uca mövqeləri?

Namusuna göz yuman əbləh, besrər
Əhdi kimi qəlbimi qırmaq dilər!

Vəzn saxlandı. Lakin itki nə qədər böyükdür, çoxdur. Orijinalda söhbət tək-tək alçaqlardan deyil, onlardan: xəbislərdən, istedadı boğanlardan, sərvət, şöhrət düşgünlərindən gedir. Yalnız əruzu qorumaq qayğısını çəkən tərcüməçi bu müzürr ünsürlərin hamısını öz nifrət projektoru ilə işıqlandıra bilmir, eybəcərliyi Nizami kimi ifşa etməkdə çətinlik çəkir. Bayaqkı heca vəznli parçada isə məhz belə bir qəzəb coşqunluğu, hiddət təlatümü aydın görünür. Şərəfsiz insanlar haqqında deyilən «murdar», «zəqqum», «ürək parçalayan dərd», «ən gözəl mövqeləri məngirləyənlər», «çıraq söndürənlər», «evdə öz namusunu qoruya bilməyənlər», öz əhdini, ilqarını sındırdığı kimi başqalarının da ürəyini «sındırmaq istəyənlər» və başqa bu kimi məcazlar, bədii təyinlər hər şeydən əvvəl nifrətin tündlüyündən xəbər verir, antihumanizmə qarşı Nizami qəzəbini aşkara çıxara bilir. Halbuki orijinalın vəzninə sədaqət göstərən səri bəhrli parçada bu kəsər yoxdur. Hər iki parça eyni tərcüməçinin qələmindən çıxıb. Bu sətirlərin müəllifi etiraf edir ki, ikinci parçaya daha çox vaxt və daha çox əmək enerjisi sərf edib. Nəticə göz önündədir və birinci parçanın ikincidən şəksiz üstünlüklərinin həm ədəbi, elmi, həm də psiloloji səbəbləri çox maraqlıdır. Görünür, müasir azərbaycanlının təfəkkür tərzini, psixolojisini, fikir və duyğu daşqınlarını aşkara çıxarmaqda heca vəzni əruza nisbətən daha geniş imkanlara malikdir. Bir daha xatırladaq ki, heca vəzni azərbaycanlıların hələ körpəlikdən beşiyi başında səslənən layla və bayatıların vəznidir. Biz burada vəznlər müqayisəsinə girişmək və hansının nə kimi üstünlüklərə, xüsusiyyətlərə malik olduğunu açmaq fikrində deyilik. Ancaq bunu yadda saxlamaq vacibdir ki, nəzəriyyə düzgün qurulmadıqda ədəbi təcrübəyə ziyan dəyir. «Sirlər xəzinəsi»ni öz vəznində tərcümə etməyə çalışan tərcüməçi şairlərdən heç birinin ciddi-cəhdi hələlik böyük poetik səmərə verməmişdir. Vaxtilə «Nizaminin lirikası» adlı yaxşı bir kitab nəşr etdirmiş,

incə bədii zövqə malik, şair təbiətli ədəbiyyatşünas Xəlil Yusifovun tərcüməsi üzərində on il çalışdığı «Sirlər xəzinəsi»ndən «Kirovabad kommunisti» qəzetində dərc etdiyi parçalar da fikrimizi təsdiq edir. Orijinalın vəzninə sadiq qalmağa çalışan tərcüməçi bunun xatirinə nə qədər ərəb, fars tərkibləri, arxaikləşmiş, yaşamaq haqqını itirmiş ifadələr, bugünkü şeir dilinə yabançı ibarələr işlətmək məcburiyyətində qalmış, xeyli imalə və zihaflara yol vermişdir!

Hər nə doğardı gecədən sübhgah (?)
Tezcə çatardı şaha hər dəm (?!) sabah.

Və ya

Xalça sərib, üstünə qum tökdülər,
Divlər işindən qorxub hürkdülər.

Yaxud:

Sordu:-Deyirlər ötərək həddi sən,
Kinli demişsən mənə, qanlar tökən.

Göründüyü kimi, bu beytlərdən heç biri az-çox ciddi tənqidə davam gətirmir. Birinci beyt az qala anlaşılmazdır. Orijinalda deyilir ki, «Gündüzdən gecəyədək hər hansı hadisənin xəbəri ertə onun (şahın-X. R.) sarayında toplanardı». Tərcüməçi yalnız vəzn tələblərini yerinə yetirmək xatirinə çalışdığı üçün ifadənin, cümlənin təbii deyim tərzindən əl çəkir, «gecədən doğan sübhgah» kimi anlaşılmaz, uydurma ifadələr işlədir və bunun şaha hər dəm çatdığını bildirir. Hələ biz onu demirik ki, ilk misradakı «sübhgah» ilə sonrakı misradakı «sabah» sözləri təxminən eyni mənanı bildirən anlayışlardır, buna görə yersizdir. Birinci misrada «hər nə» deyən tərcüməçinin ikinci misrada «hər dəm» deməyə haqqı yoxdur. Sonrakı beytin ikinci misrasını əruz üstündə demək üçün «qorxub» sözünü «qoruxub» şəklində söyləmək lazım gəlir. Üçüncü beytdə «kinli» və «qanlar tökən» ifadələri bir-birindən uzaq düşmüş və qrammatikanın ən adi tələbləri pozulmuşdur.

Mülkə Süleyman mənəm, agah sənə,
Bəs necə zalım demisən, div mənə?



Burada da «div», «zalım» epitetindən uzaq düşdüyü üçün öz qrammatik funksiyasını yerinə yetirə bilməmişdir.

Əmr elədi getsin o kafur, kəfən,
Qaliyə, xələt gətirin xəzinədən .

Bu misralar da az qala anlaşılmazdır. Əslində Nizami beytinin anlamı belədir: «Çıxarın bunun kəfənini, ölüm paltarını alın,-dedi-Xələtlər geydirin, gözəl qokular səpin bu kişinin üstünə». Lakin başlıca bəla heç də bunda-yabançı, arxaik ifadələrin çox işlənməsində, imalə və zihafların bolluğunda deyil, ilk növbədə Nizamiyə məxsus fikir qüdrətinin, xəyal uçuşunun, aşıb-daşan ilham gücünün yenidən bərpa olunmamasındadır. Bu qüsur, əlbəttə, mütərcimin müstəqil yaradıcı qüdrətə, Nizami ilə az-çox yarışa biləcək şairliyə malik olmaması ilə bağlıdır. Vəznin düzgün seçilməməsi də əslində məhz bu səbəblə ilgilidir. «Gərək söz meydanı gen olsun müdam, Atını dördnala səyirtsin ilham». Səməd Vurğunun tərcüməsində Nizaminin bu kəlamı bədii forma, o sırada vəzn üçün də öz əhəmiyyətini saxlayır. Vəznin düzgün seçilməsi şairin, o sırada mütərcim şairin emosional qüvvələrinin aşıb daşması, bədii məqsəd üçün səfərbər edilməsi, ilhamın azad çağlayışı üçün başlıca təminatlardan biridir. Bu cəhətdən «Sirlər xəzinəsi»nin ilk mütərcimi, Azərbaycanın xalq şairi Süleyman Rüstəmi təqdir etmək lazım gəlir. Şair sezgirliyi hecanın ondördlük bölgüsünü seçməkdə ona düzgün yol göstərmişdir. Həmin poemanın tərcüməsi üçün bu vəzni o qədər də əlverişli hesab etməyənlərin başlıca arqumenti bundan ibarətdir ki, bu halda söz israfına yol verilir. Səri bəhri fonetik çəkisi, söz tutumu etibarilə təxminən on bir hecalı misraya uyğun olduğu halda, ondördlük, vəzn qəlibini doldurmaq xatirinə gərəksiz sözləri də çəkib gətirmirmi? Biz bu suala «Yox» cavabı veririk. Çünki artıq qalan və yalnız ilk baxışda artıq görünən üç heca vahidi əslində qüdrətli mütərcimin əlində Nizaminin daha dərindən açılmasına xidmət edən yardımçı vasitəyə çevrilir. Nizami ilə bizim aramızda azı 800 il dayanır. Bu böyük zaman məsafəsinin unutdurmaq, yadlaşdırmaq səyini dəf etmək, habelə onsuz da mürəkkəbliyini, dərinliyini saxlayan Nizami fikirlərini, xüsusilə, onun sufilik və islam etiqadı, dürlü elm sahələrilə bağlı qənaətlərini gərəyincə qavramaq, mənimsəmək üçün elmi şərhlərə həmişə böyük ehtiyac hiss edirik. Lakin dörd min misradan artıq olan möhtəşəm bir poe-

manın az qala hər beytinə şərh yazmaq, açıqlama vermək heç də mümkün deyil. Ondördlük vəzn bu ehtiyacı mümkün qədər ödəməyə, bəzi hallarda Nizamini açıqlaması ilə birlikdə tərcümə etməyə imkan verir, başqa sözlə desək, mütərcim-şair, müəllifin demədiklərini, lakin demək istədiklərini də bildirməyi öz öhdəsinə götürür, vəznin imkanları sayəsində bu məqsədə nail olur. Misal üçün, bu beytə diqqət yetirək:

Sətri tərcüməsi:

Bu iki, üç minik heyvanı (yəhərli at)
Yalnız bizim xidmətimizdə bulunmaq üçün hazırlanıb.

(Onların minicisi, süvarisi biz olmalıyıq)

Nizami burada «yəhərli at» dedikdə daim hərəkətdə, yürüşdə olan səyyar ulduzları nəzərdə tutur. Kainatda hər şey insan üçündür, o cümlədən yəhərli ata bənzər səyyar ulduzlar! Qadir İnsan bu ulduzları at kimi minib çapa bilər: Mütərcim Nizaminin bu fikrini qavradıqda sərbəstləşir, hətta, Nizaminin işlətmədiyi, ancaq nəzərdə tutduğu «səyyar ulduzlar» ifadəsini tətbiq etmək üçün də özündə cəsarət tapa bilir və bu halda yozumçu (kommentator) yozumuna bəlkə də ehtiyac qalmır.

O iki-üç köhlənin bizik süvariləri,
Ulduzlar yəhərlənib yalnız bizdən ötəri.

Orijinalda oxuyuruq:
Tərcüməsi:

Söz tapa bilməsəydi candakı şah damarı,
Can kələfin ucunu-aləmi tapardımı?

Burada Söhbət Quranın məlum bir ayəsində tanrının «Kun-Ol» əmri ilə aləmi yaratmasından və bunun sayəsində insanın dünyaya gəlməsindən, «kələfin ucunu», yəni bu maddi aləmi tapa bilməsindən gedir. Beytdə hər kəlmənin öz bədii funksiyası var:

Söz - Tanrının dilindən çıxan «Kun-Ol!» buyruğu.
Can - İnsan.



Candakı şah damar - insanın mahiyyəti, cövhəri.
Kələfin ucu - maddi aləm .

Göründüyü kimi, burada mənalar silsiləsi var. Səri bəhrli beytdə bu mənaların hamısını oxucunun qavraya və qapsaya (ehtiva edə) biləcəyi olduqca çətindir, bəlkə də qeyri-mümkündür. Əlbəttə, bir neçə beytin, bir neçə parçanın vəzncə orjinala uyğun tərcüməsini yaratmaq olar. Lakin iki min beytdən artıq əzəmətli bir dastanı bütün mürəkkəbliyi, psixoloji zənginliyi ilə Azərbaycan dilində səsləndirmək üçün bizcə, ən zəruri vəzn hecanın məhz ondördlük bölgüsüdür, qalanları qeyri-zəruri, subyektiv və gərəksizdir. Zira həm Nizami dühası, həm də «Sirlər xəzinəsi»nin poetik mahiyyətini aşkarlamağa qadir olan tərcüməçiyə yalnız bu vəzn yardım edə bilər. Belə bir incə cəhəti də gözdən qaçırmaq olmaz ki, Nizami Gəncəvi farsca yazan başqa şairlərdən xeyli fərqlənir. Bunu, hətta, İranın ən qatı şovinist, mühafizəkar, məhdud fars təəssübkeşliyinə malik bəzi alimləri də etiraf edirlər. Son zamanlarda Tehranda «Xəmsə»ni yenidən hazırlayıb nəşr etdirmiş və buna görə böyük hörmətə layiq olan alim və şair Hüseyn Pejman Bəxtiyari Nizaminin milliyyətcə türk olduğunu bildirərək yazır: «...Arazın o tayında yaşayan xalqın (hazırkı Sovet Azərbaycanında yaşayan azərbaycanlıların - X. R.) ləhcələrindən biri olan «Azəri» ləhcəsi kobud türk dilinin siyasi və hərbi təzyiqi nəticəsində özünün son cünlərini keçirirdi. Nizami də, başqaları kimi şirin fars dilini molladan öyrənməli idi... Sənan, danışdığı dildə, Nizami isə öyrəndiyi dildə şeir yazırdı .

Bəxtiyarinin son cümləsi doğrudur. Azərbaycan təfəkkürlü Nizaminin özünün yaratdığı fars şeirinə ciddi təsir, hətta, bəzən təzyiq göstərdiyini «Xəmsə»nin həm ümumi ruhunda, həm də ayrı-ayrı beytlərində sezmək o qədər də çətin deyil.

«Xəmsə»də az qala hər səhifədə təsadüf edilən, azərbaycanca düşünülüb farsca yazılmış ifadələr, atalar sözü və zərb məsəllər bunu bir daha sübut edir. Məsələ yalnız onda deyil ki, «Xəmsə»də və xüsusilə tərcümə zamanı içəri dünyasını apaydın gördüyümüz «Sirlər xəzinəsi»ndə tutuq (pərdə), sancaq (bayraq), dəbə (dəvə), kəslək (bıçaq), bürkə (örtük), çırağ, bağ, çinar, çul, torba, fındıq, sirkə, mil, dünya, tünük, saqi, şam, xəncər, külçə, ciyər, yetim kimi sözlərə bol-bol rast gəlirik. Bu kimi ifadələrdən isə bir çoxunun farscaya azərbaycancadan keçdiyi şəksizdir. Məsələnin mahiyyəti

yalnız ayrı-ayrı sözlərdə deyil, Nizaminin Azərbaycan düşüncə tərzinə, Azərbaycan bədii təfəkkürünə malik olmasındadır. Əsərlərindəki dərin milli kolorit, Odlar diyarı ilə bağlı coğrafi, tarixi, siyasi gerçəklik, yalnız Azərbaycan xalqına xas olan etnik və psixoloji xüsusiyyətlər də bunu bir daha təsdiqləyir. Bütün bunları nəzərdən qaçırmayan tərcüməçi sənətkarın Nizamini azərbaycanca heca vəznində səsləndirməsi orijinalın vəzninə yalnız üzəvari, zahiri «xəyanət», Nizaminin təfəkkür tərzinə isə tam sədaqət deməkdir. Heca vəzninin türk poetik təfəkkürünün aşkarlanmasına ən çox imkan verən, Azərbaycancanın bədii imkanlarını maksimum dərəcədə üzə çıxarmağa yardım edən ölçü olduğunu bir daha xatırlasaq, məsələ daha da aydınlaşar.

Mübaliğəli biçimdə desək, heca vəznində düşünən Nizami özünü əruz üstündə tərcümə etmişdir. Bugünkü tərcüməçi isə onu özünə qaytarır. Nizamini sözün geniş mənasında Nizamiləşdirir, yazdığını hələlik bir yana qoyub necə düşündüyünü ona göstərir. Belə bir zor işi görmək üçün tərcüməçi sənətkarın Nizamiyə tay, bərabər olmasa da, hər halda şəxsiyyət və istedadca onun səviyyəsinə yaxın bir mövqe tutması vacibdir. Bizcə, Nizaminin tərcüməçiləri içərisində Səməd Vurğun və Rəsul Rzada belə bir ləyaqət və istedad qüvvəsi vardır.

«Sirlər xəzinəsi»nin tərcüməsi üçün ondördlük heca vəzninin seçilməsi bir sıra hallarda qafiyələrin eynilə saxlanmasını da təmin edir, səri bəhri isə bu imkanı tamamilə aradan qaldırır. Bir neçə misal gətirək.

Orijinalda:

(səh. 35)
Tərcümədə

Yeddi fələk, yeddi göy-kəmərinin toqqası,
Səkkiz cənnət də sənin bayrağının şaqqası.

Göründüyü kimi, burada «toqqa-şaqqa» qafiyələri eynilə saxlanıb.



Orijinalda:

(səh. 39)
Tərcümədə:

Məhəbbət lüğətində söz bizim canımızdır,
Biz-sözük, yaranmışlar, yalnız eyvanımızdır.
Orijinalda:
(səh. 38)

Tərcümədə:
Mənim təzə sözlərim bar gətirdi bağ kimi,
Özgəsinin oduyla yanmadı çıraq kimi.

Orijinalda:

(səh 38)
Tərcümədə:

Bax dadına, duzuna, dadlıdırsa, nuş olsun,
Dadsızsa, yaddan çıxar, unut, fəramuş olsun!

Başqa bir misal:

(səh. 94)
Azərbaycancası:

Ədalət müjdəsilə cahanı şad eylə sən,
Bir iş gör ki, iş olsun, yurdu abad eylə sən.

Qafiyələrin orijinalda olduğu kimi bunca bol-bol saxlanılması səbəbini nə ilə izah etməliyik? Yalnız tərcüməçi məharəti iləmi? Yox, həm də vəznin düzgün seçilməsindən irəli gələn imkanlar ilə. Qafiyəni Nizamidə olduğu kimi saxlamaq imkanını tərcüməçi gərək heç vaxt əldən verməsin. Ondördlük hecanın verdiyi bu girəvəni səri bəhri ona vermir. Yalnız qafiyələri deyil, Nizamiyə xas olan gözəl ifadələr kompleksini tərcümədə mümkün qədər qoruyub saxlamaq imkanı da vəznin düzgün seçilməsi, şairə ilham və nəfəs genişliyi verən münasib bədii biçimin kəşf olunması ilə bağlıdır.

(səh. 99)
Tərcüməsi:

Sən çərxin gedişinə qiyas gözüylə baxsan,
Yaxşı, yaman gündə də haqşünas olacaqsan.

Nizaminin qafiyə kimi işlətdiyi «qiyas-haqşünas» sözlərini mütərcim daxili qafiyə halına salır. «Haqşunas» ifadəsi Azərbaycan şeirində bəlkə ilk dəfə işlənir. Bu ifadə Nizami beytinə işıq saldığı və onu içəridən nurlandırdığı üçün gözəldir. Orijinaldakı qafiyələri tərcümədə eynilə saxlamaq mümkün olmadıqda necə?

Bəlkə onları qafiyə kimi yox, ifadə kimi işlətmək mümkündür?

Mütərcim belə bir fürsəti də əldən qaçırmamalıdır.

Orijinalda;

(səh. 170)

Buradakı «zərif», «hərif» qafiyələri azərbaycanlılar üçün də anlaşıqlıdır. Onları qafiyə kimi işlətmək mümkün deyilsə də, ifadə kimi işlətmək olar:

Gərçi hələ dünyada zərif söhbət əhli var,
Kim səninlə qonuşar? Kim sənə hərif olar?

Orijinaldakı qafiyələri, rədifləri, bənzətmə və bədii təyinləri tərcümədə saxlamaq hünərdimi? Bizcə, heç də böyük hünər deyil. Çünki ola bilər ki, tərcümədə qafiyə, müəyyən bir məcaz, hətta vəzn eynilə qorunub saxlanılsın, ancaq əsərin mahiyyətini təşkil edən POEZİYA QÜDRƏTİ öldürülmüş olsun!

Bədii tərcümə mütləq itki və qazanc ilə bağlıdır. Lakin yaradıcı qüdrətə malik olan tərcuməçi vəzn itkisinin, yaxud gözəl ideoma, məcaz itkisinin əvəzini məhz həmin beytdə olmasa da, başqa beytdə, yaxud ümumən əsərin bütöv doğuluşu gedişində çıxa bilər və çıxmalıdır. Bu qazancdır. Qazanc tərcümə edilən dilin bədii imkanlarını səfərbərliyə alan tərcüməçi sənətkarın yaradıcı qüdrəti sayəsində başa gəlir.

Nizami yazır:
(s. 114)



Bədii çevirisi:

Qulağını geniş aç, bu möhtac, bu yalavac
Bu ac zavallıların komasına işıq saç!

Göründüyü kimi, orijinalda qafiyədaşlığı təmin edən iki söz «pas-enfas» əvəzinə, beş söz vermək, deməli üstəlik daxili qafiyələr də yaratmaq olar: ac, möhtac, yalavac, ac, saç.

Başqa bir örnək:

(s. 115)
Bədii çevirisi:

Ömrün gözəl günləri ötüşdü, gecə düşdü,
Torpaq yellə öpüşdü, atəş suyla görüşdü.

Göründuyü kimi, girəvə düşübsə orijinaldakı iki qafiyədaş söz əvəzinə dörd qafiyədaş söz işlətmək olar. Məgər dörd ünsürün (torpağın, küləyin, odun və suyun) vəhdətini alqışlayan Nizami beytini dörd sözlə və həm də daxili qafiyələrlə içəridən, daxildən işıqlandırmaq maraqlı deyilmi? Bu qazancdır, həm də kiçik qazanc. Böyük qazanc bütövlükdə orijinaldakı bədii gerçəkliyin kəşf olunması və yenidən canlandırılması ilə müəyyənləşir.

Bəs heç bir qazancı olmadığı halda bol-bol itkilərə, təhriflər şəbəkəsinə meydan verən tərcüməçinin uğursuzluğu nədən irəli gəlir? Bu sualın cavabı çox böyükdür, təhriflərin elmi klassifikasiyasını vermək lazım gəlir. Vəzifəmizə daxil olmadığı üçün bu məsələnin tam işıqlandırılmasından vaz keçirik, yalnız bəzi cəhətləri ötəri qeyd etməklə, nizamişünaslığın ən mühüm problemlərindən birinə ani nəzər salmaqla kifayətlənirik.

Bəllidir ki, bədii tərcümədə ən böyük təhrif orijinalı düzgün oxuya bilməməklə bağlıdır. Məsələn, «Sirlər xəzinəsi»nin ilk tərcüməsində oxuyuruq:

«Qılıncının çeşməsi Fərat suyuna bənzər.
Diriliyin suyunu tuluqdan yerə tökər».

Burada söhbət Nizaminin «Sirlər xəzinəsi»ni ithaf etdiyi şəxsiyyətdən-Ərzincan hakimi Məlik Fəxrəddin Bəhram şah Davud oğlundan gedir. Bəlli olmur ki, onun «qılıncının çeşməsi» nə deməkdir və nə üçün o, «dirilik suyunu tuluqdan yerə tökməli» imiş? Beytin orijinalı belədir:

(s. 33)
Sətri tərcüməsi:

Qılıncına qaynaq verən su sanki Fərat suyudur,
O, dirilik suyunun sürahisuni boşaldar.

Mübaliğənin və məcazın estetik təsiri heyrət doğurur. Qılınc çalan sərkərdə xalqın azadlığı və səadəti uğrunda görün nə qədər təşnə olmalıdır ki, onun qılıncı sulanmaq üçün bir ovuc su deyil, bütöv Fərat çayını tələb etsin. Burda qılıncın həm də su kimi parlaqlığı, şəffaflığı, düşmənin nəfəsini kəsmək, onu dirilik suyundan məhrum etmək qüdrəti vəsf olunur. Beytin mənasını başa düşdükdə onun poetik tərcüməsini almaq o qədər də çətin deyil:

Qılıncına düşən su Fərat çayına oxşar,
O dirilik suyunun sürahisin boşaldar.

Başqa bir misal:
«Qəlbi tək səmti altı vaxtı yeddi, ol agah.
Doqquz dairənin bir nöqtəsidir Bəhram şah».

Yenə heç nə anlaşılmır. Bir insanın altı qəlbi olarmı? Vaxtın yeddi olması nə deməkdir. Doqquz dairənin nöqtəsi nədir? Bu sorğulara dürüst cavab almaq üçün yenə orijinala üz tutmalıyıq:

(s 31)
Sətri çevirisi.

Bircə qəlbilə altı cəhətə, yeddi yerə (yeddi təxtin
ayağı qoyulan yeddi yerə) hökmdar olan Bəhram şah
doqquz dairənin mərkəz nöqtəsidir.

Burda hər rəqəmin mənası var: Altı cəhət-sağ, sol, ön, arxa, yuxarı, aşağı. Yeddi yer-qədim coğrafiyaçıların zənnincə yeddi iq-



lim zonasından ibarət dünya. Doqquz dairə-göyün doqquz təbəqəsi.

Yalnız belə bir açıqlamadan və orijinalı başa düşdükdən sonra poetik tərcümə almaq olar:

Altı qütbə addımlar, yeddi yerdə təxti var
Doqquz göyə hökmdar, Bəhram-ulu tacidar!

Adaş olan iki hökmdarı: Qəznəli Bəhram şah ilə Ərzincan təxtində əyləşmiş Məlik Fəxrəddin Bəhram Davud oğlunu nəzərdə tutan Nizaminin fikri tərcümədə belə təqdim olunur:

«O, dişarı uzatdı xəznədən bayrağını.
Busa Rum sikkəsinə vurdu öz növrağını» (35)

Beyt yenə tapmaca halındadır. «Xəznədən bayrağı dışarı uzatmaq» nə deməkdir? «Sikkəyə öz növrağını vurdu» ifadəsinin mənası nədir? Yenə orijinala üz tutmağa məcburuq:

(s. 37)
Sətri çevirisi:

O, (Qəznəli Bəhram şah) Qəznədə bayrağını dikəltdi,
Bu (Ərzincanlı Bəhram şah) Rum sikkəsinə adını yazdı.

Burdan anlaşılır ki, tərcümədə söhbət «xəzinədən (xəznədən)» deyil, Qəznədən, Qəznə şəhərindən getməli idi. Bunun mətbəə qüsuru deyil, mütərcim qüsuru olduğunu yəqin etmək üçün bir anlıq güman edək ki, «xəznə» əvəzinə «Qəznə» yazılıb. Bu halda məna təhrifi daha da tündləşir, «O dışarı uzatdı Qəznədən bayrağını» misrası həm anlaşılmaz qalır, həm də bədii dil baxımından eybəcər görünür. Nizaminin məqsədi Qəznəli Bəhramı deyil, öz vəsf obyekti olan Ərzincanlı Bəhramı şərəfləndirməkdir. Bunlardan birincisi bayrağını yalnız bircə şəhərə-Qəznəyə sanca bilibsə, ikincisi böyük bir ölkədə tanınmış, Rum elində adını sikkəyə yazdırmaqla hakimiyyət, dövlət başçısı olduğunu təsdiq edə bilmişdir. Həssas tərcüməçi bu fərqi mütləq hiss etməli və hiss etdirməlidir:

Onun bayrağı tutdu təkcə Qəznə mülkünü,
Busa Rum sikkəsinə həkk elədi möhrünü.

Başqa bir misal:

«Əsirgəmə gəl paxıl adamlara, müxtəsər,
Səy et, oxdan ləl ver, qılıncından da gövhər» (34).

Burdan belə çıxır ki, şair, Bəhram şahı xəbislərə qarşı mərhəmətli olmağa, onlara ləl, gövhər verməyə çağırır. Əslində burda söhbət bədxahların mükafatlandırılmasından deyil, əksinə, onların ədalətli hökmdarı gözü götürməyənlərin, dargözlərin oxlanmasından, qılıncdan keçirilməsi gərəkliyindən gedir. Burda daş-qaş, yaqut və mərcan olsa-olsa şahın alçaqlara qarşı tuşlanmış oxunu, qılıncını süsləyən məcazlardır:

(s. 35)
Sətri çevirisi:

Fəqət dargözlərə qarşı oxlarından yaqut,
Qılıncından mərcan damcıları əskilməsin!

Beytin poetik tərcüməsi belə ola bilər:

«Fəqət pisə, dargözə vermə zərrəcə aman,
Oxlarından yaqut saç, qılıncından da mərcan!»

Yalnız bir neçə beytini misal gətirdiyimiz köhnə tərcümə əslində orijinal müəllifini alt-üst edən, onun parlaq üslubunu və yüksək poeziyasını öldürən təhriflər şəbəkəsilə səciyyələnir. «İti gedənlər suyu (?!) yalnız onda tapdılar. Bütün süst yeriyənlər ondan isti qapdılar (?!)... Yoxdur zərrəcə rəngi baxsan öz nişanına... Alaraq bizim sözü, öz qızılını mədən söz sərrafı önünə qoydu yerlərə həmən» (37). Orijinalla tutuşdurmasaq belə bunun antipoeziya olduğu göz önündədir. Bu ötəri tənqidi qeydləri eləməkdə məqsədimiz budur ki, gələcəkdə Nizamidən tərcümələrin daha yüksək bədii ləyaqətinə nail olmaq üçün bu vaxtacan nəyin yaxşı, nəyin yaman olduğunu dürüst bilək.



* * *

«Sirlər xəzinəsi»nin yaranması Nizami yaradıcılığında və Azərbaycanın poeziya mədəniyyəti tarixində çox böyük hadisə olduğu üçün tədqiqatçılar bu əsərin yazılma tarixinin dürüst müəyyən olunmasına xüsusi əhəmiyyət verirlər. Professor Cəfər Cəfərov bu poemanı Nizaminin 37 yaşında-1178-1179-cu illərdə , Mübariz Əlizadə daha erkən 1170-ci ilin başlanğıcında , akademik. Y. E. Bertels isə 1173-1179-cu illər arasında yazdığını iddia edir.

Bizim üçün.şəksiz və apaşkar olan burasıdır ki «Sirlər xəzinəsi» Nizaminin gənclik yadigarıdır. Lakin bu sütül gənclik deyil, həyatın sərt üzünü görmüş böyük mənəvi təcrübə, bilik xəzinələri qazanmış, ən başlıcası həyat mövqeyini, döyüş yolunu müəyyənləşdirmiş, ağsaqqal və xalq xadimi adlanmağa layiq müdrik gənclikdir Poemanın baş qəhrəmanı əslində Nizaminin özüdür, onun bütün eybəcərliklərə meydan oxuyan müdrik gəncliyidir. Bəlkə heç bir başqa əsərində Nizaminin şəxsiyyəti bu poemada olduğu qədər aydın, qabarıq, bariz biçimdə ortaya çıxmır. Bu şəxsiyyət yalnız XII əsr Azərbaycan varlığının deyil, ümumən Qərb ilə birlikdə Şərq renesansının, bəlkə, vahid, möhtəşəm, universal dünya renesansının nümayəndəridir! Özünə qədərki bütün ehkamları darmadağın edən, ən böyük inqilabi ideyalar, insan və tərəqqi uğrunda mübarizənin tamam yeni meydanlarını açan böyük mübarizdir! Buna görə də müdrik gəncliyin, Nizami gəncliyinin qocalıqla, daha dürüst desək, mənəvi qocalıqla, fikir və əqidə qocalığı ilə bu dərəcədə qüvvətli toqquşması və az qala poemanın baş xəttinə çevrilməsi təsadüfi və təəccüblü deyil:

Eşitdim: qocalarkən dönüb mərcan olur daş.
Düşün bir az, hər daşdan mərcan yaranmır, qardaş!

Xəbislər qocaldıqca bir az da quduzlaşar,
Ləçər arvadlar kimi qeyzi başından aşar.

Qönçədən çıxmış gülün ətri zərif, incidir,
Fəqət köhnə tikanın yarası bərk incidir.

Dəyib xal salan üzüm göz üçün bir tutiya.
İlansa qocalarkən dönüb olur əjdaha.

Cavanların başında ağıl qollu, budaqlı,
Kif atan başlar isə çox da xoşlamır ağlı.

Görünür, «ilan», «əjdaha», «köhnə tikan» epitetləri ilə damğalanmış bu qocalar və çox güman ki, qoca şairlər, daha doğrusu, qoca şeirbazlar gənc və qüdrətli Nizamini özlərinin məddahı olduqları Eldəgizlər sarayına bərk qısqanmış, yalnız paxıllıq etməklə yetinməyərək onun ətrafında fitnə-fəsad toru qurmağa başlamış, bir sözlə, şairlik şöhrətini dəfn etməyə çalışmışlar. Yoxsa Nizaminin qocalara qarşı bu dərəcədə qəzəbli olduğunun səbəbini başqa cür izah etmək mümkün deyil. Xoşbəxtlikdən, Nizaminin qoca şeirbazlara bu subyektiv münasibəti həm də obyektiv gerçəklik şəklində meydana çıxmışdır. Buna görə də «Sirlər xəzinəsi» XII əsrdə öz inkişafının tamam yeni və yüksək bir mərhələsini, renesans çağlarını yaşayan Azərbaycan xalqının dünyagörüşündə fikir və ehtiras axarlarındakı oyanmanı, yeniliyi, inqilabiliyi, mənəvi gəncliyi əks etdirən əsər kimi ortaya çıxmış, öz zəmanəsinin bədii ensiklopediyasına çevrilmişdir. Ciddi tədqiqatçı olan Mübariz Əlizadə əbəs yerə bu əsərin janrca poema olduğunu şübhə altına almağa çalışır. Poemanın başlıca keyfiyyəti, dərin və mənalı ictimai konfliktlər əsasında yaradılmış insan xarakterləridir, həyatın ali məqamlarını tutmaqdan, əks etdirməkdən doğan bədii pafosdur. Bu baxımdan diqqətəlayiq bir əsər olan «Sirlər xəzinəsi»ndə konflikt həm bir-birinə zidd xarakter sahiblərinin toqquşmasında, qarşı-qarşıya qoyulan həyat lövhələrində, həm də lirik qəhrəmanın tarixə, cəmiyyətə dair düşüncələrində, mühakimə axarında aşkarlanır.

«Sirlər xəzinəsi» dərin münaqişələr şəbəkəsinə malikdir, şərin, eybəcərliyin, antihumanizmin ən kiçik təzahürünə belə dözməyən, ədalətsizliyi ədalət divanına çəkən, ictimai yaramazlıqları böyük mütəfəkkir zəkası ilə işıqlandıran poemadır. Əyninə kəfən geyib zalım padşahın hüzuruna gəlməkdən və həqiqəti ona açıq deməkdən qorxmayan zahid də, Sultan Səncərin eyiblərini üzünə çırpan ağbirçək, cəsur qarı da, ölkəni xaraba qoyan sultanların abadlığa biganəliyini bildirən bayquşların arxasında dayanmış ağıllı vəzir də, haram yeməkdən qorxmayan həyasızların maskasını parçalayan Hacı da, ləyaqətini öz gündəlik zəhməti ilə qoruyan, dəliqanlıları yüngül həyat tərzindən çəkindirən kərpickəsən qoca da, yalnız xalqa və həqiqətə xidmət amalı ilə yaşayan lirik qəhrəman da «Sirlər xəzinəsi»ndə konflikt çeşidlərinin nə qədər rəngarəng və həyati olduğunu dəqiq göstərmirmi?

Poemanı diqqətlə oxuyanda aydınlaşır ki, əməkçi insanların mənliyini və beynini şumlayanlar, qanını şüşəyə tutanlar ölkədə at çapır, meydan sulayır və istismarın daha yeni növlərini kəşf etmək üçün nəqşələr çəkirlər, el içində yerli satqınlardan ibarət mənəvi dayaq nöqtələri arayırlar. Belə dayaq nöqtələrindən biri simasız şeirbazlardır, sənətini və mənliyini bir ovuc pula, şöhrətə, sərvətə satan məddahlardır, əli qanlı cəlladları ədalət, qardaşlıq, səadət qaynağı kimi qələmə verən söz alverçiləridir. Belələri Nizaminin gözünün düşmənidir:

Hikmət qaynağı şeiri hər gün alçaldıb bir az
Sudan da ucuz etdi beş-on nəfər şeirbaz.

Nizaminin fikrincə, saray sahiblərindən, yerli və mərkəzi hakimiyyətdən mümkün qədər daha çox imtiyaz, pul, xələt, mükafat qoparmağa çalışan bu cür şeirbazlar istismarçılardan daha qorxulu, daha alçaq və daha şərəfsizdirlər. Çünki onlar satqınlığın daha iyrənc növü ilə məşğul olur, xalqın gözünü bağlamağa çalışırlar.

Xaqani ilə birlikdə Nizami tamam yeni tipli, xəlqi və inqilabi poeziyanın yaradıcıları idilər. Nizami özü də bu həqiqəti gözəl bilir, poeziyanın tamam yeni məzmunu ilə fəxr etdiyini gizlətmirdi. «Hər hücrəyə köçürdüm şeiri, şeiriyyəti mən. Çıxartdım meyxanədən, ucaltdım sənəti mən!». Bu beytin hər sözü, hər ifadəsi xüsusi diqqət tələb edir. Nizami poeziyanı bütün evlərə, bütün hücrələrə köçürdüyünü, deməli, bir ovuc kübarın, seçmənin, saray əhlinin istifadəsindən, inhisarından xilas edib milyonların ixtiyarına verdiyini car çəkir. Meyxanədən, qəlyanaltı vasitəsi olmaqdan qurtulan poeziya tamam yeni məzmunə, yeni inqilabi keyfiyyət qazan-

madan, əlbəttə, milyonların mənəvi sərvəti ola bilməz!

Bir dəfəlik tullayıb zünnar ilə xirqəni,
Zahidlər, rahiblər də gəlib tapdılar məni.

Yalnız böyük milli poeziyanın, həqiqət və xalq poeziyasının, bəşər sərvətinin yaradıcısı bu dillə danışa bilər.

«Sirlər xəzinəsi», doğrudan da, sirlər xəzinəsidir, fikir və duyğular ümmanıdır. Bədii gözəlliklərinə vurulduğumuz üçündür ki, tərcümə zamanı biz hər sözün yerində və dürüst işlədilməsi uğrunda mübarizə aparmış, Nizamiyə layiq poeziya nümayiş etdirmək qayğısı çəkməyi bircə an da unutmamışıq. Etiraf edim ki, bu vaxtacan mən heç bir əsərin tərcüməsinə «Sirlər xəzinəsi»nə sərf etdiyim qədər can yanğısı, ilham alovu, elmi-filoloji zəhmət sərf etməmişəm və tərcümənin gedişi zamanı öz zəhmətimdən bu dərəcədə zövq almamışam. 4492 misradan ibarət «Sirlər xəzinəsi»nin verdiyi zövqün dadı, tamı hesabına hələ bir ömür də yaşayıb yaratmaq olar.

***Xəlil Rza.***
***Azərbaycan SSR əməkdar incəsənət xadimi,***
***filologiya elmləri doktoru.***



# LİRİKA

# QƏZƏLLƏR

* * *

Öz yaman halımı açdım sənə, diqqət verəsən,
O qara gözlərinə azca nəsihət verəsən.

Bəlkə məndən də betər sən vurularsan özünə,
Baxmağın şö'lə sala, aynaya zi'nət verəsən.

Tutar ahım deyibən qorxudan ah çəkməmişəm,
Bəs rəvamı mənə sən bunca məşəqqət verəsən?!

Ey dağım, ey dayağım, qıyına yada arxalanım,
Umuram könlümə qüdrət və mətanət verəsən.

Sən zənəxdan quyusundan çıxar öz Yusifini,
Bir vəfa dolçası göndər ki, şəfaqət verəsən[1].

Al qanım nafə kimi tez quruyan müşkə dönər,
Hopdurub saçlarına qanıma cür'ət verəsən.

Necə üzr istəyim, ey kül ki, dilim lal olmuş,
Qorxuram əfv edəsən, bir də xəcalət verəsən.

Qul Nizamindi coşan, yoxsa dərin dəryadır,
Sarbanam, bəlkə vəfadan mənə xələt verəsən[2].

* * *

Sən gəncliyin qədrini bil, bir an kimi keçib gedər.
Qərib karvan yolçusunu şəhər bir də haçan görər?

Dünya görmüş qocaların beli neçin əyilmişdir?
Bəlkə itmiş gəncliyini yerdə arar axşam-səhər?

Nağdımız da, nisyəmiz də vur-tut bircə ömrümüzdür,
Ömrün-günün mə'nasından xəbərdar ol, ey bixəbər!

Bir halda ki, gedərisən, ayıq saxla könlünü sən!
Əsrik kimi, sərxoş kimi gün keçirmə əbəs, hədər.

Heyif, bada vermədəsən öz nazənin ömrünü sən.
Bir ömür ki, sən istəsən, əbədiyyət ola bilər!

Qızıl verib almamısan, nə biləsən can qədrini?
Oğru çalıb çapdığının qiymətini bilər məgər?

Şad keçirsən ömrünü sən, nə itirər aləm, kədər?
Dərd əlində ölüb getsən, şadlıq evi nə itirər?

Əgər səndə ürək varsa, Nizami, eşqə ver ömrü,
Bir ərğənun səsi dinlə, götür bir ərğəvan sağər.

* * *

Sən ey yüz min cana dinçlik verən can,
Ey bütün aləmin qibləsi olan!

Gəlirsən... baharsan, yoxsa laləzar,
Qoynunda bənövşə, süsən, ərğəvan.

Qarşında göyləri diz çökdürmüsən,
Ey sərvlər təkin bayraq qaldıran!



Açdın nəfəsinlə min-min qönçəni,
Ey neyşəkər kimi kəmər bağlayan!

Neçə ki, macal var, şadlan, qanadlan
Ələ düşəcəkmi bir də bu dövran?!

Necə sür'ətlidir ömür köhləni,
Barı cilov çəkib üççə gün dayan.

Çox görmə qapını Nizamiyə sən,
Ey dodaq möhürü Yusifin olan!

Sənsən eşq tacı, gözəllər şahı,
Necə ki, aləmin şahıdır Arslan.

* * *

Arpa qədər də tabım yox, a buğdayı üzlü nigar!
Saman kimi saraltmışdır surətimi qanlı yaşlar.

O buğdayı camalına zi'nət verən sünbüllərin
Ən kiçiyi Sünbülədir-çiynindəki qızıl saçlar.

Qoşa zülfün mizanından arpa boyda müşk istərəm,
Könlün bir cüt tel yerinə bəlkə qızıl bir beyt umar.

Buğda dərdi çəkən kəndçi mənim qədər çəkibmi dərd?
Məqam çatmış, versin mənə gül ətrini gül dodaqlar.

Bircə xalın müşk içində gizli buğda dənəsimi,
Dənmi umub düşüb tora mənim kimi yüz-yüz şikar?!

Tək buğdanı gözüm yedi, özüm heç nə dadmadım, ah,
Qapındakı cənnətindən mən kənaram, xeyli kənar.

Gecə-gündüz firqətindən tən bölündüm buğda kimi,
Nizaminin dərdi sənə arpaca da etmədi kar.

* * *

Ürəyimə yara vurdun öz əlinlə, gülə-gülə.
Gözlərimdən qanlı yaşlar axıb gedir gilə-gilə.

Ürəyimin içindəsən, şəklin neçin bayırda bəs?
Tamarzınam, içərimdə olduğunu bilə-bilə.

Bu dünyadan mənim payım yalnız sənə vurğun ürək,
İki ürək birləşibsə, qıyma, dönmə bir qatilə.

Biz ki, eşqin mizanında tən, dürüstük...
rəva görmə
Mənim eşqim çoxaldıqca, səninki az, yüngül gələ?

Bir vaxt məni əzizlərdin... De, bəs nədir bu düşmənlik?
Həmənki dost deyiləmmi? Ey nur, ey ilahi şö'lə!

Bütün könlü qırıqları məlhəminlə sağaldan sən.
Nizamiyə çatıb növbən... qəsd eləmə, insaf elə.

* * *

Ey uğurlu qasid, bir xəbər yetir:
Hardadır, necədir mənim nigarım?

Mənim canım üzük, ürəyim yetim,
Neynir, nə düşünür o işvəkarım?

Ceyran baxışları yarımyuxulu,
Mənim sünbül saçlım, çeşmi xumarım!



Şəkər çeşməsinə təşnədir aləm,
Çəkilib küncünə bir laləzarın...

Mənim dost tutduğum düşmənimdir o,
Əzizim, istəklim, fəxrim, vüqarım!

Mən ki,gecə-gündüz od içindəyəm,
Gülün üstündəmi bal çəkən arım?!

Qanımı içsə də suçlu bilmərəm,
Əhdindən dönməkdə necədir yarım?

Ömründə bircə yol soruşmadı ki,
Hanı o divanəm, o qırıq tarım?

Dərdindən Nizami Yə'quba döndü,
Bildimi Yusifim, dövlətim, varım?!

* * *

Səni bağda görən güllər pərdə çəkdi üzünə,
Reyhan zünnar bağlamağı rəva gördü özünə'

Xəcalətdən qızıl qandır qönçələrin niqabı,
Utanırlar, hüsnün salıb lalələri bu günə.

Sən ətirli saçlarını qulac-qulac açanda,
Bənövşələr ismətindən köçüb getdi sürgünə.

Haray çəkən süsən-sünbül susdu, birdən lal oldu.
O arğəvan çəmalından şö'lə düşdü hüsnünə.

Nərgiz sənin bazarından çoxdan çəkib gözünü.
Tamarzıdır, sözün varsa, yanaş şəbbu gülünə.

Nizamini dinləyəndə bülbül kəsdi cəh-cəhi,
Çırpdı özün dönə-dönə bu şe'rin hər sözünə.

* * *

Gözlərin gözlərimə xeyli tanış,
Gözümün nuru, gülüm, səndəndir.

Gəl, uduz hər şeyini təkcə mənə,
Fələyin fikri cığallıq, təzvir.

Darayım, gəl saçının bəndin açım,
Dügüm açmaq-ürək açmaq kimidir.

Barı beş gün mənim ol, ey süsənim,
Vaxt olur, ayrılıq illərcə çəkir.

Sorursan halımı... sorma, əziz dost,
Ürək dönmüş qızıl qana, əziz dost!

Mənəm Məcnun, sən ol Leylim, danışma,
Əlaç eylə bu nalana, əziz dost!

Sənə çatmırmı fəryadım, qulaq ver...
Çatır fəryadım hər yana, əziz dost!

Eşitmişdim, əzizindir sevənlər,
Bəs ilk aşiq, əzəl sevda, əziz dost?!

Deyirdin bəs dayaq ollam, yıxılsan,
Yıxıldım... qanlı yarğana, əziz dost!

Sehr, çadu əsər qılmaz... NİZAMİ
Yazır şe'rin... deyir sana, əziz dost!



* * *

Həyatdan kam alan fəxrəndə yoxmuş.
Qolu zəncirdən azad bəndə yoxmuş.

Gəlin bəxtim, bəzənsən də... düyün, toy
Bu doqquz aynalı aləmdə yoxmuş'

Həyat mənim gördüklərimmi? Heyhat,
İşıqdan bir əsər, bir zərrə yoxmuş.

İki dünya xəzinəymiş... nə fayda?
Xəzinədən çıxış bilmərrə yoxmuş.

Bu sonsuzluq darısqaldan darısqal...
Göbək mişgi hanı? Rayihə yoxmuş.

Tas altında bir əqrəbmiş bu dünya,
Nizami, gəzmə naçar... heç nə yoxmuş.

* * *

Könlüm evi xarab olur, canım alan o çan hanı?
Oğru çalır xəzinəni, keşikçi, pasiban hanı?

Çıxıb gedib də karivan, mən geridə, mən yarıcan...
Hardadı köhlənim mənim, de, başçı, sariban hanı?

Mən qapıda bütün gecə, gah yuxulu, gah da oyaq...
Yolçuyam, umduğum ruzu, sümük ya üstüxan hanı?

Nizami, sən ki, tapmısan bundan əziz bir aləmi,
Yol almısan o aləmə, bəs azuqə-filan hanı?

* * *

Sənin ətirli tellərin kəsib yolu, sağı, solu.
Qəmzələrin can almada... könlüm ələm, sitəm dolu.

Kim ki üzün görür sənin, yolunda can verir sənin.
Kim ki sevir, ömür boyu... boynuna çatmayır qolu.

Sadiqi-sübhə yalvarıb fatihə verrnək adətim:
-Gəlməyəsən yaman gözə, ey aləmi ülvi, ulu!

Yaraşmasan da, gəl, uyuş, odum sənin, gülüm sənin,
Göz yaşımı qurut, gülüm, baxım sənə gözüm dolu.

Səninlə ilk oyundaca, canımı qoydum ortaya,
Cığallama, uduzmuşam, hakim özün – eşqin olub.

Möcüzəkar İsa kimi lə'lə dönüb ləbin yenə,
Nizami başqa möcüzə-quldu sənə, vəfa qulu.

* * *

Dərd başdan aşıb da canə yetdi,
Naləm odu asimanə yetdi.

Çəksən də ətək, mən üzmərəm əl,
Qəm nəştəri üstüxanə yetdi.

Gizlətmək olarmı heç cahandan,
Sirrim o biri cahanə yetdi.

Düşdü bu mələr könül dalınca,
Yalnız ahı karivanə yetdi.

-Gözlə, səninəm, döz, ey Nizami,
Və'd etdin... ömür son anə yetdi.



Sənin eşqində necə səbr eləsin Nizami?
Yanar qəlbi dönübdür bir səməndər quşuna.

* * *

Qəm yemə, qəm əhlinin imdadına canan çatar.
Dosta yardım, bərk ayaqda mehriban dostdan çatar.

Kim səadət istəsə, göz yummasın qoy sübhədək.
Yatsa – kordu, ağ günə yalnız ayıq insan çatar.

Sən hümasan... xırmanı qoy qarğalar eşsin, nə qəm
Sən mətinsən, umma... yalnız xəstəyə dərman çatar.

Burda şahlar çarpışır, oxlar yağır, gözlə gözün,
Orda bayram əhlinə kişmiş, noğul, reyhan çatar.

Bal yeyən milçəkdi, bəs neçin yanan pərvanədir?
Oğru qalmış, doğruya haqsız cəza lapdan çatar.

Şah ova çıxmış, saray it saxlayan hökmündədi,
İncimə, darvazaya it dartınar, səkban çatar.

Aşiq – əsrik, aqil – azaddır, ayıq bəs neyləsin?
Ona da yalnız sabah növbət yetər, imkan çatar.

Ey Nizami, göz yumub dünyaya dövlətdən çək əl.
İş sənin tək işsizə bambaşqa dünyadan çatar.

* * *

Ey mö'cüzə Ay, son kimə mehman olaçaqsan?
Bu hüsn-cəlal ilə kimə can olaçaqsan?

Sənin eşqində necə səbr eləsin Nizami?
Yanar qəlbi dönübdür bir səməndər quşuna.

* * *

Qəm yemə, qəm əhlinin imdadına canan çatar.
Dosta yardım, bərk ayaqda mehriban dostdan çatar.

Kim səadət istəsə, göz yummasın qoy sübhədək,
Yatsa – kordu, ağ günə yalnız ayıq insan çatar.

Sən hümasan... xırmanı qoy qarğalar eşsin, nə qəm
Sən mətinsən, umma... yalnız xəstəyə dərman çatar.

Burda şahlar çarpışır, oxlar yağır, gözlə gözün,
Orda bayram əhlinə kişmiş, noğul, reyhan çatar.

Bal yeyən milçəkdi, bəs neçin yanan pərvanədir?
Oğru qalmış, doğruya haqsız cəza lapdan çatar[5].

Şah ova çıxmış, saray it saxlayan hökmündədi,
İncimə, darvazaya it dartınar, səkban çatar.

Aşiq – əsrik, aqil – azaddır, ayıq bəs neyləsin?
Ona da yalnız sabah növbət yetər, imkan çatar.

Ey Nizami, göz yumub dünyaya dövlətdən çək əl,
İş sənin tək işsizə bambaşqa dünyadan çatar.

* * *

Ey mö'cüzə Ay, sən kimə mehman olaçaqsan?
Bu hüsn-cəlal ilə kimə can olaçaqsan?



Axşam başın üstündə səma çətrini açmış,
Sən Ay çətirinlə kimə sultan olacaqsan?

Qəndab demək azdır, nabatım, neyşəkərimsən,
Cansızlara sən can verən ümman olacaqsan.

Zülmət gecəmin gur çırağı, bəd gözə gəlmə,
Ey abi-həyat, sən hələ Loğman olacaqsan.

Qal, getmə gözümdən, axı canım gedir əldən
Dərmanım özünsən, kimə dərman olacaqsan?

Tək qoyma Nizamini bu hicranın əlində
Qurbanın olum, sən kimə qurban olacaqsan?

* * *

Tövbə binasını yenə eşq xərab edər, gedər.
İftar açar sevənlərə, lütf şərab edər, gedər.

Könlümü çaldı, ovladı... soruş, nədir qəşəng adı
Zöhrədi ki, al günəşi seyl-sirab edər, kedər[6].

Eşqi çatar könüllərə... amma soruş ki, hansını
Odda mənim canım kimi duzlu kabab edər, gedər?

Nərgizə bənzəyən gözün söylədi:-Döz... səninkiyəm.
Mən dözürəm, vallah, axı ömür şitab edər, gedər.

Gülüm mənə verirsə dərd, özünküdür bu məsləhət.
Qınar... bəlkə sınar məni min bir əzab edər, gedər.

Ovçu cəmi ahuları yatdığı yerdə ovlayar,
Yatma, könül... yatan məgər bu qətlə tab edər, gedər.

Nizamiyə ölüm verən xəta qılar, böyük xəta!
Şad olaram, tez öldürə, bəlkə səvab edər, gedər.

Allah, Allah, bax bu cür dilbər mənim olsun gərək.
Zülmətə atəş saçan gövhər mənim olsun gərək!

Aləmi odlandırır şəkkər ləbinlə ud xalın,
Udla bir şəkkər səpən məcmər mənim olsun gərək'.

Duzda dad, ləzzət olar, amma şirinlik, heyf, yox!
Həm şirin, həm duzlu bir şəkkər mənim olsun gərək.

Hazıram nuş etməyə cüt aləmi bir badədə,
Saqim ol ki, sən verən sağər mənim olsun gərək.

Mişk zülfün ətrini saçmaqdadır dünyalara
Ah, bu cür xoş rayihə, ənbər mənim olsun gərək!

Zülfünə quldur Nizami, nə deyir zülfün ucu:
"Bax bu çür sadiq nökər, çakər mənim olsun kərək!"

Dün gecə bəxtim oyandı, mənə pay gəlmiş idi,
Nur cəmalından açıb pərdəni, Ay gəlmiş idi.

Şeh axır güldən... atıb örtüyünü nazlı qəmər,
Bəd nəzərdənmi qaçıb salmış haray, gəlmiş idi.

Gözlərimdən su içən incimə baxdım, baxdım.
Onun uğrunda gözüm yaşı, ya çay gəlmiş idi.

İkimiz bir can olub, ah, necə xoşbəxt uyuduq,
Oyanıb:–Tez! – dedi. – Qalx! – sanki bir hay gəlmiş idi.

– Gedirəm, bəlkə umarsan bir umu, – Bircə öpüş!
Qəlbimə həsrət odu, ah ilə vay gəlmiş idi.



Tez qaçıb mən ürəyi yanmışa bir od vurdu,
Dirilik çeşməsi getdi, bir humay gəlmiş idi.

Şirvanı şah bilərək başına and içdi könül,
Gör, Nizami, yuxuna hanki susay gəlmiş idi![8]

* * *

Ceyrana bənzər olsa da o, şirləri şikar edər
Kimin ki, var ürək şiri, dərdə, qəmə düçar edər.

Kirpik oxun çəkir yaya, atmasa da, qəribədir:
Cismimə dəyməmiş oxu, qəlbə dəyər də kar edər.

Ay üzünü görmədən heç xirqəmi yırtmışam, inan,
Dadmadığım meyin dəmi içmədən heç, xumar edər.

Daşdı, dəmirdi xilqəti, mən də – şüşə... amma vəfa,
Alar daşı, çalar daşı, könlünü tarimar edər.

Mən düşünüb bütün gecə arzularam vüsalını,
Al qanımı tökmək üçün o, gün sayar, şümar edər.

Onun sitəm xəzinəsi haçan dönər xərabaya?
Ah, nə üçün bu biqərar könüldə hey qərar edər?

Əzaba, çəbrə tab elə, Nizami, sən can at gülə.
Gül istəyən tikanlığa düşsə də iftixar edər.

* * *

A xidmət etdiyim gözəl, qazancım intizar olur.
Bu zəhmətim, qızılgülüm neçin gözündə xar olur?

Kəsmə mənimlə ülfəti, düşmənə vermə fürsəti,
Dost üzünü xəcil görən dost üzü şərmsar olur.

Mənim bir az qanım qara, sənin bir az üzün qara.
Rəngimi gör, halım soruş... nəhs işin aşikar olur.

Mən gəlirəm bir az yaxın... uzaqlaşırsan amma sən.
Ömür keçir, işin-gücün təkçə qürur, vüqar olur.

Qanımla oynama, gülüm, çiçəkləyər tumurcuğun,
Şəkərlə duz ki, birləşir, xoştəhər abidar olur.

* * *

Bu geçə yatmaq nədir? Ləzzət çəkək ta sübhədək.
Yatmağa var başqa gün, başqa döşək ta sübhədək.

Gah gözüm üstündə əyləş, gah sığın, sin canıma.
Bağrımın başında ol, ülfətləşək ta sübhədək.

Sən badamgöz bir gözəl, şəkkər dodaqlı bir mələk,
Məzəmiz şəkkər, badam... mey nuş edək ta sübhədək.

Başıma çox döymüşəm hicrində, ey gül, mən dünən,
Bu gecə vəslin başında bir çələng ta sübhədək.

Əllərim, canım sənin, mərci apar, ey nazənin!
Ud məni nərddə, oxu, şənlən görək ta sübhədək,

Zülfünü tövbən kimi tulla, öpüşlər saç mənə
Tövbəni zülfün kimi əy, şəhd içək ta sübhədək.

Sən Nizami şe'rini dinlə, qulaq halqası et.
Gəl qapı halqasını tərpətməyək ta sübhədək.



* * *

Kecən zülmət, yolun müşkül, cilov çək, girmə yarğanə.
Bir anlıq varlığı tapşır müqəddəs ruhə, vicdanə.

Səni məst eyləsə, uyma, dağıt, qopsun fələk çərxi,
Sütunsuz qalsın ərş, ipsiz səma dönsün də zindanə.

Çıxart, ülfət bağından qov, kənar olsun laçın, quzğun
Səadətdən xəbər versin, hüma qonsun da meydanə.

Mətinlər qursalar məclis, ağır tərpənmə, ey canım,
Mətin saqi əyaq versə, alıb nuş et də mərdanə.

Təriqətdən ayaqsız keç, cəmalı, hüsnü gözsüz gör,
Ağılsız iç, kəsil diqqət qulaqsız da o dastanə.

Görüb vermə könül, batsın o cənnət də, cəhənnəm də.
Tüpür, sönsün cəhənnəmlər, qələm çək bağı-rizvanə.

Girişdin, haqqı buldunsa, çək əl surətdən, ülvi qal!
İçib hikmət meyi, yüksəl, dolan meysiz də məstanə.

Nizami, bu nə əsrardır, ürək sirrin apaşkardır.
Hanı rəmz anlayan? Çək, çək dilin pünhanə, pünhanə!

* * *

Tutdu məni eşqin, sevda məni çəkdi.
Hər sirrimi açdım, səhra məni çəkdi.

Verdin də qaşından bir fitnə qılıncı-
Meydan məni tapdı, qovğa məni çəkdi.

Göstərmədin ülfət, şəfqət, ya məhəbbət.
Sandım ki, koram, kor... rö'ya məni çəkdi.

Üstümdə sən Ay-Gün, al qanımı qökdun.
Sel gəldi də... gördün, tənha məni çəkdi.

Nağd vəslini görməm, nisyə umar ümmid,
Aldın günüm əldən, fərda məni çəkdi.

Yaş tökdü Nizami o qədr gözündən
Baç istədi dürrü, dərya məni çəkdi.

* * *

Alım səndən ürəyimi... düşünürəm dönə-dönə.
Heyhat, ürək əldən uçur, gedib çatır bir də sənə.

Biz çörəklə duz kimiyik, can-ciyərik, bəlkə birik
Başqasına könül versəm, yeni bir can gərək mənə.

Qurbanınam, çatdır məni özün qurban bayramına,
Son nəfəsdə bir fal açım baxa-baxa gözlərinə.

Sənin vüsal məclisində dadarammı birçə noğul.
Həyat adlı xəzinədən üzülməmiş bu dürdanə;

Ürəyinə tapşır, gülüm, qoy içməsin ürək qanı.
Yoxsa sənin yolun dönər ürəyimdən axan qanə.

Əlim gəlməz qılıncına qılınc çalam... öz qulunam,
Əmr eləsən daşıyaram... qanad ollam kəcavənə.

Gözüm qan-yaş töküb silər Nizaminin izini də,
Qıyarammı bu yollarda tozum qona Ay çöhrənə?

* * *

Gedir əldən geçələr səbrü qərarım sənsiz,
Aldığım hər nəfəs atəşdi, nigarım, sənsiz.



Hiçrinin zülmü deyir: vəslinə and olsun, inan,
Qaçmayıb tab edəcəm, yoxdu güzarım sənsiz.

Sənə yetmək diləyi ağlıma gəlməz, gəlməz!
Məni tap... ah, bu ümid... heçdi, baharım, sənsiz.

Nə gözüm var – arayım, ah, nə o bəxtim ki, tapım,
Nə əlim var ki, açım... bağlı bazarım sənsiz.

Mən qırıq bir daşınam, sən ulu dağ, sən – mə'bəd.
Sən qızılgul... kimi bəslər de, bu xarım sənsiz.

Sən Nizamidən uzaq... mən geçə ulduz sayıram.
Fal açıb gündüzə yalvarmada karım sənsiz

* * *

Yoxdu xəzinəm ki, saçım üstünə.
Al bu quru canımı, qurban sənə!

Hansı kələklə səni mən ovlayım?
Sök canımı, tök qanımı, ey sənəm

Eylə qəbul, hər nə varımdır, verim
Torpağına, millətinə, mülkünə.

Hər iki dünyanı ucuz saymasan,
Qurban edim çul daşıyan bəndənə.

Gəl ki, tozun da gözümə sürmədir,
Gəl ki, Nizami can atır sürmənə.

* * *

Baş apar, nazlan ki, mən nazın çəkim.
Hər qədən gəlsin mənə, ey göyçəyim!

Məstəm eşqindən, o rövşən badədən,
Qoy dözüm, ol işrətin altın çəkim.

Sən zəlillər tək məni etmə kənar,
Qoy səni ağuşuma çoşqun çəkim.

Öldürür rüzgar məni çövrunlə, bax.
Gündə min bir zulm edir, hansın çəkim?

Vay o gündən ki, ümidim məhv ola,
İntizarı boş, əbəs, məhzun çəkim!

Mən – Nizami, bülbüləm gulzarına,
İnsaf et, gül dərmədən cövrün çəkim?

* * *

Apardın könlümü, dilbər, fusunxanlıq yetər, bəsdir.
Dilim kəsdin, bu işgəncən, çəfan artıq yetər, bəsdir.

Adın müslüm, özün kafər, urək çalmaq sənə şakər.
Çəkin məzlumlar ahindən, bu sultanlıq yetər, bəsdir.

İzn ver ki, baxım sərbəst, baxım azad o şux hüsnə,
Nə mən oğru, nə sən darğa, nigahbanlıq yetər, bəsdir.

Sənin zülfünə xidmətdə qarışqa tək çalışdım mən,
Yetər qarət qarışqanı, Süleymanlıq yetər, bəsdir.

Çevik ruhilə lül qəmbər qayıtsın bir daha bəzmə,
Nizami lütf edər badə, ağırxanlıq yetər bəsdir.

* * *

Ey sənəm, gözün fədası, bizə bir gecə səfa qıl.
O şirin vüsalın ilə xəstəyə bir az şəfa qıl!



Bircə istəyim budur ki, səni bir xəlvət öpüm mən.
Zülfünə canım da qurban, bu payı mənə rəva qıl.

Fağıra, qaydadı, şahlar azacıq nəvaziş eylər,
Ey şahım, məni qapında lutf elə, kölə, gəda qıl!

Kəmərin çəkib Nizami, sənə bir qul olmaq əhdi,
Tikanı çıxar ürəkdən... az ona əzab, cəfa qıl!

* * *

Söndür şamı, pərvanə tez gəldi çırağı-çanımız.
Qan ağla, ey gulzarımız, güldü küli-xəndanımız.

Könlüm olub meydan sənə, al canımı, qurban sənə.
Yetdi, ey Hindistan sənə, fəğfuri-Türküstanımız.

Cənnətdə yox mislinlə sən addımlayan bir sərvsən,
Mən bəndəyəm, sən hakimsən, fərman ver, ey sultanımız!

Nurlar saçan hüsnün çıraq, yandı pəri-pərvanə, bax
Biz təşnə, sən büllur bulaq, bir cam var, ey Loğmanımız!

Lütf et bir az, ey nazənin, Nizamilə ol həmnişin.
"Sən mənimsən, mən də sənin"! – kör nə söylər
ceyranımız.

Ey gülu-xəndanımız, sərvi-xuramanımız,
Mən səninəm, Sən kimin? Ey təzə reyhanımız.

Can sənə təslim olub, ruh dolanır başına,
Hər nə umursansa um, ey ruh ilə canımız!

Kəssə də dəstim qılınc, zülfün uçun verməm,
Ta ki, quca boynumu yar əli-mərcanımız.

Təşnə mənəm, çeşmə sən, söndür ürək yanqımı,
Bal dodağındır sənin çeşmeyi-heyvanımız.

Can de Nizamiyə gəl, ta ki, ucaltsın bizi
Ən ulu şah Əxsitan-sahibi divanımız.

* * *

Mən öz gəncliyimi sənə verdim, yar.
Könlümdə saxlanır açdığın bazar.

O qənd dodağının al yaqutunu
Qan-yaş tökən gözüm əks edər aşkar.

Apardı ömrümü şirin sözlərin,
Sözünün üstündə durmayan nigar.

Fəryad, o ətirli tellər əlindən!
Sanki ağ üzündə nar çiçəyi var.

Gecələr sübhəcən hönkürən ürək
Gələr, astananı öpər, qucaqlar.

Qanıma susayıb bir cüt nərgizin,
Haray, ey laləzar, haray, ey bahar!

Qan-yaşla dolan qönçə, əl çək bu çəfadan, yar?
Ömrüm sona yetməkdə əhd ilə vəfadan, yar!

Harda ki, kədər gördün, aldın da, mənə verdin.
Harda ki, sevinc tapdım, verdim sənə əl'an, yar!

Sordun ki, nə istərsən ağlar gözünə dərman?
Nazik qədəmin dəymiş torpaq mənə dərman, yar.



Yüz-yüz donumu yırtdım, vəslin umaraq bir dəm.
Bir don kimi qucmaqdır əhdim səni bir an, yar.

Məftunun olub canım, neçin tökəsən qanım?
Can istər isən, al da, çanım sənə qurban, yar!

* * *

Sən, a bütün türkləri hindu qılan,
Kaş olasan ovçu gözündən nihan.

Cismimi qurban demişəm telbətel
Zülfünün hər bir telinə yanbayan.

Varını halım, əl vurasan, tab edim,
Ey bu yazıq canıma min ox vuran!

Mən ki çigər qanımı etdim ruzu,
Ey qanımı mey tək içib kam alan!

Sən gecələr dinc uyuyan bir mələk.
Mən bir evin dövrəsinə fırlanan.

Qoy qapanım, gül qədəmin bir qucum.
Çoxmu uzaqdan baxaçam bağrı qan?!

Bal dodağından öpərəm, qorxmasam.
Kirpiyin oxdur, qaşın hazır kaman,

Çoxdu sevən... amma səninçün, gülüm,
Bircə Nizamindi göyə yalvaran.

* * *

Gözlərinə and olsun, məndə yüz nişanən var.
Günüm zülfündən qara, səbrim ağzın kimi dar.

Ayaqlarım getmir ki, üzəngidən yapışım,
Əlim gəlmir, atının çilovunu çəkim, yar!

Səninlə bir yastığa baş qoymağım yadında...
Başım dizin üstündə, ya küçəndə biqərar...
Ürəyinə salma ki, biganələr yanında
Vəfa xəzinəmizi açıb qılaram aşkar.

Ürəyimi verirəm, ziyandırsa, heç alma.
Vüsal haqqı verməyə çandan artıq nəyim var?

- Gələrəm! - söylədin sən: – Cəsur ol, ey Nizami,
Xoşbəxtəm ki, bu sözü dedi o gül dodaqlar.

* * *

Sən – bütün qızlardakı hüsnü tamam
Talayıb hüsnündə cəm etmiş gözəl!

Asta get... sən uyğulu... nazlanma çox,
Ey ayaq üstündəcə yatmış gözəl!

Hökm edib: "Get, özünü öldür!" dedin,
Qətl, qatillik yolu tutmuş gözəl.

Dəydi kirpik oxların... bal tək yedim,
Ox ucu ey zəqquma batmış gözəl!



Qul Nizamin bir dəri, bir də sümük...
Qanım içmiş, əhdinə çatmış gözəl!

* * *

Bəlkə bir ləhzəni qurban edəsən, –
Bu yanıq könlümə dərman edəsən.

Qanlı yaşlar məni onsuz da boğur,
Qorxuram hicr ilə tufan edəsən.

Ürək əldən gedib... ondan vaz keç,
Bəlkə sən ruhuma imkan edəsən.

Damğa vur, tökmə qanım, çox zəifəm,
Dəyməz ol rəncə ki, al qan edəsən.

Həsrətəm ləblərinin halvasına,
Hünərin varmı ki, mehman edəsən?

Möhrünü basdı Nizami ləbinə, -
Məni mehrinlə Süleyman edəsən.

Çaldı yenə qəlbimi bir gözəlin gözləri,
Tərk eləyir canımı ruhum - onun şəhpəri.

Gül dodağın gülməsi balını qatar qaymağa,
Püstən utandırmada şərbət ilə şəkkəri.

Kirpiyini bir də çal, qoşş eləsin qoy mələk,
Zülfünü at çiyninə, nalə qoparsın pəri.

Pozdu telin islamın rövnəqini, ey gözəl,
Sən var ikən yox lüzum biz qınayaq kafəri.

Ah, belə bir hüsn ilə çıxsan. inan, çöllərə,
Gün vurular hüsnünə, Ay da olar müştəri.

Ağlımı başdan edib açma o zəncirləri,
Çin-çin edib zülfünü saçma ətir-ənbəri.

Versə ləbin azca mey, nalə çəkər cəngü ney,
Ruhum olar meypərəst, gözlər-onun sağəri.

Ah, o camalınla sən, lütf cəlalınla sən,
Könlüm olar bəxtəvər, bir dəfə baxsan bəri.

Hicrin ilə xəstədir bəndə Nizamin sənin,
Əmrinə hazır durub, şad elə bir çakəri.

* * *

Gül surətə nəzər sal, ta gör də taləzarı,
Qısqandı, lalə yandı, köksündə bitdi xarı.

Tər qönçənin önündə nə durmusan çəməndə?
Yarın önündə dur ki, tikanlıdır baharı.

Bir cüt şəkər ləbindən vaxta ki, ləl umarsan
"Çıx get" işarəsilə göstərməzmi kənarı?

Ömrüm boyu qəmindən könlüm özün itirmiş,
Yüz il baxsan dəyişməz həyatımın qərarı.

Nizami tək bir addım özündən öndə get ki,
Hicranda da vüsal tap, yandır qəmi, qubarı,

* * *

Apardın könlümü, canım da səndə.
Gülüm, başqa bazar açdınmı gendə;



Səni mən tək sevən varını, fikirləş
Sevən bircə, uman çox yan-yörəndə.

Üzün tər gül, saçın mişkin, canın saf,
Neçin bəs qalmısan dərdlər səlində?

Nizamini vüsalınla sevindir,
Dügün bəxti açılsın qoy əlində.

Mənim sərməst sevincim hüşyar olarmı bir gün?
Yaman yatmış ağır bəxt, bidar olarmı bir gün?

Geçəm-uyğusuz qəmər, çəkdim sübhəcən nələr!
Bu gizlin işgəncələr aşkar olarmı bir gün?

Açar qapım möcüzə, dönər gecəm gündüzə.
Baxar afətim sözə, dildar olarmı bir gün?

Yarım bircə mənə yar, şadlanmasın qoy əğyar.
Söylə, ey pərvərdigar, o xar olarmı bir gün?!

Kafər olum əlindən, bal saçılsın dilindən,
Zülfü mənim belimdə zünnar olarmı bir gün?!

Qul Nizami yarımcan, əhdini qırdı canan.
Tutduğundan peşiman, bezar olarmı bir gün?

* * *

Verməram can sənə mən, can alan olsan da, gülüm.
Çün alıb canı... yaşarsan təzə bir canda, gülüm.

Gərçi mən acizəm, amma sən əzazil olma,
Elə rəftar et... Özünlə məni bir san da, gülüm!

Mən ki Cəmşid deyiləm, busənə bir qəsr verim,
Bir mənəm, bir də canım... almasan, alsan da, gülüm.

Sən keçən yollara mən göz gülabı səpmədəyəm,
Sən gedib, çör-çöpə öz sayəni salsan da, gülüm.

Səni göz nurum, həyat məqsədim, ömrüm bilirəm,
Üzü Ay, gün şəfəqi, gül dodağı qənd, a gülüm!

Məni bir şəm ilə öldürmə, de, pərvanəmiyəm?
At qılıncı ki, mən atdım yerə qalxan da, gülüm!

Qul Nizami sənə dünya kimi açdı qucağın,
Bir öpüş... "Yox" deyibən etmə aman, and, a gülüm!

Qoşuldun mərdlərə, oldunsa mərdan,
Yetər, əl çək təkəbbürdən, vüqardan.

İçib şövqün meyin ər süfrəsindən
Tamam ayrıl bu varlıqdan, bu vardan,

Yolunda gözləmə heç kəsdən imdad,
Umub küssən, qapın bir gün qaparsan.

İnan, dostdan mədəd ummaq-zülümdür,
Özün dosta mədəd qıl, gər bacarsan.

Basıb keçmə qarışqanı, amandır,
Hər Allah bəndəsin dost bil, hayan san.

Tamam heçsən, yüz il qan-yaş da töksən,
Tamam zaysan, əgər bir qəlbi qırsan.

Bütü, bütxanəni qır, ey Nizami,
Çətin iş qeyrətinlə olsun asan.



* * *

Mənim dərdim böyük dastan... oxu, dərmanım ol, ey dost!
Canım yarə, günüm qarə, sökülmüş danım ol, ey dost!

Önündə mən kəmərbəstə, nə əmr etsən, gözüm üstə,
Nigarımsan, canım istə, qulam, sultanım ol, ey dost.

Səbuhim ol, salıb yadə... qanımdan doldur al badə,
Desəm: "Nəğmə oxu bir də"! Ahım, əfqanım ol, ey dost!

Gələr bayram, vüsal qıysan... de harda qaldı bəs qurban?
Bir az rəhm eylə, ver fərman, de ki, "Qurbanım ol!",
ey dost!

Məgər hicran çəkən yarı sevindirməzmi dildarı?
Yolumdan yığ tikanları... gülüm, reyhanım ol, ey dost!

Nizami bir ürək... kövrək... arar yarı tamaşa tək,
Barı bir dəm gəlib baş çək, mehim, mehmanım ol,
ey dost!

Həsrətəm camalına, ey dost, harda qalmısan?
Mən qulunam, ey şahım, məni məndən almısan.

Gözlərin şahiddi ki, hüsnün yağıdır mənə,
İddiaçı, şahid də, hakim də sənsən, ey can!

Qısqanıram, baxmasın, ayna da vurğun sənə,
Görməsin camalını sevən qəlbi olmayan.

Sən mişksən, sirrini səba saxlaya bilməz,
Ətrin tutar aləmi tellərini darasan.

Sən keçdiyin yollara qan-yaş tökür Nizami
Yolun ağ olsun, özün daim xoşbəxt, kamiran.

* * *

Məftundu sənə könlüm, tədbir elə ey canım,
Gözlər yolumu rüsva, ya əhd ilə ərmanım?

Canım, ürəyim varsa peyvənddi sənə çoxdan,
Ya məhv olaram, yaxud sən sevgili sultanım.

Harda görərəm, vermən zülfün ucunu əldən,
Çılğınlar üçün qanun varmı, dəli ceyranım?

Aləm kəsilib düşmən, çünki sənə vurğun mən.
Kim göstərəcək məlhəm, qıymaz isə Loğmanım?

Heç kim sənin hiçrində bunca dəli olmaz, yox!
Yoxdur daha nə səbrim, nə dərdimə dərmanım.

* * *

Hər çilvəni tanrım sənə əl'an
Sanki özü göndərib səmadan.

Sev, oxşa məni öpgülərinlə,
Hər busə – murad, aşiqə ehsan,

Qəlbim, dedim, hardadır?
O, güldü:
– Orda ki, yeri həmişə punhan.

Qanımla əlin yumaqmı istər?
Qan-yaş tökürəm, yusun da canan.



Nə qəlbi gözəl, nə xülqi ə'la,
Olsunmu ona Nizami qurban?!

Mümkünmü deyim nəvazişindən,
Əhvalını sorsa Qızıl Arslan?!

Hər gecə umar könül ki, bu gecə gələr baharım,
Bu qərara gəlməsə yar, kəsilər mənim qərarım.

Başqa gözlərə baxanda gözü nərgizə dönən yar,
Nə üçün tikan olur bəs, bizə qəmzən, ey vüqarım!

Neçə düşmənim gülür ki, bizə yad ona yaxınsan.
Sifətim yanır həyadan, necə yarsan, ey qubarım.!

Mənə düşmən olsa dünya, yenə qorxmaram inan heç,
Təki ərk ilə bir axşam qapımı qıra nigarım.

Necə sən hümasan, ey can, ələ düşməyin nə müşkül.
Nə gözə şikar olursan, nə də qəlbə, ey xumarım.

Hər sevən sanır onunsan, leyk sən Əxistanınsan.
Get, ona yaxınlaş, ey can, a Nizamidən kənarım.

Sən görən deyiləm mən, sənsə elə o lə'lsən.
Mənim gəncliyim ötdü, sən bir az da gözəlsən.

Əmrinlə yox, təskin et məni öz insafınla.
Mən istəyən qədər yox, bacardığın qədər sən.

Sınıxmışam, eləmi? Necə sınmasın ürək?
Canım elə o candır, cismim-necə görmüsən.

Sən - Xəlilimsən, mən - od, axı neçin sönməyim?
Mən ölürəm, sən yaşa ətir saç, ey gülbədən.

Sənin Ay camalını görüm deyə bircə gün,
Musa tək ömrüm boyu çobanlıq edərəm mən.

Bağcamızda nə varsa, xəzan aldı, apardı,
Sənin kimi bahardan mən təravət umarkən.

Nizami kəmər çəkib dayanmış xidmətində
İki dünya günəşi alnında parlar, əhsən!

* * *

Qəmin kəm, ey gözəl, vardır mənim tək köhnə qəmxarın.
Sənə, vallah, münasibdir bu simsarın, vəfadarın.

Halım sorma, bir az rəhm et, qalım dərdimə qoy yalqız.
Bu cövr içrə adım çəkmə, inan, xoşdur bu rəftarın.

Seç hansı rəngi xoşlarsan, seçim mən də həmən rəngi,
Tərəfdarı olum mən də ya təsbihin, ya zünnarın.

Səni daim sevən dosta neçin düşmən kimi baxdın,
Sən ar bildin bizə mehri... Səninlə fəxr edir yarın.

Bu dərdi mən asan çəksəm, çəkərsən bil sən həm asan
Çətin çəksəm, düşər bərkə mənim karım, sənin karın.

Nizami hər zaman dostu əzizlər... sənsə xar etdin.
Mən aşiq, sən də mə'şuqəm... qalar yadda bu kirdarın.

* * *

Min sevincə dəyişmərəm uğrundakı bircə qəmi
O qəm mənə bəxş eləyir ölməz-itməz bir aləmi.

Hər bəzmdən, hər nəş'ədən dadlı imiş cövrün sənin,
Qəhrin də xoş mehrin kimi, ey könlümün cəhənnəmi!



Yalnız sənin qulunam mən, heyif qulluq bacarmıram.
Can məlhəmim əlindədir, nə qəm, qıyına o məlhəmi.

Gülümsədi qoşa püstə, dedin:-Məndən vüsal istə.
İstəyimmi? Heç bilmirəm bir vəslinə dəyərəmmi?

Mənim könlüm səndən savay heç bir kəsi istəməz, yox.
Sən kiməsə bənzəmirsən, sənə kimsə bənzəyərmi?

* * *

Günüm batdı, gəl, ay bədrim, bir anlıq gəl. amanım ol!
Sən eşqimsən, uzaq gəzmə, evim ol, aşiyanım ol!

Kəsil həmdəm, solub rəngim sinəmdən sil pası, çəngi.
A dərdim qaynağı, dərman, güman sənsən. gümanım ol!

Ləbin kövsər-bulaqvari... həyatın ilk səbəbkarı.
Dişimdə tutmuşam canım, gəl, ey canım, həyanım ol.

Gözün qurbanı, hirslənmə, sevinsəm. gül, kədərlənmə.
Qanımla oynama, cana, canımla oyna, canım ol.

De, yetməzmi, vurub atəş, durub gendə. oda baxdın?
Tapaq gülşən, yapaq şənlik, suda qönçəm. fidanım ol.

Qəmər saçlım, hilal qaşlım, Ayın bədri. gülün çətri!
Qulun qulluqda amadə, buyur. gəl. hökmranım ol.

Yaşıl tağım, İrəm bağım, uca sərvim. süsən bərkim.
Nizami dərdinə son qoy. külüstanım. cahanım ol!

* * *

Gəncliyimi sənə verdim, bu möhnətdən şirinsənmiş.
Nə çür ölüm qarşında mən, bu fürsətdən şirinsənmiş.

Gözlərimdə yaş olsan da, işıq alır ürək səndən,
Can möhnətim, bunu bil ki, sən işrətdən şirinsənmiş.

Hardan tapım incə sözü, nə cür verim qiymətini?
Sən daddığım, dadmadığım hər ne'mətdən şirinsənmiş.

Savaşın da, barışın da yağ-bal dadır damağımda,
Mehrin qədər qəhrin də xoş... hər cəhətdən şirinsənmiş.

Nizaminin həyat durrü sənin bir vəslinə qurban,
Hər nə versəm ucuz olar, hər qiymətdən şirinsənmiş.

* * *

Sığar qəlbə, qəmin dunyaya sığmaz,
Məhəbbət - dağ seli... məcraya sığmaz.

Gözüm qan-yaş... soruş hardan sızır qan?
Yığışsa çay olar, dəryaya sığmaz.

Gulüm, gülmə... dar ağzına bir öpgüm,
Şirin busəm sığar bəlkə, ya sığmaz.

Vüsal ümmidi bir teldir - çox incə,
Vüsal eşqi sözə, misraya sığmaz.

Dodaq mücrün mənə bir lə'l versə,
Gunəş şehdə güli-rə'naya sığmaz.



Nədir əhdin? Canım almaq? Bu gün al!
Sabah gecdir. Sabah sevdaya sığmaz.

Harda ki, adın çəkildi bir dəm,
Xirqəm, bədənim alışdı birdən.

Satdın özünü bazarda... aldım,
Qapdım səni aləmin əlindən.

Umdum ki, vəfa qılarsan... heyhat,
Döndün... dönüşə inanmadım mən.

Vurdun, qanadım qırıldı bir cüt,
Uçmur, sən üçün gedirdi göynən.

Atdım neçə dostumu, a zalım,
Ta atmayasan Nizamini sən.

* * *

Ey əhdimizə ən uca ünvan,
Neçin bizə sən xilaf çıxırsan?

Zəmzəm bulağım, yanıb kül olduq,
Bir damla da qıymadın suyundan.

Ayrılma bu gün... axır ki, bir gün
Onsuz da gəlir zəruri hicran.

Vəslin ki, sonu fəğandı daim,
Kaş olmaya heç bu əhdü peyman.

Yüz sərvətinin birin də qıymaz,
Qıymaz gözəlim, vəfa umur can.

Bir gün canıma gərək qıyam ki,
Qəbrim qızına sənin alından.

Heç vaxt dönəməz Nizami səndən,
Bezməz bu qədər əzablarından.

* * *

Mən kiməm ki, söyləyim: eşqim mənə mehman olub.
Dəm vurum ki, içmişik and, əhd olub, peyman olub,

Öz xudavənd hümmətilə mən qulu xoşbəxt edib,
Bəzminə bəxş etdiyim ne'mət çörək yox, can olub.

Nur camalından doğubdur gecələr bayram günü,
Bayrama qurban gərək... canım ona qurban olub.

Ləbi əlçatmaz... düşüb gül qədəmindən öpmüşəm,
Bircə busəm yüz ilin can dərdinə dərman olub.

Açmışam dərdim-sərim, xoşbəxt gülüm xoş dinləyib,
Dizimə köksün qoyub... dəstim ona yorğan olub.

Sübh-naməhrəm gəlib də... eyləyib eyşim haram,
O gedərkən yığdığım həsrət, giley, hicran olub,

"Ey Nizami, əlvida, mən bir daha görməm səni!",
O gülüb getmiş... mənim ağlar gözüm giryan olub.

* * *

Harda ki, sən varsan, qəmər gərəkməz.
Kimin olsan, ona şəkər gərəkməz.



Başının üstündə Ay kimi dursan,
Dünyada kimsəyə səhər gərəkməz.

Mənim kabab olmuş bir ürəyim var,
Daha can gərəkməz, cigər gərəkməz.

Üz göstər... Bu ümid bəsimdir, gülüm,
Baxmaram günəşə, göylər gərəkməz.

Axı əvvəl-axır görünəcəksən...,
Nə lazım, bu qədər dərd-sər gərəkməz.

Sən ki, söz vermişdin, neçin gəlmədin,
Gəlmədin... başqa bir kədər gərəkməz.

Sənin xidmətində qul Nizamiyə
Zülfündən savayı kəmər gərəkməz.

* * *

Təəssüf, min təəssüf ki, təkəm, dildarə möhtacam.
Bu qəmlərdən xilas et gəl məni... qəmxarə möhtacam.

Yazıq könlüm sədaqətdən xəcil oldu, zəlil oldu,
Vəfa qıldım... Hanı əhli-vəfa, bir yarə möhtacam.

Könül aram tapar yalnız dürüst ülfətlə, söhbətlə,
Əgər görsən, nişan ver sən, şirin göftarə möhtaçam.

Mənim ömrüm, günüm qurban vəfa ətri saçan dosta,
Hanı? Gəlsin, verim canım... yanım odlara, möhtacam.

Gecə-gündüz çıraq əldə... gəzib bulmam da bir həmdəm,
Hanı həmdərd, bir həmsöhbət... qırıq bir tarə möhtacam

Kimin gülşəndə varsa bir gülü... bəlkə gülər könlü,
Gəl, ağla qəbrim üstündə, tikana, xarə möhtacam.

Nizami, Cəncəni tərk et, apar ver, şe'ri Şirvanə,
Sözün qədrin bilən sərrafa, tacidara möhtacam.

* * *

Yüz Yusifi Kən'ani
Eşqin ulu qurbanı.

Eşqin ulu qurbanı
Yüz Yusifi Kən'ani.

Yaqut ilə mərcanı
Saçdı lə'binin lə'li.

Saçdi lə'binin lə'li
Yaqut ilə mərcanı.

Hüsnün, həvəsin canı
Sənsən bizim aləmdə.

Sənsən bizim aləmdə
Hüsnün, həvəsin canı.

Alt-üst elə dünyanı
Bir yol qıya baxmaqla.

Bir yol qıya baxmaqla
Alt-üst elə dünyanı.

Sat qəmzəni pünhanı,
Can al da Nizamidən.



Can al da Nizamidən,
Sat qəmzəni pünhani.

* * *

Saçların dağnıqmıdır, aləmmi, ya karım mənim?
Qönçədən ağzınmı dar, ya qəlbi-qəmxarım mənim?

Gecə, ya qəlbimmidir, halımmı, ya xalın qara?
Bal şirin, ya ləblərin, ya şəhdi-gövtarım mənim?

Ayla gündür nur saçan, fikrimmi, ya hüsnün sənin?
Tez dönən bəxtimmi, ya əhdin, ya rüzgarım mənim?

Əyilən və'dənmidir, rə*yinmidir, yoxsa belim?
Sözlərin boşdur, küləkmi, yoxsa əş'arım mənim?

Pərvin-ülkər yaxşımı, dürrü sədəf, ya dişlərin,
Qamətinmi, sərvmi düzdür, ya əfkarım mənim?

İsmətin, səbrimmi kəm, yoxsa gözəllərdə kərəm?
De, sənin lütfünmü çox, ya dərdim, azarım mənim?

De, fələk çox qan tökür, sultan qılınçı, ya gözüm?
Nazü qəmzəndir iti, xəncər, ya bazarım mənim?

Qəlb açan vəslinmidir, yoxsa mənim şeirim, sözüm[1],
Can yaxan hiçrinmidir, yoxsa bu ah-zarım mənim?

[1] Güman ki, əlində tam mətni olmadığı üçün ustad şairimiz Əliağa Vahid bu qəzəlin yalnız beş beytini tərcümə edib. Buna görə tam tərcüməmizi onunla şərikli hesab edir, ustadın xatirəsinə rəhmət və minnətdarlığımızı bildiririk-X. R.

# QƏSİDƏLƏR

## ŞAHLAR ŞAHI

Mən – fikirlər ustadıyam, fəzilətim – bir ummandır.
Zamanlara, məkanlara hökm etməyim səmadandır.

Nəfəsimin ildırımı uca səsli zəngə bənzər,
Bayraqlaşan qələmimin sancıldığı yer-cahandır[1].

Keyqubadın şah tacından çox ucadır qayəm mənim,
Cah-cəlalım, şan-şöhrətim Gurxan geyən qəbadandır[2].

Mən-kainat məş'əliyəm, mən dördüncü qatda-günəş,
Mən – ikinci İsayam ki, xoş nəfəsim bir Loğmandır[3].

Söz mülkündə hakim mənəm. Kim, söyləyin mənim təkin
Sahib-qiran qüdrətilə zəfər qapısı açandır?![4]

Kəşfiyyatçı əql ordumu göndərirəm ön cəbhəyə,
Ədəb fəzlim ayıq-sayıq... silahlanmış pasibandır[5].

Qudrət, cur'ət səxavətdən, söz də məndən yaranmışdır,
Tər-təravət cavanlıqdan, hünər məndən bir nişandır.

Bir ərğənun sədasıdır qəzəllərim qulaqlarda,
Lalə rəngli mey sayağı sözlərim zövq oxşayandır.

Yemlədiyim ulduzlara mənəm verən ilk təkanı,
Pak dirilik suyu mənəm, onlar kasa, ya fincandır[6].



Əbəs yerə dəf çalmaram, nə vaxt çalsam, toy başlanar.
Xutbə uçün nəğmə desəm, sanarlar ki, qəzəlxandır.

Təbiətin, təfəkkürun təməlidir saçmalarım,
Piyaləmin xıltı-mə'dən, bitkilərə nəfəs, candır.

Tazə bəhrə kimi gulən mənim cəsur üslubumun
Yanında h ər bir yenilik xəzəl kimi saralandır.

Hər bədihəm, hər müəmmam yüz-yuz qəlbi fəth eləyir.
Min-min canı satın alan eyhamlarım bir dastandır.

Görsə inçə, pak xəttimi şərəf tapar İbn Müğlə,
Şa'rimdəki cadulara İbn hani də heyrandır[7],

Mən – şe'riyyət səmasında ləkəsiz bir Ay bədriyəm,
Mirvaridə illət olur... məndən uzaq illət andır.

Umsan Misir bələsanı, məni dinlə, baldı nitqim,
Xurma kimi dadlı, şirin, qaymaq tutan bir lisandır[8].

Göy sirrini nurlandıran mənim məş'əl ürəyimdə
Ədəbi bir kitabım var, kamillikdə o, Qur'andır[9].

Zənd oxuyan məbidlərin nəfəsini kəsər nəğməm,
O nəğmə ki, zəbur təki dəhşət saçan bir tufandır...[10]

Hər sözümün qüdrətilə min-min ürək çiçəklənir,
Dodaqlarım güz fəslində yaz nəfəsli tər reyhandır.

Bu şənliklər diyarında səslənməsə nəğmələrim,
Kim bilər ki, müğənnilər muğ meyi tək qəlb açandır?!

Fəxr edirəm sənətimlə. Deyin, necə fəxr etməyim,
Mətləblərim bunca incə, şe'rim bu qədər rəvandır!

Hey çəkilən, hey qabaran bir ümmanın nəfəsiyəm,
Cəzri dürr axtaran kəndir, məddi, bəlkə nərdivandır.

Çəkdiyim hər isti nəfəs dönür eşqə, nəvazişə,
Bir də gördün o, təb'imlə tüstülənən bir mərçandır.

Sədəf kimi halalxoram, gövhər kimi halalzadə.
İki haramzadəninsə mənə uddurduğu qandır[11].

Atasından xəbərsizdir xəbis. Mənim ulduzumsa
Yüksək Yəmən ulduzu tək bicbalanı batırandır[12].

Nizaminin söz köhləni ildırımdır deyənlər var,
Dərd dağının altında, de, görünərmi məgər çıdır[13].

Ah, bu qədər öyünməklə həm xəciləm, həm peşiman.
Öz-özünü mədh eləyən içəridən natəvandır.

Yetər, bağla xəzinəni, aç incilər sandığını.
Söz incisi fazillərə ən qiymətli ərməğandır.

## MƏTLƏ'İN DAVAMI

Kisədə bir muncuq da yox... mən neynirəm dürr saçmağı?
Boşdur cibim... kimə lazım sözüm lə'ldir, bədəxşandır?!

Bir özünsən, bir də könlün. Mey bilib iç köz yaşını,
Sübhə kimi öz qəlbinlə ver baş-başa, döz, amandır!

Halallığım ucbatından mən çəkəni, de, kim çəkib?
Onun çiyni, kürəkləri, mənim qəlbim qara-qançır!

Könül, din də əldən gedib, yenə şöhrət həvəsliyəm,
Baş papaqsız, ayaq yalın... ancaq ruhum pəhləvandır.



Yer dibindən göy fövqünə can atmağım bəlkə hədər,
Lövbər ata bilməyənə yelkən açmaq qadağandır.

Mən nə mahir hiyləgərəm, nə də nadir bir oyunbaz,
Ki, görələr göz yaşım al, rəngim-ruhum zə'fərandır[14].

Bu nə sözdü, söyləyirəm: söz tanrısı, söz şahıyam.
Boş danışıq karvandakı dəvə zəngi, ah-fəğandır.

Qoxuduğum söz göynəyi bir hörümçək torudur ki...
Hər şe'rimin bər-bəzəyi quru qəfəs, quru candır[15]

Yersiz, yurdsuz bir it kimi hey qovulmaq ar deyilmi?
Fələk deyir: – Cəhənnəm ol, bat quyuda, çək, çəzandır.

Hümmət sikkəxanəsində öyünümmü mis qurışla?
Fil önünə necə çıxsın türkmən köçü fağır-fağır?[16]

Ye'r fənni nə şeydi ki, onunla sən fəxr edəsən?
Bilmirsənmi "yaxşı şeir-ən çox yalan olanıdır"[17].

Hansı elmin söz köynəyi çıxarılsa, yoxdu fərqi,
Məğzi geyər başqa libas, ya zərxara, ya da cındır.

Fəqət şe'rin zər donunu çıxarsan, heç nəyi qalmaz.
Nə yazılar, nə oxunar, görərsən ki, lüt-üryandır.

Amansızam, mən hər şeyi əks edirəm ayna kimi,
Güvəndiyim bir qala var: üzüm bərkdir, canım candır[18].

Bəzən mehdən belə qorxan bir çırağın şö'ləsiyəm,
Quruyuram ayaq üstə. Addımım ləng, özüm ağır.

Mən bu dünya çəkisində bircə dirhəm deyiləm heç,
O dünyada qızıldan da ağır gələn bir bahadır.

Mənə hümmət yolu göstər, pərvərdigar, ey tacidar!
Xilas olum o yoldan ki, bizi yoldan çıxarandır.

Saç feyzini, qıl mədəd ki, şirni verim ariflərə,
Görsün mənim mehmanların bu mehban da bir mehbandır.

Təkcə sənə sığınmışam, özgə heç bir kimsəyə yox,
Ən'am, ne'mət istədiyim elə yalnız bu ünvandır.

Vur naxışlar evində sən yenilərimə yarlığını,
Əl yelləyim köhnələrə, köhnə hikmət baş qatandır[19],

Hasarındır könlüm sənin, xəbislərdən gözlə məni:
Bir yuvaya sığa bilməz mələk, şeytan... onu qandır[20].

Etmə tənbeh, mən kiçiyəm. Görmə eybim, hələ çiyəm.
İkiüzlü, ondilliyəm, məni sağalt, məni yandır.

Keç suçumdan, taqsırımdan, qıl nəvaziş, oxşa məni.
Xəcalətim zərurətdən, üzrüm bəlkə qəzadandır.

Hər varlığın üzərində həlak, ölüm damğası var.
Ölməz, vacib bircə sənsən – kainatı yaradandır.

Mənə elə nişan ver ki, tapa bilim nişanəni,
Yox, yanıldım, keç suçumdan, xaliq axı binişandır[21].

Sənə səcdəm sayəsində çarpır, hələ sağdı qəlbim,
Bu səadət ucbatından varam, varlıq cavidandır.

Mən çarmıxa çəkilmişəm öz əlimlə öz cismimdə,
Xilaskarım əgər varsa, tək özünsən, tək yəzdandır.

Ulu həzrət, mənə barı bircə kərə yetir diqqət,
Dərd ümmanı ürəyim də görsün bir yol şadimandır.



Nizaminin səhvi olsa, heyrətlənmə, əfv et özün,
Kimsə qaçıb qurtulammaz, tale özü hökmrandır.

İlk nəfəsin sevincini mənə özün bəxş etmisən,
Son nəfəsdə üstümdə ol, ölməyimə haqq qazandır.

## BU DÜŞƏRGƏ

Zınqırovlar zınqıldadı, budur, yola düşür karvan.
Sən bu qədim düşərgədən can mülkünə yönəl, ey can![22]

Çalınan zəng öz naləndir,-karvanına ulu başçı,
Sən bu karvan zəncirində zəng səsinə həmdəm, hayan.

Oyunçaqsan, nə qədər ki, sən bir qapı cəftəsisən,
O zəng kimi nalə çək, get, istəmə, ya istə aman[23].

Bu vadidə təhlükə var, buna görə inləyir zəng.
Bəs bu cəftə neçin inlər? İçi boşdur, özü nalan.

Dərd sədalı zəng üzürlü, cəftə ondan üzürludür,
Ürəyinin yoxluğundan çəkir nalə, qılır əfqan.

Dörd hərfdi "çahan" sözü... qoy üstə dörd barmağını,
Yerdən göyə məsafə də dörd barmaqdan kəmdir, inan[24].

Cahan səni puç etməmiş, sən cahanı puç bil, çəkil.
O, üstündən xətt çəkməmiş, sən üstündən xətt çək əl'an.

Çək dünyadan gözünü ki, səni çahil bilməsinlər,
Ağır olsan, ağır zəncir açılmaz əl-ayağından.

Ağaların libasına zi'nət olan hər nə varsa,
Təbəssümlə bir əl yellə ona, ayrıl bu dünyadan.

Səadəti çahanda yox, dində ara... çün bu bağda
Yusif köynəyinə oxşar nə ətir var, nə ərğəvan[26].

Boğ şəhvəti, dinə guc ver... uzərliyin, udun kullü
Azsa, demək, rayihəsi vurar səni lap uzaqdan.

Bilik bizim darğamızsa, tamah onun qonşusudur,
Sağdı Rüstəm, amına durur hələ ağ div, Mazandaran[27],

Yürü hikmət yolu ilə, qovuş qeybin çeşməsinə,
Eyib, qüsur axtarmasan, min bir hikmət qavrayarsan.

Həm fələyin ulduzlarla unsiyyəti xoşagəlməz,
Həm də yerin təbiəti insanlarla uyuşmayan.

Əgər Qur'ana əl bassan, ulduzlardan qurtularsan,
Qur'an Mehdi beşiyidir, Mehdi-sahib axir zaman[28].

Hər nə Qur'an dəzgahında toxunmayıbsa, rədd elə,
Hər nə deyilsə imandan, qov, kənar et astanandan.

Köhlənini Tanrı əmri, peyğəmbərin şər'ilə çap,
Tanrı nə cür söyləmişsə, qurulmuşdur o cür cahan[29].

Şəriət bir xidmətçi tək hazır durub qarşındaca,
Təmənnasız qula qul ol, sən də çalış cannan, başnan.

Dünya-möhnət burulğanı... gözun, könlün varsa, yatma.
Burulğanda mürgüləmək aman vermiş kimə, haçan?

Bu gəmiyə minmisənsə, gecə-gündüz ayıq davran,
Yalnız ayıq davranışla qalxır yelkən, sapmır sükan.

Sən insansan, mələk qəlbi, div xisləti sənlə əkiz...
Nədən səndə nişan varsa, o surətdə olaçaqsan.



Eyni insan övladını neçə rəngdə görmüşük biz,
Bir dəmirdən nal kəsilir, o birindən süngü, qalxan.

Hər bir qara hindlinin də öz nəsəbi, öz yolu var:
Biri oğru, biri doğru - haqqa keşik çəkən arslan.

Yer xalçası – qanlı bir teşt, bic doğulmuş nəfsin də – şam.
Nə vaxtacan xizəran tək o xalçanı mıxlayasan?[30]

Sən göy rəngə meyl eləsən, qalxar başın fələyəcən,
Qırmızı, ya sarı umsan xəzan kimi kül olarsan[31].

Cəm halında mişk ahunun köbəyində, dar kisədə...
Yayıldımı, ipək olur, tirmə olur ona yorğan[32].

Tozlu xirqə geyənlər var, qəlbi səhər, beyni künət.
Evdar qadın kül altında köz saxlayar zaman-zaman*?.

Fələk damı sakininin geyindiyi göy olsa da,
Arpa cadı, göy-göyərti əskik olmaz masasından.

Bu nəsihət vacibdir ki, zorlə insan ulu olmaz.
Yüyürməklə keçi artmaz, ibrətlidir bu söz, dastan.

Sarı qızıl yaranıb ki, bəxş edəsən insanlara,
Sarılığı sevirsənsə, buyur, bağda bol zə'fəran[33].

Bərbəzəkdən bir fayda yox... qızıl tapsan ver möhtaca,
Ömrün boyu qızıl kimi həm qoca ol, həm də çavan.

Nə qədər ki, sür-sümüyün dönüb sürmə olmayıb, qalx!
Şəriətin torpağıyla sürmələnib hümmət qazan[34].

Cilov çəkən qul olmamış, daşı sultan damğasını,
Xəlifənin həlqəsini öz boynunda güc, qüvvə san[35].

Boyun midbər daşımalı, budsa damğa... bu səbəbdən
Boyun əti dadlı olur. köklük buda gətirir can[37].

Göz alması – səma... bir cüt qara kövhər işıq alır
Səlçuqlular hilalından, Abbaslılar bayrağından[38].

O bayrağın göz qarası qoy heç vədə əskilməsin,
Əsgilərsə ağ rəng, nə qəm, sökülləcək onsuz da dan.

Qoy qaradan aga qədər hökm eləsin bu qara rəng,
Bu qaranlıq sayəsində zənci belə şad, xuraman.

"Sultan!" demək nəyə lazım? Səndən betər quldu sultan,
Ona qul ol... sultanlara taç verəndir o hökmran.

İstəsən ki, o dunyada əzizləsin ağan səni,
Bu dunyada qullarını sev, əzizlə bəri başdan.

Bir yazığın saçlarına sən əl çəksən nəvazişlə?,
Məzarına günəş doğar, qiyamətli odlanmazsan.

Olma zalim. çün tərkinə ədaləti bağlamışlar.
Adilliyi bacarmasan, barı zülmu saxla, dayan!

Ölkə düşmən kəsiləcək zalimlərə qiyamətdə,
Bir quyudur alçaqların yolundakı hər nərdivan

Mələk səni şeytanlardan xərac alan tanısın qoy,
Heç bir kəsin çörəyinə olma bais, az havalan[40].

Bir içim su, çörək üçün hər ayağın tozu olma,
Gör nə günə saldı fələk, Adəm ilə Hüseyni an[41].

Cüllab, şərbət olsa belə özgə arxdan su içmə sən.
Göz çək özgə çörəyinin hətta ayə naxışından.



Hümmət şiri ol, ye ancaq öz əlinin qazancını.
Ovla... çölün heyvanları mehman gəlsin sənə, mehman.

Gör hardadır gucsüzlüyun, əl çək "Mən! Mən!"
demәkdәn... ey
Dünən kölə, bu gün əmir, bayaq xəstə, indi Loğman42.

Gözlərində yaş qalıbsa, ağla, qorxma naziklikdən,
Mirvarini seçmək üçün nazik sapı seçir insan.

Qaldır məzar pərdəsini, gör zamanın əzizləri
O pərdənin arxasında nə gündədir... düşün bir an.

Nuşirəvan qafasında ətək-ətək qum, daş-kəsək.
Yəzdgürdün çələngində xırman-xırman qaratikan.

Daş bağa tək zireh geysən, balıq kimi pullansan da,
Sən də bir gun bu çovğunda qalxanını tullayarsan.

Bu göy beşik altında sən cocuq kimi gəzmə, sakın,
Dayə deyil, əjdahadır qarşındakı namehriban.

İlan yatır kafur üstə, əjdapa da xəzinədə
Kafur saçlı çal kaftarın gəl baş çıxar oyunundan.

Di gəl qorxma oyunbazın möhrə-möhrə daşlarından!
Əlində həm sapandı var, həm gərilmiş qövs-kaman[43].

Kor zəmanə görə bilmir mən gözlərin sevinciyəm.
Nə qəm, şadam zəmanənin gözlərinin korluğundan.

Fəzli inkar edənlərin gözlərinə qoy ağ gəlsin.
Bu cür məl'un köpəklərə sür-sümük də çoxdur, inan.

Mən Gəncədə günahkar bir keşikçiyəm xəzinəmə,
Yəməndə suç bağışlayan, Xütəndə qandan qurtaran[44].

Göz yaşınla dəstəmaz al, şərbətin də-ağız suyun.
Təşnəliyə tab et, könül, nə qədər ki, bu yurddasan.

Nə qədər ki, daşda qalıb... gümüş almaz qiymətini,
Nə qədər ki, sədəfdədir, dəyərsizdir inci, mərcan[45].

Otuz yaşlı, ey Nizami, vaxtdır, çəkil bir guşəyə,
Mən verdim öz öyüdümü, necə qansan, eləcə qan.

Nə vaxtacan deyəcəksən:-Ey Kə'bə, mən xidmətçinəm,
Çağırmayıb... getməmisən, barı xidmət qıl uzaqdan.

## QOCALIQ

Bu vadidə qocalıqdan bükülmüşdür belim, inan.
İndən belə nə gözləyim əbədiyyət ağacından?

Barsızlaşan bir ağacam, nə kölgəm var, nə də meyvəm,
Qasırğalar, sərt küləklər döymüş məni zaman-zaman.

Qamətimin külüngüylə mənə qəbir qazır fələk,
Ağ saçlarım xəbər verir ağ kafurun qokusundan[46].

Qara mişk ağ nafədəndir... bu özgəlik bəs nədəndir –
Nə cür çıxdı bu ağ nafəm saçlarımın qarasından?!

Ağzım inci qutusuydu, iki sıra gövhər dolu.
İnciləri qırdı bir-bir hansı rüzkar, hansı tufan?

Dan ülkərim yandı; söndü ümidsizlik üfüqündə,
Ulduz-ulduz gövhərimi kim apardı sandıqçamdan?



Günüm batdı, qaş qaraldı, bayquş kimi ötürəm ki,
Axirətə uçum dedim bu pərişan xarabadan.

Mən bəhrəli bir ağacdım paklıq, ismət gülşənində,
Bel büküldü, dağ başımı yerə doğru əydi zaman.

Mən ikiqat olmuşam ki, ətək qana bulaşmasın,
Ciyərim qan, gözüm giryan, gör nə günə qaldım, aman!

Saçlarımın qarı qalın... qaş ağappaq, baş ağappaq.
Vucudumun damı çökur... mən qorxuram bu qovğadan.

Bilirəm ki, dağ başında qar ərisə, sel su gələr,
Ah, mənimsə qan-yaş gəlir gözlərimin bulağından.

Zəiflikdən üzülmuşəm, sürünsəm də kölgə kimi,
Bu torpaqda məndən heç kəs görə bilməz bircə nişan.

Kimsə məni salmaz yada, çunki elə haldayam ki,
Day keçmirəm heç bir kəsin urəyindən, yaddaşından.

Kaman kimi əyilmişəm, qaldırmışam qalxanımı,
Sığınmışam öz özümə ox əcəlin qorxusundan.

Nə çür çıxım bu quyudan, nə cür qalxım son zirvəyə?
Qol-qanadım sındırılıb, gedib bədən, üzülüb can.

Dunya bağı ələk-vələk, daş yağdırdı zalım fələk
Bar-bəhrəmi kal-kal tökdü hər tərəfə budağımdan.

Meyvəsini tökən zaman, bir qaydadır, ağac qalxar.
Bəs nə uçün mən əyildim, vurdu məni hansı xəzan?

İki çiynim arasında başım batmış, bəxtim yatmış.
Sorun, nədən qorxuram mən? Qəfil ölüm qılıncından.

Son səfərə yollanıram, dostlarıma məhəbbətim
Zəifləmiş gözlərimdən axıb gəlir mərcan-mərcan.

Gücsüzlükdən sığınmışam dərd evinin buçağına,
Taqətsizəm, nə cür keçim bu qapının kandarından?

Bu kitabda oxunmayan bir kəlmənin son hərfiyəm,
Nə torpaqdan xəbərim var, nə ulduzlar dünyasından.

Göz önündə alışsa da günun taçı, Ayın bədri,
Daha gözüm seçə bilmir bə'zən ağı heç qaradan.

Ömür keçdi, nə qazandım min günahdan, suçdan savay?
Xəlq önündə xəcil oldum, xəlq tələbkar, mən natəvan.

Mən zəmanə məclisində nə cür içim şadlıq meyi,
Qədəh tutan əlim əsir, qədəhim qan, əlim əlvan.

Əcəl mənə qonaq gəlib, həyatımdan savay heç nə,
Heç nə qəbul etmir zalım sərvətimdən, var-yoxumdan.

Daddım, həyat süfrəsindən bir şirinlik görmədim mən.
Damağıma zəhər sıxdı şəkər, süd də lap binadan.

Qəddim nəçin əyilmişdir? Çünki əcəl qucur məni
Həyat mənlə vidalaşır, mən köçürəm bu dünyadan.

Elə gücdən düşmüşəm ki, mən qorxuram əzalarım
Bir-birindən ayrılsa da, ata məni dağ başından.

Hesabdarın barmağı tək gah enirəm, gah qalxıram.
Ayı, günü saymadayam, bu yollarda gözüm giryan.

Bu gülşənin ab-havası, inan mənə düşmür daha,
Xızrın suyuyla İsanın nəfəsi də zurur ziyan[48].



İldırımmış cavanlığım, bircə anda çaxdı keçdi.
Buludlanan gözlərimdən yaş axıdır həsrət, hicran.

Nağd gəncliyim, bu yollarda qızıl kimi düşdü itdi.
Ayağımın altına mən hey baxıram, belim kaman.

Kölgə kimi köməksizəm, dayağımdır yalnız divar,
Varmı yerdən qalxmağıma başqa çarə, başqa dərman?[49]

Fələk məni cəzb elədi rayihəsi, rəngi ilə,
Uşaq kimi aldadaraq gəncliyimi aldı əl'an.

Gəlir şadlıq, şənlik səsi, ...heyhat mənim ağ saçlarım
Qulağıma pambıq taxıb, kar eyləyib məni dövran.

Hey yıxılıb qalxa-qalxa yol gedirəm ruzu üçün.
Dən daşıyan qarışqayam, əqlin gözü ilə baxsan.

Yüz işdəklə min daş atdı, gövhərimi qırdı fələk,
Nə gözləyim zər yerinə daş işlədən bu sərrafdan?

Gözləri eyb axtaranlar gizlətdilər hünərimi,
Ləyaqətim pis görünür hər eyibdən, hər qüsurdan.

Mə'rifətin şö'ləsilə işıqlanmış bir Ayam mən.
Ay haləsi əskik olmaz həlqələnmiş vücudumdan.

Min düyünlü bir kələfəm, azca qalan həyatımdan
Hansı düyün açılacaq, şəfa verər hansı Loğman?

Mənim ömür çinarımı yıxmaq üçün enir fələk.
Ayağıma balta vurur, qulpunacan baltası qan.

Nə' mə'nadan xəbərim var, nə surətdən mə'lumatım.
Mə'nalar da, surətlər də itdi gözdən, çıxdı yaddan.

Elə ağır günahkaram, cəhənnəmə vasil olsam,
Cəhənnəmin sakinləri qaçar mənim dörd yanımdan.

Mən bu usyan bağçasının əyilmiş bir ağacıyam,
Cəhənnəmdə yandırmaqçün qurutmaqda məni yəzdan.

Qələminin ucu ilə qəza mənim səhifəmə
Xəta kəlməsindən savay söz yazmadı bu vaxtacan.

Peşmanlığın göz yaşıyla-mən silimmi bu kəlməni?
Nə fayda ki, taleyimə tabe deyil qəza-filan.

Haqq qəzanın tərəfində... mənsə məğmun, qolubağlı.
Xəyalına nə gətirsən, inan, pisəm hamısından.

Zay etdiyim həyatımın qisasını alan olsa,
Ona mənim qanım halal... müfti ağıl, haqdı fitvan.

Sinəm yatmış bir cəhənnəm... bir gün qalxıb alovlansa
Atəşindən bəlkə qaynar bu çərx adlı mavi ümman.

## KƏ'BƏ SULTANI

Odur Kə'bə sultanı yeddi ölkə təxtində,
Qara çətir başında, yaşıl diba əynində1.

Dördkünc, uca təxtində Xosrovlar tək əyləşib.
Həlqəsinin pərgarı göylər dairəsində2.

Ərəb əndamlı türkdur, hər gun min könül ovlar,
Ənbərdən qara xal var nurlu, ağ çöhrəsində[3].

Xalı tək olduğundan dərd də, bəla da tək-tək,
Qapı həlqəsi kimi daralmış, azdı fitnə[4].



Tərəzisi qızılın saflıq ölçüsü olmuş.
Arpa boyda qusur yox daşının çəkisində[5].

Müşkü ipək içində saxlayırlar, qaydadır,
Müşk xalı gizlənib yaşıl ipək içində[6].

Yolunda ehkamçılar "ləbbeyk" nə'rəsi çəkir,
Necə ki, çəkəcəklər məhşər kəşməkəşində.

Gümüş navalçasında kövsərin şirin suyu,
Tuba şaxələnibdir sütununun çiynində.

Gəmiçilər yelkənsiz, lövbərsiz qalar bəlkə
Sükanı bərk tutmasa o, dünya gəmisində[7]

Hündür divarı-xətkeş, mehrabı-paytaxt olub
Altı yön pərgarına inayət cədvəlində[8].

Torpağının göbəyi saçır ərzə rayihə,
Min-min könül saflaşır ehramının dibində[9]

Daş xalçası üstündə qartal kimi oturmuş,
Üzərindən uçmamış hətta bir göyərçin də[10].

Ulu Tanrım, macal ver Nizamiyə, ölməmiş,
Ürəyim dağa dönsün onun ziyarətində[11].

Hayqırım ki, min şükür, ey Kə'bənin sahibi
Kəbədən ətir saçır şahlığın da, ədlin də!

Təxtdə Kəsradan üstün, at belində Səncərdən,
Gözü var onda min-min Kəsranın, Səncərin də.

Dövlət öz əlindədir, ordular öz əlində,
Odur ərzin-Darası, Nüsrət əd Din Bışkin də[12]

Məlik şah oğlu Mahmud, Firidun oğlu Cəmşid,
Müzəffər oğlu Mənsur, Məhəmmədəli Bəkir də[14].

Ulduzlar içrə günəş, fikirlər padşahı.
Dövlət öz əlindədir, ordular öz əlində.

Firiduna bayraqdaş, İskəndərə rütbədaş,
Tacidarlar başçısı, şəhriyarlar fövqündə!

Sayəsində rəiyyət coşqun əməklə məşğul,
Dövlət, əmin-amanlıq, sülh onun kölgəsində!

Dostlara qızıl səpir bahar yağışları tək.
Düşmənlərlə çarpışır şir tək yeri gələndə.

Kiminsə ağ bəxti var, kiminsə bəxt ulduzu,
Odur bəxti açan da, parladan ülkəri də.

Qeyzi, qəzəbi coşsa, xaqan təxti titrəyər,
Qeysər tacı dağılar... tufan yatar zəhmində.

Lütfü gülsə, gözəllər bəzək, çələng aparar,
Şahlar çatar sərvətə səxa xəzinəsində.

Xidmətindən qaçanın boynu keçər kəndirə,
Ya da qolunda qandal yatar zindan küncündə.

Çıxdı fikir taxtına, yalnız onda inandıq;
Bir şəxs iki aləmi yaşadarmış özündə[15]

Ey xəzinələr saçıb düzü dağa döndərən,
Ümman bircə damladır səxavətin önündə.

Sayəndə zülmün cismi üzülüb çöpə dönmüş,
Ədalət şaxələnmiş sənin himayətində.



Zindansız, qandalsız da yıxar düşməni qeyzin,
Oxsuz, qılıncsız belə ölürlər nifrətində.

Əsrin nərdtaxtasında zəri sərrast atırsan,
Rəqibin yolu bağlı - altı xanəsi səndə.

Şahın qədəmlərinə nə qədər inci səpdim,
Nə daş göründü, nə zər, heyhat, tərəzisində.

Nizami töhfəsini rədd etmə, ey ulu şah.
Min-min xəzinə heçdir sənin töhfən önündə.

Bu qara, ağ aləmdə hər gecən gündüz olsun.
Gecən gecəndən üstün, gündüzün gündüzündən.

Uca şahlıq təxtində daim gəncləş, yaşıl qal,
Aləm Tanrının olsun, bəşər sənin hökmündə.

## MÜŞƏŞDƏR

Toqquşur Ayla Gunəş... göy itirir cüt zərini.
Tutulur altın xana... qoy qapasın dəftərini[1].

Gecə gündüzlə bir olsun ki, qarışsın qara, ağ.
Axşamın alnına çırpsın da səma dan yerini[2].

Parçalansın qoca Yer kurrəsi, sussun da sular.
Tərkidir dörd okean mədd, cəzr şakərini3.

Uçur ağzında yuyən, köhlənə bənzər gərdiş,
Hələ var vaxtı, qoparsın da yerin mehvərini[4]

Nola, yüngül dolana aləmin ustündə fələk,
Yüngül hərlənsə dəyirman itirir ləngərini[5].

Budrəyən, mürgü vuran bir öküz üstündədi Yer,
Hər nə qurduqsa qırır, qəbrə qoyur əksərini6.

Fələyin Şirinə pəncə uzadır Yer Öküzü,
Gücü varmı, dizinin göstərə bilsin girini!

Çoxunun it qanı var... əhdi dönüb, eşqi sönüb.
Qorxuram tərk eləyə Şir Öküzə öz yerini[8].

Şad olurmu bu yaşıl qübbədə qartal, qaraquş?
Nə qədər güllə-qəfəs qırdı göyərçin pərini[9].

Gəmi sürsən, fələk ümmanı səni qoy udsun,
Təslim addımı atıb tapşır ona lövbərini[10].

Qədəmin körpüyə dönsün bu yaşıl Dəclədə qoy,
Xızr tək tərk elə Bağdadı-cahan dilbərini[11].

Sən bir Allah ilə ol, ustünə düşməz gilə də,
Basıban aləmi sel tutsa da bəhrü bərini.

Hələ gənclikdə bacar nəfsini öldür ki, ilan
Qocalıb əjdərə dönsə itilər neştərini[12].

Bircə addım ha düz at, sərv tək ol şad, azad,
Ahunun arpa qədər mişgi tutur bir dərəni.

Elə bir sənətə baş qoşma ki, lap haq da desən,
Boş, yalan zənn eləsinlər sənin haq sözlərini.

Ülvi, düzgün yaşa ki, düz sayıla əyrin də,
Səni görcək tanıya haqq özünün rəhbərini.

Bata bilməz, əyilər div də, şəyatin də sənə,
Təki tərk etməyəsən ədl və din səngərini.



Ə'fi zümrüd görə, dözməz, gözü dərhal kor olar.
Kar olar, dinləsə İblis Qur'an səslərini13.

Sən Xəlil tək çevik ol, haqqa itaət yolu seç,
Yolkəsənlər sənə yol göstərib atsın bərəni[14]

Elə qışqır ki, oyansın ölü düşmüş ürəyin,
Yoxsa məhşər də oyatmaz keyimiş hisslərini.

Necə hündürdü bu gümbəz, verəməz əks-səda.
Gur səsin etsə də mat şöhrət, hünər Səncərini[15]

Tapımaz hər nalə çəkən çeldə Musa atəşini,
Xızr tək hər su içən candakı peyğəmbərini.

Neçə ümman acısı dadmalısan, ta verəsən
Bir şirin qətrə udan ağ sədəfin gövhərini[16]

Almasından pası sil, ədböcəyə dəyməz adam,
Necə gör bəslər o zülmətdə kiçik ülkərini.

Günəşin şamı hələ qanın ilə al boyanır,
Barı pərvanə tək ud yeddi çıraqdan birini.

Başçı kimdir? Başı ustündə durub xidmət edən.
Əyri çövkan və top ilə dolanan dairəni[17]

Xidmət et, xidmət edən qalxır, ulu xadim olur.
Hamı məhşər günü hakim bilir öz sərvərini[18]

Darğa insaflı olub çatsa əmir mövqeyinə,
Əmir adillik ilə şah seçilər-güclü, yeni.

Sən mədəd qıl hamıya, hamı sənə yar olsun.
Sənə kim yardım edər, qırsan əgər yan-yörəni[19]

Ruzu ver, ordu yarat. Adi qarışqa... başına
Ruzu tapmaqla yığır ən yaxın həmdəmlərini.

Çoxyeyən çox yaşamaz... ömrü gödəkdir zəlinin,
Qansoran tez itirir öz qanının cövhərini.

Barama qurdu kimi sən geri qaytar nə yesən,
Ağzının şəhdi ipək tək bəzəsin qoy sərini.

Yaşa daşlıqda bitən barlı ağaclar sayağı,
Sarmaşıq olma, tanıt torpağa öz köklərini.

Qaniçən öz qanını hamıdan əvvəl axıdır,
Günəşin qanın içən Ay dağıdıb mərmərini[19].

Yola çıxmaq diləyirsən, bir ovuc dən saxla.,
Bircə sünbüllə də tarla yaradır bənzərini[20].

Qorx o gündən ki, qapa baltanı, məzlum qalxa,
Hər telin tuşlaya bağrına qisas xəncərini.

İki aləmdə sənə kimsə güzəşt etməyəcək,
Vur öz insafın ilə sayğaca xeyrü şərini.

Bəhmənin sağ qolunu qırdı bir əjdərmi, nə qəm,
Yada sal əjdəri məğlub eləyən heydərini[21]

Sən polad ustası, incə, ulu Davud kimi ol,
Yumşalıb mum kimi öpsün də polad əllərini[22]

Ey təbiət balası, tə'b ilə sənət dəlisi,
Yox təəccüb, arayır hər cocüq öz madərini.

Sən kamal əhli, cəsur, həzrəti İsa kimi ol,
Ona çarmıxda fələk verdi cahan minbərini[23].



Fal açıb "ulduzu sönmüş!" demə... sonsuzdu səma,
Niyə bədnam eləyək gəldi-gedər ülkərini?

Suyu torpaq tanıdar, torpağın ovçundadı su,
Oda kim şö'lə verir? Dinlə cahan yellərini[24].

Ayağın heçliyi tutsun, əlini varlığa at,
Ta ki, göylər tanısın yerdə həyat məcmərini.

Sal yada son gününü, etmə təbiətlə qiyas,
Başqa bir sən görəcək torpağa gömdükdə səni.

Burda məzlumluq edən orda ulu bir şah olu,
Burda sultanlıq edən orda bir heç, xar, dəni.

Bir sabundur bu günəş çərxi-fələk təştində,
Ruhların paltarı ondan tapar öz ənbərini[25]

Mən əlimdən bu sabunla yudum aləm tozunu:
Sən yumursan, yuma, toz xoşlar həyat əntərini.

Ey Nizami, hələ boynunda xəyali çənbər,
Aç başından fələyin, tulla yaşıl çənbərini[26]

Beş dəfə zəng çalınıb, çatdı vida vaxtı, tələs,
Bəlkə söz mülkü özünsən, tapar el söz nərini.

Bəxtini sözlə sına, bir elə kimyadı ki, söz
Qara bir daşı verib ondan alarsan zərini.

# RÜBAİLƏR

Özün yaxşı bilirsən: etsəm səndən şikayət.
Hansı həddə yetişər o şikayət, ey afət!
İzn versəydi könlüm, bu pərdə olmasaydı,
Nələr törətdiyini qılmazdımmı hekayət?!

Baş saldıran sünbuldə üsyankarlıq gördülər
Bəlkə çinin ağzına buna görə verdilər.
Xırmanda vəllə döymək... qəlbi soyutmadı, yox,
Dəyirmanda üyüdüb azca nəfəs dərdilər.

Üzun mişkə bənzəyir, hörüyun qandı, canan.
Dəlilim var, sözlərim haqdı başdan, binadan.
Husnün mişkdir sənin, hələ nafə görməmiş,
Amma nafədən gəlir zülfun ucundakı qan.

Ədalət yer uzundə zəfərlərin tacıdır.
Zülm-dərd ağacıdır, yalnız şərin tacıdır.
Səxavət... pərdəsilə hər cür eybi gizlədir.
Xoş tale, bəxtəvərlik – hünərlərin tacıdır.

İndi ki yoxmuş ümid axşamdan ta səhərə,
Yalnız xeyir toxumu səp həmişə, hər yerə.
Heç bir kəsə qalmayıb dünya, bu gidi dünya,
Yaşa dostun könlünə qüvvət, ruh verə-verə.

Kimin ki, deyilməsi qeyri-mümkün dərdi var,
Ürəyindən dərdini edə bilmir də kənar,
Ətri aləmi tutmuş, rəngi göstərilməyən,
Sənin bağında bitmiş qəribə gülə oxşar.



Heç xəbərin oldumu, mələk qızı, ey nigar!
Sandığındakı dürrü çaldı, neylədi rüzgar:
Tutdu ağ biləyindən, apardı göy sahilə,
Dənizə tə'nə vurdu:-Dürrü belə doğarlar!

Hərgah, ah-nalə qılsam, kim yetəcək dadıma?
Səbr etsəm, ömr azalar, çatmaram muradıma.
Yalnız səni yad edib nəfəs alıram, ey dost,
Ey kaş, mənim dərdimi verməsin Allah sana.

Kimsəsizlik yamandır, həzər, ey ulu Tanrı.
Yazıqdır o kimsə ki, yox bir yarı, dildarı.
Qanın varsa, ayıq ol, tap, həmdəmsiz keçirmə
hətta qan bahasına tapılmaz bu anları.

Ey qəddi baş uçaldan, qürur doğuran gözəl,
Gözləri ox atmağa pusquda duran gözəl!
Gərək kəmər yerinə bağlayaydım zülfünü,
Gərək sənin yolunda can verəydim, can, gözəl!

Günəş üzlüm, səslənir əraq pərdəsi, yatma!
Saqi deyir, sənindir nur piyaləsi, yatma!
Hələ dan yeri uzaq... günəş də mey küpündə.
Mürgüləmə, səninəm, gözüm giləsi, yatma.

Bizim manqalımızda daim ud kimidir can.
Bizim vətənimizdə həmişə qan axır, qan.
Canım, gözüm, barı heç baxmırsan da gözucu,
Bu qədər yaxın ikən, neçin bizdən uzaqsan?

Sən günəş mövqeyində... biz yaramaz, yarıtmaz.
Məgər sənə baxmağa layiqikmi heç bir az?
Vüsalına Keyqubad, Xosrov da yetə bilmir,
Xam xəyala düşmuşuk, əfv elə, ey sərvinaz!

Mənim sevinc tarlamı suvardı qəm buludu,
Kef-damağım bir əzab şilləsinə tuş oldu.
İndi nə çür sevinim? Sevinməyə səbəb yox.
Kədər qanımı içdi. Dərdimə dərd qoşuldu.

Sənin səxavətindən hanı bizə düşən pay?
Bizə baxaydın gərək... Sözə baxmadın, eyvay.
Bütün əzablarına şərik oldum, bilirsən,
Bir şüa da qıymadın, aləmə nur salan Ay!

Umud varmı çıxmağa bu axşamdan səhərə;
Yaxşılıq toxumu səp barı yaxşı qəlblərə.
Heç olmasa dostların könlünü oxşayaq, gəl,
Kimə qalıb bu dünya, de, hansı bəxtəvərə?

Külüng vurduq, nə qədər dağ çapdıq, keçdi getdi.
Ətək çırpıb sovuşduq, cavanlıq keçdi getdi.
Əldən verdik oxuyan, nəfəsli dürdanəni
Hanı ondan bir səda... yox artıq... keçdi getdi.

On namə yazdı Tanrı doqquz fələk altında,
Altı yön, yeddi ulduz, səkkiz behişt açanda.
Üç ruhdan, dörd ünsürdən, beş duyğudan sənin tək
Bir kimsə yaratdımı məgər iki cahanda?!

Dərdli açıb dərdini hər yetənə söyləməz.
Hər yetənə deməklə kədər candan silinməz.
Nə qəribə gül açıb sənin bağında, ey dost,
Ətri tutub aləmi... rəngi, adı bilinməz.

Ey göz, məgər görmədin yolda canan gedirdi.
Məni ağlar gördü... bəs neçin xəndan gedirdi?
İkiəlli yapışdı canım ətəklərindən,
Heyhat, məhəl qoymayıb o, xuraman gedirdi.



O gündən ki, eşqinin daddım qəm şərbətini,
Verdin mənə dünyanın min bir müsibətini.
İndi canım dişimdə... nə cür deyim dərdimi?
Dərdi açıb deməkmiş dərdlərin ən çətini.

Ey mələk qızı mələk, ey dürdanə, ey bahar!
Heç xəbərin oldumu, bir gün neylədi rüzgar
Tutdu ağ biləyindən, apardı göy sahilə,
Dənizə tə'nə vurdu:-Dürrü belə doğarlar.

Dedim: – Sözüm kaş sənə insaf açarı versin.
Eşqim -Allahım mənə dözüm vüqarı versin.
Dedi: Bunca duadan axı nədir məqsədin?
Dedim: Vüsalın sənin. Söylədi: Tanrı versin?

Nə zamandır ürəyim ayda, gündə hərlənir.
Vəfasız bir gözəlin dövrəsində hərlənir.
Divanəyəm, dəliyəm. Axı dəli nə bilsin
Kimin zəncirlərində düşüb bəndə, hərlənir.

Dolanırsan özün də bir gözəlin başına,
Təkəbbür bazarından yox daha bir nişana.
Bizi yalançı bilir, xəcalətin sayırdın,
Söylə kimdir yalançı, ey bu dərdə aşina?!

Yenə yarım əlində çiçək tutub. baxın bir:
Şəfəqlə, meylə dolu büllur cama bənzəyir.
Bədəni gül, üzü gül, hələ dəstində də gül,
Cüz ilə küll qovuşub. Gulşəni gül bəzəyib.

Vusal gecəsindəyik, gəzir bayırda darğa.
Tələs. bal şərbətini versin dodaq dodağa,
Şadlıq şahini ol ki, gəlir fəna laçını,
Can atır diriliyi bir haf kimi udmağa.

Qurban verək bədəni fəqr, fəna yolunda.
Alovlanmaq, kül olmaq xoşdur vəfa yolunda.
Ürək bəla oxuna qoy hədəf olsun, nə qəm.
Çəkilək bir guşəyə biz bu sevda yolunda!

Kabab yeyə bilmirəm, kabab olmuşam özüm.
Boğazdan su da keçməz dostsuz, ey canım. gözüm.
Şah bəzmində mey içib xumar olmaq eyibdir.
İçmirəm. Hanı məndə əvvəlki quvvət, dözüm?

Gəncliyinə guvənmə, yel əsər, solub gedər.
Ömrun bircə gecədə payimal olub gedər.
Zülm eləmə, anla ki, bircə qarğış fəryadı.
Səni dunya bağından alaq tək yolub gedər.

Hallılara fikir ver, şərab olub qismətı
Dərd mətbəxindən gələn kabab olub qismətı.
Onların məclisinə həvəslə gedərəm mən.
Bəlkə orda mənim də gülab olub qismətim.

Məni naqis sanırsan, nə qəm, elə o cür san.
Ey qeydimə qalmayan, eşqimə laqeyd insan!
Öləcəyəm dərdindən, birçə qorxum var ancaq:
Heç qəbrim üstündə də gəlib dayanmayasan.



# «SİRLƏR XƏZİNƏSİ»

## BAŞLANĞIC

Bismillahir-rəhmanir-rəhim,
Hikmət xəzinəsinə budur açar, ey həkim!

Odur fikrin əvvəli, odur kəlamın sonu,
Nə iş görsən, Tanrının adıyla qurtar onu.

Gəlib hamıdan əvvəl, hər bir varlıqdan qabaq,
Yaşayanlar içində əbədi odur ancaq.

Qədim, sonsuz cahanı odur quran, saxlayan,
Qələmlərin boynuna boyunbağı bağlayan.

Səxavət qaynağını o qaynatdı binadan,
Bütün var olanları yalnız odur yaradan.

Pərdəli fələklərin pərdəsini açandır,
Pərdəli iş görənin sirrini saxlayandır.

Günəşin kəmərinə ləl ilə zinət verən,
Torpağa həyat donu, suya təravət verən.

Könül sahiblərinə əxlaq, hikmət göndərən
Ruzu uman kəslərə ruzu, nemət göndərən.

İdrakın hər telinə düzüb inci, mirvari,
Düşüncənin gözünə işıq gətirən Tanrı.

Uca, pak alınlara səcdə nişanı vurar,
Cahanın şahlarına qızıldan tac qoydurar.

Tədbirlə bişənləri çiy bilib, verər bada,
Suçluların üzrünü qəbul eylər dünyada.

Məhşər günü qoruyar, hifz eləyər qorxağı,
Alimlərin könlündə olar tədbir qaynağı.

Hər sifəti, vücudu əzəli və əbədi,
Kainatın varlığı, yoxluğu əlindədi.

Heçdir bu iki cahan ülviyyəti önündə,
Bir nəfəsdir ömrümüz əzəməti önündə.

Tapılarmı cahanda onunla bəhs eləyən?
Varmı ondan savayı "Bu mülk mənimdir!" deyən?

O vardı, hələ yoxkən yer, göy, ucalıq, alçaq,
Varlıq yoxa çıxsa da, o, daim var olacaq.

Çox gəzdi, çox düşündü peyğəmbərlər, alimlər,
Tanrı vuran düyünü aça bildilər məgər?

Onun elmi əzəldən dəryadır, necə dərya!
Onun əbədiyyəti səhradır, necə səhra!

Əvvəli ibtidasız, axırı intəhasız,
İlki, sonu olmayan onun özüdür yalnız.

Sənin vücudundakı cənnətə huri verdi,
O nərgiz gözlərinə mərifət nuru verdi.

Dirilərin. sağların bütün kəşməkəşləri
Yalnız Tanrıya təslim, Tanrı görür işləri.

Cahanda ondan savay hər şey gəldi-gedəri,
Yalnız odur əbədi, müqəddəsdir cövhəri.

Yerin kəməri dağlar, gültac qoyan torpaqlar
Yalnız ona minnətdar, yalnız onu soraqlar.

Kərəmi nur dalında gizlənmişkən bir zaman,
Uzaqdı gül tikandan, şəkər isə qamışdan.



Elə ki, səxasıyla kəramət abad oldu,
Yoxluğun buxovundan bu varlıq azad oldu.

İki-üç viran kəndin solmuş Ayı, ülkəri
Necə əngələ salmış əylənən fələkləri.

Düyün açılmayınca qaralırdı hələ də
Gecənin zülmət saçı gündüzlərin əlində.

Göydə min-min gövhəri sapa düzdü yaradan,
Sildi yoxluq tozunu gecənin saçlarından.

Tulladı səmalara bu iki-üç çəmbəri,
Yeddi düyün vurmaqla qandalladı yerləri.

Günə, Aya don biçdi öz əlilə yaradan,
Birinə ağ ipəkdən, o birinə qaradan.

Səfra buludlarını dənizlərdən çıxartdı,
Çəmənlərdə Xızr üçün abi-zəmzəm yaratdı.

Gecə rəngli torpağa verdi gündüz badəsi
Tökdü daşın ağzına neçə şəfəq qətrəsi.

Birləşdirib yoğurdu, ayqnatdı suyla odu,
Necə də xəlq elədi dürrü, bir də yaqutu.

Ləlin ciyərlərinə nəyi verdi, bax, tanı:
Torpağın ürəyindən qızıl-qırmızı qanı!

Səxavət bağçasına təzə bir nəfəs qatdı,
Söz quşunun səsini fələyədək ucaltdı!

O, nitqin bağçasına xurma verdi - ətirli,
O, qulaq sədəfinə söz gövhəri gətirdi.

Qovdu şirin yuxunu göz pərdəsi dalına,
Can köynəyi geydirdi bədənin zülalına.

Atdı yerin saçını qucağına aləmin,
Vurdu üsyan damğası yanağına Adəmin.

Yudu zərin üzündən alçaqlığın izini,
Bahar buludlarıyla qanlı gülün heyzini.

Ulduzlarla sildi o, göydən hisi, dumanı,
Reyhanlara tapşırdı əsib keçən səbanı.

Bu torpağın qanını göstərdi bir gül ilə,
Əqlin nəbzini tutdu ürəyin öz əlilə.

Qəmi dağıtsın deyə sevincə gülüş qatdı.
Zöhrəni göylər üçün şən çalğıçı yaratdı.

Gecə dönüb onunçün müşk, ənbər satana,
Qulağında halqası, qul olmuş hilal ona.

Sözün əli uzundur, dartındı yaman-yaxşı,
Tanrı dərgahındakı daşla yarıldı başı.

Çox gəzdi, çox dolaşdı ayaqyalın xəyallar,
Qapısından əliboş qayıtdı nalan, naçar.

Çox vurnuxdu düşüncə, anlamadı sirrini,
Göz axtarıb tapmadı Tanrının bənzərini.

Ağıl dedi: aradım, ədəbsiz addım atdım,
Ədəb onun özüymüş, yenə ona qayıtdım.

Seyr elə pərgarının ucundan düşənləri,
Axtarır bizim kimi, onu gəzir hər biri.

Sidrdə əyləşənlər ona sarı can atar,
Onun darvazasını döyür ərşə çıxanlar.

Zəncirilə bağlanıb fələklərin biləyi,
Onun şövqüylə çarpır yerin, göyün ürəyi.



Ürək canın önündə paklığıyla öyünər,
Ancaq onun yanında "adi torpağam" deyər.

Bu dünya nemətləri önündə bircə danə,
Güllərinin yanında İrəm bağı - əfsanə.

Nizaminin torpağı güc-qüvvət almış ondan.
Xırdaca bir danədir Tanrının dərgahından.

## TÖVHİD VƏ MİNACAT

*(Tanrının birliyi haqqında və Ona yalvarış duası)*

Ey bütün varlıqlara bu dünyada can verən,
Gücsüz torpağa belə qanad verən, qan verən!

Bayrağının altında əyləşib bütün cahan,
Sən özündən doğuldun, biz sənin cəlalından.

Varlığında görünmür nə surət, nə də tərkib,
Heç kimə bənzəməzsən, de kim sənə bənzəyib?

Dönməz, dəyişməz varlıq tapılarsa o, sənsən,
Ölməyib, ölməyəcək qüdrət varsa, o, sənsən.

Sən yaşarı və sonsuz, bizsə gəldi-gedəri.
Hökmündədir kainat, yerin, göyün mehvəri.

Kim verib fələklərə bunca qüdrət, iqtidar?
Bu qazana sənintək can duzu atanmı var?

Başlanğıcsız varlığın cahana hayqırmada:
"Mən həqqəm"! Səndən savay kimdən qopar bu səda?

Sən olmasaydın ərzin səbri, səbatı, inan,
Eşqin bağrı çatlardı adın çəkilən zaman.

Elə ki, bəlli oldu comərdliyin, kərəmin,
Dağlar ilə yükləndi kürəyi bu aləmin.

Lütfündən, kərəmindən doğmasaydı kainat,
Bu yerin göbəyində olardımı heç səbat?

Səcdə boyunbağısı səninlə tapmış nizam,
Səndən savay kiməsə tapınmaq bizə haram.

Kim səndən danışmasa, qoy lal olsun dünyada,
Kim səni düşünməsə, biryolluq getsin bada.

Ay - gecənin saqisi qədəhindən pay umar,
Adının şərabından dağ quşu - əsrik, xumar,

Tanrım, götür pərdəni, görün öz birliyinlə,
Əsirgəmə, qaldır at, pərdə mən olsam belə.

Göstər necə qulunmuş bu fələk, bu asiman,
Aç, tulla düyünləri, düyünsüz qalsın cahan.

Əmr elə, qoy dəyişsin əyyamın hər ayəti,
Qoy saralsın qarşında ulduzların surəti.

Bu dillərin sözünü sən özün al qələmə,
Sənə borcu qalmasın, qələm çək bu aləmə.

Bütün zülmətbazları kor eylə, ulu Tanrı!
Bütün cövhərpərəstlər, əmr et, rədd olsun barı.

Sındır altı guşəli bu kürsünü, dağıt, qır,
Qopar doqquz pilləli bu minbəri, zamandır!

Qaldır Ayın camını, vur bu Yer kürəsinə,
Çırp Zühəlin daşını Zöhrə piyaləsinə.

Aç, dağıt gecələrin boynundan mirvarini,
Gecə-gündüz quşunun sındır qanadlarını.

Qopar palçıq ləkəni sən bu yerin üzündən,
Bir kərpic də qalmasın qəlibinin izindən.



Bu toz-torpaq gecəni sil fələyin alnından,
Açıq bir alın kimi işıqlansın bu cahan.

Nə vaxtacan sürəcək atını təzə rüzgar,
Əmr et, köhnə dəbləri, köhnə pərdəni qaytar.

Vur fələyin boynunu, qopar, bir kənara at,
Durğunluqdan, yürüşdən xilas olsun kainat!

Su səp, sönsün cahanda zülmün odu, ocağı,
Bu havanı, bu yeli endir Yerdən aşağı.

Yandır münəccimlərin dəftərini, kül elə,
Harda günəşpərəst var, gözlərini kor elə.

Neçin batır-çıxır Ay? Vur, dağılsın Ay bürcü,
Aç pərdəni, yormasın bizi xəyalın gücü.

Təki Tanrılığına ürəkdən inansınlar,
Bir heç olduqlarını qarşındaca qansınlar.

Çoxumuza qıyırsan. Qırılan çox, batan çox,
Fəqət, səndən gileyə heç bir kəsin üzü yox.

Tök qanını, çək dara! Kim səndən hesab istər?
Kimin haqqı çatar ki, qımıldansın tük qədər?

Nitqə gələn insana könül zövqü verənsən,
Hər cana idrak adlı yanar məşəl verən sən!

Hökmün ilə uzanır gecənin mənzilləri,
Gedən günlər ömrünlə bir də qayıdar geri.

Səndən nə öyrəndi çərx? Daim sabit qalmağı!
Dirilik suyu aldı səndən bu dünya bağı.

Qəmzəli nəştərəni yellər açdı, yoxsa sən?
Dönüb oldu tutiya torpağının feyzindən.

Qönçələr kəmər çəkib "Qulunuq!" söyləyirlər,
"Bütün cismimizdəki can səndədir!" deyirlər.

Qul Nizami həmişə sənə duaçı bəndə,
Kandarının tozudur o, hər iki aləmdə.

Sən onun can evini mərifətlə abad et,
Qurtar onu zəncirdən, dərddən, qəmdən azadet!

## İKİNCİ MİNACAT

Ey hələ bizə yox ikən var olan ülvi, uca!
Biz öləndən sonra da ey, əbədi qalacaq!

Dövran sənin əmrinin cilov çəkən nökəri,
Yəhərini daşıyır fələyin çiyinləri.

Biz ki, sənin qapını döyən dilənçi - yazıq...
Qulaqları qapıntək həlqəli qullarınıq.

Səndən savay heç kəsdən mehr ummadı qəlbimiz,
Heç bir könül dikənə minnətçi olmadıq biz.

Qorxumuz da səndəndir, ümidimiz də sənsən,
Biz suçluyuq, sən kərim, suçumuzdan keçənsən.

Köməksizik, çarə qıl, sənsən ümid yerimiz,
Sən də qovsan qapından kimə yalvararıq biz?

Damğalı itlərinik, üstümüzdə damğan var,
Yalnız bu cür itlərlə şahlar şikara çıxar.

Sənin bağındanıq biz, nə deyim artıq-əskik?
Boynubağlı qulunuq, damğalı itlərinik.

Bu nə dildir, ilahi, nələr gəlir başıma:
Desəm, peşman-oluram, deməsəm, yenə peşman.



De, sən hara, mən hara? Bu gücsüz qollar hara?
Mən kiməm ki, tapınım ulu pərvərdigara?

Necə ürək eləyib o ümmana girər can?
Necə, hansı hünərlə su içər o bulaqdan?

Vəsfində dilim dönməz, sıxar məni eyiblər.
"Tanrını dərk eləyən dilsiz qalar" deyiblər.

Çiy sözlərim göstərir sizdən xəcalətimi,
Əfv elə, əsirgəmə məndən mərhəmətini.

Dərgahına gələndə özümüzü itirdik.
Sənin səxavətinə böyük ümid gətirdik.

Ey dərdlilər həmisi, yar ol, qəmxar ol, bizə.
Çarəsizlər çarəsi, əlac et dərdimizə.

Karvan sovuşur, baxın, bizsə qalmışıq geri.
Kimsəsizlər kimsəsi, atma kimsəsizləri.

Söylə, kimə sığınaq, ey bənzəri olmayan?
Döyək hansı qapını? Yalnız sənsən əl tutan.

Bizim ki qibləmiz yox sənin qapından kənar.
Bizə üz göstərməsən, üzümüzə kim baxar?

Bizdən başqa kim sənə bunca yalvara bilər?
Kim tökər gözlərindən qan-yaş dolu gilələr.

Əfv et suçlarımızı, ulu Tanrı, bağışla,
Sığınmışıq biz sənə ümidlə, yalvarışla.

Nizaminin adına şərəf gətirən Xuda!
Sənin qulun olmağım ağalıqdır dünyada.

Onun dilinə dua, şükür ərməğanı ver,
Səni dərk etsin deyə mərifət nişanı ver.

## PEYĞƏMBƏRLƏRİN SONUNCUSU HƏZRƏT MƏHƏMMƏDƏ GÖZƏLLƏMƏ

Birinci nəqş edilmiş "Əlif" oxu lövhədə,
Ağ pərdəli qapıda qismət oldu Əhmədə.

Qüdrət, səltənət verdi "Əlif" "Hey" həlqəsinə.
"Dal"-dan gərdənlik aldı, "Mim"-dən kəmər özünə.

"Əlif", "dal" ilə "mim"də tapdı həyat qüvvəsi
Bir dövlət dairəsi, bir kamal xəzinəsi.

Firuzədən yapılmış bu əngin mavilikdə
Cənnət qəsrindən gələn turuncdu təzəlikdə.

Turuncun da dünyada öz adəti, dəbi var:
Öncə meyvə gətirər, sonra çiçək, gülbahar.

Onun oldu birinci peyğəmbərlik bayrağı,
Son peyğəmbər olmağın şərafəti, növrağı.

Möhür kimi verildi Məhəmmədə yeni Ay,
Hansı zəbərcəd qaşlı üzük olar ona tay?

Cahanın qulağında onun "mim" həlqəsi var,
Ona təslim həlqəsi iki dünyadır aşkar.

O - sahə ölçən ağa, Məsih - ona qulluqçu,
O - Tanrının elçisi. Bu - yalnız muştuluqçu.

Təhsili olmasa da o, çox yüksəkdir, inan.
"Əlif" ilə Adəmdən, "mim" ilə Məsihadan.

Sədaqətdə, vəfada "əlif" gördülər onu,
Peyğəmbərliyin başı, peyğəmbərliyin sonu!



Məhəmməddir aləmin ən işıqlı nöqtəsi,
Bütün deyilmişlərə nöqtə qoyub nüktəsi.

Cahana baş əyməyən kamil kişi olsa da,
Öyünməkdən, kibrdən uzaq gəzdi dünyada.

Şan-şöhrət tapdı "ədəb", gələndə onun səsi,
Fələklər, kəhkəşanlar - kəmərinin düyməsi.

Onun hərəm evində pərdəçidir hurilər,
Ürəyindən su içir nemət, ləyaqət, hünər.

Silir günahı gözdən türbəsini ziyarət,
Xərac aldı Məkkədən onun düşdüyü qürbət.

Susması könüllərə işıq salan zəriflik,
Qüsurlara od vurar ondakı eşq, ariflik.

Fitnə yaratmağıyla könüldə eşq oyadar,
Ona heyran olmayan məgər bir insanmı var?

İnsanlığın ən böyük başçısı, xeyirxahı,
Ağır başlı, vüqarlı, çevik yürüşlü dahi!

Odur əzəl dərsini əbədicən oxuyan,
Canını çıraq edib, Tanrı nurunu yayan.

Feyzindən yardım dilər Günəşin nur qaynağı,
Ayı merac gecəsi şaqqaladı barmağı.

Darısqal köksləro o asiman doldurub,
Karvanqıran ulduzun Qıratına nal vurub.

Eşidəndə ki, gəlir, dönür meracdan geri,
Yedəklədi boz atı sənət süvariləri.

Atının yəhərindən yapışmaq səadəti
Nizaminin qismətı. Gec yetişdi növbəti.

## PEYĞƏMBƏRİN MERACI

O cənub hökmdarı - peyğəmbər gecə yarı
Məşəl çəkib, nurlatdı dibsiz qaranlıqları.

Doqquz fələk apardı onu ənginliklərə,
Məşəl tutan oldular yolunda Ayla Zöhrə.

Göyün hərəm evindən keçdi onun sürəti
Yeddi iqlimi, altı tərəfi, dörd cəhəti.

Mübarək çöhrəsini görüncə gün qaraldı,
Gecə rəqsə başlayıb, özgə bir ahəng aldı.

Ağır yuxuya getdi yad gözlər, yaman gözlər,
Uyğu üzəngisini çəkdi... çapdı peyğəmbər.

Can qəfəsilə birgə onun könlünün quşu
Uçdu dünya torundan, nə gözəldi uçuşu.

Dərhal büküb atdılar, görüncə çöhrəsini,
Mələklər qanadını, fələklər xirqəsini.

Onun can qəfəsində uçan qanadlı quşdu,
Can qəlibi qəlbindən xeyli yüngül olmuşdu.

Addım-addım can atır sanki yar nəfəsinə,
Allah çəkir onları vüsal məsafəsinə.

Ona dikib bu yolda iki cahan gözünü,
Səcdəsinə qapandı görən kimi üzünü.

Başı hər cür rütbədən çox uca olduğundan.
Bir mənzil əvəzinə yüz mənzil kəsdi, inan.

Hündür axurlu Rəxşi göyü tərlə islatdı.
Yəhəri son mövqedə şax bir çiyinə atdı.



Göylər - dəniz sədəfi, o sədəfin gövhəri,
Başına tac qoymağa apardılar irəli.

O ətirli gecədə çərx öküzü nə çaldı?
Bəlkə yer öküzündən min-min gövhəri aldı.

Səmavi yolçuluğun muştuluğu gör nədən:
Kəməri - Cevza bürcü, tacı - Xərçəng bürcündən!

Başaq bürcü parladı, nur salxımı yaratdı,
"Sünbülə"ni götürüb arslan bürcünə atdı.

Tərəzinin düzəldib Zöhrə bir cüt pərini,
Ölçdü qutlu gecənin vəznini, dəyərini.

Siqlətinin önündə səcdə qıldı tərəzi.
Daşdan, tərəzidən də ağırdı onun vəzni.

Qalxdı, Əqrəb bürcünün yanaşdı quyruğuna,
Süsənbər nəfəsindən bir məlhəm verdi ona.

Yay bürcü kamanından ov yıxan bir ox atdı.
Çəpiş Çüdəy bürcünü zəhirmardan çıxartdı.

Balıq qarnına girmiş Yunistək hut bürcündən.
Dolça bürcündən keçdi, Yusif doğdu hüsnündən.

Təxti Süreyya təki Quzu bürcündə qurdu.
Dərhal çöllərə çıxdı çiçəklər ordu-ordu.

O cənnət bağçasının gülü, laləsi yandı.
Yer üzü başdan-başa yaz rənginə boyandı.

Gecə gündüzə döndü. Günorta günü par-par.
Sərvlər gül açdılar. Möcüzəli bir bahar.

Dönüb bağa baxmalı, görməkçün nərgizləri.
Sürməylə sürmələndi onun nərgiz gözləri.

Yeddi qatlı göylərdən ədəb dərsi öyrənən
Peyğəmbər üzr istədi bütün peyğəmbərlərdən.

Neçə ulduz pərdəsi qədəmində dərbədər.
Bayrağını daşıyır ağ çiynində mələklər.

Gecənin göbəyində dil-dodağının mişki,
Atının ayağında aypara bir nal təki.

Bu qaranlıq gecədə atəşmidir parlayan?
Yoxsa şimşək saçılır Büraǧın dırnağından?!

Göyərçin qılıqlı at tərlanmı, kəklikmidir?
Bəlkə qumru quşudur, yoxsa hümatək gedir!

Firuzə qübbələrdən çıxdı yeddinci qata,
Əl-əl gəzən gül kimi çatdı tanrısal taxta.

Qolsuz bir köynəkmidir Sidr ağacı əyninə?
Ərşin yaxası dəyir onun əl-ətəyinə.

Üzgün yoldaşlarını yormuşdu göy yolları,
Bükülüb qanadları, qırılmışdı qolları.

O, azmış qərib kimi heyrət içrə yüyürdü,
Yalnız ulu Tanrının qapısını döyürdü.

Keşik çəkən mələklər izlədilər yolunu,
Çəkilib, kəcavədə təkcə qoydular onu.

O yolçusu olmayan yolda təkcə açıb iz,
Gedirdi, bir qədəmi o birindən xəbərsiz.

O, əsrar pərdəsinin bayıldı qapısında,
Ondan başqa heç bir kəs çatmamışdı bu qata.

Ayağı kainatın başında bir qızıl tac,
Ərşin özü də bu cür ülvi nemətə möhtac!



Üstündən qələm çəkdi hər nə varsa cahanda,
Ərş üstündə ucaltdı bayrağını bir anda.

Can qorxusu içində sayıqlarkən kianat,
Verdi can ölkəsini bədən mülkünə sovqat.

Ərşin son nöqtəsində yolçuluq başa çatdı,
Ürək, can işləri də cana, ürəyə yatdı.

Hansı yerdən gəlibsə, həmən yerə çapdı ruh,
Xəyal tapa bilməyən bir gözəllik tapdı ruh.

Addım-addım yürüdü, mənzilə ilk çatdı o,
Göylərin libasını əynindən çıxartdı o.

Gücü gəldikcə getdi. Çıxdı hünər yolları
Bu sonsuz təbiətin yaxasından dışarı.

Əzəməti, hümməti pak bir aləm yaratdı,
Mənzili bilinməyən ülvi bir qata çatdı.

Qurşağından yapışıb onu ucaltdı qeyrət,
Yüyənindən yapışıb, guşədən çəkdi heyrət.

Yürüsə də, canında bir yorğunluq duymadı,
Aradı həndəvəri, gəzdiyini bulmadı.

Mənliyindən keçincə, tapdı arzu-kamını,
Tanrı mərtəbəsində aldılar salamını.

Vüsal əli döşündə, aldı töhfə gülünü,
Cah-cəlal sarayının qaldırdı ağ tülünü.

Ayaq gedib gəlməyi həvalə etdi başa,
Qəlbin gözü nə gördü? İlahi bir tamaşa!

Seyr etdiyi o nurun harda tayı, misli var?
Nə zaval dəyə bilər, nə xəyal onu qavrar.

Aşiqliyi elə bil gözünə işıq verdi.
Görünməyən Tanrını aşiq gözüylə gördü.

Lakin, onu görməyin məkanı, zamanı yox,
Zamandan və məkandan çünki çox ucadır, çox!

O idrakın gözündən gizlənə bilməz heç vaxt.
"Onu görə bilmərik!" deyənlər kordu ancaq.

Tanındığını görmək bir səadətdir, bəli,
Mütləq görülməlidir. O, mütləq görünməli!

O pərdəni görməyə məkan varmı? Məkan yox,
Yürüməyə, çatmağa zaman varmı? Zaman yox.

O pərdənin ardını görməyi bacaranlar,
Məkanı tapmasa da, laməkana yol tapar.

Tanrı sifətlərini inkar küfrdür. Sakın,
Cahil olma, nə yönü, nə yeri var Allahın.

Tanrı var, fəqət onun mənzili, məqamı yox,
Məkana möhtac olan Tanrı sayılarmı? Yox!

Həzrət Məhəmməd onu başqa ölçüylə gördü:
Ürək, idrak gözüylə, zəka gücüylə gördü.

Haqqın hazırladığı meydən içdi Peyğəmbər,
Bizim də qəlbimizə damızdırdı bir qədər.

O, Tanrının lütfünü nəfəsində sanırdı,
Tanrı çəkir nazını, o isə nazlanırdı.

Şəkər təbəssüm ilə süslənib dodaqları,
Dua etdi Tanrıya: - Bizə nicat ver barı!

Xəzinədən zəngindir onun hümməti qat-qat,
Qəlbindəki hər murad açdı o gün qol-qanad.



Elə ki, qüvvət aldı Tanrının qəbulundan,
Yenə əmal evinə üz qoydu müdrik insan.

Eşqin cazibəsilə qət etdiyi səfəri
Bircə nəfəs içində bitirib, döndü geri.

Ey sözü dilimizin duzu, qəndi peyğəmbər!
Canımıza dərmandır saçdığın ətir, ənbər.

Səxavətin nurlatsın bu dünyanın gözünü,
Nizamiyə yardım et, tamamlasın sözünü.

## PEYĞƏMBƏRİMİZİ ÖYƏN İKİNCİ GÖZƏLLƏMƏ

Yeddi ulduzun nuru, doqquz fələyə gültac,
Tanrı elçilərinin ən ucası, son yalvac.

Əhmədin ayağında əql özünü toz sanıb,
Yəhərinin tərkinə iki cahan bağlanıb.

Odur naz səhrasının yeni açmış sünbülü,
Gizlinlər dənizində ən saf gövhərdi könlü.

Saçları gündüz belə şölə verər sünbülə,
Dişləri qərq eləyər Günəşi dürrə, lələ.

Şəkər dodaqlarını daim açsaydı əgər,
Ondan utanmazdımı sədəf bağrında gövhər?

Bir daşın da könlünü qırmayan həssas kişi!
Daşlar necə qıydı bəs, sındırdı inci dişi?

Əlindən hər şey gələr, kim olarsa bağrı daş,
Qara-qura sövdaya meydan açar o kütbaş.

Məhəmmədin dürrünü sındırmasaydı əgər,
Öyünə bilərdimi o daş məgər bu qədər?!

Dar ağız qutusuna daş dəydi, düşdü gövhər,
Gövhər daşdan doğulur, əbəsmi söyləyiblər?

Qan bahası verməyə məgər daşın pulu var?
Peyğəmbərin ağzını neçin yaraladılar?

Daşın ağzından çıxan yüz-yüz mirvari məgər
O bircə sınıq dişin əvəzini ödəyər?

Qara mədəndən çıxan min-min işıqlı inci
Məgər ola bilərmi bircə dişin ödənci?

Zəfər onun dişinin qan bahasıydı yəqin,
Bütün canı-cövhəri zəfərindi, zəfərin.

Ağzını qanla yudu, qoruyub muradını,
Başı üstə ucaltdı mərhəmətin adını.

Sınıq dişi kökündən yerli-dibli çıxartdı,
Böyük zəfər naminə şükr edib, onu atdı.

Vaz keçdi könlündəki bütün arzularından,
Bir arpa dəyərində gözündə iki cahan.

Onun döyüş ordusu döyüş meydanında ər,
Əli bayraq əvəzi, dili sıyrılmış xəncər.

Haqq xəncəri dilinin nə ehtiyacı dişə?
Məgər dişli xəncərlə gedərlərmi döyüşə?

Qoy ondan zövq alanlar diş bəhsini unutsun,
Hamı atsın tikanı, gülündən dəstə tutsun.

Bağlar güllə doluykən kim tikandan bəhs açar?
Sapa inci düzərkən ilana lüzummu var?!



Onun gülü üstündə bülbülləşib Nizami,
Feyzindən açılıbdır təbi qızılgül kimi.

## SON PEYĞƏMBƏR HƏZRƏT MƏHƏMMƏDƏ ÜÇÜNCÜ GÖZƏLLƏMƏ

Ey varlığı ən təmiz ruhlardan daha təmiz!
Ruhuna canım fəda! Ulu peyğəmbərimiz!

Sənsən rəhmət yurdunun tən ortası, mərkəzi,
Qələminlə silinə hər zəhmətin nöqtəsi.

Sən Əcəm şahlarının həmişəlik şahısan,
Ərəb yolçularının Ayısan, pənahısan.

Yolu göstərməsən də, yol tapırlar sayəndə,
Baş kətxuda özünsən, kəndə heç dönməsən də.

El baxır, heyran qalır kərəminin sirrinə,
Təkcə tamaşa etmək olmaz təklik pirinə.

Şirin xurma yediyin qonaqlıq süfrəsindən
Xırda-xuruş hansı pay gətirmisən, söylə sən?

Dil aç ki, insanlığa bal kimi sözlər gərək,
Ağız suyunla bitən həqq xurmasından dərək.

Ey gecə saçlarıyla gündüzlərə səpən nur,
Sənə eşq atəşimiz dirilik suyumuzdur!

Ağıl sənin üzünün məftunudur, ey qoca!
Məftunların nə qədər? Saçlarının sanıyca.

Çərx - sənin kəmərinin ılgəyində bir kölə,
Səhər - gülər üzünün günəşindən bir şölə.

Bu günahkar aləmi günahdan qurtardın sən,
Ətirləndi müşkünlə yerin göbəyi, əhsən.

Türbənin təsirindən Ərəbistan - gülüstan,
Ölkənin hüdudları müşk ətirli bağ-bostan.

Bağ demirəm, torpağın cənnətdən də yaxşıdır,
Süleymanın mehindən, o təxtdən də yaxşıdır.

Sənə ibadət qılan Kəbəni od qarsımış,
Mübarək dodağının gül suyuna susamış.

Sənin təxtü - tacını daşıyır cahan, bəşər,
Təxtin - bu Yer kürrəsi, tacın - səma könüllər.

Kölgən yoxdur, çünki sən böyük əql işığısan,
Yaxud Tanrı nurunun sayəsindən bir nişan.

Dörd bayrağın - təkbirin müsəlmanlıq mehvəri,
Beş duan - beş namazın sultanlıq növbətləri.

Düşkünlərin torpağı bağa döndü feyzindən
Qüdrət sahiblərinin gözü nur aldı səndən.

Merac gecəsində sən - aləmə dost, aşina,
Ayaqların toxundu fələklərin başına.

Sən gəldin, göy ətəyi doldu daş-qaşla, zərlə,
Göy çevrəsi süsləndi altunla, al rənglərlə.

Sübhün sədəfindəki, ah, bu hansı ətirdi?
Səba müşk ətri verən nəfəsini gətirdi.

Nəfəsinin saçdığı o ətri, ənbəri sən
İki dünyaya versən, necə ucuz verərsən!

Qocaman Sidr ağacı - təxtinin bir ayağı,
Ərş sənin qəsrindəki kürsüdən də aşağı.



Ruhunun pəncərəsi - açıq, aydın bir səhər,
O günəşin yanında ərş zərrəyə bənzər.

Əzəl sübhü hüsnünü əks eləyən bir ayna...
Onsuz yayılardımı sənin nurun dünyaya?

İki cahan başçısı, neçin yer altındasan?
Məgər xəzinəmisən, gözdən, könüldən nihan?!

Ey müqəddəs xəzinə, sən ki, yerdəsən artıq,
Bütün xəzinələri yerə tapşırmalıyıq.

Yoxsulluğun - viranə, vücudun xəzinədir,
Hamıya yetən kölgən şamına pərvanədir.

Fələyin əyri çərxi - ahının hədəf yeri,
Dolçasının çənbəri- quyunun yaş kəndiri.

Bu ağ, qara dünyanın soltanları - Ayla Gün
Peykin olub yolunda, xəbərçidir səninçün.

Ağıl şəfa arayır - onun Loğmanı sənsən,
Ay yol tədarükündə - canı, cananı sənsən.

Qalx, vüsal umanların gecəsini gündüz et,
Nizaminin təbini işıqlandır, ulduz et.

## PEYĞƏMBƏRİN ÜSTÜNƏ DÖRDÜNCÜ GÖZƏLLƏMƏ

Ey Mədinə köynəkli, Məkkə pərdəli gözəl!
Günəş nə vaxta kimi kölgədə qalacaq, gəl!

Aysan əgər, nurundan bir şölə göndər bizə,
Gülsən əgər, bağından ətrin gəlsin tərtəzə.

Canlarını dişinə tutub yol gözləyənlər
İmdad istər, ey dada yetişən sevgili ər!

Durma Ərəb çölündə, Əcəm yurduna atlan,
Gecə Qıratla, gündüz ağ köhlənlə qanadlan!

Elə tazələndir ki, sən bu köhnə dünyanı
Tutsun səsin, nəfəsin qoy hər iki cahanı.

Sultanlıq et, əmirlər səni sultan biliblər,
Özün oxu xütbəni, sükut etsin xətiblər.

Torpağın xilafətə bir gül çələngi atdı,
Heyhat, fitnə küləyi gül ətrini dağıtdı.

Çək ipini, təxtindən endir asudələri,
Bulaşıq abidlərdən təmizlə bu minbəri.

Gəlib evə soxulan bu cinləri qovla, qır!
At ölüm quyusuna alçaqları, amandır!

Qoyına basıb yesinlər, onlar qarınquludur.
Ləğv et iqtalarını, qudurmasın hər quldur.

Cansız cisimlərik biz, sən buyur, can ol bizə,
Hamımız qarışqayıq, gəl, Süleyman ol bizə.

Başçı sənsən, bəs neçin başsız qalıbdı karvan?
Mərkəz sənsən, bəs neçin bayraq qalxır kənardan?

Bir yanda rəxnə salır, bir yanda tor qururlar,
Dinimizi gözündən, ürəyindən vururlar.

Sən şeytanın üstünə Öməri göndər, ya da
Əmr et, Əli vuruşsun bu vuruş meydanında.

Saçını ay üzünə Yəmən tülü kimi sər,
At bu Yəmən cübbəni, ay camalını göstər!

Kəməri bərk çəkib vur qapı bağlayanları.
Bu bir neçə alçağı bir az da alçalt barı.



Beş yüz əlli doqquz il uyudun, yatdın yetər!
Oyanıb məclisə gəl... yaxındır ulu günlər.

Qalx ayağa, əmr elə, oyat sən İsrafili,
Qoy üfürüb keçirsin bu bir neçə qəndili.

Gizlən sirr pərdəsində, xəlvət yaşa, sayıq ol!
Biz hamımız uyğuda, barı bir sən ayıq ol!

Dünya - ölüm, qan yurdu. Son qoy bu afətə sən.
Mərd əlini uzat, tut hamımızın əlindən.

Könlündə haqdan savay məgər bir dilək varmı?
Sənə qovuşan kəslər başqa bir şey umarmı?

Qayğı gözüylə bir yol qoca dünyaya baxsan,
Hər müşkülü açacaq, zülmü yandıracaqsan.

Barmağının ucuyla işarə qıl fələyə,
Bütün varlıq verilər sənə sovqat, hədiyyə.

Əfv eləsən bir ovuc toza, külə dönəni,
Qiyamətdə, məhşərdə axı kim qınar səni!

Aç pərdəni, aşiqlər görsün hüsnünü bir dəf.
Sevincdən xirqəsini atsın qoy iki aləm.

Nizami ruhu səndən xoş xəbər gözləməkdə,
Sənin baharın onun könlünü süsləməkdə.

Vəfa qokusu göndər mənə gül nəfəsindən,
Bəxş et bir dilənçiyə Süleyman mülkünü sən.

## PEYĞƏMBƏRİMİZƏ BEŞİNCİ GÖZƏLLƏMƏ

Ey yalvaclar tacının ən qiymətli gövhəri,
Sultanlara tac verən ağ günlər peyğəmbəri!

Yaddaş ənə möhtacdır, ümmətindən olan da,
Çörəyini yeyənlər nə qədərdir cahanda.

Adın ilə başlanır beytimin başlanğıcı
O həm də qafiyətək söz sonunda baş tacı!

Bizim bu viran kəndə gəlincə bir işarət,
Sənin ruhun, Adəmin cismi qurdu imarət.

Əllərinlə bəzənmiş bu təzə mülkə əhsən,
İlk kərpici Adəmdir, son kərpici özünsən.

Həm Adəmsən, həm də Nuh, yox, onlardan ucasan,
Onların vurduqları düyünləri açansan.

Adəm bir buğda daddı, ağır günaha batdı,
Tövbəsi - bir gülşəkər, tövbə dadına çatdı.

Sənin ətrin Adəmə tövbə yolu göstərdi,
Kandarının torpağı onunçun gülşəkərdi.

Sözünü şəkər bilib, tövbə edərkən Adəm,
Gülşəkər də əl çəkdi, inan, şəkərliyindən.

Tanrı qəbul topunu yaratmışdı əzəldən,
Könüllər meydanına atdı onu qəfildən.

Adəm öz çovkanıyla topun önündə durdu,
Hamıdan tez, birinci zərbəni özü vurdu.

Ancaq, atı şığıdı saman dalınca sağa,
Yazıq top aciz qalıb, qısıldı bir bucağa.

Nuş təşnəydi, bu dünya süfrəsinə yanaşdı,
Çeşmə çıxdı yadından, tufan başından aşdı.

Növbə çatdı, İbrahim köhlən səyirtdi... heyhat,
Çatdırmadı mənzilə, üç dəfə büdrədi at.



Könlü darıxan Davud zilə qaldırdı bəmi,
Amma səsi çatmadı, dağılmadı dərd-qəmi.

Ədəb, ərkan gözlədi, alqışlar Süleymana!
Peyğəmbərlik tacını umub, axtarmayana.

Atıldığı quyuda Yusif nə tapdı? Dolça.
Bir də dolçaya bağlı uzun ip gördü ancaq.

Bezdi quru aləmin yolçuluğundan xızr,
Bir də gördü ətəyi çeşmədə islanıbdır.

Musa çatdımı kama, camdakı şadlığına?
Əlindəki şüşəni çırpdı Ərmi dağına.

Məsiha bu qidaya tamah salmadı... Bəli,
Çünki xalqın önündə ləkəliydi, ləkəli!

Təkcə özün bacardın bu işi, bu hünəri,
Heyran qoydu qeyrətin, irodən fələkləri.

Möhürləndi bu namə sənin öz ünvanında,
Tamamlandı bu xütbə dövründə, dövranında.

Qalx! Bu fələkdən qat-qat gözəl bir dairə qur,
Fələk bunu bacarmaz, Sən bəşərə arxa dur.

Xütbənin meydanıdır fələyin səhifəsi,
Çövkanının ucunda bir topdur Yer kürəsi.

O yoxluq aləmindən bir toz da ucalmayıb,
At çap, meydan sənindir, heç bir kimsə qalmayıb.

Fanilik nəçidir ki, dağıtsın piyaləni?
Alçaq yoxluq kimdir ki, silsin dünyadan səni?

Yoxluğun ayağını yoxluq içində bağla!
Faniliyin əlini fanilikla ayaqla!

Nəfəsi dilsizlərə dil verən ey hünərvər!
Yaralı ciyərlərə məlhəm qoyan peyğəmbər!

Sənin yolunu tutan ağıl qan dəryasından
Dartıb can gəmisini, sahilə çıxmış müdam.

Yurdunun qapıları - doqquz çərxin qibləsi,
Altı günə yaranmış ərz - saçının həlqəsi.

Bircə tük əskik olsa sənin məğrur başından,
Mübarək saçlarıntək pərişan olar cahan.

İdrakınla oxudun hətta yazılmayanı,
Əqlinlə işıqlatdın beyin adlı cahanı.

Hər sözə, hər cümləyə həssas yanaşdın daim,
Ta ki sənin sözünə barmaq qoymasın heç kim.

Özgələrin sözünə barmaq qoyuruq bir az,
Ancaq sənin sözünə heç kəs irad tutamaz.

Sənin qapının tozu - qovut, şəkər əvəzi,
Cövhərini yoğurmuş püstə, xurma çərəzi.

Bir ovuc qovudunla qırx gün dolanmaq mümkün,
Məhəbbət səhrasını gəzib seyr etmək üçün.

Nicat sübhü ver mənə, ey dağım, ey dayağım!
Sən dirilik suyumsan, mən də sənin torpağın.

Canımın behiştidir daşın, torpağın sənin,
Cahanımdır, canımdır türbən, gül bağın sənin.

Rüzgar olum, dolanım o türbənin başına,
Toza dönüm, qarışım torpağına, daşına.

Torpağından gözünə sürmə çəkər Nizami,
Yəhərini daşıyar sənin qulamın kimi.



Torpağını isladıb təbərrik bilir bəşər,
Mənim də torpağımı saçlarına çəksinlər.

## İSLAM PADŞAHI MƏLİK FƏXRƏDDİN BƏHRAM ŞAH İBN DAVUDA ÖYGÜ

Bu mavi dairə ki, kainatı çevrələr,
Burda bir nöqtə kimi düyünləndim bir səhər.

Yox əlimdən tutanım, ayağımı açanım,
Kölgənəm, üstümdə bəs hüma qanadın hanı?

Ayağım bu torpağa batıb dərindən dərin,
Qollarımsa bağlanıb kəməndilə göylərin.

Mərdin ayaq tozuna başımı qurban dedim,
Bəzən ayağımla yox, dizlərimlə yeridim.

O qədər nurlandım ki, şöləm düşdü hər yana,
Dizim üstü çevrildi qəlbimin aynasına.

O qədər zövq aldım ki, o mənəvi güzgüdən,
Gözümün güzgüsünü yönəltdim hər yana mən.

Ta görüm hansı güzgü işıq salır gözümə,
Görüm hansı ocaqdan şölə düşür üzümə.

Zəka nəzəri daldı cahanın dairəsinə,
Baxdım bu mavi qövsə, baxdım yan-yörəsinə.

Dada yetdi hümmətim, sezdim, anladım bunu:
Nemət, səxavət əhli hökmdar olduğunu.

Ey uca taleli şah, tacımızsan, ulusan!
Bu firuzə bağçanın son qızılgül kolusan.

Sən - ümid qaynağı Xızr, sən - İskəndər güclü şah!
"Məcəsti"ni şərh edən bilginlərə qibləgah!

Xilqətin mehvəridir sultanımın qüdrəti,
Onun vəsfində enmiş göydən Məqsud ayəti.

Tək odur fələk taclı, Süleyman üzüklü şah,
Üfüqlərin güvənci - Məlik Fəxrəddin ancaq.

Davudluq iddiaı eyləyərsə, haqqı var,
Onda müğənni səsi, Süleyman sorağı var.

Hümmətilə yüksəldi İshaq bayrağı aşkar,
Ona zidd çıxdı yalnız İsmaili zındıqlar.

Altı qütbə addımlar, yeddi qatda təxti var,
Doqquz göyə hökmdar, Bəhram - ulu tacidar!

O öz bəhramlığını açıb göstərsə bir an,
Bəhram gurun nəsibi yalnız gor olar, inan.

Əzmilə, cürətilə şahların sərvəridir,
Bilik xəzinəsilə alimlər rəhbəridir.

Xəlqə cahan mülkünü bəxş eləyən bahadır
Həm Ərmən hökmdarı, həm Rum padşahıdır.

Səltənətin şərəfi, xilafətin qəlbidir,
Rum elinin fatehi, Əbxazın qalibidir.

O, bütün kişilərdən aqil, ədalət əhli.
Hər bir comərddən üstün, kərəm, səxavət əhli.

Dövlətinin ulduzu nur saçır fələklərə,
Sədəf kimi qapısı can verib neçə dürrə.

Balıqla, incilərlə dopdolu bir dənizdir,
Dərya kimi dalğalı, bulaq kimi təmizdir.



Eşsiz, nadir bir yaqut nur saçır kəmərində,
Ləl mərcan kəmərli Günəşin qənşərində.

Görün, mavi pəncərə nə söylər ucalıqdan.
Pəncəsiz qalacaqdır ona pəncə qaldıran.

Karvan zəngi fələyin qulağını partladar,
Qızğın nəfəsi Ayın şüşəsini parçalar.

Məsuddu, bəxtiyardı dünyaya göz açanda,
Daha gözəl olacaq aqibəti cahanda.

Səxavət qədəhinin saqisi, lütfkarı,
Onu sonsuz yaşatsın sonu olmayan Tanrı!

## HÜZURUNDA YER ÖPƏRKƏN SÖYLƏNİB

İnsanlıq mayasının şanı-şərəfi, ey şah!
Sənin əzəmətinlə işıqlanır bu dərgah.

Qələbələr gətirir fələk sənə... seyr elə,
Doqquz fələyin qanrı bir sirrinlə hamilə.

Yerin, göyün qulağı ağ sədəf olmuş sənə -
O kəskin qılıncının zəfər incilərinə.

Gecə qılınc çalan Ay daim önündə naçar.
Qılıncının ucunda qalxanı parçalanar.

Qılıncına düşən su Fərat çayıtək coşqun.
Qırıb sürahisini o, dirilik suyunun.

Qopardığın tufanda yuxuya gedən insan
Nuh olsa da, boğular, sağ qala bilməz, inan.

Keyxosrovu Cəmşidlə bir göstərər piyalən.
Günəş pərvanəsini yandırar nurlu çöhrən.

Mənim arslan ürəklim, sən igidlər yıxmısan,
Arslan söylədim, xeyr! Sən min arslan boğmusan.

Orman arslanlarından fələk bəlkə də qorxmaz,
Ancaq səni görəndə zağ-zağ əsər o qorxmaz.

Vuruş vaxtı bu ciyər, bu mərd ürək kimdə var?
Hünərləri hardadır hünərdən dəm vuralar!

Bu göy qübbə altında həmdəmisən bəşərin,
Çoxunun çiynindədir murad verən əllərin.

Kəramətli, tədbirli bunca vəzirlərin var,
Fəqət, yalnız mələklər sənin əlindən tutar.

Zamanın üzüyünü sənə bəxş eləyib bəxt,
Verdi Süleyman təxti, qızıl ayaqlı bir təxt.

O Tanrı ki, bəxş etdi sənə gənclik, məmləkət.
Özü köməyin olsun, əskilməsin bu qüdrət!

Ayaq basdığın torpaq qızıla, zərə dönür,
Səni yada salanda zəhər şəkərə dönür.

Mey içməsə səninlə Firidun məqamlılar,
Zöhhakın zülm ilanı çiyinlərindən çıxar.

Mey iç ki, mütriblərin, saqilərin var sənin,
Qəm yemə ki, ağ günün, simüzərin var sənin.

Ölkənin bel sütunu, sultanlar sığnağısan,
Qılıncınla, tacınla güc-qüdrət qaynağısan!

Ey tac alan, təxt alan çırpışmalar rəhbəri,
İldırımdan betərdir qılıncının kəsəri.

Xəzinələr saçırsan xəlifələr sayağı,
Birinə tac verirsən, birinə təxt ayağı.



Neçə tac üstündədir sənin zəfər qılıncın,
Şahlar xəzinəsindən axıb gəlir xəracın.

Ayağına baş qoyan fələklərə yüksələr,
Səni sevən könüllər bəxtəvərdən bəxtəvər!

Sayəndə bayquş belə xoşbəxtdir hüma qədər,
Zirvənə ucalan baş qədəmin olmaq istər.

Haqqı inkar edənlər qayıdıb həqiqətə
Səndən şikayətçidən gedirlər şikayətə.

Düşmənlərin nal kimi dara çəkilib batır,
Rəxşinin yer dağıdan dırnağı altındadır.

Yeddi fələk, yeddi göy- kəmərinin tqqası,
Səkkiz cənnət də sənin bayrağının şaqqası.

Kimin ki başı sənin hökmün altında deyil,
Onun tacı başına bir ilgək olacaq, bil.

Hər elmin tacidarı, fənnin memarı sənsən,
İki aləmin canı, can birliyi özünsən.

Bir qulaq burması ver, ədəb alsın səxavət,
Yandır sözün şamını, nəşə saçsın qoy sənət.

Sən öz quluna geydir cahanın cübbəsini,
Nizamiyə bəxş elə qəbul rayihəsini.

Ətli-canlı olsa da sözüm, kəlamım... yenə
Arıqlayır, yetincə sənin ürfan süfrənə.

İncisiz, ləlsiz qalıb bu dənizlə bu mədən,
Ona əlinlə mərcan, ağzınla inci ver sən.

Fəqət pisə, dargözə vermə zərrəcə imkan,
Oxlarından yaqut saç, qılıncından da mərcan.

Taleyin fələk kimi məsud, bəxtiyar olsun,
Hər işində, gücündə bəxtin sənə yar olsun.

Uğrunda can qoyanlar, ox tutanlar nə qədər...
Ağbaxt mənəm, qarabaxt səni istəməyənlər.

Zəfərlərin başımız üstündə bayraq olsun,
Düşmən başı qələmin ucu kimi vurulsun!

## KİTABIN YAZILMASI SƏBƏBİ

Mən ki tazəbir gülə şərqi bəstələyirəm,
Mən ki, sənin bağında bülbüləm, bilir aləm.

Dedim: sənin kəndində bir zəng çalsın əllərim.
Sənin eşq ocağına mən də bir nəfəs verim.

Heç kəsin yalan sözü əsir etməmiş məni,
Dilim, qələmim demiş yalnız qəlbim deyəni.

Tazə söz cadular, oyunlar göstərən mən,
Yeni heykəl yaratdım yeni qəlibli sözdən.

Ona səhər kimi pak ədəb öyrətdim ancaq,
Sehr pərdəsi tikdim, dan yeritək üzü ağ.

Ədəbdədir şahlığın, dərvişliyin nüvəsi,
Ondadır ilahinin neçə sirr xəzinəsi.

Nə şəkərim üstünə gəlib yad arı qonar,
Nə də mənim bal arım yadlardan şəkər umar.

Bu cür dənizdə Nuhun əlindən düşər süpər,
Xızr isə dolçasını bu suda qırıb gedər.

Yaratdım bu gözəli, püşk atdım şahlar üçün,
Adın çıxdı falımda, necə xoşbəxtəm bu gün.



Bir cüt namə yazıldı qeyrət, qüdrət adından,
Hər ikisi hər iki Bəhram şaha ərməğan.

Onun yazdığı əski mədəndən doğulan zər,
Bu "Sirlər xəzinəsi" - tazə dənizdən gövhər!

Bayrağını qaldırdı o mərd Qəznədən göyə,
Sənsə vurdun damğanı Rum elində sikkəyə.

Baxma ki, o damğada söz qızılla yazılıb,
Ondan qat-qat üstündür mənim damğam, qızılım.

Mənim yüküm, xəracım onunkundan olsa da,
Matahıma müştəri qat-qat çoxdur dünyada.

Şivəm qərib görünsə, rədd etmə, ey şəhriyar,
Azca nəvaziş görsə, qəriblikdən qurtular.

Mənim təzə sözlərim bar gətirdi bağ kimi,
Özgəsinin neftilə yanmadı çıraq kimi.

Bu nemət ki, süfrənə qoyuram - ərzə bəlli:
Hələ bircə kimsənin ona dəyməmiş əli.

Bax dadına, duzuna dadlıdırsa, nuş olsun,
Dadsızsa, yaddan çıxart, unut fəramuş olsun.

Axşam əl uzadırkən fələklə bir təama,
Sən mənim də qarşıma bir tikə qoy, unutma.

Sənə məhəbbətimi vəsf etdim dönə-dönə,
Qoy sənə qul xidmətim iftixar olsun mənə!

Vəfasını gördüyüm hər sultandan daha çox
Sənə bağlanmağı mən üstün tutdum, şübhə yox.

Vəfa ilə biləcək sənə xidmətim daim,
Qalmayacaq gözümdə bir mətləbim, bir əhdim.

Əbədilər qəsrinə, şahlıq adlı büsata
Mədh yazan şairlər xeyli yığışıbsa da,

Nizaminin yanında ədəb gözlərlər yəqin.
Nizami - Nizamidir, bəs onlar kimdir, deyin?

Şairlik zirvəsinə mən ki çoxdan çatmışam,
Dalda qoyub tay-tuşu, köhlənimi çapmışam.

Mən ki söz almazından odlu qılınc yaratdım.
Arxadan gələnlərin boynunu vurub atdım.

Elə yüksək zirvəyə qalxmışam ki, baxın bir:
Ayaqlarım ən uca başların üstündədir.

Elə yüksəkdəyəm ki, yalnız orda uçaram.
Öz hümmətimə layiq yer istər, yol açaram!

Sənin fikir nurunda təki qalxım, yüksəlim,
Ayağın dəyən yerə təki baş qoya bilim.

Ayaq tozun olum ki, baş çəkim kəhkəşana,
Əl verməsən çatmaram, inan, şöhrətə, şana.

Dedim: bir-iki aya şahın hüzurunda mən
Yeröpmə adətini təzələrəm ürəkdən.

Heyhat, çıxış yolum yox... dəmir həlqəyə düşdüm,
Bağlı qapı dalında çox qaldım, çox döyüşdüm.

Qabıq qoydum yolunda. Dedim: qaya, daş yarım,
Təki sənin yanında yüksəlsin etibarım.

Gördüm arxam, önüm də arslanlarla doludur,
Qılınclarla kəsilmiş yolum - ölüm yoludur.

Qılınclarla qapanmış bu ölkədə, qoy dedim,
Ən uca, güclü səslə sənə bir xitab edim.



Çəkdim sənin qapına qaynayan söz çeşməmi,
Özüm yerimdə qaldım bir qum dənəsi kimi.

Mən sənin qabağında bir zərrəyəm, ey günəş!
Səhər dualarımı qəbul eylə, fikirləş.

İnci dolu dənizin atdı, tutdu qəlbimi,
Kəmərindən asıldı ürəyim daş-qaş kimi.

Nə qədər ki, həyat var, hər gecən gündüz olsun,
Gecə şahlıq gövhərin qoy min-min ulduz olsun.

Gör nə qədər parlaqdır sarayda bəxt ulduzun.
O qəsrin bu qəsrdən bir az da üstün olsun!

## SÖZ QOŞMAĞIN FƏZİLƏTİ HAQQINDA

İlk dəfə tərpənəndə sözdən güc aldı qələm,
Sözdən doğuldu ilk hərf... şahiddir bütün aləm.

Xəlvət pərdəsini ki, qaldırdılar, atdılar,
Öncə söz cilvələndi. Sözdən can yaratdılar.

Sözdən bir səs, bir nəfəs gəlməmiş... inan mənə:
Can girmədi palçıqdan xəlq olunmuş bədənə.

O gündən ki, qələmlə kağız çatdı şərəfə,
Cahan açdı gözünü, sözü gördü ilk dəfə.

Söz olmasa... yerində dünya donardı, sözsüz.
Nə qədər söz dedilər, yenə əskilmədi söz.

Söz - canımızdır. Eşqin lüğətinə baxsana!
Biz sözük, gövdəmizsə yalnız xarabaxana!

Yalnız qələm gücünə düşüncələr saxlanır.
Misra söz quşlarının qanadına bağlanır.

Bu sonsuza ləmlə ki, həm təzədir, həm köhnə,
Tükü qırx yerdən bölən sözdən kəskin nə var, nə?

Düşüncənin əvvəli, rəqəmin, sayın sonu
Təkcə sözdür, təkcə söz, yadında saxla bunu.

Tacidarlar özü də tac söyləmişlər sözə.
Vasiflər vəsf eyləmiş, durub sözlə göz-gözə.

Gah sözün bayrağını çəkərlər eldən-elə,
Gah qələmin yazlığı saçar dünyaya şölə.

Bayrağını ən uzaq ellərə sancan da söz,
Qələmilə ən yeni iqlimlər açan da söz.

Bomboş fikrə, xəyala təslim olan kəslərə
İlham üz göstəribmi məgər barı bir kərə?

Biz ki, gözlərimizi sözə dikmişik artıq,
Ölsək, sözlə ölərik, qalsaq, sözlə qalarıq.

Damarları donanlar sözdə tapar atəş, köz,
Bağrı yananlar üçün dirilik suyudur söz.

Sözdür bərbad aləmin abad qalan guşəsi,
Bu fələk sürfəsinin ən dadlı azuqəsi!

Hər boyadan arı söz, ömür-günsən, ömür-gün,
Dillə vəsfini vermək bəlkə də qeyri-mümkün.

Söz bayraq taxan yerdə hərf ilə dil müzəffər,
Dilin, nitqin qüdrəti olur sözlə müyəssər.

Söz tapa bilməsəydi candakı şah damarı,
Can kələfin ucunu - aləmi tapardımı?

Sözlə kəşf eləyiblər hər qaydanı, hər yönü:
Həm təbiət mülkünü, həm şəriət möhrünü.



Mədən söz və qızılı təklif edib sərrafa,
Sərraf tərəzisində söz qızıldan çox baha!

Təzə söz, köhnə altun... hansı hakim kəsilir?
Söz hara, qızıl hara? Bunu sözdoğan bilir!

Öz qüvvəsilə gedər söz qasidi... tövşüməz.
Söz qaldıran dağları qaldıra bilməz heç kəs.

Söz gümüşü yanında qara torpaqdı dirhəm.
Qızıl hansı itdir ki, onu sözə tay biləm?

Heç kəs əyləşə bilməz sözdən yuxarı qatda.
Dövlətimiz, mülkümüz yalnız sözdür həyatda.

Sözdən xəbərsiz qalır könüldən xəbərsizlər.
Sözün yozumu sözdən daha şux, daha dilbər.

Nə qədər ki, cahan var, sözün coşsun qoy səsi,
Qoy sözlə təzələnsin Nizaminin nəfəsi.

## ÖLÇÜLÜ SÖZÜN ÖLÇÜSÜZ SÖZDƏN ÜSTÜNLÜYÜ

Ölçülüb biçilməmiş dağınıq sözlər belə
Sözsə... zərgər yanında bənzər gövhərə, lələ.

Ölçülüb biçilərsə incə fikir, incə söz,
Nə qədər gözəlləşər, olar ürəyincə söz.

Kim ki, sözə söz qoşub tapar haqqın səsini,
Sözlə iki aləmin açar xəzinəsini.

Bu xəzinəni yalnız açar tapanlar açar.
Yalnız söz ərlərinin dilləridir bu açar.

Sözün tərəzisini quran ulu hökmdar
Sözün aşiqlərini sözlə etdi bəxtiyar.

Ərşin bülbülləridir cahanda söz qoşanlar,
Məgər özgələrinə tay tutularmı onlar?

Düşüncə atəşilə pərişan olan zaman
Mələklərlə gəzərlər, mənzilləri asiman.

Sözdoğanlar - nur saçan peğəmbərin kölgəsi,
Ərzin işıq pərdəsi, haqqın yanar nəfəsi.

Mətanət meydanında kimlər tutdu gör səfi -
Əvvəlcə peyğəmbərlər, sonra şairlər səfi!

Şair ilə peyğəmbər - bir nigarın məhrəmi,
Peyğəmbərlə şair haq, qalanlar haq görkəmi.

Şairin süfrəsində şirin xurmalar ki, var,
Xurma deyil, bəlkə də ürək parçasıdırlar.

Ürəyin dişlərilə qoparılmış söz, fikir
Torpağın dimdiyilə cilalanmış incidir.

Hikmət qaynağı şeiri hər gül alçaldıb bir az,
Sudan da ucuz etdi beş-on nəfər şeirbaz.

Kimin söz pərdəsində ahəngi var, sehri var,
Özü yerdə olsa da ruhu göylərdə yaşar.

Dizi üstə söz yazıb, ölkələri tutan kəs
Dünyada heç bir kəsin qapısında baş əyməz!

Dizinə dirsəklənib fikrə dalan sənətkar
Sözlə iki cahanın dövlətini qazanar.

Əyilən məğrur başı ayağını salamlar,
Dirsəklənər dizinə, kamanlaşar sənətkar.

Öz kaman halqasını qırmaq istəyən şair
Bükülüb açılınca, təb üstündə dikəlir!



Bükülmüş qamətilə sanki həlqə olanlar
Fələyin qulağına bəzən min həlqə taxar.

Bu hoqqabaz fələyin qarşısına sənətkar
Bircə hoqqa yerinə neçə daş-qaş çıxardar.

Söz köhləni qızarkən... sənətkarın ürəyi
Dodağını öpməkçün yırtar köksü, köynəyi.

Şairin ləl dodağı o zaman ki, açılar,
Yeddi göyün, Günəşin yaxasını parçalar.

Şairin ilham adlı cəsur bir atası var, -
Dünyaya oğul kimi ər misralar bağışlar.

Şair qozbel fələyi qul eyləyər özünə,
Qulluqdan azad olar, özü köçsə sözünə.

Şairin xoş nəfəsi cana məhrəm, qəlbə yar,
Dilsizlərə dil verər, susmazları susdurar.

Hər gözələ can verən incə söz memarıdır.
Sən şairə vurul ki, o söz bəstəkarıdır.

Müştəri ulduzumu söz əvsununda şair?
Ya Harutun sehrini qırıb pozan zöhrədir?

Yağmaladı bu kəndi qaçaq-quldur atlılar,
Şeir adlanan bu dağı alçaqlar alçaltdılar.

Ağıl başımdan çıxır. Görün, sözbaz nə qədər...
Sözü abırdan salır şeir, söz çeynəyənlər.

Mən qanım bahasına yetirdim can meyvəsi,
Neçin su qiymətinə satılsın könül səsi?

Dad əlindən, ey fələk, söylə, haçaq, bəs haçaq
Belə kəmərli mərdlər zülmündən qurtulacaq?!

Başda gəzdirilməli sənət düşdü ayağa,
Aç ayaqdan qandalı, döndər sözü bayrağa!

Qızıl üçün, zər üçün sinov gedən hərîflər
Sənətin sikkəsini, görün nəyə veriblər?!

Qızıl sözü qızıla dəyişənlər alçalır,
Zülmətə işıq salan ləli verir, daş alır.

Sənətini bilənlər ən uca dağdan uca...
Bu işıqlı zirvəni kimlər alçaltdı bunca?

Sultanın qızılından zərli əba geyənlər
Bir gün çörək yerinə dəmir çeynər, daş yeyər.

Fəqət, saf civə kimi zər qəmi çəkməyən kəs
Diri qalar, sultanın qılıncını gəmirməz.

Madam ki, baldır sözün, ucuz satma onu sən,
Rəvamı söz şəhdini çibinlərə verəsən?

Sənə vəfalı yoxsa, umma hətta vəfanı,
Sormasalar, söyləmə hətta xoş bir duanı.

Şəriət elmi səni adlı-sanlı bilməsə,
Girişmə şairliyə, uyma yırtıcı nəfsə.

Şəriət elmindədir şairin şair gücü,
Söz de ki, kəmərindən nur alsın Cövzi bürcü.

Şeirin qaldırar səni, Sidrlə əyləşdirər,
Sənə ən uca qatda şahlıq, sultanlıq verər.

Hökmdarlıq şərəfi qazandırar söz sana.
Söz hakimi demişlər söz yaradan ozana.

Fələklərə ucalan bir söz yaratmayınca,
Fələk kimi süst olub oturma bikar, bica.



İsmətli ol əriyib baş əyən şamlar sayaq,
Gündüz təvazö əhli, gecələr ayıq-sayıq.

O zaman ki, ilhamın aşıb daşar, qızışar,
Çərxin köhlən atını ram edərsən... yümşalar.

Hər şeiri bəyənmə sən, yarat elə bir əfsun,
Dünyanın şah əsəri sənin qismətin olsun.

Lovğalanma, görsən də gövhəri əllərində.
Ondan da əlasını ara öz içərində.

Qızışma, sözü bir az ehtiyatla bəyən sən,
Sən ki, uca rütbəli söz yarada bilənsən

Söz yolunun başına bayrağını dikənlər
At çapar, Günəşi - top, Ayı - çövkan eləyər.

Sənətkar duymasa da nəfəsində ol, şölə.
Azaltmaz sürətini hətta bir nəfəs belə.

Təfəkkür meydanında oddur şair ürəyi,
Yazığı gəlsə belə, dalda qoyar fələyi.

Cəbrail qanadını at edib çapar şair,
İsrafilin telindən yelpazə yapar şair.

Yol vermə ki, tarlanı tapdalasın hər yetən,
İnci düzdüyün sapın ucunu göstərmə sən.

Əncirin qol-budağı bomboş qalardı yayda,
Ənciryeyən olsaydı bütün quşlar dünyada.

Bu şivənin, bu dilin mahir ovçusuyam mən,
Dəyər məni görməyə, şairlər xasıyam mən.

Hər hücrəyə köçürdüm şeiri, şeiriyyəti mən,
Çıxartdım meyxanədən, ucaltdım sənəti mən.

Birdəfəlik tullayıb zunnar ilə xirqəni,
Zahidlər, rahiblər də gəlib tapdılar məni.

İndi mən al-qırmızı bir qönçəyə bənzərəm,
Quzey rüzgarlarını durub burda gözlərəm.

Aşkarlasam, car çəksəm bakirə sözlərimi,
Səs salaram cahana qiyamət suru kimi.

Mən söz cadugəriyəm, tazə, köhnə hər nə var,
Mənim məftunum olar, mənim heyranım olar!

Bütün sehrbazları mat qoyur sehrim mənim!
Mələkləri aldadan əfsundu şeirim mənim.

Gəncəm - Babilim mənim Harutu yandırmada,
Ən uzaq ulduzu da Zöhrəm nurlandırmada.

Zöhrəm söz dəyərini Mizan öürcündə ölçür,
Dilim-ruh aləminin lisanıdır, gözüdür.

Duz-çörəyim bilirəm öz cadugər şeirimi,
Halal sehrim sındırır Harutun hər sehrini.

Ürəyinin şəklidir Nizaminin sözləri,
Mənim halal sehrimlə daim canlı - dipdiri!

## GECƏNİN VƏSFİ VƏ KÖNÜLƏ DALMA

"Qalxanını at suya!" - dedi Günəş torpağa,
Özü də qalxanını atdı, qoydu qırağa.

Gördü can verir Günəş, cahan bir az daraldı,
Onun saralıb solan süpərindən rəng aldı.

Qonşuları - ulduzlar yaraqsız görüb onu,
Dərhal qılınc çəkdilər vurmaq üçün boynunu.



Öküz bürcü - boynunda neçə muncuq, sədəf, zər
Yıxıldımı, üstünə xəncər çəkər Ay-Ülkər.

Əl qaldırıb, incitdi Ay öz süd nənəsini
Gündüz zınqırovuyla gəzdi göy qübbəsini.

Qaranlıqdan qorxaraq nənə dayə əl atdı,
Torpaqdan fərəh dolu neçə məcun yaratdı.

Məsiha nəfəsindən şəfa saçdı Yer aya,
Qara sevda oduna su səpdi duya-duya.

Sərin şərbət verdilər sanki təşnə xəstəyə,
Atdı qara sövdanı, Ay qalxdı yerdən göyə.

Xəstələnmiş qəmərdən boşaltdı bir ləyən qan,
Qara mürəkkəb kimi qaraldı bütün cahan.

Üzə çıxdı gecənin içindəki rəngləri,
Qəza söydü, faş etdi üzüqara kafəri.

Hər ləhzəsində cilvə, hər nəfəsində bir naz,
Neçə hoqqadan çıxdı gecə - köhnə hoqqabaz.

Ayın ağ qəndi üstə qızıl güllər tulladı,
Zöhrə öz qavalından gümüş pullar tulladı.

Mən belə bir gecədə yalqızam, çırağım yox,
Nalə çəkən bülbüləm, gülüstanım, bağım yox.

Ciyərimin qanını qatdım ürək sözümə,
Ürəyimin suyundan od çilədim üzümə.

Bir az götür-qoy etdim, öz qəlbimlə qonuşdum,
Bir öyüd kitabını andım, ardınca qoşdum.

Gizli bir hatif mənə dedi: - Möhtac olanda
Borcu o qədər al ki, verməyə gücün çata.

Nə üçün su səpirsən pak, təmiz atəşinə?
Yel kimi yedək atı axı nə lazım sənə?

Dərd gətirən torpağı burax, girsin tabuta,
Şölə verən atəşi bəxş et parlaq yaquta.

Ox atma ki, hədəfin öz düşüncəndir sənin,
Atın öz ayağındır, qamçını az vur, çəkin!

Yaramaz bundan artıq qəflətdə əyləşəsən,
Canında su qabısa, könül qapısına sən.

Bir qəlb hekayəsi də bu göy qübbə içində,
Xoş bir nəğmədi dünya təmiz, mavi biçimdə.

Qaçaq-quldura bənzər beş duyğudan uzaqlaş,
Səninki qəlb yoludur. Qəlbi dərk etməyə qoş.

Uçur Ərş aləminə bədəndən qurtulanlar,
Cəbrail qanadını taxır ruhuna onlar.

İki dünyanı atan tutur qəlb dünyasını,
Ruh aləmində tapır nemətlərin xasını.

Gərəksizdir bəlkə də, təbiətdə göz, qulaq
Üzəvari pərdəyə dustaq olmuşuq, dustaq.

Qönçə qulaqlarına pambıq tıxamısan ki...
Aldadar gözün səni. get, işə sal idrakı.

Bağda gülə, nərgizə neçin səcdə qılırsan?
Onlar sənin əlindən lələdağdılar. inan!

Hər cür eybəcərliyin aynasıdır gözlərin,
Od üstünə su tök ki, heç nə görə bilməsin.

İnsan təbiətində dəllallıq şakəri var,
Bəri başdan ən azı qırx yaşını nəqd umar.



Ancaq qırx yaşa çatmaq ən böyük məsuliyyət!
Səfər xərci gərəkdir, bir də zəhmət, məşəqqət.

Qırx illik dərslərini təkrar etməkdən əl çək.
Yetər, əfsun oxuma! İndi sənə dost gərək.

Ürək dostun az isə... bircəsini barı tap.
Qəmlərini silməyə bir könül qəmxarı tap.

Qəm yemə, qəmlərinə ortaq olanın varsa,
Dərdin boynunu sındır, bir həmdərd tapılarsa.

Ey dərdə ilişənlər, qəmə əsir düşənlər!
Sizə dost dəyanəti dayaq deyilmi məgər?

İki nəfəs tutuşsa, tapsalar bir-birini,
Bir anda min kədərin qırarlar dizlərini.

İlkin xoruz banında sübhün ətri saçılar,
İkincidə ulduzlar zanbaq-zanbaq açılar.

İkinci xoruz banı imdadına çatmasa,
Birinci rüsvay olar, batar qara bir yasa.

Bir iş görə bilməzsən təklikdə sən, ey naçar!
Ara, axtar, yarı tap, yaranı yar sağaldar.

İnan, nemət sayılmaz cahan səltənətləri,
Min qızılın bir dostdan üstün deyil dəyəri.

Yer üzündə hər kəsin dosta ehtiyacı var,
İllah, elə dosta ki, dar gündə dada çatar.

Mey dostları zay edər ayı, günü, həftəni,
Beləsindən üstün bil qapındakı cəftəni.

Salxım ürəyinin sıx şirəsini. şəhdini,
Torpağa dönməklə al bu dünyadan əhdini.

Bil ki, ərşin sultanı xəlq edərkən cahanı,
Çəkdi, qoşa yaratdı həm surəti, həm canı.

Nəhayətsiz, sonsuzdur Tanrının kəraməti,
Kərəm saçıb, can ilə birləşdirdi surəti.

Surət, can birliyindən qəlb aləmi doğuldu,
Xilafət mövqeyinə çatan xəlifə oldu.

Üstə sultan xütbəsi olan bu könül ki, var,
Ruh və cism aləmindən yaranıb açıq-aşkar.

Parlaqlığın könlünün Süheylindəndir əlbət,
Könül cocuqlarıdır bu can ilə bu surət.

Dimağıma yetincə qəlbin səsi, sorağı,
Çırağıma töküldü sanki beynimin yağı.

Qulağımı dil sayıb, sükut etdim bu dəfə,
Canım hədəf kəsildi içimdəki hatifə.

Bu feyz ilə, qüdrətlə gücləndi nitqim, dilim
Təbim qurtuldu qəmdən, şadlıqla doldu qəlbim.

Odlu göz bulağımdan buz suları qovanda,
Qəlbimin atəşilə qazan qaynadı canda.

Beş hissə - beş quldura qəzəb silləmi sıxdım,
Onlar aciz qaldılar, mən bir az güclü çıxdım.

Bir mənzil, iki mənzil at çapdım dincəlmədən,
İlk sıçrayışla çatdım könül qapısına mən.

Getdim canım dişimdə mən öz könlümə sarı,
Elə bil gecə yarı ömrüm də oldu yarı.

Ruh adlı mehrabımın önündəyəm mən yetim,
Bükülüb topa döndü mənim çövkan qamətim.



Qəddim ikiqat oldu, haram qatdım yuxuma,
Çövkanım topa döndü, ətəklərim yaxama.

Ayağım başım oldu, başım ayaqmı oldu?
Boyum topa bənzədi, çövkan sayaqmı oldu?

Əldən getdi iradəm, gözümdə gün qaraldı,
Yüzlük təkliyə döndü, təklik yüz şəkil aldı.

Səfərdaşlarım cahil, mən səfərdə xamtəhər,
Kimsəsizlik yamandır, qəriblik ondan betər.

Nə cür keçim qapıdan? Cığır hanı, yol hanı?
Bəlkə geri qayıdım, tərk edim bu məkanı?

Qorxudan nitqim batıb. Yolum dar bir keçiddi,
Fəqət cilovdan tutan eşqim dadıma yetdi.

Döydüm qapını. "Kimdir vaxtsız gələn?" sordular,
"Bir Adəm oğlu!" - dedim. - "Yer versəniz şad olar".

Cəld içəri çəkdilər: - "Buyur, Tanrı bəndəsi!"
Qaldırdılar, yox oldu vücudumun pərdəsi.

Sarayın ürəyindən bir səs qopdu: - Nizami!
İçəri keç, bura gəl! - Bu səs necə səmimi.

O saray hərəminin dərhal məhrəmi oldum
"Gəl lap içəri" - Getdim. Nurlu bir hücrə buldum.

Elə parlaq hücrə ki, çilçıraqban. Müqəddəs,
Yaman gözlər onu heç görməsin, görə bilməz!

Bir əfsanə içində yeddi hekayət kimi
Yeddi xəlifə burda əyləşiblər səmimi.

Ora fələk mülkündən daha böyük məmləkət,
Torpağına can verən küləkləri nə xoşbəxt!

Orda günorta şahı gəlib başda əyləşib,
Nəfəsabad diyarı bir azca istiləşib.

Qarşımızda qırmızı, qızıl donlu süvari,
Zəfər rəmzi bir gəncin ləl rəngində paltarı.

Şikar kəşfiyyatçısı, sərt, acıqlı bir cavan
Yanında qara bir qul - bir az qəmgin, pərişan.

Pusquda ayıq-sayıq, mahir bir kəməndatan,
Gümüşdən zirəh geyən miss bədənli pəhləvan.

Sanki onlar pərvanə, mənim könlüm şəm idi,
Onlar pərişan... bircə mənim könlüm cəm idi.

Mən öz qənaətimlə könül mehmanı oldum,
Yalnız könül şahının nemətinə vuruldum.

Mən könül ordusunun görüncə bayrağını,
Üz çevirdim aləmdən, atdım hər növrağını.

Öz dililə söylədi könül mənə: " - Ey dilsiz!
Uçur dilək quşunu bu yuvadan, uçur tez!

Bu cür tüstü içində tutuşar odum məgər?
Mən duzam, xoşlayarmı hər duzu sütül ciyər?

Mənim kölgəm bu dəhrin sərvindən əzəmətli,
Addımlarım, ayağım onunkundan qüdrətli!

Xəzinəyəm, amma ki, Harun kisəsində yox,
Səninlə olmasam da, uzaqda deyiləm çox.

Ona çox qulaq asdı mənim nitq bülbülüm,
Nəfəsini duyunca utandı, susdu könlüm.

Sıxılaraq baş əydim, bir müddət yerə baxdım,
Qulağıma ədəblə qulluq halqəsi taxdım.



Ustad - könül xacəsi təzələdi əhdimi,
Fələklərə ucaldı sayəsində Nizami.

Qalmadı riyazətdən, pəhrizdən başqa yolum,
Dedim: - Mən də o pirdən riyazət dərsi alım.

## BİRİNCİ XƏLVƏT. QƏLBİN TƏRBİYƏSİ

Ədəb dərsinə keçdi o riyazət öyrədən,
Məni doqquz fələyin çıxartdı çevrəsindən

Yolumuz halqa-halqa, əyri-dolay, çən-duman,
Fəqət, mənim ustadım sapmadı öz yolundan.

Elə bir yerə çatdı yolumuzun axırı,
Tamam arxada qaldı onun dolambacları.

Sözü daşdan keçən pir bizimçün qürur idi,
Tanrımız olmasa da Tanrıdan bir nur idi.

O pir iki cahanda mənə gözətçi, hami!
Yoxsa çəkib dərdimi, qayğıma qalardımı?

İşlərimi yoluna qoymasa da bu dəm o,
Bilirəm, şəfqətini əsirgəməz məndən o.

Mənim tək ədəbsizə ədəb öyrədən o pir
Az qala qulum oldu, mənalıdır bu tədbir.

Mənim kimi qulundan bezib üz döndərmədi,
Qənimət bildi bəlkə bir yoxsulla ülfəti.

Züleyxanın vətəni Misirdənmi o, gəldi?
Yusifini quyudan çıxarmaqla yüksəldi!

Uyğudan qapanarkən gecənin qara gözü,
Yandı sübhün çırağı, işıqlandı yer üzü.

Doğdu Günəş, Fələyin nəhəng çırağı yandı,
Gecənin qaranlığı dan rənginə boyandı.

Mənim əlimdən tutdu əli çıraqlı ustad,
Gəlib çatdıq bir bağın ətəyinə xeyli şad.

Ətəyimi arıtdı kədər tikanlarından,
Gülə qərq etdi məni gül nəfəsli o insan.

Güldüm yaşıl çöldəki lalə kimi, zər kimi,
Yüz yerdən parçalandı paltarım güllər kimi.

Canını təslim etdi canıma al lalələr,
Yaz yanaşdı, bağladı belimə güldən kəmər.

Gah qan rənginə düşdüm al qırmızı mey kimi,
Gah da yırtdım gül kimi köynəyimi - qönçəmi.

Tez budaqdan budağa, güldən gülə can atdım,
Bir qaynağa qovuşub, su içməkdi muradım.

Mənim eşq bayrağım bənd olunca bir yerə,
Vəfa qoxusu gəldi başqa bir yandan yenə.

Açıq deyim: bir yarın rayihəsi, nəsimi
Mənə ürək, can verdi İsa nəfəsi kimi.

Fırlatdı bir tərəfə mindiyim kəcavəni,
Səhər rüzgarlarına yar-yoldaş etdi məni.

"En aşağı! - Söylədi, - Özündən çox vurma dəm,
Enməsən, endirərəm səni mənlik təxtindən!"

O xəyal dənizində mən ki, bir gəmi oldum,
O cənnət havasında cənnət sakini oldum.

Orda axır sərin su, burda od düşüb cana,
İrmağın qıyısına at sürdüm yana-yana.



Qarşımdakı saf bulaq Günəşdən daha parlaq,
Xızr yuxusunda da görməmiş bu cür bulaq.

Nərgizlər - oyaq gözlü, yasəmənlər yatağı
Baxsan, uyudar səni günün günorta çağı.

Qaliyə iyli behişt bu bağın qulu oldu,
Fələklər dairəsi onun həddi-hüdudu!

Güllər qərar tutublar yarpaqlar yaxasında,
Ətəkləri sürünür tikanlar arasında.

Tülkü vermiş tikana dərisinin rəngini,
Ceyranlar çiçəklərə göbəyinin mişkini.

Şəkər gülüşü güldən xəcalət çəkən tutu
Məst olub, yaşıllığı qanadlarıyla tutub.

Şehlər dadlı süd kimi damır təzə otlardan,
O südün şəkərilə məst olub ahu, ceyran.

Gəlin otağı kimi süslü gül yuvasında
Ceyranlar gül ovlayır, böcəklər salır səda.

Necə qucaqlaşıblar, görün, xeyri gülləri,
Gül rəngli ənbər üçün yelpik olub hər biri.

Nərgizlər baxanların gözlərinin sürməsi,
İlanları kor edər otun zümrüd şöləsi.

Qafiyələr bəstələr orda qumruyla bülbül,
Ağlı başdan çıxarar yasəmənlə qızılgül.

İsa dilli, nisgilli, ömrü birgünlük süsən
Sübhə müjdə verməkdə Musanın pak əlindən.

O qədər fəryad qıldı göyərçin dönə-dönə,
Axır saldı göyü də öz göyərçin rənginə.

Sultan söyüdlərinin müşk ətirli hüsnünə
Rüzgar umud əlilə misralar qoşur yenə.

Gah bahar gəlirdi ki, salamlasın hər yanı,
Gah gül təşəkkür ilə dindirirdi tikanı.

Türkə bənzər yasəmən çöldə qürub ağ çadır,
Çadırın ayparası Sürəyyaya nur saçır.

Lalə namaz qılmağa gəlib atəşgədəyə,
Məcus hindlilər kimi əlləri qalxıb göyə.

Lalənin bağrı qara - ərəb yavrusu kimi,
Türk yasəmən Yəməndə Süheyl ulduzu kimi!

Sular yumşaqlığıyla Qaqum xəzinə bənzər.
Yaşıl otla - Sincabla, qəribədir, cüt gəzər.

Bağın darvazasında cüt bayraq: qızıl, sarı,
Qapılar pəncərətək açılmış göyə sarı.

Aya, ulduza çatan uca bulaqlar ki, var,
İşıqlıqdan kölgəyə qızıl pullar tullayar.

Günəşin qulağına kölgə nəsə pıçıldar,
Təsbeh çəkən suların əlində qum canlanar.

Sünbülün busəsindən yaralanmış nəstərən,
Gül dodağı incimiş qönçənin kirpiyindən.

Xeyrinin ox qabında daha qalmamış tikan,
İstər qalxana dönsün, istər diləsin aman.

Titrəyir salxım söyüd oxla vurulmuş kimi,
Lalənin manqalından qalxan dumanmı, çənmi?

Sanki dalğalı çəmən qanadlanıb qalxacaq,
Yasəmən təzəlikdən damla-damla axacaq.



Burda şəkər qamışı təbəssüm saçdı yenə,
Sarı güllər boyandı qırmızı ləl rənginə.

Hələ sərxoş çiçəklər, sərsəri çöl gülləri...
Gül ətrilə açılıb yellərin şən dilləri.

Turuncun yarpağından yaşıl görünən səma
Əlində qızıl narınc birdən çıxdı qarşıma.

Fələklər bayrağını qızıl şəfəqlə süslər,
Yaşıl bahar güləşib, onu yıxmaqmı istər?

Bu göyərən aləmin hər gülü, hər çiçəyi
Sanki yerin canıdır, göylərin də ürəyi.

Yaşılbaş dan ulduzu doğar hər gün dan üzü,
Daim yaşıl qalasan, ey bağ!" - söylər bu sözü.

Gəlib burdan keçəndə yaşıllığını lək-lək
Girov qoymuşdu sanki yaqutu çalan fələk.

Günəşin qaynağından işıq almış hər bulaq
Cənnət hurilərinin gözlərindən də parlaq.

Otlar namaz qılarkən seldən əl suyu almış.
Qüslə görə şükr edib, qalxıb bir boy ucalmış.

Süleymanın ətrini alınca neçə güldən,
Quşlar Davud səsilə nəğmə söylər könüldən.

Vurulmuş qırqovulun almaq üçün qanını
Çil kəklik cırmaqlayır sərvin ağ dabanını.

Bağ bülbülə əmr etdi qarğayaraq qarğanı:
- Gedin, alın canını, halaldır onun qanı!

Atıb getdiyi gündən bayquş bu gözəl yeri,
Onun alnına yazdı fələk viranələri.

Əsdi Süheyl rüzgarı Yəmən yellərilə bir,
Bomboz, yanıq çöllərə gətirdilər rəng, ətir.

Sürətlə qaçdığından yandı lalənin bağrı
Sinəsinə dağ çəkdi ürək çırpıntıları.

Surətpərəst şəmşadın kölgəsi əl-qol atdı.
Az qala tər lalənin ciyərini çıxartdı.

Gümüş dırnaqlarıyla səhər üzlü yasəmən
Titələri silmişdi gecənin gözlərindən.

Qızıl kəndirli Yusif quyu qazdı mübarək,
Quyusu-yasəmənin çənəsindəki çökək.

Yəhudi çalmasıtək saraldı yerin üzü,
Su göstərdi Musatək işıqlı əl möcüzü.

O çeşmənin suyundan məlhəm düzəltdi torpaq,
Nuş etdiyi nə varsa, geri qaytardı ancaq.

Səhərin aydınlığı sığmadı göylə yerə,
Kölgəni gəzdirməyi tapşırdılar yellərə.

Günəşin dodağını sancdı kölgə, axdı qan,
Yel daradı, şeh düşdü söyüd yarpaqlarından.

Orman qımıldanarkən işıq kölgəni qucdu,
İrmağın yaxasında rənglər qol-qanad açdı.

Mən tikan arayarkən nə tapdım: ud ağacı,
Udla dolu manqaldı gül şaxəsi, gül tacı.

Çiçək ovcu, gül boynu - bülbüllərin minbəri,
Bənövşənin telləri - qızılgülün kəməri.

Quşların cəh-cəhləri Davud səsindən də xoş,
Güllər Nizamidən çox şəkər, qənd səpən olmuş.



## BİRİNCİ XƏLVƏTİN SƏMƏRƏSİ

Külək öz niqabını atınca bir kənara.
Qəlbim, ustadım mənim könül verdi bir yara.

Gördüm bir nigarı ki, nəfəsi gül qokulu.
Özü qəndə qarışmış, gülüşü şəkər dolu.

O fitnəli, ay üzlü, ipək yaşmaqlı rəna
Gözəlliyilə Ayın od vurdu xırmanına.

Zülfünün qıvrımları enmiş kəmərinədək.
Başdan ayağa göyçək, nazlı, duzlu, mübarək.

Görüb onu, duz kimi yalamaq istər hamı,
Duzlu göz yaşı tökər anıb duzlu dad-tamı.

Qarışınca şəkərə gül dodaqların duzu,
Dodaqların şəkəri suya düşdü, doğrusu.

Şəkər bağında ondan tutuquşu utanar.
Tutuquşu başından gözəl, ağ çənəsi var.

Çənəsinin yumrusu təzə narınca bənzər,
Turunc dadlı buxağı bəlkə gümüş, bəlkə zər.

Sərxoşları ayıldan bağ gülütək sehri var.
Dostun verdiyi meytək tövbələri sındırar.

Təbərxuntək, innabtək qan tökən gül dodaqlar
Cana qıyar, şəkərin ağ başını bıçaqlar.

Qızılgüldür, yaşıldır, fəqət, qənd qamışından,
Noğulmu, nabatmıdır? Yox, şərbət sanar dadan.

Ud ağacına oxşar xalı ciyər yandırar.
Gündüzün sədəfində qaliyə əzən nigar!

Xalının həsrətilə yandı aşkar, gizlicə,
Ay özü göy üzündə xala döndü bir gecə.

Onun ləli gecəni Ay təkin nurlandırar,
Ala gözləri bizi Günəşdən çox yandırar.

Ürəklərin karvanı neçə fərsənc uzanar,
Fəqət, bu şüa yollar onun ağzı kimi dar.

Məgər o daş ürəkli mənə zərrəcə yandı?
Ciyərimin üstündə ürəyim parçalandı!

Bal dodaqları sözmü, ya gülüş səpir onun?
Hüsnü şüalar saçır, hər qəmzəsi bir əfsun.

İnci qutusu kimi qapanmışdı dar ağzı,
Aralansa dodaqlar, qənd, şəkər satar ağzı.

O hoqqanı, o dürrü elə ki, gördü eşqim,
Elə sehirləndi ki, bu sehri yapmaz heç kim.

Ağır tay kimi atdım parıltıya uymağı,
Ruhum boynumdan açdı hər cür xaltanı, bağı.

O qənirsiz gözələ baxmağa taqət hanı?
Başımdan aşan gördüm dirilik bulağını.

Ağılını getdi əldən, divmi göründü gözə?
Dəmir qandal vuruldu sanki biləyimizə.

Məgər mey nəşəsilə kədəri silmək olar?
Günəşin nur qaynağı məgər gillə suvanar?

Dərdlilərin yoldaşı, könüldaşı - dərd, acı,
Şərab düşkünlərinin şərabdadır əlacı.

Ey sinəmə çəkdiyin dağdan xəbərsiz nigar,
Sənindir ruhumdakı bu təzə bağ, bu bahar.



Mənim gözlərim çıraq, sən üstümdə çıraqban.
Sözüm - bağdı, göz yaşım - bağı suvaran bağban.

Pərdə dalında qalan bir gözəlin siması -
Bu gün mənimçün "İxlas" surəsinin aynası.

Bu dolaşıq kələfin ucu tapılanacan
Başım dizim üstündə - çox əyləşdim nigaran.

Yəqinlik yolu seçdim yara yetməkdən ötrü.
Sən də mənim getdiyim yolla get, ey dost, yürü!

Yox, bu pərdəyə yadsan, dayan, şair yürüsün.
Nizaminin işini elə Nizami görsün.

## İKİNCİ XƏLVƏT. GECƏ GÖRÜŞÜ

Könlüm - ustadım mənim qədəh vurmaq istədi.
Bir neçə tay-tuşuna "Gəlin, dərdləşək!" dedi.

Səhər kimi işıqlı gecənin masasında
Vardı arzu edilən hər cürə nemət, qida.

İlk baharı andıran məclis, asudə işrət.
Nə rüzgardan çəkinmə, nə də bir ayrı möhnət.

Pəncərədən girən meh buxar qoxusu saçır,
Darda qalan Yusifin köynəyindən bəhs açır.

Gecə şahı öldürmüş gecə bəkçilərini,
Eşqin şəkəri üstə çırpınan böcəklərmi?

Sazçalanlar pərdədə rəng arar, ahəng arar.
Keçir vəfa bəhsinə pərdə halındakılar.

Yerə dəymək eşqilə Süheylin qədəmləri
Dürr üstünə ləl səpir, şeh üstünə mirvari.

Yanır ciyərin şamı - yanır şamın ciyəri,
Atəşin ürəyitək ürəyin atəşləri.

Manqalda ud ağacı məclisi nurlandırır.
Şəkər saçır... şəkər də udu alovlandırır.

Gül suyu şüşəsindən saçır ətri, şəkəri,
Ağ süfrəyə zər tökür şamın al şöləleri.

Şərab noğuldan öpüş almaq üçün biqərar
Noğul ağzından badam, gözündən şəkər saçar.

Şəkər dodaq, badam göz bir-birinin məhrəmi
Eşq oyunu qızışır Mərrix ilə Zöhrənin.

Qulaq qapılarına çatır şirin vədələr,
Gülüş gül dodaqlardan dirilik suyu istər.

Tülkünün göbək xəzi altındadır qaplanın,
Arslan kəmər eyləmiş göbəyini ceyranın.

Aşiqin yaxasında məşuqənin əlləri,
Rəqs edənlər məclisə saçıb dürrü, gövhəri.

Şamlar əli qədəhli saqilərmi, dayanmış,
Taslar mey aludəsi, pərvanələr bayılmış.

Uyğu nəyə bənzəyir? Qanadsız pərvanəyə,
Təşəkkürlə baş əyən şamlar dönüb şöləyə.

Əlindəki sazıyla Zöhrə məclisə zivər,
Dürüst bir ahəng ilə mizrab sındıran əllər.

Məclis qızıb, qeyb olub uyğusuzluq xumarı,
Bir-birindən nur alır məhəbbət çıraqları.

O şeyi ki, təklikdə heç bir kəs tapa bilməz,
Bircə nəfəsdə tapır onu iki həmnəfəs.



Bir-birinə verirlər sevgililər mükafat,
Bədən bədənə peşkəş, könül könülə sovqat.

O bəzəmiş hücrədən yoxluq yükünü guya
Atmışlar ölüm adlı tamam başqa dünyaya.

Şadlıq quşu naməni qanadına bağladı,
Sürəyyanın qırıldı yeddi qolu, qanadı.

Dan quşunun - xoruzun səsi atəş dolusu -
Məhəbbət quşlarının ciyərinə səpdi su.

Quşcuğazlar mürgülü... xoşdur uyğunun dadı,
Ayın əli, göylərin ayaqları bağlıdı.

Yabançılar qapıdan girə bilməz içəri,
Pərilərin telləri - divanələr zənciri.

Müştərinin ürəyi qəm həlqəsində çarpar,
O, üzük həlqəsindən bir az da xırdaca, dar.

Cinlər büdrəyən kəsə hücum etdiklərtək
Hər aşiqin ağlını başdan alır bir mələk.

Tikanları götürür kirpik ucunda onlar.
Könül qapılarında yasəmənlik salanlar...

Xətti - xalı neyşəkər, hüsnü - könül meyvəsi,
Cismi bəlkə də güldan, özü-bir gül dəstəsi.

Fındıq ağzı şəkər, qənd, badam gözləri xumar,
İnnabı püstəsinin üstə incə xətmi var?

Saçlarının gecəsi "halal sehri"nə bənddi,
Babil sehri, hind xalı ovsunlamış bu xətti.

Camalları, xalları, incə qəmzələrilə
Döndərdilər aləmi Hindistana, Babilə.

Gözüm baxdı gözünə... bir təbəssüm qazandı,
Ürəyim bir cüt gözün başına çox dolandı.

İti dilli qəmzəsi, gör, tikanmı, ya neştər?
Saçlarının düyünü bizim işlərə bənzər.

Hər kamana qoymamış qəmzəsinin oxunu,
Bir baxışla öldürür aşiqlərin çoxunu.

Qanad verir ürəyə sanki İsa nəfəsi,
Ürəyin torpağında abi-həyat çeşməsi.

Ətri yasəmən kimi bədənində, əynində,
Yaşmağını Ay kimi, daşıyır öz çiynində.

Gül üzü, al dodağı şəkər, badam səpmədə,
Bəlkə pənah aparır güllər şəkərə, qəndə.

Həyat verdi, can verdi hər baxışı cahana,
Hər kirpiyi can üçün dönüb oldu bütxana.

Gümüş tək ağ üzündə ətir saçır qara tel,
Müşgün özü ətrini ondan alır elə bil.

Gümüş buxaq, ağ buxaq kəmər bağladı tərdən,
Göy qurşağı yarandı Günəş yanında birdən.

Zülf - İbrahim, yanaqlar - İbrahim atəşləri,
Göz - İsmail, kirpiklər - onun qətl xəncəri.

Yanağının atəşi bir dəstə reyhan oldu,
Nərgizinin üstündə xəncər də xəndan oldu.

Meytək yandırar səni bir busə versə əgər,
Dodağı ölgünləri İsa kimi dirildər.

Onun tərli yanağı şehi ağappaq nəsrin,
Ay camalı nur saçır göydə Sürəyya təkin.



Necə qəşəng açılıb hurinin ağ yaxası,
Səhər naməsidirmi nur möhürü - tuğrası?

Tanrı ərənlərinin hümməti, xalqın canı
O nurun divanəsi, o işığın qurbanı.

Ağız susur... qaşlarsa doymur incə söhbətdən,
Gözlər qonuşur... çünki dil tutulub heyrətdən.

Ağ süfrəni, gör, necə gül rəngli mey bəzəyir,
Qızıl, gümüş qədəhlər nərgizlərə bənzəyir.

Əqlin başı aylanır bu dairə içində,
Əldən gedir ürəyin dözümü də, gücü də.

Gülməkdən vaxt tapmayan gül ağızlar qiyamət -
Bircə ac da çəkməyə qalmayıb daha taqət.

Məğlub olub... başını səbr aşağı saldı,
Fitnə iki ahəngin arasındamı qaldı?

Sədəfli saz ucaltdı Davudi nəğməsini,
Nəql etdi Mahmud ilə Ayaz hekayəsini.

Nizaminin şeiri də bu dəm qənd, şəkər saçdı,
Qəzəlxan ceyranların dillərində dolaşdı.

## İKİNCİ XƏLVƏTİN SƏMƏRƏSİ

Əzəlin toxuduğu bir xalçanın üstündə
Ömürdən ötən çağlar yenə də öz hökmündə.

Könül mənim şeirimlə salam verir qulağa,
Gözlər alır salamı, canla dodaq-dodağa.

Türk gözəli gülərkən qəndin qəlbi daralır,
Ceyranların gözündən gözlər sürməni alır.

Kətan geyinib gəlir ay camallı türk yarım,
Sökülmüş kətan kimi çatlayır dodaqlarım.

Gecənin sifətinə işıq silləsi çırpan
Ay səmada sübhədək aydınlığa pasiban.

Bir az xəfif dəysəydi qəmzəsinin oxları,
Can düşüb qədəminə, öpərdi torpaqları.

İşığından islandı şamın ağ kirpikləri,
Qısqanclıqdan ağardı çirağın bəbəkləri.

Sitəmlər ki, etmişdi cövr ilə, cəfa ilə,
Təbərrik bildi könül, götürdü vəfa ilə.

Mən - su arxı, o - çəmən, mən-yaşıllıq, O - Günəş.
Mən yuduğum paltarı qurudurdu o atəş.

Bəhrəsindən daddığım o gecə, bostanında
Nəyi var, bilmişəmsə, günahkaram yanında.

O yeni doğmuş Ayın şəfəqdəndi kəməri,
Bütün məftunlarından gizlətmişdi bəhəri.

Sən demə, məftununun məftunu olubmuş o,
Mənim eşqim - qığılcım, onunku - məşəl, alov!

Deyirdik sübh açılsın bir az gec, bir az yavaş,
Bu gecə pərdəmizə gündüz od vurmasın kaş.

Sağ çıxa bilsəydik, ah, bu gecədən gündüzə,
Bəlkə qiyamətəcən yaşayardıq göz-gözə.

O gündüzdən işıqlı gecə - bütöv bir həyat,
Yatsam, yuxumda belə bir də görmərəm, heyhat.

Mənim o gecədən xoş gecəm olmayıb hələ,
Elə gözəl bir gecə bir də düşərmi ələ?



O gecəni bir daha görə bilmək üçün, ah,
Əl qaldırıb göylərə deyirəm: Allah, Allah!

Yox, qaranlıq deyildi, aydın gündü o gecə,
Təkcə merac gecəsi tay olar ona məncə.

Fələyin ləli üçün "Günəş!" deyə mələr Ay,
O gecənin dərdindən dirilər Ay, ölər Ay.

Neçin gecə gündüzə özünü düşmən sayır?
Bəlkə min gün içində o gecəni arayır!

Mən hər şedən asudə. Bir də nə gördüm öndə:
Qılınc vurur başına, səhər al qan içində!

Yanqdırdı kirpiyimi qaynar Günəş, inanın,
Göz yaşlarım bürüdü könlümün eyvanını.

Yağış Günün qırmızı köynəyini yudu ki,
Pak olsun əl qaldırıb salamlarkən göyləri.

Günəşin yaratdığı hövzə sanma lal durub,
Sənin və mənim kimi min-min sənək sındırıb.

Çərx gümüşlə bəzəmiş ulduzların dəsini,
Açmış altun günəşin qızıl səhifəsini.

Bir az yüngül oyandı ağır yatan dan yeri,
Qaranlığın qanını tökdü qızıl xənctəri.

Mən dözmədim şəfəqin yürüşü qarşısında,
Qalxan etdim canımı bu qılınca, bu oda.

Çaydan sıçradı səhər- o təşnələr düşməni,
Gecənin körpüsünü sökdü, öldürdü məni.

Bir səs gəldi könlümün təzə xərabəmdən:
"Mükafatım, ey səhər, söylə, budurmu səndən?

Bundan bir azca əvvəl yarım mənə yar idi,
Qaranlığa nur saçan qızıl şamım var idi.

Hanı o şam, o gecə? Hara qol-qanad açdı?
Uzaqlaşdı, dağ aşdı, guya heç olmamışdı.

Yemiş sənin balını, sanc onu neştərinlə,
Pambığına od vur, od, yol tükünü, ver yelə!

Ağıllandır xamları, qorxma, olsan da qatil,
Yanmışları yandırmaq əlində çətin deyil".

Göz yaşımı görüncə Gün məni qucaqladı,
Şəfəq və şəfqət saçdı, qan-yaş töküb ağladı.

Mənim ahımla yandı o dan yeri, o xırman,
Günəşin od qaynağı dondu göz yaşlarımdan.

Fələk zəhər də verdi, umud da verdi mənə,
Gecə ilanı muncuq, günəş gətirdi mənə.

Səhərin gözlərindən işıq aldım, nur aldım.
Çox şeydən xəbər tutdum, yenə bixəbər qaldım.

Hər kim ayaqlaşırsa bu yürüyən fələklə,
Deməki, qucar aləmi səhər boyda ürəklə.

Aylı gecələrindən sən ey xəcil qaldığım,
Gündüzünün yanında üzü qara olduğum!

O gecəni vəsf edib mən ki qələm çalmışam
Ondan ədəb, mərifət, ondan ibrət almışam.

Yalqızlıq pərdəsinin qara rəngidir gecə,
O zülmətdə bircə nur idrak nurudu, məncə.

Manqalda ud ağacı gül suyuyla yanaşı,
Biri xəstə naləsi, o biri də göz yaşı.



Süfrədəki nemətlər, bəxtimdəki mələkə
O Qədr gecəsinin xəyal nurudu bəlkə.

Bu göy qübbə altında, de, kimlərdir ucalan?
O qaranlıq pərdəyə, o sirrə vaqif olan?

Bizə pərvanəliyi öyrədən gündən bəri
Həmən şamdan yaxşı şam yandırıbmı dan yeri?

Çalış sən də o şamdan bir azca nur alasan,
Sən də Nizami kimi dönüb çıraq olasan.

*BİRİNCİ SÖHBƏT*

## ADƏMİN YARADILMASINA DAİR

O zamanlar ki, eşqə səcdə qılan yox idi,
Yoxluq içində varlıq səssiz bir cocuq idi.

Lakin gəldi o xoşbəxt yoxluqdan bu varlığa,
Bəşər darvazasını açdı bəxtiyarlığa.

Pərilərin sonuncu çocuğuydu bu bəndə,
İnsan oğullarının ilkiydi yer üzündə!

Tanrıya bayraq tikib ilk xəlifəsi oldu,
Bayraq kimi ensə də, bir də qalxıb doğruldu.

"Adəmə ad öyrətdim, torpağını qırx günə
Yoğurdum!" - ayə gəldi təkcə Adəm şəninə.

Gözləri gah bulaşıq, gah tərtəmiz bir aləm
Həm qızıldı, həm sərraf, həm məhək daşı Adəm.

Göydə yaşayanların ən gözəli, ən xası,
Tərtəzə yer əhlinin o idi tək aynası.

Canının şəkli bildi insanlıq o igidi,
Yeddi səma qolunun qızıl bilərziyidi.

Çıxdı iki beşikdən - qovuşdu cısm ilə can,
İki cövhər məğzini mənimsədi ilk İnsan.

Odur zindan əhlinin mükafatı, xələti,
Ruh əhlinin saqisi, sədri, ilham qüvvəti.

Bu xilqətin siniri, səddi - onun bazarı,
Varlığında Allahın saflıq, qüdrət axarı.

O hələ süd qokulu qırx günlük bir cocuqkən,
Dil açdı, dərs öyrəndi qırx yaşlı müdriklərdən.

Eşqin gözəl yazısı alnında şölələndi,
Cənnətin qucağında bir gülüstandır indi.

Uzaq görən ən parlaq gözdən çıraq aldı o,
Ən uca bir ağaca qondu, yuva saldı o.

Ondan dən alsın deyə cənnət quşları gəldi,
Şərəfi qarşısında bütün başlar əyildi.

Tamah saldı kərəmin bəxş etdiyi danəyə,
Atdı ev-eşiyini, cənnətə vida deyə.

Şükür sənə, ey tanrı, tələdə saralır dən,
Dəyərdimi bu şükrə? Dən qoyulmuşdu qəsdən.

Tanrıya dualardan, diləklərdən yaranmış,
Səcdəsinə az qala cümlə cahan qapanmış.

Adəmin darvazası kimə qiblə olmadı?
Yalnız bircə divanə - İblis səcdə qılmadı.

Səkkiz cənnət bağından üstünə gül səpildi,
Bütün güllərə ləçək, iblisə dağ çəkildi.

Lakin, ey insan oğlu! Adəm gülmədi sonsiz.
Cənnətdə bir rahatlıq, inan, bilmədi sonsiz.



Cənnətdə hökm etməyə tükənmişdi dözümü,
Dərd çəkirdi ki, sən də görəsən Yer üzünü.

Qəlbində övlad eşqi, övlad - onun sabahı.
Bir arpaya dəyməzdi buğda yemək günahı.

Ciyərini dağladı buğdadan gələn ağrı,
Buğda dənəsi kimi iki böləndü bağrı.

Buğda kimi lüt-üryan, gözü-könlü qubardı,
Nə torpağı, nə daşı, nə də ruzusu vardı.

Bildi: şuma düşməsə çatar əhdinə haçaq?
Dəyirmana girməsə, üzü ağ olmayacaq.

Buğda yeyincə, üzü buğda rəngini aldı,
Bərk utandı, ay kimi, saman kimi saraldı.

Buğda qara torpağı yarıb çıxırsa necə,
Adəm sənin uğrunda cəbrə dözdü elecə.

Deyərsiz bir buğdaya eləki, tamah saldı,
Özü də buğda kimi çılpaq, lüt-üryan qaldı.

İblisin ucbatından uğradığı həqarət
Buğdanın da bağrını ikiyə böldü, əlbət.

Quru torpaqda bitən sarıbuğda, o gövhər
Ağılsızlıq, sıxıntı rəmzi deyilmi məgər?

İnsan buğda yeməklə bir az bəlkə saz oldu,
Heyhat, buğda əslində nəhəng bir ağız oldu.

Can ipinin ucunu itirmiş, ey zavallı,
Bircə buğda dənəsi səni tələyə saldı.

Öz arpa çörəyini qənaətlə ye ki, sən,
Adəm düşən buğdanın toruna düşməyəsən.

Yaraşarmı sənə heç iblis felinə düşmək?
Sən bir sultan şirisən, hürmə qapıda ittək!

Əgər tövbə etməsən Adəm kimi ürəkdən,
Alnındakı ləkəni silə bilməyəcəksən.

Suçun varsa, üzr istə. Paka çıx Adəm kimi,
Adəm üzr istəməklə, de, təmizlənmədimi?

O gündən ki, meylini bir danəyə saldı o,
Bu həyat tarlasının əkinçisi oldu o.

Adəm, gör, hara gəldi bir buğda həvəsilə,
Cənnətdən hara düşdü? Bu dünya tələsinə!

Solmuş gülə bəxş etdi yağışlı yaz buludu,
Sərəndibə köç edib, ismət çadırı qurdu.

Günahı ucbatından qaçdı xeyli uzağa,
O, üz qaralığını tökdü qara torpağa.

Nilçi oldu, gözündə nil rəngində asiman,
Hindistanda çəmənlər bitdi göz yaşlarından.

Fələk vuran ləkəni ovcundan silənədək,
Qarşısında göyərdi nil rəngində ot, çiçək.

Ay kimi şölə saldı, Xəta türkünə döndü,
Papağının altında Xəta zülfü göründü.

Bir yüngüllük gətirdi tövbə dağ cüssəsinə,
Yer üzündə Tanrının döndü xəlifəsinə.

Vəfa toxumu əkdi ağıl tarlasında o,
Bəhrəsini vəqf etdi, bizə verdi sonda o.

Cənnət xəzinəçisi nə vermişdisə, ona
Altı qapılı evdə qoydu doqquz xurcuna.



Buyur, nuş et, bəyənsən hansı gözəl neməti,
Biçmək sənin qismətin, əkmək onun qisməti.

Ud inlər ki, yayılsın manqalın rayihəsi,
Eşşək cəfa çəkər ki, səfa görsün yiyəsi.

Bəli, sənin işini səndən öncə gördülər,
Tanrının lütfüylə sən yüksəldin, ey bixəbər.

Dön bahar rüzgarına, çiçək gəmisi ol ki,
Bostandan qovmasınlar səni tikanlar təki.

Qafil olma ki, ömrün yetincə son baharı
Qəlbə soyuqluq gəlir, cana atəş azarı.

Arslan ürəyin yoxsa, yoldan çəkilməlisən,
Demək, arslan deyilsən, bir arslan heykəlisən.

Saray qapılarında seyr elə heykəl şiri,
Yüz zopa vursan belə, qımıldanmaz heç biri.

Fələk xələti geymək sənə yaraşır məgər?
Ey torpaq oğlu, yalnız torpaq eybini örtər.

Sənin tale ulduzun çoxdan sönüb, ey bədbəxt!
Özün yumaq olmusan, dərdin, qəmin yekə dağ.

Dustaq deyilsən məgər? Bəs nədən ulu göylər
Min şəhəri tutanı bir şəhərə bənd edər?

Sən də bu göylər kimi beli bağlı ol müdam,
Fələklərlə ayaqlaş, irəli qaçma ondan!

Od kimi iti getmək, yanıb kül olmaq asan,
Bəxtəvərlik odur ki, yolda yorulmayasan.

Sakit axan su kimi yaşamağı seç peşə,
Yüngül suyun qiyməti ağır olur həmişə.

Bədən gözəllik tapır yalnız çevikliyilə,
Ruhun yüngüllüyündən can dönür qızılgülə.

Yüngül əsən rüzgarlar dolaşır hər iqlimi,
Ağırlar öz yerində qalır Qaf dağı kimi.

Tikan olma, aldanma qızılgülün hüsnünə,
Önə bax, bənövşətək baş əymə öz köksünə.

Divarları aynalı bu otağın içində
Tək özünü görürsən, hər şeyin gözü səndə.

Tək özünü görürsən sən bu ayna dünyada,
Varlıqda yox kimisən, ömrü vermisən bada.

Nə qədər hüdudlara, hədlərə çatsan da sən,
Varlıqda yox kimisən, lüt-üryansan əzəldən.

Əgər kədər duzundan azacıq dadmış olsan
Bu duzsuz işlərindən sən əl çəkərsən, inan!

Əl çək zülümdən. Uğraş vəfa yurduna birbaş,
Yanaş ulu Tanrıya, alçaqlardan uzaqlaş!

Tanrı gözəlliyini görüb, çirkinliyi at,
Uzaqlaşıb özündən. Tanrı məqamına çat.

Üzr istəsən, suçundan birdəfəlik əl çəksən,
Dada yetən Tanrıdan lütflər görəcəksən.

## ÜMÜDSÜZ PADŞAHIN BAĞIŞLANMASI DASTANI

Adil şah yuxusunda zalım bir soltan gördü,
Soruşdu: - Sənə Tanrı hansı cəzanı verdi?



Gündüzlər qan tökmüsən, ev yıxıb, zülm etmisən.
Gecə hansı əzabı çəkdin əvəzində sən?

Zalım cavab verdi ki: Ömrüm çatarkən sona,
Göz gəzdirdim cahana, pənah gətirdim ona.

Görüm düşkün çağımda yol göstərən kimim var?
Tanrı mərhəmətinə kim məni ulaşdırar?

Baxıb gördüm heç kəsin mənə bir şəfqəti yox,
Hiddəti, nifrəti çox, lütfü, mərhəməti yox.

Söyüd kimi titrədim, dözmədim bu rüzgara,
Ürək yara, üz qara, indi gedim mən hara?

Axar suya tulladım dörd ucunu kilimin,
Təkcə Tanrı lütfünə bağladım öz könlümü.

Dedim: ey ulu Tanrım, biz acizik, sən qadir,
Bu miskin, aciz qulun səndən xəcalətlidir.

Suçlarından peşiman zavallıya rəhm elə,
Nifrinlər qazanmışam yolundan çıxmaq ilə.

Ya tulla cəhənnəmə - ən sərt cəza ver mənə,
Ya da pisliklərimin əksini göstər mənə.

Gördü üzümdə tər var - xəcalət nişanəsi,
Üz döndərmədi məndən, kimsəsizlər kimsəsi.

Feyzilə qəbul etdi mənim yalvarışımı,
Çiynimdən dağ götürdü, sığalladı başımı.

Peşmanlıq, tövbə dolu bir nəfəs getməz hədər,
Qiyamətdə Tanrının qəzəbini söndürər.

Ey boşboğaz, aldığın hər boş nəfəs, fikir ver:
Bir əzab tərəzisi, bir ziyan ölçüsüdür.

Boş keçmiş hər gününü bir ziyan meyarı say,
Neçə il öldürmüsən, neçə fəsil, neçə ay.

Ömrünün tərəzisi incisizdir, ey sərxoş!
Həyat qədəhin dolur, həyat sandıqçansa boş.

Tərəziyə yerdəki daşları doldurma sən,
Bu fani muncuqları qolbağına vurma sən.

Nə qədər yığmısansa, bircə dirhəmə dəyməz,
Ömrü verdiyin sövda bir nəfəsmiş, boş nəfəs.

Hər nə almısansa, ver, cəm etməyə can atma!
Əlindən gələn qədər payla, bölüş, uzatma!

Belin məzlum əlindən, boynun kölə haqqından
Qurtulsa, qiyamətdə bəlkə taparsan aman.

Onda sənin ətəyin yetimlərə tor olmaz,
Dullar tutub yaxandan, səndən tələbkar olmaz.

Köhnə, cındır döşəkli bu dünyadan sən əl çək,
Kirli ətəyini yu, nəfsin gözünə mil çək.

Ya sən qəriblər kimi ruzu yığ yol getməyə,
Ya çəkil Nizamitək dünyadan bir guşəyə.

### *İKİNCİ SÖHBƏT*

## ƏDALƏTLİ VƏ İNSAFLI OLMAĞA DAİR

Ey kamalı, tədbiri xilqətlərə hökm edən!
Ayağı baş tacına dürr olan, gövhər verən!

Şahsan, şah qəsri istə, qoy görsün dünya səni,
İncisənsə, ara, bul Tanrı xəzinəsini.

Dünyanın o üzündən kimin var ki, xəbəri?
Səninlə məndən savay kimdi bilən bu sirri?



Tanrının xəlq etdiyi ilkin əzəli nurdan
Hamıdan çox pay alan sənsən, özünsən, inan.

Cahan - sənin öz evin, sən - bu evin açarı.
Səninkidir bu bağın hər barı, hər nubarı.

Əzmin, böyüklüyünlə tutmusan yer üzünü.
Qürur yaraşır sənə, ver irəli köksünü.

Sənin dövrən bu dünya çevrəsinin dışında.
Qiymətin iki cahan üzüyünün qaşında.

Səhər göylər Günşə gör neçin tutur ayna?
Kimliyini tanıtsın kainata, cahana!

Sənin beşiyin olan sonsuz mavilik ki, var.
Rahat yatmağın üçün gör necə yırğalanar.

Can quşu da, ölüyə can verən İsa da sən.
Sənin tək uca xilqət varsa, ancaq özünsən.

Günəşin ki, sinəsi qızıl odla doludur.
Üzünü gördüyündən onu sarmış bu qürur.

Soruş, bircə telinə dəyərmi o incə Ay?
Səndən alıb nurunu, gülümsəyər gecə Ay.

Sən cahanın qulu yox, gövhərisən, dürrüsən.
Xoşbəxt yaşa, qəm yemə, ön cərgədə yürü sən.

Yer üzünə bənzə ki, uca tutmur özünü.
Rüzgartək xəfif ol ki, fəth edir yer üzünü.

Hava çəkən, boş yerdən məhsul verən yer üstün,
Havalılar yel əssə, qalxıb toz olur bir gün.

Ver qəlbini Tanrıya - xoşbəxt olmaq istəsən,
Eşqin özü şahlıqdır, elə bil taxt üstəsən.

Soruş: harda qaldı din, təriqət qaldı harda?
Dəyanət getdi əldən, əmanət qaldı harda?

Hansı könüllərdə ki, dindən od var, əsər var,
İkinci dünyadan da xəbər tutmuşlar onlar.

Əlində, ovcundadır hər nə varsa dünyada,
Dinin dərdini çək ki, sərvətin olsun o da.

At aləmi, tut dini... var ikən bu cür imkan,
Bu alverdə nə üçün aldatsın səni şeytan?

Din adlı kəhrabanın arpa boyda zərrəsi
Bir batmanlıq iksirin bərabəri, əvəzi.

Tök ətəyindən daşı, cəvahiri satın al,
Dəyiş qara torpağı saf qızıla, qalx, ucal!

Bu alverdə, bu yolda ruzuya çatmaq asan:
Bir alıb, on verirsən, düz on qat qazanırsan.

Bu qazancdan faydalı daha nə var cahanda?
Bu ziyansız alverdən xeyir götür bir anda.

Dini sevib qorumaq sənin borcundu hər gün,
Bu yolda can qoyublar haqsevərlər haqq üçün.

Xeyirxahlığı güdmək - adillik nişanəsi,
Xalqa xidmət - kişinin ən böyük xəzinəsi!

Ordu üçün, yurd üçün xoş diləklər bəsləsən,
Bir gün yüksələcəksən yurdun nəzərində sən.

Ev yıxdı, mülk uçurtdu, zülmkarlar nə qədər,
Tapdı dövləti yalnız xalqı incitməyənlər.

Atdığın hər addımın düşün gələcəyini,
Öncə gördüklərini, sonra görəcəyini.



Çalış xəlq üçün qazan asudəlik, səadət,
Xəlqi döyən, incidən nə qazanıb? Xəcalət!

Təkcə öz dincliyini güdməklə məst olmusan,
Batır tədbir gəmisi, ayıl, ey sərxoş insan!

Haydı, zəbt et, mənimsə gücsüzlər tifaqını
Tısqırınca basıb ye yetimlərin haqqını.

Qiyamət, məhşər günü bəs nə üzlə, söylə, sən
Gözə görünəcəksən, haqq-hesab verəcəksən?

Arxalan ancaq dinə, o qüdrətə, əzmə sən,
Məgər sən Zərdüştçüsən, günəşbaz, acgözmüsən?

Bu sarışın, yuvarlaq Günəş zərnixə oxşar,
Aybaşı günlərində tapar onu qadınlar.

Doqquz mıxlı çadırda, hər nə varsa, yaxşı bax.
Zərnixbaz gəlinciyin oyunlarıdır ancaq.

Məsih kimi mənim də bircə budur marağım:
Ömrümün çırağında qoy tez tükənsin yağım.

Nə vaxtacan sürəcək pərvanə kimi yanmaq,
Çıraqlar qarşısında zəbun düşmək, odlanmaq?!

Sən İsaya qəsd edən bu pərdəni qır, at ki,
Ayaqları qandallı olasan İsa təki.

Hər kəs ki, İsa kimi duyub, sevib insanı,
İnsafı sayəsində tutub cümlə-cahanı.

Zülm ilə tutmaq olmaz bu cahanı, bu mülkü.
Mülkü ələ gətirmək yalnız insafla mümkün!

Adil olmayanların sənə nə faydası var?
İnsafsız səni yalnız tufanlara tullayar.

Ədalət müjdəsilə cahanı şad eylə sən,
İşlər gör ki, iş olsun, yurdu abad eylə sən!

Ədalət təşnəsidir, inan bu gözəl diyar,
Ədl ilə iş görənlər əbədi özül tapar.

## ADİL NUŞİRƏVAN İLƏ VƏZİRİN HEKAYƏTİ

Ayrılıb rəiyyətdən, səltənətdən, saraydan,
Bir gün ov həvəsilə atlandı Nuşirəvan.

Bu səfərdə munisi, dostu yalnız vəzirdi,
Özgəsini xoşlamır, tək onunla gəzirdi.

Ovlaq həndəvərində baxdı, birdən nə gördü:
Düşmənin qəlbi kimi boş bir viranə gördü.

Gördü ki, bir cüt bayquş civildəşir, uçurlar,
Şahın hövsələsitək araları xeyli dar.

Vəzirdən soruşdu şah: - Nə qonuşur bu quşlar?
Nədir bu həyəcanlı qışqırıqlar, təlaşlar?

Vəzir cavab verdi ki: - Ey dövrün tacidarı!
Öyüd xoşlamış olsan, anladaram əsrarı.

Bir toyun sövdasıdır bu dartışma, bu söhbət,
Bir kəbin üstündədir bu bazarlıq, məşvərət.

Bu quş verib qızını, başlıq umur o quşdan,
Gəlin başlığı istər bir az öncə, bu başdan.

Deyir, bu viran kəndi cehiz verirsən mənə.
Bir neçə xərabə də qoymalısan üstünə.



O biri quş deyir ki, əbəs alver etməyək,
Şahın zülmlərini görüb, qüssədən əl çək.

Şah bu şahsa, gərdiş də bu cür gedərsə yenə,
Yüz min belə xərabə cehiz verərəm sənə.

Yatmışdı, silkələdi bu cavab padşahı,
Ciyərini yandırdı onun fəryadı, ahı.

Baş-gözünə döydü şah, axıtdı göz yaşları.
Göz yaşlarından savay nə olar zülmün barı?

Barmağını dişlədi heyrət ilə, mükəddər:
"Zülmün gücünə bax ki, quşlar da tutmuş xəbər.

Zülmü hansı zirvəyə çatdırıb ki, gör bəşər,
Toyuqların bağrını çalağanlar didirlər.

Ey dünyanın düşkünü, qafil mən, bixəbər mən!
Başıma döyməliyəm hələ, gör nə qədər mən!

Nə vaxtacan soydurub soyacağam elləri?
Yaddanmı çıxarmışam qiyaməti, məhşəri?

Nə vaxtacana edim mən bunca əluzunluq?
Öz başıma açdığım oyun qorxuludur çox!

Bu mülkü verib mənə, bəxş eləyib ki, Tanrı,
Qovum yaramazlığı, qoruyum yadigarı.

Üstüm bəzək, içimsə təzək kimidir, heyhat,
Üstüm qızıl, içim mis. Misəm, ey dadibidad!

Gərək sənin könlündə kərəm olaydı, inan,
Utanaydın özündən, ya da ulu Tanrıdan!

Bu dünyada zülm oldu zövqüm, əyləncəm mənim.
O dünyada başıma kül tökməzmi qəm mənim?

Barsız, miskin ömrümün mükafatı - cəhənnəm,
Mənim sümüyümü də yandıracaq bu sitəm.

Nə vaxtacan töküm mən - yoxsa ömrün uzunu -
Həm xalqımın qanını, həm üzümün suyunu?!

Qiyamət - məhşər günü yapışaraq yaxandan,
Cavab istəyəcəklər, ey soyğunçu, bunu qan!

Peşimanlıq həyası boğsun məni, yanmasam,
Qoy bağrım daşa dönsün, bu qüssəni qanmasam.

Bu peşmanlıq, bu həya, bu iztirab, bu kədər
Yol yoldaşım olacaq məhşər gününə qədər!

Çiynimdəki yük qədər deyin kimin yükü var?
Dünyada kim mənim tək bunca zavallı olar?

Bu qədər cəvahirdən, bu qədər cah-cəlaldan
Nə apara bildi Sam, nə götürdü Nəriman?

Sonsuz vilayətimdə hər şey itaətimdə,
Nə istəyirəm daha mən öz aqibətimdən?"

O qədər dəyişdi ki, şahın halı, əhvalı,
Naləsindən yumşaldı atının polad nalı.

Ordugaha dönüncə təzələdi işləri,
Vilayəti bürüdü həssas nəvazişləri.

Əli qələmli, adil bir şah gördülər onu,
Fərman verib ürəklə, kəsdi zülmün yolunu.

Boğdu cövrü, cəfanı, car çəkdi ədaləti,
Axır nəfəsinədək qorudu səadəti.

Zəmanədə nə qədər devrim-inqilab oldu,
Nuşirəvan ölsə də, onun haqq səsi qaldı.



Onun adı yazılmış sikkənin üzərində
"Adil" sözü gördülər xoş günlərin birində.

Bəli, ondan dünyada parlaq xatirə qaldı,
Ədalətin zəngini kim ki, çaldı, ucaldı.

Könül yıxma, könül tik, can qoy xalqın uğurunda,
Səndən mehrini onda əsirgəməz Tanrı da.

Tap, sənə yar olsunlar Günəşə at çapanlar.
Dostun səfası üçün cəfa çəkən - bəxtiyar.

Sən ucalmaq istəsən, dərdi al, dərmanı ver,
Onda hamı deyəcək, - Qulunam, fərmanı ver!

Məhəbbətində qızğın, nifrətinlə soyuq ol,
Günəş kimi, Ay kimi payla nurunu bol-bol.

Hər kəs yaxşılıq etsə, yatmış bəxti ayıldar,
Bir gün həmən yaxşılıq öz üstünə qayıdar.

Sən çərxin gərgişinə qiyas gözüylə baxsan,
Yaxşı-yaman gündə də haqşünas olacaqsan!

Bu hərlənən günbəzin dal seyrinə bir müddət,
Hər şeydən üstün nədir? Tanrımıza itaət!

Üz döndər suçlarından, yaxşılıq et, haqqı tap,
Təki peşman olub çəkməyəsən dərd, əzab.

Üzrə, hiyləgərliyə əl atma, bəyənilməz,
Gözəl işlər gözləyir dünyada səndən hər kəs.

Sözlə başa gəlsəydi bu dünyanın nizamı,
Fələklərin çiynində yer tutardı Nizami.

## DÜNYA HADİSƏLƏRİNƏ DAİR

Ey bu qoca dünyanı ətəyilə süpürən!
Əl yelləyib aləmdən haçan əl çəkəcəksən!

Dərdə salma elləri. Dada çat, imdada çat.
Barı bircə saatlıq dəbdəbə şövqünü at.

Öz sonunu düşünən üzü ağdır, üzüağ,
Səltənətlə dəbdəbə dərvişlikdədir ancaq.

Süleyman mülkü umma. Nəfs, tamah xətadır.
Mülkü durur... mülkədar özü yer altındadır.

Əzra üçün bəzənmiş gəlin otağı olur.
Vamiqin əyləşdiyi məclis viran olubdur.

Hanı o toy, o məclis? Gəlin otağı bomboş.
Vamiq uçmuş... Əzra da qara torpağı qucmuş.

İlləri yola salmış bu ağ saçlı kainat,
Bir tel ucu qədər də dəyişməmiş o, heyhat.

Torpaq - qurban gözləyən boynuyoğun, imansız.
Fələk - boyunlar vuran bir cəllad ki, amansız.

Bu dünyanı dördəlli tutanlara fikir ver,
Kimə vəfa qıldı ki, vəfa qılsın bizə yer?

Torpaqda yaşayanlar dönüb torpaq oldular,
Mən canı qucduğunu hardan bilsin bir məzar?

Hər gül - solan bir könül, şehi - gözdən axan su,
Hər qədəmin altında bir mələyin yavrusu.

Biz ki, gəncliyimizi bəxş elədik cahana,
Bəs niyə bənzəmədik bu əbədi cavana?



Çocuğunu Simürğə bəxş edən Sam gənc ikən
Çocuğunun saçları ağappaqdır bəs nədən?

Bu vəfasız qübbə ki, daim dönər, dolanar,
Sənin istəklərinin tam əksinə fırlanar.

Bu gün şah eylər səni, aləm keçər əlinə.
Sabah döndərər səni bir çömləkçi gilinə.

Bu gecəli, gündüzlü, ikiüzlü dünyaya
Gələn gəlir ki, dözsün min-min cövrə, cəfaya.

O kəslər ki, dolanır yalnız çöldə, səhrada,
İmrənir o şəxsə ki, üzə bilir dəryada.

Dənizin əzabını dərisilə dadanlar
Quruya çıxsın deyə su içində odlanar.

Hər şeydən əsərlənər, qəmlənər daim insan,
Nə quruda, nə suda qurtuluşa yox imkan.

Bu vücud karvanını tərpət artıq, yoruldu,
Atıb həyat yükünü, köç eyləmək vərz oldu.

Ah, bu mavi qübbənin qəfəsində qalanlar!
Şəhərindən sürülən, kəndindən qovulanlar...

Bu yolu sağ-salamat gedə bilər hansı ər?
Ölümünü uzaqdan öncə duyub sezənlər.

Mülk həvəsindən əl çək, sənə qürur gətirər.
Dəbdəbələr kölgəsi heç məgər nur gətirər?

Əylənirsən həyatda, itirmisən ölçünü,
Oyuncaqmı sanırsan vahid, bircə ömrünü?

Min bir oyundan çıxır hoqqabaz fələk aşkar.
Gördüklərin göy boyda, amma, fikrin cılız, dar.

Hələ kamal çağından, zəka dövründən öncə
Keçən qəflət dəmləri bəxtiyarlıqdı səncə.

Elə ki, bədirləndi təfəkkürün qüdrəti,
Sona yetdi, tükəndi qayğısızlıq sərvəti.

Qəflətdə ömr eləmək məgər kişilikmidir?
Qafillər Yer üzündə divanələr kimidir.

Nə çarə, bacarmırsan oxumağı, yazmağı,
Barı qələm ucu yon, barı bacar pozmağı.

Könüllərə xidməti bir şərəf bil özünə,
Bəxtəvərin, xoşbəxtin kəmərindən əl üzmə!

Tikan qızılgül ilə yoldaşlıq etdiyindən
Sünbül çiçəyinə də ətir göndərir bəzən.

O qiyamət günü ki, hamı dönər barata,
Bu cəhənnəm səhranı çəkərlər ərasata.

Deyərlər: "Ey qəlblərə dağ çəkib həddi aşmış,
Zəlillərin, şillərin al qanına bulaşmış

Sənin od qumun hara, dirilik suyu hara?
Fəratın feyzi hara, alovun payı hara?"

Qum çölü fəğan qılar: "Sovurmayın külümü!
Qanı mən içməmişəm. Mən etmədim o zülmü!

Bir çimdik duz götürdüm bu dünya sürfəsindən,
Ciyərimə səpdim ki, bir azca dad bilim mən.

Bəlkə bir gül bitirim qeyrətlilər yolunda,
Bəlkə bilərzik olum hurilərin qolunda".

Yanar çöllər dinlədi hökmü boynubükülü,
Behiştin xalxalına mütrib etdilər çölü.



Cahanda yaxşılarla yaxşı bağlasan ülfət,
Bir cüt qanad taparsan, hər uçuşu səadət!

Heyhat, dünyadan köçdü ağzından dür saçanlar,
Bal süfrəsi yerində eşşək arıları var.

Ruzigara bax ki, sən nə üns qalıb, nə insaf,
Namərdlik ucbatından insandan qaçır insan.

Hanı ülfət, mərifət? İtib, tələf olubdur.
İnsanlar qalırsa da, insanlıq məhv olubdur.

Dünya uzaq düşübdür Süleyman dünyasından.
Sanki qeybə çəkilmiş gerçək insan, ər insan.

İstədim ki, qaynayım, qarışım bir nəfəsə,
Könlüm öyüd verdi ki, qoşulma hər nakəsə!

Məgər hüma kölgəli birce nəfər qalıbmı?
Nitqi vəfaqoxulu bir can-ciyər qalıbmı?

Ədəb toxumu səpmək - vəfadan nişanədir.
Dost haqqını gözləmək - vəfadan başqa nədir?

Əkinçi arat şuma ovuc-ovuc dən səpər,
İnanar ki, bir zaman götürəcək bar, bəhər.

## SÜLEYMAN PEYĞƏMBƏRLƏ QOCA ƏKİNÇİNİN HEKAYƏTİ

Günlərin bir günündə qanad açdı diləyi,
Bir çırağa yetişdi Süleymanın küləyi.

Təntənəylə, cəlalla yön aldı çöl səmtinə,
Qaldırdı öz taxtını göyün mina taxtına.

Çöldə bir cütçü gördü, təzələndi nəfəsi,
Onda sevinc oyatdı əkinçinin həvəsi.

Evindən gətirdiyi ovuc-ovuc məhsulu
Səxavət mədəninə saçmışdı zəhmət oğlu.

Dən səpilən guşələr göyərmiş xırda-xırda,
Hər danədən bir neçə sünbül boy atmış orda.

Danələrin sirrini əkinçi bir-bir açdı,
Süleyman dilə gəldi, sanki quşlar danışdı:

- Bir az mərdanı davran, gözü tox ol, ey qoca!
Əkdiyini biçib ye, bəsdir, tər tökmə bunca.

Quş deyilsən ki... dəni boş yerə çölə saçma,
Gəl, mənimlə bu yerdə quş dililə danışma.

Hanı əlində belin? Az cırmaqla səhranı.
Nə suyun var, nə arxın. Zay eləmə arpanı.

Düşün: sulu torpağa biz səpdik nə qədər dən,
Zəhmətindən savayı nə gördük bu əkindən?

Dəni külə döndərən bu təşnə çöllərdə sən
Yandırsan da canını, nə qazana bilərsən?

Cavab verdi ixtiyar: - Gəl, incimə sözümdən,
Heç nə gözləmirəm mən yerin, suyun feyzindən.

Mən bilmirəm heç suyu varmı, yoxmu tarlanın?
Əkmək mənim işimdir, yetişdirmək Tanrının.

Bax, budur suyum mənim - alnımdan süzülən tər,
Lingim, belim, külüngüm - bu dırnaqlar, bu əllər.

Sənin təki səltənət, mülk dərdi çəkmirəm ki...
Bütün ömrüm boyunca yetər mənə bu əkin.

Məni muştuluqlayıb,xoş müjdələr verənim:
Yeddi yüz dən olacaq bu torpaqda hər dənim.



Bu taxılı şeytanla şərik əkməmişəm mən,
Yəqin birə yeddi yüz verəcək bu halal dən.

Mənə hər şeydən öncə sağlam bir toxum gərək,
Sünbüllərin düyünü qoy açılsın qönçətək.

Götür-qoy etsələr də, bu dünyada nə qədər,
Hər bədənə yaraşan münasib don biçərlər.

Hər eşşək çəkə bilməz İsa yükünü, qardaş!
Dövlətin işlərini qavraya bilməz hər baş.

Gərgədan fil boynunu parçalar, düşsə aşka.
Ölü bir çəyirtkəni zorla çəkər qarışqa.

Yüz nəhri nuş ətsə də səs çıxarmaz ümmanlar,
Arx isə bircə seldən coşar, hay-haray salar.

Heç kəs gizlənə bilməz bu göy qübbə altında.
Hər kəs öz mərdliyilə çatır şöhrətə, ada.

Dövlətliyə yaraşır qeyrət, zəhmət, məşəqqət.
Mərdanələr hər dərddən qılar məgər şikayət?

Hər kəs Tanrı sirrini saxlamağa qadirmi?
Ya naz çəkə bilirmi çınlayan bir saz kimi?

Naz etməkdən söz açma, yalnız xublar nazlanar.
Nizaminin işidir naz çəkmək, ey tacidar!

*DÖRDÜNCÜ SÖHBƏT*

## RƏİYYƏTİN HAQQINI PADŞAHIN QORUMASI

Mərdliyin qalxanını alıb getmiş, ey qorxaq!
Divanəlik guşəsi yaraşır sənə ancaq.

Bir mülkə uydun ki, sən, heç zaman bəqası yox,
Bir ömrə uydun ki, sən əzəldən vəfası yox.

Mey-məzə düşkünləri aldatdı, aldı səni,
Bu hoqqabaz fələklər məsxərə qıldı səni.

Sən Quranı, qılıncı bir kənara atmısan,
Şərəfini bir xılta, bir qədəhə satmısan.

Heç qoymursan əlindən güzgü ilə darağı,
Zülfünün dərdindəsən yosma dilbər sayağı,

Saçlarıyla quyudan su çıxardın Rəbiə
Nicat verdi köləyə - yeddi mərddən birinə,

Sən, ey kişi adlanan, üzü qara, küt azğın!
Bir gör arvadlığıyla neylədi bir dul qadın.

Yenəmi kişilikdən dəm vuracaqsan, utan!
Az çərənlə, sən qat-qat aşağısan qadından.

Ağlın boynunda daim bahadırlıq yükü var,
Fəqət hansı bahadır ədalətə kəc baxar?!

Su təzələndi, fəqət sənin irmağında yox,
Xal şölə saçdı, fəqət sənin yanağında yox.

Göy deyilsən ki, xəlqi tufanla qorxudasan,
Qozbel çarxa bənzəmə düşün, çəkin qayadan.

Təmiz cövhərdən özgə nəylə fəxr eyləyək biz?
Hanı saflıqdan savay mayəmiz, sərmayəmiz?

Zülmkarlıq dəhşətdir. Əbəs tökmə, ey cani,
Öz üzünün suyunu, özgəsinin qanını.

Ədl, hümmət sevənlər yığışdılar bir səhər,
Yüz müşküldən birini həll edə bilmədilər.



Tanrı ərənlərinin ədlindən qorx, adil ol,
Gecə fəryad odları yağar başına bol-bol.

Kimdədir qeyrət, hümmət? Tanrı ərənlərində.
Sıxışdırma mərdləri, qüdrət var əllərində!

Bir neçə hind kahinin duası, lənətilə
Sultan Mahmud düşdü, gör necə böyük əngələ.

Mərdlərin nəfəsində paklıq, saflıq gücü var.
Qəzəbləndirsən, qeyzi sənin başında çatlar.

Mələklərdən daha saf əqidə yolçuları
Gözündə bağa qədər olmadılarmı barı?

O mərdlərin yolunu qılıncınla kəsmə sən.
Ürəyin parçalanar nalə xəncərlərindən!

Cahanın qəddarlığı onsuz da bəsdir bizə.
Yalnız haqqı qoruyan şahlar nəfəsdir bizə.

Bu dünyada kim tapar ən böyük səadəti?
O kəslər ki, qoruyar, gözləyər ədaləti!

## QARI İLƏ SULTAN SƏNCƏRİN HEKAYƏTİ

Bəla çəkmiş bir qadın bağrı qan, gözü yaşlı
Bir gün Sultan Səncərin ətəyindən yapışdı.

Dedi: - Ey Sultan, səndən görməmişəm yaxşılıq.
Fəqət neçə zülümə şahid olmuşam artıq.

Kefli bir darğa gəlib alt-üst etdi yerimi.
Şillə çəkdi üzümə, yoldu birçəklərimi.

Suçum varmı ki, məni öz evimdən çıxartdı?
Saçlarımdan yapışdı, sürüyüb çölə atdı.

Onun zülümlərindən nəfəs çəkə bilmirəm,
Dağlar basıb köksümə bu vəhşilik, bu sitəm.

Yaxamdan yapışır ki, de qatilin adını?
Filan gecə kim vurdu kənddə filan adamı?

Qapımı sındırır ki, söylə, hardadır cani?
Belə də zülm olarmı, ey bu yurdun sultanı?

Sərxoş, qatil özüykən, qırır qol-qanadımı,
Neçin döyüb, incidir ağbirçək bir qadını?

O yanda təbil çalıb, xərac yığırlar onlar,-
Bir yanda bir qadının üstünə şər atanlar.

Əl uzadır bu darğa, bir fikirləş, gör kimə:
Sənin ədalətinə, mənim də ismətimə.

Mənim yaralı köksüm yanır dağdan, düyündən,
Bezmişəm, əl çəkmişəm, inan, ömürdən, gündən.

Şəhriyar! Yerdə qoysan bu zülmü, bu əzabı,
Səndən sorulacaqdır qiyamətdə hesabı.

Adillik eşqindəsən, bəs hanı ədalətin?
Haçan sona yetəcək sitəmin, qəbahətin?

Qaydadır ki, sultandan xalqa güc, qüvvət gələr,
Bəs niyə səndən bizə daim həqarət gələr?

Yetim malını yemək ədalətmidir məgər?
Hələ də lənətlənir Abxazda qarətçilər:

Dulların əmlakını soyma, çapma, talama!
Utan ağ saçlarından, doymə olub-qalana.

Sən qul olduğun halda, şahlıq sövdasındasan,
Canidən şah olarmı, ey haqqı dardan asan?



Şah ölkədə hər işi sahmana salsın gərək.
Xalqın səadətinə keşikçi olsun gərək.

Adil olsa şah əgər, hamı ona baş əyər,
Bəslər məhəbbətini bütün canlar, könüllər.

Nə hünər göstərmisən taxt başına gələli?
Alt-üst etdin, taladın, viran qoydun bu eli.

Dağ kimi ucalmışdı bir zaman Türk dövləti,
Sarmışdı məmləkəti, ədaləti, şəfqəti.

Sən yıxdın o şöhrəti, batıb getdi o ad-san.
Demək, sən türk deyilsən, yığmaçı bir hindusan.

Əllərinlə dağıldı şəhərlərin əsası,
Biçinçinin xırmanı, əkinçinin tarlası.

Yığ başına ağlını əcəl gəlib yetməmiş.
Bir ədalət qəsri tik, əlindən gəlirsə iş.

Ədlin çilçıraq kimi işıqlatsın gecəni,
Bu gün, sabah, həmişə bəxtiyar etsin səni.

Yadda saxla, nə söylər sənə ağbirçək qarı:
Qanadlandır, şadlandır yetimləri, dulları.

Qapazını geri çək yoxsulların başından.
Yoxsa oxlanacaqsan məzlumlar qarğışından.

Sən ki, ox yağdırırsan hər guşəyə bu qədər,
Girəcəyin guşədən bixəbərsən, bixəbər.

Cahan qalalarını açan bir açardı şah,
Qapılar bağlamağa gəlməmisən, ol agah!

Səni şah tikdilər ki, azaldasan cəfanı,
Bir könül yaralansa, sən olasan dərmanı.

Zəiflərin adəti - qazla sığınmaq sənə,
Sənin borcun - onların sığal çəkmək telinə.

Qulağını geniş aç, bu möhtac, bu yalavac,
Bu ac zavallıların komasına işıq saç

Xorasan ölkəsinin hökmdarı Səncərə
Kar etmədi bu sözlər, düşdü başı cəncələ.

Bu dövrdə ədalət ərşə çəkilmiş, inan,
Asılmışdır o yalnız Simurğun qanadından.

Daha bu torpaq üstə nəşədən bir əsər yox,
Bu göy qübbə altında həyadan bir xəbər yox.

Qalx, ey dərdli Nizami, bu dünyanı qucaqla,
Ürəklər qana döndü, elə sən də qan ağla.

***BEŞİNCİ SÖHBƏT***

## QOCALIĞIN SİFƏTLƏRİ

Ömrün gözəl günləri ötüşdü, gecə düşdü,
Torpaq yellə öpüşdü, atəş suyla görüşdü.

Günəş divardan aşdı, uyğudasan hələ sən,
Sübhün bal yuxusunda hələ nəşələnirsən.

Cahangirlik, mənəmlik qasırğasından əl çək!
Qocasan, cavanlığın gur dalğasından əl çək!

Yaralanmış ürəyin dərddən, qəmdən dağ almış,
Sözlərinin duzu da, şəkəri də azalmış.

Ağıl bir az pərişan, fikirlər də dağınıq,
Ayaq yürüşdən, əl də işdən soyumuş artıq.

Ayağını uzat ki, torpaq ülfət istəyir,
Daha baş da, ayaq da istirahət istəyir.



Bu kirli, kəsafətli, bu pak, ülvi dünyada
Asudəlikdən savay varmı bir özgə fayda?!

Üzün, gözün soyudu Ayın ağ çeşməsitək,
Göyçək, al yanaqların soldu dağ laləsitək.

Saçın ağ, saçın qara... Başında səngərmi var?
Türk ordusu elə bil zəncilərlə çarpışar.

Bu qara, ağ saçların nəyi öyrədir sənə?
Gecədən yol gəlirsən təfkkür gündüzünə.

Çox gəlib bu aləmə sənin kimi cavanlar,
Heç qocalmayacaqlar - elə sanıblar onlar.

Heyhat, çalır qocalıq cavanlıq baharını,
Bükür xəzan yelləri gülün qanadlarını.

Gənclik hər növ çör-çöpü bulaq kimi ötürər,
Qocalıqsa, deyirlər, min bir eyib götürər.

Ağ tel Cəmşid dövləti - dövlət tükü olsa da,
Sənə qırx yaşdan sonra çətin gətirə fayda.

Axı, kimin gəncliyi döndü dədə mülkünə?
Mənə vəfa qılmadı, vəfa qılarmı sənə?

Gənclik sovuşdu getdi, heyhat, qəflət içində,
Təəssüflər yandırar məni heyrət içində.

Sənin qəmin, kədərin çətin kiriyib susa,
Yusif gözəlliyini zəmanə soldurubsa.

Gənclik səadətini anlaya bilmədin sən,
Qocalıq gəlməyibsə, bunu dərk edərmisən?

Bağın süsü, bəzəyi tazə qönçə, tər fidan,
Qocaldımı, görərsən, odun yaparlar ondan.

Gənclik - yaxıcı atəş, hər dəmi od parçası,
Gənclik - həyatın dadı, qocalıqsa - acısı.

Yazda tazə budaqdan tazə güllər fışqırar,
Odundansa ocaqda yalnız ağ güllər qalar.

Başın ən gözəl tacı həmişə qara saçdır,
Qızılın əyarını verən də qara daşdır.

Yatma! Gənclik çağları sona yetdi, oyan, dur,
Səhər gündüzə döndü, qafil olma, amandır.

Xilqətinin atəşi kafur kimi söndümü?
Müşgə bənzər saçların ağ kafura döndümü?

Bəli, elə ki, hava bir-iki ay soyuyar,
Qapqara buludlardan yağar ağappaq ilk qar.

Boyamaq və ağartmaq az qala eyni tədbir -
İsa ilə günəşin qızıl daxması birdir.

Üzağartma adəti selin, suyun sənəti,
Gümüşdən boya vurmaq göydə Ayın sənəti.

Udur bütün rəngləri göyün mavi çanağı,
Səmalardan öyrəndi İsa boya vurmağı.

Birce arpa qədər də çəkisi yox havanın,
Sən də havalısansa, azca fikirləş, sakın!

Qəlbin zənciyə oxşar, üzünsə ağ rumluya,
Çəkmə gecə-gündüzlü, ikiüzlü dünyaya.

Nə qədər ki, zəncilik, rumluluq var qanında,
Zalim, cahil damğası alışacaq alnında.

Zolaq-zolaq qaplanın iki rəng olub suçu,
Hədəfi aydın seçib, arxadan vurub ovçu.



Fidan gəlinsən məgər, dondan dona girirsən,
Gah ağappaq tac qoyur, gah zərxara geyirsən.

Neçin, ey ikiüzlü, yazda bərbəzəklisən,
Qocalığın qışında çıplaq qalan acgödən?!

Arslan kimi elə ye, elə sadə don geyin,
Ki, ram etsin rəqibi arslanlaşan ürəyin.

Suyun, çörəyin varsa, ora-bura can atma,
Əlini kəfkir kimi hər qazana uzatma!

Halal duz-çörəyindən doymursansa əgər sən,
Otu, suyu, samanı kimdir alan əlindən?

Onun-bunun payına göz dikməkdənsə hər gün,
İsanın eşşəyitək otla dolanmaq üstün.

Torpaq, od olsan belə yaddan çıxarma bunu:
Heç nə verməz bu rüzgar, tökməsə üz suyunu.

Göy gümbəz altındadır bu dustaqlar daxması.
Ey kaş, boğa zülməti göyün işıq dalğası.

Canavar dişlisənsə, Yusif görkəmi alma!
Arslan ürəklisənsə, süfrə pişiyi olma!

Saçma acın toxumunu arpa təki boş yerə
Arpanı buğda kimi satan nadürüstlərə.

İç öz ciyər qanını, suya bənzə, ey oğul!
Yalnız öz ürəyini kabab edən atəş al.

Daş ye, fəqət dargözün çörəyini kəsmə sən,
Eşşəkmisən, namərdin kötəyini yeyəsən?

Tikan deyilsən ki, sən hər zərbəyə dözəsən,
Öz işinə baş əy ki, başıuca gəzəsən.

Öz işinə bənd olan düşmənz heç zaman bəndə,
Əlli tərpən, əl açma hər yetənin önündə.

## KƏRPİCKƏSƏN QOCANIN HEKAYƏTİ

Şam şəhəri tərəfdə qoca bir kişi vardı,
Uzaqlaşıb bəşərdən, mələk kimi yaşardı.

Toxuyardı özünə otdan, əncərdən köynək,
Dolanardı minnətsiz, hər gün kərpic kəsərək.

İşdi, əldən düşsəydi əmirlərin süpəri,
Deyərdi: - Süpər edin qəbrimə kərpicləri.

Onun kərpiclərindən tikdirsəydi kim məzar,
Sanardı rahat yatar, olsa belə günahkar.

Bir gün yenə o qoca tərini silə-silə
Əlləşərkən palçıqda, saman ilə, su ilə.

Çıxdı böyürdən qəfil gözəl bir dəliqanlı,
Xitab etdi qocaya, dili ahlı, amanlı:

- Bu nə işdir, görürsən? Bu nə düşkünlük, qoca?!
Yalnız qullar, kölələr dözər zillətə bunca!

Qalx ayağa, torpağa qılınc vurma bu qədər,
Bir qarınlıq çörəyi səndən kim əsirgəyər?!

Bu qəlibi at oda, yandır, qoy külə dönsün,
Bambaşqa bir qəliblə gün ağla sən özünçün.

Axirət dünyasını qazanmağa çalış sən,
Salma özünü həkdən, əl çək bu daş-kəsəkdən.

Qocasan, qocalarla sən oturub-dur ancaq,
Cavanların işini cavanlar görsün, burax!



Qoca dedi: - Ay oğul, dəliqanlılıq etmə!
Öz işinlə şuğullan, mənə ağıl öyrətmə!

Hər sənətin sahibi sənətilə yaşayar,
Qocalar kərpic kəsər, kölələr yük daşıyar.

Əziyyətli olsa da, öyrəndim bu sənəti
Ki, boynumda qalmasın bir kimsənin minnəti.

Xəzinə yığmıram ki, məsxərəyə qoyulum,
Əlimin zəhmətilə dolanıram, ay oğlum!

Çörək qazanıram mən, götürmə babalımı,
Min harama dəyişmənm birgünlük halalımı

Alovlandı gözəl gənc qocanın sözlərindən,
Gedəndə... gildir-gildir yaş axdı gözlərindən.

Yetər, dünya qapısın çox döydün, ey Nizami!
İndi din qapısın döy, çatıb daha məqamı.

*ALTINCI SÖHBƏT*

## VARLIĞIN ETİBARI HAQQINDA

Pərdənin dalındadır bu oyunbaz sənətkar,
Yoxsa hardan çıxardı bu oyunlar, hoqqalar!

Sən qəlbinin gözünü alışdır bu pərdəyə,
Pərdədən sızanları sezib biləsən deyə.

Bu göy rəngli pərdənin arxasında min əsrar
Çox-çox, həddindən artıq müvəqqəti vücud var.

Kimin ki, gözlərində ədəb şöləsi parlar,
İnan, sənin uğrunda ömür qoyar, can qoyar.

Bu pərgar nöqtəsində, aləmin mərkəzində
Tapa bilməzsən, inan, borcu olmayan bəndə.

Neçə yəhərli atın bizik süvariləri -
Səyyar ulduzlar hazır yalnız bizdən ötəri.

Eşqi bizdən öyrənib, bu göy pərgardan öncə
Öncə xəlq olunanlar, sonrakılar da məncə.

Qoyan biz deyilikmi eşqin bünövrəsini?
Yalnız biz yemədikmi sevginin silləsini?

Bu iki aləmdəcə yaxşı, yaman hər nə var -
Sənin köhlən atının tərkinə bağladılar...

Cahan evləri üçün sən ən gözəl həmxanə,
Dünya quşu görübmü səndən yaxşı bir danə?

Təbiəti hey didən quşdan, quzğundan əl çək,
Hökm et dünya quşunun başı üstə Simurqtək.

Qanadları - Məsihan, can qəfəsindəki quş
Xeyli ülvidi səndən, baxma əsirin olmuş.

Ya quşun caynağını qopar can nəfəsindən,
Ya da öz qəfəsini onun hökmünə ver sən.

O dünyaya uçuban qaldıranda kisəni,
Aparsın qanadının himayəsində səni

Sən bu torpaq dəhlizi, bu gədiyi aşınca,
Mənliyindən qurtulub olacaqsan pak, uca.

Sən gecəsiz, gündüzsüz bir aləmə uçarsan,
İlahi sirlər dolu xəzinəni açarsan.

Ulu peyğəmbərlərin ayaq tozu olarsan,
Müqəddəs ailənin doğma üzvü olarsan.

İki aləmin yolu bəlli iki aləmə,
Bir nəfəslik yol imiş könül üçün, sən demə.



O Tanrı ki, ömrünün qoydu bünövrəsini,
Gəldi, sənin evində qurdu can Kəbəsini.

Sən Tanrını ən təmiz, nurlu könüldə ara,
Qara kilimli bədən çəkər səni kənara.

Nərgizin gözlərinə sürmə çəkər dan yeli,
Misə qızıl rəngini verən kimya deyilmi?

Bədən dediyin nədir? Bir ovuc sulu torpaq,
Əsas könüldür ki, söz könüldən qopur ancaq,

Qəlbinin qulu ol ki, qalxıb sultan olasan,
Həm idraka, həm cana bir hökmran olasan.

Samur kürkünə bənzər yumşaq könül dilə sən,
Ceyran göbəyi kimi sərtliyə dözməlisən.

Sərtlik - riyazət donu yaraşır yalnız sənə,
Zər-zibanı, ipəyi əbəs taxma əyninə.

Dərisinin sərtliyi mişk vermiş ceyrana,
Eşq məktubu yazırlar bu dəridə canana.

Mişgi sərt dəri saxlar, pilə içində qalmaz,
İpəyə büksən onu, uçar, zərrə də qalmaz.

Şəkərsənsə, nəfəs qıs, çəkil dar məkanına,
İncisənsə, ta belə öz sədəf zindanına.

Ey gecə rəngli şəbdiz, səhər ağ nalın olsun,
Dön səhərə, ah-nalən göylə vüsalın olsun.

Gecə zülmətdə belə daşı zəhmət yükünü,
Yalnız zəhmətkeş bilir vacib işin zövqünü.

Hansı vəfa əhli ki, yetmiş əhdə, murada,
Yalnız cəfa çəkməklə qalxa bilmiş o qata.

Qəmə, dərdə tab etmək - peyğəmbərlik pilləsi,
Sən axtaran dincliksə - yalnız ölüm kölgəsi.

Acı yeyib, xilas ol xudbinlik mərəzindən,
Acı şərab deyilmi damaqlara dad verən?!

Sərvtək düz yaşa ki, düyünlərdən azad ol,
Öz bağrını yeməklə sən şamlar kimi şad ol.

Xəzinə xazinidir, seyr elə əjdahanı,
Dərdə dözüm yaradır hər cür zövqü, səfanı.

Kimlər ki, çəkir zəhmət, məgər taparmı illət?
Məşəqqətin sonundan başlanır istirahət.

Fələk sənin bəxtindən açmasa bir düyünü,
Salmaz sənin boynuna başqa zəncir düyünü.

Əcəl yoluna çıx ki, sənə haqqı tanıdır,
Bu şadlıq karvanını çəkən qəm karvanıdır.

## OVÇU İLƏ İTİN VƏ TÜLKÜNÜN HEKAYƏTİ

Tez görən, uzaq görən, usta bir ovçu vardı,
Gəzib biyabanları, ov yerini tapardı.

Bəd bir iti vardı ki, çeviklikdə şir, arslan, -
Günəş şüalarını ceyran belində tutan.

Kərgədən tük salardı boynunun qüvvəsindən,
Çöl eşşəyi dişindən, dağ kəli zərbəsindən.

Yolçuluqda ovçunun dostu, arxadaşıydı,
Çox işinə yaramış vəfalı yoldaşıydı.

Gecə keşik çəkən it gündüz əmrə müntəzir,
Görərdin ki, onunçün qida gəzir, yem gəzir.



Bir gün aslan ovçunun yox oldu aslan iti,
Ovçunun göz yaşları ciyərlərini diddi.

Dedi: gör miyançısı qəza olan ovlağı!
Şir başından üstündür burda itin ayağı.

Bildi ki, dərd əlindən qanə dönsə də ürək,
Ciyərini dişində tutub tab etmək gərək!

Ovçu dözdü, səbrinin misqal boyda arpası
Bəlkə bir dirhəm qədər xeyir gətirdi azı.

Ovçunun qarşısına bir tülkü çıxdı lapdan,
Dedi: - Səbr etmək olmaz, sən ey səbrli İnsan!

Eşitdim ki, o eşsiz qüdrət, hünər yolçusu
Dünyadan köçüb gedib... Nə qəm, başın sağ olsun!

Bir anda yaxalardı yüz cüyürü, ceyranı,
Oldu zirəkliyinin, cəldliyinin qurbanı.

Bilirəm, sənin üçün bu dərd hər şeydən betər,
Ovladığın qəm-kədər sənə iki ay yetər.

Qalx, bu ovdan kabab çək, ver könül ziyafəti,
Dərisi dərvişlərin, əti ovçu qisməti.

Bilirəm, çox yemisən dadlı, ləzzətli xörək,
Bir də yağlı tülkülər əlinə keçməyəcək.

Yağlıyıq, yavanıqmı? Düşündürmür heç səni,
Süfrəmizdən çəkmisən iştahının əlini.

Nə yaxşı ki, uzağam daha sənin torundan,
Nə yaxşı ki, azadam şikarından, darından.

Sirdaşından ayrısan, bəs bu nə cür vəfadır?
Qəm yemirsən... bəs nədən ciyərlərin yaradır?

Ovçu dedi: - Doğacaq... Hamilədir bu gecə,
Qəmim bircə günlükdür, keçib gedər indicə.

Bircə bundan şadam ki, bu ölümlü dünyada
Sevinc, kədər həmişə bir-birini qovmada.

Bu boş, fani dünyada, bu dəyişən qəlibdə
Xidmət, sərvət, səltənət elə gedib-gəlib də.

Hər şey keçib gedəcək: həm Ay, ulduz, həm fələk,
Rahatlıq da, möhnət də bir gün sona yetəcək.

Bir azca şadlanıram dərdim, qəmim olanda,
Çünki sevinc müjdəsi gətirir qəm cahanda.

Bu qəmdən Yusif kimi mən bəlaya uğradım,
Fəqət qurd deyiləm ki, dərddən dərimi yırtım.

Ey tülkü, şad olma ki, mənə dağ çəkdi fələk,
Hələ sənintək şikar əlimə çox düşəcək.

Ovçu bunu deyərkən yollar toza büründü,
Toz pərdəsi dalından cəsur köpək göründü.

Gəldi, öncə dolandı arxasını, önünü,
Lapdan dişinə çəkdi qasığını tülkünün:

- Bir az gecikdim deyə sən məni pislədinmi?
Geciksəm də, yetirdim özümü arslan kimi!

Mənim ləkəsiz xaltam sənin dinintək təmiz...
Tülkünün peysərini yəqin yeyəcəksiniz.

O kimsə ki, bəsləyir yəqinliyə sədaqət,
Onun işinin sonu səadətdir, səadət.

Yəqinlik yolunu tut daim bu kainatda,
Yəqinlikdən mübarək mənzil yoxdur həyatda.



Yəqin inam gücünə saf qızıla dönür daş,
Ayaqda əyləşənlər başa keçirlər, qardaş.

Yəqin bir inam ilə addım atsan qorxusuz,
Oddan su çıxararsan, dəniz dalğasından toz.

Yəqini təvəkkülə qarışdırıb yoğuran
Yazar kərəm əlilə: "Ruzu yalnız Tanrıdan!"

Yəqin əhli nuş edər daşdan yumşaq hər nə var,
Nə quyruqda sülənər, nə çibintək qan sorar.

Tanrı yoluyla getsən, nə qəm ye, nə qüssə çək,
Evindən yavanlığın heç vaxt əskilməyəcək.

Tanrı qapısında ol, o hər kəsdən uludur,
Ruzunu ondan istə, ruzu verən də odur.

Kim içəri girdisə Tanrının qapısından,
Əliboş qayıtmadı səbəbsiz yerə, inan!

Yəqin əhli misilsiz, kamil - onlar, naşı - biz,
Biz onların ayağı, onlar bizim başımız!

Səccadənin ucunu təmiz suya salarlar,
Al qırmızı şəraba bal dadı verər onlar.

Sənə bircə günlük də möhlət vermirkən ömür,
On illik azuqəni israf nədən ötrüdür?

O gün ki, xəlq olundu bizim surətlərimiz,
Dərhal ayırd edildi dürlü qismətlərimiz.

O Tanrı süfrəsindən pay göndərilmiş sənə,
Onda veriləndi ki, indi çatır süfrənə.

Gecə-gündüz çabalar dolanmaq üçün hər kəs,
Öz qismətindən artıq, inan, heç nə yeyəməz!

Əzəldə söz verdiyin din uğrunda, get, çalış,
İşləməklə nə dövlət, nə də ruzu çoxalmış.

İstəsən ki, olasan hamıdan əziz insan,
Çalışmaq səndən gərək, başarmaqsa Tanrıdan!

Çox əlləşdi Nizami, nə qazandı? Soyuq ah.
Neylədisə, yol açdı isti nəfəsli allah!

*YEDDİNCİ SÖHBƏT*

## İNSANLIQ MƏRTƏBƏSİNİN BÜTÜN XİLQƏTLƏRDƏN ÜSTÜNLÜYÜ

Sən, ey fələklər qədər uca, dəyərli İnsan!
Nazını çəkməkdədir bu yer, bu göy, kəhkaşan.

Heç xəbərin varmı ki, səsin yetişir hara?
Sənin zənn etdiyindən xeyli ucalıqlara!

Səni öncə bəsləmiş dayəni yad eylə, an,
Qənd, şəkər dadmayınca süd əmmədin sən ondan.

De, sənə bundan böyük yaxşılıq olardımı?
Sən də artırmalısan yaxşılığı, yardımı.

Bilsən qüdrət qələmi nə qəşəng çəkib səni,
Bir nigar təsviritək şux, gözəl surətini.

Tanrı ən parlaq dürrü kəmərinə bağlayıb,
Can ipinin ucunu ciyərinə bağlayıb.

Sən dünya çəmənində bir az zəif, kəmnəfəs,
Fəqət ən çevik ceyran sənlə yarışa bilməz.

Bütün canlı xilqətlər öz qulun, nökərindir,
Düşüb sənin toruna, dən istəyənlərindir.



Min-min xilqət üstə sən hüma quşu kimisən,
Yerində əyləş, az ye, az incit onları sən.

Ağlı, qaralı hər şey bu cahan yarışında
Tər töküb, can yandırır bir vəzifə başında.

Bəduğur sayılsa da, bayquşlar əfsanədə,
Tanrı xəzinəsinə bülbüldür viranədə.

Bu varlıq pərdəsinə bürünmüş hər xilqətin
Öz cisminə yaraşan bir canı vardır yəqin.
Sənin dənizindəki gövhərdən kəmdir onlar,
Fəqət dünya dürrünə sahib, məhrəmdir onlar.

Səndən kəm olanları vur hesaba yerbəyer,
Bu cəfa çəkənlərin muzdunu insafla ver.

Yaxşı, pis nə gəlibsə bu varlıq aləminə,
Yaxşılıqda, pislikdə ayna tutublar sənə.

Sənə papaq verənə başmaq verəsən gərək,
Pərdəli gəz, pərdəni yırtarlar yoxsa Aytək.

Oyan! Fəqət sübhtək pərdə cıran olma sən,
Qaranlıq gecə kimi pərdə saxla, əzizlən.

Pərdəli qalmalıydın, neçin həddini aşdın?
Çıxdın pərdə dalından, yasaq yeri dolaşdın.

Sən hörümçək torunun ağzında nə vaxtacan
Acgöz milçəklər kimi elə çırpınacaqsan?

Duy pərdə ardındakı Tanrı ərənlərini,
Pərdəli saxladılar sənin hər cür sirrini.

Pərdəlidir arılar, sanki gül pərdəsi var,
Sənin pətəyin isə bu göylər, bu səmalar.

Pərdəsiz könülləri kənardan seç, uzaqlaş!
Sirri olmayan sözü dinləmə heç, uzaqlaş!

Barmağına dolayıb dünyanı çərx-utanmaz,
Səni oyuncaq bilir bəlkə kaftar oyunbaz!

Pərdəlisən, əlini uzatma başqa yerə.
Bu pərdənin dalında uyma yad ahənglərə.

Sən əsrar pərdəsinin xəlvətində get, əyləş.
Dinlə məhrəm pərdəni, azca düşün, fikirləş.

Get, cismini qırxca gün dustaq et barı, ey ər
Cismini könlün kimi saf bir aləmə döndər!

Zindanda yatmaq ilə şərəf qazanır ərlər,
Yusif zindana düşdü, əbəsmi yatdı məgər?

Könlün qədrini bilmək, o zirvəyə ucalmaq
Riyazətlədir yalnız, igidliklədir ancaq!

Könlünün mədənində yatan saf qızıl ki, var,
Gümüş tək görünməsin, riyazətlə qıl aşkar.

Riyazətlə yetərsən elə bir zirvəyə ki,
Ayağın altda qalar nakəslər bir kül təki.

Təslim olsa əzminə harın, kür təbiətin,
Adınla möhürlənər sikkəsi sədaqətin.

Təbiətlə ağılın yar olsa, inan sənə,
İş yetir dəmirçiylə əttar hekayəsinə.

Dəmirçiyə gedərsən, çınqı düşər üstünə,
Əttara baş çəkərsən, rayihə dəyər sənə.

Xilqətin işlərindən çətin taparsan nicat,
Dünya qəfəsində də xeyli qısadır həyat.



Adət buxovlarını qırıb atan əzmkar
Səadət karvanına qafiləsalar olar.

Boş sevdadan əl üzmək - böyüklük əlaməti,
Nəfsi ram edə bilmək - peyğəmbərlik qüdrəti.

Təslim eyləyə bilsən nəfsini iradənə.
Öz mülkün bil cənnəti, halaldır cənnət sənə.

Nəfsin zınqırovundan fəryad səsidir gələn,
Şeytana muzdur olma. dinin bəndəsi ol sən!

Dinə sığın, cəbrə döz, elə zirvəyə qalx ki,
Yaxın düşə bilməsin sənə məhşər atəşi.

Cəhənnəm atəşindən Əbu-Talibi bir vaxt
Peyğəmbərin sevgisi qoruyacaqdır ancaq.

Həqq əhlinin gözündə həqq nuru var, göz yetir. -
Həqqin nuru hər kəsə nicat verən zirehdir.

## FİRUDİN ŞAHIN CEYRAN OVU HEKAYƏTİ

Bir neçə həmdəmilə Firudin səhər-səhər
Saraydan çıxdılar ki, bir az seyr eləsinlər.

Bir çəmənə gətirdi onu ovçu duyğusu.
Burda bir yavru gördü - gözəl ceyran yavrusu.

Qulaqları, gərdəni o qədər zərif, hamar…
Gözləri, qılçaları səndən mərhəmət umar.

Şah baxdı heyran-heyran, lapdan sıçradı ceyran,
Birca göz qırpımında uzaqlaşdı ovçudan.

Ovçunu ovladı ov. Şahın ürəyi uçdu.
Bütün marağı, eşqi onun ardınca qoşdu.

Yanan ciyəri kimi Rəxşi od-alov aldı,
Ahunun göbəyitək kaman neçin yumşaldı?

Nə at çatır tozuna, nə ox tutur ceyranı,
Şimşək sürətli Rəxşin ox sürəti bəs hanı?

Oxdan sorur: - Hanı bəs o kin dolu uçuşun?
Atdan sorur: - Hanı bəs o ildırım qaçışın?

Heç biri kara gəlmir, hər ikisi yorulmuş,
Otyeyən bir heyvanın önündə məğlub olmuş.

Məgər elə indicə, ey şah, dil açdı kaman :
- Qarşında deyildimi dilsiz ağızsız heyvan?

Gəzirdi zirehinin himayəsində yazıq,
Kimin həddi var ki, de, zirehinə sanca ox?

Böyüklərə xoş gəlməz, bəlkə dəyər kefinə,
Gəlib özgə əl vursa çalğıçının dəfinə.

Ucaları, dağları ara, ey şahim, müdam,
Ta ki, yüksək durarsan ucaların dağından.

İnsanlıq sifətidir hər yaxşılıq, duysanız,
Xidmətidir kişiyə şərəf gətirən yalnız.

İlkin yaranışdakı əhdə sadiq olmaqdan
Ülvi nə var? Qoy desin hünərli, məğrur insan!

Əhdin kəmərinə qoy vəfa əlini hər an,
Ta ki, verdiyin sözü heç vədə pozmayasan.

Keşik çəkən ilanın xəzinədə gözü yox,
Çünki başdan-ayağa xidmət kəməridir o.

Kainatın tacıdır xidmət edən kəhkəşan,
Hər şey xidmət kəməri bağlamışdır binadan.



Hünər riştəsi tutan dilavərlər, qoçaqlar
Belinə öz əlilə xidmət kəməri bağlar.

İşıq qaynağıdır mum - bal şanının zinəti,
Arıya xidmətilə qazanmış bu dövləti.

Sən ki, xidmət yolunda kəmərini bağladın,
Qalx, ey Nizami, yüksəl, açıqdır qol-qanadın.

*SƏKKİZİNCİ SÖHBƏT*

## YARADILIŞIN HÜSNÜNƏ DAİR

İlk dəfə xəlq olunmuş xilqətlərin çoxusu
Tanrının dəryasından içməmişdi hələ su.

Nə dünyanın ovcunda səxa dənizi vardı,
Nə cahanda bircə toz, bircə çibin qanadı.

Hələ düzülməmişdi xilqətlərin cərgəsi,
Hələ açılmamışda oyunların pərdəsi.

Hələ başlanmamışdı könül, can oyunları,
Gecə ilə gündüzün cəngi, döyüş anları.

Xilqət üzvlərində görünmürdü hərəkət,
Hələ bilinmirdi heç varmı, yoxmu ədalət?

Tanrı öz kəmərini, öz feyzini çoxaltdı,
Dənizindən sahilə parlaq bir damcı atdı.

O qüdrət dənizinin bircə həyat ləpəsi
Tərpətdi, hərlənməyə başladı göy qübbəsi.

Göylər axar su tökdü, yerlərdə islandı gil,
O iksirdən yoğruldu sənin də cövhərin, bil!

Dünyadan köçən zaman dönəcəksən əslinə.
Yenə qovuşacaqsan zərrə boyda nəslinə.

Nə bəxtəvərdi dünya, o zaman ki, sənsizdi,
Hələ nəqşin surətsiz, canın da bədənsizdi.

Nə göy görmüşdü onda ələk-vələk dünyanı,
Nə də Yer dinləmişdi bunca nitqi, hədyanı.

Sən qədəm basmamışdın hələ cahan bağına
İnan ki, şükr edirdi varlıq öz yoxluğuna.

Hələ dünya bağında nə gül vardı, nə tikan,
Hələ tozlanmamışdı başı aylanan cahan.

Hələ boylu deyildi gecə gündüzə aşkar,
Hələ həyat qısırdı, təbiət də dul, bekar.

Kəmərbəstə deyildi Əkizlər bürcü onda.
Qan almaqdan azaddı o şişkin damarından.

Ayın üzü tutulub qaralmamışdı hələ,
Su dolu teştin rəngi düşməmişdi bu hala.

Zöhrə üzü suluydu Yerin yanında hələ,
Harutun qanadları düşməmişdi Babilə.

Onda ayrıydı səndən bu səmalar, bu yerlər,
Bildin, həsrət çəkirlər, yolunu bəkləyirlər.

O gün ki, sən yarandın, təzələndi kainat,
Səslə, avazla doldu iki cahan, bir həyat.

Fəqət, ey ulduzlara baxıb fal açan miskin!
Qırdın ülkər dürrünü ülkər gecəvəsinin.

Nə qədər ki, ulduzlar azad idi falından,
Aylar, illər dəyişmir, sabit qalırdı zaman.



Saf bir ayna kimiydi hələ cahanın üzü,
Nəfəsin dəyən kimi ləkələndi güzgüsü.

Qüruba sən apardın məşəlini səhərin.
Səhərə "sübhi sadiq", "fərri kazib" söylədin.

Kül başına göylərin! Gör qoymusan nə günə,
Hələ də bel bağlayıb gəlir sənin səcdənə.

Can meyvəsi demişdir sənə bu doqquz fələk.
Dillərindən eşitdim, eşit, inanma fəqət.

Tacın başından baha... Qoy söyləyim bir daha:
Necə ki, xalta itdən, torba eşşəkdən baha.

Bu laqqırtı evində tənə vurarlar sənə:
Cahanı satdın deyə bir arpa dənəsinə.

Bircə ovuc torpağı sən bir cana dəyişdin,
Bircə gil qırığını bir cahana dəyişdin.

Ey göylərə dərd verən, ey yerini bilməyən!
Xəzinətək qalaydın gərək yer altında sən.

Sənin beyninin yağı, civə kimi cövhəri,
Nə tez soyudu, görcək sincab rəngli bu yeri.

Hələ ki, basmayıblar fındıq boyda məzara,
Fındıq rəngli torpaqdan vaz keç, qalx səmalara!

Nə sincabdır, nə qunduz bu gecə-gündüz. Bil ki,
İlandır, əjdahadır bu ikiüzlü tülkü.

Əliuzunluq etmə, sən ki pişik deyilsən
Qoşulma dələduztək, dələyə, tülküyə sən.

Ölüm tələsi qurmuş bu yolun üstə arslan,
Necin susuz maraltək quyuya üz tutmusan?

Fələk sənə göstərsə uzaqdan bulaq suyu,
Aldanma ki,s u deyil, sərabdır, ilğımdır o.

Nəfs atını bu qədər havalandırma, yetər,
Tap bir təmiz su iç ki, sənə duz yediriblər.

Nəfsinin xırmanına od vur, elə bir od ki,
Nəfsin qoy yanıb sönsün suda təbaşir təki.

Yusif çıxdı quyudan, çün halal bəndə idi,
Misir ilahəsinin gözü üstündə idi.

Bu göy qübbə altına ilk qədəm basdığın gün
Dibsiz quyuya düşdün... necə məğmun göründün.

Saralmısan, görürəm sənin solğunluğunu,
Onillik sirkə belə apara bilməz onu.

Acgözlüyün yüz illik çırağın yağı kimi,
Səni on illik sirkə pak eləyə bilərmi?

Yeddi qatlı göydədir dədənin qızıl qanı,
Yeddi loxma çörəkçin tökmə abır-həyanı.

Xırmanına od vurub yelpikləyən özünsən,
Dövlətini, varını təpikləyən özünsən.

Atıl, meydana gir ki, meydan sənindir, sənin!
İş gör, hökmünü bildir, fərman sənindir, sənin!

Piyalən var, nuş elə payız ötür, qış keçir,
Olub-qalan ömrünü, üç-dörd günü xoş keçir.

Alıb ixtiyarını, cəfa veriblər sənə,
Tapşırılıb cilovun taleyin əllərinə.

Ağır yük daşımaqdan qozbel oldun, şil oldun,
Yandın nəfsin yağında, ömür boyu qovruldun.



Sən - cahan mətbəxində ocağın külü, hisi,
Qiyamət günündəsə cəhənnəm gözətçisi!

Ey miskin! Qarnın dolu, gözlərin acdır, inan,
Çox-çox yedikcə məgər ağırlaşmayacaqsan?

Yemək, qarın alveri əgər yetsəydi dada,
Çoxyeyənlərin çoxu sağ qalardı dünyada.

İnsan çox yaşasaydı, ömür düşərdi gözdən,
Ömrünün dəyərini az ömürdən istə sən.

Az ye, çevik, yüngül ol, rahat yaşa hər zaman,
Çox yesən ağırlaşar, min iztirab duyarsan.

Qarnın dopdolu olsa, başın yüz bəla çəkər,
Nəfsin quduzlaşması insanı söküb tökər.

Nəfsin ilə bərabər sənə baş verilib, baş,
Yeməyəsən halalın olmayan neməti kaş.

Tamah sənin içində caynağıdır fitnənin,
Tamahkarı aldadan bu əbləhdən qaç, çəkin!

Qorxuram ki, uyasan nəfs adlanan idbara,
Rəngini sənə verən üzüqara kaftara.

Bəzən inanmaq olmur rənglərin ahənginə,
Yaxşılıq, pislik düşür bir-birinin rənginə.

## MEYVƏSATANLA TÜLKÜNÜN VƏ CİBKƏSƏNİN HEKAYƏTİ

Yəməndə meyvə satan bir dükançı yaşardı,
Dükanını qoruyan tülkü yavrusu vardı.

Təlim-tərbiyə görmüş gözətçiydi bu yavru,
Sahibinin malını diqqətlə qoruyurdu.

Yüz cür oyun çıxartdı, fənd işlətdi cibkəsən
Əsərlənmədi əsla bala tülkü kələkdən.

Fikirləşdi cibkəsən, yumdu gözünü dərhal,
Çoxdan yatıbdır guya, yuxusu da şəkər, bal.

Tülkü bu qoca qurdu yatmış görüb yumşaldı,
Yerə qoydu başını. o da uyğuya daldı.

Tülkünü yatmış görüb fürsət tapdı cibkəsən.
Çaldı pul kisəsini. Getdi, itdi nəzərdən.

Keşikdə duranların qorxuludur yatmağı,
Ya başı əldən gedər, ya başından papağı.

Uyuyacaq yer deyil dünya, oyan, Nizami!
Hər şeyi tərk etməyin çoxdan çatıb məqamı.

## DÜNYA QAYĞILARINDAN QURTULMA BƏHSİ

Ey vüsal gecəsindən daha əziz, mehriban,
Sübhün bayrağı kimi çevik kölgəli insan!

Nə vaxtacan kölgətək qəmgin görünəcəksən?
Qalx ki, yürü ki, bayraq gözəlləşir yürürkən.

Yola çıxan soltanlar öncə yükünü yollar,
Özündən öndə gedər karvanı qatar-qatar.

Sultan isən, çıx yola, səfər vaxtıdır artıq,
Yol üçün yemək götür, dəyərli azuqə yığ.

Özün yola çıxmamış göndər getsin yükünü,
Bu gün başla sabahkı ruzu tədarükünü.



Bal arısı sabahı - uzağı gördüyündən
Şanlarını doldurur balla elə bu gündən.

Baxın, savaş səfində şər qarışqa-qəhrəman,
Sabahını düşünüb, yem daşıyır durmadan.

Aqil insan oğlu da, kor deyilsə gözləri,
Qarışqadan, arıdan gərək qalmasın geri.

Səfa görmək istəyən zəhmətə arxalanar,
Yayda ruzu yığanlar qışda rahat dolanar.

Nə sən bilirən, nə də mən, qananlar bilir bunu -
Öz borcunu verməyin əvəzsiz olduğunu.

Heyif ki, aqibəti düşündürmür heç kəsi
Yalnız bir anlıq olur çoxunun düşüncəsi.

Fələklərdən ucadır əslində məqamımız!
Aqibəti düşünmək - yüksəliş imkanımız!

Öz sonunu düşünmək imkanımız var bizim,
Başqa xilqətlərə bu, qismət deyil, əzizim.

Sevgi, həyat nəşəsi şirin olsa da candan,
Aqibəti düşünmək ondan da xoşdur, inan.

Biz ki, əzəl binadan vaqifik könüllərə,
Torpaqdan yaransaq da, sahibik bir cövhərə.

Bu gəlişdən, gedişdən tək bizik xəbər tutan,
Qalır yaddaşımızda hərəsindən bir nişan.

Biz ki, doqquz fələyin dərs aldıq məktəbində
Əbcədini oxuduq bizim yer lövhəsində.

Heç kəs damğalanmayıb bu dağla bizdən erkən,
Bu bağın ilk nübarı bircə sənsən, bir də mən.

O gün ki, torpağını töküb də, islatdılar,
Bir az iksir atdılar, can mayası qatdılar.

Torpağın göz yaşıyla, qan ilə yoğrulsa da,
Neçə xəzinə yatır, bilsən, onun altında!

Tanrının yoğurduğu bu torpağı tanı sən,
Şükür qıl, ey naşükür, ən ulu zirvədəsən.

Dərk elə mövqeyini, səfərinin səmtini,
Hardan gəlir bu yollar, hara aparır səni?

Bu səfərə çıxarkən nəydi fikrin, niyyətin?
Bu səfərdən dönməyin nədir sirri, hikməti?

Bu aləmə gəlməmiş, hələ lövbər salmamış,
Bizim bu dağılmışda hələ məskun olmamış,

Sən əzəli aləmin dolaşırdın fövqündə,
Hüma səadətinə çatdın həməl bürcündə!

Onda sənin eşqinin uçuş meydanı hədsiz,
Əbədiyyət yolun da sonsuzdu, ey xəbərsiz!

Enmək istədin yerə, göydə acizmi qaldın?
Bu torpağa, bu suya sərin kölgəni saldın.

Günəşin ətəyini ayağının altına
Dartıb çəkirsən hərdən, dünya dar gəlir sana.

Bəzən tək yaşamağı üstün tutursan artıq,
Qayıtmaq sevdasına düşməyin də bir anlıq.

Tərəddüd içindəsən. Özgə hansı işin var?
Bircə ipin üstündə tuta bilmirsən qərar.

Səxavət meydanında lütf saçan müəlissən,
Bu varlıq aləmində köhnə sənsən, təzə sən.



Yavrusunu öldürən anadan əl çək, yetər!
Ata öyüdlərinə qulaq ver, ey bixəbər.

Ey sadə insan oğlu, dədənə bax, dədənə,
Gör neylədi? Dədənin yolu "Gəl!" deyir sənə.

Qoy burda əyləşənlər dinclik gözləməsinlər,
Bekar keçən ömür-gün hədər deyilmi məgər?

Hədər keçən günləri nə cür qaytarmaq geri?
Səcdə qılıb, baş əyib öpməliyik bu yeri!

Biz ki, qara gildənik, hardandır ağ gün bizə?
Necə şadlanasan ki, şadlıq olub möcüzə!

Məgər varmı fələyin xoşbəxt etdiyi adam?
Varsa, nə sənsən, nə mən. Əl çək belə xülyadan.

Biz dünyaya gəldik ki, kədər duyaq, qəm yeyək,
Gəlmədik ki, nitq edək, axşam-səhər zəvzəyək!

Bu dünya dedikləri alqı-satqıymış, inan.
Bircə düzlük görmədim burda başdan-binadan.

Gələndə rəngin neçin şərab kimi qızardı?
Gəlməyin arxasınca çün bir getmək də vardı!

Nə vaxtacan sürəcək bu hicranlar, görüşlər,
İstəmədən gəlişlər, istəmədən gedişlər?

Görün, hansı şübhələr könüldən gəldi, keçdi:
Yoxluğumuz bir yana, varlığımız da heçdi.

Uçma, axı cahana yavaş-yavaş gəlmisən,
Tələsmə, bu həyata gecikmisən axı, sən.

Vaxt çatıb… zəng çalınar, bizim köç də başlanar,
Sikkəmizlə ən yeni axçalar naxışlanar.

Çürümüş, köhnə gilə təzə bir can verərlər,
Dağılmış parçaları yenə birləşdirərlər.

Ey bugünkü halından utanıb qızarmayan!
Fikirləş öz sonunu, barı o gündən utan!

Bu səhranın köhləni təkcə dindir, yalnız din.
Yalnız odur çarəsi bu qədər müşküllərin.

Bizi qarşıda gözlər nə qədər möhnət, kədər,
Gəlhagəl dərdlərimiz yalnız din ilə gedər.

Yol-yoxuş...atı bərk sür, tənbəl, ərincək olma,
Ey canı bərk, mətinləş, imanı kövrək olma!

Günəşin aynasını tut üzünə, baz bir di,
Özündən soruş, öyrən, neçin üzüqarasan?

Üzr, tövbə özündən, qəbulu Allahdan um
Hər işini taleyə tapşırıb, olma məzlum!

## TÖVBƏSİNİ POZAN ZAHİDİN HEKAYƏTİ

Məscid əhli bir sofu uydu bir gün şeytana,
Məsciddən üz çevirdi, aldı onu meyxana.

Mey dilinə dəyincə mey kimi nalə qıldı:
- Zavallı canım! - dedi, - özgə nə çarə qaldı?

Nəfs ilə həvəs quşu könlümdə axtardı dən,
Heyhat, tələ qurdular təsbeh danələrindən.

Kəbəm çıxdı əlimdən, Kəbə artıq mənə yad,
Ev-eşiyim dəyişdi, dönüb oldu xərabat.

Qara taleyim məni, gör, kimlərə tay etdi,
Qələndərlik öyrətdi, imanımı zay etdi.



Niqab örtdü, yaşındı əqlin gözləri məndən.
Xərabatın özü də xarab oldu əlimdən.

Bu dünya darlığından qurtula bilsəydim, ah!
Ətəyimdən ləkəni bir silə bilsəydim, ah!

Qəzadan deyilmi bu? Mən hara, bu "Lat" hara?
Mübarək məscid hara, viran xərabat hara?

Bir gənc pərdə dalından dinləyərək zahidi,
Təmiz, pak nəfəsindən od saçaraq söylədi:

- De, qəzadan sənə nə? Sənintək yüz min gədə
Qəzanın nəzərində dəyməz bir arpaya da.

Tövbə qapısına gəl, təmizlə günahını.
Başqa hədyan söyləmə, seç Tanrı dərgahını!

Üzr istəyib, tövbə qıl, keçərlər günahından.
Qolu bağlı gedərsən yoxsa ora bir zaman.

Çöldə ot otladığın, yatdığın yetər artıq.
Bir az da fələklərin yaşıl bağçasına çıx.

Ayıltmasa göy səni, çəkil hicra guşəyə.
Bir azca azuqə yığ o dünyaya köçməyə.

Qanlı yaşlar tökməyin axı, nə mənası var?
Çoxdan gəbərib gedib sağlığında yatanlar.

Səni yuxu sərsəmi görən "Şəfəq sahibi"
Yayınacaq gözündən, endirəcək niqabı.

Fələk köçü yüklədi, qalx, ey Nizami, oyan!
Kimdir bu gecə yarı ayağını bağlayan?

## DÜNYANIN SONU HAQQINDA

Ey fələk, bu hərlənmək nə vaxtacan sürəcək?
Bu nə zülmdür? Ey Yer, yavaş, aram ol görək.

Hər gecənin sonunda axı, səhər açılar,
Hər yoxuşun sonunda axı, bir eniş də var.

Əsib yerin layları titrəyir neçin, nədən -
"Qiyamət zəlzələsi dəhşətdir" ayəsindən.

Zəlzələdən çökürsə yaralı Yer kürəsi,
Fələk zəncirlərinin çürüməzmi həlqəsi?

Sökülür qəlpə-qəlpə Yer kürəsi - yanar dağ,
Qırır zəncirlərini zəncir divanəsi, bax.

Qopub düşür göylərin göy qurşağı, kəməri,
Kimlə yarışacaq Yer boş görəndə göyləri?

Ey fələk, ələk-vələk kainat kimə gərək?
Bu qiyamət, bu dəhşət nə vaxtacan sürəcək?

Nə sübhün ətri qalıb, nə qürub ərğəvanı,
Nə bu yerlərin topu, nə göylərin çövkanı.

Yerlər qalxır göylərə, matəm havası çalır,
Ətəyini qaldırıb, göy də yerə alçalır.

Marığa yatmış fələk çıxır pusqu yerindən,
Qoparır bu aləmi oxundan, mehvərindən.

Qoca fələk yüz yerdən yırtır öz xirqəsini,
Torpaq inci düzümlü ipini, riştəsini.

Göylər enirkən yerə, yerlər də qalxır göyə,
Alt-üst olur kainat, tamam dönür heçliyə.



İnsan adlı bəladan xilas olur göylə yer.
Hər ikisi insanın tozundan təmizlənir.

Göylər insan işilə bir də uğraşmayacaq
Yerlər insan məkrindən tamam uzaqlaşır, bax!

Ulduzlar xəcalətli, ulduzlar ələk-vələk:
Bircə ovuc torpağa nə vaxtacan baş əyək?

Həlqələnib, qıvrılıb, işi bitirib fələk,
Son qisməti son anda bir çimdik torpaq yemək.

Ey dünyanın bağrını qan edən, fəğan edən,
Heç varmı səndən savay onu bunca incidən?

Qəm küpünün içinə bu torpaq necə doldu?
Ətrafının rəngi də matəm yaşılı oldu.

Siz ki, çərxin önündə bu qədər məğmun, aciz,
Qəp küpünü torpaqdan nə cür təmizlərsiniz?

Yuyun ətəyinizi barı yeddi nəhr ilə,
Dumanlı çevrənizi qumla, qumun selləri ilə.

Alın çərxin əlindən ulduzlar xirqəsini,
Damğalayın qapqara xətlə Yer kürəsini.

Fələklərin sürətlə hirslə hirslənməsindən
Necə, bəla gələcək Yerin başına, bilsən!

Göydə yanan, partlayan, batıb gedən hər nə var,
Yer üçün bir nümunə, bir timsaldı apaşkar.

Partlayıb dağılan baş, görün, necə məhv olur,
Yer kürəsi eləcə kültək göyə sovrulur.

Bu mişk rəngli sədəf - göy bizə düşmən imiş, ah!
Gözləri ulduz-ulduz, özü yırtıcı timsah.

Yox, bu dənizdən çıxan dürrün sədəfi deyil,
Mərifət mədəninin daş-qaşı da deyil, bil.

O sədəfin sirrini kim bilsə, beyin donar,
Zümrüd görmüş ilantək kor olar, gözsüz qalar.

O sədəfdə nə işıq, nə göz nuru ara, gəz,
Min-min gözü olsa da, heç biri heç nə görməz.

Bilirəm, bəyənmirsən ölümün haq yolunu,
Özgələrin gözüylə çünki görmüsən onu.

Vaxtdır, öz ayağına zəhmət verib tələs sən,
Özgənin ayağıyla mənzil kəsə bilməzsən.

Zorun, zərin gücünə Bəhram göyə çıxsa da,
Korun qisməti gordu, bir məzardı axırda.

Bu qəbrin qapısını bağlamaq olmaz, olmaz!
Bu damın bacasından boylanmaq olmaz, olmaz!

Sən bu dustaq evində səbr et, döz iztiraba,
Pəncərəni, qapını şaşqınlar kimi qapa.

Nə vaxtacan fələkdən bəhs edəcəksən, yetər,
Kül qoy onun başına, yelbeyinmiş nə qədər!

Kəhkaşanı, səmanı az qarğa, az söy barı,
Bir arpaya da doyməz bu saman oğruları.

Aş bu mavi günbəzi, o qədər yüksəl ki, sən,
Boynunu dar həlqədən xilas edə biləsən.

Teldən nazik fəhm də, sapdan zərif xəyal da
Çərxin incə yolunu acizdir anlamaqda.

Acizlikdən, həyadan üzün yanır, fikir ver,
Çərxin yolu bir tükün ucundan da incədir.



Tükün ucunu bölmə, yetməzsən bu əsrara.
Xəmirdən bir tük kimi atar səni kənara.

İmkanın var, qalxasan mələklər məqamına.
Bu qədər ki, güclüsən, nəçin girmisən qına?

Könül vermə, bu gilin, bu qumun vəfası yox.
Dünyaya bağlanmağın daha bir mənası yox.

Burda başında papaq... demək, baş əyməlisən.
Burda belində kəmər... demək, qulluq əhlisən.

Hünərlisənsə, hər gün paxılların artacaq.
Qəndin varsa, yediyin zəhər olacaq ancaq.

Bu həyat ocağına aldanma ki, şöləsi
Cəhənnəm atəşinin haləsidir, haləsi.

Ay olsa da göylərin, fələklərin qəndili,
Yağı Günəşdən umur, ömür boyu dilənir.

Susamış bitkilərə nicat verən bulud da
Donuq bir bəlğəm kimi dəyərsizdir həyatda.

Sanma ki, su səadət, bolluq qaynağı olmuş.
Sudan nə çəkdiyini batan gəmidən soruş.

Dinclik yuvasıdırmı məgər bu viran yuva?
Nə üçün göz yumursan bunca çirkə, ayıba?

Öz eybini görməyi çoxdan yadırğamısan,
Özgəsinin eybinə ayna tutan kəm insan!

Sən ey aynalar kimi eybin şəklini çəkən
Bil ki, eyibli nəfəs sənə tez vurar ləkə.

Ya hünəri tərk elə, cibindən çıxarıb at.
Ya öz eyiblərinin aynasını qırıb at.

Özgəsinin eybinə göz yum, əgər gözün var.
Qüsuru kənarda yox, əvvəl özündə axtar.

Hər kəsdə hünər də var, eyib də var, bil ki, sən
Hünərli olacaqsan, eyibləri görməsən.

Qaranlıqda görməyə lampa gərəkdir sənə,
Gündüz qara qarğa da, dərhal dəyər gözünə.

Güllər kimi əlvandır tovusun qanadları,
Ayağının eybini başına qaxma barı.

Qarğanın əyni, başı qapqaradır, gözü ağ,
Gözün varsa görə bil, ağı qaradan qabaq.

## İSA PEYĞƏMBƏRİN HEKAYƏTİ

İsanın ayaqları yol açıbdünyalara,
Gəlib çıxmışdı bir gün balaca bir bazara.

Gördü bir çoban iti, canavar kimi nəhəng,
Yol üstündə uzanmış cansız, nəfəssiz köpək.

Dörd yanını bürümüş adamlar qatar-qatar,
Leş yeyən quzğun kimi başına toplaşıblar.

Biri dedi: "Çatladar beynimizi bu cəmdək,
Yanan çıraq küləkdən uzaq gərək, gen gərək!"

Biri dedi: "Rədd edin, görünməsin bu murdar,
Gözümüzü kor eylər, könlümüzü dondurar"

Hərə bir hana çaldı:
"Tfu!"
- "Cəsəd!"
- Əlhəzər!"
Zavallı, miskin leşə min bir cəfa verdilər.



Növbə çatdı İsaya, eyibdən vaz keçdi o,
İtin üstünlüyünü fikirləşdi, seçdi o.

"Naxışları, xalları - dedi - aləmdi, məncə,
Parlaq, saf dişlərinə nə dürr çatar, nə inci".

Qorxu ilə, ümidlə dənizdən dürr tapan var,
Sədəfini yandırıb tozuyla diş ağardar.

Özgəsinin eybini, öz hüsnünü görmə tək,
Öncə öz nöqsanını görə bilən göz gərək.

Demirəm ki, aynanı al əlinə, ya alma,
Öz eybini görə bil, özünə heyran olma!

Nəyə gərək özünü bahar kimi bəzəmək?
Sakın! Soldurar səni zaman bahar gülü tək.

Eybini örtən geyim zərif toxunduğundan
Tanrı doqquz pərdə də göydən endirmiş olan.

Bu göy yuvarlığının içində, ey gözü dar,
Söylə, sənin boynuna halqə olmayan nə var?

İtsənmi ki, taxasan Süreyya xaltasını?
Eşşəksənmi, çəkəsən yük daşıyan İsanı?

Fələk nədir? Atılmış, tərk edilmiş dul qarı,
Cahan nədir? Saralmış bağların solğun barı!

Hər köhnəni, təzəni bircə-bircə sal yada,
Bu dünyada nə varsa, dəyməz bir arpaya da.

Yemə dünya qəmini, xacə, tərk et oyunu,
Qüssə çəksən, qoy yerə Nizaminin payını.

## DÜNYANIN VƏFASIZLIĞI HAQQINDA

Qalx, bu köhnə oyunçu səni tez verər bada.
Vəfa yoxdur fələyin açıq nərdtaxtasında.

Heç onun xislətində insaf olubmu bir an?
Murad nəqşi gözləmə vüsal qapılarından.

Dənizdə ayaq üstə durmağın nə xeyri var?
Yükünü də, səni də udmazmı fırtınalar?

Ördəyə şahin dedi: - Uçaq, çöllər gözəldir.
Ördək dedi: - Özün üç, mənə göllər gözəldir.

Ey bu qəm gəmisində ləngərlənən zavallı!
Yük altında kürəyi qana dönən zavalı!

Boğar səni bu dəniz... At yükünü, at, qaçaq
İnan ki, qarşındakı su yox, sərabdır ancaq.

Bircə aman guşəsi taparsanmı bu yerdə?
Vəfa iliyi varmı məgər bu sümüklərdə?

Bu dünyada zərrəcə naz çəkmə adəti yox,
Barı ortağı olma, əl çək ondan biryolluq.

Dünya nemətlərində nə tapacaqsan, eyvay,
Bulaşıq bir kasadan boş bir süfrədən savay?

Dünyanı görənlərin ağızları qapandı,
Ondan bəhs edənlərin dodağı, dili yandı.

Karvanında nəyi var, bir-iki zəngdən savay?
Boşqabında nə gördün, ölgün milçəkdən savay?

Bu kasadan bir barmaq yeyənin qafa tası
Zamanın barmağında oldu üzük halqası.



Görən yox bu cahanda bircə savab iş hələ,
Yuxuları qat-qarış, fikirləri - tor, tələ.

Çəkil, qoy heçlik evi olsun xəlvəti guşən.
Çəkil, tamam uzaqlaş sən bu viranə kənddən.

Evsatan simsar kimi onu öyməkdə nə var?
Tərk et, evi bürüsün qoy tüstülər, dumanlar.

Bu dünyanı öpməkdə, qucmaqda məqsədin nə?
Sənmi doğmusan onu, hey qaçırsan üstünə?

Sən dünyanın üstündən xətt çək, bir az şad yaşa,
Sənə uzaq olandan uzaqlaş, azad yaşa!

Yolun, mənzilin uzaq, yormasın yollar səni.
Hazırla yolluğunu, ruzunu, azuqəni.

Min-min bağrı yanmışı udan bir cəhənnəmə -
Bu şeytanlar, bu divlər məskəninə çöl demə.

Onun dirilik suyu - göz yaşı, ciyər qanı,
Ərzi yandıran günəş - nəməkdanı, duzdanı.

Bu səhranın od rəngi - hərislərin şərabı,
Düz və duzlu adamlar süfrəsinin kababı.

Can vermə buş orana, o döndərdi, baxsana,
Odun qəlbini suya, qəlbin odunu qana.

Zavallılar bu yolla gedə bilərmi məgər?
Bir yol ki, baxmaq ilə qəlbi qanə döndərər.

Bu divlər yatağından qalxır elə alovlar,
Qəmin ürəyi dərya, ürək bir damcı olar.

Od tutan bu çöllərin zahirinə uyanlar
Ciyər kimi donarlar, atəş kimi yanarlar.

Neçin cırmaqlayırsan bu cəhənnəm çölləri?
Rədd et, ver cəhənnəm, al cənnəti sən geri!

Bu tozlu-kirli məbəd nə qədər ki, durur sağ,
Fələk təqib edəcək səni ayaqbaaq.

Gələr, bir gün səni də yaxalar o bağrıdaş.
Götürər yavaş-yavaş, itirər yavaş-yavaş.

Bu torpağın başına dönüb dolanan insan,
Məgər sabah bir ovuc torpaq olmayacaqsan?

Heç bir kəsi tapdama, dayan, fikirləş bir an:
Səənintək çoxlarını tapdalayır bu dövran.

De, kim apara bildi dünyadan salamat can?
De, kim oxuya bildi bu yazını sonacan?

Dayan, neştər tikanın ayaq basma üstünə,
Özünü qoru… min-min neştər durub qəsdinə.

Burda neyləyəcəksən, dolaşma veyil-veyil,
Bir tələdir bu dünya, güvənməli yer deyil.

Fəna mənzilidir bu, səbat axtarma, əbəs
Bura payız yelləri bahar gətirə bilməz!

## NƏZƏR SAHİBİ BİR MÖBİDİN DASTANI

Ağsaçlı qoca möbid, yeri, yurdu Hindistan,
Yol keçəndə nə gördü? Bir bostan, bir gülüstan.

Ortasında naxışlı imarətlər, qəsrlər.
Qucağında çiçəklər əsim-əsim əsərlər.

Fələk kimi qan tökən qönçələr beli bağlı,
Az ömürlü lalənin başından çıxıb ağlı.



Fəvvarədir çəmənin tər süsəni, laləsi,
İncə boylu qamışlar - qənd, şəkər piyaləsi.

Öz oxuyla yaralı güllər qalxana bənzər,
Canının qorxusundan əsir salxım söyüdlər.

Bənövşənin saçları öz boynuna bağ olmuş,
Nərgizin ətəkləri gümüş axçayla dolmuş.

Güllə qucaq-qucağa, nəfəs-nəfəsə lalə,
Biri yaqutla süslü, o biri inilərlə.

Yazıq hardan bilsin ki, bircə günlük ömrü var,
Sabahı düşünmədən bu gün olmuş bəxtiyar.

O ağsaçlı ixtiyar seyrə daldı gülzarı,
Bir aydan sonra yenə burdan düşdü güzarı.

Hanı o güldən əsər, hanı bülbüldən əsər?
Burda qarğa qarıldar, burda saxsağan gəzər.

Cəhənnəm əvəz etmiş elə bil cənnət yeri,
Yəhudi məbədinə köçmüş qəsrin qeysəri.

Yaxşılıq elə bil ki, buxarlanıb yoxalmış,
Gül qəmləri yerində tikan qəmləri qalmış.

O xəzan bağçasında qoca ayaq saxladı,
Hər şeyə güldüsə də, öz bəxtinə ağladı.

- Bu dünyada heç nəyin vəfası yoxmuş, - dedi.
- Dərdi çox, cəfası çox, səfası yoxmuş - dedi.

Hər nə ki baş qaldırır bu torpaqdan, bu sudan,
Axırda viran olur, köklü-köməcli viran!

Xərabat diyarından yaxşı bir yerimiz yox,
Xarab olmaqdan özgə üstün tədbirimiz yox.

Rahib haqqın yoluna çevirincə üzünü,
Həm Tanrını tanıdı, həm dərk etdi özünü.

O sirr gövhərlərinin sərarfı oldu qoca,
Gövhərşünas tərəfdə qaldı ömrü boyunca.

Sən ey məcusilikdən, müsəlmanlıqdan qafil,
Sən qurumuş bulaqsan, damcın da yox, bunu bil.

Sən o hindli qocadan geri qalma, kəm olma,
Tərk elə bu cahanı, bu heçliyə vurulma!

Daim məstsən gül kimi… bu məstlikdən əl çək sən
Papağın, kəmərinlə çoxmu əylənəcəksən?

Qalx, gülün kəmərini burax əlindən, burax!
Güllər sənin qanınla kəmər bağlayıb ancaq.

Papağınla kəmərin bəla kəsilib sənə,
Sən onları girov ver eşqin meyxanəsinə.

Papaq ucaldar səni, xacə qılar könülə,
Kəmər səni qul eylər bu torpağa, bu gilə.

Çalış, ağalıq, qulluq qəmindən qurtulasan,
Nizamdan Nizamitək bəlkə azad olasan.

### *ON İKİNCİ SÖHBƏT*

## DÜNYAYA VİDA

Vaxtdır, bu əyyam ilə, dur, vidalaş son kərə,
Bu dünyanın torunu tərk et dən sevənlərə.

Bundan gözəl ölkə tap, işıq gəlsin gözünə,
Bu hücrədən möhtəşəm bir qapı aç özünə.

Könül, göz nemətləri səninlə bahəm gedir,
Nalən də, göz yaşın da, bil ki, son azuqəndir.



Üç-dörd gilə yaş töksən ayrıldığın torpağa,
Fidan kimi göyərər, könlün qalxar ayağa.

Dəvə xislətlisənsə, yolda rəqs elə, oyna,
Yoxsa atma cübbəni fil ayağı altına.

İndi ki, bir telə də burda məhrəm deyilsən,
Yalnız ölüm barədə düşünəsən gərək sən.

Getdi könlüncə olan dostların, tanışların,
Kimlə əyləşəcəksən, hanı zövqdaşların?

Gərçi hələ dünyada incə söhbət əhli var,
Kim səninlə qonuşar? Kim sənə həmdəm olar?

Bu natəmiz torpaqda, ey pəhrizçi könüllər,
Təmiz su gəzməyiniz əbəs deyilmi məgər?

Var-yoxun dağılmamış, hicran gəlməmiş hələ,
Qazancını, pulunu dağıt, payla, bəxş elə.

At çiynindən yükünü, bir az asan get, asan,
Yükün yüngülləşərsə, mənzilə tez çatarsan.

Aradığın könülsə, qalx, göylərə baş çək sən!
Yoxsa yerdə, boş evdə axı neyləyəcəksən!

İndi ki, sən düşmüsən bu quyuya, bu tora,
Divarından deşik aç, ta çıxasan bayıra.

"Mim" kimi həlqələnmiş bu dünya çevrəsini
Parçalayıb atmasan, əldən buraxmaz səni.

Bu ulduzlu göylərin hədəf olma oxuna,
Bu çevrə sınırından çıx kənara, karıxma.

Çıxa bilsən gecənin, gündüzün cızığından,
Bu çevrə xəttini də keçə bilərsən, inan.

Ayaq basacağın yer möhkəm deyilsə əgər,
Heç bir işin dalınca getmə, çalışma hədər.

Hansı işə girişsən, hünər göstər, dada çat,
Geri qayıtmaq üçün sən mütləq bir lağım at.

Yolçuluğa - səfərə könül verən bir adam
Gərək daim sağına yol üstündə quyudan.

Selin-suyun ağzında ev-eşik quran insan,
Barı bir qapı aç ki, sel gələndə qaçasan.

İtin adı gələndə tülkünün rəngi qaçdı,
Dərhal yuvasındaca ikinci deşik açdı.

Bilmədi mavi qübbə çoxdan kəsib yolunu,
Tülkü ovçusu fələk tüstüylə boğar onu.

Bəs bu necə sevincdir, bəxtəvərsən elə bil,
Ey özündən xəbərsiz, ey qəflətindən qafil!

Sən əhd etdin, gələrkən bu fəna dünyasına,
Dərd çəkib, dönəcəksən tez bəqa dünyasına.

Sən ki, bu gün pozursan Tanrıyla peymanını,
Nə cür qurtaracaqsan öz əhdindən canını?

Könlün seçən yolla get, yalnız o yolu tanı,
Sən ki, dünya görmüsən, rədd et iki dünyanı.

Aşağı baxma, torpaq ləngidər qədəmini,
Çox da qanrılma geri, qorxudar kölgən səni.

Könüllərdən ruzu yığ, yolda ev-eşikmi var?
Yaş axıt gözlərindən, axı, təşnədir yollar.

Sədəfinə təslim et saf incini, aparsın,
Torpaqdan aldığın qaytar, canın qurtarsın.



Sənintək çoxlarının fələk yedi başını,
Apardı səndən güclü neçə dost-tanışını.

Sən fələklə vuruşda bir azca fəndgir ol ki,
Bir gün yerə sürtəsən kürəyini ər təki.

Bu fələklə vuruşmaq çox da qorxulu deyil,
Qılıncı gün şüası, qalxanı günəşdi, bil!

Bu dolaşıq kələflər, hətta, ilan olsa da,
Sənin ölməz eşqinin bir heçdi qarşısında.

Bir şüşə ki, qırıla bircə nəfəs küləklə,
Çox da qalma qeydinə, vaz keç, onu tərk elə.

Qızılın atəşini söndürsün deyə, zərgər
Şəkər tökür, düşməni qənd-şəkərlə öldürər.

Bilik qazan, ey könül, yan, işıqlan biliklə,
Zülməti nurla öldür, düşməni bir çiçəklə.

## ÇƏKİŞƏN İKİ FİLOSOFUN DASTANI

Bir mülkə ortaq olan iki həkim çəkişdi,
Aradan sözmü keçdi, odmu, alovmu keçdi?

Öz nəfsini güdərək hər biri dedi aşkar:
- Bir sarayın sahibi yalnız bir sultan olar.

Əgər haqq ikiləşsə, onu dinləməz heç kəs,
Bir bədənin üstündə iki baş ola bilməz.

Bir məclisin başçısı iki Cəmşid olarmı?
İki qılınc saxlayan bir qın dünyada varmı?

Hər iki filosofun ləngər vurdu qəzəbi,
Çalışdı, özü olsun imarətin sahibi.

Nifrətə çevrilincə qızmış təəssüblər,
Qərara gəldilər ki, boşaltsınlar evləri.

Bacaları suvayıb, gecə yola düşdülər,
Evi satmaq üstündə dilləşib, didişdilər.

Bu işdən vaz keçdilər, seçdilər başqa bir fənd:
Bir-birinə verməyə şərbət düzəldək, şərbət.

Bacardıqca, elmdə görək kim kimi ötür?
Kimin şərbətindəki zəhər daha güclüdür?

Kimin ağlı üstünsə, bina qalsın qoy ona,
İki bədəndəki ruh qovuşsun da bir cana,

Birinci iddiaçı düşündü yaxşı-yaxşı
Bir ağu düzəltdi ki, dəysə yandırar daşı.

Uzatdı rəqibinə: - Zəhər deyil, şərbətdir,
Qəlbə qanadlar verən meydir, nazlı nemətdir.

Aslan ürəkli mərdin titrəmədi əlləri,
Qənddir, baldır! - deyərək aldı, içdi, zəhəri.
Qorxmadı, "Nuşi qiya" çünki içmişdi öncə,
Zəhər dəyəcək yeri tiryəkləmişdi öncə.

Pərvanə kimi yandı, yenidən qanadlandı,
Gəldiyi məclis yenə onu öz şamı sandı.

Yol üstdəki bağçadan bir qızılgül qopartdı,
Dərhal əfsun oxuyub, düşməninə uzatdı.

Gülü verdi ki, onu öldürsün asan, yüngül,
Rəqibin zəhərindən daha kəsərliydi gül.

Düşmən əfsunlu gülü elə ki, ələ aldı,
Qorxudan dizi əsdi, çökdü, bağrı yarıldı.



Bəli, çarə taparaq o, qurtuldu ağudan,
Busa bir gül iyləyib, dünyadan getdi olan.

Dünya bağında hər gül, demə, güllər xasıdır,
Bir insan ürəyindən sızan qan damlasıdır.

Zəmanə bağının da baharı, başı sənsən,
Zəmanə bir qəm mülkü, onun naxışı sənsən.

Fanar kimi asılı ərzi çal öz daşına,
Gülü qoy su səpilmiş ulduzların başına.

Adəmin xəyal, uyğu büsatından uzaqlaş,
Bərbadından uzaqlaş, abadından uzaqlaş.

Gözün qalmasın çərxin şəfəq, işıq payında,
Qaralt küsüf kimi sən Günəşi də, Ayı da.

Dünya çadırı göydə Ay qulyabanı kimi
Azdırıb İbrahimi yolundan etmədimi?

Gəncliyinə dağ çəkib, fələk sürüklər hara?
Nəşəli günlərini dərdli, qəmli çağlara!

İşıqlandıra bilsən, inan, könlünü bir gün,
Ağ günü, səadəti qaytarmaq yenə mümkün...

Ümid gülabı kimi təmiz göz yaşı tök ki,
Təmizləyə biləsən, bu qara, ağ lövhəni.

Ölçüb, biçsən işini bu dünyada sən əgər,
Məhşər tərəzisində qazancan artıq gələr.

O din ki, qüvvət verir qoluna axşam-səhər,
Sənin tərəzinin də əyarını düzəldər.

Düşüncəli, hünərli, qəlbi azad olan kəs
Din qəmi çəkər ancaq, dünya qəmini çəkməz.

İstəsən ki, bu aləm daim məskənin olsun,
Dini Nizamiyə ver, dünya qoy sənin olsun.

*ON ÜÇÜNCÜ SÖHBƏT*

## DÜNYADAN ƏL ÜZMƏYƏ DAİR

Ömür az, dünya qoca... uymuşuq ahənginə,
Aldanma bu köhnənin tazələnən rənginə.

Dəliqanlı görünən bu Pirin əlindəki
Əslində bir atəşdir, tutub qızılgül təki.

Məbadə aldanasan, çeşməsini ilğım san,
Qibləsi xaçdı, qorx ki, uyub namaz qılasan.

Bu qədər güldən sənə çatmaz bircə tikan da,
Çöp də aparmaq olmur, dağlar qədər yığsan da.

Yalnız gəldiyin yerdən, evdən gətirdiyini
Apara biləcəksən. Başqa heç bir şeyini.

Qiyamət dənizindən kimlər yaxa qurtarar?
Yalnız yükü dənizə atıb çılpaq qalanlar!

Fərqi yoxdur, ya payla, ya da yığ sərvətləri,
Sənə hər nə veribsə, alacaq dünya geri.

Aləm əzəldən bəri alver evinə bənzər:
O dünyanı alırlar, bu dünyanı verirlər.

Barama qurdu kimi biri hazırlar ipək,
Biri həmin ipəyi kəsib yeyə günətək.

Şam kimi saç yığdığın cəfəri qızılları,
Şam kimi öz nurunla işıqlanasan barı.

Söküb tök bədənini - doqquz dəlikli bütü,
Altı başlı altunu doğra, dağıt büsbütün.



Sal ayağın altına, qızıl alma əlinə.
Qızıl qulu, bütpərəst deməsinlər qoy sənə.

Bir zərin ki, olmaya məqsəd, amal sikkəsi,
Zər deyil, zərnixdir o, yox dəyəri-dəyməzi.

İndi ki, bənd olmusan qızıl parıltısına,
Get, tovuz quşu bəslə, yüz rəng göstərər sana.

Yalnız dəmir gücünə sikkələnir qızıl. zər
Dəmirçilər hünərdə şahdan əskikdir məgər?

Tac qayırıb qızıldan, Harun qalxdı, ucaldı.
Qızılın ağırlığı onu quyuya saldı.

Başında gəzdirərsən, yük olar qızıl sənə.
Aparar səni, ayaq bassan üzəngisinə.

Qızılı heç almamaq verməkdən xeyirlidir,
Çünki qızılı vermək can verməyə bənzəyir.

Qızılı aldığın vaxt sənə tamah verirlər,
Qızıl əldən gedəndə qəlbə rahatlıq gələr...

Nə qədər yığsan belə, əldən çıxacaq tez-gec
Canın rahat olmazmı qızıl yığmayasan heç?

Qızıl yığmaq dərd verir, baş ağardır süfrətək.
Onu meyvətək yeyib, dərdi dağıtmaq gərək.

Gündoğandan yayılmış qızıl bütün cahana
Fəqət günbatan zəri deyib cahillər ona.

Soxavətə düşməndir həm Qərb, həm də Qərb əhlı.
Şərq ilə Şərq əhlisə səxavətin məşəli.

Şərqin sultanı Günəş nə verirsə hər səhər,
Axşamüstü Qərb alar, dilənçitək dilənər.

Quşların qol-qüvvəti yalnız qanadlarında,
Yaltaqların qüdrəti qızıl adlı varında.

Dəməşqin məhəngilə eşqin tərəzisində
Rum qızılı yoxlanıb xalislik bildirsə də.

Gözlər qamaşdırsa da, başına kül tök onun.
Çoxu qurbanı olmuş aldadıcı altunun.

Qızıl kimin başından qapmayıb papağını.
Kimin qulyabanıtək kəsməyib qabağını?

## XAİN SOFU İLƏ HACININ DASTANI

Bir Kəbə mübtəlası hazırlaşdı səfərə,
Öyrənib bələd oldu qaydalara, dəblərə.

Ehtiyacından artıq bir az qızılı vardı,
Öz halal dinarını kisəsində saxlardı.

Düşündü: filan sofu əl çəkibdir dünyadan,
Tanrı bəndəsidir o, azdır bu cür düz adam.

Ürəyimə damıb ki, dəyanət də ondadır,
Qoy verim zəri, deyim: əmanət də ondadır,

Bu niyyətlə sofuya o baş çəkdi bir gecə,
Kisəsini əmanət verdi ona gizlicə.

- Yaxşı saxla bu sirri, - tapşırdı dönə-dönə,
Qayıdaram, kisəni yenə verərsən mənə.

Xacə səfərə çıxdı, düşdü yolun ağına,
Şeyx də sərin qızılı basdı yanan bağrına.



Titrəyirdi ürəyi necə illərdən bəri
Bu qızılın sapsarı şöləsindən ötəri.

- İşlərimi bununla düzəldərəm! - söylədi -
Yolunu gözlədiyim xəzinəm əlimdədi.

Tanrının mənə bir az gec verdiyi neməti
Gərək tez ötürüm ki, qaçırmayım fürsəti.

Kisənin boğazından ilgəyi açdı sofu.
Neçə gecə kef çəkib, şadlıqdan uçdu sofu.

Yaxasına keçirdi qızıl dolu kisəni.
- Göbəyimin üstündə görüm. - dedi, - qoy səni.

Cingildətdi pulları, bu səsdən xumar oldu.
Gözəllərin saçları boynunda zünnar oldu.

Heyhat, parçalanınca şeyxin dərviş xırqəsi.
Zövqün yerini tutdu günah, qəm düşüncəsi.

Sofu elə yedi ki, əlinə düşən ovu.
Çırağı da bir gilə yağın möhtacı oldu.

Bizim Hacı elə ki, Kəbədən geri döndü.
Öz hindlisi önündə bir türk kimi göründü.

- Gətir, ey zahid! - dedi, - gətir görək bir onu.
Zahid soruşdu: - Nəyi? Hacı dedi: - Altunu!

Sofu işarə qıldı. - Sus, lütf elə bir qədər.
Xaraba kənddən axı kim xərac ala bilər?

Sağlığına qızılı sərf elədim bazara.
Mənimtək müflis hara, dinar kisəsi hara?

Türk ki, yığma elədi, kim dayanar önündə?
Evini hindli quma ismarlar hansı bəndə?

Belimi qırdı mənim o Rukin qızılların,
Dözə bilmədim, yedim, boynumdadır vəbalın.

Min bir sevinc içində sofu malı yemişdi,
Min bir göz yaşı töküb üzr istəyirdi indi.

- Kərəm eylə, lütf qıl, yaman peşman olmuşam,
Kafər idim, dönmüşəm, bir müsəlman olmuşam.

Cahanın təbiəti min fəsada boyludur
Bir fəsad da yarandı, təkcə mənimmi qüsur?

Hacıdakı mərhəmət qopartdı bir qiyamət:
"Əf et, önündə dərviş ayaq üstə durub pərt!"

Demək, Tanrıya çatdı Tanrının verdikləri,
Zəhməti zərgər çəkər, zəri qapar müştəri.

Öyid verdi özünə: - Azca təsəllimiz var.
Dərvişin heç nəyi yox. Heçdən nə almaq olar?

Bir arpası da yox ki, tutub alam əlindən,
Çarəm nədir? Taleyə boyun əyməliyəm mən.

Sofunun boğazından keçən o maldan qalan
Başı halqalı "Mim"də kufi "Əlif"dir, inan.

Əfv olunmaq istəsən, ey Şeyx, qulaq as mənə:
Haramın olanları halal edimmi sənə?

Neştər batır nəfsinə, ey fələktək saxtakar,
Ac gözlü, qısa yenli, uzun əlli tamahkar!

Heç bir ürək nəfsdən, tamahdan ayrı deyil,
Vəfalı, etibarlı kişi yoxdur, bunu bil!

Din əyarı qızıldır, vermə onu şeytana,
Fəqfurun şərəfini layiq görmə səgbana.



Dini şeytana versən, cəzanı sən çəkərsən,
Müflisə verilən mal geri dönməz yenidən.

Dünya pislik yurdudur, axirət qazancıyıq,
Tutub din ətəyindən bir guşə tap, ey yazıq!

Bu yolların bəkçisi - yığmaçı quldurbaşı,
Burda müflis zəngindən, yoxsul varlıdan yaxşı.

Müflislərə toxunmur bu fələyin tilsimi,
Yalnız möhtəşəmlərin qırır qafiləsini.

Bu vəfasız dünyadan könlüm bir az halıdır:
Arını məhv eyləyən öz şəhdi, öz balıdır.

Tamah salan varmı heç acı aslan ətinə?
Öləndə, qurd-quş belə toxunmaz cəsədinə.

Ayaq üstə duran şam xonçada, başda gəzər,
Bədirlənmək istəyən Ay incələr, əksilər.

Torpaqla qurd dostluğu eləyir daim külək.
Özü yüngül, əli boş, heç nə itirməyəcək.

Göl quşları bilir ki, balıqların baləsı
Gümüş pullarındadır, pullar onun aynası.

Sənin diləklərinin tərəzisi olan zər
Beş rükət namazının fatihəsinə bənzər.

Əgər Nizami kimi sən pak ola bilməsən,
Bu arzu yollarında çətin kama yetəsən.

## QƏFLƏTDƏN OYANMA ŞƏRTLƏRİ

Ey qəflət yuxusunda xoşbəxt uyuyan xumar!
Yeyən, içən eşşəkdən, öküzdən fərqinmi var?

Xəbərsizsən aləmin bu mavi günbəzindən,
Dövr eyləyən günəşdən, göylərin mərkəzindən.

Sirri dərk edir ancaq nəzər əhli başbilən.
Nadanın nə ilgisi dövrün kəşməkeşliylən?!

Vaxtdır, iş başına keç! Gözün bağlanıb nəçin?
İşini elə gör ki, işbilənlər bəyənsin.

Bərk yatmısan, yolunda tələ qurublar, oyan!
Məgər bu cür yatarmı iş bilən, iş anlayan?

Yığın-yığın qəmləri, sabahını düşün sən,
Qəm arxalı, qəm güclü, sən nə qədər zəifsən.

Sənin ağlın yaddaşsız bir qocadır, imdad et,
Yada salmaz o səni, barı sən onu yad et.

Əgər yar olmasaydı ağlın, idrakın sənə,
Səni kim qaldırardı insanlıq pilləsinə?

Ağıl - Məsihadır, bil. Ondan üz döndərmə sən.
Eşşəksənmi, palçığa eşşəyini sürəsən?

Ya get ağıl yoluyla, çıraq tapıb işıqlan.
Ya da biryolluq əl çək sən onun qapısından.

Xumar olma, korşaltma o parlaq ağlı, huşu,
Yedirmə bir sərçəyə o boyda qızılquşu.

Mey hər dində halaldır, amma gərdiş dəyişmiş.
Əqlə düşmən olması meyi haram eyləmiş.



Piyaləne tökdüyün üz suyundur, mey deyil,
Çeşmən, dirilik suyun yalnız öz ağlındı, bil.

Gərçi dünya qəmini içki bir az dağıdır,
İçmə, ey xacə, içmə, idrakına yağıdır.

Ciyər kababı üstə səpilmiş duzdur şərab.
Duzsuzlara, kəmlərə qismət olsun bu əzab.

Bu barədə düz xəbər bilmək istəsən əgər,
Mey içmə ki, hər şeydən qoyar səni bixəbər.

Qəflət dünyasındadır kim ki meyin quludur,
Mey qafilin alnına qəflət damğası vurur.

Boş xəyala bənd olan nəzərə, gözə mil çək,
Xərabata can atan ayağı zəncirləyək.

Öz boyuna "əlif" tək aşiq olan ey məğrur,
Qara sevdaya saldı nəfsin səni, dayan, dur!

"Əlif"sənsə quş kimi qanad gər, sərbəst dayan,
Ya fağır ol, "bey" kimi başıaşağı dolan!

Qürrələnmə, "əlif" tək məclislər şamı olsan,
"Əlif" kimi müflissən, "əlif" kimi yoxsulsan.

Sən ki tikan deyilsən, dırmanma çox hündürə,
Əlsiz, ayaqsız gül ol, bizi qərq elə ətrə.

Sən ki çocuq deyilsən, həvəslənmə oyuna,
Sən ki ömür deyilsən, boy istəmə boyuna.

Bitdi gənclik gündüzü, Günəş getdi batmağa,
Kölgə uzandı, ey nur, çəkil sən də qırağa.

Mən görmüşəm, elə ki, Gün batır, qürub yanır,
Hər xilqətin kölgəsi iki, üç qat uzanır.

Neçin kölgəpərəstsən bunca qarğalar kimi?
Düşmən kəsil zülmətə qızıl bir fanar kimi!

Özünü kölgəlikdən qurtara bilsən əgər,
İnan, eyiblərin də kölgən kimi çəkilər.

Zülmətdə əyləşməyə dözə bilmir hər kişi,
Təkcə dirilik suyu görə bilir bu işi.

Başı yerdə, ayağı göydə olan ey qafil,
Sənin fikir göylərin alt-üst olub, bunu bil.

Günəş qızıl teştini hər gün sənə verir ki,
Yuyub mənlik tozunu, pak edəsən əlini.

Paltarını bu teştdə təmiz yumaq istəsən,
Ucal, suyu Günəşin qaynağından istə sən.

Günəş yuvarlağını götür, sabuna bənzər,
Qanlı paltarlarını tamam yuyub təmizlər.

Oda, alova döndü səndə həyat yanğısı,
Ciyərində qalmadı hətta bircə damla su.

Nəfs, qərəz kirindən pak deyilsə bədənin,
Qızıl geysən də, daşca dəyərin yoxdur sənin.

Paklıq, təmizlik nuru bürüsəydi hər kəsi,
Kimlə, nəylə dolardı cəhənnəmin mədəsi?

Yalnız cəhənnəmdən yox, hər istidən-soyuqdan
Səni saxlayan zirəh düzlük, paklıqdır, inan.

Əyriliyin yükləyər boynuna neçə nöqsan,
Düz olsan, hər bəladan, hər qəmdən qurtularsan.

Zərgər tərəzisitək dürüst olmaq istəsən,
Gərək hifz eləyəsən ürək düzlüyünü sən.



Sənə halal olmayan hər xırdaca arpadan
Tərəzinin gözünə əskiklik gələr, inan.

Hər işin birər-birər gələcək öz yerinə,
Son günündə qəfildən çıxacaq qənşərinə.

Gizli işlərin sənə açıq göstəriləcək,
Az verib, çox almağın ortalığa gələcək.

Bu alverdə özünü günahkar etmə, sakın,
Artıq verib, əskik al, çalış borcun qalmasın.

Gül əyri olduğundan, qoynunda bitdi tikan,
Qamış şəkərə döndü düzlüyü ucbatından.

O yerdə ki, doğruluq hökm edər, bayraq açar,
Dada çatan haqq özü onun ardınca uçar.

## ZALIM PADŞAHLA DÜZ DANIŞAN KİŞİNİN DASTANI

Ürəkləri sındıran zülmkar bir şah vardı,
Dirəşməkdə, hörcətdə Həccacı mat qoyardı.

Gündüzdən gecəyədək hər pıçıltı, hər xəbər
Onun sarayındaca cəmləşərdi hər səhər.

Aytək, Güntək itigöz bir xəfiyyəsi vardı,
Bağlı qalan işləri ustalıqla açardı.

Sübhtək ikiüzlü, Aytək gecə gəzəndi,
Bir gün şahın önündə baş əydi, qüssələndi.

Dedi: - Gizli bir yerdə çox deyindi dalınca
Səni zalım, qanıçən adlandıran bir qoca.

Casusun dediyindən övkələndi hökmdar,
Qocanı məhv etməyə fikrində verdi qərar.

Qum tökdürüb üstünə palaz sərdirdi çölə,
Divanə tacidardan qaçardı divlər belə.

Yel sürətli bir cavan çapdı, qocanı tapdı.
- Xain bilir şah səni, oyan! - dedi - Amandı.

O şeytan huylu zalım çağırmamış, özün get,
Yola gətir, inandır, öz dərdinə əlac et!

Dəstəmaz aldı qoca, kəfən geydi əyninə,
Salam verdi ədəblə, gəlib şahın önünə.

Qızmış, qara niyyətli şah yumruğunu sıxdı,
Arxasında dayanmış qocaya kinlə baxdı.

- Eşitmişəm, - söylədi, - danışmısan dalımca,
Məni qəddar, yelbeyin adlandırmısan, qoca!

Mən Süleyman mülkünün sahibiyəm, bilirsən,
Hansı cürətlə mənə zalım, ya div deyirsən?

Cavab verdi ixtiyar: - Mən ki ayığam, nə qəm,
Sənin dediklərindən beş qat artıq demişəm.

Qocalar da, gənclər də qan ağlayır əlindən,
Kənd, şəhər - bütün ölkə dad çəkir əməlindən!

Mən ki eyiblərini bircə-bircə sayanam,
Yamanını, yaxşını göstərən bir aynayam.

Düz, dəqiq göstərirsə ayna səni özünə,
Özünü qır, aynanı qırmaq yaraşmır sənə.

Sözlərimi araşdır, dinlə ağıl deyəni,
Düz demirəmsə, əmr et, dara çəksinlər məni.

Qoca ki, öz fikrini mərdanə, şax söylədi,
Düz sözü məğrur şaha bir az əsər eylədi.



Yumşaltdı hökmdarı işin qarası, ağı -
Özünün haqsızlığı, qocanın haq olmağı.

Kəfənini çıxarın, xələt geydirin ona: -
Hökm elədi hökmdar: - Ətir sənin başına.

İstibdaddan, zülmdən o gündən əl çəkdi şah,
Əziz tutdu xalqını, dərdindən oldu agah.

Şahın dürüst işini heç kəs etmədi inkar.
Doğruluğu danmağa axı, kimin şövqü var?

Düzlüklə qurtarsan hər acıdan, ağrıdan.
Qoy düzlük səndən olsun, zəfərlərin Tanrıdan.

- Haqq söz halva da olsa, haqsız üçün acıdır,
Haqq - acı, fəqət hamı həqiqət möhtacıdır.

Sözü yerli-yerində, mətləbi düz söyləsən,
Həqiqətin hamisi Tanrı tutar əlindən.

Nizaminin ki düzdür xilqəti də, qəlbi də
Başa çatar, inşallah, hər işi, mətləbi də.

*ON BEŞİNCİ SÖHBƏT*

## PAXILLARDAN ƏLHƏZƏR

Bu pərdənin dalında ən qəribə oyunlar,
Bu pərdə mahir rəqib, göz aldadan sehrkar

Çınlayır dünya sazı… rəqqası yoxdur, heyhat.
Dəniz cəvahir dolu… qəvvası yoxdur, heyhat.

Qılınc, tac parıltısı, dirhəm şöləsi, gövhər.
Nə istəsən, buyur seç… bərq vurur xəzinələr.

Cəbrayıla çatmaqmı qəsdin? Yaxşı həvəsdir.
Burda nə tale xəsis, nə də qüdrət xəbisdir.

Hə xərcləsən, bu yatır zənginləşər, azalmaz,
Gəlirin çıxarından çox olar ki, az olmaz.

Qədəm bassan bu yola, hüsnə bax, rəftarı gör,
Çək qapı cəftəsini, ardında əsrarı gör.

Onun daşları yaqut, onun torpağı kimya,
Babalın öz boynuna, dalmasan bu dünyaya?

Burda qələm sındırıb şair, sənətkar əli,
Burda çox bilməcələr hələ üstü pərdəli.

Bu bağda hər dəqiqə təzə nübar yetişir,
Necə təzə nemətlər, nə sovqatlar yetişir!

Könüllərin telində inci, mirvari nədir,
Gərdənliklər incidən, gövhərdən də gözəldir.

Dünya yolçuluğunda gör nə qədər yol gedən,
Bir az da ağıllıdır daldakı öndəkindən.

Yalnız idrak əhlinə yaraşır şərəf, ad-san.
İdrak üçün fərqi yox, cavansan, ya qocasan.

Eşitdim: qocalırkən mərcana çevrilir daş,
Düşün bir az, hər daşdan mərcan yaranmır, qardaş!

Xəbislər qocaldıqca bir az da quduzlaşır,
Ləçər arvadlar kimi qeyzi başından aşır.

Bir vaxt səni südəmər, çocuq bilən çoxları
- Südün acıdır, - deyə bu gün səni oxlayır.

- Qocalarda gənclərə qayğı, insaf azalmış,
Cavanlara havadar qocalar lap az qalmış.

Qönçədən çıxmış gülün ətri zərif, incədir,
Fəqət köhnə tikanın yarası bərk incidir.



Dəyib xal salan üzüm - göz üçün bir tutiya.
İlansa qocalarkən dönüb olur əjdaha.

Cavanların başında ağıl qolu-budaqlı,
Kif atan başlar isə çox da xoşlamır ağlı.

Ayı, günü, həftəni öyrənmək istəyənlər
Baxmaz köhnə təqvimə, baxsa da, verməz səmər.

Aslanlardan çox yeyər acgöz, qoca köpəklər,
Ceyranın göbəyini canavar kimi sökər.

Məni çox da qınama, qorxsam qoca qurdlardan,
Mən ki, məzlum Yusifəm, yerim də quyu-zindan.

Yox, qocalar gənc kimi vura bilməzlər yara,
Gəncin əlinin suyu bənzər yanar odlara.

Gərçi gənclik igidlik, qəhrəmanlıq çağıdır,
Heyhat, dəliqanlılıq dəlilik sorağıdır.

Ağ yasəmən çatarmı yamyaşıl, tər söyüdə?
Ağ saçları qoyarmı hindli kimi öyünə!

Mən ki qızıl gül kimi inci, yaqut saçıram,
Cavan ikən qocalıq qovğasımı açıram?

Yalnız xudbinlərdi, bax, bərk tutanlar köhnəni,
Haqqa tapınan ərlər xudbinliyin düşməni.

İndi hilal gördüyün Ay ki, saçır nurunu,
Kamal çağına ercək, bədr adlandır sən onu.

Cavan xurma ağacı yüksəldimi səmayə,
Əlini elə a tki, çata bilsin xurmaya.

Bu tarlaya səpilən toxum sünbülləşincə
Daha danə söyləmə, bar-bərəkətdi məncə.

Hövzə arxın suyundan dönüb dərya olunca,
Ona əvvəlki gözlə baxma, ey dargöz qoca!

Gecə gündüzə qarşı yumsa belə gözünü,
Gündüz başqa nəzərlə onda gördü özünü.

Neyşəkər xatırladır öncə adi pencəri,
Fəqət necə yüksəldir onu qəndi, şəkəri.

Dava hərisi olma, hünər qazan, igid ol!
Varlığını hünərə verməkdir ən yaxşı yol.

Sədəfin axar suyu olsa da sonsuz ümman,
Bircə damla yağışdır onda inci yaradan.

İstəsən ki, tacında parlaq gövhər görünsün,
Can odunu payla ki, odun gövhərə dönsün.

Bəxt ucaldan bayrağı kim aparır irəli?
Yalnız onu hifz edən mərdin polad əlləri!

Sən bu viran vadidə qırmasan buxovları,
İradənin, əzminin olmayacaq ovxarı.

Əl uzatma, qarışma Tanrının işlərinə,
İblisə dəyən qırmanc ta ki, dəyməsin sənə.

Ulu Tanrım, tutmasa hər kim sənin yolunu,
İqrarını qanmasa, inkar edər çərx onu.

## GƏNC ŞAHZADƏ VƏ ONUN QOCA DÜŞMƏNLƏRİNİN HEKAYƏTİ

Mən bir dastan eşitdim: uzaq Şərq ölkəsində
Yaşarmış bir şahzadə, sərvlərtək azadə.

Varlıların zülmündən iztirab çəkən diyar
Rüzgar kimi üsyankar, həyəcanlı, biqərar.



Təzə şah təzə ruhlu, köhnələr əhkam güdən,
Şah özü də qorxarmış oyanan fitnələrdən.

Uyumuşdu bir gecə səksəkəli, nigaran,
Röyasında bir qoca ona dedi: - Ey cavan!

Sən ey təzə doğmuş Ay, köhnə bürcü dağıt, qır,
Ey yeni açılan gül, köhnə budağı sındır.

Köhnəni məhv elə ki, yeni əlində qalsın.
Həyatın da özüntək işıqlı, gözəl olsun.

Şahzadə oyanınca verdi bir yeni fərman.
İki-üç müxalifi çıxartdırdı aradan.

Qanad verdi yeniyə, qələm çəkdi köhnəyə.
Təzə şah təzə bir ruh bəxş elədi ölkəyə.

Bəli, fəsad əhlinin gərək kəsilsin başı.
Andı pozan ordunu ləğv etmək daha yaxşı.

Qartımış kötüklərin sən vurmasan boynunu.
Sərvlər bəzəyərmi gülşənlərin qoynunu?

Bağlamasan kökünə təzə bulağı, arxı.
Tufanla güləşərmi çinarın qol-budağı?

Arıtmasan, açmasan gözlərini bulağın.
Gözü gülə bilərmi bağrı yanan torpağın?!

Özünü dərk edənin öz könül vaizi var.
Ən gözəl öyüdləri qulağına pıçıldar.

Ağlını-qılıncını çıxar qınından bir an.
Nə vaxtacan onu sən qında saxlayacaqsan?

Gənclik zəka qılıncı, pak, ülvi bir həmnəfəs.
Köhnə mücrüdən deyil. O qında qala bilməz.

Var-yoxunu bəxş elə, sovqat yolla, pay göndər,
Ta ki sənə səxavət, kərəm əhli desinlər.

Vardan murad götürmüş varlılar, dövlətlilər
Yalnız səxa gücünə var-dövlətə yetdilər.

Yalnız səxa toxumu verir bəhrə, bərəkət,
Qiyamətdə ruzudur kərəm, qüdrət, səxavət.

Öz ehsan xəzinəndən, yarəb, pay göndər mənə,
Nizami ki, qulundur, fərəc ver işlərinə.

*ON ALTINCI SÖHBƏ*

## MƏSLƏKDƏ ÇAPUQ İRƏLİLƏMƏ

Ey bir əsim rüzgara əsir, ey başı qallı!
Bir ovuc qum önündən qaçıb gedən zavallı!

Kənd yox, sənsə kəndçinin qapısını döyürsən,
Mülkün yox, dəm vurursan Süleymanın təxtindən.

Qılıncsanmı, vurursan hər gün bu qədər yara?
Davulsanmı, hay-haray salmısan min diyara?

Sən qılınc ağzı kimi gümüş parıltılar saç,
Nağara qamı kimi möhkəm ol, cəbrə qatlaş!

Dartır nəfsin şeytanı səni özünə sarı,
Hələ ki ölməmisən, çəkin, əl vermə barı.
Hər muğun qarşısında əllərini xaç etmə!
Xətiblik sevdasıyla qılınc cənginə getmə!

Adəm asqırığının Məsihə çatdı səsi,
Qoy natiqlərə çatsın yalnız dövlət xütbəsi.

Kim ki pərvanələr tək xoşbəxt, fədakar yaşar,
Bir atəş ordusuyla təkbaşına çarpışar.



Bircə an yaşar, nə qəm, həyat sanar bu anı,
Verər yalnız cismini, alar canı, cahanı.

Sənin verdiyin xeyrat Tanrı yolunda deyil,
Çünki haram qazancın tamam batildi, batil.

Sən arslan ol, çəkinmə kor mətbəx pişiyindən,
Sərt gilə dön, vəhm etmə cəhənnəm atəşindən!

Yalnız saxta sikkənin paxırını açır od,
Oddan nə qorxun sənin, ey saf qızıl, ey yaqut.

Nə qədər qürur olar, ey dikburun hiyləgər?
Üç batmanlıq sümük, su, torpaq deyilsən məgər?

Cah-cəlal həvəsilə neçələri səinintək
Gecələr də yatmayıb, vurnuxdular sübhədək.

O cəlalın hasili gör axırda nə oldu:
Xeyri ziyanla bitdi, ömrü əyləncə oldu.

Sən, ey bir parça torpaq, ömrü verirsən yelə,
Ayağını fələyin başına qoysan belə!

Günəş kimi, Ay kimi tutsan belə göyləri,
Sən ki yerin oğlusan, qayıdacaqsan geri.

Kəkilini, başını fələk qoparar, sakın!
Ayaq basma üstünə təhlükəli hasarın.

Quşsanmı, cəhd edirsən daim ucalıqlara?
Əl çəkməsən canından, yetə bilməzsən ora.

Elə dolan ki, fələk özü baş əysin sənə,
Göylər özü yıxılsın sənin qədəmlərinə.

Acı meyi içirsən, zəhərin nə günahı?
Suçlar, qüsurlar sənin, bu dəhrin nə günahı?

Gəl, dövranı qınama, ey gözəl huylu insan!
Mənə, sənə hələ ki pislik etməyib dövran.

Can yandırdı zəmanə, çox çalışdı ki, bəlkə
Biz də bir adam olub çıxaq kəndə-kəsəyə.

Qüdrətimiz çatdımı, yetək o mərtəbəyə?
Neçin suçlarımızı yükləyək zəmanəyə?

Ləlin təbiətində ləl cövhəri yoxsa, qan:
Qəbul möhrü vurdurmaz ona heç bir hökmran.

Dünyanın hər guşəsi daş-kəsəklə doludur,
Fəqət yaqut daşları nadir olur, az olur.

Tikan da, yasəmən də eyni torpaqda bitir,
Biri gözə qaranlıq, biri işıq gətirir.

Bilməm irmaq suyundan xeyri gələr, ya gəlməz,
Fəqət güldən o, rəngi, ətri apara bilməz.

Su gözəllik artırır. Ancaq bilməm, doğrusu,
Çör-çöpü yasəmənə döndərə bilərmi su?

Əhvalatlar, qanunlar qurulmasaydı bunca,
Hər şey alt-üst olardı bəlkə dünya boyunca.

Dövlət gücü əzəli dövlət sahibinindir,
Bizim tədbirimizlə olmaması yəqindir.

Dövlətsizlər düşürlər torpağa üzüqoylu,
Dövlətlinin, güclünün nə fəhmi, nə qorxusu?

Dövlət, qüdrət sahibi bəxtiyardır hər yanda,
Sən dövlətin, qüdrətin qulu ol bu cahanda!

Sərvət, dövlət ucaldır şahları bir dağ kimi,
Dövlət verilmir sənə oyun-oyuncaq kimi.



Yalnız qüdrət əhlinin başına dolan ki, sən,
Dala, qabağa gedən çərxə bənzəməyəsən.

Hümmətsizə, nadana qoşulmaqdan nə çıxar?
Dövrün xoşbəxt oğlu ol, yaşa azad, bəxtiyar!

Cevza bürcündən doğub, çağır səadətini.
Tap, bir ceviz də sındır, sən də sına bəxtini.

Dövlət qismətin olsa, sus təvazö gözlə sən.
Çəkil, yeddi fələyin qurtar düyümlərindən.

Rahat çağladığından sellər, sular bəxtiyar.
Düyümlü ud ağacı odda yanar, kül olar.

Könül vermə kimsəyə, bir azca ağıllı ol.
Öz yükün sənə bəsdir, onsuz da çətindi yol.

Nə vaxtacan əl atıb özgə budağına sən.
- Dövlətim kaş bir az da çox olsun! - deyəcəksən?

Tutalım, qamarlayıb, aləmi tutdun da sən.
Gedəndə ki əl çəkib, əliboş gedəcəksən!

Nəfs vurub dağıdır hər cür qayda-qanunu,
Qoy qənaət qılıncı vursun nəfsin boynunu.

Bu firuzə qübbə ki fövqünə çatmır xəyal,
Sənin üçün genişdir, idrak üçün darısqal.

Ya heç fikirləşmədən keçir dünyanı ələ,
Ya nəfsinlə aləmi öz başına dar elə.

Heyhat, bir könül əhli, uca, ulu qalmadı,
Cahanda mərifətli Adəm oğlu qalmadı.

Bizim doqquz katibin bir cüt hünərnaməsi
Nişan verə bilmədi mənə dolu bir əksi.

Məslək düşmənlərindən dostluq umma sən əbəs,
İlanlar zəhər verər, dirilik suyu verməz.

Məna yolunda yürü, bilik başın tacıdır,
Bil ki, qanan bir düşmən qanmaz dostdan yaxşıdır.

## YARALI ÇOCUĞUN DASTANI

Hər şeydən azad olan, şən, qayğısız bir bala
Oynayırdı küçədə iki-üç yaşıdıyla.

Ayağını atarkən yazıq bala sürüşdü,
Yürüdüyü yoldaca üzüüstə yerə düşdü.

Addımlaya bilmədi, özünü şikəst sandı,
Sanki təkcə dizi yox, qəlbi də yaralandı.

Təngnəfəs yürüdü çocuğun yoldaşları,
Əsərlənib, pərt olub, çatılmışdı qaşları.

Onu sevən bir dostu sözünü uda-uda,
Pıçığldadı astaca: - Ataq, qalsın quyuda.

Sirr aşkara çıxmasın Günəş yayılan sayaq,
Atasının yanında xəcalətli qalmayaq.

Bu yerdə uzaqgörən, sərt bir yavru da vardı,
Yaralanmış çocuğa düşmənitək baxardı.

Ciddiləşib, üz tutdu öz arxadaşlarına,
- Örtmək olmaz bu işi, - dedi yoldaşlarına.

Məndən görərlər. Məni düşmən bilərlər ona,
Büdrəyənin suçunu yükləyərlər boynuma.

- Qoy gəlib çarə qılsın! - Yürüdü zirək oğlan,
Uşağın atasına xəbər apardı ələn.



Kimin ki, xilqətində hikmət cövhəri vardır,
Hər şeyə çarə tapır, həmişə üz ağardır.

Göylər vuran düyümü, soruş, yerdə kim açar?
Ayağını göylərə cəsarətlə basanlar.

Mən çərxin artığından, əskiyindən çəkdim əl,
Bununçün Nizamiyə fələk olmadı əngəl.

*ON YEDDİNCİ SÖHBƏT*

## TAPINMA VƏ TƏCRİD BƏHSİ

Göydə Tanrıdan, yerdə nəfsindən qafil İnsan!
Həmişə can hayında, bədən qayğısındasan.

Əbəs yerə bu qədər "Mənəm! Mənəm" deyirsən,
Öləcək mənəmliyin göz yumduğun dəmdə sən.

Qucaqlama cahanı bu mavi qübbə kimi,
Qamarlama səninki olmayan bir aləmi.

Hansı tərəzi çəkər cahanın siqlətini?
Hansı qol ölçə bilər səma səltənətini?

Sən bir toz zərrəsindən dağ qüvvəti istəmə,
Tiyan qaynadan odu bir çınqıdan gözləmə.

Taledən razılıqla kimlər bağlayar kəmər?
Gödəninə, nəfsinə qulluqdan əl çəkənlər!

Tamah miskinləşdirir ən dövlətli kübarı,
Riza tacı gəzdirir qənaət məhkumları.

Bu dünya yollarında nə qədər cibkəsən var!
Kimlərdir rahat? Ancaq cibləri boş olanlar.

Qüdrətlisən, demək, sən hər dərdə dözməlisən,
Yoxsa, get, dilənçi ol, tut iflas ətəyindən.

Tamam bığsız, saqqalsız, məğmun, darqursaq kosa
Rast gəldi bir-birini yolan iki yolsuza.

Dedi: - İndicə bildim mən sizdən üzüağam,
Saqqalımı yoldurmaq qayğısından uzağam.

Elm, ürfan xadimləri məsləhət gördü bir vaxt:
Eşşəyi satmaqdansa üstündəki yükü sat.

Sən könül qapısına yetmək istəsən asan,
Yola yüksüz, eşşəksiz İsatək çıxmalısan.

Kəbirlik dərdi çəkmək sən möminə yaraşmaz,
Bu cür göbək sallama, tünük, çevik ol bir az.

Dünya - ölüm dalğası. Yola yüngül yüklə çıx,
Yükü at burulğana. Gəlsin cana rahatlıq.

Sən ki, dalğa üstəsən daim balqabaq kimi,
Qarnı əliboş olmaq daha üstün deyilmi?

Yemək, yatmaq hələ ki ucaltmayıb heç kəsi,
Xərabədə yerləşər böyüklər xəzinəsi.

Leş yeyən quzğun kimi qan içməkdənsə, inan,
Yaxşıdır qandan uzaq ala qarğa olasan.

Leş yemək qayğısından azad olmaq istəsən,
Cansız, qansız büt kimi asudəlik istə sən.

Cigər qanı şərabmı? Yox, bir atəşdi - sönmüş,
Oddur, insan zülmündən utanıb suya dönmüş.

Qanının qüvvətini azalt, az ye. Yoxsa sən
Yoğun dəmirlər kimi gürz zərbəsi yeyərsən.



Qarınqulu olmaqdan xeyli yaxşıdır, inan,
Saxlayasan ruzunu, yavaş-yavaş dadasan.

Arslan az yediyindən qurdlara başçı oldu,
Hər şeyi udan ancaq acgöz alovdu, oddu.

Gündüz-göz işığımız, gözün şəfəq çeşməsi.
Nədir yeməyi? Günəş - min ulduzdan bircəsi.

O qədər qurşandı ki, sübhün qızıl meyinə,
Gecə yandı, boğuldu, qan vurunca beyninə.

Çox basıb yeyənlərin ağlı, kamalı hanı?
Bilmir ki, reyhan könlü olur qəmlər qalxanı.

Əqlin - canındır sənin, bədəni-cismi sənsən,
Canın - bir xəzinədir, sehri, tilsimi sənsən.

Aça bilərsənmi de, sən xəzinə köksünü,
Qırmasan tilsimini, kəşf etməsən özünü?

Dünya daim sındırıb ona güvənənləri,
Bu cür güvəncsiz ilə yoldaşlığın nə xeyri?

Qəm yemə, sən çağların aləmə qəm yayanda,
Vecinə almayacaq dünya, sən olmayanda.

Zəncidən soruşdular: - Axı neçin gülürsən?
Üzün qara... əslində ağlayasan gərək sən.

Dedi: - Yaxşı deyilmi örtürəmsə, ay bala,
Üzümün qarasını dişimin ağlığıyla?

Heyrətlənmə, qaranın gülüş görsən üzündə,
Qara bulud saxlamır ildırımı özündə.

Əgər bənd olmamısan bu zindana, əl-qol aç,
İldırım ol, dünyaya qızıl qəhqəhələr saç!

Tutuquşu güləndə çatladı qəndin bağrı,
Kəkliyinsə ağzını yumdu qaqqıltıları.

Ağlamaq daha xoşdur, yersiz gülməkdən, inan,
Yersiz gülsən, gülüşün zəncirini qırarsan.

İldırım kimi gülmək, sonra dərddən ağlamaq
Ani bir qığılcıma döndərir ömrü ancaq.

Şadlanmadan şam kimi yanmaq nə, gülmək nədir'
Bu gülüşə yaraşan əslində təziyədir.

Saqın! Sən elə gül ki, ağarmasın dişlərin,
Dişinlə, dodağınla sıxılsın gülüşlərin.

Çox ağlamaq aparar gözlərin işığını,
Çox güləndə itirər sevinc yaraşığını.

Hər yaxşını, yamanı, hər köhnəni, təzəni
Elə qiymətləndir ki, itirmə əndazəni.

Qalx, bu cahan mülkündə qəm də çok, səfa da süı
Hər ikisi birlikdə - qoşa qanadlı ömür.

Hər sevinən ürəkdə yanğılı bir qəm də var,
Hər gündüzün gövhəri gecə bətnindən doğar.

Hanı elə bir kəs ki, dəhr onu aldatmasın,
Dirilik suyu içsin, ölüm meyi dadmasın?

Səhrada hər karvanın, köçün səfər zəngi var,
Hər şəkər süfrəsinə gəlib milçəklər qonar.

Ağbirçək bir dayədir sənə süd verən rüzgar,
Ona etibar elə yaxşı-yaman nəyin var.

Dünya sirkə verirsə, bal bilərək nuş elə,
Sus, anlamaz! O, daim sənə yaxşılıq dilər.



Bu yolda səbat edən evə salamat gedər,
Xızra Musadır yalnız bu çöllərdə həmsəfər.

Böyüklərin nazını daim çəkəsən gərək,
Ta ki sənə də çatsın böyüklük adlı çələng.

Yaman gündə yaxşı dost axtarar, tapar səni,
İlişsən, tora düşsən, tordan qurtarar səni.

## MÜRŞÜD İLƏ MÜRİDİN HEKAYƏTİ

Pirlər məmləkətində kamil pirlərdən biri
Yola çıxdı, yanında minlərcə müridləri.

"Yel də, yol da veribdir ulu Tanrımız" deyə,
Mürşid müridlərinə bir yel etdi hədiyyə.

Şeyxə bütün müridlər bərk etiraz etdilər,
Qaldı yalnız bir nəfər, baş götürüb getdilər.

Sual verdi pir ona təəccüblə, maraqla:
- Hamı getdi, sən qaldın... nədir məqsədin, bala?

Mürid cavab verdi ki: - Ey yeri qəlbim olan!
Ayağının tozudur başımın tacı, inan.

Yellə gəlmişəm məgər, burdan yellə gedəm mən?
Hansı od, hansı tufan qoparar məni səndən?

Rüzgar kimi gələnlər rüzgar kimi gedərlər
Dözüm, səbat göstərər hümmət gözləyən ərlər.

Toz yüngül olduğundan tez qonar, tez də uçar,
Daim yer dəyişənlər bir yerdə tutmaz qərar.

Vüqarlı, uca dağlar yavaş-yavaş doğulur,
Səbirli, sabitdi ki, əzəmətli dağ olur.

Pərdə yırtmaq zamanın əzəli vərdişidir,
Ağır yük daşımaqsa kişilərin işidir.

Sən ki eşşək deyilsən, əl çək bədən yükündən
Zahidlik yükü daşı, xam deyilsən, əgər sən.

Sənin zahidlik xəttin əyilməsə, düz olsa,
Yas nədir bilməyəcək, hamı batsa da yasa.

Zahidliyin göz diksə zərli şah xələtinə,
Bənzəyər Süleymanla zənbil hekayətinə.

Dərunі zahidliyin qəbası altında şam
Hidayət nuru saçar, qızıl saçar hər axşam.

Xoşdur, zahid görünsə hətta meyxanələrdə,
Xəzinələr saxlanır çünki viranələrdə.

Zər yelənli bayrağın altında olduğundan,
Nizami zahidliyi səfa gətirir müdam.

### ON SƏKKİZİNCİ SÖHBƏT

## İKİÜZLÜLƏRDƏN ƏLHƏZƏR

Daim özünə bənzər saxta sikkələr kəsən,
Qəlbi kimi boş qəlib yapanları tanı sən.

Gendən bax, üzdən tanı, onların içi zülmət,
Sirr vermə, barmağına dolar səni kəmfürsət.

Qarşında işıq kimi parlaq görünər onlar.
Arxanca kölgə kimi oğrun sürünər onlar.

Üzdəki şam kimi düz, içi ud kimi düyün,
Düzlüyün arxasında əyrilikdir gördüyün.



Səndən həzər vurarlar nöqsanını görənlər,
Yaxşını tez unudub, yamanını görənlər.

Öpüb qucarlar səni, sözdə məhəbbətləri,
Dərinlərdə qıvrılar kinləri, nifrətləri.

Nitqləri alovlu, ciyərləri buz kimi,
Ürəklər çoxdan ölmüş, özləri toppuz kimi.

Vurma can məhənginə, zay olduğu bilinər,
Ayaq basma o yerə, əsrik deyilsən əgər.

Xəzinə gizlədiblər dağda, bu sirri açma,
Rüsvay edərlər səni, yanlarında danışma.

Küy basarlar: guya sən can-ciyərsən onlara,
Yalmanıb, yaltaqlanıb səndən yol umanlara.

Sülh edərlər səninlə, zay etməkçün sübhünü,
Allah vursun onların ülfətini, sülhünü.

Nəfs, mənfəət güdən hər ünsiyyət, hər tədbir
Düşmənliklə mayalı dostluğun kəfənidir.

Gəlir güdən dostluğun məgər səliqəsi var?
Xayr! Düşmənlik ilə gizli əlaqəsi var.

Dost sənin zəhərini qənd sanar, şəkər bilər,
Eybini də az qala ləyaqət, hünər bilər.

Dost rahatlıq, səadət verən məhrəmdir sənə,
Əgər belə deyilsə, uyma, dərd, qəmdir sənə.

Həddini aşan sevgi bənzər atəşə, oda,
Pişik istədiyindən yeyər balasını da.

Dost kimdir? Dost sirrini saxlayan bir vəfadar,
Məgər dostmu yel kimi hər pərdəni açanlar?!

Onların fikri-zikri səni yolmaq, şaşırmaq,
Qazancını, ruzunu bir əfsunla aşırmaq.

Üzdə aşiqin kimi mehriban görünərlər,
Dar gündə atıb qaçar, sanki toza dönərlər.

Qılıq göstərən dostu inkar edirsə qəlbin,
Dost deyil, düşməndir o, buna əmin ol, əmin.

Bədən hardan bilsin ki, kimdir əsil sevgili?
Vəfalı dostu yalnız qəlb tanıyır, can bilir.

Sənin bircə qəlbin var, qəlbində yüz kədərin,
Bir gülün var, böyründə min bir tikan neştəri.

Cahan mülkü minlərcə, fəqət Firidun bircə,
İncə rayihə növ-növ, fəqət beynin kiçikcə.

Aləmdə hər varlığın bir incə pərdəsi var,
Sənin də min sirrini bircə ürəyin saxlar.

Sənin öz ürəyinin qıfılı yoxsa əgər,
Məgər sənin sirrini qıfıllarmı özgələr?

Qəlbi tünük deyilsən, onda bəs nə üçün sən
Sirrini Günəş kimi ərzə bəyan edirsən?

İncə könlün sirrini faş etsə, yanma əbəs,
Tünük şüşələr meyi çox da saxlaya bilməz.

Nəfəsi nəfəsindən ən yaxın dost istəsən,
Onu kənarda gəzmə, öz qəlbindən istə sən.

Bir halda ki, tutmusan ön cəbhədə yerini,
Onda yüz dost içindən seçməlisən birini.

Dostunun dost zatını sınaqdan keçirmədən,
Gizli gövhərlərini qarşısına tökmə sən.



## SİRSAXLAYAN İLƏ CƏMŞİDİN DASTANI

Cəmşidin çox güvənli, yaxın həmdəmi vardı,
Gündən nur alan Aytək şahdan işıq alardı.

Oğlan şaha mehriban, şah oğlanın məftunu,
Bütün saray əhlindən üstün tuturdu onu.

Öz xəlvət işlərini ona açardı bircə,
Etibarda hamıdan sağlam olan o gəncə.

Şaha çox yaxındısa, bir gün o dözməyərək,
Uzaqlaşmaq istədi yayından çıxan oxtək.

Dəliqanlı cavanın könlündə sirr qatbaqat,
Bunları heç bir kəsə aça bilmirdi, heyhat.

Gəldi, bir gün nə gördü qonşu, ağbirçək qarı:
Sönən lalə yanaqlar onunkundan da sarı.

Dedi: - Ey sərvim, sənə əl atdı hansı xəzan?
Sən ki, şah irmağından su içmiş bir fidansan.

Sənin ki qismətindir sarayda zövqü səfa,
Hardandır bu sıxıntı, bu solğunluq, əcaba!

Qocaların kədəri yaraşarmı cavana?
Yanağının laləsi neçin dönüb reyhana?

Sənsən cahan şahının gözdə olan gözdəsi,
Gərək sənin üz-gözün şah təki şölə versin.

Şahı görməklə gülər, şadlıq edər adamlar,
Şaha məhrəm olanlar hamıdan şad, bəxtiyar.

Dəliqanlı söylədi: - Xəbərin yox, ay nənə,
Nələr yatır sinəmdə - sirlə dolu xəzinə.

Od tutdum, külə döndüm, səbrimin ucbatından!
Səbrim saraltdı məni, səbrim yandırdı, inan!

Cəlalıtək böyükdür şahın könül aləmi,
Əmanət vermiş mənə sirrini gövhər kimi.

Saxladığım sirlərdən alışıb yanır sinəm,
Heç birini heç kəsə açıb deyə bilmərəm.

Sirri açıb deməsəm, partlayacaq ürəyim,
Dilimi dişlərimlə doğrayımmı, neyləyim?

Bircə gülüşümü də sizdən qızırqanıram,
Sirin quşu ağzımdan uçub gedər, sanıram.

Xilas ola bilməsəm bu sirlər caynağından,
Qəlbim qana dönəcək, ömrüm zindana, inan!

Hiss edirəm, dözməsəm, atsam sirrin daşını,
Tale elə həmin gün yeyəcəkdir başımı.

- Saqın! Heç kəsə açma, - dedi qarı, bunları,
Öz sirrinin sirdaşı tək özünsən, bil barı.

Heç bir kəsə güvənmə, açıq deyim qoy sənə:
Hətta öz kölgəni də yaxın bilmə özünə.

Rəvamı qılınc ilə al qırmızı olasan?
Ondansa qızıl kimi kaş saralıb solasan.

Eşitmişəm, hər gecə dilə çox yalvarır baş:
- Saqın! Açma! Amandır, açma sirrimi, qardaş!

Baş saxlamaq istəsən, boşboğazlıq eləmə,
Sirrini gündüz kimi tökmə bütün aləmə.



Dilini saxlayanlar nə dolaşır, nə çaşır,
Hürmək yalnız qudurğan köpəklərə yaraşır,

Tez kəsilər uzun dil, unutma bircə an da:
Dil ağızda gözəldir, qılınc isə qınında.

Rahatlığın rəhnidir bu öyüdün mənası:
Dilin ucundan gəlir canın-başın bəlası.

İstəsən ah çəkməsin qanlı ləyəndə başın,
Dilini dişinlə kəs, sirri açmaqdan daşın!

Dilin şəkər də saçsa, dodaqlarını açma,
Bil ki, divar dalında dinləyən var, danışma!

Çölə bənövşə kimi yaymasan rayihəni,
Kimsə başını kəsməz, yerdən qoparmaz səni.

Eyibləri görürkən sən gərək lal olasan
Bir az ağır eşitmək, susmaq vaxtıdır, inan!

Yazarkən, qələmini qıs, cilovla bir qədər,
Bil ki, hər kəlmən üçün hesab istəyəcəklər.

Axar su kimi pak ol, nə eşitsən, yuyub keç,
Gördüyünü aynatək göstərsən də, dinmə heç.

Uzaqgörən kişilər heç vaxt həddini aşmaz,
Gecə gördüklərini gündüz kimsəyə açmaz.

Bu ulduzlu qübbənin heyranıyam, düzü, mən:
Xəbərçilik edibmi heç gündüzə gecədən?

Sən də bir az pərdəli qalmaq istəsən əgər,
Gecə gördüklərini açıb demə gündüzlər.

Gecənin ürəyində neçə xəzinələr var,
Min-min işıqlı dürrü qaranlığında saxlar.

İldırım kimi odlu ürəklə yaşayanlar
Gördüyünün yanından saymazyana sovuşar.

Başını doqquz göydən dışarı çıxaranlar
Dəruni aləminin meydanında at çapar.

Yaxınsa da dillə göz, uzaq biləsən gərək,
Necə ki, saç uzaqdır bədəndən çərək-çərək.

Eşqin gizli qalması bir möcüzə sayılır,
Elə ki üzə çıxdı, xərabatda bayılır.

Sirr düyünü vurarkən din ipliyi seçdilər,
Həllacın da ipini bu pambıqdan eşdilər.

Nə qədər ki bağlıdır qönçə rahat, salamat,
Dönür qan çanağına açılan kimi, heyhat.

Susmaq səadətinə ağız yetərsə əgər,
Başından keçənləri qəlbin dililə söylər.

Könlünün kasasından yesən, xoşdu bu nemət,
Dilinə dəyən kimi atəş kəsilir fəqət.

Ən gözəl natiqliyin adı sükutdur bu gün,
Sükut ilə yürümək - sənin zəfər yürüşün.

İşıq dolu könüllər sükut etməyi xoşlar,
Ağız açmaz, bu haqqı özgəsinə bağışlar.

Könüllər dünyasında könül lüğəti gizli,
Bu lüğəti şərh edər yalnız ürəyin dili.

Ey Nizami, layiqdir qənaət mülkü sənə,
Çünki dilin xəsisdir, qəlbin - sonsuz xəzinə.





## AXİRƏTİ QARŞILAMAQ HAQQINDA

Bizim xəlvət məclisi, görün, nə yaraşıqlı,
On dörd günlük Ay kimi bədirlənmiş, işıqlı.

Qənd, şəkərmi paylayır şamlar gümüş xonçada?
Əlvan təxtlər döşəli, xoş qokular saçmada.

Yağı kəsilmiş sənə əzəl gündən zəmanə
Dostluğundan əl üz ki, əsil düşməndir sənə.

Gör, qanlı dişlərinə kimləri çəkib rüzgar,
Batıb, onu görüncə dilləri tutulanlar.

Sənə- dindən əl çəkib dünya tələb edənə
Dinin keşikçiləri, bir görün nə deyir, nə:

"Qayıt, ədalətsizin, nakəsin qapısından
Bu sirlər sarayının ətrafında gəz, dolan!

Dünya-bu odlu səhra səni coşdurdu...ancaq
Burda gizlətdiklərin orda aşkarlanacaq.

İtləri buz nəfəsli, atəş gözlü gördülər -
İsti kürk geyindilər bu dünyabaz tülkülər.

Kükürd cəhənnəmidir bu zülmət çöl əzəldən,
Xoşbəxt o kimsədir ki, tez ayrıla bu çöldən.

Ağzının suyu axır... nəfsin cəhd elə sönsün,
At kükürd ocağına, od tutsun, külə dönsün.

Qaytar bu ərşdən gələn Tanrı əmanətini,
Qaytar qara torpağa öz torpaq cəsədini.

Qaytar çərxin borcunu, bu torpağı tərk elə,
Torpaq hər nə veribsə, bir gün alır... dərk elə.

Ədəblə, tədbir ilə dağı çiynindən at ki,
Ruhun, can sərbəstliyin qanad çalsın quş təki.

"Mənəm! Mənəm!" deyənlər, gör, bu yolda nə qədər,
Bizim yollarımızı kəsmək istəyəcəklər.

Əqrəbin düşmənliyi əjdahadan beşbetər,
Bu aşkar hücum çəkər, əsa xəlvət zəhərlər.

Görünürsə zor-bəla cılız düşmənə bənzər,
Görməməzlik, qafillik hər təhlükədən betər.

Cılız düşmənə qarşı azaltma qeyzini sən,
Düşməni kiçik bilsən sən özün kiçilərsən.

Gör, o gücsüz qarışqa qeyrətlidir nə qədər,
Aslan balalarının gözlərinə mil çəkər.

Gövhərini bərk qoru, azmı bu çöldə quldur?
Təsbeh çevir, dua qıl, qulyabani nə çoxdur.

Könül yolunu kəsən soyğunçular, oğrular
Tələsini torunu mənzilə yaxın qurar.

Qorxuram ki, son gecə basqın etsinlər sənə,
Atsınlar imanını çevrənin kənarınə.

Qul karvanı, qafilə gəlib yetdi mənzilə,
Həyat dolu bir gəmi yaxınlaşdı sahilə.

Soyğunçular görməsə, çalış, gizlən yuxutək,
Axar sular kimi ax, qovmursa quldur köpək.

Elə ki qədəm basdın bu müqəddəs məbədə,
Hər nə almısan, qaytar saxlama bir zərrə də.



Özün gəlməsən bura, bəla gələr başına.
Fırladarlar şələni tapınağın dışına.

Dünyadan köçüb getmək sayılmasaydı hünər,
Dolanardı gecənin, gündüzün çərxi məgər?

Nə qədər ki keçməyib yaxan divlər çənginə,
Tut könül ətəyindən, sığın imana, dinə.

Şəriət - xoş bir nəsim, canını tapşır ona,
Aləmə bənd olma ki, üst-başına toz qona.

Şəriət gülşənində qızılgülsən, nanəsən,
Təbiətə tapınma, şəriətə tapın sən.

Hər kəsin qapısında sülənmə səba kimi,
Hər çör-çöpün dalınca yürümə hava kimi.

Gördüklərin kölgədir, sənsə nur ol, çıraq ol!
Hər şey sənin olsa da, sən hər şeydən uzaq ol!

Fələk səni dörd yandan çevrələmiş bir çənbər,
Görək ondan qurtula biləcəksən birtəhər?

Fələk bir gün söyləsə nələr keçib başından,
Xəbər versə yaşından, sonsuz çağlayışından...

Onun dərinliyində itib batar mağaran,
O sonsuzluq yanında bir heç olarsan, inan.

Yüz-yüz nitqin, söhbətin bir sükutla bitəcək,
Min-min işin, xatirən ilim-ilim itəcək.

Hələ ki nəfəsin var, yaxşı olar ki inan:
Bir eşqin qapısında can qoyasan, nəfəs, can!

Bu hala ki düşmüsən...macal da az... qulaq as,
Eşqin meyindən savay heç nə sənə xoş olmaz.

Hanı, biçə bilibmi göylər elə bir donu,
İki papaqlı oğru çala bilməsin onu?!

Nə iş görsən, inan ki, kin saxlayan bu fələk
Öz kəskin qələmilə alnına həkk edəcək.

Üzr, qaz qapısından, de, hansını açdın sən?
Həmin qapı üzünə açılacaq təzədən.

Gözün şuxluq, istehza pərdəsidirsə əgər,
Sənə eyni pərdədə oyun göstərəcəklər.

Dünyada hər yaxşını, yamanı tanıyanlar
Sənin yaxşını seçər, yamanını yamanlar.

Kim bu yoldan keçirsə, qoyur bir iz, bir nişan,
Pislik edən qansın ki, çıxa bilməz aradan.

Fikirləş, bu dünyada üzüqara, ya ağsan?
Burdan apardığınla orda tanınacaqsan.

Tikanla örtülübsə, gül özü də tikandır
Ancaq əttarın adı daim ətir saçandır.

Saxtakarlıq etmə ki, məhşərdə yanmayasan,
Öz nəfsindən, Tanrından heç vaxt utanmayasan.

Sən bu ciyər dağlayan dövrə nifrətlə hayqır,
Bu qan dolu şüşəni çırpıb daşlara, sındır!

Bu əlvan oyuncağı qır ki, əngəl olmasın,
Bu hərfə bir qələm çək, heç izi də qalmasın.

Qurşun rəngli qalanı - bu göyləri zəbt elə,
Bu əbləh xüttəxanı yəhərlə, min, dön yelə.

Elə at çap ki, doqquz minbərindən enərək,
Sənə şahlıq xütbəsi oxusun məğrur fələk.



Sənin borcun - vəzifən bayrağı yerə salmaq,
Mənim borcum - bayrağı ucaltmaqla ucalmaq!

Mən ki Adəm oğluyam, qanadlanmaq istərəm,
Mələkdən də üstünəm, fələkdən də üstünəm.

Qamətim kiçiksə də, çox böyükdür qiymətim,
Ulduzlar fövqündədir uçuş xəttim, vüsətim!

Susuzam, dərya kimi fəqət coşub daşaram,
Bayquş deyiləm, ancaq xəzinələr açıram.

Ayağım fələk kimi xəzinə üstündədir,
Fikir, hünər bayrağım fələklər fövqündədir!

## HARUN-ƏR-RƏŞİD İLƏ DƏLLƏYİN DASTANI

Xəlifəlik təxtini alırkən ələ Harun,
Ucalmışdı bayrağı Abbas oğullarının.

Öz yataq otağından çıxdı bir gecə yarı,
Bir az gincəlsin deyə gəldi hamama sarı.

Saçını taraş edən saray bərbəri - usta
Çox dadlı bir xəyala qapılmışdı iş üstə.

Dedi: - Ustadlığımdan agahsan, ey Xəlifə!
Qoy sənə damad olum, xoşbəxt olum bir dəfə.

Toy-düyün xəbərini çəkək bu aləmə car,
Qızını bu quluna nişanlasan, nə olar?!

Bu təklifdən xəlifə öfkələndi bir qədər,
Cilovladı qeyzini, susub, dözdü birtəhər.

Dedi: "Bəlkə çaşdırıb onu zəhmim, heybətim,
Bəlkə vurub başına hamamın hərarəti.

Ağlını itirib ki, sayıqlayır gəvəzə,
Yoxsa dayana bilməz o, mənimlə göz-gözə.

Ertəsi gün bərbəri yenə bir az əylədi,
O qəlp pul üstündəki damğa gördü eynidi.

Bir də, bir də xəlifə o bərbəri sınadı,
Gördü bədbəxt ustanın qırılmayıb inadı.

- Vaxtdır, - dedi, - Bu işi ayırd eləmək gərək,
Vəzirilə qonuşdu: - Bir məsləhət ver görək.

Adicə bir dəlləyin göz qoyun tələşına,
Nə cür alın yazısı yazmaq istər başıma.

Mənə damad olmağı heç ona yaraşarmı?
Görün, nə deyir mənə, üzündə həya varmı?

Yəqin bəla gətirir başıma qəza-qədər,
Gövhərimə atılan daş deyilmi bu məgər?

Öz ülgücü əlində, söz ülgücü ağzında,
Başım qalıb bu iki qılıncın arasında.

Vəzir dedi: - Başqadır bəlkə səbəb, Şəhriyar!
Ayağının altında bəlkə bir xəzinə var.

Bu cahil dəliqanlı yanına gəldiyi dəm,
Əmr et, yuxarı keçsin bir az durduğu yerdən.

Höcətləşsə, dirəşsə, əmr et, boynu vurulsun,
Qazaq durduğu yeri, görək nədir bu əfsun?

Usta bərbər dinlədi xəlifənin sözünü,
Cəld yerini dəyişdi, yığışdırıb özünü.

Heyhat, durduğu yerdən ayrılcaq rəngi qaçdı,
Gur, ötkəm səsi batdı, dili, nitqi dolaşdı.



Sözündə, üz-gözündə tamam başqa bir əhval,
Ədəb, tərbiyə nuru yerinə gəldi dərhal.

Xəzinəymiş, sən demə, ayaq basdığı torpaq,
Şah aynasında görmüş özünü, qismətə bax.

Xəzinədən bir addım çəkilən kimi geri,
Yenə bərbər külbəsi qarşılayır bərbəri.

Ayaq basdığı yeri bellə qazıb çapdılar,
Doğrudan da, ordaca bir xəzinə tapdılar.

Bəli, kim ki dünyada xəzinə üstündədir,
Ağzından gövhər saçır, yerə, göyə hökm edir.

Nizaminin də tilsim qıran söz xəzinəsi
Bir alovlu qəlbidir, bir də büllur sinəsi.

*İYİRMİNCİ SÖHBƏT*

## ƏSRDAŞLARIN YARAMAZLIĞINA DAİR

Biz ki əl çəkənlərik mənəmlik qovğasından,
Bəs nəçin yapışmışıq dünyanın yaxasından?

Bağlandığın bu dünya yıxdı, xar etdi səni,
Uddu bu qara torpaq gör nə qədər pöhrəni.

Ömür karvanı getdi, soruş indi biz nəyik?
Qafilənin ardınca sürünənlər kimiyik.

Çiynimizdə cüt mələk dərdimizi çəkmədə,
Bizimlə ülfətindən şeytan belə qüssədə.

Dünya işində oduq, xidmət işindəsə buz,
Gah külxan kimi isti, gah da kül kimi nursuz.

Hanı göz aydınlığı, hanı könül işığı?
Şaşırmış insanların olurmu rahatlığı?

Gecədən qaranlıqmış qiyamətin səhəri,
Sübh namaz qılanların hanı bayraq əlləri?

Dodaqlarda qırıldı qayğısız, şən gülüşlər,
Canda nə qüvvə qaldı, nə arzudan bir əsər.

Uç, qanadlan, uzaqlaş sən bu qanlı tələdən,
Çarə yalnız ayıqlıq, vermə fürsəti əldən.

Qurd tülküdən dişlidir, tülkü qurddan bic, zirək,
Sivişib xilas olur daim kələk gələrək.

Cəhd et, verdiyin sözü yetirəsən yerinə,
Çalışma nəfsin üçün, çalış Tanrı xeyrinə.

Külə döndər qəlbini, vəfa yalnız ondadır,
İnsaf gilindən doğan reyhanımız ondadır.

Ürəyin qazandığı hər qələbə, hər zəfər
Sədaqətdən eşilmiş ən möhkəm yaya bənzər.

Görüb tərifləməsən insanda bir hünəri,
Bəlkə əlindən düşüb itər hünər gövhəri.

İnsanda bir qüdrəti görüb vəsf etsən əgər,
Onun qüdrət qaynağı birə beş qüvvətlənər.

Sərraf gözlü bir insan görərsə hünərini,
Əzizləyər, gözünün üstündə saxlar səni.

Yalnız hünər gücünə paka çıxıb bu torpaq,
Heyhat, bu gün dünyada yox hünərdən səs-soraq.

Hünərli, baş qaldırıb, açarsa geniş meydan,
Hünərsiz çalışar ki, bassın onun başından.



Zaman cana doydurub, hünərlini məhv edər,
O qədər dağ basar ki, hünərdən bezər hünər.

Riyazət hünərini bir tamaşa zənn elər
Ərənlər barəsində qara fikrə düşənlər.

Səxavətli mərdlərə israfçı deyir onlar. -
Sədaqəti, vəfanı müftə qulluq sayanlar.

Səxavət onlar üçün yalnız rişxənd qaynağı.
Müdrik söz, qüdrətli söz - qurumuş sel yatağı.

Buz üstünə çəkərlər vəfa nəqşini yayda,
Qaralamaq istərlər Günəşi də, Ayı da.

Kim ki, xoş nəfəsilə rifah, dinclik yaradır,
Onların nəzərində səlahətdir, yaradır.

Şirin söz, dadlı şərbət dadsalar bir dodaqdan,
Şərbətçinin dişini qırmaq istərlər əlan.

Bal göbəkli əncirtək sözlər verən alimi
Görüb üz turşudarlar sirkə içibmiş kimi.

Fəziləti, hünəri görən bir göz qalmadı,
Qüsur, eyb axtaranlar hey artdı, azalmadı.

Dənizdə inci tək-tək, çör-çöp qədərsizdi, bil,
İnsan övladı üçün bir hünər də az deyil.

Dəclə korun gözündə bircə damlaya bənzər,
Çəyirtkənin qıçını qarışqa qanad bilər.

Ar alan, namus satan dəllallar, qəlbi korlar,
Hünərli, ya hünərsiz hamını qısqanarlar.

Bunlar çamura batmış cəsəddən daha murdar,
Ürəyi parçalayan dərddilər, zəqqumdular.

Tüstü olub boğarlar bircə zəka görsələr,
Yel olub söndürərlər, bir çıraq yansa əgər.

Halına bax dünyanın, gör kimlərdi rəhbəri?
Kimlər məngirləməkdə ən gözəl mövqeləri?!

Evdə öz namusunu qoruya bilməyənlər
Öz əhditək məni də bəlkə sındırmaq istər?!

Fəzilətdə Ay kimi nurluyam, bilir aləm,
Bu gün incəlsəm belə, sabah bədrlənərəm.

Onlar bəxş edib mənə nə qədər dərdi, qəmi,
Barı bircə çələng də ala biləcəklərmi?

Mənim könül bağımdan dərdiyim hər şeyimi
Onlar inkar edirlər əski Nuh qövmü kimi.

Sən ey Xızırın bayrağı, ucal, bir qəza törət,
Yağdır, xoş nəfəsli Nuh, məlunlara min lənət!

Qəlbimdə onlar kimi yamanlıq sevdası yox,
Yad eləsəm onları unutsun məni məxluq.

Onların yamanlığı kinlə nərildəyən od,
Mənim cavabım isə - qılınc kimi bir sükut.

İncisi tək olanda hoqqa hay-haray salar,
Çox olanda dincələr, səsi-küyü azalar.

Lökküldəyər qoca küp, azsa şərabı əgər,
Meylə dolu olanda durular, sakitləşər.

Biliklə dolmusansa, sükut edən bir dağ ol,
Təpədən dırnağacan diqqət kəsil, qulaq ol!



## BÜLBÜL İLƏ QIZILQUŞUN DASTANI

Bağlar, çöllər, çəmənlər süs verəndə donuna,
Gəldi nəğməkar bülbül qızılquşun yanına.

Dedi: - Bütün quşlardan yaraşıqlı, qəşəngsən,
Bəs nə üçün susursan hamının yanında sən?

Bu dünyaya gələli, səsinlə, cəhcəhinlə
Heç kəsə bircə nəğmə bəxş etməmisən hələ.

Axı sən əyləşirsən sultanların əlində,
Bir kəkliyin döşüdür gündəlik yeməyin də.

Mənsə ruh aləmindən xəbər verirəm müdam,
Cibimdən göz işıqlı incilər çıxardıram.

Bəs nə üçün yediyim otdur, ələfdir mənim?
Tikanların dibidir daim yuvam, məskənim?

Cavab verdi qızılquş: - Məni yaxşı dinlə sən,
Sükutumu gör mənim, sən də susmağı öyrən.

Mən də bir az bilirəm bu dünyanın sirrini,
Yüz mətləbi qansam da, deməm heç birini.

Get, zavallı! Vurğunsan alçaq zəmanəyə sən,
Bir iş görmədən yüz yol gəvəzəlik edirsən.

Mənsə mənə əhliyəm, feyzim Tanrıma bəlli,
Həm kəklik döşü verir, həm sultan əli, bəli!

Sən boş danışdığından soxulcandır yemin də,
Dilin tikanlıdır ki, tikanlıqdır yerin də.

Xütbə Firidun şahın ünvanına oxunur,
Kimdi məhəl qoyan ki, davul salır vurhavur?

Xoruz banlar, sanar ki, odur açan səhəri,
Onun bu əhvalına yalnız gülər dan yeri.

Fələk görür işini daim dinməz-söyləməz,
Çəmbərindən başını heç kəs qurtara bilməz.

Şeirinin xoş səsini çox da qaldırma, oğlan,
Nizamitək şəhərə qapanıb qalmayasan.

## KİTABIN SON SÖZÜ

Tanrı yar olsun sənə, katib, sabahın xeyir!
Son nöqtəni qoydum mən. İndi növbə sənindir.

Naxış vur ki, bu xəlçəm səmalarda yarışsın,
Buqələmun qələmim rənglər sərgisi açsın.

Hünər almaslarını can yanğımla əritdim,
Bir qələm bıçağıtək hökmdara bəxş etdim.

Qayadan, daşdan keçdi qılıncımın dəmiri,
Heyif, dəmir kürəmin bir azca dardı yeri.

Mənə tale dövləti yar olsaydı, bəlkə də
Çıxmaz idi əlimdən hədiyyəm bu şəkildə.

Ürəyimə damıb ki, günahkaram bir qədər,
Əlimdə qaralanmış, yaralanmış vərəqlər.

Canımda bəslədiyim qızlar ki, gəlin gedir,
Bir neçə al sübhümün ilham yetirməsidir.

Bu əmlik kababından dad bir azca, ey sultan
Neçin o zəqqum ilə iştahanı pozasan?



Özün oxu diqqətlə, ilkin, hamıdan öncə,
Vur başa, cəlb edirsə səni idrak, düşüncə.

Burda ədəbdən kənar bircə söz belə tapsan,
Poz, əlinlə rədd elə, olsun qeyzinə qurban.

Dinə, elmə biganə söz tapılsa, qəzəblə
Qələm çək üzərindən, o söz mən olsam belə.

Canımı verməsəydim bu tanrısal əsərə,
Sovqat göndərərdimmi mən şəhərdən şəhərə?!

Ayaqlarım bu yurda bənd olsa da... nə zərər?
Əlimdə, ovcumdadır bəlkə bütün ölkələr.

Dövran mənə söylədi: - Sən ki torpaq deyilsən,
Yetər, sayma yerində, ölüvay olma, tərpən!

İlhamımın pərisi əvəzsiz, ulu xilqət,
Uca boyuna görə kaftanı yoxdur fəqət.

Əynindəki yarımdən dizinə çatır ancaq.
Dizi üstə əyləşir buna görə... utancaq.

Uca boyun geyimi boya bərabər gərək,
Ta qalxarkən ayağa, utanmaya o mələk.

Heyhat, cavan, ya qoca, ha dalsınlar seyrinə,
Quru şöhrətdən savay nə düşəcəkdir mənə?

Bizim söz bazarının alış-verişi durğun,
Qızğın hay-harayı var, qızılı yoxdur onun.

Gəncə mənim yaxamdan möhkəm yapışıb hələ,
İraq xəzinələri yoxsa keçərdi ələ.

Bir səs gəldi cahandan: - Ey qul, yetər əyləncə!
Axı kimdi Nizami, axı, hardadı Gəncə?

Tanrıma min şükür ki, yazım vaxtında bitdi,
Ömrüm sona yetməmiş bu kitab sona yetdi.

Başdan ayağa qədər bəzəmək üçün onu,
İncilərə qərq etdi Nizami ağ donunu.

Könül, bu pak incini ona çatdır, ona sunn,
Cövhəri gövhər saçan şaha ərmağan olsun!



# «YEDDİ GÖZƏL»

## BAŞLANĞIC

***Mərhəmətli, şəfqətli Tanrının adı ilə***

Sənin özündəndir varlığın, ey pir!
Məgər səndən əvvəl varlıq bilinir?

Hər bir başlanğıcın başlanğıcısan,
Hər sonun da sonu, ey ulu Yəzdan!

Sən ey maviliyi ərşə qaldıran,
Ulduzlar yandıran, min-min bürc quran!

Varlığı ixtira, icad edərək,
Səxa mədənləri yaradan, ey Tək!

Sənsən bu aləmi sahmana salan,
Bütün kainata can vermisən, can!

Varsan. Misilsizsən. Kim sənə oxşar?
Sənə şəkk edərmi ağlı olanlar?

Görən gözlər üçün sən açıq-aydın,
Hüsnün, surətindir yaratdıqların.

Həyata bağlıdır hər bir mövcudat,
Sənsən hər canlıya verən qol-qanad.

Ey sonsuz aləmi yoxdan var edən,
Acları doyuran, dən nisar edən!

Ey bütün adların ilkin ad-sanı,
Başlanğıcın başı, bəs sonun hanı?

Saylar sırasında ən birincisən,
Yekun vurarkən də sən birincisən.

Hər bir düzəlişi sənsən düzəldən,
Yanına qayıdar puç olub gedən.

Xəyal səni arar, qayıdar naçar.
Qonmamış qapına nə toz, nə də xar.

Hamı doğulsa da, doğulmadın sən,
Sən Tanrı... qalanlar yel kimi əsən.

Bircə işarənlə min yol açırsan,
Dolaşıq rizlərə şölə saçırsan.

O kimdir əmrindən kənarda qalan,
Qıfılı üstündən qıfıl vurulan?

Sübhə bəxş elədin bir Dan ulduzu,
Gündüzə qızıl quş, quşa da ruzu.

Bax ağlı-qaralı bir cüt saraya,
Onları sən verdin günəşə, aya.

Açdığın yoldadır gündüzlə gecə,
Qulağı həlqəli qulun ikicə...

Hökmünlə görürlər yaxşı, pis işi,
Sənsiz mümkünmüdür çərxin gərdişi?

Çıraqdan parlaqdır hər beyin məğzi,
Sənsən zəka verib nurladan bizi.

Əqlimiz nə qədər çevik olsa da,
Qarşında mat qalar, dinməz məbada.

Ağıl necə getsin sənin yolunu?
Səni dərk etməyə çağırma onu.

Can ki, bir cövhərdir bədənimizdə,
Cövhər var olsa da kim görüb bizdə?



Sənin nə yerin var, nə də cövhərsən,
Səni necə tapaq? Mat qalmışam mən.

Bizə sən göstərdin yolu... Bəs sənə?
Hər yerdə olsan da, sən yoxsan yenə.

Yeddi qat səmanın zərrəsiyik biz,
Yeddi göyündən də xaricik şəksiz.

Nə xeyri, əqlimiz yol tapdı sənə,
Cürəti varmı ki, baxa üzünə?

Bu aydın gündüzdən gecəyə qədər
Möhtacdı feyzinə bütün xilqətlər.

Sənsən hər əhvala özgə hal verən,
Varmı səndən savay hal dəyişdirən?

Sənsiz ola bilməz nə yaxşı, nə pis,
Zatı bəxş eləyən özünsən şəksiz.

Sənsən daş içindən çıxaran, bəli,
Hər ləlin odunu, od kimi ləli.

Aləm və aləmi dolaşan göylər
Qapında həmişə itələşərlər.

Hər kəs bir naxışdır pərdəndə sənin,
Hər şeysən. Heç nəyi yoxdur kimsənin.

Yaxşı, yaman işə qabilmi ülkər?
Aciz deyilmidir ülkər, ya qəmər?

Ulduzlar insana verirmi murad?
Göylərə qalxardı onda Keyqubad.

Tapılmamış bircə münəccim hələ,
Sənin xəzinəni götürsün ələ.

Səxavət saçdığın kimdir? Bir nadan -
Seçməz Beş ulduzu "Yeddi qardaş"dan.

Öyrəndim hər fənni, hər sirri bir-bir,
Bilirəm, nücumda hər qırpım nədir?

Səni tapan gündən dəyişdi əhval.
Bütün kitabları qapadım dərhal.

Bütün surətləri tanrıda gördüm,
Özünsən hər şeyi Yaradan... gördüm.

Harada bir can varsa, sənsən dirəyi,
Sənin təndirindən çıxır çörəyi.

Yol vermə, qapında sallansın başım,
Məndən üzün dönsə, kimə əl açım?

Ey hər bir xilqətə ruzu verən haqq,
Mənə də çörəyi özün ver ancaq.

Gənclik çağlarımda sənin qapından
Özgə bir qapıya getdimmi bir an?

Mən pay istəmirdim, sən özün verdin,
Çörəyi evimə özün göndərdin.

Sənin dərgahında qocalmışam mən,
Bu qorxulu çağda yapış əlimdən.

Nə deyim, dediyim hər bir söz xəta,
Sən mənə yar olsan, gülər dünya da.

Cahanın çəngindən mən sərkəştəni
Tək sən qurtararsan. Al, qurtar məni!

Mən kimə yalvarım? Sənsən əl tutan,
Qəbul et, səndədir hər qəbul, imkan,



Min örtük gizləyib bəlkə min sirri,
Səndən gizli deyil ancaq heç biri.

Sənə çoxdan aşkar bir muradım var,
Ona qol-qanad ver, ey pərvərdigar!

Əhdimi yerinə yetirməsən də,
Qərəzsiz yanacaq nəfəsim təndə.

Səndən diləyirəm hər mətləbimi,
Tək sənə açıram dolu qəlbimi.

Sirrimi el bilsə, alçalaram mən,
Ancaq sənə desəm, ucalaram mən.

Ey qul Nizamini saxlayan yəzdan,
Məni yad qapıya qovma qapından!

Başımı özün tək ucalt, ey Səma,
Qənaət tacı qoy mənim başıma.

Dünya sərgisində mən də var olum,
Lüt bir dərviş ikən tacidar olum.

## PEYĞƏMBƏRƏ TAPINMA

Pərgar çevrəsinin orta nöqtəsi,
Xilqət işlərinin xətmi, son bəhsi.

Çərxin yeddi bağdan şirin nübarı,
Ağlın tacında qaş, söz tacidarı.

O Xacədən savay kimdir, düşün gəl:
Tanrının elçisi Əhmədi - Mürsəl.

Bütün yalvacların şahı, gültacı,
Dini - qılıncıdır, tacı - meracı.

Ümmi sayılsa da aləm onundur,
Ərşə kölgə saldı, gürşə işıq, nur.

Təxtində dörd balış... dinin pak odu,
Beş yol namaz qılıb, beş təbil vurdu!

Özgələr tüfeyli, məqsəd yalnız O,
Tək Məhəmməd dini şanlı, uğurlu.

Adəm palçığının gövhəri, zatı,
Ən safı o idi, qalanlar xıltı.

Son dərə hərlənən göyə də, gerçək,
Xətm xütbəsini o bildirəcək.

Düzlük üstündədir əmri, yasağı,
Yasağı, əmri də qoruyur haqqı.

Saysız xəzinələr sahibi olan
Fəxr edib, qaçmayıb yoxsulluğundan.

Onun kölgəsi də nur idi bəlkə,
Günəş olan yerdə axı nə kölgə?

Tanrının naibi, ərzin pənahı,
Mat qoydu şahmatda hər padişahı.

Başından basırdı kim olsa harın,
Əlindən tuturdu yıxılanların.

Yaxşılar - gözünün qarısı, ağı,
Yaxıb-yandırardı zatı qırığı.

Qəhr qılıncıyla qan tökərdi, qan,
Və məlhəm qoyardı o biri yandan.

Daş ürəkliləri qandallayardı,
Sınıq könüllərə şəfqət yayardı.



Bir vaxt ona qarşı at oynadanlar,
Ədavət kəməri bağlayan canlar,

Neçə ildən sonra, indi, buyur bax:
Onun təbilini çalırlar ancaq.

Ərzi onun üçün, onu ərz üçün
Seçib yaratsa da yaradan bir gün.

"Ma zağə" möhürlü gözləri, ay - hay
Başqa bağ gördümü Tanrıdan savay?

Yeddi min il sonra anadan oldu,
Yeddi yüz min illik cahan onundu.

Ay, ülkər əynində səma paltarı,
Qulağı həlqəli qulluqçuları.

Əsl ilə fərdə ki, dörd dostu vardır,
Onun din evinə möhkəm divardır.

Onun görüş nuru gəlir xilqətdən,
Onun xilqətinə afərin, əhsən!

Yerdən göyə qədər hər cismə candır,
Hər dəm yardım edən, mədəd qılandır!

Bütün bəndələrə odur verən can,
Biz hamımız təxtik, o sa - Süleyman.

Ərzə ətir saçır onun nəfəsi,
Tər-təzə xurmadır bizə töhfəsi.

Quru tikanlıqdan dərir xurmanı,
Xurması tikan tək sancır düşmanı.

Qayçı barmaqları qızıl, ya gümüş -
Ayın almasını ikiyə bölmüş.

Göyün gözündə Ay itdirsəyimi?
Necə kəsdi, atdı bir cərrah kimi.

Gözünə nur gəldi səyyarələrin,
Seçən seçilənə dedi: - Afərin!

Çərxin gərdişi tək hey dönə-dönə
Salam Seçilənə, alqış Seçənə!

## PEYĞƏMBƏRİN MERACI

Sığmadı cahana başındakı tac,
Təxtini göylərə qaldırdı merac.

Alçaqdan ucaya ruhu yüksəldi,
Yedəyində Büraq, Cəbrayıl gəldi.

Dedi: - Qalx belinə, uç, şığı asan -
Yerlərdən göylərə ucalmalısan.

Xilas keşikçisi bu gecə sənsən,
O xüsusi qəsrə keşik çəkənsən.

Sənindir ildırım sürətli Büraq,
Keşik səninkidir... belinə cəld qalx!

Qaravul bəxtini gətirdim sənə,
Büraq tək köhləni yetirdim sənə.

Aysan, kəcavəni birbaş çərxə sür,
Şahsan, ulduzlara kəmənd at, yüyür.

Qopar altı yönü yeddi kökündən,
O doqquz fələyi çarmıxa çək sən.

Semak ulduzundan çap səməndini,
Mələklər başına sal kəməndini.



Hazırda gecəyə ətir saçanlar,
Yaşıl geyimlilər yolda sənə yar.

Bu pərgarın Misir nazəninləri
Səni Yusif bilir nə vaxtdan bəri.

Çap, tamaşa qılsın hüsnünə onlar,
Əlini turuncla bir doğrayanlar.

Ayağın altında bir eyvandı göy,
Kölgənin zülfüylə tazələnsin qoy.

Atın qanad açsın göylərdə gərək,
Mələklər qəsrini eyvanına çək.

Üzün bağlar kimi tazə-tər olsun,
Gecə səyyahları səndən nur alsın.

Gecə sənin gecən, vaxt dua vaxtı,
Nə istəsən dilə, açılıb baxtın.

Ərşin təxtindəcə qur çadırını,
Aç mələk yurdunun xalılarını.

Fərşin sinəsindən atlan da məğrur,
Ərşin gözlərini nur ilə doldur!

Artıq tacidarsan, götür, al tacı,
Hamıdan başa keç, özünsən başçı.

Sən uca başını bir az da ucalt,
Hər iki aləmi bir-birinə qat.

Təmizlə yolunu... Yolun gen, əngin,
Yönəl dərgahına o Əbədinin!

Qədəm haqqı alsın göydən ayağın,
Hər iki aləmdə qalxsın bayrağın!

Aldı Cəbrayıldan bu xoş xəbəri,
Həzrət Məhəmmədin güldü gözləri.

İtirdi huşunu, yandı nəfəsi,
Taxdı qulağına qulluq həlqəsi.

Tanrı kəlamını gətirən elçi,
Tanrı fərmanını dinləyən elçi.

Hər iki əmanət xəznəçisi, bax,
İblis adamlardan, iblisdən uzaq...

Cəbrayıl əmindi, Məhəmməd əmin,
Ağılla silahlı əzəmət əmin.

Biri sahibinə çatdırır sözü,
Biri qulaq asır, alışır üzü.

Qaranlıq gecədə çıraq Məhəmməd,
Murad günəşilə nurlanan qüdrət.

Boyun qaçırmadı enən kəmənddən,
Beləcə taxasan zər həlqəni sən.

Ərəb atı - şimşək Bürağa mindi,
Əlində qamçısı dindi, nə dindi.

Ucalarda süzən kəklik sayağı,
Qartal qanadına döndü ayağı.

Tovuz şəhpərli at qalxdı səmaya,
Kavus kəcavəsi yönəldi aya.

Elə uçurdu ki, şığımağından
Qanad sındırırdı dörd tərlan, inan.

Hər şey ayağında ələk-vələkdi,
Gecə təpik yedi, Ay yügən çəkdi.



Xəyal bu sürətə çata bilərmi?
Şimşək bu cür qılınc çala bilərmi?

Təfəkkür cürətdə, ruh hərəkətdə,
Yetə bilərmi heç məgər bu həddə?

Bu yürüş önündə axsaqdı onlar,
Addım vüsətindən bərk sıxılanlar.

Nəfəsi az qala qütbü əridə,
Güney də, Quzey də qaldı geridə.

Səmak ulduzunu yolda seyrə gəl,
Gah Ramih göründü, gah da ki, Əzəl.

Məhəmməd Bürağın ayaq rəqsilə
Səma kitabını yazdı həvəslə.

Göylər aləmindən uzaqlaşınca,
Cahan qapısına üz tutdu ancaq.

Mələk şəhpərindən güc alan bədən,
Keçirdi fələyin mənzillərindən.

Aya bəxş elədi zinət, təravət,
Həmayil xəttinə yeni fəzilət!

Ütaridi zərlə hey naxışladı,
Qalay kürəsindən rəng bağışladı.

Zöhrənin başına Ay işığından
Bir pərdə saldı o civə tək axan.

Çapdığı yolların zər kimi tozu
Günəşin başına qızıl tac qoydu.

Yaşıl gecənin xəlifəsinə
Geydirib... al donu verdi Mərrixə.

Xəstə Müştərinin sönmürmü qəmi?
Çəkdi baş-gözünə səndəl məlhəmi.

Keyvanmı qapanan gül ayaqlara?
Çəkdi bayrağına ənbərdən qara.

Zəncirli arslandı köhləni sanki
Özü gecə əsən ağ yellər təki.

Onun Bürağı da, yol yoldaşı da
Yürüşdən yorulub qaldı arxada.

Elə bir mənzilə yetmişdilər ki,
- Getməmək! - Cəbrayıl bilirdi əmri.

Keçdi Mikayılın kəcavəsindən,
İsrafil surunun ulduz dəsindən.

O ulduz evi də qaldı geridə,
Rəfrəf, Sidr ağacı köhnə yerində.

Qaldı yoldaşları... tək gəldi özü,
"Mənlik"də xəbərsiz dəryaya üzü.

Ölçdü damla-damla ruh ümmanını,
Yazdı qətrə-qətrə hər bir mənanı.

Ərşin ayağına yetişən zaman
Dua kəməndindən yapdı nərdivan.

Nurani ərşdən qalxdı hündürə,
Çatdımı heybətli ilahi sirrə?

Heyrətdən az qala dəhşətə gəldi,
Lakin onu tutan mərhəm bir əldi.

O "İki kamanın arasındakı"
Ara yaxından da yaxındı sanki.



Min nur pərdəsini yırtan o gözlər
Gördü: o pərdəsiz bir nura bənzər.

Yeri özündən də bir addım yüksək,
Ona nəsib oldu Tanrını görmək!

Məbudun qarşıda göründüyü dəm.
Bütün gördükləri getdi gözündən.

Gözü necə tutsun ülvi məqamı?
Sağdan, soldan gəlir Onun salamı.

Aşağı, yuxarı, sağ, sol, arxa, ön,
Vahid yönə döndü. Hanı altı yön?

Burda altı yönün nə cürəti var?
Həm cəhət, həm cahan ondan qaçarlar.

Yönsüzün yön ilə nə işi olar?
Qarşıda bir yönsüz, pərdəsiz pərgar.

Cəhətin üzünə salmasa niqab,
Yırtar varlığını əzab, iztirab.

Cəhətlər əriyib yox olan zaman,
Cəhətsiz şöləni gördü yaxından.

Yalvacdan nə qalmış? Tək quru nəfəs,
Öndə bircə Tanrı, yoxdu başqa kəs.

Ona yön nə gərək? Yön verir özü,
Yönlərə sığarmı cahan güzgüsü?

Tanrıdan nə aldı? Şərbət və xələt,
Xalqı xilas üçün fərman, zəmanət.

Saqisi - mərifət, camı - səadət,
Nuş etdi, qalmadı damla da şərbət.

Çevrə zirvəsindən endi aşağı,
Yüz min salam verdi soluyla sağı.

Bütün töhfələri verdi dostlara,
Aldı, vəqfə çatdı çox üzüqara.

Yetər, ey Nizami, dünyapərəstlik,
Alçalma, ucal ki, bitsin bu məstlik.

Bəxti, axirəti, anla, ey qoca,
Məhəmməd dinində taparsan ancaq.

Aqil ol, imanın çələngini hör,
Nicatı şəriət işığında gör.

## KİTABIN YAZILMASI SƏBƏBİ

Süleyman qəsrindən gizli işarə
Tül pərdə adından yetdi bizlərə.

Uçdum, qanad açdım ora quş kimi,
Eyvan yuvasına vurulmuş kimi.

Nə söylər qasidin incə eyhamı:
Aypara görünər bayram axşamı.

Yeni Ay o qədər zərif olar ki,
Qaranlıq örtükdə çəkməz diqqəti.

Sənin də təbində Ay şöləsi var,
Ovsunun özünü ovlar, ovsunlar.

Tonqala bir neçə istiot at ki,
Şaq-şaq şaqqıldasın odu, atəşi.

Sən daş ürəkləri oxşa da, yumşalt,
Qupquru şamını tut oda, yumşalt!



Yetər, ayaq döydü topal eşşəyin,
Kəcavən dar yoldan çıxsın, ata min.

Sənin mişk saçan bir qələmin var,
Qələm çal, oyansın ətirli rüzgar.

Əmr elə, çəmənlər olsun göy ipək,
Ənbərin üstündə rəqs etsin külək.

Zəhmət çək, alışsın şair sinəsi,
Nə yazdınsa odur şah xəzinəsi.

Sənin zəhmət adlı bir xəzinən var,
Zəhmətə qatlaşan xəzinə tapar.

Zar-zar ağlamasa üzüm tənəyi
Üzünü güldürməz bahar küləyi.

Sümüksüz bir ilik de, olarmı heç?
Şan balı arısız yaranarmı heç?

Buludsan, yağış ol, bir ildırım tap,
Qızmış bir təndirsən, cəld ol, çörək yap!

Çək, bağla pərdəni... qız eşqə möhtac...
Gərdəkdə gəlinin duvağını aç!

Qasid bu tələblə qarşımda durdu,
Kədərin yerində şadlıq oturdu.

Yaxşı kitabları vərəqləyərək
Bir mövzu gəzdim ki, açılsın ürək.

Açdım tarixini şəhriyarların,
Dastana salınıb adı onların.

Qüdrətli, mötəbər, zəki bir nəfər,
Dürüst nəzmə çəkib bunu əvvəllər.

Qarşımda o ləlin qırıntıları,
Vaxtilə cəlb etmiş çox sənətkarı.

Mən də xəzinəçi bir zərgər təki,
Yığdım xırda-xuruş töküntüləri.

Zər qədrini bilən hər zərgər adam,
Yəqin ki, dürrümü seçər saxsıdan.

Deyilməmiş sözün üstə əlləşdim,
Yarımçıq deşilən gövhəri deşdim.

Düzgün, dürüst olan nə var, saxladım,
Kitabla yanaşı kitab bağladım.

Dedim, qoy söz üstə yansın ürəyim,
Qəribə naxışla onu bəzəyim.

Gizli kitabları açdım, aradım,
Cahan ucqarları göstərdi yardım.

Ərəbcə, dəricə deyilənləri,
Buxari, Təbəri əsərlərini.

Tapdım... çox evlərin xəzinəsində
Parakəndə yatan nüsxələri də.

Əlimə nə keçdi, yığdım bir yerə,
Təki zərə dönsün söz zərrə-zərrə.

Qələm su içirdi gülüstanıma,
Sonra başlıq seçdim öz dastanıma.

Dedim, söz qoşum ki, dönsün gəlinə
Ariflər, alimlər gülməsin mənə.

Atəşpərəstlərin Zənd kitabı tək,
Qəsrimə yeddi qız qoy vursun bəzək.



Qoy görsün göylərin yeddi gəlini
Mənim gəlinlərim necə şux, yeni!

Seçsin sığalları, sallanışları,
Barı özlərinə yaraşan yarı.

Rəmldə yeddi xətt olarsa uyar,
Səadət nöqtəsi yəqin tapılar.

Nəqqaş on naxış da vurarsa əgər,
Xətlərdən birini əsas götürər.

Xətdən bircə naxış çıxsa kənara,
Yəqin kölgə düşər o naxışlara.

Xətti kim əymişsə, ondadır taqsır,
Düzlüksə itməyib, aramızdadır.

Hər xətti düz çəkən bir rəssamam mən,
Addımım ayrılmaz başlıca xətdən.

Xətt təkdir, odur ki, qorx xətərindən,
Bu sapa nə qədər dürr düzmüşəm mən.

Gərək min bir suda qüsl edəsən ki,
Axırda tapasan büllur çeşməni.

Bəzən can yaradır bircə damla su,
Bəzən batıb gedir suyun çoxusu.

Yağışdan dürr alan bir sədəfəm mən,
Məndən kim əsirgər bir içim su, dən?

Bal kimi sözlərdən yaratdım şərbət,
Nə üçün görməyim şəfqət, səxavət?

Neçin səxavətdən dəm vururam, dəm?
İş ki taledədir, mən ki bir heçəm.

Firdovsi səxalı, Mahmudsa simic,
Qövs, Əqrəb bürcü uyuşdumu heç?

Sultan Əbudüləf şair Əsədi,
Səxavət saçıban necə istədi!

Nələr danışıram, aman, ay aman!
Dürrüm Ədənnəndir, suyum buluddan.

Buluddan-səxavət görərsə əgər,
Sədəf də buluda vəfa göstərər.

Bulud nə yağdırsa, sədəf inan ki,
Bir dürrə döndərər hər qətrəsini.

Cəbrayıl ilhamım cin qələmimlə,
Yazır ki, novruzdur, lonu təzələ.

Cinlərə dərs deyən bir qələmin var,
Biç köhnə dastana bir tazə paltar.

Bu dürrü divlərdən bərk gizlət, sakın!
Süleymandan savay görən olmasın.

Canım, cövhərim bil bu sətirləri,
Mən özüm kiməm ki? Sümüklə dəri.

Mən balsız, arısız sadəcə bir mum,
Üzüyün qaşından çox uzaq oldum.

Bu şah əsərimi gərək şah qoçaq
Hansı möhür ilə naxışlayacaq!

Möhür qırmızı da, qara da çıxsa,
Şahın katibidir bu şair-rəssam.

Zərgərlər bilir ki, qızıldı şerim,
Dedim, onda beş yox, onda on verim.



Ətrimə müştəri tapılmasa da,
Müşgül ipəkdədir, mayam-misrada.

Kəmdir bizdən öncə yaradılanlar,
Heç kim mənim qədər vermәyib nübar.

Yaxşı söz deyənlər murada yetdi,
Axırda yorulub yuxuya getdi.

Mən də o dəstənin muzdurlarından,
Aldım dahilərdən məsləhət, ürfan.

Bəlkə də suçluyam söz söyləməkdə,
Fəqət sanballıyam mənə deməkdə.

Badamsız qabığı çox görüb aləm.
Mən sizə qabıqsız badam vermişəm.

Sözlərim olsa da nadir, tazə-tər,
Ulu dahilərdən dönərəm məgər?

Dar yolda var yığmaq hasilsiz, hədər,
Küləyi ələklə qovmağa bənzər.

Mən söz sərrafıyam. Hanı nəzmimdə
Bir söz ki, çəkməyim söz tərəzimdə?!

Şerimlə açsam da min bir xəzinə,
Qayğıya, diqqətə möhtacam yenə.

Mənə vədə sübhü vəd edir pənah,
Tövbə, ulu Tanrı, əstəğfürullah!

Nizami, nəfəsin İsadır sənin,
Məryəm ağacındır ilhamın, nəzmin.

Xurmalar verirsən bu bağdan, əhsən!
Bəxtiyar olasan, dövran sürəsən!

# ƏLAƏDDİN KÖRPƏ - ARSLAN ŞAHA XEYİR-DUA

Xəyal bəsləməkdə, ey könlüm, təksən,
Yenəmi xəyalla əylənəcəksən?

Yetər, vaz keçirəm xoş arzulardan,
Bir az uzaq gəzək boş arzulardan.

Bahar fəslindən gözəl dörd fəsil,
Bizim məqsədimiz özgə şey deyil.

Birinci fəslimiz - Tanrıya səcdə,
Onun hümmətilə gəlirik vəcdə.

İkinci fəslimiz Peyğəmbər - o pir!
O köhnə sikkəni tazələmişdir.

Üçüncü fəslimiz şaha duadır,
Bu dua ağzımdan daim ucalır.

Şaha son fəsildə öyüd verək ki,
Dünyaya səs salsın zəfəri, fəthi.

Bir şah ki, bac alır yeddi iqlimdən,
Alqışı, əhsəni mənim qəlbimdən.

Sözüylə, işilə dayaqdır yurda,
Şahlıq qalasını ucaldıb burda!

Taxta əyləşdirən, tac verən də o,
Taxta da, taca da zər səpən Xosrov!

Alqış yerin, dövrün mühafizinə,
Ölkənin sütunu Əlaəddinə!



Ölkələr fatehi Körpə - Arslan şah,
Alp - Arslandan uca, taxtına pənah!

Mehdi və günəşdir o şanlı qüdrət,
Zamanın xətmidir qurduğu dövlət.

O fələk Rəxşini sürən Rüstəmdir,
Möhtəşəmlik verən bir möhtəşəmdir.

Onun həm cüssəsi, həm də adı şir,
Göylə həmsəviyyə, buludla əlbir!

O gün ki, qıfıla açar düzəldi,
Aləm bir cövhərdən əmələ gəldi.

Başqa bir aləmdir bu ər oğlu ər,
Ovcunda parlayır minlərcə cövhər.

Kitabı önündə vərəqdir səma,
Səxası yanında damladır dərya.

Hökmü altındadır su da, quru da,
Alqış deyəni var suda, quruda.

Taxtı da ucadır, başı da uca,
Ağıl heyran qalır ona baxınca.

Mələyə bərabər, fələyə qardaş,
Böyüklük, ucalıq ona bir yoldaş.

Düşmənlər əyninə zireh də geysə,
İldırım qılıncı doğrayar, kəsər.

Odur ilk dayağı Ağsunqarların,
Kəmalə yetməyin, əhdin, ilqarın.

Necə vüqarlıdır imzası, qolu,
Günəşə nur verir üzünün nuru.

Şahlıq ona təslim qulaqburmasız,
Al rəngi qəlbimin odudu yalnız.

Zəfər ayağına baş qoyub yatmış,
Fitnə qılıncının suyunda batmış.

Qılıncı efirdən atəş qaldırar,
Ayaq tozlarında bahar ətri var.

Onun meydanında quyruq qısır şir,
Çökür düşmən atı, məhv olub gedir.

Səhər qədəhinə süzəndə yaqut,
Buz bağlamış sudan od yaradır, od

Döyüş zərbəsilə çıxarsa önə,
Gündüzü döndərər məhşər gününə.

Səxa mədənini elə ki, açar,
Xəzinələr saçar, suçlar bağışlar.

Ondan çox-çox uzaq simiclik, yalan,
Məddi bir qılıncdır, cəzri də qalxan.

Nəyi qaldırarsa, qılınc tiyəsi,
Ucunda endirər taziyanəsi.

Müştəriyə oxşar hündür atı var,
Dırnağı Keyvanın qəbrini qazar.

Söylə, görmüsənmi, ov vaxtı qızan,
Əjdaha bağrını yaran bir arslan?

Cəngdə qılıncını sıyırmış günəş.
Əgər görməmisən... şahı fikirləş!

Əjdaha təsvirli bayrağı - qovğa,
Bölər əjdahanı, sərər torpağa.



Bir cüt oxu atsa dar kamanından,
Ən geniş məzara gömülər arslan.

Yay dartıb oxunu tuşlasa hara,
Cigər tikər, nazik qılı da yarar.

Qılıncı ayını oyundan qoyar,
Ayı tək oynadar arslanı naçar.

Əjdər pəncəlidir o meysiz xumar,
Basdığı şir ondan mərhəmət umar.

Gəzərkən arabir Səhənd dağını,
Qurdun oxla qırar əl-ayağını.

Şah elə ki, qurdu doğradı, kəsdi,
Şirin əl-ayağı qorxudan əsdi.

Elə ki, oxuna canavar gələr,
Qulan dırnağına səhra dar gələr.

Ovlağı dalğalı qan dənizidir,
Geydiyi canavar, şir dərisidir.

Qaçar... iti oxu şığıyan zaman,
Bağıra-bağıra yaralı qaban.

Kaman girişinə sıxsa gücünü,
Qəbrinə döndərər maral gönünü.

Döyüşə girəndə... daşın bağrını
Yarar, əqiq kimi qızardar onu.

Zəhərli qılıncı elə çalar ki,
Tüstü, his bürüyər ənginlikləri.

Döyüşdə qılıncı alsa da canı,
Can bağışlayandır məclisdə canı.

Dünya qaranlıqdır nuru önündə,
Gözlər işıqlanır onu görəndə.

Xülqünün nafəsi nəqqaş kimidir,
Ətəyi ləl saçar, cibi mişk, ətir.

Ləli-boyunbağı, mişgi də ənbər,
Gövhəri, ətrilə doludur ellər.

Belə tacidarın dağdır libası,
Yanında bir çalma yer-göy arası.

Kamanı önündə bu doqquz fələk,
Ufacıq görünür kiçik bir ox tək.

Göyü dəlib keçir tacidar başı,
Dörd ünsür - təxtinin dörd naz balışı.

Düşməni bənzəyir köksüz ağaca,
Çarmıxa çəkilmiş qapısındaca.

Dost, düşmən o Günə baxan aypara,
Ayın bu üzü ağ, o üzü qara.

Qızıl nallı günəş dalar dünyaya,
Mədənə ləl verər, çölə daş-qaya.

Onun dirhəmidir mədəndəki dürr,
Hərəm evindəki o şəfəq, o nur.

Onun səxasından düşən qətrələr,
Dağa yaqut verdi, dənizə gövhər.

Hər iki aləmə keşikçi odur,
Tanrının, Xalqın da zabit oğludur.

Tanrıdan aldığı bəhəri yenə,
Bəxş edir Tanrının bəndələrinə.



Onun qələbəsi möcüzə, ovsun,
Cahanda ruzusu səadət olsun!

Üzünə hər zaman qoy gülsün iqbal,
Qızıl təxti, tacı görməsin zaval.

Ulduzlar altında nəsli, üzü ağ,
Qoy şahlıq sapına düzülsün ancaq.

Sübh işıqlı bir cüt oğlu var onun.
Özü günəş kimi zərşəfəq olsun!

İki uca taxtlı şahzadə cavan -
Biri cahan tutan, biri yurd salan.

Biri Firudin tək zəka, nur saçan,
Biri Keyxosrov tək üzəngi açan!

Birinin naxışı təxtə, taca bənd -
Adı Nüsrətəddin Məlik Məhəmməd!

Əhməd Fələkəddin, o mərd oğlu mərd,
Rasidlər deyir ki, fələkdən bülənd!

Fikir ver bu iki bəxtəvər ada,
Eyni bürc altında yaşar dünyada.

Biri Məhəmmədir, o biri Əhməd.
Adları, sanları qüdrət, ləyaqət!

Ayrılıb kənara çıxsalar bir az,
İnan, bunu ondan ayırmaq olmaz.

Birinin açarı - qələbə. Zəfər,
O biri fələyi fəth edən hünər.

Nüsrətdir birinə tərbiyə verən,
Birinə fələkdir qüdrət göndərən!

Birinə yar olmuş üç ayaqlı bəxt,
Birinə dörd cəhət, dörd ayaqlı təxt.

Sığınır maviliyə şahın qüruru,
Bu iki nur olsun gözünün nuru.

Şahlıq dairəsi iki qütb ilə,
Şimalda, Cənubda çatsın mətləbə!

Dövlət - şikarıdır, bəxtidir onun,
Gecəsi gündüzdən işıqlı olsun!

İsmət pərdəsinin ardında yarı -
Məhəmməd sübhünün nuru, əsrarı!

Qadını varlıqda analar tacı,
Özü çərx atası, səxavət bürcü!

Xızr tək yaşasın min ömür boyu,
Qadını aləmin dirilik suyu!

Süleyman mülkünün qorunmasında
Kaş Bilqeys təxti görməsin xəta!

Bu işıq çeşməsi, bu gur çılçıraq
Cüt güldən, gülşəndən düşməsin iraq.

O ki, Yer üzünə yaranıb pənah"
Bu dünya durduqca qoy şah olsun, şah!

## ŞAHA TƏZİM XİTABI

Sən ey səadətdən kəmər bağlayan,
Öz tacı, təxtilə ərzi saxlayan!

Gecə keşikçidir qara hindli tək,
Bağlayıb belinə Aydan gümüş zəng.



Həmayil bağlayıb məgər sübh əbəs?
Üzəngin ardınca alar xoş nəfəs.

Gecə nökərimdir, başında çətri,
Sənin astanandan almırmı ətri?

Zəncisifət olar Rum üzlü gündüz.
Onu zabitlikdən azad etsəniz.

Göyün göylər boyda göy süfrəsində,
İkicə çörəyə göz tikib bəndə.

Amma süfrənə sən bir çörək qoysan,
Çatar yetmiş şəxsə, yeddi ulduza.

Zəfər xatəmiylə, möhrüylə Allah
Səninlə xətm edib şahlığı, ey şah!

Bu göy ki, günəşi qızıl çıraqdır,
Sənin belin üçün kiçik qurşaqdır.

Ay qızıl təxt qurub, seyrinə dal bir:
Sənin təxtin ilə həmsəviyyədir.

Fitrəti pak olan yağış suyu da
Bulanıq görünür sənin yanında.

Görsə qılıncını ləl saxsılaşır.
Mehrinlə od sönür, daş yumşaqlaşır.

Cahanda hökm edən hər bir hökmdar,
Əlində səxavət buludu saxlar.

Qar, yağış gətirir özgə buludlar.
Səninsə buludun gülüstan, bahar.

Şahlar qan içməklə süfrə açırlar.
Can alandan sonra səxa saçırlar.

Amma sayə salsan sən bir adama,
Onu tez oxşarsan, gec çağırsan da.

Qədrini kim bilər hünərvərlərin?
Kimlər ki, oxumuş hünər əsəri.

Nə çoxdur hay-küyü hünər bilənlər,
Ondan hünər əhli xeyirmi görər?

Sən məmləkət üçün şansan, şərəfsən,
Alqış kitabları sənə der: - Əhsən!

Səxavət mülkündə sənin dövlətin
Çəkir keşiyini hər bir xilqətin.

Səndən gördüyünü din adlı bağça,
Görməyib fərvərdin buludundan da.

Ağbəxt Kəyanların tarixdə aşkar
"On iki igidi", "Yeddi xanı" var.

Sən yeddi qat göydə on iki bürcə,
Bu gün hökm edirsən, alqış bu gecə.

Bu aləm bədəndir, İran da ürək,
Xəcalət çəkməyək bu sözdən gərək.

Candan mühüm olan ürəkdir yəqin,
İran - ürəyidir Yer kürəsinin!

Bu yeri ki, tutmuş neçə bahadır,
Dünyada yerlərin ən yaxşısıdır.

Bizim məmləkətin sənsən ürəyi,
Sənin vilayətin - yurdun özəyi.

İskəndər şöhrətli ey bizim Xızır,
Elmin, ədalətin el çırağıdır.



İskəndər dəmirdən güzgü düzəltdi,
Abi-həyat deyə Xızır yol getdi.

Güzgü cövhəridir sənin tunc sinən,
Dirilik suyudur ayna xəzinən.

Sən ki, baş tacısan bu məmləkətin.
Tanrı hər bəladan saxlayar yəqin.

Başına fırlanan səadətlə sən,
Yeddi vilayətin gələcəyisən.

Beşinci iqlimi etmisən abad,
Qalan altı iqlim sənə görə şad!

Mehrini çox görüb sədlər, sərhədlər,
Sərhədçi olmağı səndən dilərlər.

Dünyada dörd şaha cəlal yaraşmış,
Sənsən beşincisi, sənə min alqış!

İskəndər yanında Ərəstu vardı,
Elmin işığını ondan alardı.

Nuşirəvan bəzmi tutdu göyləri,
Çün Bozorgmehr idi müdrik vəziri.

Pərvizin çalğıçı Bərbədi vardı,
Azdı yüz... bəlkə min hava çalardı.

Yad et Məlik şahı, müdrik xaqanı,
Nizamülmülk idi dini, imanı.

Sən bütün şahlardan ucasan aşkar,
Çün Nizami kimi söz ustadın var.

Bir gör hansı qata qalxıb Nizami,
Sənsən hər işinə verən nizamı.

Çox şahlar dəm vurur səxavətindən,
Səxası yaranır gop sənətindən.

Şor torpağa səpir toxumu onlar,
Sürməni kor gözə çəkən məlunlar.

Bilirmi şor yerə toxum səpənlər,
Peşmanlıqdan savay götürməz səmər.

Yeri seçmək gərək, ağac bitirsin,
Behişt bağı kibi meyvə gətirsin.

Boş yerə tökərsən badəni saqi,
Məgər badə yapan olarmı baqi?

Hanı sənin qədər səxavət saçan,
Elm qəsri tikən, qapılar açan?!

Götür-qoy eylədim bir xeyli zaman,
Gördüm sərrafları sənsən qoruyan.

Saxta kimyagərlər acgödən, harın,
Uymadın felinə hoqqabazların.

Bəxtinin ulduzu göstərdi səni,
Adına bağladım bu salnaməni.

Soruş, kimdir xoşbəxt? O kimsələr ki,
Səpdiyi toxumlar yaşadır eli.

Yeyilir çörəyi ağız dadıyla,
Tarix vərəqlənir onun adıyla.

Əsər yazmışam ki, bilir duyan kəs:
Fələklər üstündən xət çəkə bilməz!

Yeddi min il keçdi... bişirdim qəşəng,
Yeddi ədviyyəli elə bir xörək,



Yesən, varlığını gətirər cuşa,
Ye, sənin ruzundur, nuş et, yüz yaşa!

Ona can vermişəm mən öz canımdan,
Ətimdən, qanımdan, həyəcanımdan.

Ey fələkdən uca, mələk misallı,
Fələk əzəmətli, mələk cəlallı!

Fələyə, mələyə nə cür çatım mən?
Mən insan yarandım adicə gildən.

İstədim qənd, şəkər qələmimlə mən,
Salım qara yerdə bir yaşıl gülşən.

Nabatsız olmasın yolum, sabahım,
Noğul səpələyim bəzminə şahın.

Məhrəmin deyiləm, saçım şəkər, qənd,
Nə qəm... duam ilə keşikçinəm mən.

Şahım bir günəşdir... qan yaş dolusu,
Gözlərim-günəşi əks eləyən su!

Günəş su üzünə enə bilsə də,
Su çata bilərmi günəşə göydə?

Günəşə yanaşmaq mahal olsa da,
Xəyalım oynayır daim yanında.

Bircə bu təptəzə dürrümdən savay,
Şahın xəznəsində hər şey var, hər şey.

Al dürrü, Rəxşinin at ayağına,
Rütbəm ərşə çatsın at ayağında.

Saqim bulud ikən... bu əkin şumu,
İçərmi özgənin quyu suyunu?

Ağzımı bağlayıb çox düşündüm, çox:
Əlindən su içim... başqa bir su yox!

Dürrə qiymət qoysam, önər dəyəri,
Verirəm, dəyəri-şahlıq nəzəri.

Zöhrəmin dinləsən təranəsini,
El yeni Ay kimi göstərər məni.

Görsən ki, xırdadır naxış, bər-bəzək,
Nə qəm, çox gülümü aparıb külək.

Haqqın, ədalətin, dinin, yolun var,
Ömrün də uzansın, ulu tacidar!

Dinin, ədalətin aləmə aşkar,
Sənə ömür versin qoy pərvədigar.

Dövlət sərhədlərin polad təməlli,
Ondan uzaq olsun zavalın əli.

## SÖZƏ SİTAYİŞ, TÖVSİYƏ VƏ ÖYÜD

Sözdür ən qədim şey, sözdür ən təzə,
Sözü yüz yerə yoz, sərraf ol sözə.

Varlığın anası binə tutandan,
Sözdən gözəl övlad doğmamış, inan.

Sanma ölüb getmiş sözün memarı,
Yox... söz dənizində gəz sənətkarı.

Hansını istəsən gəl, adını çək,
Sudan baş qaldırar qızıl balıq tək.

Ruh kimi pakizə söz - ülvi, nadir,
Hatif xəznəsinin keşikçisidir.



Hekayətlər bilir, eşidilməmiş,
Kitablar oxuyur, nitqə gəlməmiş.

Bu Tanrı vergisi cahanda ancaq,
Qalan söz qəsridir. Söz yaşayacaq!

Sözdür gələcəyə yadigarımız,
Özgə hər nə varsa boş yeldi yalnız.

Ağıldan başlamış ağılsızacan,
Bitkidən dürrəcən hanı qalan can?

Yalnız mənliyini dərk eləyənlər,
Əbədi varlığa qovuşa bilər.

Naxışı oxuyan - əbədi, ölməz.
Naxış tanımayan çox qala bilməz.

Dərk eləyə bilsən özünü... vallah"
Qalarsan cahanda, getsən də hərgah.

Özündən, sözündən qafil olanlar
Bir qapıdan girər, birindən çıxar.

Qapın tüstüsüzdür, pəncərən par-par,
Günəş görünmürsə, nə faydası var?

Özünü dərk elə, gör nə bilirsən,
Bilsən öz məğzini, yaşarı ərsən.

Sən adi hesabı bilirsən əlbət,
İki dəfə iki - dörd qütb, dörd cəhət.

Hər kəs öz ağlından razı, xoşniyyət,
Heç kəs öz gilindən yapmaz imarət.

Özünü görməyən qəflət sərsəmi,
Özgənin eybini görə bilərmi?

Bəhanə gəzər ki, çəkilsin qına,
Varmı turş söyləyən öz ayranına.

Yetişmiş kimsənə, aqil olan kəs,
Cəzri - əsəmə, inan baş əyməz.

Elm, idrak əhlidir uzaqgörənlər,
Cahilin zəhməti daim boş, hədər.

Ağıllı sarbanlar, karvan çəkənlər,
Oğruya can verməz, keşiklə gedər.

Ətir, mişk aparan hər çinli tacir,
Mişk üçün kitrədən hasar düzəldir.

Uçmaqda quşların hamsından üstün,
Şanabub qartalı ötür də bir gün.

Bəladan uzaqmı adlı-sanlılar?
Yalnız boşboğazlar xətirsiz qalar.

Zirək quş can atar hey ora-bura,
Hər iki ayağı ilişər tora.

Harda ki, torpaq tək qarınqulu var,
Yediyi yer kimi bir loxma olar.

Anbardan nə qədər yem aparsa da,
Əskilməz anbardan birco arpa da.

Tay-tay, arpa-arpa çalsan da, inan,
Axırda torpağa qaytaracaqsan.

Şamın alovu tək tac uman insan,
Gülmədən... şam kimi ağlamalısan.

O şadlıq məcunu yaqut ilə dürr,
Çoxu ağlamaqdır, azı gülüşdür.



Hər sevən könlümün sevilәni var,
Bir yar, bir vəfadar ona havadar!

Dostluqda ağıldır dayaq hər kəsə,
Sənin hər şeyin var, ağlın var isə.

Başsızlıq çoxunu şikəst eləyib.
Surətcə adamdır, təbiətcə div.

Adam ləqəbini daşıyan mələk.
Xeyli fərasətli, zirəkdən zirək!

Əzəldən yazılıb olacaq hər şey.
Cəhdin faydasızdır, çalışsan da hey.

İş gör, iş gör hətta cəhənnəmdə sən -
Yaxşıdır cənnətdə tənbəlliyindən.

İşi xatirinə səninlə pəsdir.
O kəslər dünyada pisdən də pisdir.

Nakəslə, alçaqla yaxınlıq edən.
Pis fikir yayanlar uzaqmı şərdən?

Yaxşılıq edənlər nəcib, xoşqılıq.
Yaxşılıq gətirər hər bir yaxşılıq.

Çalış, ayağına batsa da tikan.
Düşmən tənəsinə tuş olmayasan.

Cahillər ardınca gülməsinlər ki,
Bədbəxtlik basmışdır yazıq yetimi.

Əlindən bir kimsə tutmasa belə,
Ayıq tərpən, yaxan keçməsin ələ.

Kim yadında saxlar yaxşılığını,
Dərdinə gülәndən üstündür, tanı!

Aclar qarşısında sən yemə çörək,
Yesən, onları da öz süfrənə çək.

Lütlərin yanında çəkmə qızıl, zər,
Xəzinən üstündə ilana dönər.

Novruz küləkləri əssə də burax,
Yellər qabağında yandırma çıraq.

Adam yemək üçün yaranıbdımı?
Ya Ağıllı iş üçün gəlib dünyaya?!

Uzunqulaq kimi otu, ələfi
Tıxandan üstündür itin şərəfi.

Çalış öz xalqının dayağı ol sən,
Dünyaya nur saçan oğula əhsən!

Ətrinlə aləmi tutmaq istəsən,
Gül kimi xoşsifət olmalısan sən.

Loğman nə söyləmiş, bilmirsən məgər:
Xoş düşünüb yatan xoş yuxu görər.

Anadan bədqılıq doğulan insan
Bədqılıq qalacaq lap versə də can.

Xoşqılıq kimsələr ölərkən belə,
Vermir xislətini tufana, yelə.

Bir tikə çörəkçün qəddar olma, dur,
Sənin tək çoxunu torpaq udubdur.

Torpağa nə qədər bəzək vursan da,
Torpaq olacaqsan, inan, axırda.

- Nə üçün yaranmış, - sorsa bir insan -
Bilik saf adamdan, adam torpaqdan?



De - Gülab gülüdədir, gül də tikanda,
Pədzəh möhrədə, möhrə ilanda.

Kələkbazlıq etmə, şərdən həzər et,
Əjdaha ağzında çadır qurma... get!

Ülfət yapmaq olmaz əjdaha ilə,
Səni yemək üçün keçirər ələ.

Bir dərviş cildinə girsə də köpək,
Xülqü dəyişərmi? Yenə hürəcək.

Dostlar bir-birilə çəkişən zaman
Müttəfiq olurlar düşmənlə əlan.

Fərq qoya bilməyən qaraya, ağa,
Milçəkdir... ağı da basır palçığa.

Yaxşısı budur ki, dörd buxovu qır,
Şərdən nə qədər tez qaçsan yaxşıdır.

Yusiflər canavar, zahidlər xumar,
Həzər bu rüzgardan, ey yazıq dindar!

Nicat gör hardadır: yalnız pislikdə,
Pisə yaxşı deyib, şəri öyməkdə!

Tanrı göstərməsin: bəndəsi kar, lal,
Vursun ayağına bir belə qandal.

Cəhənnəm eyləyib qullar cənnəti,
Töksün od üstünə təlq ilə nefti.

Xayır! Qalx, fitnəni tapdalayaq, qalx!
Qulluq borcumuzu ödəyək, ey xalq!

Yetməzmi qul oldun qızıla, pula?
Dörd düyün üstündə yeddi qıfıla?!

Bircə qızıl üçün amansız payız,
Gör necə soldurdu laləni vaxtsız.

Bircə dirhəmi də olmayan yovşan,
Yaşayır özüyçün, qopsa da tufan.

Gəzmə ağ bulud tək başda xəzinən,
Günəş tək ayaqla xəzinəni sən.

Torpaq ki, yağışa, qara qısıla,
Öpsə ayağını, dönər qızıla.

Payla qızılları aləmə dərhal,
Günəş rəngli ləlin başına daş sal.

Qızıldan nur alan gözlər zavaldır,
Gözə işıq verən yalnız ağıldır.

Birləşə bilməyən cüt hərfdir "zər",
Tək qalan xudbini lovğalıq əzər.

Qoynunu qızılla doldursan, inan,
Qızıl tək dağınıq, tək qalacaqsan.

Sarılıq azarı taparsa kimsə
Yeridi göy libas, ya qara geysə.

Qızıl tərəzisi qızıl olsa da,
Daş-qalaq edilər min bir qapıda.

Bir aləm hay-küylə halal, ya haram,
Bir neçə dank yığıb alsan da ilham.

Gəlir bir avara, qızılı çalır,
Qızıl yığan ölür, dağıdan qalır.

Qızılı xərcləmək sevinc, səadət,
Yığılıb qalması qorxu, məşəqqət.



Qızılı dörd əllə qamarlayanlar,
Ya qorxu, əziyyət, ya ölüm tapar.

Bircə daşdan ötrü, əlbəzər, haşa,
Necə qılınc çəkir yoldaş yoldaşa.

Yaxşısı budur ki, qızıldan əl çək,
Yoxsa qorxu səni məhv eləyəcək.

Təşnə yol getməkdən zövq alarını heç.
Ya quyu dibində çox qalarını heç?

O şeyi ki, qoyub köç edəcəksən,
Onu nə vaxtacan gizlədəcəksən?

Cahan divlər yurdu... gözünü tez çək,
Evin dağılmasın div kahası tək.

Şahlar eyvanında yaşasa belə,
Divxana sayılır div yurdu hələ.

Yerdə qızıl yükü gizlətməklə sən,
Çoxmu hamballığa güc verəcəksən?

Baxma üç hambalın qarşından ötdü,
Evini dağıdan hambalın dörddü.

Xak ilə bad sənə zidd çıxır
"Xak"ın əlifsizdir, "bad"ın əlifsiz.

Xurma ağacına tac olan tikan,
Qurusa fərqlənməz çöpdən, odundan.

Motal qarınlıya xoş gəlir, inan,
Xingəlin yarpağı gül yarpağından.

Çək tamah dişini, ey acgöz insan,
Ki, dürr dənəsi tək əziz olasan.

Yüz dişli darağın hər dişini qır,
Əli hər yetənin saqqalındadır.

Zordu can dərmanı ələ gətirmək,
Min zəhər badəsi içəsən gərək.

Bu qəssab dükanı uddurmasa qan.
Sənə qıyarmı heç birce loxma nan?

Armud saplağına dönür yüz boyun,
Ta ki, tox yaşasın bir öküzboyun.

Düşünən yüz min baş qılınclanır ki,
Bir yorğun kəlpeysər kam alsın təki.

Sağ əli xəzinə qamarlayıbdır,
Sol əli yenə də qızıl axtarır.

Kimin diləyinə qol qoyub fələk?
Xoşdur istəməkdən heç istəməmək.

Nə qədər gec çatsa əhdinə insan,
Müjdədir ömrünün uzunluğundan.

Murada gec çatan daha xoşbəxtdir,
İşlər bitən zaman ömür də bitir.

Gec yaranır deyə çox yaşayır ləl,
Tez yanıb, tez sönən lalə - bir xəzəl.

Özünü nə qədər yandıracaqsan,
Bir məclis şamını andıracaqsan?!

Şəhvət tələsindən sakın, ey gedən,
Xilas et başını bu mavi küpdən.

O yeddi şaxəni baltalamalı,
Qır, at ayağından dörd mıxlı nalı.



Qamışla örtülmüş quyu - bir kələk,
Dayanma üstündə daş, ya qamış tək.

Gülən ildırım ol, yaşa da, öl də,
Cism gəldi-gedər, can qalsın əldə.

Tanrını tanıyan müridsən əgər,
Yol göstər, qoy sənə mürşüd desinlər.

Mələksiz, imansız mürid olma sən,
Əl üzmə Tanrıya təvəkkülündən.

Min düyün açmışam mən aram-aram,
Kəndxuda olsam da, kənddən kənaram.

Bir qonağım gəlsə, axı kimim var,
Aça qarşısında süfrə - qələmkar?!

Ariflər duyar ki, indi nə dedim,
İncə işarədən nədir məqsədim.

Yoxsulluq şəstimi əyəmməz, inan,
Kimdəndir gileyim? Giley saymazdan.

Saymır Türklüyümü həbəş ölkəsi,
Ləzzətli dovğamı neçin yeməsin?

Atəş kürəsiyəm, oddur ürəyim,
Bəs neçin süfrəmdə çiydi xörəyim?

Bir zaman qoram da bəyənilərdi,
Gözə çəkərdilər tutiya kibi.

Bu gün dəymiş üzüm, bal kimiyəm mən,
Bəs arı neştəri yeyirəm nədən?

Üzüm suyunu ki, tökürlər yerə,
Üzüm heç çatarmı qiymətə, qədrə?

Ha yana qovdular, getdim o rizlə,
Yatmış su dedilər, yatmışam hələ.

Deyirlər, yatan su sakit olur çox
Qızıl bulağıdır, su bulağı yox.

Gümüş yatağı say yatmış bulağı,
Buna şahid onun buz bağlamağı.

Gümüş çatarmı heç qızıl dinara?
Qızıl Günəş hara, gümüş Ay hara?

Gümüş, "Sim" sözünü oxu tərsinə,
Gör nəyə çevrilir, bir mis ərsinə.

Sözüm qızıldan da bahalıdır çox,
Gümüş qiymətinə alanım da yox.

Qızılı don geyir dəmir satanlar,
Dəmiri gümüş tək yeridir onlar.

Yazıq o zərgər ki, küncə qısılır,
Adi gümüşə də getmir qızılı.

Ən ağır cinayət, düşün, gör nədir?
Ağ günü hünər yox, tale bəxş edir.

Daş-qaşlar sərrafı bir arifin də
Yarımca arpası yoxdur evində.

Pambığı kətandan seçə bilməyən,
Asimanı rismandan seçə bilməyən.

İpək, zər içində... hər qəsri-anbar,
Qızıl sandıq-sandıq, xəz xalvar-xalvar.

Min fəsad törədir gövhər, gümüş, zər,
Sakit oturmaqdan neçin qorxur ər?



Nə qədər qoruyaq bu xarabanı?
Basaq afitabı aftabayamı?

Çoxlarının səsi məzardan gələr,
Bizim də səsimiz bir gün dincələr.

Belə dastanları mən başı batmış
Kimilər... çox deyib... üstündə yatmış.

Əcəl, gözlərini tutmamış, gərək
Bir işin üstündə odlansın ürək.

Səfərə çıxarmı yolçu yeməksiz?
Bəladan tezliklə qaçmalıyıq biz.

Mən gedirəm, neynim, getmir eşşəyim,
Məgər gedirəmmi? Böyükdü şəkkim.

Getməyimdən xəbər tutaram haçaq?
Bu evim o evdən düşəndə uzaq.

Xəbərsiz nə qədər yaşamaq olar?
Göz yumub nə qədər yaşınmaq olar?

Gördüyün hər nə var, biryolluq unut,
Sirlərə məhrəm ol, sükut et, sükut.

Sənin bildiklərin qələtdir ancaq,
Qələt oxumusan onları bir vaxt.

Düş fildən, yollarda yarğan açıb sel,
Filin çərx əlində oyuncaqdı, bil.

Sənə məzar qazır fələyin fili,
Sən incə bir gülsən xəzanda, bəli.

Sal yada, dünyada nə cür gəlmisən?
O cür gedəcəksən bu dünyadan sən.

İki fil çarpışır... Ey mağmun insan,
Dünyadan nəyini aparacaqsan?

Dağa, dənizə də borcun boynunda,
Çərxə neyləyərsən sən bu oyunda?

Hamıya borcunu qaytar, ey xumar!
Sən nəsən? Lüt canın, lüt qatırın var.

Hanı yükün? Bircə arpanmı qalmış?
Özün soyun... fələk soyundurmamış.

Fələk düşürməmiş təxtdən özün düş,
Hara istəyirsən ora get, sürüş.

Çox çəkməz... yüz təmiz gül birdən-birə
Həsəd tozu altda sərilər yerə.

Həsəd tikanından qaçan güləm mən,
Silahı atmışam yerə əlimdən.

Təlq atım, əynimin dərviş paltarı
Həsəd atəşini söndürsün barı.

Bu dəhşət yurdundan əlhəzər, haşa!
Ömrü bundan minvalla vuralım başa.

Bu köhnə saraydan köçdünmü, car çək:
Hər nə bilirsən et, ey zalım fələk!

Yetər, ey Nizami, bağlandın yerə,
Dur və gur səsini ucalt göylərə!

Canını yeganə Həzrətə tapşır,
Ölməz səadətin yalnız ondadır.

Əzəl məktəbində qulaqburması
Alanlar... necə gör öyrəndi yazı?



Xəznəçi etdilər elmi-əməli,
Müşgül iş açanlar girişdi həllə.

Öz yataq yerinə hər kəs can atdı,
Yuxusu gəldimi, ordaca yatdı.

## OĞLUM MƏHƏMMƏDƏ ÖYÜDÜM

Hər nə deyirəmsə, yad elə, oğul.
Mən yuxu əsiri... Sənsə ayıq ol!

Əbədi bir bağın gülü var səndə, -
Məhəmməd adının möhrü üstündə!

Adın Məhəmməddir, xoşbəxtsən demək,
Mahmud təbili tək səs ucalt, car çək!

Tələs, sikkəni vur şərəfli ada,
Qalx, ucal, çərxdən də yüksək bir qata.

Barı məzarımda çərxdən bac alım,
Səni uca görüm, mən də ucalım.

Özünə elə bir söhbətdaş seç ki,
Yaxşılıq gətirsin, şad etsin səni.

Mişk saçan adam ülfət naxışıdır,
Hərzə boşboğazdan min qat yaxşıdır.

İnan, pis adamın bircə eybi də
Bəlkə yüz kişiyə gətirər ləkə.

Gəlib tora düşən xam ov, xam şikar,
Neçə dostunu da o tora salar.

Biri qızıl udsa Məkkə yolunda,
Yüz günahsız qarnı cırılar orda.

Yatma bu yollarda qocalar təki,
Həzər o kəsdən ki, döyür acizi.

Kişisən, fələyi fırfırabaz san,
Ona qadın kimi aldanmayasan!

Əylənmə rəqsilə bu yorğa atın,
Yola bax, yol getmək nə qədər çətin.

Ağ bir tərlan kimi uçmaq istəsən,
Hər şeyi günəş tək gərək görəsən.

Fələyin həm yayı, həm də oxu var -
Şikar yollarıdır bizim bu yollar.

Baxma ki, əynində dəmirin xasdır,
Yolun dəmir çəkən maqnitli daşdır.

Qatırı o qədər yüklə ki, yolda,
Ayaqdan düşməsin yoxuşda, yalda.

Daraltsa yolunu ikiüzlü çərx,
Darıxma, köksündə dağ olsun ürək!

Hər düyün, hər müşkül sirli bir açar,
Tap! Çətinlik içrə asanlıq da var.

Can sıxan yuxular yozulan zaman,
Bəzən şadlıq tapır pərişan insan.

Dərd oxu deşəndə yazıq ciyəri,
Gərək dada yetsin səbrin süpəri.

Tapşır bir əhdini ulu Tanrıya,
Başqa diləklərin qalsın sonraya.

Tanrıya əhdini, bil, sındırmasan,
Nicat tapacaqsan hər dərddən, inan.



Çıxarma sapından əsil gövhəri,
Həzər bədəsildən, pisdi cövhəri.

Bədəsil heç kəsə göstərməz vəfa,
Xatakar felində eləməz xəta.

Əsillər əsildir, bədəsil də bəd,
Xəsisdən kim görüb səxa, səxavət?

Bədəsil əqrəbi, bilir aqillər:
Sağ qoymaq eyibdir, öldürmək hünər.

Get sənət ardınca, iş gör, hünər saç,
Qapılar bağlama, daim qapı aç!

Öyrənmək dalınca yol gedən bəşər,
Sudan dürr çıxarır, daşdan da gövhər.

Öyrənmək dalınca getməyən insan,
Elmdən məhrumdu başdan, binadan.

Tənbəllər zehinli, zəka olsa da,
Saxsısatan kimi tanındı sonda.

Zehinsiz güvənib elmə, təlimə,
Qazı olmadımı yeddi iqlimə?

Təlim görmüş itin ağzında şikar,
Halaldır, iyrənmə, bişir ye aşkar.

Təlim sayəsində nəcibləşir it,
Sən mələk qatına yüksəl, ey igid!

Dirilik suyunu içmək istəsən,
Özünü Xızr tək dərk et, tanı sən.

Bu dirilik suyu başdan-binadan,
Can ilə ağıldır, ağıl ilə can.

Can bir çılçıraqdır, ağıl da yağı,
Ağıl - can... Canımız onun yatağı.

Tanrı bəxşişidir ağıl ilə can,
Can ilə ağıldır daim sağ qalan.

Ağıl, can hasili Vahiddi yalnız,
Səndə ikisi də var, şəksiz-şübhəsiz.

Vahidə çatmasan İkilə ... kəmsən,
Heç kimə demə ki, sən hələ kimsən!

Vahidi tapdınmı, İkini at sən,
Hər iki aləmin gözü üstəsən.

Boş bir təsəvvürdü, üçlükdən vaz keç,
İkiallahlığı saya salma heç.

Sən birlik sapından tut kişi kimi,
Üçlüyü bir elə, at ikiliyi.

Atmasan üçlüyü, tutmasan bunu,
Ucalda bilməzsən Vəhdət topunu.

Vahidi tapdınmı, gəzmə bəhanə,
O üç də, iki də nağıl, əfsanə!

Bu ülvi məqama çatmaq - iftixar,
Boş hava - həvəsdir qalan hər nə var.

Sağlamsan, cavansan, şükür, hələ sən,
Hər bir istəyinə çata bilərsən.

Sərv kimi qəddin sınandan sonra,
Keçərmi əlinə məgər mumiya?

Yol get, nə qədər ki, canında can var,
Ayağın güclüdür, ruhun da bahar.



Din yolunda ney tək bel bağla bənd-bənd.
Onda sərv kimi taparsan şöhrət.

Mənim söyüdümün yaşıllığı yox.
Bənövşəm ağarıb, laləm də soluq.

Kəmər bağlamağa, papaq qoymağa.
Taqətim, qüvvətim qalmayıb daha.

Bir vaxt iş görərdim mən də kişi tək.
İndi xalqa xidmət - yalnız xoş dilək.

Əlimi, qolumu bağlayıb rüzgar.
Zamanın şakəri belədir aşkar.

Hələ yıxılmamış sınıqdı qolum.
Yıxıldım üstəlik, yamandır halım.

Əhmədin sifəti azca kifirdi.
Üstəlik çiçək də çopurluq verdi.

Təbim kölgələrdən zaval görsə də.
Salır öz hünərim üstümə kölgə.

Göstər quzu kimi gedən bir kəsi.
Dalınca gəlməsin bir qurd kölgəsi?!

Varmı bir həmdəm ki, silinib pası.
Üzdə dost, arxamda düşmən olmasın?!

Dalımda duran "dost" bir ovuc xamlar.
Kimlə salamlaşım, qalmışam naçar.

Əlimdən çıxsa da gənclik, iqtidar.
Canımda hələ də arzular qaynar.

Bu çox yaşlı bədən qocaldı neyçün?
Tamahı, eşqi də artır günbəgün.

Görəsən hamının sikkəsi belə?
Ya təkcə biz verdik saqqalı ələ?

Ey xəstə canıma əlac eyləyən,
Qoyma hər yetənə möhtac olum mən.

Yetər bu qaranlıq! İşıq, ziya ver,
Məni sındırmısan, bir mumiya ver.

Mənim üçün çətin, səninçün asan
Tapılan məlhəm ver, qalmayım nalan.

Boynum ipdən azad ... Hər xəsis gəda,
Qoyma əzsin məni yükü altında.

Öz sədəf evimdə dürr kimiyəm mən,
Rüzum var, ummuram heç nə kimsədən.

Başım ucalığı daim mənə yar,
Baş əyməyə vaxtım, həvəsimmi var?!

Cəsarət rütbəsi qazanıb arslan,
Çün boyun qaçırmış xaltalanmaqdan.

Yaxşıdır süfrəndə duz dadmaq, əhsən,
Xəsis süfrəsində halva yeməkdən.

Qızıl xəncərini çəkir dan yeri,
Oyan, ey Nizami, al o xəncəri.

Rəncindən incimə, mədən tap, dür saç,
Xalq üçün yepyeni bir xəzinə aç!

## BƏHRAM DASTANININ BAŞLANĞICI

Sirlər sandığını sənətkar açar,
Qaldırıb qapağı incilər saçar.



Çərxin tərəzisi bu mavi göylər,
Bir gözündə daş var, o birində zər.

İki rəngi olan bu çərx, bu rüzgar,
Başa daş da salar, gövhər də saçar.

Şahlar bəxtinin də bu qisməti var:
Övladı mirvari, yaxud daş olar.

Gövhərin içindən daş çıxar bəzən,
Bəzən qırmızı ləl daşın içindən.

Elə Yəzdigürdlə Bəhram da bu cür...
Biri daş, o biri daşdan çıxan dürr.

Biri xalqı sevən, o biri qıran,
Cüt olur çox zaman xurmayla tikan.

Biri qol sındıran, biri sağaldan,
Biri dərd, o biri mumiya, dərman.

Birinci sübh idi, Bəhram işığı
Apardı gecədən zil qaranlığı.

Göylər kürəsinə iksir qatanlar,
Günəşdən, Aydan da soraq tutanlar

Göyşünas alətə saldılar nəzər,
Onda beş əyarlı gümüş gəzdilər.

Lakin nə tapdılar? Xalis qızıl zər,
Dənizdən dürr çıxdı, daşdan da gövhər.

Gördülər: varlığı əzəmət dolu
Bir şahdır, tutacaq zəfərlər yolu!

Onun taleyi - hut, Müştəri hutda,
Zöhrə Bəhramla bir, ləl də yaqutla.

Ay Öküz bürcündə, Tir də Cövzada,
Mərrix Şir bürcündən azca ucada.

Zühəl Dol bürcünün çiynində yatmış,
Düşməni səmadan qovub çıxartmış.

Zənəb yanaşmada Zühəl bürcünə,
Günəş quzu kimi Həməl bürcünə.

Hər bəxtəvər ülkər Müştəri sayaq,
Şahın ağ bəxtindən verirdi soraq.

O gecə dan yeri işıqla doldu,
Bəhram səadətlə əkiz doğuldu.

Atası Yəzdigürd - xambeyin, naşı -
Bildi: gətirməyib bəxti, naxışı.

Heçdi bəslədiyi bütün diləklər,
Zülmün toxumundan göyərməz şəkər.

Son iyirmi ildə neçə övladı
Olsa da, gördülər lap az yaşadı.

Göylərə göz qoyan ulduzşünaslar,
Gözəl cocuq üçün verdilər qərar:

Yollayaq Əcəmdən, Ərəbistana,
Orda bəxti gülsə, düşər dastana.

Hərənin bir yurddur verən bəxtini,
Bəlkə orda tapar səadətini.

Hərçənd el içində belə məsəl var:
Ölkə öz şahıyla səadət tapar.

Atası ayrıldı öz balasından,
Təki ağbəxt olsun oğlu bir zaman.



Süheyl üzlü Bəhram tərk etdi yurdu,
Yəmən ölkəsində təxtini qurdu.

Yəzdigürd Nemanı çağırtdırarkən,
Ləl, lalə ilə bəzəndi çəmən.

Neman gül saçaraq qoy vəcdə gəlsin,
Bir Neman laləsi bitirə bilsin.

Xosrovluq libası tiksin əyninə,
Şah ədəbi versin qaynar beyninə.

Neman qucdu onu, apardı onu,
Kəcavə eylədi öz ağuşunu.

Dənizdən şöhrətli çeşməni Neman,
İki gözü bildi, zövq aldı ondan.

Dörd il gəldi, keçdi... Bəhram mərd, cəsur,
Bir arslana döndü, boy atdı məğrur.

Şah Neman oğlunu bir gün səslədi:
- Ay oğul, ürəyim səksəkəlidi.

Burda yer istidir, hava da quraq,
Zərifdir, incədir şahzadə ancaq.

Onu bəsləməyə bir yer gərək ki,
Başının papağı deşsin göyləri.

Onu şimal yeli bağrına bassın,
Nurlu zirvələrdə qol-qanad açsın.

Zövq alsın ən lətif havadan, sudan,
Ən gözəl iqlimdə can bəsləsin, can.

Ona toxunmasın iqlim xətəri,
Saf, pakizə qalsın fitri gövhəri.

## SİMNARIN SİMASI VƏ XAVƏRNƏQ QƏSRİNİN TİKİLMƏSİ

Mənzər atasıyla getdi bərabər,
Bir sahə gəzdilər - geniş, münəvvər.

Tapdılar yüksəkdə elə bir məkan,
Bürküdən, buxardan yox bir nam-nişan.

Yoxdu o diyarda münasib qala,
Olan uğramışdı çoxdan zavala.

Ustalar sənəti əzizlədilər,
Gəlib iş yerini təmizlədilər.

Memarlar duruxdu, susdu bir qədər,
Münasib gəlmədi göstəricilər.

Axırda Nemana yetişdi xəbər:
Sənə lazım olan dilli-dilavər

Sənətkar yaşayır Rum ölkəsində,
Daşı mum eləyir od sinəsində.

Çevik, iti əlli, o incə memar
Sam oğlu Simnardı, möhtəşəm Simnar!

Sənəti, qüdrəti aləmdə məşhur,
Görənlər ellikcə ona vurğundur.

Çox qəsrlər tikmiş Misirdə, Şamda,
Hər biri kamildir quruluşunda.

Önündə rumlular hindliyə bənzər,
Tişəsindən silər tozu sinlilər.



Bənna adlansa da, can verir daşa,
O, dərs deyə bilir min bir nəqqaşa.

Ucalığı ölçən dağı andırır,
Fikri ulduzları işıqlandırır.

Nəzəri üstürlab ənkəbutunun
Tozundan tor qurur fələklər üçün.

Rumlu Bulinas tək hünər saçandır,
Rəsədlər bağlayan, tilsim açandır.

Ona bəlli göyün min sirr axını,
Günəş şərri, Ayın gecə basqını.

Gözəl qəsr umursan... Dəvət qıl onu,
Yalnız Simnar tikər belə bir donu.

O, gildən elə bir tağ ucaldar ki,
Oğurlar göylərin min ülkərini!

Neman ki, dinlədi bu ülvi rəyi,
Simnar sevgisilə yandı ürəyi.

Pul, qızıl gücünə iş gördü olan,
Onu gətirdilər rumlular Rumdan.

Neman addımını fərəhlə atdı,
Simnara rəğbəti yeddi qat artdı.

Açdı, məqsədini bildirdi ona,
Memar nə umdusa, saldı sahmana.

Yığıldı bir yerə alətlər, daşlar
Memar yardımçısı incə nəqqaşlar.

Simnar dəmir biçən qadir əlilə
O nadir sarayı yapdı beş ilə.

Qızıl barmaqları gildən və daşdan
Bir qəsr tikdi ki, sanki gümüşdən.

Qəsr ki, bürcləri ucalmış Aya,
Bir qibləgah olmuş ağa, qaraya.

İmarət zər, zinət, Simnar naxışlı,
Daşı alov rəngli, günəş baxışlı.

Qəsr bardaş quran bir fələkdi tək,
Önündə rəqs edir düz doqquz fələk.

Təngluşa xəyalı qəsrin şimalı,
Cənub divarında qürubun alı.

Nəqşi susuz üçün suya bərabər,
Yorğunlar görsələr, dincələrdilər.

Günəş parlayanda daşında par-par,
Hurilər cənnətdə göz yumardılar.

İçi behişt kimi rahatlıq dolu,
Xarici göy kimi bər-bəzək yolu.

Damı sirişümlə, südlə sığallı,
Ayna tək göstərir yaşılı, alı...

Üç dəfə dəyişir donunu hər gün,
Üç rəng bəs edərmi şux gəlin üçün?

Rənglər bəhsə girir: mavi rəng alır,
Mavi örpəyini çiyninə salır.

Günəş köynəyini çıxaran zaman,
Qəsr də günəş tək saralır əlan.

Buludlar günəşə kölgə salanda,
Ağ buluda dönüb qəsr bir anda.



Bir tül niqabı var havayla həmrəng:
Gahdan rumlu kimi, gahdan zənci tək.

Simnar öz işini bitirən zaman
Gördülər üstündür saray arzudan.

Saray bəxş eləyir göylərə şölə,
Günəş rövnəq tapır Xavərnəq ilə.

Simnara o qədər ləl saçdı Neman,
Üçdən birinə də yox idi güman.

Dəvələr yükləndi xalis qızılla,
Gövhərlə, mişk ilə, alla, yaşılla.

Şah saysız-hesabsız bəxşiş verdi ki,
Bəlkə kara gəldi bir də o kişi.

Oddan əsirgəsən odunu əgər,
Kababın çiy olar, zəhmətin hədər.

O əl ki, dirhəmlə səxavət saçır,
Kərəm dərgahının qapıçısıdır.

Görüb nəvazişi, o bənna kişi
Dedi: - Mən əzəldən bilsəydim işi,

Bundan yeddi dəfə gözəl görərdim,
Daşın əvəzinə qızıl hörərdim.

Bu qədər ənamı görsəydim öncə,
Canımı verərdim daşa, kərpicə.

Çinli naxışından alardım yardım,
Şah mənə xəzinə bağışlayardı.

Qəsr tikərdim ki, fələkdən uca,
Rövnəqi artardı dünya durduqca.

- Muzdun çox verilsə, - sordu elbaşı -
Tikə bilərsənmi bundan da yaxşı?

- Öylə tikərəm ki, - söylədi Simnar -
Bu onun yanında heç bir şey olar.

Bu, üç rənglidirsə, o yüzrəng olar.
Daşla yox, yaqutla həmahəng olar.

Bunun şölə verir bircə günbəzi,
O, yeddi günbəzlə mat qoyar sizi.

Bu cavan Nemanı tulladı oda,
Yandırdı insanlıq xırmanını da.

Şah elə oddur ki, gur şöləsindən
Arxayındır yalnız gendən seyr edən.

Şahın atəşidir gövhərlər saçan,
Qarşında gül olur, qoynunda tikan.

Üzüm tənəyinə bənzər şah bir az,
Uzaqda dayansan, sənə sarmaşmaz.

Elə ki, sarmaşdı sənə hökmdar,
Kökünü, gövdəni dibdən qoparar.

Neman düşündü ki, sağ qoysam onu,
Tikəcək bundan da gözəl bir donu.

Mənim ad-sanımı zay edər onda,
Yazdığı kitabı qaralayar da.

Neman əmr elədi iş görənlərə:
- Qəsrin zirvəsindən tullayın yerə!

Yazıq sənətkarı o qan içən şah,
Ucaltdığı dağdan necə atdı, ah!



Beş ilin ərzində bir qəsr ucaltdı,
Bircə qırpımdaca çərx onu atdı.

Bir ocaq qaladı, oduna düşdü.
Dama gec çıxsa da, tezcə sürüşdü.

Yəqin xəbərsizdi bu cür sonundan,
Yoxsa qurardımı kəhkəşan - eyvan?

Yazıq bilsəydi ki, qazır gorunu,
Üç qulacdan artıq etməzdi onu.

Təxtini elə qur, ey naçar insan,
Ordan yıxılanda zay olmayasan.

O yüksək binadan Nemanın adı
Ay kimi, gün kimi qalxıb ucaldı.

Xavərnəq hakimi saydı xalq onu.
Bir cadugər bildi bu torpaq onu.

## XAVƏRNƏQİN VƏSFİ VƏ NEMANIN YOXA ÇIXMASI

Bəhramın şövkəti verdikcə rövnəq.
Bir behişt bağına döndü Xavərnəq.

Yerin qibləsiydi göy üçün qoynu.
Aləm Çin baharı sanırdı onu.

Qəsrin şöhrətindən tutaraq xəbər.
Görməyə gəldilər onu yüz minlər.

Hər kim görürdüsə, gətirib iman.
Gözüylə öpürdü astanasından.

Üçgünbəz məbədin hər qapısından
Girənlər eldimi, yoxsa bir ümman?

Belə bir səcdəni görmüşdü məgər
Yəmənin Süheyli, Günəş, Ay, ülkər?

Ədən dürrü kimi şəfəq yayırdı,
Yəmən Süheyli hey parlayırdı.

İrəm gülşəni tək əziz Xavərnəq
Yəmənin dünyasına saçdı gur şəfəq.

Bəzədi aləmi Quzu bürcü tək,
Bəhrama ev oldu - əziz, mübarək.

Damının üstünə çıxanda Bəhram,
Zöhrə cam qaldırdı şərəfinə, cam!

Göylər qəsr gördü göy beşiyində,
Günəş - qucağında, Ay - eşiyində.

Qəsrin qucağında Günəş yanırdı,
Ay yolu üstündə çıraqlanırdı.

Payız küləyindən bir xeyli uzaq
Yellər yaz nəfəsi gətirir ancaq.

Qəsrin dörd tərəfi bir geniş sahə,
Burda behişt açıb hansı ilahə?

Əyil, iç... dupduru qanovlar boyu
Axır Fərat suyu, dirilik suyu.

Sidrəyə ucalan Sedirin yanı
Yağla, südlə zəngin bir kənd meydanı.

Ön səhra, arxasa çəmənzar idi,
Müşkdən ətirli mehi var idi.

Kəyanlar qəsrində Bəhramla qoşa,
Neman gözəlliyə qılır tamaşa.



Behiştdə nə görür? Lalə qızılı,
Əngin əkinləri tutan yaşılı.

Çöl - Şüştər büsatı... Dağ kəklikləri,
Qırqovul qaqqıldar nə vaxtdan bəri.

- Məgər bundan gözəl yer ola bilər?
Şadlanmaq gərəkdir, ey şadlıqsevər!

Nemana bildirən bu incə hissi,
Əlinin altında məşvərətçisi.

Mətin hüquqşunas, Məsihapərəst,
Dedi: - Get, Tanrını dərk et sən dürüst!

Tanrını tanımaq hər şeydən üstün,
Bomboş bər-bəzəkdən, bu rəngdən üstün!

Bu sözlər qəlbinə qığılcım saldı,
Nemanın sərt qəlbi azca yumşaldı.

Yeddi hasarını çəkəndən bəri
Çərx eşidib məgər bu cür sözləri?

Neman yerə endi o yüksəklikdən,
Səhraya şir kimi üz qoydu birdən.

Atdı xəzinəni, şahlığını da,
Çünki uyğun gəlməz din ilə dünya.

Süleyman mülkündən əl çəkdi Neman,
İtdi, pəri kimi gizləndi xalqdan.

Kimsə öz qəsrində görmədi onu,
Öz zəmanəsinə Keyxosrov oldu.

Münzir ora-bura çox qaçdısa da,
Almadı hatifdən bir əks-səda.

Necə lazım idi, ona yas tutdu,
Matəm sovuşsa da, sanma unutdu.

Kədər mənzilindən əyləşdi bikef,
Qaraldı ahının tüstüsündən ev.

Təxtindən, bəxtindən keçə bilmədi,
- Yenə təxtə, taca güvənim! - dedi.

Zülmə xitam verdi, saçdı ədalət,
Bir az qaydasına düşdü məmləkət.

Ölkəyə yaxşıca başçılıq etdi,
Şah əsirgəmədi ondan xələti.

Bəhramı canı tək əziz tutdu o,
Sevdi atası tək, atadan da çox!

Onun Neman adlı bir oğlu vardı,
Bəhramın yaşıdı, Bəhram qanadı.

Onlar süd əmmişdi eyni dayədən,
Dərs öyrənmişdilər eyni lövhədən.

Qapı açardılar, nur saçardılar,
Məclisdə ağızdan dürr saçardılar.

Bu ondan, o bundan ayrılmazdı heç,
Nur günəşdən ayrı duyarmı sevinc?

Bir neçə ildi ki, cavan şahzadə
Kəmalə yetirdi uca qəsrdə.

Ağlı tez tapırdı elmin yolunu,
Yalnız öyrənməkdi cəzb edən onu.

Ona muğ öyrətdi ədəb və qayda,
Ərəbcə, farscanı, yunancanı da.



Münzir, məhəbbətli, məharətli şah
Göylər hesabından necə də agah!

Yeddi ulduz ilə on iki bürcü
Sandıq tək açmağa çatırdı gücü.

Həndəsi xətləri Məcisti kimi
Necə düz çəkirdi mahir qələmi.

Çərxi qətrə-qətrə onun qətrunu
Heç bilsən necə də dürüst ölçmüşdü.

O, elmin ən dərin güşələrindən
Həssas qəlbi ilə xəbər gətirən!

Gördü ki, şahzadə fərasətlidir,
Elmə sirr açmağa məharətlidir.

Qoydu qarşısına lövhəni, mili,
Göyün sirlərini öyrətdi, bəli.

Açdı birər-birər bilməcələri,
Yerə, göyə bağlı kələfçələri.

Nələri, nələri öyrətdi ona,
Calaq cümlələri öyrətdi ona.

Bilikdən o qədər bəhrələndi ki,
Bir günəşə döndü Bəhramın beyni.

Zic, ulduz cədvəli, üstürlab bəzən
Niqabı salırdı qeybin üzündən.

Qoyub qarşısına mili, lövhəni,
Açırdı göyləri tutan pərdəni.

Deyib-eşitməkdə mahirdi Bəhram,
Silah işlətməkdə qadirdi Bəhram.

At üstə, cıdırda necə mahirdi,
Çövkanı günəşi tuta bilirdi.

Boy atdı. Sındıran gördülər onu
Şirin caynağını, qurdun boynunu.

Nizəatan görüb o süvarini
Dan yeri tullardı öz süpərini.

Oxuyla tikərdi daşı kəsəyə,
Elə bil tikilmiş tirmə ipəyə.

O, nişan alanda, inan, hər dəfə
Yüz oxu dəyərdi eyni hədəfə.

Daşın təpəsinə qılınc vuranda,
Qaynar su olurdu o daş bir anda.

Nizəsi önünə darı da çıxsa,
Nizəsi ucunda olurdu halqa.

Silib xəzinənin qıfıl pasını,
Boynundan açırdı şir xaltasını.

Ox atmaq elmində ötüb çoxunu,
Qıldan keçirirdi sərrast oxunu.

Uzaqda nə görsə: kölgəni, nuru,
Atardı, vurardı o el cəsuru.

Bəzən görmədiyi bir nişanı da
Oxlaya bilərdi bəxti duranda.

Sürünü qoruyan şir ürəklilər,
Onun şirliyilə öyünərdilər.

Gah bəbir üstünə at sürürdü o,
Gah da qızmış şirə əl verirdi o.



Bəhramdı Yəməndə hər sözün duzu.
Başqa bir adı da Yəmən ulduzu.

## BƏHRAMIN OVA ÇIXMASI VƏ GURLARI DAĞLAMASI

Bəhram camalının Süheyl işığı
Yəmən dərisindən aldı xamlığı.

Süheyl ulduzundan dəri nə qapdı,
Münzir də şadlığı eləcə tapdı.

Bəhramın hünəri ləl etdi daşı.
Münzir də şadlığı eləcə tapdı.

Bəhramın hünəri ləl etdi daşı,
Münzir ata oldu, Neman qardaşı.

Atalıq, qardaşlıq hələ bir yana,
Münzir başbiləndi, Neman qul ona.

Bu, - elm öyrənməkdə onun rəqibi,
O, - bəzm ocağında bir atəş kimi.

Bu, ona elmdə mətanət verir,
O, at oynatmaqda fəxarət verir.

Bəhram əzəməti, Bəhram hünəri
O qədər artdı ki, tutdu göyləri.

Nəydi işi, gücü? Şərab və şikar.
Özgə işdə onun nə ölümü var?

Ovlaqda gur üçün sinov gedirdi,
Heç ölü də gordan qaça bilərmi?

Görsə atdığı ox kamandan uçur,
Gözündə özünə kor tapardı gur.

Yürüşdə asudə, yerişdə sərrast,
Yel ayaqlı atı necə də rahat.

Sındırır sındırmaq istəyənləri,
Ayaq yox, qanadla uçur irəli.

Tapır da, qapır da o, yürüş günü,
Günəşin topunu, Ayın qürsünü.

Bir azca qohumdu fələk çərxinə,
Ötüb küləyi də, çıxardı önə.

Yüz ilan qıvrımı bir quyruğu var,
Min gura gor qazmış şimşək dırnaqlar.

Bu at ov zamanı yaydan çıxan ox,
Başqa bir miniklə gəncin işi yox.

O gur dırnaqlını yəhərləyərkən,
O gur yerişliyə deyərdi: - Əhsən!

Geridə qoyardı atlar xasını,
Dırnağı deşərdi gur sağrısını.

Olsaydı canında yorğunluq dərdi,
O yel yerişlini yəhərləyərdi.

Elə ki, üz tutdu şikarıstana,
Ov yeri dönərdi nigarıstana.

Nə qədər ceyranı, guru yıxardı,
Daşdan, qayadan çox çəkisi vardı.

Dağda, dərədəki dərin çuxurlar,
Şikar cəsədilə olmuşdu hamar.

Dağlardan atlanır at belində şah,
Yürüş tozlarından fələk də agah.



Kəmənd atan zaman bu ov cəsuru,
Dipdiri tutardı yüzlərcə guru.

Gurların çoxunu incə fənd ilə,
Ya əllə tutardı, ya kəmənd ilə.

Yüz gur da tutsaydı qıymazdı ona -
Dörd yaşı hələlik tam olmayana.

Dörd yaşa dolmamış gurlar ki, vardı,
Qanını, ətini haram sayardı.

Yazardı adını gurun buduna,
Səhra sərdarlığı verərdi ona.

O dağlanmış guru tutsa ovçular,
Mində bir olsa da ov saymazdılar.

Şahın damğasını, dağını görən
Əyilib öpərdi o dağ yerindən.

Bəndə düşən guru azad edərdi,
Azadlıq tapanın daha nə dərdi?

Sultan damğasını daşıyırıq biz,
Sürək, büdrəməsin can köhləmimiz.

O damğalı gurlar Bəhram çağında
Qurtula bilirdi zülmün dağından.

İndi zülm əlilə damğalanmamış
Bircə qarışqa da bəlkə qalmamış.

## BƏHRAMIN BİR OXLA ŞİRİ VƏ GURU ÖLDÜRMƏSİ

Başında Yəmənin mərd igidləri,
Ovlaqdan ovlağa gedir irəli.

Bəhram - Gur çağırır bu ellər onu,
Fələyin, Marsın da udub topunu.

Nəfəs dərə-dərə keçir ovlaqdan,
Qarşıda Münzirdi, arxada Neman.

Onlar hər ikisi Bəhrama heyran,
Bəhram əzəmətli ovçu, pəhləvan.

Uzaqdan nagəhan bir tozmu qalxdı,
Elə bil Yer göyü çiyninə taxdı.

Şəhriyar köhləni məhmizləyərək,
Həmən toza tərəf yönəldi yel tək.

Nə gördü? Qüvvətli, pəncəli bir şir,
Gurun peysərini az qala deşir.

Götürdü kamanı, pusquya durdu,
Oxdandan ox alıb yayını qurdu.

Ox ucu biz kimi... Çəkdi kirişi,
Qoy gurun üstündən rədd olsun bu şir.

Ox uçdu yayından ildırım kimi,
Deşdi şirlə gurun çiyinlərini.

Zirehi qırmağa qüdrəti çatan
Ox batdı torpağa haçasınacan.

Şirlə gur yıxılıb həlak oldular,
Oxun lələyində gördülər qan var.

Elə ki, yayından buraxdı oxu,
Şah qalxıb kamanı əlində tutdu.

Belə bir şikarı gördü ərəblər,
Əcəm şahlığını çox bəyəndilər.



Gəlib şəhriyarın əlini öpən,
Min əhsən deyirdi ovçuya, əhsən!

- Arslandan güclüsən, ulu şəhriyar!
Onu Bəhram-Gur şah adlandırdılar.

Qayıdıb şəhərə çatdılarsa da,
Qaldı xeyli müddət qulaqda səda.

Münzir əmr elədi xadimlərinə:
- Rəssamlar daşdara can versin yenə.

Zərlə Xavərnəqi naxışlasınlar:
Altda gur, üstündə şir, qanlı şikar.

Şahın atdığı ox guru, şiri də,
Öldürüb iki can çarpışan yerdə.

Rəssam bu surəti elə çəkdi ki,
Hər kim görürdüsə canlı bilirdi.

Deyirdi: - Yar olsun yaradan sənə,
Ey şah, səcdə qılır bu cahan sənə!

## BƏHRAMIN ƏJDAHANI ÖLDÜRMƏSİ VƏ XƏZİNƏ TAPMASI

Bəhram kef çağında, behişt bağında
Gəmi tək üzürdü mey qucağında.

Bir neçə orağı çəkdi başına,
Yenə səhra ilə oldu aşina.

Gur üçün gor qazmaq əzəli fəndi,
Öncə oxu atdı, sonra kəməndi.

Öncə zor işlədib gur ovladı ki,
Doldu yaralıyla səhra çökəyi.

Axırda bir madyan gəldi, nə gəldi.
Səhraya vəlvələ, zəlzələ gəldi.

Onun alnı açıq, üzü tər-təzə,
Bir ruh xəyalı tək göründü gözə.

Ombası - sığallı, qızıl bir şüşə.
Qarnı süd qarışıq şəkərə guşə.

Dərisi boynundan dırnağınacan
Xal-xal... hər cizgisi rayihə saçan.

Boynunda bir zolaq zünnar yerinə,
Alnı zər ipəkmi, nar gülü rəngdə?

Sağrısı, əndamı, boyu-buxunu
Udmuşdu hamının cəmal topunu.

Göy çəmənə qohum bir tonqaldımı,
Dərviş geyimində gülcəmaldımı?

Baldırı qəhrəman oxuna bənzər,
Qulağı - sıyrılmış alması xəncər.

Boynu uzaq idi qulaqlarından,
Çiyinləri hamar, sinəsi meydan.

Belinin zolağı qara ədimdən,
Yəhər qaşlarını bağlayan örkən.

Dərisində tismə - bir qara qaytan,
Qaralan gümüş tək gözəldi, inan.

Böyrü piylə dolu, peysəri qanla,
Əqiq də, dürr də onunçün bəla.

Elə bil geyinmiş tünd qırmızı xəz,
Boynunda al zolaq - al qana əvəz.



Hər bir qan damarı bir kəmərdimi,
Zənci hoqqabazı, cadugərdimi?

Sağrısı, quyruğu həmahəng, dəmsaz.
Dırnağı boynuyla oynar oyunbaz.

Bəhramı görüncə qanadlandı gur,
Bəhram da ardınca at çapdı məğrur.

İldırım sürətli o gur qaçağan,
Gur tutan gənc isə yürüşdə arslan.

Qaçdılar səhərdən günortayacan,
Cavan şir bəs guru yaxalar haçan?

Cilov gəmirən at əl çəkmir gurdan,
Gur necə qurtulsun məzardan, gordan?

Öndə gur, arxada gurların xanı,
Öz goru ardınca getməyən hanı?

Çatdılar ucqarda bir mağaraya,
Bir qədəm dəyməmiş hələ oraya.

Ovçu ov üstündə yorğundur daha,
Kahada nə gördü? Yatmış əjdaha.

Sanki qıvrılmışdı qırdan tökmə dağ,
Niyyəti ovlamaq, yırtıb dağıtmaq.

Qara tüstü rəngli bir atəşdimi?
Tüstüdən qurtulan bir dudkeşdimi?

Cəhənnəm maliki, ölüm elçisi,
Meyvəsiz, yarpaqsız ağac gövdəsi!

Mağara ağzı tək genişdi ağzı,
Onu məhv eləmək ən yaxın arzu!

Tox idi, yemişdi gur balasını,
Ov üçün açmışdı yenə ağzını.

Şah görüb əjdəri, əjdərə döndü,
Şər, bəla dağıdır dayanan öndə!

Gor dərdi söndürdü gur həvəsini,
Sıxdı ayaqları Yer kürəsini,

Heyrətlə düşündü: - Nə hikmətdi bu?
Məni gətirməkdə nədir arzusu?

Məndən nicat umur bəlkə yazıq gur,
Onu əjdahanın zülmü qovubdur.

Məni səsləyib ki, bilim kamını,
Alım əjdahadan intiqamını.

Gur yox, əjdahadır... bundan mənə nə?
Məni xəcil edər bu cür bəhanə.

Gur insaf umur ki, haqqını alsın.
Candan qorxummu var? Nə olur, olsun!

Haçadil oxların arasından o,
Seçdi qaçıvari, ildırım bir ox.

Ağacı ağ tuzdan kamana qoydu,
Qara, tox əjdaha nişanı duydu.

Qanlı gözlərini gen-gen açanda,
Haça ox kamandan çıxdı bir anda.

Hər iki gözünə batdı haça ox,
Dünyanı görməyə daha macal yox.

Oxun iki ucu andırır bizi,
Qara əjdahanın töküldü gözü.



Daraldı meydanı tox əjdahanın,
Kəsdi nəfəsini şah əjdahanın.

Soxdu boğazına iti xəncəri,
Yırtdı bədənini şir biləkləri.

Cırıb səkkiz qarış böyrünü yardı,
Çəkdi ciyərini dibdən qopardı.

Dəhşətlə bağırdı əjdaha necə?
Köksüz ağac kimi sərələnincə.

Qorxdumu şah onun dağ cüssəsindən?
Bulud heç qorxarmı dağ zirvəsindən?

Kəsdi əhrimənin başını... əhsən!
Yaxşıdır düşməni ölmüş görəsən.

Yardı əjdahanı xəncərin ağzı,
Qarnından nə çıxdı? Bir gur balası.

Şah bildi ki, qeyzi güc gəlib gura,
Onu qisas üçün çağırıb bura.

Tanrıya şükr etdi, dua qıldı çox,
Əjdəri öldürüb, əjdər onu yox.

Qalxdı ayağa ki, atını tapsın,
Gur ovlamaq üçün ovlağa çapsın.

Ancaq o dişi gur vermədi aman,
Gəlib qarşısında elədi cövlan.

Guru tutsun deyə o ər oğlu ər,
Darısqal kahaya girdi birtəhər.

Güclə, çətinliklə can atdı önə,
Qəfildən nə gördü? Zor bir xəzinə.

Xosrovlardan qalmış küplər nə qədər,
Eldən pəri kimi gizlənmişdilər.

Küplərə göz qoydu o Gur-gur xanı,
Düşünüb tərk etdi dar gorxananı.

Yolunda gəbərmiş əjdəri kəsdi,
Xəzinə açarı əlində əsdi.

Darısqal kahadan çıxdı birtəhər,
Hanı yol? Hanı bəs yolgöstərənlər?

Qoşun başçıları yollar yorğunu,
Bir saatdan sonra tapdılar onu.

Dərədən keçdilər, dağdan endilər,
Şahın dövrəsində cərgələndilər.

Şah buyuruq verdi: - Beş-on pəhləvan,
Çəkili, cüssəli cəsur, şirboğan.

Gedib xəzinəni aşkarlasınlar,
Dəvələr yüklənib zər qalasınlar.

Üç yüz cavan dəvə yola düzəldi,
Ovsarı çəkənlər kahaya gəldi.

Əjdahanı gurun əsiri etmiş,
Əsir olanların dadına yetmiş.

Şah öz zəhmətinin önündə, əlbət,
Həm xəzinə tapar, həm də səadət.

Xavərnəq qəsrinə qayıdan kimi,
Qızıllar payladı qızıl hakimi.

Padşaha göndərdi on dəvə yükü,
Ərməğan şad qılar qəlbi böyüyü.



Münzirlə oğluna on dəvə yükü
Çatdı xəzinədən pay - ülüş, bölgü.

Qorxmadan sərf etdi o qədər varı,
Həm katibi gördü, həm hesabdarı.

Neçə xəzinənin ağzını açdı,
Tamam laqeydliklə ləl, inci saçdı.

- Çağırın nəqqaşı! - buyurdu Münzir, -
Bu qəsrə can versin bir yeni təsvir.

Mahir qələmini götürdü rəssam,
Rəsmində canlandı əjdaha, Bəhram.

Nəqqaşın fırçası, boyası, zəri,
Qəsrə hakim etdi o dilavəri.

## BƏHRAMIN XAVƏRNƏQDƏ YEDDİ GÖZƏLİN ŞƏKLİNİ GÖRMƏSİ

Səhradan qayıtdı şah öz yerinə,
Gözəl Xavərnəqin çıxdı seyrinə.

Bir salon gördü ki, qapısı bağlı,
Bağlılar həmişə sirli, maraqlı.

Nə açarçı gəlmiş oraya bir dəm,
Nə də şahın özü basmışdı qədəm.

- Hardadır açarçı? Açar bəs hanı?
Neçin qıfıllıdır bu sirr məkanı?

Açarçı tez gəlib açarı verdi,
Şah açdı qıfılı, baxdı, nə gördü?

Bir zal ki, zəngindi xəzinə qədər,
Görənin gözləri cəvahir ölçər.

Zal - Xəta mülkünün nigarxanəsi,
Şəkillər sərgisi, rəsmlər dəsi.

İncə, seçmə işlər varsa nə qədər,
Hamsı divarları bəzər, güldürər.

Bu zalda əksi var yeddi gözəlin,
Hər biri rəmzidir böyük bir elin.

Budur, hind racının balası Furək,
Şəkli Aydan parlaq, ulduzdan qəşəng.

Budur, xaqan qızı - Təbriz löbəti,
Yəğmanaz adında bir Çin afəti.

Zərif dağ kəkliyi, aran dilbəri -
Xarəzmin elçisi, gözəl Nazpəri.

Nəsrin-nuş, - Türk qızı, Səqlabşah qızı -
Cəzb edir Çin səbki, Rumi libası.

Günbatan şahının qızı Azəryun,
Gün kimi işıqlı, Ay kimi dolğun.

Budur, qeysər qızı...Varmı ona tay?
Özü humayundur, adı da Humay.

Keykavus nəslindən Kəsranın qızı
Dursiti tavusmu, ya gül butası?

Həmayil bağlayıb yeddi həlqədən,
Rəssam ruh almışdı nurdan, kölgədən.

Gözün gövhərini işıqlandıran
Yeddi qız, yeddi nur, yeddi asiman!

Yeddi gözəl ara dayanıb Bəhram,
Bəhram - badam içi, gözəllər - badam.



Təzə xətli gəncdir, kəmərində dürr,
Ay üzdə qaliyə xətlər görünür.

Gümüşü tacından kəmərinədək
Sərvində neçə dürr, neçə bər-bəzək.

Bütlər gözlərini dikmişdi ona,
Hər biri hazırdı can verə cana.

Sənəmlər igidə səcdə qılırlar,
İgidin gözündə saf bir gülüş var.

Rəssam şəkil çəkib, vurub min naxış,
"Bəhram-Gur" adını altına yazmış.

Bu yeddi ulduzun hökmü belədir:
Taxta əyləşəndə bizim cahangir

Yeddi şah qızını, yeddi iqlimi
Bağrına basacaq yetim dürr kimi.

Tale tumu əkən bizikmi? Bir bax:
Ulduzlar deyəni yazırıq ancaq.

Ulduzlar göstərir, necədir təqdir,
Tanrıdan düzəltmək, bizdən deməkdir.

Bu əfsanə əksi seyr edib tamam,
Fələyin sehrinə mat qaldı Bəhram.

O Ay üzlülərin ovsunu, virdi,
Bəhrəmin qəlbinə girdi, nə girdi!

Qızmış ayğır ola, dətələb madyan,
Yeddi gəlin ola, şir kimi oğlan!

Necə qaynamasın şəhvət, məhəbbət?
Ürək - kama çatmaq istəyən qüvvət?

Bəhramın yolunu şəkilmi kəsdi,
Sevincdən, şadlıqdan varlığı əsdi.

Qətiyyət gətirdi bu rəsm ömrünə,
Yönəldi məqsədə, o böyük günə.

Ümiddir cahanda ən yaxşı iksir,
Səbr də, təmkin də ümiddən gəlir.

Şah çıxdı, salonu qıfıllayaraq,
Verdi açarı da açarçıya, bax.

Dedi: - Yadda saxla, bu yerdə kimsə
Açıb bu qıfılı içəri girsə,

Qanını tökəcəm elə burdaca,
Kəsəcəm başını, eşit, ey qoca!

Bu əmri eşidən kimi, qız, qarı,
Bir daha baxmadı o zala sarı.

Xumar çağlarında ancaq arabir
Görürsən, şah özü bu zala gəlir.

Əlində açarı girir behiştə
Baxır göz dolusu yeddi afətə.

Yamandır, su ola, susuz qalasan,
Yuxuda da onu arzulayasan.

Bayırda başını qatır şikarla,
Qəsrdə dərdləşir yeddi nigarla.

## ATASININ VƏFATINDAN BƏHRAMIN XƏBƏR TUTMASI

Bir gün Yezdigürdə xəbər verdilər:
Meydanda Bəhramgur olmuş şiri-nər.



İldırım pəncəsi arslanı ovlar,
Oğlun - təzə qaplan, köhnə canavar!

Önündə şir dönür qoca köpəyə.
Əjdahanı toz tək sovurur göyə.

Divləri bağlayır onun kəməndi.
Dağları əridir məğrur səməndi.

Qılıncı döndərir qayanı quma,
Toppuzu, dəmiri xəmirə, muma.

Gənclik atəşindən qorxdu atası.
Yaşasa, çıxacaq, bildi, xatası.

Oğlunu od tutan bir meşə sandı,
Atəşdən çəkinən şir kimi yandı.

Saxladı oğlunu gözdən uzaqda.
İşıqsız bir gözdür oğulsuz ata.

Bəhram gecə-gündüz şikarda, çöldə,
Gah əlində badə, gah at belində!

Tələsir, canıdır bir meyl, bir şikar,
Süheyl ulduzu tək Yəməndə parlar.

Onu Yəmən şahı sevir, sevəcək
Eşidir hökmünü göyün hökmü tək.

Heyrandı zehninə, fərasətinə,
Onu hakim qoydu vilayətinə.

Qılınc bağışladı, üstəlik gövhər,
Canını istəsə, məgər əsirgər?

Bəhramın zərrəcə dərdi, qəmi yox,
Zəri, xəzinəsi, cəvahiri çox!

Qürbətdə o qədər qayğı var ona,
Ata vilayəti düşmür yadına.

Hərləndi fələyin hündür təkəri,
Bir gün də yetişdi oyun xəbəri.

Yəzdigürd təxtindən, tacından doydu,
Yoxuşdan enişə yazıq üz qoydu.

Atadan, babadan qalan tacü-təxt,
Kəsir vəfasını bir gün əl-əlbət.

Elə ki, padşahın boş qaldı tacı,
Xalq, ordu birləşib gəzdi əlacı.

Bir də olmasınlar əjdahaya qul,
Taxtına çıxmasın ondan bir oğul.

Hərçənd ki, Bəhrama taleyi yardı,
Biliyi, qılıncı, qol gücü vardı.

Ancaq atasının cinayətləri,
Qoymurdu görsünlər həmin hünəri.

- Heç saya salmayaq onu! - dedilər,
Boş qalmış tacdan da tutmasın xəbər.

Ərəbcə dərs almış səhraya bir şəxs,
Əcəm dünyasına baş ola bilməz!

Verər xəzinəni ərəbə birdən,
Farslar zülm çəkər onun əlindən.

Heç kim istəmədi otursun taxta,
Təkcə Tanrı verdi tacı xoşbəxtə.

Xalq və ordu seçdi müdrik bir qoca.
- Yalnız o, layiqdir, - dedilər, - taca.



Tacidar, şəhriyar soyu yoxsa da,
O, fər gövhərindən yoksun olsa da.

Yeddigöz kəməri ona verdilər,
Başına tac qoyub, duz çevirdilər.

Bəhram - Gur bildi ki, bitib tamaşa,
Göylər ilk dövrünü çatdırıb başa.

Bir dövran açılır təzədən yəqin,
İşi tərsinədir keçmişdəkinin.

Əlindən çıxıbdır ata sərvəti,
Heç kim istəmir ki, tuta dövləti.

Özgənin ayağı dirənib taxta,
Bu fitnə nə qədər yaramaz, saxta!

Öncə matəm tutdu öz əzizinə,
Firuzə don geydi əqiq cisminə.

Sonra qərar verdi: şir kimi cumsun,
Düşmənin ağzını qılıncla yumsun.

Açsın vuruşların darvazasını,
Təslim olmayanın tutsun yasını.

Sonra düşündü ki, vəhşilikdi bu,
Gərək nə göstərir idrakın yolu.

İranlı çox görür tir tacı bizə,
Sərhəd çəksələr də istəyimizə.

Gərək mən onlara bəsləməyim kin,
Bu işin açarı yumşaqlıq, təmkin.

Bu it ürəklilər öz şikarımdır,
Sürümdə otlayan qoyunlarımdır.

Baxma, pambıqları, yunları da var,
Mənim döşəyimdə yatırlar onlar.

Vəfasız, daşürək olsunlar, nə qəm,
Xəcalət çəkərlər sabah, əminəm.

Xəcalət gətirər mərdə xəyanət,
Xəcalət dalınca gələr qüssə, dərd.

Görsən bundan savay nə kimi zillət,
Zülmün vuran əli, qoludur, əlbət.

Onlar əl çəkdilər ağıldan tamam,
Onları ağılla ram edərəm, ram.

Ovun arxasınca tələssə kişi,
Yayınar hədəfdən, uduzar işi.

## BƏHRAMIN İRANA QOŞUN ÇƏKMƏSİ

Söz qoşan cadugər, söz dedin, yetər,
Deyilmiş sözlərdən axı nə səmər?

Gülbahar nəfəsli qönçədir ağzın,
Bəs hanı öz sözün, hanı öz arzun?

Əhdi dürüst olan Tanrıma dedim:
Yeni söz deməkdir mənim də əhdim.

Sözü çeynəyənlər çoxdan lül-xumar,
Biz badə sunuruq, onlar yatıblar.

Mənim tamahım yox özgə sözündə,
Oğrular tez düşür elin gözündən.

Yamaqla, quraqla heç bir işim yox,
Bahar nəfəsliyəm, könlüm, gözüm tox.



Köhnəni deməklə mənim nə işim,
Mən gərək pakizə düzləri deşim.

Lakin xəzinəyə yollarımız bir,
Ox iki olsa da, hədəf eynidir.

Bəzi mətləbləri etsəm də təkrar,
Əlimdə kilim də zərxara olar.

Sözün kimyasına bələd iki ər,
Köhnə mətləbləri təzələyiblər.

O, misi döndərib bir gümüş nala,
Bu isə gümüşü xalis qızıla.

Misi məgər azmı gümüşləndirən?
Gümüşdən zər yapan bir zərgərəm mən.

Sapa mirvari yox, ürək, can verən,
Mərcanı beləcə düzdü yenidən:

Elə ki, Bəhram-Gur agah oldu ki,
Bir yad oğurlayıb onun təxtini,

Göydən zər tacını tələb edərək,
Qəzəb qurşağını bərk bağladı, bərk!

Nəman Münzir oğlu yetdi dadına
Ki, şah yiyələnsin cahan taxtına!

Verdilər nə qədər xəzinələri,
Deşik, qeyri deşik dürrü, gövhəri.

Bəhram qoşun yığdı həddindən artıq,
Coşdu, təzələndi canda qeyz, ancaq.

Yəməndən Ədənə yüz min süvari
Hazırdı dağıda bütün sədləri.

Hamsı div bağlayan, qalalar açan,
Daş, dəmir çeynəyən, od-alov saçan.

Zireh geyimli şir - döyüş bayrağı.
Qılıncı - ölkənin dayağı, dağı.

Şah başçılıq etdi zor bir orduya,
Nəm balığa çatdı, toz-torpaq aya.

Bürünc küp naləsi, karanay səsi,
Zəhri, bağrı yaran təbil zərbəsi.

Qalxır, havalanır göylərə qədər,
Dəyir nağaraya möhkəm zərbələr.

Şeypur sədasından, gurultulardan
Yer altı, göy qatı - min qaynar qazan.

Kin - cəhənnəm odu. Ordu, min-min ox.
Bəlkə qarışqadan, çəyirtgədən çox.

Yəməndən getdilər tac olan yerə,
Şahın paytaxtına, ən zor şəhərə.

Qoca ki, qəsb etmiş cahan taxtını,
Gördü gənc əjdaha güdür baxtını.

Göy yerə meyl edib buyurur özü:
Yəməndən parlasın Süheyl ulduzu.

Açıb pəncəsini erkək bir arslan,
Düşməni gur bilib gor qazan olan.

Tutub taxtı, tacı almaq istəyir,
Toz yatıran qüvvət olmaq istəyir.

Yığıldı saraya adlı-sanlılar,
Möbidlər, bir çıxış, yol arayanlar



Məşvərət eyləyib rəy söylədilər,
Üsyan qaldırmağa dal çevirdilər.

Axırda gəldilər vahid qərara:
Bir məktub yazsınlar gənc şəhriyara.

Ağıllı söz yazıb nəqşə çəkdilər,
Qabıqdan çıxmamış tumu əkdilər.

Sözü incələyən katib işlədi,
Yazdı olmuşları müfəssəl, ciddi.

Yazılmış məktubu büküb getdilər,
Təqdim qılmaq üçün səfər etdilər.

Atdan düşən kimi salam verdilər,
Gənc şahı alqışla əzizlədilər.

Hacıblər işinin üstünə qondu,
Qəbul istəyənlər qəbul olundu.

Bəhram əmr elədi, nitqində təmkin:
- Elçilər uzaqdan yaxına gəlsin!

Gəldi qorxa-qorxa elçilər önə,
Tapındılar şahın böyüklüyünə.

Ən ağıllı qasid: - Günaydın! - dedi,
Məktubu öpərək təqdim eylədi.

Katib qırdı möhrü, üz tutdu şaha,
Oxudu məktubu ulu dərgaha.

## İRAN PADŞAHININ BƏHRAMA MƏKTUBU

"Bismillah! Bu kəlmə nicat verəndir,
Bütün azğınlara yol göstərəndir.

Yerləri, göyləri xəlq edən Tanrı,
Yoxluğa varlığı bəxş edən Tanrı!

Adamlardan tutmuş heyvanlaradək,
Fələkdən dağlara, ormanlaradək,

Vurub milyon-milyon varlığa naxış,
Öz nəqqaş evindən səxavət saçmış.

Heç bir bağlılığa təmənnası yox,
Aləmin ikinci bir xudası yox.

Bütün tilsimləri qırmış da mehri,
Adına vurulmuş sitayiş möhrü.

Zəminlə zamanın odur sahibi,
Zəmin də, zaman da hökmünə tabe!"

Bildirib Tanrıya alqışlarını,
Məktub salamlayır şəhriyarını.

"Ey ulu şahzadə, ey qüdrətli şah!
Başı çərxə dəyən ey ulu dərgah!

Məğrur şah oğlu şah, bir yetir diqqət:
Mərdə qiymət verən ədalətli mərd.

Kəsranın adını daşıyan mənəm,
Ədavət salsınlar qoy xamlar... Nə qəm!

Mən həm hünərməndəm, həm dünyagörmüş,
Bu aləmin gözü məni xoş görmüş.

Bəxtim dəm vurmada hünərlərimdən,
Onsuz çatardımmı təxtə, taca mən?

Başı ucayam ki, təxtim, tacım var,
Heç zaman alçalmaz başı ucalar.



İnsanlar, pərilər sərkərdəsiyəm,
Dünya başçısıyam... Bəs nədir bu qəm?

Şad ola bilmirəm şah olsam belə,
Çün zəhər qatılmış yediyim bala.

Qüdrətim ümmandır, bacarığım dağ,
Ulduzum həmişə işıqlı, parlaq.

Bununla yetinsəm, görməzdim xətər,
Xətərdən uzaqmı uca rütbələr?!

Lakin neyləyim ki, bu iranlılar
Məni utandırdı, dilə tutdular.

Məcbur etdilər ki, əyləşim taxta.
Başım uca olsun bu çətin vaxtda.

Fənadan qoruyum bu məmləkəti,
Keşik çəkmək imiş şahlıq sənəti.

Nağıllarda gəzən bir məsəldi bu:
Xalqa dost olana düşməndi arzu.

Belə bir aləmdən sən bixəbərsən,
Başqa bir aləmə başçı, rəhbərsən.

Gurlara şah olmaq üstündür, inan,
Bu qovğalı çağın şahı olmaqdan.

Bir rud türküsüylə içilən badə
Dünyadan üstündür, məncə, dünyada.

Meydən, ondan savay bir işinmi var?
Ağrımaz başını ağrıtma zinhar.

Xoş gün tək sənindir, əslinə baxsan,
Heç kəsin dərdinə baş qoşmayırsan.

Meylə, ovla keçir gündüzün, gecən,
Lətif yemək, yuxu zövqün, əyləncən.

Xalqın gecə-gündüz dərdini çəkən
Mən kimi şadlıqdan uzaq deyilsən.

Həm dost qadasını almaqdır peşəm,
Həm də düşmənlərdən qorxu çəkmişəm.

Tac üstə səninlə pəncələşməyim
Mənimçün bir cüzi dərd olar yəqin.

Sən bəxtəvərsən ki, damağın çağdır,
Boylə fitnələrdən başın uzaqdır.

Ey kaş, sənin peşən mənə yar ola,
Azca nəfəs dərəm, xoş rüzgar ola.

Mən də eyş-işrətdə olsam, nə dərdim?
Şərabla, çalğıyla can bəsləyərdim.

Demirəm, şahlıqdan yoxdur xəbərin,
Dövlətdən, dindən də agahsan yəqin.

Yurdun, doğrudan da, sənsən varisi,
Halalca haqqındır şahlıq vergisi.

Atan bir azca xam, naşı oldu çün,
Tacın kölgəsindən sən uzaq düşdün.

O qədər zülm etmiş o, rəiyyətə,
Daha gedən də yox heç şikayətə.

Zalim rəvac verdi min cinayətə,
Xalq onun zülmündən gəldi dəhşətə.

Atan azğınlıqda, quzğunluqda tək,
Cövr etdi, nə qədər qanlar tökərək.



Onun toxumunu, inan ki, heç kəs,
Heç kəs bu torpaqda əkmək istəməz.

Sənin şahlığına kimdə var istək?
Yaxşısı budur ki, şahlıqdan əl çək!

Coşsan, od-alovla qarşılaşarsan,
Bu soyuq dəmiri çox döymə, dayan!

İstəsən, gizlicə xəzinələrdən
Qızıl göndərərəm mən sənə hərdən.

Sənin bütün xərcin mənim boynuma!
Söylə, nə istəsən, sabaha qoyma.

Naibin olaram şahlıqda sənin,
Gözüm üstündədir hər bir istəyin.

İtaət qılaram sənə qul kimi,
Qalmaz ürəyinin bircə mətləbi.

Xalq məndən doyarsa, sən yenə sənsən -
Təxti qılıncsız da tuta bilərsən!

## BƏHRAMIN İRANLILARA CAVABI

Bəhram ki, məktubu oxudu, gördü,
Həssas vücudundan alov püskürdü.

Toxtatdı özünü zorla birtəhər,
Bildi ki, coşmaq yox, tədbirdi hünər.

Qeyzi qaynasa da, tələsmədi şah,
Bir cavab yazdı ki, ağıldan agah:

"Katiblər, yazını yaxşı dinlədim,
Deyilən sözləri hətta bəyəndim.

Usta olmasa da katibin əli,
Məktubu yazdıran ustadı, bəli.

Yüksək düşüncəylə nə deyilibsə,
Xoşladım... layiqsə idraka, hissə.

Mən ki, baş əymirəm yeddi iqlimə,
Nə torpaq, nə qızıl gəlməz eynimə.

Lakin atam irsi bu şahlıq ki, var,
Gəlib özgə tutsa, mənə ar olar.

Allahlıq fikrinə düşsə də atam,
Mən Allah quluyam, mən - başqa adam.

Allahı sevənlə taxtı sevənin
Damarla dərinin fərqi var yəqin.

Suçum olmasa da, üzrxahəm mən,
Uzağam atamın təqsirlərindən.

O, başqa, mən başqa... atamdır, nə qəm,
Atam daş idisə, mən bir gövhərəm.

Nurlu dan yerini doğan gecədir,
Saf ləli yetirən bir daş külçədir.

Atamın haqqında pis danışma sən,
Allah sizi alıb onun əlindən.

Sizə pis olsa da, yaxşıca yatıb,
Ölənin ardınca danışmaq - ayıb.

Əql rəhbər olsa, nə qulaq asan,
Nə də pis danışan tapılar, inan.

Kimin fitrətində varsa bir zədə,
Pis olur dediyi, dinlədiyi də.



Vaz keçin dədəmin cinayətindən,
Mən ki, xəbərsizəm bu xislətindən.

Bədnəzər yoluma çıxmasa qəsdən,
Atamın yerinə üzr istərəm mən.

Bir zaman yatsam da qafillər kimi,
İndi tərk edirəm qafilliyimi.

Hansı xoşbəxtə ki yar olar baxtı,
Oynar, bitəndə qafillik vaxtı.

Nə lazım, yuxusuz, yorğun qalasan?
Dincəlib vaxtında oyanmalısan.

Yuxum bərk olsa da, sayıqdır huşum,
Daim çiynimdədir bəxtimin quşu.

Mənə oyaq bəxtim yar olmuş müdam,
Bu gün də oyandım ağır yuxudan.

Yaxşı yol tutmuşam üzü sabaha,
Qəlbim hər qəflətdən azaddır daha.

Qəddarlıq, azğınlıq edərəmmi heç?
Bişmişəm, çiy işə gedərəmmi heç?

Aqil adamların əzizdi xətri,
Can-başla dinlərəm hər məsləhəti.

Hər xəta qılana düşmən olmaram,
Canına, mülkünə tamah salmaram.

Keçmiş günahları vurmaram üzə.
Baxaram, zəmanə nə deyir bizə.

Sizlə sizə layiq edərəm rəftar.
Sizdən umduğum da münasib olar.

Eşmərəm heç kəsin xəzinəsini,
Xəzinəm bilərəm yad kisəsini.

Pisi, pisniyyəti edərəm kənar,
Başıma yığışar gözəl adamlar.

Yalnız yaxşılara sayə salaram,
Məgər pisniyyətdən heç dərs alaram?

İşim hər fitnədən qoy uzaq olsun,
Tanrının yanında üzüm ağ olsun.

Sürünü gözləyən bir çoban kimi
Sevib qoruyaram rəiyyətimi.

Zorla bir kimsədən çörək almaram,
Çörəyi üstünə çörək qoyaram.

Məni hansı iblis yolumdan qoyar,
Günahım arzumu girov saxlayar.

Nəyi xoşlamırsa böyük yaradan,
Ona qol qoymaram başdan - binadan."

Şah ki, cavabını beləcə qurdu,
Pirani bir məbəd ayağa durdu.

- Sən bizim adamsan, - dedi, - ey xaqan,
Həm hikmət əhlisən, həm hikmət saçan.

Dediyin sözlərin hər biri gövhər,
Ürəyinə yazar onu aqillər.

Yaraşır hamıya başçılıq sənə,
Baş çoban olasan gərək sürünə.

Tacidarlıq sənin cövhərindədir,
Tacın adı bizdə, özü səndədir.



Küştasib "Zənd"ini oxuyan da sən,
Bu Kəyan təxtini qoruyan da sən!

Kimdir səndən savay bu təxtə ad-san?
Bəhməndən, Daradan qalan toxumsan.

Sənsən Siyamşikin tazə meyvəsi,
Ərdəşir Babəkin bizə töhfəsi.

Kəyumərs təxtindən gedəndən bəri,
Yalnız sənə çatır şahlıq gövhəri.

Yalnız sənindir mülk, can atmasan da,
Varmı səndən savay bir şah cahanda!

Cavanlı, qocalı bütün möbidlər,
Yalnız səni sayır özünə rəhbər.

Lakin and içmişik, əhd etmişik biz,
Bizi əsir edib and içməyimiz.

Bilir təxt üstündə əyləşən kişi,
Biz ona and içib söz vermişik ki.

Ondan başqasına tacı verməyək,
Onun dərgahından üz çevirməyək.

İndi əhdimizi nə cür sındıraq?
Bir sübut varmı ki, tilsimi qıraq?

Necə davranaq ki, düşməyək gözdən,
Xəcalət çəkməyək ayinimizdən?

Bəhram şah məbidi yaxşı dinlədi,
Verdiyi cavab da çox sərrast idi.

- Rəva bilməm gedib üzr istəyəsiz,
Vəfalı olurlar aqillər şəksiz.

Mənim rəqibim ki, sayır özün şah,
Sizinçin böyükdür, mənimçin uşaq.

Elə alaram ki, tacı başından,
Bircə tükü belə inciməz, inan!

Mənim şahlığımın günəşdir tacı,
Üzrə, müdaraya nə ehtiyacı?

Mən Cəmşid arxalı elə bir şaham,
Ağ, qara, dünü gün mənimdir tamam.

Təxtü-tac alətdir, şahlıq isə yox,
Olsa, olmasa da alət, biz şahıq.

Kimin ki, tac ilə gətirib bəxti,
Göy onun tacıdır, yer isə təxti.

Heyhat, qalıbmı gör bircə iz, nişan,
Firudin təxtindən, Cəmşid tacından?!

Kimin ki, qüdrəti, ləyaqəti var,
Verməsələr belə tacını alar.

Təxtü-tac yoluna mən ki, bələdəm,
Təxtə qılıncımla qoyaram qədəm.

Yerimdə əyləşən sanma zirəkdir,
Kahada tor quran bir hörümçəkdir.

Mağaraya çatmış əjdaha nədən
İcazə istəsin bir hörümçəkdən?!

De, Cəbrail hara, qarışqa hara?
Filmi ağız açsın mığmığalara?

Məgər kəsilməzmi gurun gur səsi,
Qopanda ağ yallı bir şir nərəsi?!



Quzu bürcündə ki, parladı par-par,
Günəşin yanında çıraqmı durar?

Mən yadlar evində baş gırləyirkən,
Oğrular evimi dağıtsın nədən?

Baldır, ya şəkərdir düşmənin yemi,
Mən öz cigərimi yeyim, eləmi?

Cigərini yeyib baş girləməkdən
Yaxşıdır qılıncla doğransın bədən.

Bütün əcəm mülkü xəzinəm ikən,
Ailəm ərəbdən pay umsun nədən?

Mənə süfrə açır arabir Münzir,
Ya da Neman mənə can qurban edir.

Mənə çörək verən xaqanlar belə,
Çörəyimi yeyən nadanlar elə!

Mən ölkələr tutan ac arslanam ki,
Tutsunmu yerimi bir qoca tülkü?

Keyxosrovam, məndən kim alar tacı?
Keyzadə verərmi ölkə xəracı?

Kəyandır yaraşan Kəyan təxtinə,
Key təxti düşərmi özgə bəxtinə?

Böyüklər yanında zəlil bir eşşək,
Uşaqlar yanında qudurur bişək.

Biz şahıq, özgələr dilənçi, yolçu,
Onlar - bomboş, köpük, Bizsə dopdolu.

Ordular sahibi şah bir dağdı, dağ!
Tək atlı tozanaq qaldırar ancaq.

Meyi muğ əlindən alıbsa fələk,
Muğun öz oğluna bəxş etsin gərək.

Gözəl bilirsiniz nə deyirəm mən,
Düzlük axtarıram hər işdə hökmən.

Dikbaş sultanlığa, anda, amana
Ziddəm, yol verərəm pisə, yamana.

Sizin rəyinizə uyaram yalnız,
Mənim rəyim isə - sizin rizanız!

Bir dəlil gərəkdir, söyləyirsiniz,
Açılsın onunla bağlı əhdimiz.

Dəlil budur: iki şir arasından
Qoy götürsün tacı qüdrəti çatan.

Elə sabah səhər qoy gəlsin şirban,
Alovlu ağzından tüstü, od çıxan

İki şir gətirsin, nərildəyən şir,
Acqarın, acıqlı, pəncəli, vəhşi!

Çıxarsın meydana şirləri şirban,
Ordu səf-səf olsun, səflər yanbayan.

Qoy tacı başından endirsin qoca,
Qoysunlar iki şir arasındaca.

Kim götürə bilsə tacı o anda,
Xalq öz şahı bilsin onu cahanda."

Bu sözlər necə də isti, səmimi,
Açdı könülləri, apardı qəmi.

Bəhram möhürünü basdı naməyə,
Göstəriş də verdi: "Yol budur!" deyə.



Möbidi tapşırdı xidmətçilərə,
Hörmət eləsinlər qoy elçilərə.

Öpdü şahsevənlər şahın möhrünü,
Yadda saxladılar müdrik sözünü.

Evlərinə tərəf yola düşdülər,
Gözləri önündə şah üzü - gövhər.

Aşiqi oldular mehrin, qılığın,
Bəhram üzündəki fərrin, işığın.

Dedilər: - Şah Bəhram bizə pənahdır,
Onun zatı da şah, özü də şahdır.

Ədalətli şaha aqil ağ olmaz,
Günəşi palçıqla suvamaq olmaz.

Cəsur bir atlıdır o qızmış arslan,
Yıxır əjdahanı bir oxla, inan!

Açsa pəncəsini o acıqlı şir,
Heç kəs qarşısında davam gətirmir.

Qatır dırnağına qatıb sərvəri
Zorla təxti, tacı alacaq geri.

Yaxşısı budur ki, qarşı durmayaq,
Sönmüşü bir daha odlandırmayaq.

İstəsə lap bu gün alar tacı o,
Şirin şir bəhsinə bənd olmayın çox.

Görürsən, şərtini elə kəsir ki,
Seçilsin meydanda qurd ilə tülkü.

Qəsrə üz tutanlar buruldu tini,
Şaha söylədilər şahın şərtini.

Naməni oxuyub təhlil etdilər,
Sözü nə artırıb, nə əksiltdilər.

Taxt düşkünü qoca qaldı əlacsız,
Taxtın dibindəcə əyləşdi tacsız.

Dedi: - "Təxtü-tacdan zaram, bizaram.
Tac üçün arslana can tapşırmaram.

Yaxşısı budur ki, təxtdən düşüm,
İki şir ağzında ölməyim nahaq.

Hansı aqil adam, hansı mərd adam
Umar ruzusunu şirin ağzından?!

Cam, qılınc sahibi, şahlığa dəlil -
Bəhramdan savayı heç bir kəs deyil.

Təxtin varisinə verin təxti siz,
Gənc varis qocadan yaxşıdır şəksiz.

Tacdan əl çəkirəm, sanmayın məstəm,
Mən şah olmasam da, bir şahpərəstəm."

Ona cavab verdi adlı-sanlılar:
"- Ey başımız tacı, ulu şahsüvar!

Hökmdar seçmişik səni bir zaman,
Çünki hamımızdan müdrik olmusan.

Sən təxtə çıxmısan fərmanımızla,
Bəlkə düşərsən də elə bu hızla.

Bəhram şir üstündə bağlayıb şərti,
Görək bu şərt üçün varmı cürəti?

Arslandan tac almaq oyuncaqmıdır?
Görək bu qaranlıq nə cür vaz atır?!



Yetirək şərtini sabah yerinə,
Bağlayaq şirləri, tac qoyaq önə.

Qorxsa, səninkidir fil sümüklü təxt,
Ölsə, səninkidir tacın, a xoşbəxt!

İşdi üstün gəlib qazansa tacı,
Onundur ölkənin bacı-xəracı.

Taca, alqışa da layiqdir onda,
Kaş məğmun olmayaq işin sonunda

## BƏHRAMIN İKİ ŞİR ARASINDAN TAC GÖTÜRMƏSİ

Qızıl taclı səhər təxt qurdu nədən -
Qızıla tutulmuş fil sümüyündən.

Qolu da, qəlbi də güclü olanlar,
Rəy verən, söz deyən, iş buyuranlar

Atlandı Ərəbdən Əcəmə qədər,
Döyüş meydanına gəldilər yeksər.

Şirban yedəyində, boynunda zəncir,
Gətirildi iki adamyeyən şir.

Şiri şir üstünə yönəltdi onlar,
Bəhram mərdliyinə məzar qazanlar.

Baxın parıl-parıl parlayan taca,
Bərq vurur iki şir arasındaca.

Tutulan Aymıdır, qalmış naəlac, -
İki əjdahanın ağzındakı tac.

Ayı xilas edir təştinmi səsi,
Ya qolun, qılıncın döyüş zərbəsi!

Baxın əjdaha tək azğın cüt şirə,
Döyür quyruğunu hiddətlə yerə.

- Bu tacı, qızılı, - deyir nəzərlər, -
Şirdən, əjdahadan kim ala bilər?

Onlar xəbərsizdir ər pəhlavandan,
O dəmir cigərli arslanboğandan!

Bircə ox mənzili məsafəsi də
Gələn yox şirlərin həndəvərinə.

- Şir ürəkli Bəhram, - dedilər, - öncə
O şirlərə sarı yollansın təkcə.

Şirlərdən tac alsa, bəxt onun olsun,
Qızıl cam, şirmayı təxt onun olsun.

Tac ala bilməsə, təxtdən əl üzsün,
Tacsız yaşamağın cövrünə dözsün.

Bəhram şah pozmadı şərti, qərarı,
Getdi çöl tərəfdən şirlərə sarı.

Bu düzdə, dərədə hanı bir cığır,
Orda şir boğmasın bizim bahadır?

22 yaşlı gənc vurhavurda,
Yüz-yüz şir başını kəsmişdi burda.

Tanıyın yüz şiri boğan Bəhramı,
İki şir önündə zəlil olarını?

Sancdı kəmərinə ətəklərini;
Yel kimi şığıdı, qızınca beyni.

Dəli nərə çəkib götürdü əlan
Tacını o iki şir arasından.



Şirlər gördü onun qüdrət dağını,
Aslan basmağını, aslanlığını.

Pəhləvanlar kimi hücum etdilər,
Pəncələri - qılınc, dişləri - xəncər.

Cahan fatehi aparmaq üçün,
Tacidar başını qoparmaq üçün.

Qızdılar. Bəhram da döndü arslana,
Tikdi başlarını ayaqlarına.

Qırdı dişlərini, pəncələrini,
Qurtardı başını, tac gövhərini.

Tacı başa qoyub əyləşdi taxtda,
Necə xoşbəxt oldu qovğalı vaxtda.

Hansı bəxtəvərə yar olsa Tanrı,
Önündə sarsılar düşmən vüqarı.

Tac almaqla iki şir arasından
Qovdu tülküləri taxtdan qəhrəman.

## BƏHRAMIN TAXTA ƏYLƏŞMƏSİ

Necə uğurludur onun şahlığı,
Təxtinə yaraşan xeyirxahlığı.

Onun taleyini öyrənmək üçün
Baxmışdı göylərə müdrik münəccim.

Tale təxti qurdu arslan bürcündə,
Sabitlik, möhkəmlik, vardı gücündə!

Bəhram övcə qalxan günəş kimiydi,
Ütarid ona bir yoldaş kimiydi.

Zöhrəxan Öküzə, Müştəri Qövsə
Keçincə dönmüşdü yurdu firdövsə.

Ay onuncu bürcdə, Bəhram altıda,
Camı, qılıncı da əli altında.

Keyvanın əlləri Tərəzidəydi,
Çəkdiyi də Yerdən min xəzinəydi.

Bu xoş, mübarək fal nur saçdı baxta,
Gözəl xislətli şah əyləşdi taxta.

O qədər ləl, gövhər, dürr saçıldı ki,
Saray dəniz oldu, taxt da bir gəmi.

Hədsiz gövhər saçdı xəzinəçilər.
Hər bol xəzinədə min-min incilər.

Əvvəllər bu taxta sayəsində kəs.
Ölkədən, qoşundan beyət alan kəs

Görüncə Bəhramın əzəmətini,
Təxtinin, tacının dağ siqlətini.

Dedi: - Xəlqimizin sənsən pənahı.
Cahan şəhriyarı. iqlimlər şahı!

Ona "Cahan şahı" dedi möbidlər.
"Şahlar şahı" dedi xosrovlar yeksər.

Rütbəsinə uyğun biçimdə hamı.
Hamı alqışladı ulu Bəhramı.

Yüksəldi göylərə təzə şah dağı,
Deşdi buludları baş ucalığı.

Təzə-tər ləlindən dürlər saçıban
Ədalət nitqini söylədi xaqan.



## BƏHRAMIN ƏDALƏT NİTQİ

Dedi: - Tacı mənə bəxş etdi Tanrı,
Mübarək Tanrının xoş yadigarı!

Tanrıya şükr olsun, alqışlar olsun!
Tanrını tanıyan bəxtiyar olsun!

Tanrı nemətinə dal çevirmərəm,
Şükür cəlalına, şükür, ey kərəm!

Şirlərin ağzından tac almağı da
Mənə qılıncım yox, bəxş etdi xüda.

Bu məğrur taxtı ki, tutmuşam möhkəm,
Tanrı bəyənəsi işlər görərəm.

Gərək, Allah qoysa, işlər görəm ki,
Heç kəs inciməsin, küsməsin heç kim.

Məndən inciyəcək yalnız günahkar,
Oğrular, canilər, çalıb çapanlar.

Ey mənim qəsrimin xas adamları,
Tutduğum yol kimi düz olun barı.

Hər cür əyrilikdən üz döndərin tez.
Yalnız düzlük ilə nicat tapın siz.

Düz söz eşitməkdən bezsə sağ qulaq,
İnanın, sol qulaq çox ağrıyacaq.

Harda bir adil var, ucaldaq onu,
Harda bir zalım var, ovaq burnunu.

Heç kəsdən qorxum yox, Tanrıdan savay,
Onu tanıyanın nurundan savay.

Aləmdə heç kəsə yox etimadım,
Tək ulu Tanrıdır inamım, andım.

Heç kəsə baş əymərəm gizli, ya aşkar,
Tək ulu Tanrıya itaətim var.

Nə qədər ki, durur mavi səmalar,
Yerdə yatanları könlüm salamlar.

Var isə nə qədər ağ, qara məxluq,
Ədl, insaf görəcək bizlərdən çox-çox.

Əməlim - ədalət, haqqa afərin,
Haqqa sevinməyən sevinc görməsin!?

Şah ki, xütbəsini bəyan eylədi,
Eşidən əyildi, şükran eylədi.

Bir saat, bir hovur əyləşib təxtə,
Sonra şah çəkildi, getdi xəlvətə.

Ədl insaf idi razi - niyazı,
Tanrı ondan xoşnud, xəlq ondan razı.

Möhtəşəmlər ilə o möhtəşəm dağ
Yığıncaq keçirdi, zor bir yığıncaq.

## BƏHRAM-GURUN ŞAHLIĞI

Elə ki Bəhram-Gur saçdı ləyaqət,
Taca da, taxta da verdi əzəmət.

Belini kip qucdu yeddigöz qurşaq,
Yeddi ayaqlı taxt altında bir dağ!

Tərlan döşü kimi Çin papağı var,
Əynində Rum dəbli Tərazi paltar.



Hüsnü, yaxşılığı alqışa möhtac -
Rumdan bac alırdı, Çindən də xərac.

Cəmşidi andırdı dördguşə taxtı,
Bir gündə beş dəfə günəşə qalxdı.

İnsafı gətirdi göylərdən yerə,
Haqqı, ədaləti yerdən göylərə!

Açıq, aydın gördü baxırsa hər kim:
Adilə adildi, zalimə zalim.

Bağlı qıfıllara bir açar oldu,
Gəlişi ellərə gülbahar oldu.

Yeni zümzümələr, nəğmələr, nələr...
Nəfəslər, cigərlər genişləndilər.

Əkiz bala verdi qısır inəklər,
Kəhrizlər dopdolu, sular iməklər.

Bağlar bara çatdı, yer bərəkətə,
Dirhəmin sikkəsi mindi qiymətə.

Açıldı müşgüllər, duruldu qanlar,
Rədd oldu ölkədən baş aparanlar.

Ətraf ölkələrdə şahzadə ərlər
Onun qüdrətilə şərəfləndilər.

Ölkəsi yatırla hamilə, boylu,
Sərvət gətirdilər, dərgahı doldu.

Qala sahibləri verdilər zəri,
Açarı üstündə xəzinələri.

Dəftər təzələdi neçə kargüzar,
Canını şah üçün girov qoyanlar.

Öz yurdu üstünə şah qanad gərdi,
Hər kəsə münasib bir rütbə verdi.

Azı çox eylədi, yoxsulu varlı,
Mülkünə qaytardı mülk satanları.

Qoyunu qurtardı qurdun dişindən,
Şahin göyərçinə kəsildi həmdəm.

Bayıldı fitnəkar, ayıldı sərxoş,
Əli uzunların əli qaldı boş.

Cahan dostlarına əl uzatdı şah,
Düşmən taclarını qırdı, atdı şah.

Mərdə qanad verən adil şahlığı
Bir könül qırmaqdan min dəfə yaxşı!

On düşmən öldürsə, bircəsinə də
Verməzdi işgəncə, inan heç vədə.

Haqlı cəzasını alanda düşmən,
Öldürmək yaxşıdır əzab verməkdən.

İnsanı özünə cəzb edən o tac
Heç kəsi qoymurdu çörəyə möhtac.

Nə verir insana bu torpaq, bu su -
Yalnız dərd mənzili, qəm-kədər tozu.

Xalqının nazını çəkməkdi dərdi,
Yalnız naz çəkəndə fərəhlənərdi.

Tanıyıb vəfasız dünya mülkünü,
Qurdu yalnız sevgi, sevda mülkünü.

Həftənin bir günü şahlığa xidmət,
Qalan altı günü - eşq ilə işrət!



Eşqdən bir an da düşməzdi uzaq.
Eşqin qapısını döyürdü ancaq.

Eşqə can verməyən hansı məxluqdur?
Eşqi olmayanın canı da yoxdur.

Eşqin sikkəsinə döndü sinəsi,
Yalnız aşiqlərdi dostu, munisi.

Göylərə yüksəldi eşqinin səsi.
Hökmünün altında bu Yer kürəsi!

Xoşbəxtlik yolunu rəvan gedirdi,
Ədalət göstərib şadlıq edirdi.

Axırdı mülkünə xəzinə dağ-dağ,
Sürgün edilmişdi qılıncla şallaq.

Aləmi qılıncla qaldırıb göyə,
Endirirdi yerə taziyanəylə.

Bağlara bəxş edib yaşıllıq, nübar,
Günəş tək saçırdı gülzar, gülbahar.

İllərin bəhrəsi vüqar, iftixar,
Qürur gətirirdi aşıb-daşan var.

Heyhat, unutdular mehri, şəfqəti,
Tanrıya şükr adlı eşsiz sərvəti.

İnsan şükr etməyi yadırğayanda,
Kəsir nemətini Tanrı bir anda.

Varlığı darlığa çevirsə insan,
Muzdunu çıxarar dəmirdən, daşdan.

## QURAQLIQ İLİNİN TƏSVİRİ VƏ BƏHRAMIN ŞƏFQƏTİ

Toxum cücərmədi, dən də yox artıq,
Bu geniş aləmi daraltdı qıtlıq.

Qəhətlik yolları kəsdi, nə kəsdi,
Pencər, ot yeməyə insan tələsdi.

Qıtlıqdan daraldı, qaraldı cahan,
Çörəyin qiyməti qızıldan baha!

Bəhram baxıb gördü böyükdü pərtlik,
Bürüyüb aləmi qıtlıq, qəhətlik.

Acıxıb qurd kimi quduzlaşanlar,
Gah adam yeyirlər, gah da leş, murdar.

Qızıldan bahadır dən, gördü xaqan,
Açdı qıfılları anbarlarından.

Şah məktub göndərdi kəndə, şəhərə -
Ərzaq ehtiyatı olan hər yerə.

Qoy gəlsin kişilər, verilsin qərar:
Açılsın büsbütün bağlı anbarlar.

Yoxsula pulsuz da vurilsin buğda,
Nə qəm, varlı alsın bir azca baha.

Yerdə qalan dəni səpsinlər quşa,
Bir sıxma arpaya möhtac olmuşa.

Təki onun dövrü yazılsın başda,
Acından ölməsin bir qaranquş da.



Payladı, nə qədər ehtiyatı var,
Boşalır, bir yandan dolurdu anbar.

Onun dəvələri yad ölkələrdən
Ardı kəsilmədən daşıyırdı dən.

Şah xəzinə saçır, qeydə qalırdı,
Hər bir çarəsizə çarə qılırdı.

Bomboş görsələr də dörd il torpağı,
Şahın xəzinəsi yaşatdı xalqı,

Əməli çatdırdı şahı şöhrətə,
Tacü-təxt adlanan hakimiyyətə!

Hamı qəhətlikdən can qurtardı, can,
Yalnız bircə nəfər öldü acından.

Bəhram bu itkidən bağrıqan oldu,
Bulandı su kimi, pərişan oldu.

Təqsirinə görə üzr istədi şah:
- Qarşısında suçluyam, ey adil Allah!

Sənsən canlılara ruzu bəxş edən,
Ruzu paylamaqda hamını ötən!

Sən çoxu azaldan, azı çoxaldan,
Əzəli qüvvəsən, ye ulu Yəzdan!

Nə qədər çalışsam, görür kı, aləm:
Çöldə bir ceyranı doydura bılməm.

Zəfər xəzinəsi açan bircə Sən
Hamıya, hər kəsə ruzu verirsən.

Bir canlı ölübsə, ey qıbləgahım,
Bilırsən, bu işdə yoxdur günahım.

Xəbərim olmayıb yaşayışından,
Xəbəri gec çatıb... nə fayda bundan?

Şah belə yalvarıb sızlayan zaman,
Qeybdən, hatifdən səs gəldi əlan:

Nəcib olduğunu gördü də Allah"
Sənin şahlığına vermədi bəla.

Dörd ildə heç kəsi möhtac qoymadın,
Bircə ölümə də razı olmadın.

Tanrı buna görə fərman verdi ki,
Dörd il tərk eləsin ölüm ölkəni.

Elə doğrudan da, şah olan yerdə
Ölmədi dörd ildə bircə nəfər də.

Xoşbəxt o şahdır ki, nazı, neməti
Ölümdən qurtarır bir məmləkəti.

Doğulan yaşadı asudə, rahat,
Gəlir çıxarsızdı, el-oba abad.

Əhali çoxaldı, artdı nə qədər,
Qəsrlər yeridi çöllərə qədər.

Reydən İsfəhana addımladı var,
Qamış tək sarmaşdı evlər, binalar.

Gor gedə bilərdi, istəsə haçan,
Dam üstüylə Reydən İsfəhanacan.

Sözümə şəkk etsən, kimdədi təqsir?
Təqsir məndə deyil, söyləyəndədir.

Boldu məmləkətdə nemət üyüdən,
Ancaq nemət çoxdu nemətyeyəndən.



Xurma ağacının qol-budağı tər,
Yarpağından çoxdu verdiyi bəhər.

Ərzaq da azalır, xalq azalanda,
Çoxsa, aşıb-daşır gün-güzəran da.

Adamlar çöllərdə, dağlarda dəs-dəs,
Eyş-nuş içində alırdı nəfəs.

Cərgənin uzunu gör neçə fərsəng,
Kimi rübab çalır, kimi bərbət, çəng.

Hər arxın üstündə bir meyl hövuzu,
Hər küçədə məclis, kabablıq quzu.

Nə çoxdu mey alan, qılıncı satan,
Zərxara geyinən, zirehi atan.

Yarağı biryolluq atdılar əlan,
Ox, qılınc hamının çıxdı yadından.

Kimin kef çəkməyə vardı imkanı,
Seçirdi eyş-işrət, bolluq məkanı.

Şah imkan verirdi imkansıza da,
O, bəxtindən razı, xalqı da ondan.

Kimsə kasıblasa, nə idi dərdi?
Şah ona cibindən dirhəm verərdi.

Əmrilə hər kəsə münasib bir iş,
Çörək verilirdi, süfrəsi geniş.

Şah yaxşılıq üçün vaxt arayırdı,
Hər kəsə eyş üçün bir gün ayırdı.

İkiyə bölünsün, - dedi, - dünü gün:
Gecə işrət üçün, gündüz iş üçün.

Ölkədən yeddi il xərac almadı,
Yetmiş illik qəmin kökü qalmadı.

Dürlü şəhərlərdən altı min rəqqas,
Çalğıçı, nağılçı, növ-növ oyunbaz

Çağırdı tacidar, böldü hissəyə,
Hər hissə üz tutdu bir qəsəbəyə.

Təki el-obanı şənləndirsinlər,
Elə özləri də bir gün görsünlər.

Zaman dolanırdı Öküz bürcündə,
Öküzün, dövrün də sahibi - Zöhrə.

Zöhrə bir ölkədə kəndxudadırsa,
Orda yer olarmı kədərə, yasa?

## BƏHRAMIN ÖZ KƏNİZİLƏ MACƏRASI

Şah bir gün həvəslə çıxdı şikara -
Alçaq düzənlərə, yüksək dağlara.

Atı gur dırnaqlı... çapdıqca çapdı,
Xeyli gur ovladı... gur yeri tapdı.

Müştəri mənzili Qövsdür, - deyə,
Qövsünü yönəltdi düz Müştəriyə.

Çevrə bağladılar çöldə atlılar,
Şah gördü çevrədə bir sürü gur var.

Ovçu barəsində bir arslan, bir ley,
Altında köhləni oynayırdı hey.

Kamandan atdığı dürr, ya büllurdu,
Kirişi boşaldıb ox doldururdu.



O dəmir oxlar ki, yayından çıxır,
Gah atəş yağdırır, gah şikar yıxır.

Od tapsan, şişlik çək, qarnını doyur,
Gur budu, gül şərab nuş olsun, buyur!

Gurların qanını tökən peykanı,
Şah üçün çöllərin od gülüstanı.

Şir kimi gur yıxan şah bir atəşdi,
Heybəti pis gözü kor eləmişdi.

Oxunun zərbində od pərdə-pərdə
Vurduğu gurları bişirirdi də.

Qıçını, budunu qılınclayaraq,
Qaçıb gedən guru buraxmırdı sağ.

Yanında Ay üzlü kənizi vardı,
Həm zirək, həm çevik, həm işvəkardı.

Adı Fitnə idi, özü min Fitnə,
Şah ona məftundu, o, şaha təşnə.

Behişt baharı tək üzü təzə-tər,
Çəmən yelləri tək xuraman gəzər.

Qız kərə yağına qarışmış baldı,
Paludədən dadlı, bir qeylü-qaldı.

Həm nəğməkar idi, həm də qızıl gül,
Rud üstə rəqs etsə, ayağı yüngül.

Göyə qaldıranda rud naləsini,
Göydən endirərdi quşlar dəsini.

Şikarda, badəylə rud məclisində,
Şah ondan zövq alar, dinlərdi bir də.

Şah ox işlədərdi, o da rübab, çəng,
Bu, şikar ovlardı, o, gözəl ahəng.

Səhrada bir dəstə gur qalxdı birdən,
Şah qalxıb şığıdı, altında köhlən.

Qızğın bir ahənglə gurlara çatdı,
Döndü ac arslana, kamanı dartdı.

Yarım həlqəsinə ox qoydu yayın,
Çəkdi kamanını sərbəst, arxayın.

Gurun sağrısına batdı uçan ox,
Şikar yeri öpdü, dirəndi az-çox.

Neçə gur ovladı ov cahangiri,
Tutdu neçəsini sappasağ, diri.

Saxladı özünü çoxbilmiş kəniz,
Şaha söyləmədi tərifli bir söz.

Şah böyük səbr içrə dayandı məğrur,
Nəhayət, uzaqda görsəndi bir gur.

Dedi: - Tatar kimi ey gözləri dar,
Vecinə deyilmi bu qədər şikar?

Bizim ov şəstimiz, ovlanan gurlar,
Sənin dar gözünə məgər heç sığar?

Odur, bir gur gəlir, de görüm ələn:
Başındanmı vurum, ya dırnağından?

O şəkər dodaqlı, nazlı işvəkar,
Qadındı, qadınsa boşboğaz olar.

Dedi: - Üzü ağ ol, tərpən də çevik:
Bu gurun başını dırnağına tik!



Şah indi nə desin kələk afətə?
Bir çarə axtardı bu müşgül şərtə.

Öncə sapanda bir daş qoyub atdı,
Daş - şimşək sürətli, külək qanadlı.

Girdi qulağına daş yazıq gurun.
Beynində gurladı səs gurum-gurum.

Yazıq xilas olsun bu daşdan nə cür?
Saldı, dırnağını qulağına gur.

Ox atəşi guru bələdi qana.
Tikdi dırnağını sağ qulağına.

Yandırdı bir daşı gurun göz yaşı.
Dırnağı üstünə əyildi başı.

Şah maraqla sordu çinli kənizdən:
- Əlimin hünərin necə görürsən?

Qız dedi: - Şah buna vərdiş eyləmiş.
Məgər hünərmidir çox görülən iş?

Kişi bir iş üçün təlim alıbsa,
İşi görə bilər, çətin də olsa.

Dırnağı qulağa oxun tikməsi
Hünər yox, bəlkə də idman töhfəsi!

Cavab şah qəlbinə qar ələdi, qar,
Sanki yaş ağaca balta vurdular.

Qəlbi kinlə doldu o Aya qarşı,
Od kimi parladı qəzəb baxışı.

Şahlar, bir qaydadır, hirslənən zaman,
İstər ki, meydanda qan tökülsün, qan!

Hansı ceyran üçün yəhərlənmir at?
Hansı it dərisi qalır salamat?

Saxlasam, davaya, cəngə hərisdir,
Öldürsəm, hesabı ondan da pisdir.

Qadın nə döyüşə, nə cəngə qabil,
Qadını öldürmək mərd işi deyil

Şahın sanballı bir sərhəngi vardı,
Şir kimi, qurd kimi zəhm saçardı.

Şah onu yanına çağırıb dedi:
" - Get, bu tərs kənizin işini bitir!

O, bizim saraya fitnə gəlmişdir,
Fitnəni öldürmək ağıllı işdir."

Aradan götürdü mələk suylunu,
Sərhəng öz evinə gətirdi onu.

İstədi işini bitirsin onun,
Vursun da boynunu o şam boylunun.

Gözü yaşlı dilbər: - Dayan! - söylədi,
Tanrıya xoş gəlməz əməlin! - dedi.

Özünün düşmənin deyilsənsə, dur,
Qanımı boynuna götürmə, otur!

Xaqanın ən yaxın munisi mənəm,
Bütün kənizlərdən seçməsi mənəm.

İstər şikar olsun, istər sarayı -
Munisi, yarı yox məndən savayı.

Bir az küstahlığım, şuxluğum vardı,
Şeytan vurdu məni, yoldan çıxardı.



Şah qızıb söylədi həmən cümləni,
"Öldür!" söyləsə də, öldürmə məni.

Bir azca səbr elə, gözlə beş-on gün.
Yalandan söylə ki, məni öldürdün!

Görsən ki, şad etdi bu xəbər onu,
Qanım sənə halal, gəl, vur boynumu!

Görsən ki, pərt oldu, peşmandır, demək,
Məni öldürməkdən vaz keç də, əl çək!

Sən cəzadan qurtul, mən də ölümdən,
Azad sərv kimi qoy yaşayım mən.

Sənin nəzərində əskik olsam da,
Görərsən, çataram bir gün imdada.

Qız açdı boynundan boyunbağını,
Qarşıda yeddi ləl - atəş yığını.

Hərəsi bir yurdun xəracı bəlkə,
Ommanın gəliri ondan xeyli kəm.

Sərhəng bu rəftara gətirdi iman.
O dilbər sənəmin keçdi qanından.

- Amandır, bu işin üstünü açma,
Heç kəsin yanında şahdan danışma!

De ki, mən bu evin xidmətçisiyəm,
Düzələr dalısı, çəkinə çox da qəm.

Mehriban tutarsa zəmanə səni,
Mən özüm qılaram hər bir çarəni.

Beləcə əhd edib and içdi onlar,
Zülümdən, ölümdən xilas olanlar.

Bir həftədən sonra şah hüzuruna
Sərhəng gələn zaman şah dedi ona:

- Necədir ayüzlü?
- Əjdaha uddu,
Öldürdüm, göz yaşım yasını tutdu.

Şəhriyar ah çəkdi, yaşardı gözü,
Sərhəngsə toxtadı, nurlandı üzü.

Onun abad - güşad bir kəndi vardı,
Elin nəzərindən bir az kənardı.

Qalxmışdı göylərə uca bir qəsri,
Səmalar ümmanı onun əsiri.

Altımış pilləli eyvanı vardı,
Özü, kənizi də orda yaşardı.

Əzizə verərlər əziz məkanı,
Bir közəl bəzəyir evi, eyvanı.

Bir inək doğmuşdu iki gün öncə,
Balası, buzovu necə də göyçək.

Buzovu hər səhər alıb çiyninə,
Eyvana qalxardı o pəriçöhrə.

Bu yük bərkidərdi ayaqlarını,
Pillələr sınardı şux nigarını.

Günəş yazda çəkər Buzov bürcünü,
Bəs buzovu çəkən Ay görünübmü?

Hər səhər o ceyran, o gümüşbədən
Buzovu saraya qaldırır yerdən.

Günlər dolanırdı bu qərar ilə,
İşindən əl çəkməz bir nigar ilə.



O yerə çatdı ki, bu iş axırda,
Bir öküzə döndü buzov naxırda.

Qaldırıb, endirib hər səhər-axşam,
Buzovu bəslərdi o büt güləndam.

Heç incimәzdi də bu yükdən afət,
Çünki vərdişinə etmişdi adət.

Boynunda öküzün öküz qüvvəti,
Artdı, əskilmədi o qız qüvvəti.

## ŞAHA QONAQLIQ HAQQINDA KƏNİZİN SƏRHƏNG İLƏ SÖHBƏTİ

O qıyğac baxışlı, qəlbi sınıq qız,
Bir gün oturmuşdu sərhənglə yalqız.

Gövhəri bərq vuran qulaqlarından,
Dörd gövhər çıxardı o mələkə can.

Dedi: - Sən bu nəqdi apar sat dərhal,
Sonra... nə gərəksə get, bazardan al:

Şamdan, noğul, buxur, şərab və gülab,
Quzu, əmlik əti... hər neməti tap.

Hurilər bağı tək mey məclisi qur,
Kababla, gülabla, buxurla doldur!

Şah bizim yerlərə ova çıxarkən,
Zəfər tək əl çəkmə üzəngisindən.

Çıxart ürəyini, ayağına at,
Yapış cilovundan, qoy toxdasın at.

Şahın ipək kimi təbiəti var,
Naz çəkən, azadə bir xilqəti var.

Minnət çəkdiyini yaxından görsə,
Təşrif gətirəcək hökmdar bizə.

Ulduza taxt olan bu yerdə şəksiz,
Ona bal yedirər, süd verərik biz.

İnan ki, baş tutsa bu iş, bu sövda,
Ucalar başımız şahın yanında.

Sərhəng gövhərləri qaytardı geri:
"Mənə Tanrım verib min-min gövhəri!"

Getdi... götürdü də öz yatırından
Qonaqlıq bahası neçə dürr, mərcan.

Budur, şaha layiq ali yeməklər:
Xəşəm, əmlik əti, bildirçin, nələr...

Bəzmi qoy bəzəsin gülabla şərab,
Reyhan şərbətilə neçə növ kabab.

Tədarük işini görüb də sərhəng,
Gözlədi: şah ova haçan gələcək?

## SƏRHƏNGİN BƏHRAM – GURU QONAQ APARMASI

Enib şah taxtından hara yönəldi?
O, bir gün səhraya, şikara gəldi.

Lakin ov etməmiş çöllər övladı,
Ov onun özünü necə ovladı!

Sərhəngin cəlallı mənzərəgahı
Yanından keçərkən zövq aldı şahı.

Mat qaldı: - Nə gözəl ovlaqdır! - deyə,
Səbzə səbzəyə bənd, kölgə kölgəyə.



Sordu: - Mən oyağam, yoxsa yuxuda?
Kimindir bu yerlər? Kimdi kəndxuda?

Yan-yana yol gedən müqərrəb sərhəng.
Yer öpdü, bu sözü şahdan eşitcək.

Xeyir-dua qıldı: - Bəndələrinə
Mehriban şəhriyar! Borcluyam sənə.

Özün bağışladın mənə bu kəndi.
Səxavət nəhrindən düşən qətrədi.

Seçsə şah bu yeri qərargah üçün,
Xar olan qulunu ucaldar bugün.

Şah özünə məxsus adiliyilə,
Ağ günü bəxş edən adilliyilə

Başını qaldırsa dar qapımızdan,
Bizim də başımız ucalar ələn.

Aya baş ucaldan o imarəti
Bizə bəxş eləyib şah inayəti.

Ətrafı bağ-bağat, sulu, məhsullu,
Cənnət-şagirdidir, xüld onun qulu.

Şah bir badə içsə bu evdə əgər,
Enər, ayağını ulduzlar öpər.

Tozun mişg səpər bu qəsrə dərhal,
Öküzmü süd verər, milçəyim də bal.

Şah gördü ondakı səmimiyyəti,
Bildi ki, sərhəngin ülvidir əhdi.

Dedi: - Tədarük gör, məclisi bəzə,
Mən ovdan qayıdım baş çəkək sizə.

Sərhəng sildi pası can aynasından,
Getdi ki, yaratsın səliqə, sahman.

Xəlilər bəzədi mənzərəgahı,
Bir behiştə döndü çəməni, arxı.

Elə ki, şahənşah ovdan qayıtdı,
Tərlan bayrağını Aya ucaltdı,

Gözəl xəliləri, zərif fərşləri,
Çini ipəkləri, Rumi məxməri.

Növ-növ zərxaranı basıb bağrına,
Sərhəng atdı şahın ayaqlarına.

Xuraman yerişli xətl kəhəri
Ayaqlayıb keçdi dürrü, gövhəri.

Şah altmış pilləli eyvana qalxdı,
Tağı göy tağı tək ən uca tağdı.

Sanki göyə qalxan bir qızılquşdu,
Hüsnü Xavərnəqdən tərh olunmuşdu.

Düzdü ev sahibi süfrəyə nələr,
Gülab, buxur, şərab, növ-növ yeməklər,

Dadlı nemətlərdən nuş elədi şah,
Başladı mey bəzmi, başqa bir dəsgah.

Meydən nuş elədi iki-üç qədəh,
Şahın gül alnına tər qondu, ya şeh?!

Ey uca saraylı sərhəngim, sağ ol,
Sənin yurdun gözəl, sərvətin də bol!

Lakin anlat görüm, günəşə baxan,
Göylər də, başına kəməndlə qalxan



Altmış pilləkənli bu dağ qəsrinə
Sən necə qalxırsan altmış sinnində?

Ev sahibi dedi: - Sağ olsun sərvər.
Badən kövsər olsun. saqin hurilər.

Kişiyəm, mənimçün zor deyil bu iş"
Hələ ki. yoxuşda can töyşüməmiş.

Heyrətli budur ki, Ay üzlü bir qız.
Bu köşkə öküzü qaldırır yalqız.

Şahın xəzi kimi. sincabı kimi.
Zərifdi. incədi o şah həbibi.

Dağ boyda öküzü alıb çiyninə,
Ələf verməк çağı qaldırır göyə.

Öküz də nə öküz. zorbalıqda fil!
Özünü çəkməyə heç qabil deyil.

Bəlkə pəhləvan da heç kara gəlməz,
Onu öz yerindən qaldıra bilməz.

Ancaq asanlıqla qaldırır o qız
Altmış pillə bürcə öküzü yalqız.

Maraqlı mətləbdən olunca agah.
Barmağı ucunu dişləyərək şah

Düşündü: "Bəlkə də bir sehrdir bu.
Ağıl fəhm etməyir doğruluğunu.

Deyəsən bu işdə cadu var az-çox.
Gözümlə görməsəm. inanmaram. yox!"

Şah ev sahibinə dərhal buyurdu:
- Sübut et sözünün doğruluğunu.

Sərhəng evdən çıxıb qol-qanad açdı,
Öküz qaldırana şirdən danışdı.

Bilirdi işini o gümüşbədən,
Çəkmişdi nəqşəni lap əvvəlcədən.

Əynində zinəti, çini zivəri,
Necə də xumardı şux nərgizləri.

Müşgünü saçmışdı Ay təqviminə,
Cadu öyrətmişdi qəmzələrinə.

Sürməli gözləri adam aldadan,
Üzünün pərdəsi nazdan, həyadan.

Sərvinə vermişdi ərğəvan rəngi,
Laləsi ucaboy xeyzuran təki.

Daş-qaş içindəydi qolu-qanadı,
Ayına Ülkərdən çələng bağladı.

Bir yetim dürr ilə yaqut dürcünü
Aşiq alması tək tən yarı böldü.

Ənbər saçlarını tökdü çiyninə,
Çatdı zər həlqələr qulaq dibinə.

Zənci zülfü ilə hind rəngli xalı
Vuruşur, şahiddir üzünün alı.

Yüz fil sümüyündən taxt quran şah da
Taxtından əl çəkər ona baxanda.

Əqiq dodağında qara xal... guya
Zənci öz möhrünü vurmuş xurmaya.

Saçında parlayan dürlər görürük, -
Ayın ətrafında ulduzdan örtük.



Çəkib qulaqları gövhəri dara,
Sevənlər izləsin qarabaqara.

Kafur rəngli niqab Ay üzüylə tən. -
Sanki qızıl gülü örtüb yasəmən.

Elə ki. özünə ondördgünlük Ay
Yeddi bəzək verib aldı yeddi pay.

Öküz baxdı; gördü Ayın bədrini,
Ay Öküz bürcündə tapar qədrini.

Götürdü öküzü o canı yanmış,
Öküzün nə boyda gövhəri varmış.

Qalxıb pillə-pillə yanaşdı dama.
Çatdı təxt önündə duran Bəhrama.

Öküz qız çiynində. ayaq üstündə!
Yerindən sıçradı arslan görəndə.

- Bu necə əsrardır? - Heyran qaldı şah,
Heyhat. qazancından olmadı agah.

Qoydu Ay öküzü boynundan yerə,
Şirə qaş-göz ilə etdi işarə.

- Mən sənin qarşına öz qüvvətimlə
Peşkəş gətirmişəm. düşün. fikr elə:

Taparsanmı bircə kişi oğlunu,
Eyvandan aşağı endirsin bunu?

Şah dedi: - Bu hünər səninki deyil,
Aldığın təlimin bəhrəsidir. bil!

Uzun illər boyu yavaş-yavaş sən
Buna idman kimi adət etmisən.

Bu fənd uğurunu indi haqq-nahaq,
Sən öz ayağına yazarsan ancaq.

Şaha təzim etdi o gümüşbədən,
Xeyir-dua verdi candan, ürəkdən.

- Qəribə deyilmi, - soruşdu şən-şən, -
Öküzü təlimlə qaldırıram mən.

Amma sən xırda bir guru vuranda,
Təlim adı çəkmir heç kəs heç yanda.

Bilikdən, elmdən bəhrəli Bəhram
Dəhrin yeganəsi, o müdrikkəlam:

- Ey cənnət hurisi, - dedi, - ey hünər!
Səndən uzaq olsun bədgöz, bədnəzər.

Tatar bütlərinin qibtəsi nigar,
İpək təbiətin, gözəl üzün var.

Sənin bu hünərin, ey hüsnü çıraq,
Təlimlə, vərdişlə düzəlib ancaq.

İndi filə dönmüş bu öküzlə sən
Südəmər vaxtından qalxıb-enmisən.

Söyüşü tanıtdı türk gözəlini,
Şah bir hindli kimi atdı əlini.

Qızın niqabını üzündən açdı,
Aya göz yaşından mirvari saçdı.

Üzr istədi, basdı bağrına birdən,
Gül də gülab səpdi nərgizlərindən.

Atdı bir kənara hər dərdi, qəmi,
Tutdu pəri üzlü o şux həmdəmi.



Bu ev zindan olub, bilirəm, sənə,
Dolanım başına, hər qadan mənə!

Azğınlıq etmişəm, iş keçib işdən,
Sən öz yerindəsən, oda düşən mən.

Qapılar qapandı, çəkildi pərdə,
Bəhram Fitnəsini oturtdu öndə.

Açdı qönçəsini Ay üzlü nigar:
- Fitnə yatızdıran ulu şəhriyar!

Sən məni hicrilə öldürənimsən,
Eşqilə dirildib güldürənimsən.

Dərdindən ölürəm, yoxdu məndə can,
Dərd uca dağı da yıxarmış, inan.

Həyatım qurbandı sənin yolunda,
Az qala getmişdim eşqin yolunda.

Gurun dırnağını qulağına şah
Oxla tikən zaman, nə çəkdim, Allah!

Nəinki bu yerlər, hələ göylər də
Əlini öpdülər, inan, o dəmdə.

Mən tərif etmədim hünərinizi,
Qovdum bədnəzəri, qovdum iblisi.

Bəzən puça çıxır xoşa gələnlər,
Onu bir baxışla kəsir bədnəzər.

Fəqət göy ajdarı göndərdi töhmət,
Məhəbbət yerinə gördüm ədavət.

Bu sözlər Bəhramı tutdu, nə tutdu,
Ah çəkdi, canını dişinə tutdu!

Dedi: - Düz deyirsən, ey əziz insan,
Yer də, göy də bilir - sən vəfalısan.

Bu qədər məhəbbət göstərib də sən,
Hələ axırda bir üzr istəyirsən?

Sənin gövhərinə min-min afərin,
Nə qədər pak imiş zatın, cövhərin.

Belə bir gövhəri daş parçalardı,
Bizim sərhəng onu qorumasaydı.

Çağırdı sərhəngi, şad etdi onu,
Öpdü gözlərindən, qucdu boynunu.

Böyüklərə layiq hədiyyə verdi,
Bircə dürr yerinə xəzinə verdi.

Ona bağışladı Rey diyarını,
Neçə nəfis-nəfis yadigarını.

Şəhərə tələsdi, məclis yapmağa,
Şəkər səpələyib şadlıq tapmağa.

Möbidlər çağırdı, kəsildi kəbin,
Öz halalı oldu ay üzlü gəlin.

Ona min naz satdı işrət dəmində,
Zaman da, rüzgar da öz aləmində.

## ÇİN XAQANININ QOŞUN ÇƏKMƏSİ VƏ BƏHRAMIN QƏLƏBƏSİ

Elə ki, Bəhramın tacı parladı,
Balıqdan Ayadək ucaldı adı.

Adlı-sanlıları tapdı şöhrəti,
Böyük ürəklərin artdı qüvvəti.



Öpdü künc-bucaqda sarıqulaqlar.
Qara suya batdı boş balqabaqlar.

Orda Nersi adlı bir qoca vardı.
Aqil, uzaqgörən bir vəfadardı.

Bəhramın qardaşı, həm də adaşı
Qocanın fəhmilə doluydu başı.

Gizli yox, aşkardı bu dolu mədən.
Nəsli Dara şahın ulu nəslindən.

Şah uzaq olmazdı bir an da ondan,
Öz müşavirindən, öz yoldaşından.

Qocanın üç oğlu, üç nəri vardı,
Üç nərin üç aləm hünəri vardı.

Gözündə qoymayıb kamı, muradı,
Böyüyə vermişdi Zəravənd adı.

Möbidlər möbidi seçdirib şah onu,
Yüz qat artırmışdı ər nüfuzunu.

Tədbiri, zəkası bəlkə dəniz, çay.
Ona abidlikdə tapılmazdı tay.

Ortancıl dövlətin müdrik müşrifi,
Yollardan bac almaq - şanı, şərəfi.

Görüb qələminin ox düzlüyünü,
Şah ona vermişdi Əcəm mülkünü.

Üçüncü - Bəhramın yaxın naibi,
Qoşun başçısıydı, ümmandı qəlbi.

Ölkəni onlara tapşırmışdı şah,
Onlar öz işindən, ölkədən agah.

Vəfalı məmurlar öz xidmətində,
Şah da öz kefində, əlində badə.

Bir yandan boşalan, bir yandan dolan
Dəyirman kimidir bizim hökmran.

Aldı bu xəbəri kərki kimilər,
Onu yonmaq üçün itiləndilər.

Dedilər: "- Bir baxın sərxoş Bəhrama,
Dini zərə satır, qılıncı cama.

İşrətə, ülfətə olub aludə,
Onu bada verir içdiyi badə".

Hərə bir tərəfdən tamahlanır ki,
Keçirsin əlinə şahlığı, mülkü.

Çindən yola düşdü o xanlar xanı,
Şahlığı tutmaqdı əhdi, gümanı.

Qızmış əjdaha tək yürüdü xaqan,
Ardında üç yüz min möhkəm oxatan.

Mavəraünnəhri tuta bildilər,
Şahın naibləri üzgün, dərbədər.

Yad Ceyhun çayını keçdi bir anda,
Qiyamət qopardı düz Xorasanda.

Türkün basqınından olunca agah,
Etibar etmədi ordusuna şah.

Çoxu nərmə-nazik, ağciyər, yassar,
Döyüş qaydasını yadırğamışlar.

Qoşun başçıları pərakəndə, boş,
Şaha sədaqətdə bir çoxu naxoş.



Gizli məktub yazıb hər biri Çinə,
Elçi yollamışdı yad səngərinə.

Malına, mülkünə çarə gəzənlər
Şaha qarşı qara kinlə səfərbər.

"- Ey Xaqan, biz səni sevən qullarıq,
Ayaq tozlarınıq, sənə qurbanıq.

Sənsən aləm şahı, sənə həsrətik.
Bəhramdan şah olmaz, gəl, təxtini tik!

İstəsən, başına qılınc endirək.
Tutub qolbənd edək, sənə göndərək".

Bu gizli məktubu oxudu casus.
Şaha xəbər verdi: - Əfsus, min əfsus!

Şah üzdü əlini iranlılardan,
Yurdu naiblərə tapşırdı əlan.

Qaçıb gizləndi ki, güc yığaq az-maz,
Kütəlmiş silahla döyüşmək olmaz!

Xəbər yayıldı ki, şah taxtdan enib,
Ordudan, ölkədən qaçıb gizlənib.

Xaqan ordusuna hərif deyildi,
Odur ki, önündən qaçdı, çəkildi.

Bu xeyir məktubu Xaqana çatdı:
"Şah taxtından düşdü, tacını atdı.

O tac, kəmər düşdü sənin baxtına,
Tələs, gəl yiyələn yeni taxtına!"

Xaqan bu xəbəri eşidən kimi
Bildi ki, Bəhramın sovuşub dəmi.

Qılınc oynatmaqdan əl çəkdi o da,
Mey içib, könlünü tapşırdı ruda.

Düşmən dərdi çəkmir, şərab içirdi,
Özünə gərəksiz bir don biçirdi.

Bir vaxt düşmənində bəyənmədiyi
İşi özü gördü, dost tutdu meyi.

Bəhram gecə-gündüz şikarla məşğul,
İşcil qasidləri iş üstündə qul.

Xəbər verdilər ki, Çin sərkərdəsi
Kef çəkir, içməkdir işi-peşəsi.

Şahdan arxayındır, dəm və xatircəm,
Bu xəbər şah üçün bütöv bir aləm!

Nəyi qalmış? Vur-tut üç yüz atlısı!
Nə qəm, üç yüz atlı - ordular xası!

Döyüşdə hər biri qoşundan baha,
Suda nəhəng idi, yerdə əjdaha.

Düz üç yüz danəli nar kimiydilər,
Bir səfdə hamısı yekdil, səfərbər.

Şah düşmən önündə hoqqabaz oldu.
Möhrəni gizlətdi, möhrəbaz oldu.

Od uman düşmənə tüstü verdi o,
Qoy yatsın, gözündə dovşan yuxusu.

Oxunu hədəfə sərrast tuşladı,
Çünki tanıyardı qanlı cəlladı.

Qəfildən başladı gecə basqına,
Toz qalxdı göylərin yeddi qatına.



Toz sutunu qara, gecə qapqara,
Döndü düşmən üçün qara şahmara.

Çıraqsız gecədə baş-ayaq qara,
Qarğa qanadı tək səhra, dağ qara.

Yüz min sərxoş zənci sanki səfərbər,
Əllərində qılınc, yürüşürdülər.

Adamlar yürüşən zəncidən xoflu,
Tapa bilmirdilər çığırı, yolu.

Qara ipək geymiş göyün qəlbi nur,
Qır ilə suvanmış qızıl küpüdür.

Xam ənbərlə dolu xəlvət bir gecə,
Döyüşə girişdi Bəhram gör necə!

At çapdı, əlində qılınc, nizə, ox,
Çinli cəsurlara heç bir aman yox!

Necə atırdısa, dərhal vuruldu,
Ox, oxa keçəndən xilas olurdu.

Daşı, sal qayanı deşən oxundan
Göz yumur əbədi yatırdı düşman.

Yaralının çoxu görmürdü oxu,
Ox var, bəs yaralı? Bəlkə bir yuxu.

Çoxları deyirdi heyrətlə, halsız:
- Yaralı oxsuzdur, ox yaralısız!

Gör neçə fərsəngi süzüb keçir ox,
Şahın meydanına yaxın düşən yox!

Dolanır dörd yanı boz bulud sayaq,
Dağı düz eləyir, düzü də bir dağ.

Qırdı, məhv elədi gör nə qədər can,
Torpaq xəmir kimi yumşaldı qandan.

Kimə dəyirdisə şimşək peykanı,
O saat ağzından çıxardı canı.

Şəfəq qılıncını sıyıran zaman
Gördü qan teştidir bütün asiman.

Qılınc olan yerdə qan düşməzdi, de?
Qılıncdır dolduran qanla bu teşti!

Bu dərya qanların sahibi hanı?
Qan seli aparır kəlləni, canı.

Qılınclar ki, bunca qan töküb yerə,
Ödünü qusurdu səmada Zöhrə.

Girov qoyulmuşdu nizə qılınca,
Necə əjdahanı tiksin uc-uca.

Sıçrayan şahmara dönmüşdü oxlar,
Bilsən, nə dəhşətdi sıçrayan şahmar.

Bəhram şah meydanın tən ortasında,
Tükü də bölürdü atdığı cida.

Atlının başına qılınc vuranda,
Xiyar tək bölürdü onu bir anda.

Bircə zərbəsilə üçü ölürdü,
Düşməni belindən iki bölürdü.

Qılıncı - ildırım, oxu - zəhrmar,
Qaçmasın, neyləsin yazıq yağılar?

Türklər bu nagəhan türk həmləsindən,
Yol kəsən zərbədən nicat ararkən,



Ayaq itiləşdi, qılınc kütəldi,
Qaynar şah qılıncı daşı da dəldi.

Duruş gətirmədi türk ordusu, yox!
Qaçanlar da qaça bilmədi az-çox.

Gördü qalib gəlir, şah səfi yardı,
Hey qılınc işlədir, hey ox atırdı.

Sanki o, qasırğa, yağı buluddu,
Darmadağın oldu böyük bir ordu.

Zəfərə çağırdı qoşunu: - Vur! Vur!
Ruzigar da budur ruzu da budur.

Yaraq yad bağrını, haydı, cəld gedək,
Onu yerli-dibli tarimar edək!

Gör çiyin-çiyinə çərilər neynir:
Əllərində şəmşir, altlarında şir!

Qumdan, torpaqdan çox qəvi bir ordu
Hətta öz zərbindən həlak olurdu.

Dağıldı sağ cinah, qopdu sol cinah,
Səfin ortasına hücum çəkdi şah.

Zəfərlə bərkidi qolu, qanadı,
Mərkəz başçısının sındı inadı.

Qara arslanların qeyzi böyükdü,
Süst qılınclıların beynini tökdü.

Zöhhak ilanı tək ox od saçırdı,
Atlılar yıxılır, atlar qaçırdı.

İti xəncərlər ki, doğradı atdı,
Türkün tozu gedib Ceyhuna çatdı.

O qədər xəzinə, dürr aldı ki, şah,
Saya da bilməyib sayar çəkdi ah.

Döyüşən zəfərlə qayıtdı Bəhram,
Xalqa salam etdi, həm də ehtiram.

Novruz bayramını təzələyərək,
Əyləşdi taxtında.
- Taxtın mübarək!

Yenə qarşısında yer süpürən çox,
- Alqış zəfərinə!
- Var ol! - deyən çox.

Çəng çalıb "Pəhləvi" oxudu onlar,
Pars mədəniyyətli pəhləvixanlar.

Ərəb şairləri rübaba uyar,
Dürdən də saf olan şeir oxudular.

Sənət qədri bilən şah da bir ustad,
Bəxş etdi onlara növ-növ mükafat.

Min dəvə göndərdi atəşgədəyə,
- Qənimət yatırdan vəqfdir, - deyə.

Atəşgah başında möbidlər inlər,
Börkünə dürr səpdi, ətəyinə zər.

Gör necə xəzinə qızıl payladı,
Bircə nəfər belə yoxsul qalmadı.

## BƏHRAMIN ORDU BAŞÇILARINI QINAMASI

Nurlu, ağ bəxtindən alınca ilham,
Mübarək taxtında əyləşdi Bəhram.



Harda bir şah vardı, şəhriyar vardı,
Taxt alan, tac verən, tacidar vardı.

Onun qarşısına səf-səf endilər,
Ay və ulduz kimi cərgələndilər.

Şah dindi, hər sözü qılıncdan betər:
" - Ey igid əmirlər, ey sərkərdələr!

Sülh və döyüş üçün yaranıb qoşun,
Olmasa, nə fərqi adamla daşın?

Hansınız seçildi döyüş zamanı?
Hansınız açdınız mərdlik meydanı?

Mən ki, sizi seçdim öz dövranımda,
Hansınızı gördüm ən çətin anda

Ürəkli, kürəkli, biləkli, cəsur?
Düşmən qarşısında mətin və məğrur!

Hansınız fatehin bağrını yardı?
Qılıncı ucunda bir baş apardı?

Hansınız bağladı düşmən yolunu,
Açdı zəncirlənmiş elin qolunu?!

- İrəc nəslindənəm! - fəxr edir biri.
- Areş hünərliyəm! - deyir digəri.

Biri Rüstəm adı, Giv adı çəkir,
Kimsə arslan, kimsə şir ləqəblidir.

Kimsəni görmədim dör-dör döyüşsün,
Qılıncı düşmənin boyunu ölçsün.

Xıltsız olmasa da, bilsin hər adam:
Çörəyin əlindən almayacağam!

Qəribə budur ki, çoxu çəkir ah,
Deyinir: "- Əfsus ki, yatıb bizim şah.

Mey içir, kimsəni yadına salmaz,
Ondan meyxor olar, bizə şah olmaz!

Eşidin: ayığam, mey içsəm də mən,
Heç vaxt ayrılmayıb qəlbim bəşərdən.

Bir hovuz mey verə hurilər mənə,
Qandan uzaq deyil qılıncım yenə.

Bir əlimdə qılınc, birində badə,
Buludam, şimşəyəm, qəhqəhəyəm də!

Vaxt olur, mey içib məclis bəzərəm,
Lakin qılıncımla ellər gəzərəm.

Mənim dovşan yuxum bir azca xəlvət,
Yadı yatarkən də görürəm fəqət.

Duy məndə gülüşü, bil sərxoşluğu:
Məndə şir gülüşü, fil sərxoşluğu!

Can yeyir, qan tökür şir gülən zaman,
Sərxoş, xumar fildən kimdi qaçmayan?

Yalnız əbləh tutur məstlik azarı,
Bir az da ayıldır mey, ayıqları.

Alçaq, zatı qırıq deyilsə bir kəs,
Yüz badə içsə, də yenə keflənməz.

Mən şərab içəndə sanma xumaram,
Düşmənin tacını ayaqlayaram.

Mən içsəm, olaram xalqa aşina,
Xıltını tökərəm düşmən başına.



Atsam bir dostumu mey hovuzuna,
Harun xəzinəsi saçaram ona.

Düşmən ciyərindən şişlik çəkərəm,
Qıraram belini, bağrım sökərəm.

Məni istəyənlər nə üçün sanar:
Çərxin ulduzları bekardır, bekar?!

Məst olub yatsam da fikrim yol gedir,
Mənim oyaq bəxtim öz işindədir.

Məst olub yatanda sanma ki, susdum,
Xaqan yuxusunu gör necə pozdum.

Yanlış addımla da neçə səf yardım,
Hindlinin varını necə apardım.

O hürən gör necə aciz köpəkdir,
Daim keşik çəkir, dinc yata bilmir.

Əjdaha yatıbsa mağarasında,
Qəbul etməz, gələn arslan olsa da.

Hikmətlər söylədi şah şirin-şirin,
Gözü, könlü güldü azadələrin.

Onun qarşısında baş qoyub yerə,
Acizanə cavab verdilər şirə:

"Kəmərbəstələrə şahın sözləri
Ömrün bəzəyidir, əqlin kəsəri.

Düşdük tilsiminə bu gün hamımız,
Sözü sırğa bildi qulaqlarımız.

Tacı şah başına qoyan fələkdir,
Bizimsə cəhdimiz yeldir, küləkdir.

Sərvərlik eləmiş sərvər nə qədər
Səninlə baş-başa çox gəlmiş hədər.

Bəli, heç birinin tacı olmayıb,
Hamı başdan olub, başçı olmayıb.

Biz şahdan görmüşük min dərdə çara,
Görübmü yad eldə bir ağ, ya qara?

Yıxdın əjdahanı, bağladın divi,
Kəsdin kərgədanı, dikəltdin fili.

Gur ovu bilirsən arslanı da sən,
Neçə yırtıcının ilk qənimisən.

Kimdir şikar vaxtı gurun boynuna
Minib... peysərini çəkə qoynuna.

Pələngin xalını nişan alırsan,
Nəhəngin ağzından diş çıxarırsan.

Hindu qılınc ilə çinli qırırsan,
Hindlinin qaşına çin salan da sən.

Vaxt olur, Fəğfurdan xərac alırsan,
Qeysərdən intiqam, ya bac alırsan.

Çox olub, qaplanı, şiri yıxsa da,
Çıxarıb şir beyni yeyib bir gəda.

Əsil şir odur ki, üç yüz kişilə
Üç yüz min düşməni basıb döşüylə.

Məhəbbət, ədavət əzəldən bəri
Açıb şahlardakı xasiyyətləri.

Haqqı adil şahlar dayaq sanıbdır,
Orduya, zamana arxalanıbdır.



Arxasında vur-tut üç yüz hünərvər,
Sənin etdiyini kim edə bilər?

Şahlar bircə-bircə sadalansalar,
Tək Bəhram min şaha bərabər olar.

Cahanda hər şahın bir nişanı var,
Sən bütöv cahansan, vahid hökmdar!

Qılıncın dəyən baş yaşayar məgər?
Lay qapılar kimi iki bölünər.

Oxun sal qayaya tuş olsa əgər,
Narın quma dönər, daş zərrələnər.

Sənin zəhər oxun - yaraya dərman,
Əjdaha cilovun tutar min ilan.

Kimi rədd eləsə Bəhramın qəlbi,
Əridər zəmanə onu şam kimi.

Bir baş, qılıncına tuş olsa əgər,
O başdan, əlbəttə, qan iyi gələr.

Sənin məstliyin də ayıqlıqdı, bil,
Yuxun yuxu deyil, oyaqlıqdı, bil!

Meyə meyl eləsən, xalqa bu da xoş:
İçən sən olursan, düşmənin sərxoş.

Saysız insan içrə ən müdrik sənsən,
Yaxşıya, yamana qadir özünsən.

Heç bir işbilənə möhtac deyilsən,
Çünki misilsizsən işbilməkdə sən.

Yer çərxin altında nə qədər ki, var,
Ucalsın fələyə hökmün, hökmdar!

Dərgahın ədalət mərkəzi olsun,
Tacın bəxtiyarlıq şöləsi olsun!

Taxtının dayağı saxlasın göyü,
Yeri də yaşatsın şah böyüklüyü.

Kim dedi bu sözü? İşbilən bəndə.
Deşdi kəhrəbanı yaqut önündə.

Şah Neman ucaldıb əqlin səsini,
Alqışla bəzədi şah məclisini.

- Şah taxtı Balıqda qurulsa belə,
Aya ucalacaq saçdığı şölə.

Bəhramın şah tacı günəş kimidir,
Kim deyə bilər ki, düz, ya əyridir?!

Tacı Tanrı qoyub başına sənin,
Daim təzə qalsın bu şah çələngin.

Sənin sarayının nökəriyik biz,
Tacın sayəsində "Mənəm!" deyiriz.

Qurumuz sənindir, yaşımız sənin,
Varımız, yoxumuz, başımız sənin!

Əmr elə Ərəbdən Əcəmə qədər,
Başdan da keçərik, buyursan əgər.

Xeyli var, xidmətim zor olmasa da,
Kəmər bağlamışam şah qapısında.

Sənin dərgahında ucalıb başım,
Sayəndə tapılıb çörəyim, aşım.

Məni üzrlü tut, izn ver bu gün
Gedim öz evimə, idarə üçün.



Dincəlim, yorğunam haçandan bəri,
Şah əmr edən kimi dönərəm geri.

İzn yoxsa, yenə xidmətdə varam,
Şaha pərəstişdən baş qaçırmaram.

Şah qalxıb əmr etdi xəzinədara:
- Onunçün ən baha gövhər, dürr ara.

Get, sultana layiq töhfələr gətir:
Məğribi, Əmmani, Misri... birbəbir.

Yükçü, xəzinəçi dərhal getdilər,
Yükü yük üstündən nisar etdilər.

Qızılı xalvarla, mişgi keyl ilə,
Qulamlar, kənizlər ayrıldı hələ.

Qiymətli libaslar, ali geyimlər
Verildi, üstündə mirvari, gövhər.

Parsın bəslədiyi ərəb atları,
Görüb yüz zirvəni, min-min axarı.

Qılınc - Hindistandan, zireh - Davudi,
Səxa kimisinə yer verdi Cudi.

Neçə dürr sərrafı, neçə ləlşünas
Bu dürrü, bu ləli sayıb qurtarmaz.

Şüştər gəlirindən üstün geyimlər,
Tacı da verdi şah, cıqqası gövhər.

Bəxşişdən Nemanın üzü parladı,
Yəmən də, Ədən də onun sovqatı.

Belə bir nemətlə şah dərgahından,
Aydan Zöhrə kimi ayrıldı Neman.

## BƏHRAMIN YEDDİ İQLİMDƏN ŞAH QIZLARINI İSTƏMƏSİ

Bəhram yorulmuşdu vurçatlasından,
Şənliyə, işrətə qurşandı əlan.

Hamının işini salıb təhrinə,
Sonra da başladı öz tədbirinə.

- Bir az da kef çəkim, - dedi, - asudə,
Düşmən, ayağında, badə - əlində.

Usta bir rəssamı saldı yadına -
Öndə bəhs açmışdıq onun adına.

Yeddi qız şəklilə bəzənmiş otaq,
O Xavərnəq qəsri, Bəhram, bəxti ağ.

Yeddi-çıraq yanır yan-yörəsində,
Bir Ərjəng hüsnü var hər qız əksində.

Mələkə sifətli qızları andı,
Bəhramın varlığı eşq ilə yandı.

Qazanı qaynardan onda düşdü ki,
O yeddi cövhəri ələ gətirdi.

Kəyan soyundandı əvvəlinci qız,
Atasız qalmışdı o pak, inci qız.

Min xəzinə verdi, adaxlandılar,
Öz gövhərindəndi bu gövhər nigar.

Sonra şah Xaqana elçi göndərdi,
Hərbə-zorba gəldi, umud da verdi.



Ondan qız, xəzinə və tac istədi,
Bir də yeddi illik xərac istədi.

Xaqan verdi qızı, bac-xəracı da,
Üstəlik at, dinar, hələ tacı da.

Şah Ruma yönəldi, Türk basqınıyla,
Bu yurda od vurdu hayla-harayla.

Qeysər qorxusundan nəfəs çəkmədi,
Qızını verirkən: "Əfv edin!" dedi.

Şah elçi yolladı Məğrib şahına,
Qız və qızıl çıxdı, onun baxtına.

Aldı, yiyələndi tacü-taxtına,
Hər şeyi gətirdi öz paytaxtına.

Bağdan bağa köçdü qamətli sərvi,
Özü Hindistana baş aldı, getdi.

Zəka və eşq idi yar olan ona,
Racın qızını da basdı bağrına.

Elçisi Xarəzmə xonça apardı,
Orda adaxlısı bir şux nigardı.

Səqləbə göndərdi əl boyda kağız,
Çıxdı uğuruna bulaq kimi qız.

O yeddi iqlimin başçılarından
Yeddi qızmı aldı, ya yeddi mərcan?

Zövq aldı, kam aldı gənclik dəmindən,
İşrət dünyasından, kef aləmindən.

## BƏHRAMIN QIŞ MƏCLİSİNİN VƏSFİ VƏ ONUN YEDDİ GÜNBƏZ TİKDİRMƏSİ

Зəfər sübhündən də işıqlı bir gün,
Göylərin alnında nə toz, nə düyün.

Aləmi eşq ilə işıqlandıram
Nə bəxtəvər gündü! Çıxmasın yaddan.

Dilbər cəmalı tək gözəl yığıncaq,
Bura müdrikləri çağırdı ancaq.

Bağda-bağçada yox, evdəydi qonaq,
Qışın ilk gününə düşdü təmtaraq.

Bağlarda sönmüşdü qəndil, çılçıraq,
Bağban köç etmişdi, boş qalmışdı bağ.

Bülbülün səsini çalmışdı qarğa,
Oğru səsləriydi doluşan bağa.

Qarğanı həmişə hind əsilli bil,
Hindin oğurluğu qəribə deyil.

Bülbülsüz bağlara qarğa hökmran,
Güldən tikanlardı yadigar qalan.

Səhərin yelləri nəqqaşdı guya,
Zəncirli həlqələr atırdı suya.

Odu tabdan salan soyuqdakı güc
Qılıncı su etmiş, suyu da qılınc.

Çovğun, əlindəki oxla yer eşir,
Çeşməni bağlayır, gözləri deşir.



Pendirə çevrilir süd qaynayanda,
Qan bədəndə sönür, hərarət canda.

Göylər sincab xəzi, yerlər həvasil,
Dağlar dələ kürkü geymiş elə bil.

Pusquda dayanmış yırtıcılar şən,
Özünə kürk tapır mal dərisindən.

Bitkilər baş qoyub zər xəzəlliyə,
Boyatma qüvvəsi enib səcdəyə.

İki rəngli cahan, - kimyagər qoca
Od ləli gizlədib quru daşdaca.

Gül hikmət gilindən çəkərək suvaq,
Kuzədə əyləşib bir gülab sayaq.

Bulaqlar buz tutub dönüb şüşəyə,
Gümüş su çəkilib rahat guşəyə.

Belə bir fəsildə şah tabxanası
Olmuş dörd fəsilin doğma anası.

Dürlü rayihələr tutub hər yanı,
Yumşaldır, qızdırır qarlı havanı.

Bal kimi meyvələr, növ-növ şərablar,
Damağa dad verir, qəlbə iqtidar.

Səndəl, ud ocağı qutluqdur deyə,
Tüstülər hindli tək enmiş səcdəyə.

Qırmızı alovlar sevinc qaynağı -
Elə bil Zərdüştün kükürd ocağı.

Atəş - qaynamaqdan laxtalanan qan,
Qana batmış ipək, yaxud ərğəvan.

Od - innab rənginə boyanmış fındıq,
Döyülmüş şəngərfdir, civədir artıq.

Məğzi çıxarılmış almadı - şölə,
İçi doldurulmuş nar giləsilə.

Qır ilə boyanmış kəhrəbadı nur,
Müşk ilə yaşmaqlı günəş də odur.

Muzdura çevrilmiş mürgülü düşmən,
Zövq alır şərabla qüsl eləməkdən.

Od - məlik zülfündə bitən bir lalə,
Boğulan zülmətdən yüksələn şölə.

Əsli Rum elindən Türkdü bu məşcər,
"Göz nuru" söyləmiş ona hindlilər.

Ev - Yunis məşəli, Kəlim çırağı,
İsanın məclisi, İbrahim bağı.

Tək-tək kömürlər ki, atırlar oda,
Ləkəyə bənzəyir saf bir aynada.

Kömür qapqaradı, od - əqiqsifət.
Yaqut yatağıyla öyünür zülmət.

Yaqut kimi mavi, sarı, qırmızı
Atəş parıldadır göz aynamızı.

Təzə bir gəlindir qığılcımlı yar,
Boynunda kömürdən həmayili var.

Gəlin otağıdır hiclə və bəzmə.
Hiclə - ud, bəzmə də gülnar rəngində.

Bəzmə tutulmuşdur zərə, qumaşa,
Kəklik, turac əksi orda baş-başa.



Gör necə vurulub atəşə, oda,
Rəqqas alabaxta qanad çalmada,

Yüksəkdə tüstülər, altda alovlar...
Qızılın üstündə əjdahamı var?

Odun cəhənnəmi, cənnəti aşkar,
Qızışsa, cənnəti cəhənnəm olar.

Kilsə əhli üçün cəhənnəmdir od.
Cənnət yolçusuna bir cənnətdir o.

Oda türkü qoşur Zərdüştün zəndi,
Yanacaq xirqəsi... Muğ pərvanədi.

Buzu su etməklə damağın açar,
Bəs niyə adını atəş qoyublar?

Sərvin kölgəsi tək geniş süfrədə
Qırqovul qanı tək qırmızı badə.

Bu göyərçin rəngli səmadan enən
Göyərçin qanını axıdır nədən?

Büllur camlardakı badə, fikirləş:
Qurumuş sudurmu, yoxsa yaş atəş?

Gurların budundan kabab bişirən
Gur gözlü gözəllər mey içir hərdən.

Başında dostları, əlində badə,
O cahan sahibi şərab içmədə.

Mey, noğul, musiqi... nə istəsən var,
Neçə piyalədaş, neçə qəmküsar.

Gülşəkər təbəssüm, gül rəngində mey,
Canlı bir atəşlə bişmədə hər şey.

Damaqlar türküdən xumar olmada,
İstidən mum kimi can yumşalmada.

İncə mətləbləri açıb söyləyən
Zirənglər feyz alır eyş aləmindən.

Hər fazil göstərir fəzilətini,
Rütbəsinə uyar söz-söhbətini.

Sözə söz calandı, zəncirlənərək,
Sonda dilə gəldi böyük bir ürək:

"Sığmır səmalara saçdığımız nur,
Burda dəqiqələr ildən uzundur.

Cahan şahlarından hələ heç bir kəs
Bu boyda cəlalı görməyib, görməz!

Qüdrəti, şövkəti, zəkası, bəxti -
Bizə bəxş elədi hər səadəti.

Əmin-amanlıq var, can sağlığı var,
Düşmənin yeri dar... bizdə dünyalar.

Sağlıq, firavanlıq, əmin-amanlıq -
Budur üç səadət, qalan şey artıq.

Qarnın, gözün də tox, əynində geyim,
Nə ləl, nə dürr olsun... vecimə deyil.

Bizim ki, şahanə bir şahımız var,
Sən varsan, deməli, pənahımız var.

Ey kaş, bu çarəni tapmaq olaydı:
Bəd nəzər bizlərdən uzaq olaydı.

Kaş o göy qübbəsi, ulduzlar dəsi
Bizdən bu iqbalı əsirgəməsin!



Bizim ağ bəxtimiz boz olmayaydı,
Könüllər nəşəsi pozulmayaydı.

Şahımız şad ola daim, nuryyaya,
Eyşin xırmanını yel aparmaya.

Daim şamdan olsun şah bu ölkədə,
Razıyıq, uğrunda can qurban gedə!"

Natiq kəlamını çatdırdı sona,
Hamı şərik çıxdı, qoşuldu ona.

Nəfəsi qapıdan qovladı qışı,
Yatdı ürəklərə mehri, alqışı.

Məclisdə şanlı bir mərdazad vardı,
Nəsilcə möhtəşəm, başçı, salardı.

Adı Şidə, özü xurşidə bənzər.
Ağı, qaranı da bəzəyən bir ər.

Rəssamlıq işində hünər göstərən
Mətanət almışdı mühəndislikdən.

Təbiət, həndəsə, nücum elmi də
Mum bir top kimiydi onun əlində.

Bənnalıq işində bir zərgər idi,
Şəkillər çəkməkdə hünərvər idi.

Fırçası Maninin canını alır,
Kərkisi Fərhadı heyrətə salır.

Böyük Simnar idi ilk müəllimi,
Şərbət tək içmişdi təlimi, elmi.

Xavərnəq qəsrində, incə işlərdə
Çox kömək etmişdi ustadı mərdə.

Dili şərbət kimi, qəlbi od-alov,
Şahı ki, bəzmdə bu cür gördü o.

Yer öpdü, bildirdi pərəstişini,
Əyləşdi, söz ilə çəkdi nəqşini.

Dedi: "- Bəd nəzəri qovaram... Hərgah
Mənə lütf edibən yardım versə şah.

Çünki göyölçənəm, ulduzşünasam,
Ülkərin nəbzinə qulaq asaram.

Nəqqaşlıq sənəti, memarlıq elmi
Mənə vəhy gəlib bir vergi kimi.

Göylərlə bağlaram elə bir ülfət,
Dəyməz şahımıza xətər, xəsarət.

Bu şahlıq evində yaşadıqca o,
Olmaz ulduzlardan heç bir qorxusu.

Yoxluq tilsimini qırar varlığı,
Yerlərlə hökm edər göylər sayağı.

Yeddi günbəz tikən bununçün gərək,
Hər günbəz dayansın dağ qalası tək.

Hər günbəz - timsalı ilahi rəngin,
Bütdən, bütxanədən min dəfə zəngin,

Şahın könüldaşı yeddi nazənin,
Açar bayrağını yeddi ölkənin.

Axı hər ölkənin öz ulusu var,
Öz rüknü, özülü, öz ulduzu var.

Həftənin hər günü ulduzla aşkar,
Desin, eşitsin də böyük hökmdar.



Hər gün bir günbəzin seyrinə varsın,
Yapdığı məclisdən ləzzət aparsın.

Geysin o qəsr ilə həmahəng libas,
Evin dilbərilə mey içsin bir az.

Əgər dediyimi etsə hökmdar,
Özünü həmişə möhtəşəm saxlar.

Yaşarsa beləcə şah bu dünyada,
Ağzı dada çatar, özü murada".

"- Tutalım, yaratdım bu cah-calalı,
Tikdim qızıl qəsri, dəmir qapılı.

Bir gün yetəcəksə əcəlin əli,
Bunca əziyyəti neçin çəkməli?

Deyirsən, günbəzli evlər bəzəyim,
Axı mən neynirəm bəzək-düzəyi?

Havadır, həvəsdir bütün saraylar,
Hardadır saraycı, ən ulu memar?

O yeddi gözələ "Yaşa!" deyəndə,
Yaşadan qüdrəti gəzim nerədə?

Yox, bir az deyəsən çaşdım, qudurdum,
Yaradan qüdrətin yerini sordum.

Onu mümkün deyil bu yerdə görmək,
Biz ona hər yerdə tapınaq gərək".

Deyib bu sözləri sussa da Bəhram,
Dolmuşdu qəlbinə coşqun bir ilham.

Gözləri önündə Simnar lövhəsi,
Yeddi gözəl qızın yeddi ölkəsi!

Bağlı sandığında yeddi yetim dürr,
Hərəsi bir ömür, eşqin özüdür.

Şidənin sözləri bərk tutdu şahı,
Gizli mətləbləri bilən agahı.

Ancaq tələsmədi, tab gətirdi, tab,
Ona bir neçə gün vermədi cavab.

Söhbətin üstündən sovuşdu günlər,
Şidəni çağırdı Şeydabənd səhər.

Tapşırdı boynuna aldığı işi,
Özü sahmanladı hər bir gərdişi.

Açdı xəzinəni, verdi vəsait,
Qoy işə başlasın bu gündən igid.

Müdrik ulduzşünas, bəxt bilən usta
Düşündü uğurlu bir gün xüsusda.

Rəssamlıq işinə girişmək üçün,
Bəhramla görüşə seçdi dürüst gün.

Aradı, tapdı da uğurlu günü,
Günbəzli sarayın qoydu himini.

İki il ərzində o dahi usta
Qəsrlər tikdi ki, cənnətdən üstün.

Yeddi gövhər kimi yeddi günbəzi
Göyləri əks edib bəzədi ərzi.

Bəli, əməl etdi usta şərtinə,
Qəsrlər uyğundu təbiətinə.

Şah gəlib gördü ki, eşsizdi, təkdi:
Burda yeddi qəsr yeddi fələkdi.



Nemanın Simnara etdiyi zülmü,
Andı, yada saldı qanlı ölümü.

Möcüzə əhlinin öldürülməsi
Məgər şad eləyər ağıllı şəxsi?

Bəhram baş memarı şad etsin deyə,
Babək şəhərini verdi Şidəyə,

"- Neman xəta qılıb ülfəti qırdı.
Gözəl bir memarı cəzalandırdı.

Ədlim üzr istəyir o zülmə görə,
Onu xəsis, məni səxalı bilmə!

Aləmin işləri daim belədir,
Biri ziyan görür, başqası xeyir.

Biri susuz qalır, yanır ciyəri,
Elə həmən suda batır digəri.

Hamı bu gərdişə heyrandır, heyran,
Dözməkdən savayı varmı bir imkan?

## YEDDİ GÜNBƏZƏ ÖYGÜ

Keyxosrov tacını Aya qaldıran,
Keyqubad papaqlı şah zaman-zaman

Elə bir Bisütun ucaltdı göyə,
Yanında... Fərhadın etdiyi - heç nə.

O yeddi sütunlu Bisütun üstə
Qalxdı yeddi günbəz - yeddi güldəstə.

Gəzdi imarəti, nə gördü Bəhram:
Göydən də yüksəyə qalxıb bu ehram.

Hasarlar çiynində o yeddi günbəz,
Yeddi səyyarə tək əbədi, ölməz.

Öz bəxt ulduzunun rəngini Şidə
Vermiş o günbəzin yeddisinə də.

Qara mişk kimi qaralan günbəz
Keyvan ulduzuna həmdəm, həmnəfəs.

Müştəri mayalı günbəz bir ovsun,
Bəzəyi, rəngi də səndələ uyğun.

Pərgarı Mərrixlə çəkilmiş günbəz
Qırmızı gövhərdən almış bəzək, süs.

Qızılla örtülü günbəz sapsarı -
Günəş xəbərdarı, gün yadigarı.

Ağ üzlü Zöhrə tək qüllə ağappaq
Zöhrədən nur almış o ağ çılçıraq.

Seyr et o bürcü ki, gülür göy təki,
Ütariddən almış firuzə rəngi.

Ayın yol tapdığı bir günbəz də var,
Rəngi - şah taleyi, yamyaşıl bahar.

Yeddi ülkər gözlü yeddi günbəzin
Yerdən göyəcəndi, baxın, gövdəsi.

Şahın yatağında yeddi şah qızı,
Hökmündə yeddi yurd - yeddi arxası.

Qızlardan hər biri Bəhrama vurğun,
Bir günbəz seçmişdi zövqünə uyğun.

Evdə cüt balışdan tül pərdəyədək
Seçilmiş günbəzlə həmrəng, həmahəng.



Xəlvətdən, işrətdən alaraq ilham,
Bir qəsri seçərdi Bəhram hər axşam.

Həftədə hər günün öz rəngi vardı,
O günə, o qəsrə Bəhram uyardı.

Sevdiyi məclisdə məclis quranda,
Gülgün qədəhinə mey dolduranda

Həmən qəsrə uyğun libas göyərdi,
Rəng-rəng şölələri gözü yeyərdi.

Can alan, can verən ev xanımı da
Cilvələr saçardı onun yanında.

Şaha yedirməkçün öz halvasını,
Ədası bəzərdi ədavasını.

Şəhvəti qızdırıb coşdurmaq üçün
Nağıllar deyərdi, gözləri süzgün.

Bəhram ucaltsa da dağ boyda saray,
Canını qurtara bilmədi, haray!

Qaç belə gülşəndən, ey Nizami, qaç!
Onun gülü - tikan, tikanı - qırmanc.

Beş günlük mənzildə Bəhram nə etdi,
Dağ boyda mülkünü atdı da, getdi.

## BƏHRAMIN ŞƏNBƏ GÜNÜ QARA GÜNBƏZƏ GETMƏSİ VƏ BİRİNCİ İQLİMDƏN ŞAH QIZININ ƏFSANƏSİ

Elə ki, başladı eyşə, işrətə,
Verdi varlığını yeddi afətə.

Şəmmas məbədindən çıxaraq erkən
Qara çadır aldı Əbbasilərdən.

Getdi mişk rəngli evə, ocağa,
Hindu gözəlini salamlamağa

Qıza, ud yandırıb, dedi: - Ətir çək!
Oynadı, şənləndi düz axşamadək.

Ağ ipək üstünə gecə şah kimi
Açarkən, saçarkən qara mişkni,

Kəşmir baharından o eşq əsiri
Ətirli bir nəsim, bir gül istədi.

Gövhər mücrüsündən bir noğul versin,
Bir qadın nəfəsli əfsanə desin.

Desin bir nağıl ki, ağız sulansın,
Sərxoş mürgüləsin, gecə uzansın.

Hindistan yavrusu, Türk gözlü ceyran,
Mişk nəfəsindən saçdı da reyhan:

"- Şahın beş növbəsi, - dedi, - bir ovsun,
Ayın dörd balışı üstündə olsun!

Kainat durduqca canı sağ olsun,
Önündə nakəslər toz-torpaq olsun!

Sonu görünməsin səadətinin,
Bəxti ləngiməsin var-dövlətinin".

Qapandı səcdəyə o şux gülbədən,
Saçdı ud nəfəsi şəkər ləbindən.



## HEKAYƏT

Həyalı gözləri yeri döyürdü,
Kimsə eşitməyən sözlər deyirdi:

- Bunu eşitmişəm çocuq ikən mən,
Çox incə düşünən əzizlərimdən.

Cənnət qəsrimizin xanımlarından
Bir zahidə varmış, lətif, mehriban.

Bürünüb qaraya, bizim saraya
Həmişə gələrmiş o ağca maya.

Ondan soruşurlar: "Hansı vəhmdən
Qara don geymisən, ey gümüşbədən?"

Yaxşı olar, sirri açıb deyəsən,
Bu qara dünyanı ağ eyləyəsən.

Qara geyinməyin rəmzdir, nədir?
Azca xeyirxah ol, açılsın bu sirr".

Qadın oğruluqdan qaça bilməmiş,
Qara don sirrini açıb söyləmiş:

"Bilirəm, deməsəm, əl çəkməzsiniz,
Deyim, hər sözümə inanın şəksiz.

Bir vaxt kəniz idim bir hökmdara,
Adil bir insandı o əyni qara.

Rəhmətlik şah idi, kamına çatmış:
Qoyunla qurd üçün ülfət yaratmış.

Ağ günü az görən, çox bəla çəkən
Qara geyinmişdi zülmün əlindən.

Çaxnaşan bəxtini görərək Allah
Ona ad vermişdi: "Qara geyən şah".

Əvvəllər bahalı geyimi varmış"
Rəngi göy, qırmızı, sarı olarmış.

Bağın çiçəyi tək qonaqsevərmiş,
Qönçədə gül kimi gülümsəyərmiş.

Bir qonaq qəsri də varmış mübarək,
Yerdən ucalıbmış Süreyyayadək.

Yaxşı süfrə açıb büsat qurardı,
Lütf ilə bəslənmiş qulları vardı.

Bir atlı görsəydi, at cilovundan
Tutar... edərdilər atlını mehman.

Süfrə açardılar şahlığa layiq,
Qonaq sahibinə, qonağa layiq.

Şah ondan sorardı macərasını,
Həm yad ölkələri, həm doğmasını.

Şah qulaq asardı müsafirinə,
Onun zaman-zaman gördüklərinə.

Bu minvalla yanan bir çıraq idi,
Ömrü tükənsə də, üzü dönmədi.

Bir müddət qeyb oldu, çəkildi gözdən,
Başını Simurğ tək gizlədi bizdən.

Keçdi xeyli zaman... Ənqaya bənzər
Şahdan gətirmədi kimsə bir xəbər.

Bir gün hardansa bəxt yola düzəldi,
Şah özü taxtının üstünə gəldi.



Papağı, köynəyi, donu qaraydı.
Qara bir fəryaddı, qara haraydı.

Hələ üz verməmiş bəla, müsibət.
Dərdi qabaqlamış o incə xilqət.

Dirilik suyunu zülmətdə ara.
Heç kim soruşmadı: - Nədir bu qara!

Qılıq, mehribanlıq göstərib bir gün
Hazır dayanmışdım gecə şah üçün.

Yanımda uzatdı ayaqlarını.
Qınadı fələyin çıraqlarını:

"Necə də zülm etdi gör mənə göylər,
Açdı başımıza min qəza-qədər.

İrəm diyarından ayırdı məni,
Qara bir qələmə yazdı bəxtimi.

"O diyar hardadır? - sormadı heç kəs -
Nədir əynindəki bu qara libas?"

Şaha nə cür deyim cavab sözümü?
Düşdüm, ayağına sürtdüm üzümü.

Dedim: " - Ey qəmginlər əlindən tutan,
Aləmdə ən yaxşı, adil hökmran!

Kimsə tapılmayıb cahanda hələ,
Yona səmaları öz kərkisilə.

Səndən söz sormağa kimin həddi var,
Yalnız özündədir sual-cavablar".

Məni məhrəm bildi... o, dürrü deşdi,
Mişk nafəsini yırtdı, əlləşdi.

Dedi: "Şahlığımdan deyəsən məstəm,
Bilirsən nə qədər qonaqpərəstəm.

Kimi görmüşəmsə, qonaq etmişəm,
Başından keçənə maraq etmişəm.

Bir qərib gəlmişdi bir axşam bura,
Donu, əmaməsi, başmağı qara.

Ona layiqincə qonaqlıq verdim,
Ucaltdım şənini, yaxşı dindirdim.

- Həyat naməsini oxumadığım,
Ey qara geyinmiş əziz qonağım,

Neçindir bu qara?
Söylədi: - Vaz keç.

Olubmu Simurğdan xəbər verən heç?
Söylədim: - Cavab ver, gəzmə bəhanə,
Qırdan, qeyruvandan xəbər ver mənə.

- Məni üzürlü tut! - söylədi yolçu, -
Deyilməkdən uzaq bir arzudur bu.

Bu qara əsrardan tutan yox xəbər,
Onu yalnız bilər qara geyənlər.

Yalvardım, yaxardım çox həyəcanlı.
Mən iraqlı oldum, o xorasanlı.

Ona yalvarışım əsər etmədi,
Açmadı pərdəni, maraq bitmədi.

Həddini keçəndə xahişim ancaq,
Mənim pərtliyimdən utandı qonaq.

Dedi: - Bir şəhər var Çində, münəvvər -
Cənnətin özütək gözəl bir şəhər.



"Mədhuşlar şəhəri" deyirlər ona,
Qara geyənlərə olub yasxana.

O yerin mərdləri Ay camallıdır,
El qara ipəkdə Ay kimi yatır.

Hər kim gəlib çatsa həmən vadiyə.
Qara geydirərlər dərhal əyninə.

O yerin belə bir əlaməti var,
Hələ oxunmamış dəsti-xətti var.

Qanımı qılıncla töksən də, nə qəm.
Daha bir kəlmə də deməyəcəyəm.

Mənim diləkçəmin qapısı bağlı.
O, yük vurub getdi, atlı, ulaqlı.

Başım o dastana çulğaşan zaman,
Yanımdan getmişdi dastan danışan.

Heç nağıl bitməmiş, nağılçı getmiş,
Qorxdum dəli olam, ah, nədir bu iş?

Çox götür-qoy etdim, açım əsrarı,
Yığdım bir tərəfə piyadaları.

Lakin o, fərzimi salmışdı bəndə,
Uca dağ qalası yatmır kəməndə.

Səbr ilə aldatdım əhdi, muradı,
Ki, qəlb aram tapsın, aram tapmadı.

Çox gəzdim əsrarı, üzüm gülmədi,
Heç kəs bircə xəbər verə bilmədi.

Qoydum bir qohumu öz yerimdə şah,
Tərk etdim ölkəni... dada yet, Allah!

Yolda çəkməməkçün əziyyət, filan,
Götürdüm pal-paltar, bir az zəmişan.

Şəhərin adını dürüst öyrəndim,
Birbaş həmən yerə yönəldim, gəldim.

İrəm bağı kimi gözəl bir şəhər,
Bayraq ucaltmışdı mişkdən ellər.

Hamının canında süd ağlığı var,
Hamının əynində qır kimi paltar.

Evlərdən birinə qoydum yükümü,
Dəs-dəs libasımı, tədarükümü.

Şəhərin halına daldım bir qədər,
Heyhat, o əsrardan bulmadım xəbər.

Baxdım çox qapıya... bir gün axır ki,
Xoş üzlü bir qəssab sıxdı əlimi.

Özgələr haqqında pis danışmayan
Lətif bir insandı, gözəl, mehriban.

Onunla ülfətə yol axtarırdım,
Sezdim mərdliyini, güldü muradım.

Dinlədim... tərpəndi, bir cüt qanadım,
Börkünü belimə kəmər bağladım.

Ona pullar verdim, - təzə sikkəli,
Verdim saya gəlməz xaranı, ləli.

Qədrini qaldırıb verdim kef-damaq,
Dəmiri qızılla suvadım ancaq.

Gah ipək verməklə, gah ipək sözlə
Onu şikarım tək gətirdim ələ.



Saçdığım qızıldan kefi duruldu,
Qurbanlıq kəl kimi o, mənim oldu.

Üstünə o qədər saçdım xəzinə,
Xəzinə yükündən düşdü zəhmətə.

Məni öz evinə apardı bir gün,
Qonaqlıq verdi ki, üstündən üstün.

Geniş süfrə açıb yemək gətirdi,
Çörəyi ətirli, sözü ətirli.

Bircə qonağının əhdindən başqa
Hər şey süfrəsində bol-bol, cabəca.

Hər növ yeməklərdən yeyəndən sonra
Danışdıq... açıldı neçə macəra.

Elə ki, bitirdik süfrə işini,
Mənə bəxş elədi yüz peşkəşini.

Qatdı mən verəni öz verdiyinə,
Qoydu qabağıma, əyləşdi yenə.

Soruşdu: - Bu qədər xəzinəni sən
Axı nədən ötrü mənə verirsən?

Gündəlik ruzuma mən ki, qaneyəm,
Nəyimə gərəkdir bu boyda aləm?

Bunca şah töhfəni harda saxlayım?
Əmr et, xidmətində kəmər bağlayım.

Min canım olsaydı, inan, mini də
Qiymətsiz gələrdi zər tərəzində.

Dedim: - Nə tərəzi, nə xidmət, ağa?
Yanıma bişmiş gəl, son qoy xamlığa.

Aqillər, ariflər tərəzisində
Xırda-xuruş töhfə axı nədir, nə?

Əlimin altında duran gənclərə
Xəlvəti göz vurub etdim işarə.

Çaparaq getdilər, gətirdilər var, -
Par-par parıldayan xalis qızıllar.

Ona bəxş elədim rəngi sapsarı,
Qızıldan bahalı saf qızılları.

Kişi xəcil oldu nəvazişimdən,
Yazıq baş açmadı mənim işimdən.

Dedi: "-Çıxmamışam borcundan hələ,
Qızıl çıxarırsan xurcundan hələ.

Borcumu verməmiş, təzə borc alım?
Xəcalət çəkirəm, nə çarə qılım?

Qoydum qabağıma sən verənləri,
Sanma hədiyyəni qaytardım geri.

Qaytardım geri, ki, düşünək bir az:
Xəzinə zəhmətsiz qəbul olunmaz.

İndi də deyirsən: - Təzə qızıl al,
Mən xəcil oluram, sən isə xoşhal.

Bir qulluğun varsa, de... şad et məni.
Yoxsa götür geri verdiklərini."

Onun mərdliyini hiss etdi ürək,
Gördüm sevir məni öz qardaşı tək.

Açdım, ona dedim hekayətimi,
Tanıdı şahlığı, məmləkətimi.



Bildi bu diyara neçin gəlmişəm,
Şahlıqdan əl çəkib köksümdəki qəm.

Axı nədən ötrü bu qara şəhər
Şadlıqdan, şənlikdən görmür bir əsər?

Yas yox ikən niçin yas tutur şəhər?
Neçin başdan-başa qara geyiblər?

Bu sözü eşidən qəssab döyükdü,
Bir quzuya dönüb qurddanmı ürkdü?

Duruxdu, ürəyi gedibmiş kimi,
Xəcalət qapadı kirpiklərini.

"- Sən savab olmayan bir söz soruşdun,
Nə qəm, dürüst olar cavabı onun.

Gecə kafur üstə ənbər saçanda,
Bəşər haq yolundan uzaqlaşanda

Açaram əsrarı... Vaxtdır, gəl, gedək,
Özün gör, agah ol... həsrətdən əl çək.

Qalx, gedək, bu sirri göstərim sənə,
Görsən o surəti, inan gözünə".

Qəssab evdən çıxdı, bələdçim oldu,
Dolaşıq yollarda döndü, buruldu.

O, getdi... yüyürdüm ardınca mən də,
Yolda bizdən savay yox başqa bəndə.

Ayrıldıq bəşərdən pərilər kimi,
Mənə nişan verdi viran bir dibi.

Bomboş xərabədə addımlayaraq,
Üzə niqab saldıq pərilər sayaq.

Orda iplə bağlı bir səbət vardı,
Gətirdi qarşıma... dəyirmi, dardı.

Səbətə bağlı ip qaraldır qanı,
İlən zəmbilində bir əjdahamı?

Dedi: "- Bu səbətdə gəl, bir an otur,
Yeri görmək üçün onun, bardaş qur!

Fəhm etsən, bilərsən hansı səbəbdən
Susmuş, qara geymiş bu el, bu vətən.

Səndən gizli qalan yaxşı-yamanı
Bunun tək göstərən bir ayna hanı?"

Gördüm təhlükəsiz yerdi... oturdum,
Səbətin içində yuvamı qurdum.

Bədənim səbətə qanadmı taxtı?
Səbət bir quş olub havaya qalxdı.

Çənbər tilsiminə bağlıyam deyə,
Məni hara çəkdi? Çənbərbaz göyə.

O, kəndirçəkəndi, mən də kəndirbaz,
Göylərdə çarəsiz edirdim pərvaz.

Şamı sıxan kimi sıxır məni ip,
İp xeyli möhkəmdi, boynumsa zəif.

Mən - bəxtindən ayrı bir əsir kimi,
İp sıxırdı məni, boğurdu məni.

Bəxtimin eşşəyi, boynunda kəndir
Məndən uzaqlaşıb gör neçə gedir.

Kəndir bədənimi tabdan salsa da,
Taleyim bənd idi yalnız o sapa.



Başı Aya çatan bir göy minarə,
Baxsan, papaq düşər başından yerə.

Səbət minarəyə gəlib çatanda
Kəndir bağazımdan çıxdı bir anda.

Məni atdı, getdi səbət irəli,
Nə qədər qışqırdım, olmadı xeyri.

Aşağı, yuxarı cahana baxdım,
Gördüm səmadayam, yaman darıxdım.

Əfsun oxuyurdu göy başım üstə,
Mən də səma boyda mavi qəfəsdə.

Dərdimdən canımı dişimə tutdum,
Ödüm parçalandı, özüm qurudum.

Göylərə qalxmağa qüvvətimmi var?
Yerlərə baxmağa cürətimmi var?

Qorxudan büdrədim, yumdum gözümü,
Acizlik bir anda bükdü dizimi.

Peşiman olmuşdum sərgüzəştimdən,
Burnum göynəyirdi ev həsrətindən.

Heyhat, peşmanlığım vermədi fayda,
Qorxub haray çəkdim: - Yar ol, ey xuda!

Uca minarəyə görün nə qonmuş:
Yelkən qanadları dağ boyda bir quş.

Möhtəşəm qanadlar yardı buludu,
Qorxudan ürəyim bir damcı oldu.

O nəhəng cüssənin vahiməsindən,
Minarə elə bil qopdu yerindən.

Zor çinar kimiydi qolu-qanadı,
Ayağı, deyirdin taxt ayağıdı.

Dimdiyi uzundu bir sütun kimi,
Marağa ağızlı Bisutun kimi.

Arabir qaşınır, tumarlanırdı,
Quş demə, qarşıda məşəl yanırdı.

Elə ki, qaldırıb qanad açırdı,
Nəfəsi dünyaya mişk saçırdı.

Qanadı altını qaşıyan zaman,
Səpirdi aləmə mirvari, mərcan.

Quş başım üstündə yatmışdı əmin,
Mənimsə elə bil batmışdı gəmim.

"Tutsam ayağından, - düşündüm bu vaxt, -
O, məni ovu tək ayaqlayacaq.

Yerim xətərlidir, səbr etsəm əgər,
Yıxılaram, ömrüm zay olub gedər.

Qəssab nakişiymiş, vəfasız oldu,
Mən atəş istədim, od da buz oldu.

Qərəzi nəydi ki, verdi işgəncə?
Hiyləsi önündə qırıldı pəncəm!

Verdiyim qızılmı azdırdı onu!
Məni dərdə salıb çaşdı yolunu.

Quşun ayağından yapışım bəlkə?!
Aparsa, sovuşa bəlkə təhlükə!"

Çatdı xoruz banı, açıldı səhər,
Qol-qanad açdılar quşlar, vəhşilər.



O quş da topladı iqtidarını,
Vurdu bir-birinə qanadlarını.

Yalvardım: - Ey tanrı, özün ol zamın,
Tutdum ayağından zorayaqlının.

Yığdı ayağını, qanad açdı quş"
Məni çəkdi göyə... mən yazıq bihuş.

Sübhün əvvəlindən günortayadək
O, mən müsafiri yandırdı gerçək.

Günəş bizi yaxıb yandıran zaman,
Döndü başımıza qızmış asiman.

Gördüm enmək üçün quş həvəsdədi,
Bəlkə bir kölgəlik tapmaq istədi.

Endi bir yerə ki, ara azaldı,
Yerə nizə boyda məsafə qaldı.

İpək kimi gömgöy yerdi o yerlər.
Bürümüş ətrafı gülabla ənbər.

Quşun ayağını əldən buraxdım,
Xeyir-dua verdim, ayağa qalxdım.

Hardayam? Ətrafım göy ot, tər çiçək,
Sevincək ürəyim qanadlı şimşək.

Düşdüm, baygın qaldım bəlkə bir saat.
Yaman, pis fikirlər başımda qat-qat.

Elə ki, toxdadım, savuşdu ağrım,
Tanrıma şükr etdim, göydə qollarım.

Açdım gözlərimi, qalxdım ayağa,
Bir diqqət yetirdim dala, qabağa.

Bir gülşən gördüm ki, cənnət bucağı,
Şehinə dəyməmiş insan ayağı.

Bəlkə min çiçəyə, gülə batmışdı,
Yaşıllıq oyaqdı, sular yatmışdı.

Cürbəcür... nə qədər bitki, gül, çiçək,
Ətri yayılmışdı bir fərsəngədək.

Sünbül həlqə-həlqə dönmüş kəməndə,
Qərənfil kəkilin salmışdı bəndə.

Gülün dodağını dişlər yasəmən,
Ərğəvan dilini kəsibmi çəmən?

Torpağı ənbərdən, tozu kafurdan,
Daşları gövhərdən, qumu büllurdan,

Suları gülabdan olan bir məkan.
Çeşmələrdə əqiq, saf sulu mərcan.

Elə bir çeşmə ki, firuzə göylər
Rəngini, suyunu ondan diləyər.

Bulaq sularında üzən balıqlar
Gümüş dirhəm kimi civəni yarar.

Bağın kənarında zümrüd rəngli dağ,
Dağbeli ormanda sərv, xədəng, şax.

Dağın sal daşları qırmızı yaqut,
Qızarmış xədəngi ləl ilə tən tut.

Bir tərəfdə səndəl, bir tərəfdə ud,
Ud sənə od vursa, səndəl yağı sürt.

Hurilər buranı eləmiş məskən,
Xərac gətirmişlər bura cənnətdən.



"Arami-dil" deyir o bağa İrəm,
Minalı çərx isə "Minu" bir aləm.

Axtarıb nə gözəl bir yeri tapdım.
Sanki bir xəzinə gövhəri tapdım.

Göyə əl qaldırdım: "Əlhəmdülillah!"
Alqış cəlalına, ey böyük Allah!

Enişi, yoxuşu dolandım məğrur,
Bağların seyrindən könlüm-gözüm nur.

Dadlı meyvələrdən daddım bir qədər.
Necə nemətin var, ey pərvərdigar!

Uzandım, özümə yer düzəldərək,
Bir sərvin altında azad sərv tək.

Orda qərar tutdum ta axşamacan.
Min işim olsa da getmədim ordan.

Bir az meyvə yedim, bir azca yatdım.
Tanrıma şükr ilə ömrü uzatdım.

Axşamın bəzəyi başqa bəzəkdi.
Atdı qırmızını, sürməyi geydi.

Seyr et dağ başında parlayan günü.
Yardı qonçə kimi sübhün ödünü.

Tozu kim apardı? Bir əsim külək.
Bahar küləyindən mülayim külək.

Dolmuş bulud gəldi... yağış axarı
Dürrə qərq elədi yaşıllıqları.

Yollar süpürüldü, sular duruldu.
Rizlər bütlə doldu, bütxanə oldu.

Huri, mələk gördüm uzaqdan yüz min,
Kəsildi nəfəsi daşan səbrimin.

Aləm ətir saçan nurani nigar,
Rahi-reyhan kimi ruh oxşayanlar.

Hər nigar bir bahar, süslü bir çiçək,
Hamsının əlində ayna, bər-bəzək.

Laləyə bənzəyir ləl dodaqları,
Görsə utanmazmı Xuzistan barı.

Barmaqlar üzüklü, qollar qolbaqlı,
Boyunlar, qulalar gövhər çıraqlı.

Kiçik ovuclarda şamlar şahanə,
Nə tüstü, nə qayçı, nə də pərvanə.

Bu nə qəddü qamət, bu nə lətafət?
İncə qədəmlərdə min-min səadət!

Başında behiştin fərş ilə taxtı,
Huri hardan gəlir ilin bu vaxtı?

Fərşi döşədilər, taxtı qurdular,
Səbrimin yolunu kəsdi yüz nigar.

Sovuşdu bir müddət... heyrət, hayharay,
Yoxsa göy üzündən yerə endi Ay?

Bir günəş göründü uzaqdan, odur,
Göy görünməz olur, o, səpdikcə nur.

Onun dövrəsində huri, pəri tək
Səhər ulduzları gör necə göyçək.

Sərvdir, kənizlər onun çəməni,
O bahar, bütlər də tər yasəməni.



Hər şəkər gözəlin əlində bir şam,
Şam, şəkər birləşsə. hüsn olur tamam.

Boylu sərvlərlə doldu bağça-bağ,
Əlində çilçıraq. yüz-yüz şəbçıraq.

Xoşbəxt gəlin kimi gəlib, yayxanıb
O taxtın üstündə əyləşdi xanım.

Sağı da, solu da lal bir sükunət.
O, əyləşən kimi qopdu qiyamət.

Günəş camalından açdı yaşmağı.
Zər kəsən ayağı atdı başmağı.

Öndə Rum qoşunu, arxada zənci.
Gəlir tən ortada şahanə inci.

Zəncilər, rumilər - iki rəngli dan.
Bir məclis quran, biri vuruşan.

Dargözlükdən uzaq badam gözlü can.
O, nurdan yaranmış. hamı torpaqdan.

Başını gül kimi sallayıb yerə.
Cahana od saldı o, birdən-birə.

Sonra baş qaldırıb başladı sözə.
Nə dedi yanında duran kənizə:

"Yəqin torpaqpərəst naməhrəmlərdən
Bu yerdə kimsə var. get. hərlən. öyrən.

Qarşına kim çıxsa gətir yanıma".
Pərizad göz qoydu bağ sahmanına.

Uçdu sağa. sola pərilər kimi.
Məni görən zaman çırpındı qəlbi.

Sevincdən, heyrətdən nurlanan mələk
Əlimdən yapışdı əltutanlar tək.

Dedi: - Tüstü kimi gedək, tez elə,
Xanımlar xanımı buyurur belə.

Bu söz ürəyimdən tikan çıxartdı,
Dediyi məkana könül can atdı.

O, bir tavus kimi, mən qara qarğa,
Yanaşdıq gəlinin cilvəgahına.

Qarşımda bir günəş, gözəllər şahı,
Mən torpaq əhliyəm, öpdüm torpağı.

İstədim əyləşəm bir azə ayaqda,
Aşağı cərgədə, gözdən uzaqda.

Dedi "Qul rütbəsi sənə yaraşmaz.
O yer sənin deyil, yaxın gəl bir az.

Qonağımın yeri mənim üçün pir, -
Badam qabığı yox, badam içidir.

İllah bir qonaq ki, dostsevər, nadir,
Hünər ustasının yetirməsidir!

Taxta çıx, qarşımda əylәş apaşkar,
Ayınkı ülkərlə, Pərvinlə tutar."

Dedim: - Ey mələkə, tuş etmə qəmə,
Mənim kimi qula o cür söz demə.

Bilqeysin taxtında yox divə məkan,
O taxta yaraşır yalnız Süleyman.

Mən də bir divəm ki, düşmüşəm dağa,
Məgər layiqəmmi Süleymanlığa?



Dedi: "- Boşdur o söz, gəzmə bəhanə
Sus, nə əfsun oxu, nə də əfsanə.

Sənindir bu yerlər, sənsən hökmran,
Sən mənimlə durub-oturmalısan.

Gərək hər sirrimdən agah olasan,
Mehrimdən, eşqimdən ilham alasan."

Dedim: - Yarın olsan, kölgənəm ancaq,
Mənim tacım sənin taxtına torpaq.

Dedi: "- And verirəm səni canıma,
Dayanma kənarda, tez gəl yanıma!

Əziz qonağımsan, ey gözəl insan,
Qonağa can vermək mənə şərəf-şan!

Bəndəlikdən savay qalmadı çarəm,
Budur, bəndə kimi qalxıb gedirəm.

Nazla bir qaravaş əlimdən tutur,
Məni cah-cəlalla taxta oturdur.

Uca taxt üstündə düşmüşəm bəndə,
Gördüm o Ay məni salmış kəməndə.

Şəkər, bal dililə dindirir məni,
Mehri, ülfətilə güldürür məni.

Buyurdu, qarşımda süfrə salınsın,
Yemək gətirilsin, - yeməklər xası.

Cənnət xəzinləri süfrə gətirdi,
Nemətlər hamısı ənbər ətirli.

Nimçə firuzədən, kasa yaqutdan,
Gözə işıq gəlir, qıdalanır can.

Nəyi xəyalına gətirə bilsən,
Aşpazın əlilə hazır görürsən.

Xörəklər istidir, şərbətlər soyuq,
Yeyirik, içirik, şükür, doyuruq.

Budur, saqi getdi, mütrübdür gələn,
Şənlikdir, əl üzdük demək badədən.

Hər deşilməmiş dürr bir dürrü deşir,
Rəqs meydan açır, eşir, əlləşir.

Nəğməni oxuyur nəğmənin özü,
Ayaqlar qanadlı, əllər də süzür.

Şam qoyur başına dövrə vuranlar,
Ayaq üstündəcə şam tək duranlar.

Oynamaqdan sonra rahatlanaraq,
Onlar da badəyə əl atdılar, bax.

Saqi qədəhlərə gülgün mey sıxır,
Gedir utancaqlıq, aradan çıxır.

Məndə meyin dəmi, şəhvətin gücü,
Nə bir ismət bildim, nə ədəb, ölçü.

Şəkər dodaqlını basdım bağrıma,
O da məlhəm qoydu ürək ağrıma.

Gördüm gülüş qonub dodaqlarına,
Düşdüm zülfü kimi ayaqlarına.

Öpdüm ayağını, öpdüm əlini,
"Eləmə!" desə də, qucdum belini.

Mənim umud quşum gülşənə enmiş,
Söhbətin meydanı nə qədər geniş.



Mənim canım bircə, o isə min can,
Öpüşmü, yoxsa can alırdım ondan.

Dedim: - Ömrüm-günüm, adın-sanın var,
Bəs öz adın nədir, ey səyyar bahar?

Dedi: - Türk qızıyam, mən nazənin, naz...
Adım da Türknazdır, özüm də Türknaz.

Dedim: - Qəribədir, birsə iki can,
Elə adları da səsləşir, inan!

Sənin adın Türknaz, mənimki Türktaz.
Türk oğlu, türk qızı ayrı yaşamaz!

Gəl, çıxaq Türk kimi uçaq səhrada.
Ataq odun kimi hindlini oda.

Qəlbə qanad verək muğlar meyindən,
Badam ləpəsindən, reyhan iyindən.

Madam ki, acı mey, şirin noğul var,
Noğulu nuş edək, mey içək, ey yar!

Mənə qaş-göz etdi, ülfət bağladı.
Eşqim, ehtirasım coşdu, çağladı.

Qəmzəsi "Oynayaq!" deyirdi mana,
"Bəxtin hər işini salır sahmana".

Gülüşü deyirdi: - Vaxtı xoş keçir.
Öpüş al, həmdəmin naz çəkənindir.

Bir busə istədim, beşini verdi.
Busə xəzinəsi baldı, şəkərdi.

Xumaram, bağrımı ehtiras didir.
Yar əldə, ixtiyar əlimdən gedir.

Ayüzlüm tərpətdi Ay sırğasını,
Eşitdi qanımın bağırtısını.

"- Bu gecə öpüşlə qane ol! - dedi, -
Bundan çox qaşıma göyün rəngini.

Həddini aşan iş - bir oyun, ovsun,
Yaxşı o dostdur ki, vəfalı olsun.

Mənimsən, səninəm, gəl nəvazişlə
Əl çək saçlarıma, öpüş al, dişlə!

Onda ki, nəfsinin cilovunu sən,
Yığmağı bacara bilməyəcəksən,

Bunlardan birini al, bağrına bas,
Belə kəniz olmaz, belə Ay olmaz.

Çək apar, gözlərin tutsa hansını,
Aşiq gecəsinin Ay parçasını.

Dərhal azad edim, get, kefinə bax.
Sənin hökmün ilə davransın ancaq.

Sənə xidmət üçün kəmər bağlasın,
Gecə yatağında daşsın, çağlasın.

Oxşa ürəyini, dilbərin olar,
Həm gəlinlik edər, həm qadan alar.

Coşsan, atəşini söndürər, inan,
Bizim arx üçün də su saxlayarsan.

Yenə başqa gecə istəsən həmdəm,
Arzunun şahısan, əsirgəmərəm.

Sənə bəxş edərəm hər gecə bir dürr,
İstəsən dürrü yox, gövhəri götür."



Dedi bu sözləri şux bir qılıqla,
İsti bir şəfqətlə, mehribanlıqla.

Kənizlərə gizli göz gəzdirərək,
Tapdı məhəbbətə yaraşan mələk.

Yanına çağırdı, tapşırdı mənə:
"- Apar, nə istəsən verəcək sənə!"

Bəxşişim, sevincim tutdu əlimdən,
O Ay camallıya heyran idim mən.

Hüsnü, dilbərliyi, boyu bir aləm,
Hazırdım, bir ömür nazını çəkəm.

O, gedir, ardınca mən də bir dəli,
Zülfünə qul idim, xalına hindli.

Çatdıq ağ günlərin mərmər qəsrinə,
Mənə yol verməmiş keçmədi önə.

Hamıya bağlı ev açıqdı bizə,
Zil kimi, bəm kimi uyuşduq saza.

İpəkdən, qumaşdan yumşaq bir yataq,
Dedi: - Qucaqlaşaq, burdaca yataq.

Şamlar yaqut saçır, ənbər yandırır,
Otağı biz azca işıqlandırır.

Qaragöz mələkəm qərq olmuş ağa,
Can cana söykənib, dodaq dodağa.

Bir xırman gül tapdım gülşəndə ancaq, -
İncə, yumşaq, isti, al qırmızı, ağ.

Gül üstə möhürlü bir sədəf gördüm.
Onun gövhərindən möhrü götürdüm.

Günəş çıxanacan o, mənim oldu,
Ağ döşək kafurla, mişg ilə doldu.

Səhər bəxtim kimi qalxdı ayağa,
Hamam dəsgahını bükdü bir ağa.

Qüsl üçün yönəldik xəzinə sarı,
Gövhərdən qırmızı, qızıldan sarı.

Gülabla yuyunduq, o, yardım etdi,.
Tazə don içində gül kimi bitdim.

Çıxdım o qəsrdən bir azca xumar,
Hələ sönməmişdi seyrək ulduzlar.

Bir xəlvət guşəyə pənah gətirdim,
Şükr edib Tanrıya borcumu verdim.

Saray gəlinləri, gözəllər hanı?
Hamı çıxıb getmiş, boşdur eyvanı.

Bir soyuq çeşmənin başında qaldım,
Saralmış gül kimi çəmənə daldım.

Şərabın xumarı hələ başımda,
Ətri var, ətrafı güllü daşın da.

Oyaq bəxtim ilə verib baş-başa,
Yatdım axşamacan, söykənib daşa.

Açdı nəfəsini gecə ahusu,
Sədəf rəngində göy ətir dolusu.

Qurtuldum yuxunun kəcavəsindən,
Mən sular başında bir yaşıl çəmən.

Yenə bulud gəldi, yenə yel əsdi,
Dürr yağdı, üstündən ənbər tələsdi.



Bənövşə bitirən, yasaman əkən
Buluda, güləyə əhsən, min əhsən.

Çəmənlər ətrini saçdığı çağda,
Gülab qol-qol olub arxda, irmaqda.

Yenə gəlin-gəlin oynadı çöllər,
Sazladı işrəti nazlı gözəllər.

Yenə gətirdilər o qızıl taxtı,
Üstünün gövhərli örtüyü ağdı.

Taxtı sazlamaqdan ilham aldılar,
Qumaşın üstündən ipək saldılar.

Bir daha canlandı şahanə məclis,
Şəfəqi misilsiz, zinəti hədsiz.

Yenə şur, hay-haray, yenə vəlvələ,
Sağdan, soldan gələn axın şəlalə.

O yağma gəlini yenə ortada
Aşiqlər səbrini tullayır oda.

Gör necə əyləşdi qızıl taxtında,
Taxt gülşənə döndü bahar vaxtında.

Yenə əmr elədi bulsunlar məni,
Qeybin lövhəsindən silsinlər məni.

Getdim, sağda-solda bir neçə dilbər,
Yenə qaydasınca əyləşdirdilər.

Yenə taxt önünə süfrə sərdilər,
Süfrədə yeməklər, içkilər, nələr...

Damağa dad verən, qol-qanad verən
Əlvan nemətlərdən nuş edib əylən.

Yeyib-içməyin də öz hüsnü varmış,
Firavan süfrədə göz də doyarmış.

Şərab gətirdilər, kökləndi cəng də,
Rudlar, təranələr özgə ahəngdə.

- Nuş olsun! Mey dolu cam da, kasa da
Eşqin bazarını qızışdırmada.

Sərxoşluq nəşəsi vurdumu başa?
Badə və eşq ilə qol boyun yaşa!

Mənim türk gözəlim, o şux nazənin,
Yenə ovcundadır öz hindlisinin.

Necə əzizlərmiş adam adamı,
Bir cüt göz badamı, alır qadamı.

Bir işarə vurdu incə, mehriban,
Getdi qulluqçular yanından ələn.

Şux nigar, xəlvət yer kim deyər heçdi?!
İsti ağ əlindən qanıma keçdi.

Açdığım zülfüdü, yoxsa kəməri?
Sıxdım ürəyimə incə dilbəri.

"- Dayan! Dərmə hələ... səninkidir, bil,
Bu, əhdi sındırmaq gecəsi deyil.

Dolan şəkərimlə, qəndimlə hələ,
Dişlə, çək şəhdimi, öp və... səbr elə.

Qənaət gözləyən, səliqə güdən
Möhtəşəm olacaq, bil, günü gündən.

Yalnız istəyinə qul olan bir kəs
İnan, müflis olar, murada yetməz.



"- Allah xatirinə çarə qıl, - dedim, -
Tikan üstündəyəm, can əldən gedib.

Aç zəncir zülfünü, toxdasın sinəm,
Mən ki o zəncirin divanəsiyəm.

Sal məni zəncirə, dəliyəm, dəli,
Zəncirli dəlini ram etsin əlin.

Sökülən dan yeri qaramı, ağımı?
Bu söhbət axıra çıxmayacaqmı?

Endir qılıncını! Vur, ölüm, nə qəm
Səndən canımı da əsirgəmərəm.

Bunca baş qaçırmaq nə üçün, nədən?
Bulud ağlamasa, gülərmi çəmən?

Sən dağ bulağısan, mən isə təşnə,
Ərinəm, su çilə can atəşinə.

Sənin əlindədir susuz boğazım,
Səndən imdad dilər təşnən, tamarzın.

Suyumu kəssən də, gül ömrün boyu,
Ayaq tozun olsun üzümün suyu.

Məni sel aparır, yapış əlimdən,
Susuzam, selində boğuluram mən.

Boğma bu damlanı ümman suyunda,
Mənə bir damla ver sən bu oyunda.

Nə olar, qoy südə bir xurma düşsün,
İpəyin üstündə iynə sürüşsün.

Özgə bir iş varsa, boynumu büküm,
Arzumun gözünə toz-torpaq töküm.

Deyim: "-Muradının əli qısalsın,
Qoy şəbdizin nalı ocaqda qalsın.

Nəfsini bircə gün saxlaya bilsən,
Daim yanar şamı əldə edərsən.

Satma bir qətrəyə axar çeşməni,
O qətrə zəqqumdur, çeşmə bal kimi.

Tək bircə arzunu qıfılla, bağla,
Şadlığı il boyu sonra qucaqla.

Öpüş al, zülfümü dola boynuna,
Nərd at kənizlərlə, gir min oyuna.

Sənin bülbül var, qarğanı tutma,
Azca quş südünə quşunu satma.

Kamın, ilhamın var, qoş səadətə,
Neçin əl atırsan boş xəyanətə?

Onsuz da səninəm, azca ar elə,
Gecəki işini get, təkrar elə.

Gec-tez dönəsiyəm bu mərtəbədən,
Düz sənin ovcuna düşəsiyəm mən.

Hovüzda balığı ovlamaq asan,
Çalış, balığı yox, Ayı tutasan.

Çöldə süpərsizdir gül başdan-başa,
Çətirli qərənfil ancaq bambaşa."

Gördüm amansızdır o, bu oyunda,
Bir az yavaşıdım, əlim qoynumda.

Orucam. Gün gələr, yeyərəm, nə qəm,
Hələlik öpüşdür, - baldır azuqəm.



Dözürəm, badələr içirəm ancaq,
Dodaqdan qənd verir mənə güldodaq.

Lakin tərləmişi qızdırma tutdu,
Şəhdi uman könül səbri unutdu.

Mənim Türk gözəlim anladı məni,
Gördü od sinəmin tüstülərini.

Nazlı bir afəti çağırdı yenə,
Tapşırdı su töksün atəşlərimə.

Görüncə könlümə yatdı o dilbər,
Ürək, istədiyin mötədil istər.

Nə istər? Eləcə bir yarı olsun,
Can alan, can verən nigarı olsun.

Yenə adətimcə o gecə getdim,
Ürək kam istədi, kamiran etdim.

Sübhəcən bal yedik döşək üstündə,
Qollarım belində, köksüm köksündə.

Boyaqçı küpünü sındırdı gecə,
Günəş don ağartdı yuyub sərincə.

Göz aldanan rənglər uçub qaçdılar,
Zivər də, zinət də uzaqlaşdılar.

Mən yenə deyirdim tez gəlsin gecə,
Təraz, Çin qızıyla mey içim təkcə.

O Türk gözəlimi qucduqca qucum,
Sıxım ürəyimə, üstündə uçum.

Cam alım, kam alım gül yanaqlıdan,
Şəkər dodaqlıdan, ay qabaqlıdan.

Gecəm mənim üçün işıqdı, nurdu,
Taxtım Sürəyyadan hundür olurdu.

Çox gecəm dalbadal eyşdə keçdi,
Könlüm rud ahəngi, gül meyi içdi.

Yirmi doqquz gecə bazarım qızğın,
Nəşəm də bir azca azğındı, azğın.

Gecənin əvvəli nəzərimdə - nur,
Gecənin sonunda həmxanəm - o hur.

Günüm bağda keçir, gecəm cənnətdə,
Mişgli torpaqda, zərr imarətdə.

Şah dağa dönmüşəm, hay-harayım var,
Gündüz günəşim var, gecə Ayım var.

Müyəssər olmayan heç bir kamın yox,
Heyhat, ayıq bəxtim yatacaqmış çox.

Tanrım nemət verdi, şükrü unutdu,
Haqqı gözlərimi tutdu, nə tutdu!

Xoşbəxtlik hərfini dəftərdən sildim.
Çox umdum... özümə qənim kəsildim.

Ay doğdu... otuz gün gəlib də çatdı,
Tale ulduzları lapdan qaraltdı.

Ənbər rayihəli səma sarayı
Tutdu saçlarından, çəkdi o Ayı.

Yenə əvvəlki tək rüzgar tələsdi,
Yenə bulud gəldi, yenə yel əsdi.

Cahanda yenə də vəlvələ, nərə,
Zivər cingiltisi qalxdı göylərə.



Gəldi əvvəlki tək yüz kəniz nigar,
Əllərdə alma var, sinələrdə nar.

Yenə taxt qurdular, dövrə vurdular,
Açdı yaxasını ağboğaz qular.

O günəş nişanlı Ay gəldi yenə,
Zülfünü atmışdı mərmər köksünə.

Yenə arxasında, önündə şamlar.
Dala baxma, daim şam öndə olar.

Naz, qəmzə ilə öz məclisində,
Yenə başa keçdi zinət içində.

Mütriblər yenə də köklədi sazı,
Pərdə saxlayanlar tutdu avazı.

Coşdurdu saqini cəng zümzüməsi,
Ərğəvan rəngində mey piyaləsi.

O qənd dodaqlılar şahı buyurdu:
"- Bura tez gətirin bizim ac qurdu".

Nazla apardılar məni pərilər,
Gözəllər şahına təhvil verdilər.

Mehriban tərpəndi o, məni görcək,
Öz əli altında yer verdi qəşəng.

Ona qulluq edib əyləşdim şən-şən.
Sönmüş arzularım qızdı yenidən.

Əvvəlki qaydada süfrə açdılar,
Xörəklər yenə də ətir saçdılar.

Yedik də, içdik də. Keflər düzəldi,
Şənlik yapmaq üçün yenə mey gəldi.

Dərya səxavətli saqilər bizə
Sədəflər ağzından dürr səpdi təzə.

Mey axdı Ravəndi məqamı kimi,
Nəhavənd şəhdindən dadlı deyilmi?

Mən yenə sərxoşam, mən yenə valeh,
Mənə zəncir verib zülfünü taleh.

Açılıb divlərim kəndirdən yenə,
Mən yenə kəndirdə dəli-divanə.

Naz ilə toxudum hörümçək bağı,
Öyrəndim o gecə kəndirbazlığı.

Arpa-saman görmüş eşşəkəmmi mən?
Ay görmüş səri tək getdim özümdən.

Daş-qaş oğrusu tək titrədim, əsdim,
Əl atdım belinə, yaman tələsdim.

Sanki sürtünürdüm saya gümüşə,
Əriyib gedirdim o, bərkidikcə.

Ay üzlü göyçəyim halımı duydu,
Əlini əlimin üstünə qoydu.

Əlimdən öpdü ki, davakar sənəm,
Əlimi götürüm xəzinəsindən.

"- Bağlı xəzinəyə, - dedi, - əl atma!
Heç vaxt əliuzun murada çatmaz.

Möhrü açmaq olmaz mədən üstündən,
Bacarmazsan, möhkəm bağlanıb mədən.

Səbr elə, sənindir bağımda xurma,
Xurmanı dərməyə tələsmə, coşma.



Şərab iç, kabab da bişəcək bir vaxt,
Aya bax, gözlə ki, gün də çıxacaq".

Dedim: "- Ey günəşim, ey gülüstanım!
Gözümün işığı, nur atılqanım!

Ey bağdagül səhər, ey bağlı qönçə!
Çırağam, qarşında sönməyim necə?

Susuza bal kimi su göstərirsən,
Sonra "Tik dodağı!, içmə!" deyirsən.

Günəş camalında bərq vuranda nur,
Ağıl pəri görmüş divanə olur.

Elə ki, parlayır sırğan qulaqda,
Nalımı yenidən atırsan oda".

Ayın basqınına de, mən nə edim?
Günəşi zərrəmdə nə cür gizlədim?

Necə əl çəkim, sən ovcumdasan,
Varsan. Yoxdu qəmim. Çün qucumdasan.

Sən də torpaqdansan, mən də torpaqdan,
Sən pəri, mən də bir yer oğlu, adam.

Dişim dodağımı kəssin nə qədər?
Ağzımın suyunu udmağım hədər.

Çarə qıl, bağrımı söküb tökür qəm,
Bəlkə kama yetəm, bəlkə diriləm.

Canımı dişimə tutmuşam, yetər,
Daş olma, yanğımı bir öpüşlə dər.

Sənin mehrin ilə işləyir baxtım,
Sən yar ol baxtıma, mənim xoşbaxtım.

Deyirsən: "Qəm yemə, yarınam sənin,
İşinlə məşğulam, qarınam sənin."

Məgər bundan ağır bir iş olarmı?
Qurtar, işim düşüb, bağla yaramı.

Ey maral sağrılım, neçin mənə sən,
Bir dovşan yuxusu bəxş eləyirsən?

Canavar fələkdən qorxuram bir az,
Qorxuram, tülküyə dönsün yaramaz.

Qorxuram sıçraya şirbasan kimi,
Atıla üstümə bir qaplan kimi.

Arzum var, əhdim var, ey ömrüm-günüm,
Qol qoy, muradımı səndən götürüm.

Arzum qapısını bağlasan əgər,
Bağrımın başında arzular ölər.

Çək mənim nazımı. Nazı kim çəkər? -
Yalnız möhtəşəmlər, yalnız böyüklər.

Gördü səbrim gedib. Söylədi: "- Əl çək,
İstədiyin kimi edərəm gerçək.

Nazını canımla çəkərəm, nə qəm,
Sən həllüx əhlisən, mən də həbəşəm.

Sənin tək qonağın önündə nadir,
Gözəl süfrə açmaq nə böyük işdir?!

Ancaq bu kamına gec çatacaqsan,
Tez uman əhdinə geç çatar, inan.

Quru tikanlıqda olarsa cənnət,
Əlimdən elə bir iş gələr, əlbət.



Söyüddən ud ətri gələrsə əgər,
Məndən də bu əməl vücudə gələr.

Götür nə kamın var məndən mübarək,
Bircə xam xəyaldan, xam işdən əl çək.

Qucaqla, öp, oxşa, baş qoy sinəmə,
Bircə xəzinəmin dürrünə dəymə.

Ötsün günlərimiz kefdə, damaqda,
Belə gecələrin mini qabaqda.

Vurarsa başına badənin dəmi,
Bir saqi verərəm sənə Ay kimi.

Mənim ətəyimi buraxıb əldən,
Ondan götürərsən muradını sən".

Onun al dilinə mən qulaq asdım,
Ancaq eşitmədim, yolumu azdım.

Çalışdım utanım, sakitləşim də,
Dəmirim qızmışdı ancaq kürədə.

Bəxtim söylədi ki, çox da olma bənd.
Yoxdur Abadandan o yana bir kənd.

Çox götür-qoy etdim mən xam, yaramaz,
Xeyli çox istədim, əldən çıxdı az.

Sən ey qərarımı əlimdən alan,
Ey mənim işimi müşgülə salan!

Oğullar gedibdir bu yolda min-min,
Ki, nur xəzinəyə yol tapa bilsin.

Mən ki, yanaşmışam bu xəzinəyə,
Məşəqqət çəksəm də əl çəkim niyə?

Nəfəsim qalınca çağlayım, axım,
Zülfünün ucunu neçin buraxım?

Tez ol, bu taxtında şamımı yandır,
Ya da taxtın kimi çarmıxa çək, dur!

Ya bu nət üstündə dur, başla rəqsə,
Ya da tök qanımı başqa nət üstə.

Taqətim, diqqətim, göz işığımsan,
Necə səbr eləyim? Səninkidir can.

Mən murad istəyən, sən ürək çalan,
Canımı alsan da müftə alırsan.

Müftə xəzinəni axı kim almaz,
Mən sənin qurbanın olmasam olmaz.

Sən bal dodaqlısan, sən gül üzlüsən,
Hanı arısız bal, tikansız gülşən?

Kim yeməz çiçəkdən çəkilən balı?
Səndən bal ummayan kor, gözü bağlı!

Şam ol, işıqlandır zülmət gecəmi,
Dərdindən yanıram bir çıraq kimi.

Yandırsan çıraqtək, diriyəm demək,
Sönsə, həsrətinlə sönəcək ürək.

Günəş yandırmaqdan əl çəksə əgər,
Bərəkət əskilər, ruzu kəsilər.

Muradmı umuram səndən, ay dəli?
Umduğum bəlkə də yuxu, təsəlli!

Mən bir uyğudayam, buna şəkmi var?
Yatmış da, ölmüş də elə bir olar.



Səni görməsəydi gözüm... nə dərdi?
Belə yuxuları harda görərdi?!

Qanımı tökməkmi əhdi xanımın?
Durma, coşur qanım, gəl, tök qanımı.

Gördüm qanım coşur, beynim şölədi,
O tər şüküfəyə hücum elədim.

Bağlı kəmərinə əl atdım yenə,
O, xumar... mən sərxoş, dəli-divanə.

Xəzinə üstünə açdım cütəlli,
İstədim əqiqlə suvayım ləli.

Könlündən deyildi bu dəli sevda.
Yalvar-yaxar etdi... ancaq nə fayda?

Dadlı bir tikəni dadmaq-muradım.
O, möhlət istədi, qulaq asmadım.

And içdi: "-Xəzinəm sənindir ancaq,
İnan ki, o sabah sənin olacaq.

Məgər mən deyəni salmadın saya,
Günü günə qoşdun, gecəni Aya.

Elə bu gecə də tab et birtəhər,
Sabah al kamını təpərin qədər.

Bir gecə səbr etmək çətin iş deyil,
Gecə bir gecədir, nə ay, nə də il".

Çox dedi, baxmadım, öz xəncərimi
Sıyırıb tuşladım ona kor kimi.

Yazıq yalvardıqca mən qızıxırdım,
Qovruldum, axır ki, kəməri qırdım.

İş ora çatdı ki, açdım da bəndi,
Əlimin altında gül qönçələndi.

Bircə an qalırdı dənizə varam,
Gördü lap səbrsiz, lap inadkaram.

Dedi: "-Bir anlığa yum gözlərini,
Açım xəzinəmi, şad edim səni.

Bitəcək indicə aclıq, ehtiyac,
Məni sıx, qucaqla, gözlərini aç!"

Al dili aldatdı, dağ çəkdi mənə,
Yumdum gözlərimi xəzinəsinə.

Ona möhlət verdim lap bircə qırpım,
Dedi: "Aç gözünü!", gözümü açdım.

Şikar umuduyla tarazlanırdım,
Bağrıma basmaqdı onu muradım.

Gözümü açdım ki, gəzim cənnətdə,
Gördüm səbətdəyəm, həmən səbətdə.

Nə kişi, nə qadın. Yanımda heç kəs,
Yalnız soyuq külək, yanar bir nəfəs.

Nə Türknaz, nə Türktaz... mən-quru kölgə,
Əsa uzaqlarda nur idi bəlkə.

Dünən dostdu Zöhrə, Müştəri mana,
Həlqə Ay taxırdım qulaqlarına.

Dünən nuş edirdim qəndi, badamı,
Öpüb dişləyirdim bir gül əndamı.

Onda can verirdi xəzinəm mənə,
Bir ilan göndərir indi qəm mənə.



Tamam fərqli imiş xəzinə, ilan,
Bugünkü gerçəkdir, dünənki yalan.

Mən sutun dibində, lal sükunətdə,
Bir tərpəşmə gördüm lapdan səbətdə.

Sən demə dostummuş uca eyvandan,
Enib kəndirimi açıbmış əlan.

Mən kiməm? Bəxtimin küsgün uşağı,
Səbətim sutundan endi aşağı.

Bir vaxt məndən qaçan pirani dədə
Üzr istədib məni əzizlədi də.

"-Yüz il dərs desəydim bu fəndən sənə,
Yenə inanmazdın görmədiyinə.

Getdin, nə yaxşı ki, gördün əsrarı,
Kimə danışasan bu nağılları?

Qaynar bir qazana atmış məni qəm,
Odur ki, zülmdən qara geyımişəm".

Dedim: "-Mənim kimi ey sitəm çəkən,
Sənin bu rəyini bəyənirəm mən

Mən də dərd çəkənəm. Mən də susaraq,
Qara geyməliyəm bugündən ancaq.

Get, mənə ipəkdən qara don gətir!"
Getdi... mən o gündən qara bir çətir.

Baxdım əynimdəki züdmət paltara,
Elə həmin gecə çıxdım yollara.

Bu mağmun boyanı çəkib üstümə,
Qayıtdım şəhərə, qərq oldum qəmə.

Mən qara geyimli insanam, şaham,
Qara bulud kimi ah çəkən aham.

Çırağban bəxtimdən əl çəkdim gecə,
Xam xəyal dalınca düşdüm gör necə!

Elə ki, sahibim açdı bu sirri,
Gördüm qəm gölüdür qara gözləri.

Kənizəm, keçdiyi yoldan keçmişəm,
Seçdiyi qaranı mən də seçmişəm.

Dirilik suyundan ötrü ha getdim,
İskəndərlə qoşa zülmətə yetdim.

Yalnız zülmətdədir Ayın cəlalı,
Şahın da çadırı qara olmalı!

Rəngin ən yaxşısı qaradır, qara,
Qara balıq beli, ağ sümük hara?

Gəncliyin şöhrəti qaraya bağlı,
Saçı qara ikən atəşdi bağrı.

Göz görür aləmi göz qarasıyla,
Qara don çirk-filan götürmür əsla.

Qaradır gecənin evi, eşiyi,
Yoxsa olardımı Ayın beşiyi.

Yeddi göy qatının yeddi rəngi var,
Lakın qara tən rəng tanımayırlar.

Hind qızı Bəhrama bu hekayəti
Elə ki, söylədi, axıra yetdi,

Şah yüz alqış dedi bir söhbətinə,
Şadlıqla sarıldı o afətinə.



## BƏHRAMIN YEKŞƏNBƏ GÜNÜ SARI GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ İKİNCİ İQLİMDƏN ŞAH QIZININ ƏFSANƏSİ

Dağların, düzlərin köksünə bax bir:
Sübhün tərəzisi qızılını çəkir?!

Cahanın çırağı yekşənbə günü
Qızıl yatağına verdi özünü.

Başında qızıl tac günəşsayağı,
Tutdu Cəmşid kimi qızıl əyağı.

Sarı üzüyünün kəhraba qaşı.
Sarı çiçəklərlə durdu yanaşı.

Qızıllar səpərək cığıra, rizə.
Sevinclə üz qoydu sarı günbəzə.

Meylə, nəğmə ilə durdu, oturdu.
Şadlıq binəsini qurdu, nə qurdu.

Gecə - naz otağı, ismət pərdəsi,
Xəlvətə çəkilmiş aşiqlər səsi.

Şəkər səpən şama üz tutdu Bəhram:
- Sən lələ qənd də qat, ey gözü badam!

Ən uca pərdədə köklə sazını,
Eşitsin bu günbəz xoş avazını.

Şahın fərmanından çıxmaq olarmı?
Üzrün, naz etməyin mənası varmı?

Çin nazlı Rum qızı şahın heyranı:
- Ey Rumun, Tərazın, Çinin sultanı!

Sənsən ölgünləri diriltdən dahi,
Zəfərin mübarək, ey şahlar şahı!

Sənə qul olmaqdan baş qaçıranlar,
Başını ayaqlar altına salar".

Dua-sənа qıldı o nur, o büllur,
Ətirli nəfəsi - bir manqal buxur.

## HEKAYƏT

İran ölkəsində böyük bir şəhər,
Orda bir şəhriyar - eşsiz bir hünər.

Aləmə nur saçan günəş kimiydi,
Novruz baharı tək safdı xilqəti.

Hesaba gəlmirdi qəhrəmanlığı,
Sənəti, biliyi, mərd insanlığı.

Hünəri saysızdı, zəfəri saysız,
Şənliyə vermişdi könlünü yalnız.

Tale cədvəlində oxumuşdu ki,
Qadın xeylağıdır bircə düşməni.

Elə buna görə evlənmirdi o,
Təki uzaq olsun fəlakət və lo.

Nə qəm, hər bəladan uzağam deyə,
Dözdü tənhalığa, dözdü təkliyə.

Ah çəkdi, axtardı dərdinə çara,
Bəlkə mehr salsın mehribanlara?!

Aldı neçə nəfər cürbəcür kəniz,
Ancaq heç birini tutmadı əziz.



Gördü hər birinin növ-növ pasını,
Xanımlıq, xatınlıq iddiasını.

Harun xəzinəsi istərdi onlar,
Ayağı yorğandan uzun olanlar.

Sarayda bir qozbel qarı da vardı,
Əbləhlər tovlayan əbləh kaftardı.

Şahın istədiyi hər kəniz ilə,
Ya hiylə qurardı, ya da bir tələ.

- Ay Təraz dilbəri!
- Ay Rum xanımı! -
Deyib tovlayardı sözə baxanı.

Kəniz bu tərifdən qururlanardı,
Özünü kəniz yox, xanım sanardı.

Azmıdır lağlağı, boşboğaz, gədə,
Təkəbbür oyadır qulluqçularda?!

"Davudun xanımı!" deyir birinə,
"Mahmudun Ayazı" - ev nökərinə.

Şayiə gəzdirir, damağı çağdır,
Adam yox, ev yıxan bir mancanağdır.

Xeyli çalışsa da, şah gecə-gündüz,
Tapmadı özünə layiq bir kəniz.

Kimə mehribanlıq donu tikirdi,
Namehriban görüb ahlar çəkirdi.

O qədər kənizlər aldı, satdı ki,
"Kənizsatan" dedi ona neçəsi.

Çoxu şəhriyarı görürdü gendən,
Yoxdu xəbərləri içərisindən.

Həḍsiz axtarışdan lap yoruldu şah,
Bir Allah bəndəsi vermədi Allah.

Yaşadı... adı şah, özü talesiz,
Çıxmadı rastına yaxşı bir kəniz.

Elə bir kəniz ki, ismətli, təmiz,
Üstündə nə ləkə, nə başqa bir his.

Nəhayət, qul satan ahıl bir kişi,
Ona açıb dedi belə bir işi:

Çin biharxanəsindən bir qoca xacə
Min huri sifətlə gəlmiş təzəcə.

Xəllüxlü, Xətaylı kənizləri var,
Hamısı bakirə, əl dəyməmiş nar.

Aləmə nur saçan candı o canlar,
Məhəbbət oyadıb qan coşduranlar.

Onların içində bir kəniz pəri,
Kəniz yox, bəlkə də bir dan ülkəri.

Qulağı deşilmiş bir can, bir ömür,
Özü pak-pakizə, deşilməmiş dürr!

Cavabı acıdır, gülüşü şəkər,
Mərcan dodağından mirvari səpər.

Elə ki, dil açıb bir xoş söz deyər,
Aləm illər boyu qaymaq, bal yeyər.

Süfrəsi şəkərlə dolu olsa da,
Xalqa qan uddurur saçdığı sevda.

Üzü də, zülfü də, xalı da aləm,
Hələ belәsini mən görməmişəm.



O dilbər camallı gülüzlünü sən
Görsən, əminəm ki, bəyənəcəksən".

- Get gətir! - söylədi şah qulsatana,
Gətirdi, göstərdi malı sultana.

Baxdı hamısına şah birər-birər,
Hökmdar, satıcı sövdələşdilər.

Kənizlər Ay idi, ancaq o qız - şah,
Hüsnündə gülürdü açılan sabah.

Min qat qəşəng idi quldar deyəndən,
Kəniz yox, qarşıda bir dolu mədən.

Şahla satıcının tutdu söhbəti,
- De görüm, necədir xülqü, xilqəti?

Təki xasiyyəti könlümə yata,
İkiqat verərəm bahasını da.

Çinli xacə dedi: - Aləmdir bu qız,
Damağa dad verən şərbətdi - xılsız.

Bircə pis şakəri, eybi var yalnız:
Vüsal istəyəni sevmir insafsız.

Camalı, kamalı yerli-yerində,
Görürsən, günəşdir gözün önündə.

Di gəl ki, minnətlə alır müştəri,
Üçcə gün keçməmiş qaytarır geri.

Baxmır vüsalını arzulayana,
Arzu sahibini gətirir cana.

Girsə yatağına zorla kam alan,
Özünü öldürmək istəyir olan.

Sən də bəyənmirsən heç kəsi, o da,
Yaxına buraxmır nə şah, nə gəda.

Bu yolla necə siz dil taparsınız?
Yaxşısı budur ki, axtar başqa qız.

Minnətlə alsan da yox sülhə güman,
Sən də peşman olub qaytaracaqsan.

Gözəl kənizlərim burda az deyil,
Hansını bəyənsən, öz halalın bil.

Bircə işarə qıl uzaqdan mana,
Havayı göndərim hərəmxanana.

Baxdı pərilərə şah dönə-dönə,
Qanı qaynamadı heç birisinə.

Bircə o Ay üzlü mələkdən savay,
Heç kəs oyatmadı qanında haray.

Məəttəl qalmışdı: nədir bu bəla?
Necə nərd oynasın bu əlixamla?

Nə gözü doyurdu, nə könlü ondan,
Nə də unudurdu eybini bir an.

Axırda eşq oldu hökmran yenə,
Elə bil gül atdı şahın gözünə.

O gümüş günbəzi tutdu gümüşə,
Gümüş baldırlını göndərdi işə.

Öldürdü ilanı, hökm etdi hicran,
Bu yolla qurtuldu kor əjdahadan.

"Şahın kəniziyəm!" söyləyən afət,
Bircə qəsr əhlinə edirdi xidmət.



Qızıl qönçə kimi yaşardı daim:
Ətrafı tikanlı, özü mülayim.

Şaha hər qapını cəld açan sənəm,
Şəhvət qapısını qapadı möhkəm.

Gözəldi saraya sədaqəti də,
Hələ evdarlığı, ünsiyyəti də.

Şah onu sərv tək tuturdu yüksək,
Yerə sərilirdi əsə kölgə tək.

O qarı gəldi ki, ovsun oxusun,
Bəlkə xam qamışı əyə bu ovsun.

- Yox! - dedi, - qarıya, qışqıran kəniz,
Şah elə şahımdır, mən də kimsəsiz...

Qız qovdu qarını... Şah mütəfəkkir:
"O biri gəlinlər gör nələr çəkib!"

Şah qovdu qarını, ucaltdı onu,
"Necə ovsunladı gör ovsunçunu!"

Kəniz gör şah üçün nə qədər əziz!
Şah özü az qala ona bir kəniz!

O Türk gözəlinin kələyi çox-çox,
Ancaq şahın ona qəzəbi yox, yox!

Ələ fürsət düşdü bir gün nəhayət,
İki mehribanı cəzb etdi xəlvət.

İsti yorğan-döşək, xəz, ipək içrə,
Yanaşdı hökmdar yatmış dilbərə.

Qızın qalasını bürümüşdü su,
Şahın mancanağı atəş dolusu.

Altındakı odda yanan hökmran
Gülab saçan gülə dedi astadan:

"- Ey canımın gözü, gözümün nuru!
Yetişmiş tək xurmam, könlüm qüruru!

Qamətin yanında sərv ota bənzər,
Ay sənin ardınca düşən bir nökər.

Deşir ürəyimi sanki bir qurşun,
Səndən istəyirəm bir söz soruşum.

Sorğuma cavabı düz versən əgər,
Sənin boyun kimi işim düzələr".

Qol saldı boynuna, onu öpdü şah,
Təzə gül üstünə şəkər səpdi şah:

- Altı ulduz ara olan Zöhrə tək
Bilqeys oturmuşdu Süleymanla tək.

Onların gözünün qarası, ağı
Övladın iflicdi əli, ayağı.

- Ey Tanrı elçisi! - söylədi Bilqeys, -
Axı sən də, mən də... sapsağlamıq biz.

Bəs niyə oğlumuz şikəstdir belə?
Nə üçün açmamış əl-ayaq hələ?

Çarə tapmalıyıq onun dərdinə,
Cəbrail Tanrıdan söz gətirəndə,

Aç bu əhvalatı, aşkar et ona,
Tanrı nicat versin yaratdığına.

Göylərdə saxlanan o lövhə ki, var,
Oxunsa, bu dərdə əlac tapılar.



Uşaq nə vaxtacan qalsın yarımcan?
Bizə çarə qılsın qoy çarətapan.

Bəlkə uşağımız bir nicat tapa,
Oynaya, at çapa, qol-qanad tapa!"

Bu söz məlhəm qoydu dərdə elə bil,
Gözlədi neçə gün... gəldi Cəbrail.

Süleyman üz tutdu söhbətdaşına.
Onu əhvalatla etdi aşina.

Getdi, qayıtdı da Cəbrail əlan,
Salamlar gətirdi çərxi qurandan.

Dedi: "- İki şərtdir bunun dərmanı,
Hər ikisi əziz, xoşbəxtlik kanı.

Arvadı önündə düz danışsın ər,
Arvad da düz olsun axıra qədər.

Yalnız düz danışmaq, yalnız düz olmaq, -
Tifilin nicatı bundadır ancaq".

Süleyman çağırdı öz Bilqeysini,
Şərh etdi Cəbrayil şərtnaməsini.

Şad oldu Bilqeys, düzəldi kefi,
Ki, şəfa tapacaq evin xələfi.

- Sən indi sual et, düşünüm mən də,
Sənə cavab verim Tanrım önündə!

Cahanın çırağı soruşdu ondan:
Hüsnü gözlər üçün ey məqsəd olan!

Elə vaxt olubmu bir həvəslə sən,
Məndən qeyrisinə meyl eləyəsən?

Bilqeys söylədi: "- Ey nur güzgüsü!
Səndən iraq olsun bədnəzər gözü.

Kamalın, camalın, cavanlığın var,
Bütün rütbələrə sənsən hökmdar.

Gözəl yaranmısan başdan-binadan,
Məclisin - cənnətdir, özün də - Rizvan.

Sənin hökmündədir sirri aləmin,
Cahan tilsimidir peyğəmbərliyin.

Lakin camalınla, kamalınla sən,
Bu qədər sərvətin, iqbalınla sən.

Çox yüksək olsan da, düşürəm bəndə,
Bir gözə gəlimli cavan görəndə."

Əli şikəst uşaq dilləndi bu dəm:
"- Ay ana, ovcumu aça bilirəm.

Gül kimi əllərdə gəzmərəm daha,
Baxın şüalanan barmaqlarıma!"

Pəri göz yetirdi pəri oğluna,
Gördü haqdan çatıb səadət ona.

Dedi: "- Ey pərilər, divlər rəhbəri!
Hünərin ağlısan, ağlın hünəri.

Bir incə nüktəni gəl indicə aç,
Uşağın ömrünə nur saç, işıq saç!

Yazıqdır, qalmasın ayaqsız, naçar,
Sənin ki, bu qədər malın, mülkün var,

De görüm olubmu ömründə bir an,
Özgənin varına tamah salasan?"



Peyğəmbər dedi ki, "ey ömrümə yar,
Heç kimdə olmayan sərvətimiz var.

Şahlıq xəzinəsi, mal, dövlət mənim,
Balıqdan Ayacan hər sərvət mənim!

Ancaq bu sözümə şəkk etmə sən də,
Salam vermək üçün kimsə gələndə.

Gözucu əlinə baxıram onun,
Görüm nə gətirmiş mənə eloğlum".

Bu doğru sözləri eşidən uşaq
Lapdan qalxdı yerdən ayaq açaraq.

"- Ayağım açıldı, baba, ay baba!
Gülür gözlərimə aləm, el-oba".

Bəli, ən qüdrətli Loğman imiş, bax,
Tanrı dərgahında düzgün danışmaq.

Yaxşısı budur ki, düz olaq biz də,
Düz ataq, çıxmasın ov əlimizdən.

Ey mənim yeganəm, ey gözümə nur!
Söylə, neçin mənə qanın soyuqdur?

Özün bilirsən ki, gözüm var səndə,
Həsrətin, hicranın dağdı sinəmdə.

Bəs nədir bu rəftar, ey pəriçöhrəm,
Sevinc əvəzinə qəm verirsən, qəm.

Su üstündə duran nazəndə sərvin,
Düzlükdən savayı nəyi var, desin?

Dedi: "- Bizim nəsil sevir ülfəti,
Ancaq sınanmışdır bir xasiyyəti:

Qəlbini kişiyə verən qadınlar,
Uşaq doğan kimi dözməz, məhv olar.

Bizdə doğan olsa, sil dəftərindən,
Ürəyi ölümə nə cür verəsən?

Bir anlıq zövq üçün qurbanmı gedək?
Balla zəhər yemək axı nə demək?

Canım da əzizdir cananım qədər,
Neçin qurban gedim, məhv olum hədər?

Yalnız sənə açdım mən bu sirrimi,
Bəlkə bağışlarsan kəm-kəsirimi.

Örtüksüz xonçayam mən evi bərbad,
İstəyirsən saxla, istəyirsən at.

Mən ki, gizlətmədim sirrimi səndən,
Açdım əhvalımı, dürüst dedim mən.

Qoy şahlar şahı da desin halını,
Məndən gizlətməsin öz əhvalını.

Bu günəş camallı kənizlərindən,
Tezcə soyumağın nə üçün, nədən?

Ürək istəyənə vermirsən ürək,
Bircə ayını da görmür o mələk.

Əvvəl çıraq təki əziz, girami...
Kəsirsən başını sonra şam kimi.

Ucadıb başını əvvəl göylərə,
Sonra həqarətlə atırsan yerə.

"- Çünki heç kəs məni başa düşməyib,
Sevgisi mənimlə nəfəsləşməyib.



Hərə öz işinə möhtəris olub,
Əvvəl yaxşısı da, sonda pis olub.

Elə ki, böyründə çoxalıb yağı,
Unudub zəhməti, xidmətkarlığı.

Hər kəsə yaraşan öz addımı var,
Məgər şah xörəyi gədanı saxlar?

Dəmirdən də möhkəm bir qarın hanı,
Dözəsən, yesən də min dəyirmanı?!

Ərini həmişə şux görən nigar,
Ona, özünə də bir az kəc baxar.

İnanma qadına, saman kimidir, -
Yel onu hər səmtə apara bilir.

Tərəzi kimidir qızıl sevənlər,
Qadını arpaca qızıl da əyər.

Narda nar giləsi qəşəng görünür,
Yetişəndə ləldir, yetişməsə - dürr.

Çocuğa, üzümə oxşar güləndam:
Xam ikən yetgindi, yetişəndə xam.

Küdüyə bənzəyir hər bir aycamal:
Kalı dəymiş olur, dəymişi də kal.

Qadına ismətdir ərindəki nur:
Gecə, Ay doğanda ayüzlü olur.

Mən səfa görmədim kənizlərimdən,
Hamısı daş-qaş qulu, qaş-göz bəzəyən.

Sədaqət görürəm tək bircə səndə,
Eşqin buna görə yanır sinəmdə.

Səndən kam almasam, umudum sönər,
Aləm cansıxıcı, miskin görünər".

Şah açdı ən zərif düşüncələri,
Əfsus ki, olmadı qıza əsəri.

Alagöz dönmədi bəhanəsindən,
Atılan oxlardan yayındı fövrən.

Şah dilxor, pəjmürdə, çiynində bir dağ,
Yoxuş yollar ilə qalxırdı ancaq.

Su görüb dözürdü susuzluğuna,
"Səbr elə" deyirdi zaman da ona.

Xoşqədəm sənəmin qovduğu qarı,
Oyandı yuxudan bir gecəyarı.

Bildi, səbrsiz şah səbrə qatlaşır,
Kama çatmaq üçün yol tapmır, çaşır.

Onu aciz edib nazənin zalım,
Güclü bədinini taqətdən salıb.

Düşündü: " Məqamdır, olum aşina,
Açım div oyunu pəri başına,

Günəşin taxtına çaxnaşma salım,
Ayın qalasını ovsunla alım.

Min ox atsalar da yerə enməsin,
Gərilmiş kamanım zədələnməsin."

Şahı cəzb elədi qarı ovsunu,
Hədəfə tuşladı o, cadusunu.

Cahan çıraqçısı şad olsun deyə,
Qarı bir əfsunu etdi hədiyyə.



"- İstəsən xam dayça, o şux nazənin
Yəhərin altında ram olsun sənin,

Başqa bir madyanı tumarla əmin,
Gözü önündəcə yəhərləyib min!

Beləcə davranır atabaxanlar -
Bir az xam atları cilovlayanlar".

Bu fəndi bəyəndi, şah bildi vaxtdır,
Kərpic qəlibindən düz çıxacaqdır.

Rəna, şirindodaq bir kəniz aldı,
Hoqqabaz gəlini altına saldı.

Tərbiyə vermişdi qulsatan ona,
Təpik atmaz idi tumarlayana.

Şaha dəmsaz idi kefi saz gəlin,
Yüz mayallaq aşan oyunbaz gəlin.

Şah çətin dözürdü, kəsib səsini,
Ona tuşlayırdı səmizəsini.

Oxu bu göbəkdə od arayırdı,
Əli öz yarını tumarlayırdı.

Bu qızla yeyirdi öz ciyərini,
O qızın deşirdi qız gövhərini.

Qız gördü vüsalda min can döyünür,
Dedi: qoy deşilsin deşilməmiş dürr.

Qondu Ay üzünə qısqanclıq tozu,
Yolundan dönmədi ancaq doğrusu.

- Bəndəlik borcuma sadiqəm! - dedi.
Bircə tük qədər də dəyişilmədi.

Düşündü: görəsən bu hiylə nədir?
Tüstü o qarının təndirindəndir.

Səbr etdi, sakitlik onun şakəri,
Heyhat, aşiqlikdə səbrin nə xeyri?

Nəhayət, bir gecə hümayun üzlü,
Şahı xəlvətlədi, ürəyi sözlü.

"- Ey mələk xilqətli ulu şəhriyar!
Dinə, ədalətə böyük bayraqdar!

Düz sözlü, düz rəyli bir hökmransan,
Mənə düzünü de, çıxma yolundan.

Kam aldığın günlər məncə - əyləncə,
Başı dan yeridir, ayağı gecə.

Sənin gündüzünə gəlməsin zaval,
Gecən bəxş eləsin daim bal vüsal.

Mənə sübh şərbəti bəxş edən insan,
Neçin gecə kimi sirkə saçırsan?

Tutalım, yemədən doymusan məndən,
Bəs şirin ağzına atırsan nədən?

Məndə iztirabdan heç qalarmı can,
Qarşımda əjdaha tumarlayırsan.

Nə üçün öldürsün məni bu şahmar,
Özün vur, sənin ki, öz qılıncın var.

Bu cür qara yola kim saldı səni?
Sənə kim öyrətdi belə fitnəni?

Məni xəbərdar et, yoxdu xəbərim,
Uçaram, qılıncdır mənim şəhpərim.



And olsun Tanrıya, əziz canına,
Səninkiyəm, açsan bu sirri mana.

Açaram qarşında qız xəzinəmi,
İstəyincə dağıt, poz xəzinəmi".

Ona məftunu şah - qibleyi-aləm,
Gördü ki, əhdinə möhkəmdi, möhkəm.

Nə varsa deməli, deyilməməli, -
Dedi, gizlətmədi ürəyi, dili:

"Sənə məhəbbətim od vurdu mənə,
Od vurdu, yandırdı sümüyümü də.

Səbr etdim, bir az da kükrədi dərdim.
Üzgün bədənimi natəvan gördüm.

Axır ki, o qarı tapdı dərmanı.
Neynim, qalmamışdı başqa gümanım.

Yetdi imdadıma əvəlik, güdü,
Yemədim, müzəvvər bəhanəm oldu.

Onunla yatdım ki, sən qızışasan,
Bəlkə vüsal üçün sən də coşasan.

Yalnız od üstündə su qaynar, daşar,
Yalnız od üstündə dəmir yumşalar.

İnan, bu əyləncə ziyandır mənə,
Yalnız sənin eşqin dərmandır mənə.

Yalnız sənin yerin - gözümün üstü,
Sən odsan, o qarı arada tüstü.

O tüstü dağıldı, özün gördün ki,
Sən mənimlə qaldın yanar şam təki.

Quzu bürcündəyəm mən günəş kimi,
Qarının şaxtası yada düşərmi?"

Şahı belə qəlb açan dastanlar deyir,
O nazənin isə nazla dinləyir.

Xam dayça xilqətli o Türk gözəli
Axır ki, yumşaldı, ram oldu, bəli!

Qönçənin təxtinə əyləşdi bülbül,
Məst oldu, altında açılınca gül.

Tutu şəkər dolu süfrəni görcək,
Özü vəcdə gəldi şəkər səpərək.

Xurması süd dolu darısqal arxa,
Qızıl balığısa girdi irmağa.

Şirin, dadlı idi dirəşmə vaxtı,
Xurmaya əlavə şərbət buraxdı.

Naxışdan ipəyi götürdü hallı,
Açdı mücrüdəki qızıl qıfılı.

Qızıl yatağının dibinə çatdı,
Qızıl bəzək vurub onu saraltdı.

Şadlıq. şadyanalıq sarı rəngdədir,
Zəfəran halvası bu ahəngdədir.

Sarıdır deyibən pisləmə nahaq,
Zəfəran dadının iştahına bax.

Niqaba zər çəkir yanan sarı şam,
Musanın öküzü sarıydı tamam.

Şadlığın mayası qızıl sarıdır,
Sarı gil möcüzə nemət yaradır".



Dinləyib dastanı şah kama çatdı,
Qızı qucaqlayıb qol-boyun yatdı.

## BƏHRAMIN DÜŞƏNBƏ GÜNÜ YAŞIL GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ ÜÇÜNCÜ İQLİMDƏN ŞAH QIZININ ƏFSANƏ SÖYLƏMƏSİ

Bəli, düşənbə də gəldi dünyaya,
Yaşıl çadırlı şah ucaldı Aya.

Mələklər bağı tək geydi yamyaşıl,
Yanar çıraq kimi odu al, yaşıl.

Yaşılı günbəzə saldı səmtini,
Orda yaşıl gördü səadətini.

Zümrüdü günbəzə ulduzlar bağı
Elə ki, tökdülər bahar yarpağı

Sərvə səda gəldi səma tağından:
- Danış, darlıq getsin bal dodağından!

Namaz qılan pəri kəsdi səsini,
Açdı Süleymana sirr pərdəsini;

Dedi: - "Ey varlığı canımız olan,
Bütün canlar sənin canına qurban!

Səadət qəsridir sarayın sənin,
Taxtın dayağıdır bu mavi çərxin.

Sənin başındadır tac ucalığı,
Sənin qapındadır bəxtin dayağı.

Zatın məmləkətə əbədi bir tac,
Sənin dərgahına dünyalar möhtac!"

Pəri dua qıldı, göylə danışdı,
Əqiq dodağından qənd - şəkər saçdı.

## HEKAYƏT

Dedi: "- Rum elində bir kişi vardı,
Mumlu bal kimiydi gözəl, mərd adı.

İzzətli, qüdrətli, kamil bir kişi.
Boynuna biçilmiş yaxşılıq işi.

Camalı, kamalı işıq saçaraq
Təmiz əməlləri güdürdü ancaq.

Tanıyan deyirdi: - Pəhrizkar Bişr
Xalq üçün əlləşir, xalq onu sevir.

Gedirdi bir gün o, nazlı bir halla
Enişi, yoxuşu olmayan yolla.

Yolda bir eşq onu tutdu, nə tutdu.
Hər şeyi unutdu, bir fitnə tutdu.

Xam ipək geyimli gözəl bir vücud -
Buluddan baxan Ay ona vurdu od.

O, yoldan keçirdi əmin, arxayın.
Bulud niqabını götürdü ayın.

Ay qara buluddan sıyrılsın deyə
Külək yol göstərdi felə, fitnəyə.

Bişr onu görcək ayaq saxladı.
Ox dəydi, ox onu yerə mıxladı.

Qəmzələrdən xumar bir surət gördü,
Yüz tövbə sındıran lətafət gördü.



Bir xırman gül idi o sərv, o bəla.
Üzü yuyulmuşdu kəklik qanıyla.

Bu qəmzə yuxusu, sehrkar yəqin
Kəsmiş yuxusunu min-min aşiqin.

Ləbləri qaymaqmı, ya gül ləçəyi?
Qənddimi, baldımı bu yaz çiçəyi?!

Yatmış nərgizdimi gözlər dərində,
Fitnəmi gizlənib kirpiklərində?!

Qıvrım saçlar qara, üz - çıraqdımı,
Qartal caynağına keçən vağdımı?

Bir xalı vardı ki zülfü tək ənbər.
Gözləri vardı ki, gözlər, nə gözlər!

Bu gözlər, nərgizlər, bu zülf önündə
Axı hansı bəndə düşməz kəməndə?!

Lapdan çımdiklənən çocuqmu vardı,
Bişrin varlığında fəryad qopardı?!

Bu səsi eşidən o Ay gülbədən
Çəkdi örtüyünü üzünə birdən.

Boynuna götürüb o boyda qanı,
Nə cür addımladı bu canlar canı?!

Ayıldı uyğudan, Bişr nə gördü:
Oğru çıxıb getmiş, virandı yurdu.

"Getsəm arxasınca, sonu pis olar.
Dözsəm, səbr eləsəm... heç səbrimmi var?

Yenə də son çarə - səbr eləməkdir.
Qalan şey abırsız olmaq deməkdir.

Məni çıxartsa da yolumdan şəhvət,
Kişiyəm, dözərəm, ölmərəm əlbət.

Şəhvəti tərk etmək dinə xidmətdir,
Pəhrizkarlıq üçün birinci şərtdir.

Yaxşısı budur ki, köç edim, bəli,
Beyt - ül - müqəddəsə üz çevirməli!

Xeyri, şəri bilən ulu Yaradan
Bu çətin işimi eləsin asan".

Tədarük görübən can atdı dinə -
Müqəddəs şəhərin ziyarətinə.

Pak eldə sığındı pərvərdigara:
- Özün yet imdada, özün qıl çara.

Yalvardı, yaxardı, min üzr istədi,
- Tamam əl çəkirəm arzumdan! - dedi.

Özünü Tanrıya təslim edərək,
Ağladı, sıtqadı mələr bir ürək.

- Tanrım! Qoru məni divdən, şeytandan.
Girməsin qəlbimə bir fitnə-filan.

Göyə əl qaldıran dinin əsgəri.
Döndü pak məbəddən qayıtdı geri.

Yolda bir alçağa ürcah oldu, ah!
Zahirdə xeyirxah, batində bədxah.

Hər incə mətləbə irad tutardı,
Bir işdə neçə yüz nöqsan tapardı.

Yaxşıdan, yamandan düşəndə söhbət,
Daim çalışırdı etsin Bişri pərt.



"- Elə yox, belədir... küfr saçmasın,
Gərək hər boşboğaz ağız açmasın!"

Gəvəzə girişdi haraya, həşrə,
Sanki bihuşdarı verirdi Bişrə.

- Sənin adın nədir?.. Bişrdir. aha,
Səni öz adınla çağırram daha.

- Mənim adım Bişr... bəs səninki nə?
Görək yaraşırmı adın özünə?!

Dedi: - Mən Məliha, imam, nur dağı,
Sən Bişr - bəşərin rüsvayçılığı.

Bu yerdə, bu göydə nə varsa tamam
Halaldan, haramdan tamam agaham.

Bilirəm, ağılda nə gizlənibsə,
Kimsə girə bilməz mənimlə bəhsə.

On iki alimdən artıq bilirəm,
Mən on iki fənnəm, on iki aləm.

Bu dağlar, dənizlər, ormanlar, çaylar,
Mavi çərx altında hər nə var aşkar

Əslini, nəslini dürüst bilirəm,
Mənim ovcumdadır bu külli-aləm.

Əlim çatmasa da fələyə, ərşə,
Bilirəm, haradan o tapıb nəşət.

Kimi hədələsə təhlükə, hiylə,
Onu dərk edirəm bircə nəzərlə.

Zavala uğrasa bir şahlıq hərgah,
Mən əlli il öncə oluram agah.

Taxıl qəhətliyi yaransa əgər,
Bunu bir il öncə verirəm xəbər.

Qovub qızdırmanı bir xəstə candan,
Küpə də qoyuram belinə olan.

Nalı oda atsam, dönür yaquta,
Əlimdə dürr olur bir kəhrəba da.

İksirim sal daşı dürrə döndərir,
Torpağı qızıla, zərə döndərir.

Ağzımdan sehrli bir yel üfürsəm,
Qıvrılan kəndiri ilan görərsən.

Hər bir xəzinənin, bağlı mədənin,
Tilsimini açan mənəm, mən yəqin.

Göy və yer haqqında nə soruşsalar,
Ondan da deyərəm, bundan da aşkar.

Elmin dərgahında bilir hər alim:
Yoxdur məndə üstün müdrik, müəllim".

Beləcə gopladı o lovğa nadan,
Bişr təngə gəldi boşboğazlıqdan.

Qara bulud qalxdı bu zaman dağdan,
Məliha buluda baxdı uzaqdan.

Dilləndi: - O bulud qırdan da qara,
Busa ağappaqdır, bu sirri ara.

Bişr söylədi ki, bu qara, o ağ
Tanrının hökmüylə yaranır ancaq.

- Yox! - dedi Məliha, - keç bəhanədən.
Oxu hədəfinə tuşlamadın sən.



Bir od tüstüsüdür o yanıq bulud.
Ağlın yoxsa, barı sükut et, sükut.

Süd kimi ağappaq buludun fəqət
Yeyir varlığını nəmlik, rütubət".

Yüngül bir meh əsdi bu dəm qarşıdan,
Görün nə söylədi gəvəzə, nadan:

- Kəl kimi mənasız yaşamaq olmaz.
Nədir bu əsən yel, şərh elə bir az.

- Allahın işidir! - dedi gülnəfəs. -
Allah hökm etməsə heç nə düzəlməz.

Dedi: - Nə vaxtacan qarılar kimi
Söküb tökəcəksən eyni mətləbi?

Bu rüzgar havadır, hava, ay axmaq,
Onu dilləndirən buxardır ancaq.

Hələ o dağa bax... de görüm nədən
Bu dağ vüqarlıdır o birilərdən?!

- Allahın işidir hər bir tapmaca.
Bu dağ alçaq olur, o biri uca.

- Yox, yenə mətləbdən çıxdın kənara,
Elə əl atırsan pərvərdigara!

Bəzən bulud enir bəndə, bərəyə,
Sellər dağı yuyur, tökür dərəyə.

Ucalan dağ isə qıraqda qalır.
Sellərin hökmündən uzaqda qalır.

Bişr onun üstünə qışqırdı bərkdən,
Şəkk etmə Tanrıya, əl çək höccətdən!

Xəbərsiz deyiləm xilqət sirrindən,
Bütün elmlərdə üstünəm səndən.

Sirri özbaşına açmazlar ancaq,
Yolu öz fikrilə süpürən axmaq!

Biz ki, hər pərdəyə yol tapmayırız,
Pərdə də naxışa bələdik yalnız.

Səhv ardınca getmək mücahidlikmi?
Dərsi tərs oxuyan şəyird zirəkmi?

Qorxuram pərdəni qaldıran zaman,
Başına iş açsın qələt oxuyan.

Bu yüksək ağaca gəl dırmanma çox,
Heç kəsə yaraşmır əliuzunluq.

Bişr ona oxudu bu cür əfsunu,
O, yenə atmadı füzulluğunu.

Neçə gün yan-yana qoşa getdilər.
Gopdan əl çəkmədi o zərrə qədər.

Susuz, yanar çöldə iki növcavan.
Beyin-baş qaynayır yuxusuzluqdan.

Fəğanla, fəryadla yürüdü onlar,
Qaynar cəhənnəmi dalda qoyanlar.

Çatdılar möhtəşəm, zor bir ağaca,
Yamyaşıl, pakizə, nadir ağaca.

Gömgöy ipək idi ağacın altı,
Onu görən gözlər işıqlanırdı.

Altında saxsı bir küp basdırılmış,
Təmiz, saf suyuna alqış, min alqış!



Reyhan kimi təzə, saf su pakizə,
Küpü görən kimi bizim gəvəzə

Bişrə söylədi ki, ey nəcib yoldaş,
Sən mənə indicə söyləyəsən kaş.

Ağzı açıq qalan saxsı küp neçin,
Neçin gizlədilib təkində yerin?

Ətrafı dağ deyil, səhradı bomboş,
Bəs hardandı suyu bunca təmiz, xoş?

Bişr: - Çəkmə, - dedi, - çox bizi bəhsə,
Yəqin ehsan üçün düzəldib kimsə.

Yerə basdırıb ki, lapdan sınmasın,
Qaya, daş dəyəndə parçalanmasın.

- Yox! - dedi Məliha, - qələtdir sözün,
Qələt qarışdıran naşısan özün.

Özgə xatirinə özgə bir adam
Demək, su daşıyıb çiynində müdam?!

Harda? Cəhənnəmdən bir az da öndə,
Bircə damcı da yox həndəvərində.

Bura ov yeridir, ov... ey bixəbər!
Burda ox atanlar, kaman çəkənlər

Küpü ağzınacan suyla doldurub,
Əslində ov üçün tələ-tor qurub.

Ki, gəlsin duz yemiş maral, dağ qoçu,
Ya suya tələsən bir gur, bir ahu.

Suvata can atan yazıq heyvanlar
Ölümə getdiyin de, nə cür anlar?

Ovçu kəsir yolu, pusquda durur,
Çəkib kamanını yazığı vurur.

Su içdiyi yerdə oxlayır birdən,
Hələ kabab çəkir əmlik ətindən.

Mətləbi bax bu cür sən aça bilsən,
Hamı əhsən deyər ağlına, əhsən!

Bişr söylədi ki, ey sirlər açan,
Bir məslək sahibi olur hər insan.

Biz öz beynimizi daim eşirik,
Özgələr haqqında fikirləşirik.

Mən sənə dedim ki. fikirləşmə pis.
Kimdir pis düşünən? Dargöz, ya xəbis.

Onlar küp yanında süfrə açdılar.
Duz-çörək kəsdilər, su da içdilər.

Necə də sərindi o saf, zülal su.
Qəlbə qanad verdi hər bir damlası.

Məliha qışqırdı Bişrin üstünə:
- Çəkil! Yana çəkil, deyirəm sənə.

Bu ləzzətli suda çimməliyəm mən,
Biz az təmizlənim toz ilə tərdən.

Bədənim az qala duz bağlayıb, duz.
Çirkin içindəyəm, ölürəm, ey dost!

Üstümdən, başımdan bu çəngi silim,
Bir azca pak olum, yola düzəlim.

Başına daş salım küpün gərək mən,
Heyvanlar qurtulsun tordan, tələdən.



Bişr cavab verdi: - Açma gəl əngəl,
Bu dupduru suyu bulandırma gəl!

Könül xoşluğuyla nuş eləmisən.
Neçin öz çirkini ora tökəsən?

Çörək də müqəddəs, su da müqəddəs.
Nuş etdiyi suya heç kəs tüpürməz.

Qatmazlar meyə xılt, aynaya sirkə.
Nəsilbənəslinə vurarsan ləkə.

Başqa bir təşnə də düşəndə bəndə
Qoy içsin bu sudan yeri gələndə.

Yox, qulaq asmadı bədniyyət, sözə.
Murdar çövhərini çıxartdı üzə.

Soyundu, geyimi qoydu bir yana.
Tullandı, baş vurdu küpün suyuna.

Sən demə dərinmiş bu küpün suyu.
Zahirən küp imiş, əslində quyu.

Hərif çox əlləşdi, hey əl-qol atdı.
Axırda quyunun dibinə batdı.

Çoxbilən başını saldı cəncələ.
Bacara bilmədi öz əcəlilə.

Bişr bir kənarda, gözləri qan-yaş.
Suyun çirklənməsi ona dərd, təlaş:

Bişr bir kənarda, gözləri qan-yaş.
Suyun çirklənməsi ona dərd, təlaş:

"Bu xam haramzadə görün neylədi.
Bizə salamını haram eylədi!

Min heyif... bu qotur, murdar bədəxlaq
O cür zülal suyu bulandıracaq.

Neynərəm, saf suyu döndərsə lilə,
Qorxuram küpü də sındırsın hələ.

Ağıllı, pak adam yava iş görməz.
İyrənc əməlindən zövq alır nakəs.

Heç kəsin olmasın belə yoldaşı,
Kaş elə o suda bataydı başı.

Bişr çox gözlədi, nəfəs dərərək.
Neçin gəlib çıxmır bu azğın köpək?

Qalxdı, sinəsində bir ağrı, gup-gup,
Xəbəri yoxdu ki, hərif qərq olub.

Gördü o boğulub canı çıxmışı,
Küpün qırağına əyilib başı.

Heyrətlə düşündü: nə dəhşətdi bu?
Qırdı göy budaqdan bir yaş çubuğu.

Dişlə, dırnaq ilə təmizləyərək
Yondu, cilaladı sivri nizə tək.

Yanaşdı çubuğu küpə saldı ki,
Bilsin hovuzçanın dərinliyini.

Sən demə kərpiclə üstühörülmüş
Bu quyu az qala bir ümman imiş.

Ağzına küp ağzı qoymuş ki, usta,
Heyvanlar düşməsin, suya can atsa.

Köksündə yerlərin, göylərin gücü
Bişr üzgüçüydü, mahir üzgüçü.



Üstündə Tanrının kölgəsi vardı,
Fələk özü ona dost, havadardı.

Heyrətə gəlsə də saçmadı dəhşət.
Əlləşdi, çalışdı, qanında qeyrət.

Onu xilas edib su quyusundan
Torpaq quyusuna gətirdi olan.

Örtdü ürəyini torpaqla, daşla.
Dayanıb düşündü acı təlaşla.

"Hanı mədh etdiyin o ağlın hanı?
Min düyün açası bayrağın hanı?

Mən üstün gələrəm, deyirdin, divə,
Pəriyə, vəhşiyə, hər cür hərifə.

Deyirdin, ərşə də kəmənd atarsan,
Ən dərin sirrə də gedib çatarsan.

Guya bacarırdın onikı işi,
Ey arvad telinə dəyməyən kişi!

Bəs peyğəmbər idin, dayanıb öndə
Görürdün keçmişi, gələcəyi də.

Ərşi də, gürşü də görən münəccim,
Ayağın altını görmədin neçin?

Bu küpün haqqında nələr danışdıq,
Növ-növ, çeşid-çeşid fəsillər açdıq.

Xeyli danışsaq da biz artıq-əskik,
Əməlin məğzini deyə bilmədik.

O küpün suyuna tulladıq nəsə,
Axırda od qoyduq öz küpümüzə.

Sən demə düşmüşük mətləbdə cida,
Tamam başqa sevda bu karxanada...

Çərx ki, düyünləyib ipin ucunu,
Hələ heç kəs aça bilməmiş onu.

İkimiz nə qədər fikri əylədik,
Amma hər nə dedik biz yanlış dedik.

Mən çıxdım, sən isə batdın qəfildən.
Çünki mən şükredən, sən naşükürsən.

Dedin, heyvan üçün qurulub tələ.
Özün heyvan kimi düşdün cəncələ.

Mən yaxşı düşündüm, yaxşı da qaldım.
Yaman düşünənin sonu zavaldı".

Bişr belə deyib ayağa qalxdı.
- Hardadır geyimi?
Dörd yana baxdı.

Yığdı, yumaladı paltar dəsini,
İpəkdən tikilmiş əmmaməsini,

Misri libasını, kəmərini də
Taparkən boğçadan düşdü bir kisə.

İçində min qızıl - Misir sikkəli.
Sikkədə kemişin naxışı, əli.

Silkədi, dinlədi qızıl səsini.
Bağladı boğçanı, boğdu nəfsini.

Eşitdi o dəmdə vicdan səsini:
"Onun qızılını, əmmaməsini

Donunu salamat saxlamaq gərək.
Tapaq... arvadına, oğluna verək.



Soruşum, öyrənib hardadı yurdu,
Hansı ev yetirib bu qoca qurdu?

Əlim yetməsə də fələkətinə,
Xəyanət qılmaram əmanətinə.

Onun etdiyini etsəm aləmdə,
Yediyi kötəyi yeyərəm mən də".

Boğçanı bağlayıb aldı əlinə,
Döndü qum çölündə bir dağ yelinə.

Yurduna yönəldi, yola düzəldi,
Səhradan şəhərə, evinə gəldi.

Nə qədər gözəldir doğma el-oba,
Çıxdı pişvazına qohum-əqraba.

Dincəldi neçə gün ev-eşiyində,
Çəmənin, çayırın gül döşəyində.

Çoxuna göstərdi o əmmaməni:
- Kim ola sahibi? Şad edin məni.

Mötəbər bir kişi dedi: - Oğul, sən
Bir az zəhmət çəkib yol getməlisən.

Onuncu küçədə beş sanlı bina
Ki, qılxıb göylərin yeddi qatına,

Onun öz qəsridir, döy qapısını.
Tikib sarayların ən yaxşısını.

Paltarı, qızılı əmmaməylə bir
Alıb həmən qəsrə yön götürdü Bişr.

Bir şəkər dodaqlı dilbər yanaşdı,
O, qapı döyəndə qapını açdı.

- Buyur xoş gəlmisən cənab xoşqədəm,
Mətləbin varsa, de, əncam çəkərəm.

Bişr söylədi ki, bir əmanət var,
Evin xanımına versəm xoş olar.

Bu evə girməyə icazə olsa,
Dərdimi deyərəm, müxtəsər, qısa.

Bu evin sahibi Məliha kişi
Gördü az müddətdə çox kəşməkeşi.

- Durmayın qapıda... buyurun, gəlin.
Ona yer göstərdi baldodaq gəlin.

Niqab gizlətmişdi günəş üzünü.
- Qonaq, buyur! - dedi - söylə sözünü.

Bişr əhvalatı danışdı tamam.
Dinlədi ay üzlü o gümüşəndam.

Eşitdi, öyrəndi o, bircə-bircə
Yolçular ilk dəfə görüşüb necə.

Lovğa Məlihanın vurub yıxmağı,
Özündən çıxmağı, yumruq sıxmağı

Yaxşını pis kimi təqdim şakəri,
Döşünə döyməsi, zəka hünəri

Mərdə namərd olub quyu qazması,
Dupduru sudakı hüsnü pozması,

Axırda boğulub həlak olmağı
Gör necə sarsıtmış gələn qonağı!

Hər nə eşidibsə, hər nə görübsə
Bişr nəql elədi o gülnəfəsə.



Axırda söylədi: "- Başın sağ olsun,
Barı indən belə bəxtin ağ olsun.

Suda pak olmuşdu o, dönə-dönə.
Tapşırdım torpağın xəzinəsinə.

Budur gətirmişəm pal-paltarı da.
Burdadır papağı, qızılları da".

Göz qoydu qonağın pak əməlinə,
Hər şey aydın oldu cavan gəlinə.

Ağıllı, işbilən bir qadındı o,
Təmiz vərəqləri göydə oxudu.

Söhbətdən bir azca nalan, pərişan,
Gözündən su tökdü, keçdi sulardan.

Dedi: " - Ey hüma tək müqəddəs olan,
Ey Tanrı bəndəsi, ey Ülvi İnsan!

Nəcib, üzügülər, halalzadəsən,
Sənin bu hüsnünə əhsən, min əhsən!

Heç vaxt görmədiyin, tanımadığın
Kimsəsiz qadına bu yaxşılığın

De, hansı kişinin əlindən gələr?
Bir şan balı çalmaq mərdlikdir məgər?

Yox, mərdlik odur ki, sınmasın vüqar,
Mərdi azdırmasın nə zər, nə dinar.

Məliha nə etdi, özünə etdi.
Özünə yaraşan bir yerə getdi.

Dedin ki, pisliyi xoşlayandı o.
Düz dedin, az dedin, bir ilandı o.

Onun işi-gücü mərdüməzarlıq.
Həm cəfa yetirmək, həm zülmkarlıq.

Qənim kəsilmişdi qıza, gəlinə.
Çoxdan layıq idi bu cür ölümə.

O kinli cühudun şər - vicdanıydı,
Məbəd əjdahası, sehr ilanıydı.

Çəkdiyi dağ durur hələ sinəmdə,
Yalnız şəri gördüm tərəzisində.

Mənə ömrü boyu yalan satırdı,
Ancaq yastığımda rahat yatırdı.

Başından yel əssə, qalxan olurdum.
Əsə mənim üçün tufan olurdu.

Şükür, Tanrım özü bir əlac etdi,
O möhnət qovğası qapımdan getdi.

Pisini deməyin nə mənası var?
Ölənin dalınca pis danışmazlar.

Yaxşı ki, kəsildi evdən ayağı.
Bugün səndən gördüm mərhəmət, qayğı.

İşimə yarayan, yaxşı kişisən.
Sənə yox demərəm, məni istəsən.

Məndə ismət də var, mal da, camal da
Yaşayaq, kam alaq bu cah-cəlaldan.

Tanrı buyuran tək kəbin kəsdirək.
İşə bir əncəm çək, biz də gün görək.

Səni bir ər kimi bəyənirəm mən,
Üzümə nur düşdü comərdliyindən.



Mənə meyl eləsən, olaram yarın,
Sənin pərəstarın, sənin qəmxarın.

Mən dedim sözümü, ey kişi oğlu!
Dövlətim, sərvətim, camalım da bu!"

Gəlin Ay üzündən saldı örtüyü,
Tər əqiq üstündən qupquru möhrü.

Bişr heyran qaldı bu hüsn önündə,
Bir günəş gülürdü təbəssümündə.

Yadına saldı ki, neçə gün öncə
Görüncə çalmışdı onu bu qönçə.

Ah çəkdi, gəlinə bir də vuruldu.
Qulağı həlqəli bir qulu oldu.

Gəlin ətir səpdi, Bişr bayıldı.
Onun nəfəsilə yalnız, ayıldı.

Baş əydi, utandı bayılmağından.
Başının üstündə bir dəstə reyhan.

"- Pərinin eşqindən bihuş olsam da,
Sanma divanəyəm mən bu dünyada.

Bayılır adətən div görən adam.
Mənsə pəri görüb bihuş olmuşam.

Gördüyün bugünkü məhəbbət deyil.
Mənim məhəbbətim çoxdankıdır, bil!

Söylə, yadındamı çərşənbə günü
Üzündən almışdı yel örtüyünü.

O gün əldən getdim görəndə səni.
Məst oldum, içməmiş vəslin meyini.

Lap cızdağım çıxdı dərdindən sənin,
Ürəyim üzüldü, gülüm, gülşənim.

Bircə an yadımdan çıxmasan belə,
Canda saxlayıram sirrimi hələ.

Elə ki, dözümüm fəryad qopardı,
Tanrı dərgahına pənah apardım.

Tanrım fəziləti, mərhəmətilə
Mənə bəxş elədi bir qızıl şölə.

Heç vaxt bənd olmadım özgə malına,
Kəbinli gözəlin Ay cəmalına.

Bəxtim buna görə bəxş etdi mal da,
Haram yox, bir halal sahibcəmal da".

Elə ki, o mərdin məhəbbətindən
Qadın agah oldu, çıxdı çətindən.

Qonağa rəğbəti artdı birə beş,
O mələk üzlüdən görüb nəvaziş,

Göyə əl qaldırıb minnətdar oldu,
Kəbin kəsdiribən yara yar oldu.

Yatarkən... qoynunda o pəriçöhrə,
Duası tuşlandı yaman gözlərə.

Bir şahı cühuddan azad etdi o.
Bir Ayı xüsufdan uzaq etdi o.

Yudu ipək dondan sarı qiyarı,
Atdı şənbəlidi süsən baharı.

Gəlini cənnətlik, huri bilərək,
Bişr aldı ona bir yaşıl köynək.



Sarıdan yaxşıdır yaşıl geyimlər,
Yaşıllıq yaraşır sərvə sərasər.

Yaşıl rəng əyinə rövnəq gətirir,
Bu rəng mələklərin ilk bəzəyidir.

Can daim yaşılla yaşar həmahəng.
Gözə işıq verir, işıq... yaşıl rəng.

Bitkilər yaşıla can atır müdam.
Ləklər bu rəngdədir başdan-binadan.

Aycəmal bu şeri deyən çağında
Şah ona yer verdi öz qucağında.

## BƏHRAMIN SEŞƏNBƏ GÜNÜ QIRMIZI GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ DÖRDÜNCÜ İQLİMDƏN ŞAH QIZININ HEKAYƏT SÖYLƏMƏSİ

Günlər Dey ayında gödəkdi, gödək,
Bir gün Tir ayının bir gecəsi tək.

O başqa günlərdən xeyli yaxşıdır.
Həftənin ortası, göbək naxşıdır.

Adı Bəhramidir, rəngi bəhrami.
Adaşdı onlarla Bəhramın namı.

Geyindi əyninə qırmızı paltar,
Qırmızı günbəzə getdi şəhriyar.

Seqlab ölkəsinin oddan qırmızı,
Sudan lətafətli slavyan qızı

Yürüdü, Bəhrama diqqət kəsildi,
Endi, çəkməsinin tozunu sildi.

Xidmət kəmərini çəkdi belinə,
Pərəstiş edən Ay xoş gələr günə.

Gecə yandırıb dan ulduzlarını,
Sökdü göy tağının nur paltarını.

- Ey alma yanaqlım, bal dodaqlım, gəl!
Bizə bir nağıl de, dünyadan gözəl.

Şaha yox demədi nazənin rəna,
Əqiqdən dürr tökdü şah ayağına.

"- Ey şah, ey cəlalı Ay - Gündən böyük,
Sənin dərgahına astanadır göy.

Sən deşilə bilən hər dürdən üstün,
Ən gözəl şeirdən, fikirdən üstün!

Çatmaz tozuna da aləmdə bir kəs.
Kor olsun nuruna göz yuman nakəs.

Xeyir-dua verək... gəl, qoşaq yenə
Biz mədən ləlini ləl mədəninə.

## HEKAYƏT

Dedi: - Rusiyada vardı əvvəllər
Şux nazənin kimi gözəl bir şəhər.

Orda saray tikən bir şəhriyarın
Bir qızı vardı ki, tüldən də narın.

Boyu sərv kimi Ay üzlü bir can,
Nazı ürək yıxan, cadu bağlayan!

Özü canlar alan bir şux aycəmal,
Ağzı qənddoğrayan, dodaqları bal.



Müştəri qəlbini aparan Zöhrə,
Ölür qarşısında şam da, şəkər də.

Dar ağzı o qədər üzüb ki, qəndi
Kəmər həlqəsindən keçə bilərdi.

Zülfü önündə mişk bağrıqanmıdır?
Reyhanı yanında gül -tikanmıdır.

Bağda sərv kimi hündürdü boyu,
Şam və çıraq idi surəti, soyu.

Bahar çiçəyindən tərdi bənizi.
Şəkildən gözəldi yollarda izi.

Nərgizi yatırar xumar gözləri,
Nəsrin pulla alıb ondan qəmzəni.

Gülab vurulmuşdu adamlarına,
Güllər sarılmışdı qulamlarına.

Həm şəkər gülüşü, həm hüsnü vardı,
Dağ yaran hünəri ona vüqardı.

Hər elmi, hər fənni mənimsəyərək,
Min şamdan yaradıb məşəl bir ürək.

Oxumuş nə qədər cadu əsəri,
Ovcunda cadunun neçə yüz sirri.

Zülfünü hüsnünə niqab edərək
Boyun qaçırmışdı ordan o mələk.

O kəs ki, yeganə bir afət ola,
Ərə nə minnəti, dönüb cüt ola?!

Xoş xəbər yayıldı aləmə olan:
Bir huri gəlmişdir behtiş bağından.

O günəş balası Ayda böyüdü,
Zöhrə ona vermiş Ütarid südü.

Qızışan meyillər hara yönəldi
O evə hər yandan elçilər gəldi.

Biri zorla gəldi, o biri zərlə.
Qızsa gizlətmişdi zərini zorla.

Elçilər, kubarlar, adlı - sanlılar...
O nigar - inadkar, atası - naçar,

Ata - başı lovlu, bağrı alovlu.
Necə nərd oynasın yüz həriflə o?

Gördü istəyənlər əliuzundu,
O qız tərk elədi doğmaca yurdu.

Xatadan, bəladan qaçdı uzağa,
Göylər çevrəsi tək hündür bir dağa.

Əmr etdi, o dağda qala tikdilər,
Dağ üstə dağ kimi möhkəm, mötəbər.

- Ata, əfv et məni! - dedi o nigar -
Məni dağ qəsrimə yola salsınlar.

Bir az incisə də atası o gün,
Göstəriş verdi ki, tədarük görün!

Getsə o şan balı, məgər arılar
Bir də bu gülşəndə gülə sarılar?

Qalada saxlansa xəzinə, dövlət,
Keşikçi çəkərmi əzab, əziyyət?

O qala gəlini cilvələnərək,
Öz qala işinə əncam çəkdi tək.



Qala hazır oldu qəşəng, mübarək.
Oturdu qalada bir xəzinə tək.

Elə ki, düzəltdi xanimanını,
Təzə al qazandı: "Qala xanımı".

Qala - Ruindez tək bir dəmir qala.
Xəzinə oğrusu öldü az qala.

Necə yaşayırdı xatın qalada?
Bir kimsə görməmiş yuxusunda da!

Elçi yollarına sədlər çəkildi,
Murad istəyənin ağzı tikildi.

Bütün işlərində o hünərpeşə
İncə, müdrik idi hər vaxt, həmişə.

Hər Ayda, ulduzda bir sirr arardı,
Nə qədər xilqəti tutuşdurardı.

Ruhani sirləri alıban ələ,
Hər incə ünsürə yapmışdı həmlə.

Atəş neçin sönür, su nə cür qızır?
Yaş nə cür quruyur, nəm hardan sızır?

Nədir adamları insan eləyən,
Bizə ulduzları mehman eləyən?

Maarif, elm işinə yarayan nədir?
Hansı xəzinədir ərz üçün nadir?

Həll edir bu qədər sorğunu, işi
O surətcə qadın, məzmunca kişi.

Dörd hasar içində o dağ gəlini
Bəşərdən biryolluq üzdü əlini.

Təpər varlığında, qüvvət qolunda.
Neçə tilsim qurdu qala yolunda.

Hər tilsim gövdəsi dəmirdən, daşdan.
Caynağında qılınc, gözlərində qan.

Kim bu yoldan ötsə dərhal yanırdı,
Qılınc zərbəsilə parçalanırdı.

Bircə keşikçiydi tilsimdən çıxan.
Qalan hamı aciz, öləri, nalan.

Keşikçi, addımın sayaydı gərək.
Ölərdi, saymasa düzgün... yüzədək.

O qızın işinə məhrəm olsa da,
Çaşarsa, həyatı gedərdi bada.

Yarardı bağrını bir qılınc payı,
Buludda batardı ömrünün Ayı.

Dəmir darvazası o imarətin
Göyün qapısı tək gizlindi, gizlin.

Mühəndis bir ay da çalışsa, inan
Qapını görməyə tapmazdı imkan.

Nəçiydi qalada o pəripeykər?
Çini nəqşevinə nəqqaş və zərgər.

Naxış bir qələmdən yüz rəng alırdı.
Suya sədəf kimi düyün salırdı.

Qələm qarasında qız teli vardı,
Kölgənin nəqşini nura salardı.

O bürcdə şəhrbənd olduğu zaman
Bürc də işıq aldı o Ay camaldan.



Seyr et fırça tutan ağ biləklini,
Ağ ipək üstünə çəkdi şəklini.

Əksi möhtəşəm bir divardan asdı,
Üstündə ən gözəl xətt ilə yazdı:

"Kim məni istəsə, can atsa kama.
Yanaşsın qalama - qərargahıma.

Gendə dayanmasın, irəli dursun,
Bu nurun başına pərvanə olsun.

Qalaya yol tapar yalnız ər kişi,
Nakəsin, namərdin burda yox işi.

Kimə lazımdırsa bu qız, bu ovsun,
Gərək bir canı yox, min canı olsun.

Tutarkən üzünü qala səmtinə,
O qoy əməl etsin dördcə şərtimə:

Əvvələn, unutma, ey qoca quzğun
Ad-sanın, cəmalın, kamalın olsun!

İkinci şərt bu ki, biliyinlə sən
Gərək hər tilsimi aça biləsən.

Bütün tilsimləri qırandan sonra
Qapını tapmaqla gəlsin hüzura.

Damdan, bacadan yox, o ömrü uzun
Qapıdan giribən mənə ər olsun!

Dördüncü şərtim də bəllidir əsrə:
Yollansın şəhərə, düz bizim qəsrə.

Öz ata mülkümə qayıdınca mən
Sorğular soracam mərdanəlikdən.

Dürüst cavab versə, olar xoşqədəm,
Əhdə vəfa qılıb onu istərəm.

Yetirsə yerinə dürüst dörd işi,
Mənim ərim olar o əziz kişi.

Hər kim bu şərtlərə etməsə əməl,
Boynunda qalacaq qanı əlbəəl.

Hər kim bu şərtlərə əməl etsə düz,
Səadət iksiri onundu şəksiz.

Şərti qanmayana qənimdi təqdir,
O, böyük olsa da kiçiləcəkdir.

Elə ki, vərəqi yazdı, bitirdi,
Verdi keşikçiyə: - Cəld tərpən! - dedi.

Dağlardan ağırdı vərəqin yükü,
Təbəqin üstündən götür örtüyü.

Yollan düz şəhərə, yubanmaq olmaz,
Onu darvazanın baş tağından as.

Bu iş bəlli olsun qoy hər bir kəsə:
Mənim tək gözəli hər kim istəsə

Şərtləri qəlbinə bölüşsün, bölsün,
Qalaya tac olsun, ya da qoy ölsün!

Xidmətçi vərəqi götürdü, getdi,
Dolamalar keçib şəhərə yetdi.

Şəkli yapışdırdı el qapısına,
Doyunca baxsın qoy aşiqlər ona.

Ona tamah salmaq bəlkə də mümkün,
Onda öz qanını öz əli töksün.



Elə ki, bu işdən xəbər tutdular,
Neçə taxt sahibi, neçə tacidar

Neçə aşiq gəldi, neçə pəhləvan,
Yola rəvan olan neçə qəhrəman.

Çoxları cavanlıq hərarətindən,
Yandı, bacarmadı çıxsın çətindən.

Fərqi yox, yol açan kəsdi, nakəsdi, -
O sehirli qılınc başını kəsdi.

Heç kəs zəka ilə, ya tədbir ilə,
Keçirə bilmədi qalanı ələ.

Hər kim cadugərlik, fəndgirlik etdi,
Tilsimlə dağıldı cadusu, cəhdi.

Tapıldı bir neçə tilsimi açan,
Ancaq bacarmadı getsin sonacan.

Kəmlik ucbatından, tədbirsizlikdən,
Burda rüsvay oldu neçə yol gedən.

Baş qoydu, məhv oldu nə qədər cavan,
Umduğu canandan bir kam almadan.

Kəsik başlar vardı, yollarda yalnız,
Yollar, qanlı yollar qansız, amansız.

Hansı bir böyüyü tuturdusa qan,
Başı asılırdı baş darvazadan.

Kəllələr üstündən kəllə qalandı,
Elə qalandı ki, yollar bağlandı.

Aləmdə hansı bir şəhərə baxsan,
Qala divarıdır dörd yandan qucan.

Ancaq hurisifət, davakar pəri,
Başla bəzəmişdi yalnız, şəhəri.

Onun qapısına hələ çatmamış,
Nə qədər baş getdi, dildə yalvarış.

Bir şahzadə vardı zadəganlardan -
Qamətli, azadə, gözəl bir cavan.

Baxanda deyərdin bir lay divardı,
Şiri diri-diri tutub boğardı.

O, bir gün şəhərdən çıxdı şikara
Ki, versin könlünü çöldə bahara.

Şəhər qapısında bir namə gördü,
Min zəhər şüşəsi gördü, nə gördü.

İpəyin üstündə çəkilən şəkil,
Şəkil yox, cahandı, candı elə bil.

O surət, lətafət qaldı, zavaldı -
Səbrü qərarını əlindən aldı.

Afərinlər dedi o fırçaya ki,
Ucundan düşürüb bir belə şəkli.

Dünyalar bəzəyi o surət... öndə
Yüz-yüz baş asılıb həndəvərində.

"Nəhəngin boynundan asılmış dürrdən
Qaça bilərəmmi? Nə cür qaçım mən?

Bu ülvi eşqimdən əl çəksəm əgər,
Səbrim varlığımı şikəst eləyər.

Könül indən belə başqa həvəsdə,
Həvəs başdan getməz, başım getsə də.



İpəyə çəkilib şəkli nigarın,
Dişi ipəkdədir qıvrılanların.

Nə qədər kəsik baş verib baş-başa,
Hansı öz işini çatdırıb başa?

Mən də, tutalım ki, getmişəm bada,
Bir torpaq əhli də batdı, nə fayda?

Əlimi üzməsəm mən bu kəndirdən,
Keçəcək başım da kəndirə birdən.

Ölümmü uğrunda? Bunun nə xeyri,
Necə atıb gedib o cür dilbəri?

Bu şəkli ipəyə çəkib ki, pəri
Min saxsı içindən seçsin kövhəri.

Ey könül, ömrünü əbəs zay etmə,
Əfsun qarşısına əfsunsuz getmə!

Pərinin dilini bağlamayınca
Başımı qoymaram bu yolda bica.

Gedib tapmalıyam eli bir imkan,
Quzumu qurtarsın qurdun ağzından.

Sərtliyi, tərs yolu tutub gedənlər
İşin ahənginə xələl gətirər.

Xərcləyəndə xəsis olmamalısan,
Qarşına çıxmasın daha zor ziyan.

Sazını gərdişlə köklə həmahəng,
İşi aramla gör, yayı möhkəm çək.

Könlüm xatirimdən daha çox xarab,
Cigərim qəlbimdən daha çox kabab!

Şad olmaq mümkünmü belə ürəklə,
Yaddaş nəyi tapsın yad eləməklə?

Cavan çox mətləbi qəlbinə saldı,
Soyuq bir ah çəkdi, qüssəyə daldı.

Şəklə məlul baxdı, gözləri yaşlı,
Öndə... qanlı qılınc, teşt ilə başı.

Gizlətdi eşqini. Heç kimə heç nə!
Dəmir qandal vurdu azad fikrinə.

Yanıqlı bağrında dərd düyün-düyün.
Nə gecəsi gecə, nə gündüzü gün.

Arzular köksündə od qalayırdı,
Hər gün şəklə sarı addımlayırdı.

Fikrində şadlığın, dərdin harayı -
Fərhad məzarıyla Şirin sarayı.

Açsın, nə cür açsın paslı kilidi?
Kələfin ucunu tapa bilmədi.

Kələfin üstündə min-min kəsik baş,
Bəs kələfin ucu hardadı, qardaş?

Əlləşdi, çox qaçdı irəli, geri.
O, çözə bilmədi kor düyünləri.

Qoydu bir kənara səbri, qüruru.
Getdi çarə deyə ellərə doğru.

Hanı tədbir əhli, həmdəm kəsilsin,
Möhkəm, bərk düyünü yumşalda bilsin.

Axır ki, mələklər, divlər bağlayan
Müdrik bir kişidən verdilər nişan.



Bütün elmlərə vaqif bir ərdi.
Yabanı atları minə bilirdi.

Bağlı qapılara salardı açar.
Çox-çox rəqibləri ram olmuşdular.

Dünya görmüşlərdən alınca xəbər.
Hünər dünyasına can atdı hünər.

O günəş cəlallı simurğa doğru
Dağdan dağa uçan quş kimi uçdu.

Onu gülzar kimi tapdı... harada?
Xaraba görkəmli boş mağarada!

Belində kəməri gönmü, süsənmi?
Durdu xidmətində bir oğul kimi.

Xoşbəxtlik üzündən, eşq ucbatından.
Aldı bu Xızırdan ümman bir ürfan.

Elə ki, idrakı gur şölə saçdı.
Sirrini ustada ehmalca açdı.

Danışdı dağdakı pəriçöhrədən.
Yüz-yüz igidlərə dəymiş zərbədən.

Dedi: - Tilsim qurur, nələr törədir.
Ölkə qan qırmızı bir düşərgədir.

Filosof önündə hey birər-birər
Şərh etdi, açıldı qəmgin lövhələr.

Filosof bu dərdə sanki tanışdı.
Sirri bir-bir açdı, nələr danışdı.

Şahzadə öyrəndi bilmacələri.
Min bir təşəkkürlə qayıtdı geri.

Üç-dörd gün dincəldi, götür-qoy etdi,
Böyük məramının ardınca getdi.

Darısqal dağ yolu kələ-kötür, sərt,
Geydi dəmir çarıq, tapdı çox alət.

"Yerdəki çətini göy asan edir"
Deyib, ulduzlara göz qoydu bir-bir.

Bütün tilsimləri sındırmaq üçün
Seçdi ən münasib, ən uğurlu gün.

Kəramət əhlinin üstünə getdi,
Yardım istəyibən mətləbə yetdi.

Tökülən qanlara bir üsyan kimi,
Əyninə laləzar, qırmızı geydi.

Geyimi qan rəngli, gözü də qanlı,
Elə bil qəlbi də qanlı ümmandı.

Qoydu bir kənara öz muradını,
Bağrında bəslədi xalq fəryadını.

Dedi: - Öz dərdimi çəkmirəm bu gün,
Qisas almalıyam yüz min baş üçün.

Başlardan çıxarım qanlı çənbəri,
Ya özüm baş qoyum, dönməyim geri.

O, qılınc götürüb ayağa durdu,
Qanlı çadırını səhrada qurdu.

Xəbərdar oldular obalar, ellər:
Gəlmiş öc almağa şir ürəkli ər.

Hamı hümmətini ona bağladı,
Qanda zəfər əzmi coşdu, çağladı.



Elin sel köməyi, öz günəş beyni.
Polad zireh kimi tutdu əynini.

Sonra üzrxahlıq yoluna daldı.
Şəhərin şahından icazə aldı.

Çıxdı külüng ilə hasar yoluna
Min külüng qüvvəti axdı qoluna.

Çatarkən tilsimin yaxınlığına,
Bir əfsun oxuyub od qoydu ona.

Tilsimin köksünə çökdü, nə çökdü.
Sehr peyvəndini doğradı, tökdü.

Bütün cındırları, kor düyünləri
Quyuya tulladı o xalq əsgəri.

Tilsimi qırması yar oldu ona.
Atdı qılıncları dağın başına.

Hasar qapısına yanaşdı dərhal,
Təbil, çubuq tapdı, qopdu çalhaçal.

Yaydı həndəvərə təbil səsini,
Göstərdi lağımın yan-yörəsini.

Səs-səda lağıma bir açar oldu.
Lağım qapıları aşikar oldu.

Bundan xəbər tutan o Ay üzlü qız,
İgidin üstünə göndərdi kağız:

"Ey tapıb lağımı yol açan sərvər.
Ey bəxti dadına çatan bəxtəvər!

Tilsimi yaxşıca qırdığın üçün
Tapdın xəzinənin yolunu düzgün.

Axar sular kimi yönəl şəhərə,
Bir də mümkün olsa, azca səbr elə.

Atamın qəsrinə dönüm, qayıdım,
Sənin hünərini bir də sınayım.

Səndən soracağım dörd sirr olacaq,
Versən cavabını ağdı bəxtin, ağ.

Bizi dost edəcək bəlkə də təqdir,
Əhdimiz, işimiz düzələcəkdir.

Gördü muradına çatır az qala,
Şahzadə qayıdıb düzəldi yola.

Şəhərin möhtəşəm darvazasından
Rəsmli ipəyi qopardı ələn.

Bükdü, nökərlərdən birinə verdi,
Afət öldüsə də, rəssam dirildi.

İplərdən sallanan qanlı başları
Endirdi aşağı qəmlər qəmxarı.

Qaytardı başları sahiblərinə,
Baş bədənə çatdı, bədən qəbrinə.

O, min-min alqışla evə qayıtdı,
Mütriblər çağırdı, şənlik yaratdı.

Ellər şabaş tökdü onun başından,
Evi qəsrə döndü xalq alqışından.

Gəlib and içirdi hamı səs-səsə:
"Şah bu izdivaca izn verməsə,

Onu devirəriz şəksiz-şübhəsiz.
Gənci özümüzə şah seçrik biz.



Çünki o, baş kəsdi, soyuqluq etdi.
Busa kişi kimi başlar dikəltdi.

Gözəl afət isə uzaqda bu dəm
Gülürdü ki, tapmış ən yaxşı həmdəm.

Ceyran gözlü gecə öz nafəsindən
Qaliyə saçanda aləmə şən-şən.

O dilbər ucaltdı şaqrat səsini.
Ay özü çəkirdi kəcavəsini.

Uca dağ başında şəhərə çapdı,
Qəsr onu görəndə şükufə tapdı.

Açıldı atası qızıl gül kimi.
Qız öz şadlığını heç gizlətdimi?

Yaxşıdan, yamandan nə varsa dedi,
Bütün bildiyini bəyan eylədi.

- Nə qədər atlılar yolda sürüşdü,
Qazdılar... quyuya özləri düşdü.

Adımı çox çəkdi şirlər, arslanlar,
"Mənəm! Mənəm!" deyib acız qalanlar.

Qırdı min tilsimi yalnız bir cavan,
Yatdı ürəyimə, sevindim yaman.

Dönmədi, dirəndi yerə dağ kimi,
Necə parçaladı, qırdı tilsimi.

Kəməndi qalanı az qala uddu,
Qoyulmuş şərtləri göz üstə tutdu.

Dörd şərtin üçündən mərd çıxdı qoçaq,
Görək dördüncüsü necə olacaq?

- Nədir dördüncüsü?
De, bilək az-çox.
Gözəl bir şərt kəsər, əllisini yox!

- Çətin məsələdir dördüncü sual,
Ondan soruşacam nədir bəxt, iqbal?

Əgər bu müşgülə edərsə əlac,
Ona halal olsun bizim təxtü-tac.

Batıb yolda qalsa uzunqulağı,
Seçsin çadır üçün bizdən uzağı.

Sabah taxt üstündə əyləşəndə siz,
Onu qonaq kimi dəvət ediniz.

Mən pərdə dalına çəkilməliyəm.
Ona başı bağlı söz deməliyəm.

Mənə cavab versin qoy sorğu vaxtı,
Görək nə göstərir taleyi, baxtı.

- Beləcə yaxşıdır, - şah dedi əmin, -
Mənim əməlimdir sənin əməlin.

Bununla bitdi söz. Qanadlandılar,
Hərə öz yerində rahatlandılar.

Daşa yaqut tozu, qızıl saçaraq,
Səhər şölə verdi mina rəngli tağ.

Bu altı xanəli yeddi nərdin də
Sünbüllər saraldı hər tərəfində.

Şah Keylər dəbincə bir məclis qurdu,
Bəxti kəmər çəkib qulluqda durdu.

Yığışdı məclisə adlı-sanlılar,
Əməli salehlər, pak vicdanlılar.



Təntənə. Ən böyük qəbul sarayı,
Ərlər, sərkərdələr, mərdlər alayı.

Şah qonaq çağırmış gənc qəhrəmanı,
Başından tökürlər dürr - ulduz sanı.

Süfrələr açılmış, zərli süfrələr,
Xörəklər, meyvələr görün nə qədər.

Bu ki süfrə deyil, bir dilək bağı,
Aləm haçan görüb bu təmtərağı?

Gözlər nuş elədi növ-növ nemətı,
Yeyənlər içdilər reyhan şərbəti.

Süfrəni yığanda kimsə söylədi:
- İndi başlanacaq söz ziyafəti.

Xudmani məclisdə şah buyurdu ki,
İndi xalis qızıl görsün məhəki.

Özü məkan tutdu bir az dərində,
Qonağı əyləşdi qonaq yerində.

Qızıyla üz-üzə yer tutmuşdu şah
Ki, olsun nərd vuran gənclərdən agah.

Təraz qızlarına dərs verən afət,
Pərdə arxasında oynadır ləbət.

Açdı qulağından cüt lölə sırğa,
Uzatdı xəzinə: - Çatdır qonağa.

Versin cavabını, mənə tez yetir.
Qonağın ovcunda iki cəvahir.

Götür-qoy elədi, bildi vəznini,
Çıxartdı cibindən üç mirvarini.

O iki sırğanın üstünə qoydu.
Dilbərə yaraşan bir sərvətdi bu.

Aləmə nur saçan cavahirləri,
Qasid ovcundaca gətirdi geri.

Şahzadə dilində zümzümə, nəğmə,
Namə gətirənə vermişdi namə.

Daş ürəkli dilbər gördü beşdi dürr,
Qoydu tərəziyə, çəkdi birbəbir.

Öyrəndi vəznini, əyarını da,
Tərəzi daşıyla əzdi axırda.

Üstünə bir ovuc şəkər tökərək,
Dürr ilə şəkəri ovdu müştərək.

- Buyur! Çatdır! - dedi, - qonağa, qasid,
İncə mətləbləri tez duyan igid

Bir cam süd istədi qulluqçu qızdan,
Südü qarışırdı ağ tozla ələn.

- Apar, ver xanıma!
Apardı kənizə
Xanım da süd kimi ağ üzlü, təmiz.

Fincanda buğlanan südü nuş etdi,
Dibdə qalanından xəmir düzəltdi.

Yenə tərəzidə çəkdi, yoxladı,
Bircə tük qədər də əskik olmadı.

Aldı barmağından üzüyü dərhal,
Yolladı qasidlə, üstündə sual.

Şahzadə üzüyü aldı kənizdən,
Taxdı barmağına fərəhlə, şən-şən.



Ona bir işıqlı, yetim dürr verdi.
Gecə çırağı tək şöləlenirdi.

Kəniz o tək dürrü verdi tək lələ -
Aləmdə misilsiz, eşsiz gözələ.

Qız ovcuna tutdu nur çırağını,
Qırdı boynundakı boyunbağını.

O dürrə tay olan bir dürrü seçdi,
Gecə çilçırağı, dan ülkəriydi.

Düzdü bir ağ sapa hər ikisini.
Nə artıq, nə əskik. İkisi də eyni.

Kəniz qoşa dürrü dəryaya verdi.
Elə bil Günəşə Sürəyya verdi.

Şahzadə ha baxdı, rəyə gəlmədi.
Dürrü bir-birindən seçə bilmədi.

Tükcə də yoxdu fərq aralarında.
Nə rəng süslərində, nə sularında.

Göy muncuq istədi öz qulamından,
Dürrə tuş gəlmədi aldığı mərcan.

Mərcanı cüt dürrün qoydu üstünə.
Verdi qasidə ki, aparsın yenə.

Dilbər o muncuğu, mərcanı gördü,
Yumdu qönçəsini, fərəhlə güldü.

Taxdı, üz-gözündən nur yağa-yağa,
Muncuğu barmağa, dürrü qulağa.

Atasına dedi: - İşə başla sən,
Bəsdir, öz bəxtimə naz elədim mən.

Gör hansı səadət üz verib mənə,
Gülüm qismət olub bu cür gülşənə.

Özümə elə bir yar tapmışam ki,
Yoxdu yer üzündə misli, bənzəri.

Sərraf qədri bilən sərraf olsaq da,
Ondan aşağıyıq, aşağı, ata!

Şah ata şad oldu bu vaqeədən,
- Ey mələk, ey pəri! - söylədi, - əylən.

Cavab nə cavabdı, sual nə sual?
Suallar da laldı, cavablar da lal!

Bu gizli söhbəti birər-birər sən
Gərək şərh edəsən, çıxsın pərdədən.

Naz ilə götürdü o şux gülbədən,
Rəmz pərdəsini sirrin üstündən.

- Öncə itiləyim əqlimi bir an,
Çıxardım sırğanı qulaqlarımdan.

Dedim: - Bu gecəli, gündüzlü ömür
İki şöləsə də, heyif, tez ötür.

Qoydu üçünü də onun üstünə,
Dedi: - Beş günsə də tez keçir yenə.

Məndə qarışdırdım şəkəri dürrə,
Əzərək göndərdim o dilavərə.

Dedim ki, şəhvətlə qarışıb ömür,
Dürlə şəkər kimi əkiz görünür.

Əfsunçu, kimyagər olsa da əgər,
Onu bir-birindən kim ayırd edər?



Süd ilə islatdı dürr ilə qəndi,
Biri çökdü dibə, biri əridi.

Dedi ki, dürr ilə qarışan şəkər,
Bir içim süd ilə aradan gedər.

Mən onun camından içdim şəkəri,
Kim içdi? Südəmər çocuğun biri.

Bu eyhamla ona üzük göndərdim,
Demək, nigahıma razılıq verdim.

O gövhər yollayıb dedi: - Mübarək!
Sən də misilsizsən bu gövhərim tək.

Taxdım gövhərini boyunbağıma,
Yəni arvadınam, buyur bağıma!

O, iki gövhərə misilsiz dedi.
Cahanda bunlara yox əvəz! - dedi.

Qoşdu göy muncuğu o iki dürrə,
Yəni göz dəyməsin sevişənlərə.

Mən o göy muncuğu üstümə taxdım,
Yəni səninkidir taleyim, baxtım.

Xəzinə möhrüdür xəzinəm üstə,
Sevgisi yaşasın qoy sinəm üstə.

Beş sirri açmaqla qalxıb ucaldıq,
Sultan qapısında beş təbil çaldıq.

Şah baxdı, gördü ki, yumşalıb xam at,
Şıllaq atmır daha, olmuş fərağət.

Evlənmə busatı qurdu, nə qurdu,
Rəqslər, çalğılar bürüdü yurdu.

Zöhrə Süheyl ilə kəsdirdi kəbin,
Əyləşdi başında şah bu şənliyin.

Məclisi bəzədi nur piyaləsi,
Mişgin rayihəsi, udun naləsi.

Gəlinə məşşatə min bəzək vurdu,
Güllə sərv oturdu, şah gendə durdu.

Ortadan götürdü ağırlığını,
Bir az yüngül etdi iki yaxını.

Ləl mədəni qazan son laya çatdı,
Qızın da qızması haraya çatdı.

Şahzadə gördü ki, qucağındakı
Cənnət hurisidir, yedi bal təki.

Öpdü dodağından, döndü bir oda,
Dişlədi narını, xurmasını da.

Almazı təzədən dürrə toxundu,
Kəkliyin üstünə laçını qondu.

Gördü göy muncuğu ağ qolundadır,
Nərgiz gözlərində xumarlıq yatır.

Möhürlü qoymadı onun dürrünü,
Açdı xəzinədən qız möhürünü.

Nazından kam aldı, özündən vüqar,
Geyindi əyninə qırmızı paltar.

Bəxtinə seçəndə döyüşü, cəngi
O, bir fal tutmuşdu qırmızı rəngi.

Çıxdı qara gündən qırmızı rənglə,
Odur ki, bəzənir bu al bəzəklə.



Qızıl bir yaşayış yar oldu ona,
"Qızılbaş" dedilər bizim xaqana.

Qırmızı ən gözəl rəngdir, bəzəkdir.
Qırmızı gövhərlər bahalı, nadir.

Qızılın geyimi qırmızıdandır,
"Qızıl kükürd" sözü ona ünvandır.

Canın cövhəridir ruh qarışıq qan,
Qan da rəng alıbdı qırmızılıqdan.

Qırmızı adamlar sözü düz deyir,
Haqqa qüvvət verir, nahaqqı əyir.

Qırmızı fəryadı, qırmızı ahı,
Etdi qızıl gülü güllərin şahı.

Bu gözəl hekayət yetərkən sona,
Qızıl gül ətrini yaydı hər yana.

Gül səpən Bəhramın rəngi qızardı,
Üzündə şərabın al rəngi vardı.

Uzatdı əlini tər qızıl gülə,
Sıxdı ürəyinə, yatdı naz ilə.

## BƏHRAMIN ÇƏRŞƏNBƏ GÜNÜ FİRUZƏ RƏNGLİ GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ BEŞİNCİ İQLİMDƏN ŞAH QIZININ HEKAYƏT SÖYLƏMƏSİ

Günəş çiçəkləndi çərşənbə günü,
Açdı firuzə rəng qaralmış göyü.

Şah - cahan məşəli, zəfər çələngli
Don geydi əyninə, firuzə rəngli.

Firuzə günbəzə naz ilə getdi.
Gün qısa, nağılsa uzun və ciddi.

Əyanlar əlindən xilas olan şah
Kəniz nağılına gətirmiş pənah.

- Xanım qız, xanımlıq adətini tut,
Yorğun ürəyimi ovcunda ovut!

Sən ki, eşq evinin çırağbanısan,
Söylə özün kimi nazəndə dastan.

O sərv ağız açdı, ya gül qönçəsi?
Ləçəyə bağlandı qənd şəmamısi.

- Şahim, fərmanına bir quldur fələk.
Sənin bəxt ulduzun ən yüksək çələng!

Mənim tək biri yox, bəlkə min kəniz
Əlini öpməklə tutulur əziz.

Orda ki, bal şanı, qənd şərbəti var,
Rəvamı car çəksin sirkə satanlar?

Lakin çıxmaq olmaz şahın sözündən,
Bir dastan deyirəm icazənlə mən.

## HEKAYƏT

Misirdə qüdrətli bir kişi vardı,
Surəti aydan da gözəl olardı.

O, Misrin misilsiz bir Yusifiydi,
Min yəğmalı onun öz hindlisiydi.

Dostları eşqilə odlanardılar,
Görmək nəsib olsa, şadlanardılar.



Mavi çərx altında qanad gərənlər,
Oxuyub çalmağa könül verənlər

Arardı Mahanı bir çıraq kimi,
Evdəki, bağdakı təmtəraq kimi.

Bir gün zor bir adam qəlbinə girdi,
Onu öz bağına qonaq gətirdi.

Bağın çəməni göy, suyu şəkər, bal.
Dostları ondan da lətif, xoşəhval.

Orda axşamacan ləzət çəkdilər,
Altunzeh qədəhə şəfəq tökdülər.

Xörəklər, çörəklər, çiçəklər təzə.
Hər məqam, hər qırpım ülvi, pakizə.

Bayraq qaldıranda gecə müşgdən,
Qır gümüş üstünə qələm çəkərkən.

Eyş - nuş eviydi o bağ aləmdə.
Dodaqlarda türkü, əllərdə badə.

Bağda girov qoyub ürəklərini,
İçdilər, mey - köhnə, qədəhlər yeni.

Göydə Ay təkəri - bir gümüş külçə,
Gündüz kimi nurlu, aydın bir gecə.

Şərabdan qızanda Mahanın beyni,
Gördü axar suda Ayın bədrini.

Bağın dörd yanını dolandı xumar,
Orda xumarlıq var, burda çəmənzar.

Gördü yaxınlaşır ona bir kişi,
Başlandı dostların mehri, xoş - beşi.

Gördü arkadaşı, göz çırağıdır.
Ticarət şəriki, mal ortağıdır.

- Sən necə gəlmisən gecə, a qardaş?
Yanında nə kəniz, nə qul, qaravaş?

- Uzaqdan gəlirəm... bəli... gecə... tək.
Dözmədi ürəyim, dedim görüşək.

Gəlir gətirmişəm həddən ziyada,
Gərək şükr edək ki, yetirib xuda.

Şəhərə çatanda gecikmişdim çox,
Darvaza bağlanıb, evə də yol yox.

- Bəs yüklərin hanı?
Elə orada,
Şəhər kənarında, karvansarada.

Qorxma... malımızı möhürləmişəm.
Eşitdim burdadı sevimli xacəm.

İş üstə olmağın bizə köməkdir,
Kəndxuda həmişə kənddə gərəkdir.

Məqamdır... geyinək bu zülmət donu,
Kömrükdən gizlədək malın çoxunu.

Mahan fərəhləndi bir cocuq təkin,
Ardınca yollandı öz şərikinin.

Bağın qapısını xəlvət açdılar.
Görmədi onları kimsə... qaçdılar.

Gecədən iki pas keçənə kimi
Yüyürüb getdilər onlar yel kimi.

Şəriki qarşıda yeyin gedirdi.
Mahan da toz kimi cövlan edirdi.



Ev də, bağ - bağat da nəzərdən itdi.
Hədəf burda qaldı, ox süzdü getdi.

Mahan fikirləşdi: - Nilə çoxmu var?
Bağdan sahiləcən bircə mil olar.

Amma neçə fərsəng yol gəlmişik biz.
Dairə xəttini keçmişik şəksiz.

Bəlkə mən sərxoşam, ruhum sürünür.
Surətlər gözümə qələt görünür.

Ancaq qazdan ayıq bu dostum ki, var.
Həm yola bələddir, həm mənə qəmxar.

Gedirdi beləcə iki arkadaş.
Öndəki tələsik, daldakı yavaş.

Öndəki çağırır, bəzən bağırır.
Daldakı yorulub, kəndiri qırır.

Xoruz banınacan varıb getdilər.
Qızıl dan yerini yarıb getdilər.

Xoruzlar elə ki, qol-qanad açdı.
Gecənin xəyalı diksindi, qaçdı.

Xəyaldan əl üzdü xəyalpərəstlər.
Hanı yalan oyun, uydurma səslər?!

Mahanın şəriki itdi nəzərdən.
Mahan dəli kimi vurnuxdu birdən.

Deşirdi beynini sərxoşluq dağı.
Yatdı yerindəcə... daşlar - yatağı.

Yanar bir şam kimi tökdü göz yaşı.
Günortaya qədər qalxmadı başı.

Günəş od tökəndə qaynadı beyni,
Yandı ciyərləri, alışdı əyni.

Ovdu gözlərini, baxdı yollara.
Hanı o gül bağı, suda aypara?!

Nə bağ var, nə onu aldadan ortaq.
Quru canı qalmış, üstündə min dağ.

Mağara içində evi - mağara.
Yoldaşdı əqrəbə, əjdəhalara.

Dizi girdən düşüb, özü taqətdən.
Yenə də gedirdi sürünən bədən.

Ayaqlar deşirdi dağı, dərəni.
Gedirdi, yoxsa da yolgöstərəni.

Qorxurdu sürünən kölgəsindən də.
Yaxşı ki, Ay doğdu, şah çıxdı təxtə.

Ayrıldı gündüzün aydınlığından,
Üzüqara gecə - bir zülmət zindan.

Çatdı bir kahaya... yıxıldı Mahan.
Hər ot nəzərində bir əqrəb, ilan.

İtirdi huşunu divlər əlində,
Hənir, səs eşitdi huşa gələndə.

Göz açıb nə gördü? Yolda iki yad...
Sağdakı kişiydi, soldakı arvad.

Hər iki çiyində şələ - bir zindan,
Yavaş gedirdilər ağırlığından.

Kişi onu görcək yaxına gəldi.
Arvadı tərk edib bəri yönəldi.



Bağırdı: - Sən kimsən, ey yolu kəsən?
Hanı həmnəfəsin, küləksən, nəsən?

Dedi: - Mən qəribəm, bir azca da xam.
Adım Huşyar Mahan, yol azmış adam...

Sordu: - Nə cür gəlib düşmüsən bura?
Bu viran diyara, xərabəzara?!

Divlər məkanıdır bu yer, ay fağır,
Divlərin zülmündən şirlər də qaçır.

- Allah xatirinə, ey yaxşı kişi,
Bir iş gör... allah da sevir xeyr işi.

Bura öz xoşuna gəlməmişəm mən,
İnsanam, xilas et divlər əlindən.

Dünən qonaq idim İrəm bağında.
Məzə qabağımda, mey dodağımda.

Bir kişi gəldi ki, mən ortağınam.
Mal - dövlət şərikin, sənə yaxınam.

Məni darta - darta gətirdi bura.
Cənnət guşəsindən xərabəzara.

Günəş qalxan kimi yox oldu, itdi
Bəlkə də səhv etdi, işi qələtdi.

Yaradan eşqinə çat imdadıma,
Mənə yolu göstər, yetiş dadıma.

Kişi dilə gəldi: - Ey gözəl cavan.
Şükr et, ağlamadan nicat tapmısan.

O, divmiş, insan tək çıxıb qarşına,
"Çöllərin hayili" deyirlər ona.

"Ortağınam" deyib o xain iblis,
Canını almaqmış məqsədi şəksiz.

Sən kimi çoxunu öldürüb atmış.
Necə başlar yeyib o başı batmış.

Mən də, arvadım da sənə qəmxarıq,
Qalarsan, bu gecə səni saxlarıq.

Toxta, hər dərdinə əlac edərik.
Ayaqlaş bizimlə! Haydı, gedirik!

İki bələdçinin arasındaca
Neçə mil yol getdi o, qaça-qaça.

Cınqır çıxarmadan qədəm döydülər.
Bərabər getdilər ta sübhə qədər.

Xoruz - səhər quşu təbil vuranda,
Qızıl zınqırovlu nərlər duranda

Açarsız zindana döndü ər-arvad,
İtib yox oldular, ey evi bərbad!

Mahan tamam düşdü əldən - ayaqdan.
Nə dizində taqət, nə canında can.

Üfüqlər qucanda işıqlı danı,
Axanda torpağa gecənin qanı,

Mahan dar dərədən baxdı, nə gördü:
Dağlar, yalquzaqlar, qaplanlar yurdu!

Gücü yoxdu gedə ac - susuz, yalqız.
Göz yaşı, ahıydı xörəyi yalnız.

Çörək əvəzinə nə yeyirdi, bax:
Tərə, qanqal tumu, əvəlik, boyaq.



Nə yolda yolluq var, nə dizdə taqət.
İrəli getməkdən qalmadı fəqət.

Getdi dağdan dağa gün batanacan.
Son gücü mənzilə can atanacan.

Dayandı, ağ dünya qaralan zaman.
Düşdü, təngə gəldi candan, cahandan.

Qarşıda bir kaha... süründü, çatdı.
Yoldan ötənlərdən xəlvəti yatdı.

Oyatdı yuxudan onu nal səsi,
Atlının atını dəhmərləməsi.

Əlində başqa bir cilov da vardı.
Boşlasa, köhlənlər qanadlanardı.

Yanaşdı Mahana, baxdı, nə gördü:
Daşlara sığınmış bir cüssə gördü.

Çəkdi yügənini fınxıran atın.
Coşan, şahə qalxan, beyniqan atın.

Bağırdı: "- Ey yolda əyləşən əntər,
Daşlar arasında girən hiyləgər!

Sirrini düz desən, varıb gedərəm.
Deməsən, başını yarıb gedərəm."

Mahan qorxusundan titrədi tir-tir.
Baxın, cütçü kimi hey toxum səpir.

- Ey reyhan ətirli yolçu, qulaq as.
Başımdan keçəni deməsəm olmaz!

O, aşkar söylədi nə bilirdisə.
Çünki önündəydi eşidən kimsə.

Atlı qulaq asdı, gözündə maraq.
Əlini dişlədi, heyrət saçaraq.

Dedi: - Özünə bir "lahövlə" oxu,
Sınmış iki divin fəlakət oxu.

Kişi də, dişi də qulyabınıdır.
Adamı azdırır, yoldan sapdırır.

Qan tökür, can alır iki cadugər,
Xoruz ban verəndə qaçıb gedirlər.

Dişisi heyladır, kişisi Ğeyla.
İşləri-pislikdir, gücləri - bəla.

Dirisənsə, cəld ol, ey yazıq insan,
Şükr et, əllərindən xilas olmusan.

Buyur, min köhləni, bərk çək yügəni.
Sus, doğrayıb tökmə hər bildiyini.

Bu yel ayaqlını çap dalımca, qov!
"Tanrım!" de, bağrında sönməsin alov.

Kahanın ağzında aciz, avar
Mahan ata mindi, ya qanadlara?!

Atı elə qovdu, elə çapdı ki,
Arxada buraxdı sərt küləkləri.

Keçdilər dağların min xətərindən,
Qaya qılıncından, daş xəncərindən.

Göründü, nəhayət, ətəkdə bir düz.
Əlin içi kimi hamar, düppədüz.

Heyrət: hər tərəfdən gəlir rud səsi,
Qaval cingiltisi, bərbət naləsi.



Dörd yandan səs gəlir, hər səs bir ovsun.
- Buyur yanımıza!
- Badən nuş olsun!

Səhrada bir səbzə, bir reyhan hanı?
Minib qulyabanı qulyabanını.

Aləm div əlindən gəlmişdir zara.
Dağ çöllərə qaçır, çöllər dağlara.

Minlərcə div minib divin dalına,
Bürüyüb aləmi qeylü-qalına.

Hamsı tufan kimi torpaq sovuran.
Biri-qara zəli, biri - kor ilan.

İş ora çatdı ki, sağdan və soldan
Hay-küy ərşə qalxdı, yandı asiman.

Əl çalan, rəqs edən kimlərdir, deyin
Yanır, tüstülənir, sönür baş-beyin.

Çoxalır dəmbədəm hay-küy, bağırtı.
Mahanın az qala bağrı yarıldı.

Sovuşdu bir saat... qarşı üfüqdən
Min işıq məşəli göründü birdən.

Göründü nagəhan bir neçə zorba.
Boyları tir kimi, əlləri yaba.

Hamsı qır papaqlı, sallaq dodaqlı.
Qara, qətran donlu, zənci soraqlı.

Xortumlu, buynuzlu çöllər səfili
Özündə cəm edib öküzlə fili.

Zəbanilər kimi iyrənc, başıboş
Hər idbar əlinə bir məşəl almış.

Şax - şana vuranlar, çəpik çalanlar,
Atəş püskürənlər, beyt oxuyanlar

Cəlacil - zəng alıb ağızılarına.
Rəqs xalxıb çıxıb boğazlarına.

Çara mizrabların ritmi - qasırğa.
Mahanın köhləni qalxdı oynağa.

Mahanın dəhşətdən beyni çatlayır,
Atı qanadlanır, atı atlanır.

Boylandı, altında bir bəla gördü.
At yox, yeddibaşlı əjdaha gördü.

Dörd ayağı vardı, bir cüt qanadı.
Hələ yeddi başı - yeddi şanadı.

Kim görüb cüt qanad dördayaqlıda,
Başı yeddi olan qol - budaqlıda?!

Belimizdə ilan - köməkdir fələk,
Biz yeddi başlıya heyrətmi edək?!

Cəhənnəm əjdaha çəkir Mahanı,
Boynundan sallayıb ayaqlarını.

Necə oyunbazdı o zülmkar div,
Hər təzə oyunu min insan yeyib.

Dolaşıq ip kimi qıvrımdı, qıvrım.
Qırılıb açılır ilan, ildırım.

Mahan kölgəlikdə cılız çöp kimi,
Onu kama çəkir sellərin dibi.

Bəlkə çöp də deyil, zibildi, zibil -
Çovğun əldən salıb edir xurd - xəşil.



Ardınca sərxoş tək çapırdı hey-hey!
Enişə, yoxuşa çırpırdı hey-hey!

Top kimi fırladır, seyr et o qurdu.
Yazığın başına ayaq qoyurdu.

Əjdaha ağzından ildırım saçdı,
Sübhəcən başına min oyun açdı.

Sübh şir ağzından nəfəs alırkən
O, atdı boynundan Mahanı birdən.

O, getdi, şeypur da, hay - küy də getdi.
Zülmət qazanların qaynarı bitdi.

O div süvarisi divdən enəndə,
Div görmüşlər kimi düşdümü bəndə?!

İtirdi huşunu, yıxıldı yola.
Xəstədir, can verir, ölür az qala.

Günəş atəşindən yanır peysəri.
Özündən, aləmdən yoxdu xəbəri.

Qaynar qazan kimi daşanda beyni.
Qayıtdı yaddaşı, açıldı eyni.

Ovdu gözlərini, qalxdı ayağa.
Sağında, solunda qızıl bayrağa.

Al qana bənzəyən biyaban gördü.
Ucu, bucağı yox bir cahan gördü.

Rəngarəng qumları gör necə qızıb.
Cəhənnəmdən isti, qandan qırmızı.

Qılıncı bir başa salsalar əgər.
Fərş açıb üstünə ağ qum tökürlər.

Qanlı bayrağını açan biyaban
Nət açıb, qum töküb qan umurdu, qan!

Gecə əzab çəkib düşmüşdü bəndə.
Dirçəlib taqətə, huşa gələndə

O, qaçdı vəhşilər torxanasından.
Qəmginlər kuyinə yollandı əlan.

Bir cığır taparaq qaçır, qaçırdı.
Zəhərli havadan uzaqlaşırdı.

Elə uçurdu ki, atılmış ox da,
Qalardı yazıqdan bəlkə arxada.

Göz dikib axşama, qaralan qaşa,
Vurdu biyabanı axır ki, başa.

Çəmən, bulaq görcək aşıb daşdımı,
Qocalmış ürəyi cavanlaşdımı?

İçdi sərin sudan "Oxay!" deyərək,
Seçdi yataq yeri, ələfdən döşək.

Düşündü: "Burdaca rahatlanaram,
Axı mən tapmıram gecələr aram.

Hava qupqurudur, yol da kimsəsiz.
Məzacım sevdalı, dərdim - min dəniz.

Xatirim pərişan olmasın necə?
Öldürüb qəlbimi xəyal, düşüncə.

Bəlkə dincələrəm, uyğuya dalsam.
Xəyaldan, oyundan kənarda qalsam."

Oyanıb yol gedir, sədlər yarırdı.
Bir rahat, salamat yer axtarırdı.



Nəhayət, çatdı bir daş mağaraya.
Bir lağım enirdi çöldən oraya.

Orda min pilləli dibsiz bir quyu.
Yalnız kölgə görüb ağaran suyu.

Kəndirə dönsə də əli, ayağı
O, Yusif sayağı endi aşağı.

Dibdə dağa verdi o, arxasını.
Elə bil quş tapdı öz yuvasını.

Açdı ağuşunu ona daş yataq.
Daş örtük altında xətərdən uzaq.

Dinclik, asudəlik onu oyatdı.
Balışı çevirdi, bir daha yatdı.

Döşək gəzən əli çatmır döşəyə.
Qumda naxış salır qara ipəyə.

Birdən dirhəm boyda ağ işıq gördü.
Yasəmən qucmuşdu sanki söyüdü.

- İşıq hardan gəlir?
Baxdı diqqətlə,
Şad olan ürəyi vurdu riqqətlə.

Gördü bir baca var, burda bir baca.
Çəkir Ay nurunu... Ay xeyli uca.

Baxdı, anladı ki, nur fəvvarəsi
Ayın şöləsidir. Ayın şöləsi.

"Gərək dar deşiyi genişləndirəm,
Pəncəm, dırnaqlarım möhkəmdir, nə qəm"

Deşik genişləndi. İstəsə əgər
Çıxarar başını boynuna qədər.

Dartındı, nə gördü: gözəl bir gülşən.
Arxları dupduru, hər bir gülü şən.

Qazdı. Burda qalmaq ona ar gəldi,
Özünü bacadan çıxara bildi.

Bağmı qarşıdakı, yoxsa bir cənnət?
İrəm bağından da gözəl bir xilqət!

Təbiət, təravət, lətafət, qüdrət!
Sərvlər qiyamət, şimşadlar afət.

Meyvə ağacları bəhər, bar dolu.
Yerə baş əymədə qanadı, qolu.

Əlvan nübarları can kimi təzə.
Səfası, seyri də can verər sizə.

Bir mey fincanıdır hər yaqut alma.
Nar - əqiq mücrüsü, dər, gendə qalma.

Heyva - mişglə dolu bir topa bənzər,
Ağzı açıq qalıb gülən püstələr.

Yel əyir... şaftalı budağını tut,
Odur al - qırmızı, ağ, sarı yaqut.

"Xəlifə loğması" xumar, xuraman.
Bir cüt busə alır ondan muz - banan.

Şəkər gülüşlüdür şəkər armudu.
Hər innab budağı - dürr dolu qutu.

Əncirin balıyla badam ləpəsi
Qarışıb nə olmuş - palda badəsi.

Çıraq tək yandırıb üzüm talvarı
Qara salxımları, ağ salxımları.



Gülabı, buzəri, xəzəri üzüm,
Raziqi, məlahi, şəkəri üzüm!

Narın şirəsindən, üzüm suyundan
Ürək qüvvət tapır, qan yeni bir can.

Narıncın, turuncun dadı qənddimi,
Hər küncə gül qoyan nəxlbənddimi?

Bostan hoqqabazdır, xeyli əfsunkar -
Qovundan, qarpızdan hoqqaları var.

Sincüd, alma növ - növ, nar səbət - səbət.
Dadlı təbərxuna bənzər təbərzəd.

Elə bir cənnəti tapdı ki, Mahan.
Dünənki cəhənnəm çıxdı yadından.

Zərif şaxələri bir-bir əyirdi.
Dadlı meyvələrdən dərib yeyirdi.

Sinirdi canına hər şirin gilə,
Yeyirdi ləzzətlə, marça-març ilə.

Onu heyran qoyub hər dadlı yemiş.
Bir az səpələmiş, bir az da yemiş.

Nagəhan bir küncdən bir nərə qopdu:
- Tutun bu oğrunu! Oğrunu tutun!

Qəzəbi qaynayan bir qoca gəldi,
Gümanı əlində ağaca gəldi:

- A meyvə oğrusu, axı sən kimsən?
Neçin gecə vaxtı bağa gəlmisən?

Neçə illərdi ki, mən bu buğdayam,
Olmayıb qapımı açan, bağlayan.

Kimsən, əslin nədir, nəsəbin nədir,
Bu vaxtı gəlməkdə məqsədin nədir?

Qoca bu sözləri bir-bir sayarkən
Bədəni az qala qurudu birdən.

- Qərib bir adama - söylədi Mahan -
Azıb ayrılmışam öz diyarımdan.

Qəribəm, xilas et dara düşəni.
Qəriblər pənahı bilsinlər səni.

Gördü üzr istəyir bu cavan oğlan,
Qocanın ürəyi yumşaldı yaman.

Atdı əlindəki ağacı dərhal,
Əyləşdi, üzündə başqa bir əhval.

- Ay oğul, aç mənə sərgüzəştini.
Kimlər pislik edib, kim döyüb səni?

Bəlkə ağılsızlar zülm eləyiblər?
Nə üçün gəzirsən dalğın, dərbədər?

Mahan anladı ki, həssasdır qoca,
Könül oxşamağı sevir olduqca.

Nəql etdi başından gəlib keçəni,
- Bəsləyib, ay dədə, bəlalar məni.

Dərd çəkib təzədən dərdə düşmüşəm,
Bu qəddar fələklə çox döyüşmüşəm.

Umud ağacımı atıb odlara,
Mənim ağ günümü ediblər qara.

İndi cənnətdəyəm... qismətmiş bu da.
Bəxtimin nurunu tapdım quyuda.



Mahan bir-bir dedi əhvalatları,
Açıldı bir ömrün gizli qatları.

Bu dadlı söhbətə qulaq asdıqca
Heyrətli işlərə mat qaldı qoca.

- Təşəkkür edəsən gərək sən bizə,?
Ey ölüb dirilən canlı möcüzə!

İyrənc adamlardan xilas olmusan,
Bu cür xəzinəyə sən rast olmusan.

Qocanın gözündə ülfətin odu,
Mahan bu hörmətə minnətdar oldu.

- Əmican, o diyar hansı diyardı?
Boynuma dolanan dünən şahmardı.

O yer qiyaməti göstərdi mənə.
Yoxdu qulaq asan ağız deyənə.

Beynim tüstüləndi, cızdağım çıxdı.
Başımda od qopdu, ildırım çaxdı.

Bilmirəm, gördüyüm divdi, ya əjdər.
Halımı anlayar divi görənlər.

Min divi bəsləyən o yurd nə yurddu?
Hər biri yırtıcı qaplandı, qurddu.

Bu çəkir, o dartır, başqası vurur.
Div mənim gözümə tüstü doldurur.

Zülmətin açarı işıqmış ancaq.
Apaydın seçilir qaranlıqda ağ.

Gördüm qaradan da qaradır cahan,
Qorxdu, gözlərimin qaralığından.

Avara qalmışdım, avara, qardaş.
Dodağım qupquru, gözlərim qan - yaş.

Gah fəryad qoparır, tufan olurdum.
Gah da gözlərimi ovuşdururdum.

"La-hövlə", "Bismillah", "Allah" deyirdim.
Mən yolu getmirdim, yolu yeyirdim.

Tanrım mənə verdi zülmət bir quyu,
Sonra o zülmətdə dirilik suyu.

İrəmdən daha xoş bağ-bağat tapdım,
Mən sizi tapmaqla qol-qanad tapdım.

Dünənki vahiməm, bu günüm hara?
Qışım öz yerini verdi bahara.

- Ey qəmin çəngindən xilas olan gənc,
Nicat məbədinə qovuşan sevinc!

Bu bağdan aralı o boş biyaban
Divlər məkanıdır başdan - binadan.

Orda adam yeyir ağzıqanlılar,
O zənci sifətli biyabanlılar.

Adamı aldadır, yaxın dururlar,
Qəfilcə arxadan bıçaq vururlar.

Düzlükdən danışıb əyərlər səni,
Əl tutar, sonra da döyərlər səni.

Belədir divlərdə əzəldən adət:
Astarı kin olur, üzü məhəbbət.

Dünyada nə qədər yalançılar var,
Yetirib divləri yetirən diyar.



Divlər bu dünyaya saçır qəhqəhə.
Özü əbləh ikən gülür əbləhə.

Onların yalanı doğru biçimdə.
Zəhəri verirlər balın içində.

Bomboş xəyallardan bizə nə kömək?
Gec-tez düz əyrini mütləq kəsəcək.

Düzlük açar kimi verilib bizə,
Düzlüyün barıdır sehr, möcüzə.

Sadədil olmusan bu zatınla sən.
Uyub boş xəyala bada getmisən.

Alçağın, nakəsin bəd əməlləri
Oyuncaq eləyir sadədilləri.

Səni basmarlayıb vahimən, qorxun.
Qorxudur aləmdə ən böyük taun.

Yolu itirməklə can itirmisən.
Məgər yol verərmi yolsuza düşmən?

Ürəyin yerində olsaydı əgər,
Yeməzdi beynini qara fikirlər.

Sən div yatağından can qurtarmısan.
Dinclik şərabı iç, əl çək qorxudan.

Dünyaya gəlmisən elə bu sabah.
Səni o dünyadan qaytarıb allah.

Cənnətə bənzəyən bu bağça, bu bağ
Ürək qanı ilə sulanıb ancaq.

Bu bağda elə bir yarpaq yoxdu ki,
Sezməsin mehrimi, məhəbbətimi.

Meyvəsi məhəbbət barıdır ancaq,
Hər ağac bir bağdan yol gələn qonaq.

Ən qıt ildə belə bu bağ candı, can
Gəlirilə bütöv şəhər salarsan.

Bu bağın başında bir ambarım var -
Qızılı bir xırman, dürrü - yüz xalvar.

Mənim hər şeyim var, bircə balam yox.
Sınıq ürəyimi ələ alan yox.

Gördüm hünərməndsən, coşdum, çağladım.
Sənə oğlum kimi ürək bağladım.

Keçirim adına bu malı, mülkü
Özüm də nökərin... sən şad ol təki.

Bu tər - tazə bağda cövlan edərsən,
Dadıb min nemətdən şükran edərsən.

Gözünə xoş gələn, özün bəyənən
Bir halal süd əmmiş gətirərəm mən.

Siz verib baş-başa dövran sürəndə
Durub nazınızı çəkərəm mən də.

Ay oğul, vəfa qıl bu fərmana sən,
Əhdin əlini qoy bu peymana sən.

- Dədə, bu sözlərin yeridirmi heç?
Tikan məğrur sərvə layiqdirmi heç?

İnan, oğulluğa məni götürsən.
Sənin tək ağaya qul olaram mən.

Məni şad elədin, dilşad olasan,
Abadlıq gətirən, abad olasan!



Öpdü ağsaqqalın əlini Mahan,
Sonra əl verdi ki, bağlasın peyman.

Qalxıb ata-oğul qucaqlaşdılar.
Əhd-peyman kəsib qanad açdılar.

- Gedək!
Addımladı, irəli vardı.
Onu sağ tərəfdən sola apardı.

Gəncə nişan verdi bir uca qəsri,
İpəklə, qumaşla döşənmiş yeri.

Eyvanı baş çəkmiş səmalaradək.
Tağı - əzəmətli su ambarı tək.

Bütün divarları, yeri mərmərdən.
O xam gümüş kimi bərq vurur hərdən.

Söyüd, sərv xədəng böyrünü almış,
Geniş pişgahının üstü daralmış.

Qapı cinahında elə bir pərdə
Öpür kəmərini maviliklər də.

O Keylər qəsrinin eyvanına bax,
Tər səndəl oramı qanadlanacaq?

Şaxlardan nə qədər zivər asılmış,
Neçə dan ulduzu, ülkər asılmış.

Səndəldə gözəl bir oturaq yeri,
Taxtında nəqqaşın zümrüdü, zəri.

Gəbələr çəkilmiş taxtın üstünə,
Saçaqlar elə bil ətirli dəfnə.

- Oğul, çıx bu taxta, əyləş bəxtiyar
Orda suyun da var, çörəyin də var.

Budaqda ağ süfrə, altında kuzə.
Seç, hansı nemətdən xoşun gəlirsə.

Mən gedim, səninçün hazırlıq görüm,
Ev açım, bağında bir çələng hörüm.

Səbr et mən gəlincə, hüdudu keçmə,
Bu taxtdan, yataqdan aşağı düşmə.

Söz soruşan olsa, saya salma heç.
Sualdan, cavabdan bir yolluq vaz keç.

Aldanma kimsənin xoş qılığına,
Bənd olma mehrinə, yaxşılığına.

Gəlsəm, diqqətlə bax, gör o, mənəmmi?
Buraxma yaxına başqa həmdəmi.

Südlə şəkər kimi peymanımız var,
Gözəl yaşamağa imkanımız var.

Bağ sənin bağındır, ev də öz evin.
Yuvamız - yuvandır. Yaşa, gül, sevin.

Qorun bu gecədən, dəyməsin nəzər,
Sənə asan olar başqa gecələr.

Səni and verirəm xaliqə: sakın!
Mənim öyüdlərim hökmüdür haqqın.

Görürsən, qayışdan nərdivan da var.
Taxta çıxmaq üçün əl atsan, yarar.

Yolun bu pillədir, yoxdur başqa yol.
Qayışdan bərk yapış, qayışbaldır ol!

Sonra çək, nərdivan yuxarı gəlsin,
Heç kəs qayışbazlıq edə bilməsin.



İlanı bu gecə bənd et belinə,
Səhər qismət olar sənə xəzinə.

Gecə gec bişsə də nuş et halvanı,
Gündüzlər görərsən zəfəranını.

Boğazı tutsa da armud gecələr,
Sabah nar dişləmək sənə xoş gələr.

Qoca bunu deyib üz qoydu qəsrə,
Getdi, yer düzəltsin yeni sərvərə.

Mahan pilləkənlə qalxdı yuxarı,
Çəkdi qayışbəndi özünə sarı.

Taxta əyləşəndə bir dağa döndü,
Bütün ucalıqlar alçaq göründü.

Ətir - ənbər saçan köşkü bir reyhan,
Şimal küləyinə bənzədi Mahan.

Yaxşı süfrə açdı, o acan zaman,
Yedi ağ lavaşdan, sarı qoğaldan.

Kuzədən su içdi - saf zülal kimi,
Oxşadı zövqünü şimal küləyi.

Rum bəzəkli taxtı süzdü həvəslə,
Uzanıb dincəldi Çin fərşi üstə.

Səndəlin budağı - o kafur ətri
Sildi yaddaşından məşəqqətləri.

Baxdı pəncərədən, gözləri bağda.
İyirmi şam yanır gördü uzaqda.

Əlinə şam alıb təzə gəlinlər,
Təzə şah önündə gözə girənlər.

Qarşıdan kim gəlir? On yeddi sultan.
Ayı on yeddi yol mars ilə udan.

Hər kəsin öz donu, - özgə güldəstə.
İpək çəkmişdilər gül, şəkər üstə.

Əllərdə şam yanır, özləri fanar.
Bağdakı eyvana yaxınlaşdılar.

Şahanə bir məclis yapdılar dərhal,
Pişgahda açıldı busat, cah-cəlal.

Busatın üzəri şamlarla doldu.
Şənlik nəşə ilə üzbəüz oldu.

Onların başçısı gülüzlü pəri -
Ağ boyunbağının nadir gövhəri

Yanaşdı, məclisdə tutdu baş yeri.
Çağırdı yanına şux gözəlləri.

Şən bülbüllər kimi cəh-cəh vurdular.
Quşları havadan endirdi setar.

Qızların nəğməsi, səsi - xəyaldı,
Mahanın ağlını başından aldı.

Rəqs edən ayaqlar mizrabmı vurur?
Ev yıxan, qan salan əlləri büllur.

Yel vurdu, yaxadan ətir saçıldı.
Turunc məmələrin üstü açıldı.

Qəndmi, balmı saçır sevdalı gecə?
Gör səndəllə turunc qovuşur necə!

Turunc məmələrdən oluban dəli,
Mahan üz gözünə sürtür səndəli.



Türkülər, çalğılar - ülvi gözəllik.
Mahanın xilqəti lətif və çevik.

Dözmür, dözə bilmir, arayır çarə
Ki, atsın özünü ağacdan yerə.

Huri təbiətli qızlarla bu gün
Qiyamət görmədən cənnətə düşsün.

Yad etdi qocanın dediklərini,
Bağladı hissinin biləklərini.

Sənəmlər necə də oynaşırdılar,
Şəbədə bağlayır, qaynaşırdılar.

Xeyli əyləndilər, süfrə açdılar,
Yedilər, içdilər, ağırlaşdılar.

Süfrəyə ləl ilə dürr tökmüşdülər.
Dürrün də üstünə cəvahir, gövhər.

Od və su görməmiş ləziz xörəklər
Bəlkə müşk ilə ud, gülabla ənbər.

Qəndli, zəfəranlı zirə aşı - ov,
Zirə aşından da dadlı narpilov.

Bulğar quzuları - şiri məst edən,
Toyuq, təzə balıq təmizdi gülədən.

Ağ, yumşaq çörəklər - bərəkət rəmzi,
Ağ kafur qokulu huri sinəsi.

Qəndlə bişirilmiş suvan halvası,
Bir ağız ləzzəti, nemətlər xası

Ətirlə, gülabla, kərə yağıyla
Yoğrulmuş külçələr batmışdır bala.

Elə ki, belə bir süfrə açdılar,
Dünya gətirdilər, səfa saçdılar,

Şah üz tutdu gözəl bir nazəninə:
- Təkliyim cüt tapar indi özünə.

Səndəl ağacından ud ətri gəlir.
Səndəl budağında uda göz yetir.

Ud rəngli don geymiş ud ətirli yar,
Bürünüb səndələ ağacdan baxar.

Sarımtıl Səndələ qara ud gecə
Yapmış udumuzu səndəldən necə!

Hələ ətri gəlir damağımıza,
Söylə, can gətirsin varlığımıza.

Ağacın başında coşub çağlayır,
De bəzm səninlə ülfət bağlayır.

Dindir mehribanca, düşsün aşağı.
Bizimlə əylənsin bu axşam çağı.

Gəlməsə, bildir ki, açılmış süfrə.
Elə bənd olub ki, şah dilbər sənə,

Qonaq gəlməyincə iştaha gəlməz.
Gülnəfəs süfrəyə yanaşa bilməz.

Meyvə dər, qonaq ol ülfət bağına,
Hələ açılmamış süfrə bağlama.

Getdi köşkə sarı sevda güzgüsü.
Ağzı dar olsa da, gen - boldu sözü.

- Günaydın! - deyibən Mahanı gördü,
Ağacdan gül kimi yerə düşürdü.



Qonağın da quşu qonmuşdu ora,
Özü can atırdı o vurhavura.

Bayaqdan araçı aradığından
Araçı ardınca yüyürdü ələn.

Cavanlıq sevdası qaynar başında,
Qocanın öyüdü düşmədi yada.

Aşıb daşan zaman gənclik xilqəti,
Yada düşərmi heç pir nəsihəti?

Eşq ki, isməti aldı aradan,
Maha o şux maha kəsildi mehman.

Mahanın üzünü görən kimi mah,
Taxtın gənc şahını sandı qibləgah.

Onu əyləşdirdi öz busatında,
Saçdılar üstünə şəkər, gülab da.

Qonaqlıq tərəmi açdı gülbədən,
Bərabər yedilər eyni süfrədən.

Dilində məhəbbət, sədaqət virdi,
Ləziz tikəsini ona verirdi.

Süfrədən fərağət olandan sonra
Canı tapşırdılar yaqut camlara.

Şərbət ki, içdilər, mey ki, daddılar,
Həyanı ortadan silib atdılar.

İsmət pərdəsini cırdı xumarlıq,
Mahan mah eşqinə girişdi artıq.

Bahar qönçəsi tək bir löbət gördü,
Nazənin nazında lətafət gördü.

Ağuşu süzmədən. dələmə ən ağ,
Qənddən, süddən dadlı, yağdan da yumşaq.

Üzü qəlbə yatan bir alma təkin,
Qənd ilə gülabın içində sakin.

Ovcunda civədir sanki ağ əndam,
Sıçramaq istəyir barmaqlarından.

Qucağı bağdakı tər güllər kimi,
Çıraqda, şamdakı şölələr kimi.

Üstünə çilənmiş Ayın ziynəti.
Mahanın birə beş artdı rəğbəti.

Qəndini dişləyib şövqə dolurdu,
Balını soranda arı olurdu.

Aya sarmaşanda... çəkirdi haray
Həyadan başını yayındıran Ay.

Oturtdu dizində çinli tək gülü,
Gümüşbədən sərvi, yüz ləçək gülü.

Sıxdı əqiqinə yaqut möhrünü,
Meyin çeşməsinə yanar könlünü.

O, göz işığına, qənddan qəndinə
Bir daha eşq ilə baxarkən yenə

Gördü ifritədir qucağındakı.
Tanrı qəzəbindən yaranmış sanki.

O, bir qaban dişli camışmı idi,
Yoxsa bir əjdaha, meymun cəsədi?!

Vaz keç əjdahadan, o, əhriməndi.
Yerdən göyə qədər ağzı mədəndi.



Allah göstərməsin. o əyri qozbel
Oxu sınıq-sınıq yaydı elə bil.

Beli qövs kimi, sifəti xərçəng.
İyi, üfunəti gedər minfərsəng.

Burnu bir təndir ki, kərpic bişirər.
Ağzı boyaqçının küpünə bənzər.

Qonağı bağrına bərk basan köpək
Ayırmış ağzını timsah ağzı tək.

Öpür üz-gözünü. nələr deyirdi.
Sözüylə. gözüylə onu yeyirdi:

"- Ey başı, ayağı çəngimə keçən,
Sinəsi dişimlə yırtılmış bədən!

Atıb pəncəsini məni dişləyən.
Çənəmi, ağzımı öpmək istəyən!

Bax qılınc dişimə. nizə çəngimə.
Pəncə belə olar, diş də bax belə.

Əvvəlki həvəsin bəs necə oldu?
Atəşinmi söndü, gülünmü soldu?

Öpüş al. dodağım həmən dodaqdır.
Aydan üz döndərmə. həmən çıraqdır.

Min bir fitnə ilə şərab gətirən
Saqidən piyalə istəməzmisən?

Darğası ev yıxan oğruxanada
Olma kirayəçi. olma məbada!

Sənə bu yaraşır. ey qotur qoyun.
Açaram başına indi min oyun!

Sənə göstərməsəm dibdən də dibi,
Qoy olum o bayaq gördüyün kimi".

Mahanın üstünə çəkib həmlələr,
Beləcə coşurdu, daşırdı əntər.

Mahan yazıqlaşıb büzüşən zaman
Gördü qarşısında Ay yox, bir qaban.

Hanı gümüşbaldır, hanı o ceyran?
Önündə əjdaha, quyruqlu heyvan!

Əjdərin qır rəngli zaha qarnından
Çıxan çirkabdımı, ya zərdablı qan?

Ödü partlamış tək çığırırdı o,
Doğan qadın kimi bağırırdı o.

Söyüdü yandıran od öpüşləri
Qara qabanındı, ya ağ divindi?

Gəldi xoruz səsi, açıldı sabah,
Axır ki, rədd oldu div, aman Allah!

Zülmətin pərdəsi dünyadan qalxdı,
O pis xəyallar da aradan qalxdı.

Əsli saxsı olan saxta ləllərin
Heç biri qalmadı, qaçdılar yəqin.

Qəsrin qarşısında yıxıldı Mahan,
Yatdı, oyanmadı gün qalxanacan.

Günəş övcə qalxıb parlayan zaman
Yenə huşa gəldi o hüşyar cavan.

Göz açıb nə gördü? Dəhşətli aləm,
Cənnətin yerində qaynar cəhənnəm.



Hanı ney naləsi? Ah - nalə qalmış.
Xəyal göylərini toz-torpaq almış.

Sən demə xəyalmış mərmər qəsr də,
Bağ da, saçaq-saçaq fəvvarələr də.

Hanı tər gülüstan? Bax, min-min tikan!
Hanı yaşıl eyvan? Buxardı qalxan.

Şümşad da, sərv də quru xəzəlmiş.
Meyvələr altında əqrəb gəzərmiş.

Hanı toyuq döşü, dana budları?
Murdar cəmdək imiş, dərk elə barı.

O çəngə, rübaba geniş bax, geniş:
Cüyürün, ceyranın sümükləriymiş.

Gövhərlə bəzənmiş ipək pərdələr
Qaba bir gön imiş, dərk etsən əgər.

O, bir üfunətli, zülmət quyudur.
Sən elə bilmisən bulaq suyudur.

Yediyi xörəklər, içdiyi sular,
Saqinin verdiyi badələr ki, var -

Hamısı başdan-başa irinmiş, qanmış
Ömrümüz bəlkə də acı aldanış.

Ətirlər, çətirlər, saraylar süsü -
Fələn ayaqyolu törtöküntüsü.

Mahan öz işinə mat qalıbdır, ah.
Deyinir yenə də: "Əstəğfürullah"!

Nə orda qalmağa üzü var daha,
Nə ayağı gəlir varsın sabaha.

"Bu necə naxışdır, bu necə pərgar?
Altında qış yatır, üstündə bahar.

Dünən heyran qaldım tər gülüstana,
Bu gün yaş tökürəm möhnətsana.

Ey fələk, gör nəyə imkan verirsən
Gülü göstərirsən, tikan verirsən.

Niqabın dalında Ay üzlü dilbər,
Qaldırsan niqabı ilan görünər.

Qaldırma pərdəni, bilinər zığı,-
Əbləhin əbləhlə eşqbazlığı.

Bu Rum sənəmləri, Çin gözəlləri
Əntərmiş əslində, zənci əntəri.

Sakın! O gədaya lənət, min lənət:
Üstü ətirlidir, içi üfunət,

Sakın! Bu hamamın açılsa üstü,
Görünər altında külxan və tüstü.

Möhrə axtarıblar bəzən ariflər,
Möhrə yox, səbətdə ilan görüblər.

Qafil elə bilir yırtıq heybəsi
Ya müşk nafəsidir, ya ud kisəsi.

Bədxahlar əlindən qurtuldu Mahan,
Mən də xilas oldum həmən nağıldan.

O xeyir işlərin ardınca getdi,
Nəzir-niyaz etdi, tövbələr etdi.

Sığınıb Tanrıya təmiz qəlb ilə
Tökürdü gözündən qan gilə-gilə.



Nəhayət, dupduru bir arxa çatdı,
Su içdi, dizini torpağa atdı.

- Sən ey kimsəsizlər kimsəsi! - deyə,
Süründü torpaqda, düşdü səcdəyə.

- Aç bu müşkülləri, ey müşkül açan!
Mənə bir yol göstər, sən ey yol açan!

Yalnız sənsən açan düyünlənmişi.
Bacarmır bu işi başqa bir kişi.

Məgər tək mənəmi nicat vermisən?
Nə qədər yolsuza yol göstərmisən!

Sızladı, yalvardı öz Allahına,
Sürtdü üz-gözünü səcdəgahına.

Ah çəkdi, başını qaldıran zaman
Gördü öz şəklinə bənzər bir insan.

Gördü dan yeri tək şəfəqlənmişi,
Bahar fəsli kimi yaşıl geymişi.

- Günaydın, ey xacə, bilmirəm kimsən.
Qiymətli gövhərsən amma deyəsən.

- Gəl, tanı, mən Xızram, ey Tanrısevən,
Gəlmişəm əl verəm, tutam əlindən.

Qarşına çıxmışdır gözəl məqsədin,
Səni çatdıraram yurduna yəqin.

Əl ver, qalx ayağa, ey nura möhtac,
Qapa, yum gözünü, bir an sonra aç.

Xızrın xoş səsini dinlədi Mahan,
Dirilik suyumu tapdı nagəhan?!

Əl verdi əlinə, dağdanını aşdı?
İntizar gözünü yumdu və açdı.

Hardadır? Div onu azdıran yerdə
Təki bu gülşəndə azmasın bir də.

O, Misrə qayıtmış xarabalıqdan,
Bağın qapısını açdı həyəcan.

Nə gördü? Yas tutub dostlar susublar.
Hamsının əynində yam yaşıl paltar.

Əvvəldən sonacan nələr çəkibdir
Hamsını dostlara nəql etdi bir-bir.

Gördü dostlarını bərk sıxıb kədər,
Onun xatirinə göy geyiniblər.

O da dostlarından qalmadı geri,
Elə bil əyninə geydi göyləri.

Uydu, o da uydu çərx ahənginə,
Düşdü göy çadırlı rüzgar rənginə.

Nə üçün göy geymiş bu ulu gərdiş?
Ondan yaxşı rəngi tapa bilməmiş.

İnan, könül versə hər kim göy rəngə,
Dönər süfrəsində günəş çörəyə.

Qürsəsi günəşin qürsündən olan
Əzrəq gülünə bax, göydür binadan.

Günəş hansı yana üz çevirirsə,
O səmtə boylanır bənövşə, süsən.

Göy rəngli gülləri hindli çox istər.
Güllərə ad verib: günəşpərəstlər.



Ay üzlü gözələ şah qulaq asdı.
Sonra: - Yataq! - deyə bağrına basdı.

## BƏHRAMIN PƏNCŞƏNBƏ GÜNÜ SƏNDƏL RƏNGLİ GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ ALTINCI İQLİMDƏN ŞAH QIZININ HEKAYƏTİ

Pəncşənbə günü - ən yaxşı gündür,
Çün Müştəri kimi bəxti gülgündür.

Müşk nafəsini dan yeri açdı,
Ud gecə od tutdu səndəlmi saçdı?!

Səndəl ətri verən torpaqlar kimi
Şah çıxdı, əynində səndəl geyimi.

Çıxdı göy günbəzdən... Hey gəzə-gəzə
Gəldi səndəl rəngli təzə günbəzə.

Ona Çin gəlini, o huri soylu
Əlindən mey verdi, ya kövsər suyu?

Mey aldı Huridən Ay doğanadək,
Xumarlandı gözlər, məst oldu ürək.

Sədəf Ay sürməyi, sonsuz ümmanda
Nəhəngin ağzına min dürr atanda

Şah o badam gözlü Çin gözəlinə
Dedi: - Ürəyimi al öz əlinə!

Şadlandı Çin qızı, güldü əhvalı.
Ona xurma verdi, yoxsa şan balı.

Dedi: - Ey cahanın canı, loğmanı,
Sən ey şahlar şahı, bəşər vicdanı!

Səhrada, dəryada, dağlarda bol-bol
Qumlardan, sulardan, daşlardan da çox

Ömrün-günün olsun, ulu şəhriyar!
Sən bəxtinə memar, bəxtin sənə yar.

Ey ərzə gün kimi aydınlıq verən,
Şahlar sarayına şahlıq gətirən!

Bu qırıq nitqimdən, bağlı dilimdən
Özün bilirsən ki, çox inciyəm mən.

Mən reyhan önündə dəmir turşusu
Olsam da, qulaq as, can şəhdimdi bu.

Şadlansın deyə şah zəfəran istər,
Şənliyi, şuxluğu ərmağan istər.

Bir az sökük-tökük nitqimlə mən də
Ona dad verirəm yeri gələndə.

İnan, axtarıram sözdəki duzu,
Şahın ürəyinə yatan bir sözü.

Öpdü şah əlini günəşpərəst Ay,
Tikməyə başladı sözdən bir saray.

## HEKAYƏT

Ayrıldı şəhərdən iki dilavər,
Başqa bir şəhərə yola düşdülər.

Vardı hər birinin yol azuqəsi,
Öz suyu, öz dəni, dolu heybəsi.

Bir gənc Xeyir idi, o birisi - Şər.
Adlarına uyğun iş görərdilər.



Getdilər... İsitdi nəfəs nəfəsi.
Xeyir bilmirdi ki, yol azuqəsi

Tükənsə ac qalar. Yeyir, içirdi.
O, əkir, Şər isə tarla biçirdi.

Bəli, ərzağını qoruyurdu Şər.
Getdilər... qaynar bir düzə yetdilər.

Bu çöl alov dilli bir yanar təndir,
Orda əriyərdi hətta daş, dəmir.

Orda od özünə yer eləmişdi,
Şimal səmumunu zəhərləmişdi.

Şər xəbərdar idi: bu sonsuz düzən
Bircə damcıya da həsrətdi əslən.

Xəlvəti doldurub o, bir tuluq su
Atdı dalına ki, ehtiyat olsun.

Xeyir hardan bilsin öndə su yoxdur.
Yol gedir, sanırdı qorxusu yoxdur.

Yorğun, qaranəfəs, atəşlə dolu
Keçdilər səhrada uzun bir yolu.

Yeddi gün özlərin bərk yordular çox.
Şərin suyu durur, Xeyirinki yox.

Suyu gizlədən Şər döndü bəşərdən,
Əsla danışmadı xeyirdən, şərdən.

Xeyir baxdı, gördü haramzadənin
Meşgində suyu var - baldan da şirin.

İçir bala-bala sudan xəlvəti,
Deyirsən mey içir, ya bal şərbəti.

Təpib dil-dodağı. Təşnədir Xeyir,
Lakin nə yalvarır, nə bir söz deyir.

Sıxdığı dişinə tutub canını,
İçsə də içirdi cigər qanını.

Qurudu ciyəri, qaynadı beyni,
Gücü yox... endirə kirpiklərini.

Zöhr namazından bir azca keçmiş
Tükəndi taqəti, qaldı kirimiş.

Onun od rəngində cüt ləli vardı.
Sulu ləl... o suyun daş yeri dardı.

Ləldən görünməyən su axırdı çox, -
Göz üçün göz yaşı, ağız üçün yox.

Xeyir sulu ləli uzatdı Şərə -
Qumunda su olan zalım bəşərə.

- Yanıram... ölürəm! - dedi - rəhm elə,
Söndür atəşimi bir az su ilə.

Dirilik suyundan ver bir az içim.
Ya sat, ya bağışla. Atəşdir içim.

Bu iki ləlimi öz suyuna at,
Can verən canımı suyunla sağalt.

Allah lənət etsin, Şər bəd danışdı,
Elə öz adından bir kitab açdı,

Dedi: - Quru daşdan bulaq yonma gəl.
Nə özünə pis ol, nə mənə əngəl.

Mənə ləli versən bu xarabada,
Alarsan, elə ki, çatdıq abada.



Dil tökmə, mən hara, aldanmaq hara?
Mən divin özünü salaram tora.

Mənə möhrə gəlmə, hiylədən sakın.
Çatmaz mənimkinə hoqqabazlığın.

Vaz keç bu kələkdən, qaradan, ağdan.
Mənimlə qumardan, nərd oynamaqdan.

Verməyəm suyumun damlasını da,
Tökərsən üzümün suyunu sonda.

Mən burda götürsəm iki gövhəri,
Şəhərdə yəqin ki, alarsan geri.

Sənin elə dürrün gərəkdir mənə.
Geri qayıtmasın bir də yerinə.

- O hansı gövhərdir, ey vələdizna.
Gövhəraxtaranın qoyum ovcuna?

Şər dedi: - Cüt gövhər iki gözündür.
Hər əzizdən artıq cüt əzizindir.

Alıram, sat mənə, tök gözlərini.
Yoxsa su içməkdən çək gözlərini!

- Məgər o Tanrıdan heç utanmırsan?
Buz suyu alova, oda satırsan?

Tutalım, lap suyun dadlıdı bal tək.
Gözlərimi tökmək nəyinə gərək?

Çıxarıb gözümü sən diri-diri,
Yüz bulaq da versən, bunun nə xeyri?

Sən get öz suyunu lələ, dürrə sat,
Su verib, göz almış de, hansı cəllad?

Götür var - yoxumu, al ləlimi sən,
Üstəlik kağız da verim dilimdən.

And olsun Tanrının böyüklüyünə:
Hələ sevinərəm verdiyin hökmə.

Dəymə gözlərimə, - səadətimə
Soyuq suya görə soyuqluq etmə.

Şər dedi: - Söhbətin bir əfsanədir,
Susuzun etdiyi boş bəhanədir.

Nə gövhər, nə də ləl, göz gərək mənə,
Ləli mən özüm də verərəm sənə.

Xeyir bircə ovuc su içmək üçün
Bəlkə çeşmə tökdü çeşmindən o gün.

Gördü məhv olacaq, yoxdur bir imkan,
Canı əldən gedir can yanğısından.

Can atdı buz suya yanar varlığı.
İki qat yanğıdır can üstə yanğı.

"- Dözmürəm, get! - dedi - bir ülgüc gətir.
Dözmürəm, əvvəlcə bir içim su ver!

Dözmürəm, onsuz da ölüm günüdür.
Çıxar gözlərimi, yanqımı söndür!"

Zənn etdi, gözünə dəysə də bıçaq,
Bir ümid işığı bəlkə doğacaq.

Şər təşnə torpağın üstünə getdi,
Tez qapıb ülgücü, cərrahlıq etdi.

İki göz çırağı - işıqlı, təmiz.
Çıraq keçirməyə can atan xəbis



Nərgizin üstünə tökdü qızıl qan,
Gövhəri qopardı ən uca tacdan.

Bir cüt incisini verdi zavala,
Ona su verməden düzəldi yola.

Malını, pulunu, dürrünü çaldı,
Getdi, gözsüz cavan səhrada qaldı.

Nəymiş, anladımı Şərin şər adı?
Xeyrindən-şərindən xəbər tutmadı.

Öz qanı içində çırpınır özü,
Özünü görməyə vardımı gözü?

O, görə bilsəydi özünü gendən,
Bəlkə də ölərdi qorxudan, qəmdən.

Mətin bir kürd vardı - dövlətli, qoçaq.
Qurdlar afətindən sürüsü uzaq.

Mülkündə həmişə xeyir, bərəkət.
Heç kəsdə yox idi o boyda sərvət.

Səkkiz qohumu da azad, firavan.
O, varlı... özgələr yoxsul, lüt-üryan.

Qulyabanı kimi biyaban gəzən,
Aranda əyləşən, dağa tələsən

O çöldə, bu çöldə sürü otaran
Kürd ələf dalınca qaçardı hər an.

Harda içməli su, göy otlaq vardı,
Orda iki həftə məskən salardı.

Ələf qurtardımı, tədbir görərdi,
Sürünü başqa bir səmtə sürərdi.

İki gün idi ki, şir pəncəsini
O yerə qoymuşdu bu yaz nəsimi.

Bu kürdün çox gözəl bir qızı vardı -
Türk gözlü, hind xallı şux bir nigardı.

Naz ilə bəslənmiş bir sənəmdi ki,
Sərvə bənzəyirdi incə qaməti.

Ağlıqda xam gümüş, şirinlikdə bal,
Zərgər qutusuydü o Ay gülcəmal.

Zülfünün kəməndi ətəyindəndi,
Ayın öz boynunda Ayın kəməndi.

Qarğa qanadından qara saçları -
Bənövşə nəfəsli bahar rüzgarı.

Hamını məst edən sərxoş qəmzəsi
Ovsundu, bəlkə də ovsun badəsi.

Xalq əsir olmuşdu Babil səhrinə,
Onun Babil kimi tilsimlərinə.

Ay işıq alırdı gül cəmalından,
Qaranlıq gecələr - qara xalından.

Qənd qıran püstəsi gör nə qədər dar -
Öpüş qənd ağzına hardan yol tapar?

Bir baxın sallanan o Ayqabağa
Getdi balıq kimi su axtarmağa.

Yoldan xeyli uzaq bir bulaq vardı,
El həmən bulaqdan su aparardı.

Naxışlı kuzəni aldı nazənin,
Səmtini bulağa saldı nazənin.



Doldurdu kuzəni həmən bulaqdan,
Zövq aldı xəlvəti su daşımaqdan.

Eşitdi uzaqdan yaralı bir səs.
Kimdi nalə çəkən, hansı kəmnəfəs?!

Kürd qızı yollandı nalə dalınca.
Nə gördü? Baş qoyub bir daş balınca.

Burda çabalayır xəstə bir cavan.
Üzü, əl-ayağı başdan-başa qan.

Ovcunda hey sıxır qanlı bir daşı,
Tanrını səsləyir hər yalvarışı.

Unutdu büsbütün nazənin nazı.
Yanaşdı xəstəyə o çöllər qızı.

- Kimsən, ey zavallı? Nədir bu gərdiş?
Kim səni qanına qəltan eyləmiş?

Hansı xəyanətkar, ay qaragünlü,
Sənə rəva görüb bu boyda zülmü?

Dedi: - Ey göylərdən enmiş mələkə,
Sən pəri qızısan, hurisən bəlkə?!

Çox oyunlar gəlib mənim başıma.
Bir azdan olarsan agah, aşina.

Yanğıdan ölürəm... bir içim su ver.
Dolanır başıma bu səma, bu yer.

Bir udum su versən, xilas olaram.
Yoxsa mən ölürəm... kəsilib çaram.

O baldodaq saqi, nicat açarı
Uzatdı kuzəni susuza sarı.

Od ciyər buz suyu gör necə içdi,
O soyuq şərbətdən içdikcə içdi.

Bir azca dirçəldi üzülmüş canı,
Önündə göz nuru, göz çırağbanı.

Yaralı gözləri yerinə qoydu:
- Ey Tanrı, hamının sənsən umudu...

Azca sıyrılsa da gözün pərdəsi
Piydən ayrılmayıb, gördü, giləsi.

Gördü qüvvətlidir ayaqları da,
Aparmaq olardı bəlkə piyada.

Gözü göz piyinə qoyub bağladı,
Qolundan yapışdı qolu-qanadı.

Bələdçi nazənin çıxarıb yola
Ona həmdəm oldu, verib qol-qola.

Onların binəsi bir azca uzaq,
Getdi, yaralıya olaraq dayaq.

Çatdılar. Binəyə gətirdi Xeyiri.
Oxşadı xəstəni ülfəti, mehri.

Çağırdı nökəri, onu əlbəəl
Verdi xidmətçiyə nazənin gözəl.

- İncitmə! - söylədi - bir azca yavaş
Apar qapımıza qonağı birbaş.

Özü anasının yanına gəldi,
Olub keçənləri deyib kövrəldi.

- Bəs neçin buraxdın onu əlindən?
Neçin gətirmədin evə gələndə?



Qeydinə qalardıq, çarə qılardıq,
Bəlkə də bir azca rahat olardı.

Dedi: - Gətirmişəm, qalıbsa canı
Gələr indilərdə, açar qapını.

Xəstəni qapıya gətirən nökər
Apardı yatağa, dedi: - Nəfəs dər.

Önünə ağappağ süfrə sərdilər,
Ona isti şorba, kabab verdilər.

O istidən bişən soyuq nəfəsli
Az yedi... inlədi: - Cahan qəfəsmi?

Səhradan qayıtdı kürd axşam evə,
Bir az aclığını öldürsün deyə

Yanaşdı süfrəyə... birdən nə gördü,
Yataqda bayılmış bir xəstə gördü.

Qarışdı səfrası. Xəstə yaralı
Həyatdan aralı, ağırdı halı.

- Hardandı bu xəstə? Nədir muradı?
Neçin əldən düşüb, sınıb qanadı?!

Heç bilən vardımı bu qəziyyəni,
Xəstənin başında qopan şivəni?

- Doğranmış - dedilər - Ayı ulduzla,
Damarlı əqiqi iti almazla.

- Yox, belə qalmasın zavallı xəstə,
Yarpaq qoymalıyıq gözünün üstə.

Obanın başında Zorbulaq ki, var,
Üstündə bir ağac çoxdan bərqərar

Onun nəfəsindən sağalar xəstə,
İki budağı var bir gövdə üstə.

Budaqlar arası xeyli genişdir,
Yarpağı çox gözə şəfa vermişdir.

Tələsin, gətirin bir neçə yarpaq,
Əzək, canındakı suyu çıxardaq.

Xəstənin gözünə sürtək yavaşca,
Belə bir məlhəmdir çarəsi ancaq.

Məlhəmin böyükdür sehri, əsəri.
Məncə şəfa tapar gəncin gözləri.

Huri zivəridir o yaşıl yarpaq,
Sönmüş bəbəklərə çıraqdır, çıraq.

Birinci budaqda hər yaşıl yarpaq
Hələ çox gözləri nurlandıracaq.

İkinci şaxənin məlhəmi də zor,
Səri xəstələrin əlacı odur.

Kürd qızı elə ki, aldı bu sözü,
Zor bulağa sarı can atdı özü.

- Ata, yalvarıram, bərabər gedək,
Bu zavallı gəncə bir əlac edək!

Gördü qızcığazın yalvarışını,
Sildi göz yaşını. Çatdı qaşını.

Getdilər. Topladı bir ovuc yarpaq.
- Xəstəni ölümdən bu, qurtaracaq!

Qız tələm-tələsik yarpağı aldı.
O qədər döydü ki, puçalı qaldı.



Süzdü, təmizlədi bir Loğman kimi,
Xəstənin gözünə qoydu məlhəmi.

Yaxşıca sarıdı ağ tənzif ilə,
Xəstənin əhvalı ağırdı hələ.

Dikib gözlərini uzaq baxtına
Baş qoydu balışa, səndəl taxtına.

Gözünün üstündə yarmağın yağı,
Beşcə gün uyudu başı sarğılı.

Gəldi bişinci gün o gümüşbədən,
Götürdü sarğını onun gözündən.

O gözlər yenə də çilçıraq oldu,
Yenə əvvəlki tək sappasağ oldu.

Sübh çağı açılan cüt nərgiz təkin
Açıldı gözləri o bəxtəvərin.

Dəyirman öküzü göz sarğısından
Qurtuldu.
- Kürd qızı, xilaskarımsan!

Sağ ol!

Sıxıntıdan çıxdı ev əhli.
Ürəklər qızıl gül, üzlər fərəhli.

Kürd qızı çox çəkib onun dərdini,
Axırda olmuşdu yaxın həmdəmi.

Elə ki, açıldı sərvin nərgizi,
Çıxdı qaranlıqdan cüt gövhər gözü.

Mələkə yenidən bənd oldu ona,
Qoydu ağ əlini isti alnına.

Xeyir də bu qıza mehriban oldu,
Lütfünə, mehrinə candan vuruldu.

Tamam görməmişdi bugünə kimi,
Bu gün anladı ki, odur həkimi.

Şirin cəh-cəhini eşitmişdi çox,
Mehri, mərhəməti lütfündən də çox.

Könülü könülə bağlamışdılar,
Qoşa irmaq kimi çağlamışdılar.

Xeyir dayanardı önündə kürdün,
Kəmər bağlayardı bir xidmət üçün.

Ona hayan idi işdə, əməkdə
Qoyun otarmaqda, dəvəçilikdə.

Sürünü gözlərdi qurd balasından,
Bəslərdi irili, xırdalı heyvan.

O çöllər dolanan biyaban kürdü
Xeyirin əllərində bərəkət gördü.

Dedi: - Sərvətimin sənsən hakimi,
Sən mənə əzizsən övladım kimi.

Artır gündən günə marağım mənim,
Kim sənin gözünə kəsildi qənim?

Hansı başıbatmış, kor vələdizna
Sənin gözlərini tökdü ovcuna?

Xeyir gizlətmədi olub keçəni,
- Qanıma bələmiş - dedi - Şər məni.

Yandım, kabab oldum çölün düzündə,
Ondan su istədim, əl atdı fəndə.



Dedim: - Al ləlimi, bir içim su ver!
- Yox! - dedi - bambaşqa ləlin gərəkdir.

Ülgüc götürübən dürrümü deşdi.
Cibdəki dürrüm də əlinə keçdi.

Heç su da vermədən əkildi namərd.
Elə ki, dinlədi bu dastanı kürd

Deyrin rahibi tək başına döydü.
Sanki tən qönçəni bir tufan əydi.

Bildi nələr çəkib iblisdən mələk. -
Cəhənnəm əhlindən cənnət əhlı tək.

Sən demə adı tək xeyirmiş Xeyir.
Kürd ona "Göz nurum!". "Əzizim!" deyir.

Onu göz üstündə saxlamışdılar.
Durub xidmətində nazənin nigar.

Ona qulluq edir üzü niqablı.
Su versə, od tutur sular sonası.

Qız ona qaytarıb canı, cahanı.
Ona əsir düşüb təzədən canı.

Qulluq edir əziz dürr xatirinə
İnəyə, qoyuna, dəvələrə də.

"- Mümkünmü qovuşaq, layiqmi məgər
Mənim tək müflisə o ülvi dilbər?

Bu qədər camallı, kamallı qızı
Mümkünmü cehizsiz bir yoxsul alsın?

Mən necə can atım qohumluğa ki,
Hər gün ağzımdadır onun çörəyi?!

Yaxşı olmazmı ki, birdəfəlik mən
Çıxım bu obadan, qurtarım dərddən?!"

Bir axşam səhradan evə dönəndə
Qız onu divanə, dəli edəndə

Hiss etdi: bağrını dərd gəmirəcək,
Xəzinə üstündə bir dilənçi tək.

O, susuz... önündə dirilik suyu.
Su içir.. axtarır tamam başqa su.

Bağrından sıçrayan göz yaşları - qan.
İçdi göz yaşını, güldü gülüstan.

" - Sən ey qəribləri saxlayan dədə!
Qəriblər nazını çox çəkdin, yetər.

Gözümün nurunu qaytardın mənə.
Canımı, ruhumu qaytardın mənə.

Çox çörək yemişəm süfrəndə düzü,
Çox əzizdi hətta tör-töküntüsü.

Zəhmətin, alnımda damğan böyükdür.
Sənə təşəkkürüm çiynimdə yükdür.

İçimi, çölümü yoxlasan əgər,
Qanımdan süfrənin gül ətri gələr.

Mən necə əyləşim süfrən başında,
Başımdan keçərəm sənin qarşında!

Qonağın olmaqdan bıkdım, yoruldum.
Sən xidmət göstərdin, mən xəcil oldum.

Verdiyin nemətlər üstündən üstün.
Sağ olun! Qarışıb oduma tüstüm.



Mənə pay göndərsin Tanrım feyzindən
Barı yüz borcumdan birin verim mən.

Sizdən ayrı düşmək ağır olsa da.
Mənə rüsxət verin, düzəlim yola.

Çoxdan ayrılmışam vilayətimdən,
İşimdən, gücümdən, qənaətimdən.

Niyyətim budur ki, sabah dan üzü
Çıxım, mənzil seçim öz yönümüzü.

Səndən ayrılsam da, aldığım nəfəs
Qapının tozundan ayrıla bilməz!

Sən uzaq tutmazsan ey ülfət kanı,
Səni canı bilib uzaqlaşanı.

Mənə halallıq ver, aç qanadını,
Bir gün doğruldaram etimadını".

Xeyir səcdə qıldı nur beşiyinə.
Yox, od vurdu kürdün ev-eşiyinə.

Evə şivən saldı kürd ağlaşması.
Sağa da sola da çatdı sədası.

Kürd ağlayır... qızı özündən betər.
Qurudu damaqlar, yaş tökdü gözlər.

Sanki su idilər, lapdan dondular.
Məgər qəbr üstünə gəlib qondular?

Qoca kürd başını qaldırdı, birdən,
Otağı boşaltdı xidmətçilərdən.

Xeyirə xitab etdi: "- Ey şux, mehriban,
Şirboğan, ev quran, sıxılqan cavan!

Fərz elə: şəhərə burdan gedirkən
Bir ox da vurdular, neyləyəcəksən?

Sənə nazü nemət, sultanlıq çatır.
Yaxşı da, yaman da öz ovcundadır.

Ər kişi cilovu nakəsə verməz,
Dostunu düşmənə satıb yürüməz.

Nemətim, sərvətim, var-dövlətim çox,
Bir qızımdan savay arxam-elim yox.

Ona pis söyləsəm insafdan olmaz.
Evtikən, işcidir... safdır o almaz.

Necə gizlənsə də müşk nafədə
Yenə rayihəsi çatır aləmə.

Qıza meylin olsa, əsirgəməz can.
Bizə canımız tək əziz olarsan.

Kürəkən seçərəm səni özümə,
Sən günəş olarsan qız gündüzünə.

Qoyundan, dəvədən hər nəyin varsa,
Seç götür... sahib ol bunca mirasa.

Sizin aranızda köç vaxtınacan
Mən də yaşayaram bir az kamiran".

Xeyir ki, eşitdi bu sözü kürddən,
Önündə qapandı səcdəyə birdən.

Söhbətə şadlıqla xitam verərək
Asudə yatdılar gecə sübhədək.

Səhər kəmərini bağladı rüzgar,
Qızıl zınqırovlu xoruz çəkdi car.



Humayun taleli gün doğdu... tanı -
Əyləşdi taxtına şərqin sultanı.

Kürd sevinclə baxdı öndə ağ günə,
Başladı nikahın tədarükünə.

Kəbir qovuşmanın ilkin şərtidir,
Övlad toxumları ondan göyərir.

Kürd qızı tapşırdı mərd igidinə,
Zöhrəni seyr edən Ütaridinə,

Dirilik suyunu tapdı o təşnə,
Günəşi ilk dəfə əmdi şükufə.

Baldodaq saqisi verdi mey, gülab,
Kövsər suyundan da yaxşı bir şərab.

Dedi: - Bulaq suyu iç... bir az soyu.
Üçtündən də verdi dirilik suyu.

Ömürlük qovuşub qucaqlaşdılar.
Dərddən, kəm-kəsirdən bir azca kənar.

Hərdən ötənləri saldılar yada.
Sevgi yavanı da gətirir dada.

Kürd hər nə yığmışdı neçə qərinə
Ömürlük tapşırdı əzizlərinə.

Sürülər, naxırlar, beşik, ev-eşik
Hamsı Xeyirə qaldı... qoy çəksin keşik.

Bir dəfə arana köç eləyəndə,
Şəfa ocağına üz tutdu bəndə.

Səndəl ağacının yanına gəldi,
O, yenə yamyaşıl, məğrur, gözəldi.

Çoxlu varpaq üzdü budaqdan şən-şən,
Ancaq birindən yox, hər ikisindən.

Yarpaqla doldurdu cüt kisəni o,
Dağ aşan dəvənin belinə qoydu.

Biri çarəsiydi ürəkkeçmənin,
Bir göz dərmanı, - günəşin sənin.

Kisənin ağzını möhkəm bağladı,
Dərmanı gözlərdən gizli saxladı.

Nəhayət, döndülər çöldən şəhərə.
Eşitdi şah qızı tutulub sərə.

Necə dava-dərman edirdilərsə,
Qız şəfa tapmırdı, heyif, nədənsə.

Elmdən bəhrəli bütün həkimlər
Şöhrət umuduyla edirdi səfər.

Pərinin canından div afətini
Çıxarmaq istəyən birmi, ikimi?

Hamsı aciz qalıb dururdu gendə,
Mat, məəttəl idi divin özü də.

Bircə şərt kəsmişdi padşah əzəldən:
"Alacaq qızımı düz əlac edən.

Damadlıq şərəfi verəcəm ona,
Qızım qovuşacaq öz Loğmanına.

Lakin hər kim uyub qız camalına,
Yol aça bilməsə xoş iqbalına,

Bir Türk qılıncıyla alıb intiqam,
Başını boynundan qoparacağam".



Gördülər qız tapmır öz Loğmanını,
Şah neçə həkimin aldı canını.

Həm şəhər əhlindən, həm qəriblərdən
Yüz-yüz həkim başı kəsildi dibdən.

Bütün vilayətə yayıldı xəbər.
Qazanc istəyilə çapıb gələnlər

Öz qanı ardınca getdi piyada.
Başını sarayda tez verdi bada.

Xəbərdar olunca Xeyir bu işdən.
- Sağaldaram - dedi - qızı yalnız mən!

Bir adam yolladı şaha xəbərə:
- Yalnız mən qoyaram nöqtə nəştərə!

Şahın çatdıraram şərtini sona.
Qızı sağaldaram haq rizasına.

Tamahdan, nəfsdən uzağam, uzağ.
Məsləhət gördüyüm dərmanı ancaq

Tanrı xatirinə verəcəm qıza.
Əlac tapa bilsəm o əlacsıza

Tanrım özü verər mükafatımı,
Dilində göyərdər mənim adımı.

Şah sakit dinlədi ovsunu, virdi.
Əlini öpməyə icazə verdi.

- Sağaltsın xəstəni, görsün işini.
Onda hiss eləyər nəvazişimi.

Xeyir vardı, gəldi şah qulluğuna.
- Sən ey yaxşı kişi! - şah dedi ona. -

Söylə, adın nədir?
- Xeyirdir adım.
Doğdu bəxt ulduzum, Xeyir yarandım.

"Falım yaxşı çıxdı", - sultan sevindi.
Dedi: - Ey xeyirxah, çarə qıl indi.

İşə sal əzmini, məharətini,
Ağ üzün göstərsin aqibətini!

Şah onu tapşırdı bir məhrəminə,
Xeyir gəldi qızın qəsr aləminə.

Gördü bir günəşdir o sərv - gülbədən,
Sərvi söyüd olub sərin yelindən.

Gecə dincəlməyən, gündüz yatmayan,
Şir tək həyəcanlı, şəhla gözlü can!

Şəfqətli ağacın göy yaprağından
Bir az gətirmişdi bu cavan Loğman.

Əzərək suyundan şərbət düzəltdi,
Həm soyuq, həm şirin, dadlı, ləzzətli.

Qız içdi, söylədi: - Gözəl şərbətdi.
Beyninin tozları bir anda getdi.

Uzandı yatağa illər xəstəsi,
Bitmişdi biryolluq ürəkkeçməsi.

Necə çiçəkləndi o gülgün bahar,
Çəkildi başından qorxulu tozlar.

Saraydan çıxaraq o canlı cənnət
Evlərinə sarı üz qoydu xoşbəxt.

İntizar kəslərə heç nə demədən
Uyudu üç gecə o şux gülbədən.



Yeməyə başladı ayılanda o,
Gözləri - səadət şöləli alov!

Şaha xəbər çatdı: - Gözlərin aydın!
Yüyürdü saraya şah ayaqyalın.

Gördü ağlı, huşu yerli - yerində
Taxtına əyləşib qız öz qəsrində.

Torpağa üz sürtüb dedi hökmran:
- Ey ağıldan başqa misli olmayan!

Nasılsan, necəsən? Bəxtin ağ olsun.
Şər, xəstəlik səndən qoy uzaq olsun!

Atası nə qədər təvazökarmış,
Qız utanıb dedi: - Alqış, min alqış!

Şah eşiyə çıxdı pərdəsaraydan,
Kədəri damladı, sevinci ümman.

Qız öz kənizini çağırıb dedi:
- Atama tez çatdır sən bu söhbəti.

Şahlıq dəftərinə söz yazıb Allah:
Dürüst olmalıdır öz əhdində şah.

Başlar üzərində qılınc tutanda
Şərtə əməl etdi sultan bir anda.

Taca layiq olan başlar da gərək
Elə vaxtındaca alsınlar çələng.

Kəsib doğramaqda gecikməyən şah
Tacverme vaxtında ləngisə - günah!

Yüz başı doğradı iti qılıncı,
İndi də bir başı ucaltsın tacı.

Məni şəfqətilə sağaldan insan
Bağlı düyünləri açandır, inan.

İnan, ondan başqa dünyada heç kəs
Sənə damad, mənə ər ola bilməz!

Şərtə əməl etmək şaha yaraşır,
Ürək öz əhdindən dönürsə, çaşır.

Elə şah özü də düşündü bu cür,
Əhdə vəfa qılmaq kişi hökmüdür.

Şahın hüzuruna aparmaq üçün
Xeyiri yol üstə tapdılar bir gün.

Onu göydən düşən gövhər sandılar,
Saraya birlikdə qanadlandılar.

- Aləmin ən ülvi övladı, əhsən!
Neçin öz bəxtindən üz gizlədirsən?

Ona öz əynindən xələt verdi şah,
Bəlkə bir ölkənin bahası, pah-pah!

Hələ qızıl kəmər, həmayil, gövhər.
Ona neçə-neçə ziynət verdilər.

Şəhəri bəzədi şəhərdəkilər.
İpək pərdələrin saçaqları zər.

Ucalıqdan baxdı o dilbər sona
Bütöv Aya bənzər adaxlısına.

Çevik, çinar boylu, ağ üzlü cavan,
Sağlam, müşk saçlı, gözəl bir oğlan!

Şaha damad olan Xeyir bəxtəvər,
Ey kaş, xəbər tutsun, kor olsun da Şər.



Tapdı xəzinəni sultanın əli,
Onun pak möhrünü sındırdı, bəli.

Qol-boyun məhəbbət canda bir oldu,
Dilxoşluq, gözəllik naxışı tutdu.

Şahın möhtəşəm bir vəziri vardı.
Xalqının əlindən tutan vüqardı.

Bir qızı vardı ki, qarğa qanıyla
Bəzənmiş qar kimi pakizə, ələ.

Çiçək mərəzinə tutulmuşdu qız,
Gözləri çiçəkdən sönmüş cüt ulduz.

İcazə istədi şahından vəzir,
Qıza nicat versin damadı Xeyir.

- Sağaltsa, verərəm qızımı Xeyrə.
Xeyir işıq saçdı sönmüş ülkərə.

Üçüncü zövcə də şad etdi gənci,
Deşdi neçə gövhər, neçə saf inci!

Üç gəlin erkəyi qazandı sanki
Keykavus taxtını, Kəsra tacını.

Gah vəzirin qızı həmdəmdi ona,
Əylənib çatırdı arzu-kamına.

Gah onu qucurdu başqa bir saray,
Şah qızı - günəşdi, vəzir qızı - Ay.

Gah da kürd qızını məst eləyirdi.
Udur, üçünü də mars eləyirdi.

Xalqın ürəyinə girdi, nə girdi.
Xalq, övladı bilib onu sevirdi.

İqbalı, amalı, cəlalı, baxtı
Ona bəxş elədi tac ilə taxtı.

Həyatdan getsə də ölkənin şahı,
Xeyir taxta çıxıb oldu pənahı.

Saldı öz adına şəhər mülkünü.
Alnında şahlığın günəşi, günü!

Bir sabah çıxmışdı kef üçün bağa.
Vermişdi güllərlə dodaq - dodağa.

Yolda kimi gördü? O cəllad Şəri,
Şəri öz başına bəla bəşəri.

Tanıdı cühudu, azğınlaşanı,
Başqa bir cühudla xosunlaşanı.

Əmr etdi, eşitdi silahlı adam:
- Tutub gətirirsən onu bu axşam.

Bağda əylənirdi o, kef üstündə,
Kürd əlində qılınc durmuşdu öndə.

Alnı günəş kimi geniş Xeyiri
Görəndə diz çökub Şər öpdü yeri.

- Yalnız öz gününə ağlayan kifir,
Sənin adın nədir?
- Adım Mübəşşir.

- Adım Mübəşşirdi, səyyaham, bəli, -
Hünər dünyasında hamıya bəlli.

- Öz adını söylə, ey şər yolçusu,
Və murdar üzünü öz qanınla yu.

- Yoxdur başqa adım. Yalnız Mübəşşir
İstər doğra məni, istərsə cam ver.



- Alçaq, haramzadə! Başını qaldır,
Canisən, hər kəsə qanın halaldır,

Gizlənə bilməzsən, Şər oğlu Şərsən,
Sən özün adından min qat betərsən.

Su uman dostunun gözün tökmüsən.
Məgər həmən tülkü sən deyilmisən?

O cür cəhənnəmdə, ay iblis, ay div,
Çıxartdın gözünü, su da vermədin!

Çaldın göz dürrünü, kəmər dürrünü, -
Gör necə yandırdın qaragünlünü.

Dürrünü çaldığın o susuz mənəm,
Sənin bəxtin öldü, mən dipdiriyəm.

Sən məni öldürdün, allah qıymadı,
Xoşbəxti kim saxlar? Allahın adı.

Tanrı dərgahına sığındı baxtım,
Budur qızıldandır tacım və taxtım.

Vay sənin halına qurdlu kötüksən,
Şərsən, can qurtara bilməyəcəksən.

Şər baxdı, tanıdı... yalvardı Ona,
Diz çökdü, qapandı ayaqlarına:

- Aman ver, öldürmə, görsəm də pis iş,
Mənə özü vermiş bu işi gərdiş.

Sənin adın Xeyir, mənimki Şərdir,
Məni hərləndirən qəza - qədərdir.

Mənim adım da Şər, əməlim də şər,
Adam öz adından necə gen düşər?

Sənin adın Xeyir, əməlin xeyir.
Soruş, adın sənə indi nə deyir?

Bu incə mətləbi düşündü Xeyir,
Öldürmək fikrindən daşındı Xeyir.

Azadlıq tapınca, Şər uça-uça
Getdi, vida deyib qansız qılınca.

Qaniçən kürd isə getdi dalınca,
Onu qonaq etdi qəfil qılınca.

- Xeyir xeyirxahdı, amma sən şərsən,
Gərək gəbərəsən elə burda sən.

Tapdı axtardığı iki gövhəri,
Altda gizlədibmiş, çəkib kəməri.

Kürd bağa qayıdıb üz tutdu Xeyirə:
- Alın bunu... çatır gövhər gövhərə.

Xeyir baxdı, gördü həmənki dürrdü,
Ovcuna qoyaraq şad etdi kürdü.

Gövhəri pak olan aldı gövhəri,
- Bu gövhər kim üçün qayıdıb geri?

Elə şəxs üçün ki, odur gündüzüm,
Ondan işıq alıb bu iki gözüm.

Xeyirin hər işi xeyir-bərəkət.
Çox-çox xeyir gördü ondan məmləkət.

Bəxti yar oldu bığıburmaya,
Daşı lələ dönər, çöpü xurmaya.

Bəxt ona bəxş etdi bir qızıl çələng,
Dəmiri dürr oldu, palazı ipək,



Yurda şölə saldı haqq-ədaləti,
Qüdrəti bərkitdi hakimiyyəti.

Şəfa yarpaqları sanmayın soldu,
Neçə ağır dərdin dərmanı oldu.

Hərdən bir müşgülə çarə dalınca
Çapar, yanaşardı həmən ağaca.

Atdan düşən kimi yurdu öyərdi,
Yerə salam verib alqış deyərdi.

Əynində səndəli don vardı onun,
O səndəl ətirli ağaca uyğun.

Səndəl tapmaq üçün çölə gedərdi,
Yalnız səndəl rəngli paltar geyərdi.

Səndəlin nəfəsi can dərmanıdır,
Hər bir asayişin ruhu, canıdır.

Candan hərarəti, cigərdən odu,
Başdan ağrını da aparan odur.

O torpaqdan çıxan qızıldı sanki,
Səndəl rəngindədir yerin də rəngi.

Çin qızı bitirdi hekayətini,
Dadlı, qırıq-qırıq söz-söhbətini.

Onu bəd nəzərdən gizlətdi soltan,
Yer verdi canının tən ortasında.

## BƏHRAMIN ADINA GÜNÜ AĞ GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ YEDDİNCİ İQLİMDƏN ŞAH QIZININ HEKAYƏTİ

Salxım söyüd kimi mavi səmalar,
Üzünü günəşlə ağartdı aşkar.

Adına günüydü, ağ geyindi şah,
Qarşıda ağ günbəz, - ağappaq dərgah.

Onun iqlimində, beşinci bürcdə,
Təslim zəngi çaldı Zöhrə beş dəfə.

Zəncilər ağappaq Xotən Türkünə
Basqın etməyincə, sürdü təntənə.

Aya, ulduzlara nur verib yenə,
Gecə sürmə çəkdi göyün gözünə.

Xoş gecə mehindən, dan şəfəqindən
Can almış gülbədən gör nə qədər şən.-

Ət ərğənun kimi, sən ey gülnəfəs!
Əks-səda versin bu mavi günbəz.

Qız o qızıl taxta alqışlar dedi,-
Sən ey böyüklüyün ülvi məbədi!

Cüssənə yaraşır dağ kimi taxtın,
Parlasın Ay kimi, Gün kimi baxtın.

Məndən nağıl umur şah xudavəndə,
Hər nə var sinəmdə, deyərəm mən də.



## HEKAYƏT

Qarılar qurd olur, quzuydu anam.
Saflığın, paklığın özüydü anam.

Deyərdi: - Bir dostum, yaşıdım vardı.
Evi abad, bir gün qonaq apardı.

Bir süfrə açdı ki, mənim qarşımda,
Sevdası hələ də durur başımda.

Külçə, zirəpilov, quzu, ağ çörək,
Quş əti, şorqoğal, cürbəcür xörək.

Elə halvalar ki, bilməm adını,
Artırıb püstəylə badam dadını.

Könül, göz oxşayan lətif meyvələr,
İsfahan alması, Rey üzümü dər.

Hələ məstlər üçün çərəz gilənar,
Hələ nar məmələ ev dolu nigar.

Ağız ləzzətilə yüz nemət yedik,
Meyə meyl elədik, kef çəkək dedik.

Gülüşə-gülüşə bir-birimizə
Qarışıb can verdik dastana, sözə.

Bir nağıl danışdı hər şux gülbədən
Biri tək kimsədən, o biri cütdən.

Növbə kimə çatdı? Afət, nə afət-
Bal içində süddü, süd içində qənd!

Elə xoşdanışan, natiq bir nigar-
Dinləsə uyuyar quşlar, balıqlar.

O, şirin çeşməni əqiqdən açdı,
Coşdu aşiq kimi... nələr danışdı,

Dedi: - Şirin dilli bir cavan vardı,
Şəkəristan olub şəkər saçardı.

Həzrət İsa idi elm öyrənəndə,
Yusifdi, məclisə rövnəq verəndə.

Hər elmdən agah, dövlətli bəndə
Hamıdan üstündü möminliyində.

İrəm bağı kimi bir bağı vardı,
Bağdı başdan-başa ətrafı, ardı.

Ətirlə yoğrulmuş cənnət torpağı,
Behişt meyvəsilə dolmuş qucağı.

Suyu kövsər suyu, bulaq suyu yox.
Dirilik çeşməsi, buz kimi soyuq.

Gülləri-tikansız, zoğları-şölə.
Ürəklər-nar içi, yüz-yüz saf gilə.

Bircə tikan vardı o bağda bütün,-
Bağı bədnəzərdən qorumaq üçün.

Cavan sərvlərin altında saf su,
Sarılıb sulara bahar qokusu.

Ötür, şərqi deyir cürbəcür quşlar.
Ərğənunmu çalır oxuyan rüzgar?

Zümrüd bir saraydır hər yaşıl çinar,
Hər budaq taxtında bir qumru yaşar.

Ayağı gül içrə sərvin altında
Hər könül ucaldır bir şirin səda.



Dörd divar üstünün dörd möhrəsi var.
Qurmuş hansı pərgar, memar, sənətkar!

Binalar baş çəkib ulduza, Aya.
Bədnəzər yol tapa bilmir oraya.

O qədər səfalı, gözəldir ki, bağ,
-Çəkib hər varlının bağrına bir dağ.

Sahibi hər həftə gedərdi bağa
Tamaşa qılmağa gülşən torpağa.

Əyərdi yasəmən, darardı sərvi.
Müşk ilə ovardı ənbəri, ətri.

Salam göndərərdi bənövşələrlə.
Nərgizin camını bəzərdi zərlə.

Bağın ətrafını dolanar, gəzər.
Evə tələsərdi yenə bir səhər.

Bir gün yola çıxdı günorta vaxtı.
Getsin ki, gözləyir cənnətdə taxtı.

Gördü daş asılıb bağ qapısından,
Bağban uyumaqda çəng avazından.

Sazın sədasını qaldırıb mütrüb,
Alqış zəngulosi ərzi götürüb.

Rəqs edir, mey içir gözəl üzlülər.
Noğul söhbətlilər, şəkər sözlülər.

Sənəmlər, nigarlar vermiş əl-ələ.
Gözəllər göz oxşar zərifliyilə.

Türkülər eşq ilə dodaq-dodağa.
Ceyranlar canını uduzur bağa.

Düşüb sümüyünə, rəqs edir hər gül,
Ürək oğruları bəxş edər könül.

Xacə ki, eşitdi o vazları,
Canı hazır deyil, cırdı paltarı.

Nə qapı açmağa açarı vardı,
Nə geri dönməyə tutarı vardı.

Çox döydü... qapını yox açan tanış,
Sərv rəqs etmədə, yasəmən yatmış.

Bağın dörd yanını dolandı, gəzdi,
Yol tapa bilmədi, ürəyi əsdi.

Qəbul olunmadı öz qapısına.
Hördüyü divarı söksünmü bənna?

Sökdü bir guşəni, girdi içəri,
Bir az sufiyanə gəzsin bu yeri.

Bağa baş çəkməyi bəhanə qılsın,
Gözəl türküləri qulağı alsın.

Axı kim qoparıb bağda qiyamət?
Bağbanı uyutmuş de, hansı qəflət?

Bağı necə atsın bağı süsləyən?
Xəbər tutmasınmı sərxoş güllərdən?

Bir cüt gümüştopuq durub amadə,
Bağın qapısında keşik çəkmədə.

Naməhrəm baxmasın təki onlara,
Ay kimi işıqlı huricanlara.

Xacə ki, yarıqdan girdi içəri,-
Utanmaz! - deyibən tutdu cüt pəri.-



Oğru!Ayağına vurdular çidar.
Möhkəm əzişdirib tapdaladılar.

Xacə necə dözsün bu cinayətə?
O, layiq görülüb hansı töhmətə?

Döyüb, yumruqlayıb çimdiklədilər,
Üstünə qışqırdı bərkdən pərilər:

- Ey bağa dağ basan, qanın soyuqdur.
Keşikçi, heyif ki, keşikdə yoxdur.

Oğru özgəsinin girsə bağına,
Bağban dağ basmalı əl-ayağına!

Biz səni çubuqla döymüşük yalnız,
Haqdır ayağını bağlamağımız.

Bağa lağım atıb soxulan gədə,
Qapı aç, deşikdən girmə bir daha!

- Axı, ay pərilər, mənimdir bu bağ,
Məni tüstülədir mən verən çıraq.

Darvaza qurmuşam şir ağzı kimi,
Niyə tülkü təki deşikdən girim?

Hər kim öz mülkünə gəlsə beləcə,
Dağıdar mülkünü oğru bir gecə.

Bağın çəm-xəmini sordu kənizlər,
Gördülər o bağı can tək əzizlər.

Gördülər kişini haqsız döyüblər,
Tikmək əvəzinə qəlbə dəyiblər.

Sovuşdu bayaqkı qəzəb, ədavət,
İntiqam yerini tutdu məhəbbət.

O, gənc gözəl idi, cəzbi yüzə yüz,
Belə kişi görən qadından əl üz.

- Sən dostumuzsanmış, barışaq gəlin.
Aldı ürəyini o bir cüt gəlin.

Necə şad oldular, dilşad oldular,
Açıb ayağını azad oldular.

İpləri açarkən dedilər: - Dayan!
Öpdülər o gəncin əl-ayağından.

Dedilər: - Əfv elə, üzr istəyirik,
Laçın qulluğunda durdu cüt kəklik.

Divar yarığını qapayıb asta,
Necə çevirdilər düşməni dosta.

Deşiyə təpdilər ələf, tikan, xar,
Gecə basqınından xilas oldular.

Xacə qarşısında əyləşib nazla,
Onu cəzb etdilər söhbətlə, sazla.

- Öz baharı bilsin bu bağın səni,
Yüz illər görəsən bar-bəhrəsini.

Qonaqlıq verilir neçə dilbərə,
Könül alanlara, ayüzlülərə.

Şəhərin bəzəyi xanım-xatınlar,
Cəmalı aləmə işıq qadınlar.

Yığışıb gəliblər bağa bu axşam,
Damğasız bir ceyran, tüstüsüz bir şam.

Bir bulaq gözünə torpaq tökmüşük,
Ədəbsiz olmuşuq, əfv et ey böyük!



Dur, bir gəzişək, bizə nəzər sal,
Seçsən hansımızı, can verib kam al.

Bir gizli kuşədə açaq ağ sinə,
Orda tamaşa qıl gül sərgisinə.

Kimə gözün düşsə, dad verər sənə,
Onu nişanlayıb möhürləsənə!

De, xəlvət gətirək ağ otağına,
Qoysun gül başını gül ayağına.

Bu sözlər xacənin könlünə yatdı,
Yatmış şəhvətini lapdan oyatdı.

Möminlik olsa da təbiətində,
İsmət üzdə idi, şəhvət batində.

Erkəklik qızışdı, od əskilmədi,
Qadın nəfəsinə dözə bilmədi.

Xoş umud içində götürdü qədəm,
Neçə gümüştopuq, yasəmənbədən.

Qədəmlər elə bir yerə çatdılar,
Könüllər ordaca qərar tutdular.

Kərpiclə tikilmiş bir eyvan vardı,
Behişt sarayından azca kənardı.

Girdi, qapısını bağladı xacə,
Getdi bələdçilər, o qaldı təkcə.

Ortada yepyekə bir deşik vardı,
Baxdı... işıq gəlir, yoxsa fanardı.

Orda dar bir çeşmə, geniş bir hövzə,
Hələ nələr gördü, nur gəlir gözə.

Gümüş baldırlılar, nar məməlilər,
Ətrafa gül səpər, ya ətir-ənbər?!

Hamsı göz çırağı, hamsı Ay-ulduz,
Dadlı bir nübardı hər növrəstə qız.

Ürəyi coşdurmaq istəyən hər yar,
Öz bayram bəzminə şəkər-qənd saçar.

Göbək xəzinədə əjdaha-hörük,
Ağ, turunc məmələr narıncdan böyük.

Nar döş, alma çənə çatarmı sənə?
Adları yazılmış buzun üstünə.

Bağda gör nə qədər alma, xurma, nar...
Hamsı əl dəyməmiş, bakirə nübar.

Bağın o başında gülzar, çəmənzar
Sərvstan yanında gül sərgisi var.

Orda bir hovuz var, daşları mərmər,
Kövsərin hovuzu ona qul, nökər.

Ora su tökülür göz yaşından saf,
Üzür balıqları qoynunda səf-səf.

Üzünü tərtəmiz yumuş o sular
Səməni, süsəni, nərgizi sular.

Çadır sənəmləri, incə xanımlar -
Hovuza, balığa, Aya baxanlar

Gör necə qızışıb gün istisindən,
Suyun aynasında günəş-gülbədən.

Açdı fitəsini gör neçə dilbər,
Nazlana-nazlana suya girdilər.



Açdılar gözəllər məmədanları,
Suya şölə saldı inci, mirvari.

Arzu gümüşünə su vurdu çoxu,
Qaralan gümüşü gizlətdi ağ su.

Üzüşür sularda həm Ay, həm balıq.
Balıqdan Ayacan heyranıdır xalq.

Suya dirhəm atsa Ay üzlü dilbər,
Harda balıq varsa qaçıb gizlənər.

Fitəsiz Aycəmal dirhəm saçanda,
Xacənin balığı coşdu bir anda.

Əl-ələ verdilər, dönüb zəncirə,
Rişxənd elədilər nardan, narıncdan.

Bu gedir... "ilanla" qorxudur onu,
Hörüklə kəməndə salır boynunu.

Sıxıb baldırını, ya sağrısını
O, buna dağ basır, verir marsını.

Hərəsi - Bisütun, qaldırır sütun,
Fərhadı kərkilə öldürən cünun.

Hanı Şirin arxı-o süd, o gümüş?
Bu şirin hovuzdan baş götürürmüş.

Kəsildi xacənin səbri, qərarı,
Barı dada yetsin bir vəfadarı.

Susuzluqdan yanan sərxoş kimiydi,
Suda susuzluğu qəddini əydi.

Tazə Ayı görmüş sərilər kimi,
Gah atılıb düşür, gah əyləşirdi.

Alırdı ağlını hər sərvqamət,
Bəlkə də qamət yox, qiyam. qiyamət!

Qanı əndamında damar-damardı.
Qəfildən fəryadı göyləri yardı.

Onun sən bildiyin örtülü şeyi
Qalxıb dik durmuşdu həyasız kimi.

Girəvə gəzirdi girsin oraya -
İlanı deşiyə, quşu yuvaya.

Qabalıq etmədi ancaq o şahmar,
Çünki o, yoğundu, deşik xeyli dar.

Çimdilər, çıxdılar sudan elə ki,
İpəkdə bitdilər yasəmən təki.

İpək tül atdılar çiyinlərinə,
Qəmər işvə satdı göy qəmərinə.

Orda çəng çalandı bir alagözlü.
Tay-tuşu zənci tək, əsə Rum üzlü!

Bir günəş kimiydi hilal buxağı.
Hələ dişlənməmiş xurma dodağı.

Qəmzəsi itidir qəmzələrindən,
Şirindir gülüşü söz şəkərindən.

Göz qoy barla dolu boy çinarına,
Narı suya düşüb, su da narına.

Yüz-yüz könül almış əfsunla... ölmüş.
Hər kim onu görmüş, uğrunda ölmüş.

Elə ki, əl atır cadugərliyə,
Ağıl sərxoş olur, eşq uçur göyə.



Hindular atəşə vurulan təki
Vurulub fitnəyə xacə ölür ki...

O, şahdı, yanında pərilər-alay.
Pərilər ulduzdu, əsə dolğun Ay.

Zahid öz yolundan döndü, nə döndü:
Müsəlman geyimli kafərə döndü.

İki ceyrangözlü gəlib çıxdılar,
Yanar gözlərində ildırımmı var?

Xotən ahuları bənzər onlara.
Qaplana dedilər:-Bax ceyranlara!

Kalağay altında gizlənib kələk,
Yola noğul səpdi o bir cüt mələk.

Hicab otağında o xacə təkmi?
Ondan soruşdular Hacıblər kimi:

- Hansını xoşladın bu hurilərdən?
Səni cəzb elədi hansı gülbədən?

Xacə nişan verdi vurulduğunu.
Bu iki nəqqaşa göstərdi onu.

Sanki ahu deyil, sərxoş şirdilər,
Alovamı, yoxsa işə girdilər.

O pəri qızını tutdular dilə,
Gətirdilər çəngin nəvazişilə.

Xəlvəti gəldilər: "Bəlkə görən var?!"
Ovu görəni də ovlayırdılar.

Köşkə qaldırdılar. dayandı dilbər.
Qapını qapayıb xəlvətlədilər.

Xacə bilmirdi ki, arifdir mələk,
Canandır, asandır işini görmək.

Çəngçalan gözələ göydn ruh enib,
Özü də çəng kimi çoxdan köklənib,

Naz mayası olan iki gülbədən
Tanıdıb xacəni ona əzəldən.

O pəri əndamlı, baldırı gümüş
Xacəyə bənd olmuş, hələ görməmiş.

Xacəni görəndə eşq aldı qızı:
- Dəmiri gümüşdür, gümüşü qızıl.

Sevgidən xacənin səbri tükəndi.
O qamətli sərvə üz tutub dedi:

- Sənin adın nədir?
- Mənim adım bəxt!
Bəs yerin haradır?
- Yerim qızıl təxt!

- Sənin əslin nədir?
- Mənim əslim nur!
- Bədnəzər yahınmı?
- Xayır! Uzaqdır.

- Pərdən hansı pərdə?
- Pərdəm telli saz.
- Şivən hansı şivə?
- Şivəm işvə, naz.

- Öpüş verərmisən?
- Yüzünü birdən.
- Vaxtımız nə qədər?
- Dan sökənəcən.



- Gələrsən qucuma?
- Lap uça-uça.
- Murad verərmisən?
- Canım çıxınca!

Xacənin cismində od püskürdü qan,
İsmət və nəzakət çıxdı ortadan.

Dilbərin zülfünü tutdu çəngi tək,
Köksündə çırpındı ikinci ürək.

Qəndini dişlədi, öpdü təzədən.
Beş öpüş, on öpüş, saydı yüzəcən.

Öpüşmə canları cuşə gətirdi,
Şənlik hərarəti övcə yetirdi.

Durdu ki, çeşməyə dolça ötürsün,
Dirilik suyundan möhrü götürsün.

Guru basmarlayıb qara şir kimi,
Zorla pəncəsinin altına çəkdi.

Sən demə nasazımış o vüsal yeri,
Söküldü, töküldü çiy kərpicləri.

Cırıldı eyvanın köhnəlmiş donu.
Heç vaxt pis olmasın yaxşının sonu.

Taleləri bircə tükdən asılı.
- Dayanma! - Dedilər - qaç, üzü sulu

Vaxtında qaçdılar, qanad açdılar.
Dağılmış sərgidən uzaqlaşdılar.

Bir hücrə guşəyə çəkildi xacə,
Tutulmuş üzündə qəmgin düşüncə.

Qara qaşlarını düyünləyərək,
Qızların yanına çəkildi mələk.

Dərdinə sığınıb xəyala daldı.
Aldı qucağına, cəngini çaldı.

Yüksəldi göylərə çəngin naləsi,
Nalədə divanə aşiqlər səsi:

"Rudun naləsilə çəngim var olsun,
Aşiq xəstələrə salamlar olsun!

Məgər aşiqmidir dərd çəkməyənlər,
Şikəst olmayanlar sağlammı məgər?

Eşqimi nə qədər saxlayım gizli?
Eşqimin quluyam, aşiqəm, bəli.

Məni əldən saldı eşqım, məstliyim.
Səbri qəbrə qoydu bu sərbəstliyim.

Baxma ki, aşiqin ömrü xar olur,
Eşqdən əl çəkən günahkar olur.

Tövbə etmək hara, aşiqlik hara?
Tövbə rəvamı heç vurulanlara?

Kimdir aşiq? Yara qurban olanlar.
Aşiqin qılıncdan nə qorxusu var?"

Ləbindən dürr tökür çəngçalan gözəl,
Özünü vəsf edir, çənglə göz-gözə.

Sap çəkən o iki gövhər kənizlər
Çalıb çağırmağa xoşlar, əzizlər.

Lapdan nə damdı ürəklərinə,
O iki çırağa ah, nə oldu, nə?



Axtarıb tapdılar yazıq Yüsifi,
Əlindən tutdular Züleyxa kimi.

- Nə olmuş?
Cavabı ürək dağladı
Elə danışdı ki, yer-göy ağladı.

Pəri qanadlılar qanad gərdilər,
İş üçün yenidən tədbir gördülər:

"Bu gecə burdaca məskən salarıq,
Tək sənin işinlə məşğul olarıq.

Düzərik, qoşarıq bir növ bəhanə,
Heç kəsi qoymarıq getsin evinə.

O Ay parçasını lap bu gecə sən
Gərək ürəyinə sıxa biləsən

İşıqlı gündüzlər pərdəni yırtar,
Qaranlıq gecənin öz pərdəsi var."

Onlar bu sözləri deyib getdilər.
Bir az çox danışıb az eşitdilər.

Qara samur xəzli qaranlıq gecə
Burtas geyimini geydı gizlicə.

Tək mıxlı günəşin qılıncı soldu,
Gecənin zirehi yüz mıxla doldu.

Vəfa göstərdilər yenə o bütlər,
Yenə gəlib çıxdı o incə dilbər.

Təşnə sərv yenidən bağlandı suya,
Bir günəş yenidən qovuşdu Aya.

Otaq xəlvət ola, bir də o cür yar,
Kimin səbri çatar, hicrana tablar?

Kama yetmək eşqi oyandı onda,
Yeddi əndamının damarlarında.

Elə bir guşəyə əl atdılar ki,
Yalnız iki nəfər iş görür, iki.

İstədi dürrünü deşsin ləl ilə,
Düşsün bayrağından tağına şölə.

Atıldı budaqdan vəhşi bir pişik,
Sən demə quş görüb çəkirmiş keşik.

Pişik quş üstünə atılan zaman
İki vüsaldaşı etdi pərişan.

Ürkdülər, atıldı hərə bir yana.
Qaçan ayaqlara dolaşdı cuna.

Yenə ayrıldılar çatmamış kama,
Yenə yeyilmədi dinlənmiş alma.

Getdi baldodaqlı, çəngi götürdü,
Nalələr qopanda köksün ötürdü:

"Ərğəvan bitdi, bahar oldu yenə.
Sərv uca qəddini bəxş etdi sənə.

Gül, gülüş mücrüsünə qənd atdı.
Ötdü bülbül, süsənə naz satdı.

Eyş-işrət gününün bazarı
Bağbana verdi gülü, gülzarı.

Uzadır şaha camı bir ceyran,
O cama, cam ona heyran-heyran.

Daşmı düşdü... qırılan cam, ya can?
Ey mənim var - yoxumu yəğmalayan!



Sənsiz aşmır bir işim, ey gülüşüm,
Aləmə, ömrə-günə pərvərişim!

Mən xəcil oldum önündə... öləcəm.
Sənsiz, ey gül, nə günüm var, nə gecəm."

Çəngin ahəngini hiss etdi dostlar,
Hansı pərdədədir, bildilər, əsrar.

Qəmlər yeyə-yeyə döndülər geri,
Hardadır xacənin ayaq izləri?

Sanki yağ oğrusu, ya quldu xacə.
Bir yol kənarında çəkilib küncə.

Sürünüb, sığınmış susuz bir arxa.
Xədəng, şəmşad, söyüd, sərv ona arxa.

Görün ağ sifəti necə saralmış,
Sanki xeyri gülü süsəni çalmış.

Axtarıb tapdılar o biçarəni,
O da bir-bir dedi olub keçəni.

Özünə borc bildi o iki dilbər
Xacəyə bir daha yardım etsinlər.

Getdilər, gəldilər hey gülə-gülə.
Gülabı təzədən verdilər gülə.

Gəldi o əfsünkar, əltutan gözəl.
Eşqi təzələdi, uzadınca əl.

Aradan çıxdılar, verib əl-ələ.
Apardı özünə layiq bir yerə.

Yaşıl budaqları çatdı baş-başa,
Kölgədə taxt qurdu, taxtı tamaşa.

O şahanə taxtın girib altına
Bir guşə düzəltdi: - Buyur, ey sonam!

Lütf ilə könlünü almış sənəmi
Sıxdı sinəsinə öz canı kimi.

Sənəm - Səmanilər xalçasındakı
Ağ yasəmən təki, göy sərv təki.

Sıxdı ürəyinə qızı o ki, var.
Necə qovuşdular qızılgül, çinar.

Günəş təzə Ayı öpür, dişləyir.
Ayaqlar işləyir, əllər işləyir.

Tutdu xanəsini xacənin daşı,
Yatağa girəndi qız yataqdaşı.

O dar qalaçanı istədi tutsun,
Atəşi bir damcı suyla soyutsun.

Bu dəm çöl siçanı baxdı, nə gördü:
Budaqdan asılmış bır neçə küdü.

Siçan bir quş kimi tərpənişilə
Küdü kəndirini qırdı dişilə.

Kəndirlər qırılıb zibilə döndü,
Küdülər gurlayan təbilə döndü.

Neçə milə çatdı təbilin səsi.
Təbil necə təbil - bir köç nəğməsi!

Səs qayıdıb düşdü dağlara: - Dan! Dan!
Qaplan caynağından sıçradı ceyran.

Xacə elə bildi darğa möhtəsib,
Daşla, nağarayla yolları kəsib.



Atdı başmağını, qaçdı, nə qaçdı.
Birbaş öz işinin üstünə qaçdı.

Yazıq qız təhlükə, təlaş içində
Döndü dostlarının yanına bir də.

Yatdı. Oyananda pərdəni atdı,
Çəngin pərdəsində aləm yaratdı:

"Yenə aşiqləri andım, andım.
Səni gördüm, yenə yandım, yandım.

Nədi əhdim? Sarılıb kam almaq.
Dəli olsam da sənə ram olmaq.

Al məni, köksünə sıx, bağrına bas.
Qucmasa sərvi qızılgül açmaz.

Al zənəxdan bağımın almasını,
Sinəmin cüt narını, heyvasını.

Gəl qarış ömrümə, ömrüm də sənin.
Al, xəzinəmdəki dürrüm də sənin.

Bir ovuc kişmişi at qənd qabıma,
Lalənin tök qanını innabıma.

Nagəhan fitnə xüruş etdi bu an,
Çatmadın kamına, canım qurban!

Öldü pərvanə nurun dərdindən,
Dirilik çeşməmə sən həsrətsən.

Mizrabı əyri vuran, ay yönsüz,
Barı bir yol simə vur mizrabı düz.

Pərdəni əyri tutursan ki, nə qəm,
Düzlüyümdən məgər heç əl çəkərəm?"

Qəzəl hər pərdəni eylədi aşkar,
Pərdə saxlayanlar xəbər tutdular.

Qaçdılar xacənin yanına bir də.
Xacə gör nerədə? Qupquru yerdə.

Xəcalət içində bir ürək ürkək.
Torpağın üstünə sərələnib tək.

Könlünü aldılar xoş bir qılıqla,
Tikan çıxartdılar ürəyindən a!

Xacənin buz kimi nəfəsi bəlkə
Söndürər, soyudar cəhənnəmi də.

Onu pis xəyaldan uzaqlaşdıran
Çarə qılanların çarəsi - Loğman.

Ürəyi getmişə min ürək-dirək
Verdilər, düyünü açıncayadək:

- Eşqdə yenidən təcrübə qazan
Məhr sal, onsuz da sən mehribansan.

İş vaxtı yuva qur elə yerdə ki,
Yaxlaşa bilməsin hicran afəti.

Biz də dayanarıq bir azca uzaq,
Sənin keşiyini çəkərik ancaq.

Minnətçi getdilər "Tik könül!" - deyə
Sərv qamətliyə, səhər üzlüyə.

Qız bir də xacənin qeydinə qaldı,
Yapdı Türk basqını, qadasın aldı.

"Ağrını alaram!" dedi gülqönçə,
Atdı xacəliyi qız görən xacə.



Zülfünün uçunu aldı əlinə,
Gizli bir guşəyə çəkildi yenə.

Nur günbəzi kimi yasəmən bağı
Divara sancmışdı bahar bayrağı.

Aşağı mağara, yuxarı orman -
Yar üçün yaxşı yer olarmı bundan?

Üzdü salxım-salxım tər yasəməni,
Uzatdı üstünə o şux sənəmi.

Yasəmən gülləri ən yumşaq yataq,
Dedi: - Qucaqlaşaq, sübhəcən yataq!

Düyməsin qıranda isməti qaçdı,
Göbəkdən aşağı bəndini açdı.

Qucdu gül xırmanı bir güləndamı,
Şəkərin içinə girdi badamı.

"Milim sürmədanda sürmələnəcək!"
Deyincə neylədi gör qəzbəl fələk.

Sən demə kahadan bir neçə tülkü
Çıxırmış, ağzında şikarın tükü.

Qurdun da bu yerə düşür güzarı,
İstəyir ov üstə boğsun onları.

Tülkülər haramxor, afətli, qorxunc.
Qurddan qurtulmağa çatacaqmı güc?

Tülkünün ardınca qurd ildırım tək
Uçdu düz xacənin yatağınadək.

Tülkülər qabaqda, qurd azca geri...
Basqın basmarladı çarəsizləri.

Xacənin qurduğu büsat dağıldı.
Sürünü görüncə o, daban aldı.

Özü də bilmədi nə vaqeədir,
Toza-torpağamı bulaşıb, nədir?

Cigəri qan oldu, fikri düyünçə,
Bu yerdən, tələdən qurtulsun necə?

Zərifikdə nərgiz, gözəllikdə nar
İki sərv xacəni qabaqladılar.

Tutub ətəyindən baxdılar Aya,
Dürrü iki nəhəng aldı araya.

- Bu, nə əhrimənlik, bu, nə kələkdir?
Neçin incidirsən gənci, söylə bir!

Tamam öldürmüsən yazıq xacəni.
Yetər, buraxsana kor əyləncəni.

Yazığı neçə yol bugün qovmusan,
Bircə vüsal üçün burnun ovmusan.

Gör neçə fırıldaq, kələk gəlmisən.
Heç kəs bu oyuna söyləməz əhsən.

And içdi, şərh etdi qız dönə-dönə,
Qulaq asmadılar hekayətinə.

Xacə gəlib gördü şandan bal damır,
Şam iki qayçının arasındadır.

Qız xəcalət çəkir dost gileyindən,
Sirdaş yumruğundan, ər çimdiyindən.

Dedi: - Aman verin, ondan əl çəkin,
İncimiş yarımı çox incitməyin!



Bir günah etməyib Ay dilbərimiz.
Onu yox, siz məni döyəcləyiniz.

Bir xəyanət varsa bu işdə hərgah
Məndə, erkəkdədir, onda yox günah.

Pak və günahsızdır onun gövhəri,
Günahkara özüməm səhərdən bəri.

O kəs ki, ülfətin, eşqin səsidir,
Əzəldən Tanrının pak bəndəsidir.

Xətadan, bəladan saxlayıb bizi,
Bəlkə qoruyurmuş taleyin özü.

Bizə üz verəndə bəla, təhlükə,
Afət afət ilə qovulub bəlkə.

Bizim bəxtimizə həyanı yazan
Bizi xilas etmiş həyasızlıqdan.

Kimin ki, div nəfsi çatmır kamına,
Gərək şükür desin bəxt ilhamına.

Harama can verən haramzadədir.
Onlar, üzdən iraq, zaydır, zədədir.

Belə pəri üzlü gəlinə, əlbət
Heç bir yaxşı kişi etməz xəyanət.

İllah bir kişi ki, cavanlığı var,
Mehribanlığı var, heyranlığı var.

İsmət yolumuzda çəkirmiş keşik,
Bununçün günaha ilişməmişik.

Baxsa bir ağaca yava, bədnəzər,
Onun halal olar meyvəsi məgər?

Heyvan, qurd-quş gözü baxırmış bizə,
Yaxşımız bununçün dönürmüş pisə.

Daha olan oldu, keçən də keçdi.
Olanım olacaq, keçənim heçdi.

İndi gizli - aşkar mən tövbə etdim,
Tanrım qəbul etdi, əhdimə yetdim.

Əcəl aman versə, möhlətim varsa,
Ovum ovlanmağa razı olarsa,

Kəbin kəsdirərəm, halalım olar.
Qulluq göstərərəm, amalım olar.

Gördülər Tanrıdan qorxur o sərvər,
Bu qorxudan qorxdu o iki dilbər.

Önündə baş əyib dedilər: - Əhsən!
Bu qədər pakizə əqidəlisən.

Yaxşılıq toxumu əkilib səndə,
Paksan, bataqlığa bəzən düşsən də.

Bu qədər iztirab, bu qədər əzab
Dinclikmiş əslində - deyir haqq-hesab.

Bu mərdin çəkdiyi dərd-qəmə alqış,
Bu mərdlər əslində can dərmanıymış.

Bir işıq çeşməsi sal daşı yarıb,
Bizi bədnəzərdən uzaqlaşdırıb.

Löbətlər işrətdən geri döndülər,
Löbətbaz fələyə mat-məətəldilər.

Sübh işıq torunu hörən hörümçək
Zülmətə söylədi: - Dünyadan əl çək!



Gəldi yaz nəsimi, əlində çıraq.
Apardı xacəni, başsız qaldı bağ.

Sultanlıq bayrağı qaldırdı xacə,
Açıldı başından dünənki gecə.

Baş-beyni hələ də qaynar qazandı.
Bazlığı itirdi, eşqi qazandı.

Vəfa göstəribən o baldodağa,
Elçilər yolladı şəhərdən bağa.

Ayı Ay taxtına qaldırdı vurğun,
Kəbin də kəsdirdi adətə uyğun.

Dürrü mərcan ilə deşdi, qanatdı.
Quşlar oyanarkən balığı yatdı.

Balıqdan quşacan hər bir xilqətin
Vəslə can atması qanundur yəqin.

Bəxtinə baxın ki, su tapdı zülal.
Kəbin kəsdirdi ki, olsun nuş, halal.

Yasəmən kimi saf, gümüş kimi ağ,
Bir çeşmə tapdı ki, günəşdən parlaq.

Gündüzün saflığı ağlığındadır.
Gecələr Ay göydə qurur ağ çadır.

Rəngin rənglər ilə qarışığı var
Ağ rəngin nə xıltı, nə ortağı var.

Saflığına görə ağ adlanır o,
Yoxdur bulaşığı, yoxdur qoxusu.

Odur ki, Tanrıya ibadətində
Ağ donu dəb seçib özünə bəndə.

Yasəmən gözəlin natiq çağında,
Şah ona yer verdi öz qucağında.

Bəlı, Bəhramın da bayramı vardı,
Türlü günbəzlərdə busat qurardı.

Səma günbəzi ki, girir hər dəfə,
Yeddi qapısını açmışdı ona.

## ÇİN XAQANININ BİR DƏ QOŞUN ÇƏKMƏSİNDƏN BƏHRAMIN AGAH OLMASI

Zühəl və Müştəri bir də görüşdü,
Gün Balıq bürcündən Quzuya düşdü.

Bağlar Xızır kimi cavanlaşdılar,
Dirilik suları aşıb daşdılar.

Hər çeşmə göbəyi - bir Nil çayı, Nil.
Hər yol - bir köç yolu, uğur, Səlsəbil.

Ud bitirən torpaq müşk ilə doldu,
Müşk satan yellər müşk alan oldu.

Novruz havasının mötədilliyi -
Çırağban aləmin işıq mənbəyi.

Novruz nəfəs verdi təzə rüzgara,
Tapşırdı canını tər reyhanlara.

Yerin ürəyindən çıxdı bitgilər,
Pasdan təmizlənən aynadır səhər.

Şəbnəm xoş havadan torpağa çökdü,
İstilər şaxtanın dizini bükdü.

Dağların başında kafur rəngli qar
Göz yaşı tökdükcə hey daşdı çaylar.



Yaşıla baxdıqca nur aldı gözlər.
Çəmənlər gətirdi aləmə zivər.

Xumar gözlərilə baxdı həyata,
Nərgiz qoymadı ki, ariflər yata.

Dan yeli nə qədər nafələr açdı,
Xallı bənövşəyə qaliyə saçdı.

Nəhəng yelkən açıb servin kölgəsi,
Şəmşadın zülfünü darar nəfəsi.

Nilufər - gecələr yatmayan sona
Canını tapşırıb su qalasına.

Qönçələr şax üstə gör nə yapır, nə?-
Lalə yaprağına bənzəyən lölə.

Süsən ağ ovcunda qızıl hədiyyə
Aparır, nərgizə tac olsun deyə.

Hələ çatmasa da qiyamət günü
Bahar ulduz-ulduz saçır gülünü.

Gözləri yaş dolu şənbəlid ki, var -
Zəfəran dadınca gülməyə başlar.

Gülün, şəqaiqin töküldü qanı.
- İç dirilik suyu! - dedi Loğmanı.

Nəsrin ləçəkləri ovcunda billur,
Süsən şaxələri tutiya ovur.

Qol-qol hörüyünü hörən mərzənguş
Deyləmilər kimi çiynindən asmış.

Budaqlar qayçıdır, yapraqlar ipək.
Qoy bahar don biçsin bir qız dərzı tək.

Nə üçün asqırır qərənfil sona?
Sünbülün müşkümü dəyir burnuna?

Əhdə vəfalıdır xeyrigül, əhsən -
Yazıb yasəmənə: - Vəliəhdimsən.

Çərxin əqrəbində hanı o neştər?
Əritdi süsənbər - o ətir-ənbər.

Ceyran gözlərilə naz satır qönçə,
Filin qulağına nə deyir sərçə?

Ağ kafur ətirli, müşk üzlü çiçək
Qızıl sırğa taxıb yar qulağı tək.

Söyüd ud nişanlı bir gəlindi ki,
Gah ağ kafur saçır, gah ceyran müşkü.

Söyüd ud önündə qaldırıb bayraq
Ərğəvan - qırmızı, yasəmənsə - ağ.

Amandır, gəlməsin heç xəzan çağı,
Əlini dişləyir söyüd budağı.

Ətirşah - güllərə şahənşah, allah!
Yer də havalanır onunla, billah.

Xoruz banınacan susmayan bülbül
Bəlkə təbil çalır, ən gözəl təbil.

Sor, kimin üçündür beş növbət təbil,
Bülbülü bəkləyir ağ gül, qızıl gül.

Sərv üstə göyərçin ruh verir yenə
Könül alanların rud ahənginə.

Nalə çəkən qumru necə ney çalır:
Kəkliyin gülüşü ağzında qalır.



Turacın avazı çölü dindirir,
Cənnət türküsünə təqtilər verir.

Cənnət kitabından, - zənd aləmindən
Söz gətirən quşlar gör nə qədər şən.

Əndəlib ahəngi zərifdir necə,
Çəngin teli kimi incədən incə.

Rəssam sərgisidir eniş-yoxuşlar.
Şənliyə çulğanmış balıqlar, quşlar.

Bəhram məclis açmış belə bir gündə,
Məclis çırağbandır göylər önündə.

Yeddi günbəzinə bənzər bir günbəz.
Seyr et, qübbəsini fələklərdə gəz.

Çantalı bir qasid: - Göstərin ! - dedi -
Mənə altı tağlı yeddi məbədi.

O, cənnət qəsrinə yanaşan kimi
Behişt qapısı tək böyüdü qəlbi.

- Alqış, ey şəhriyar, ey hünər dağı!
Endi səcdəsinə, öpdü torpağı.

- Gəlir Çin ordusu yenə od kimi.
Qoşun dalğa-dalğa tutur aləmi.

Şahla peymanından əl çəkib fəğfur,
Bürümüş sərhədi yenə vurhavur.

Yoxmuş çinlilərdə bir vəfa əhli,
Üzü şan balıdır, içi zəhərli.

Gəlib dalğa-dalğa Ceyhuna qədər,
Qılınca qurşanıb minlərcə əsgər.

Bürüyüb çölləri qoşun selləri,
Hərəsi bir timsah, dəniz əntəri.

Şahənşah bu işə laqeyd yanaşsa,
İçər qanımızı Çin kasa-kasa.

Şah ki, bu fitnədən oldu xəbərdar,
Bildi: şər əlinə keçibdir açar.

Tora ilişməmiş tez çəkdi xaqan
Ətəyini meydən, əlini camdan.

Məşvərət eylədi: - Ey əhli - idrak!
Düşmən buynuzunu nə cür sındıraq?

Yalnız xəzinədir, qoşundur silah,
Yoxdur ondan savay bizə bir pənah!

Hanı bəs qoşun ki, beş nəfər də yox,
Bomboş xəzinədə bircə zər də yox.

Yaraq da, qoşun da pərakəndədir,
Dişsiz arslan kimi aciz bəndədir.

Dolu xəzinəsi dönmüş xəzana,
Bayrağı - zəncirə, yurdu - zindana.

Şahın qorxulu bir vəziri vardı,
Tanrını tanımaz bir zülmkardı.

Adı Rast - Rövşən, yəni Düz - Aydın.
Nə düzsən, nə aydın, ey kaş bataydın.

Onun aydınlığı qatı qaranlıq,
Düzlüyü əyrilik sayılır artıq.

Adını şərh edib qürurlanardı,
Lakin yaxşı addan min verst kənardı.



Vəzir Nersi idi burda bir zaman,
Onda qorxu vardı dindən, Tanrıdan.

Rast - Rövşən gəlib vəzir olanda
Məhv etdi düzlüyü, aydınlığı da.

Şah ki, könül verdi eyşü-işrətə,
Vəzir də qol qoydu zülmə, zülmətə.

Yüz fəsad törətdi, min fitnə saldı.
Bacardıqca aldı, çapdı və çaldı.

Nayibi aldadıb zivərlə, zərlə
Fitnəyə qoşurdu o, hiylələrlə.

Deyirdi: "- Xalq ki, var, çox məzar eşib,
Üzü çox açılıb, ədəbsizləşib.

Yeyiblər, içiblər min il o ki, var.
Bizə diş qıcayıb, çox qudurublar.

Verməsək onlara qulaqburması,
Onlar özü burar qulağımızı.

Üzdən Yusifdilər, içəridən qurd.
Burnunu ovmasan, viran qalar yurd.

Qurdu qurd tələsi ram edər ancaq,
Çoxmu bu tülkülər baş aparacaq.

Torpaqdan yaranmış əhl ki, vardır,
Adam sifətində yırtıcılardır.

Yırtıcıdan vəfa gözləmə bica,
Onlar təslim olur yalnız qılınca.

Oxumuş olarsan, yazıb o Kişi,
Nə günə qoydular mərd Siyavuşu!

Cəmşid cəlalını dağıdıb onlar,
Daranın başını dardan asanlar.

El malı - hovuzdur, onlar şirü-nər,
Hovuzda çox qalsa su da iylənər.

Torpaqla bulanır sular, yaxşı bax,
Elə torpaqla da saflaşır ancaq.

Şah xumar olsa da, düşmən ayıqdır.
Darğa yatıbsa da, oğru oyaqdır.

Əgər cəza vermək çıxsa yadından,
Şahlığı puç olar, batar hökmran.

Cəza qılıncını şah tutsa əldə,
Qaçar hər ikisi: düşmən də, div də.

Sırtıq rəiyyət də ac divə oxşar,
Yol versən, o səni yoldan çıxarar.

İncə olmalıdır şah siyasəti,
Qılınc tək itilə hakimiyyəti.

Aldanma, heç bir kəs sənə dost deyil,
Yalnız qılıncını arkadaşın bil!

Şah bizə güvənir, cam əlindədir.
Qələm mənə düşüb, qılınc səndədir.

Mən tədbir tökənəm, sən qılınc vuran.
Desəm al canını, almalısan can!

Varlıdan varı al, qalsın lüt-üryan.
Elə yoxsuldan da qan almalısan!

Yaman da, yaxşı da sənin halalın.
Yamanın canın al, yaxşının malın.



Soy, tala, təhqir et, batsın hər ad-san
Ki, xalqın gözündə əziz olasan.

Rəiyyət xar, zəlil, şikəst olarsa,
Dövlət möhkəmlənər, götürməz əsa".

Şahın naibi də sərxoşluq etdi.
Zülmdə vəzirlə əl-ələ getdi.

Əzdi, yağmaladı, soydu elatı.
Yaman günə qaldı xalqın həyatı.

Gəzir lovğa vəzir daim burnu dik.
Bürüdü ölkəni hərki-hərkilik.

Zülmün sarayını ucaltdı onlar,
Ocaqlar söndürən, ev talayanlar.

Kəndi, şəhəri də bürüdü fəryad.
"Çal" və "çap"dan savay yox bir etiqad.

Nəhayət, puç oldu yazıq məmləkət.
Heç kəsdə qalmadı nə var, nə dövlət.

Hər nə qalmışdısa qəsb etdi alçaq.
Aldı rüşvət kimi doşab, motal, yağ.

Aldı qızıl, gümüş, kəniz və qulam.
Məmləkət boşaldı, lüt qaldı tamam.

Çoxun çoxu getdi, azın da azı.
Bir qula çevrildi kəndin ağası.

Gördü aparırlar yurd beşiyini,
Evli atıb qaçdı ev-eşiyini.

Şəhər də, qoşun da cəzana gəldi.
Dağ arana, aran dağa yönəldi.

Nə mal-qara qaldı, nə bağ, nə əkin.
Mədaxil puç oldu bir xəzəl təkin.

Vilayət xaraba, yurd vələm-yesir.
Şah xəzinəsi boş... gəlmədi gəlir.

Hamı dərd içində, ac, susuz, xəstə.
Bircə ilan vəzir xəzinə üstə!

Necə hazırlaşsın vuruşmağa ki,
Nə şah ordusu var, nə şah gəliri.

Dərhal casusları çağırdı bir-bir:
- Sizcə dağıntının səbəbi nədir?

Qaniçən vəzirdən çəkinir deyə
Hamı gündüz dedi zülmət gecəyə.

Hərə bir bəhanə, yalan qondardı:
- Bunun əli boşdur, onun da ardı.

Dünyada bərəkət, nemət qalmadı,
Matam, xəzinədə dövlət qalmadı.

Nə varidat qalıb, nə də bar, bəhər.
Yurdu atıb qaçıb vergi verənlər.

Bəlkə qayıdalar, şəfqət görsələr.
Şahdan bir mərhəmət, rəğbət görsələr.

Şahı bu cavablar qane etmədi,
Şir ilə savaşa hələ getmədi.

Düşündü: qansızdı bu qozbel fələk,
Bir azca yatdınmı səni yeyəcək.

Düşündü, daşındı... Əbəsdi cəhdi.
Kələfin ucunu tapa bilmədi.



## BƏHRAMIN ÇOBANDAN İBRƏT ALMASI

İşi bərkə düşüb dilxor olanda,
Şikara çıxardı dağda, aranda.

Atlanar, ov ovlar, quş quşlayardı.
Şadlansa, qayıtmaq şakəri vardı.

Kədər ki, başladı onu sıxmağa,
Qalxdı, könül verdı ova çıxmağa.

- Qan olan ürəyi yumalı qanla!
Tək çıxdı çöllərə bu cür imanla.

Çaldı yerdən, göydən öz şikarını.
Bağladı qüssənin qanadlarını.

Arslanı, qaplanı, qabanı, guru
Ovlayıb üz tutdu bir suya doğru.

Vurhavur at çapan yollar yorğunu
Sümüyü əridən susuzluğunu

Bir azca soyutsun, səngitsin deyə.
Üzünü tutmuşdu məchul çeşməyə.

Nə gördü: uzaqda bir tüstü layı
Qalxır əjdaha tək udmaqçün ayı.

Burula-burula qapqara tüstü
Hey qalxır, məkanı fələyin üstü.

Düşündü: - Bu tüstü oddan qalxsa da,
Yəqin ki, su verər od yaxan gədə.

O tüstüyə sarı qədəm götürdü.
Göylərə ucalmış bir çadır gördü.

Al günün altında bir sürü qoyun
Bişir kabab kimi. Yanında onun

Budaqdan daş kimi asılan köpək
Can verir, ağzında dili bülov tək.

Şah çadıra sarı atını sürdü,
Sübh tək nurani bir qoca gördü.

Qonaqmı? Yerindən sıçradı o nər,
Qonağa xidmətçün bağladı kəmər.

Göyün cilovunu tutan o müdrik
Göstərdi yer kimi qonaqsevərlik.

- Günaydın!
Andırdı quş qanadlını.
Atından düşürdü yorğun atlını.

Olub qalanını qoydu süfrəyə,
Üzrxahlıq etdi: - Əfv edin! - deyə.

- Ey möhtərəm qonaq, şəksiz-şübhəsiz
Sizə layiq deyil bu kəm süfrəmiz.

Neynəmək, bu yerlər evdən uzaqdır.
Ayrı yavanlıq yox... yağdır, qaymaqdır.

Şah gördü çörək də yaxşı çörəkdi.
Bir içim su içib əlini çəkdi.

- O vaxt yeyərəm ki, çörəyini mən,
Sorğuma cavabı dürüst verəsən.

Evin arslanıdır o yazıq köpək,
Neçin ayağından asmısan qurd tək?

Qoca dilə gəldi: - Ey gözəl cavan,
Bu işi tükbətük söylərəm, inan!



Bu köpək sürünün keşikçisiydi.
Mənim sağ əlimdi, ağıllı, ciddi.

Mehri, sədaqəti, vəfası vardı,
Onunla ülfətdən can xoşlanardı.

Oğru tamahından, qurd caynağından
Bu itdi sürünü salan, saxlayan.

İt yox, öz çobanım bilirdim onu,
Ona tapşırmışdım qoyun-quzunu.

Dəmir pəncəm idi o qüvvət, o güc.
Dişləri xəncərdi, caynağı ülgüc.

Mən çöldən şəhərə getsəydim hərgah,
Saxlardı sürünü salamat, gümrah.

İşlərim şəhərdə uzun çəkəndə,
Özü qaytarardı sürünü kəndə.

Neçə il beləcə vəfadar oldu,
Əli düz, özü də düzilqar oldu.

Günlərin bir günü yazıb varağa,
Başladım qoyunu hesablamağa.

Nə gördüm? Çatışmır yeddi baş qoyun.
Dedim: - Bu kağızı kənara qoyun.

Bir həftə keçməmiş bir də sayanda
Yenə əskik gəldi, susdum bu anda.

Gözlədim, yatmadım bəzən gecələr,
Görək hansı hərif bu yurda gələr?

Keşikdə sübhəcən oyaq qalsam da,
Çalmadı qulağım bir səs, bir sədə.

Sən demə, it məndən qat-qat ayıqmış.
Sürü saxlamaqda xeyli sayıqmış.

Bir də dürüst-dəqiq qoyunu saydım,
Yenə əskik gəldi say açıq-aydın.

Çox gəzdim pərişan, bu sirr nə sirdi:
Sürüdən qoyunlar hey əskilirdi.

Günün altındakı buz tək əriyir,
Qoyunlar gedirdi iki bir, üç bir.

Nəhayət məni də tora saldılar,
Olub qalanımı zəkat aldılar.

Sürü sahibiydim, varım - xəzinə.
Endim adi çoban dərəcəsinə.

Bu gərdiş dağ basdı ciyərlərimə,
Qəm gözümə girdi, dərd içərimə.

Dedim: bədnəzərdən dəyib bu ziyan,
Hansı qurda, quşa getsin bəs güman?

Şir-aslan hökmündə belə köpəknən
Hansı yırtıcıdır aşnalıq edən?

Bir dəfə yatmışdım arx qırağında,
Ayıldım rüzgarın meyxoş çağında.

Səssizcə uzadıb əl-ayağımı,
Nazbalış etmişdim öz çomağımı.

Gördüm bir dişi qurd gəldi uzaqdan,
Bizim erkək getdi əldən, ayaqdan.

Dişi it dililə çağırdı onu,
O, getdi, bulayıb it quyruğunu.



Yürüdü, yalmandı, döndü başına.
Ləhlədi, hayqırdı, olunca aşna.

Tozanaq qopardı, min oyun qurdu.
Axır ki, dişinin üstə oturdu.

Kam aldı, dincəldi uzanan köpək.
Ağzını sükutla möhürləyərək.

Rüşvətmi vermişdi dişi qurd öncə.
Öz zəhmət haqqını gəzirdi məncə.

Nəhəng quyruğunu güclə sürüyən
Sürü gözəlini qapdı sürüdən

Yedi birnəfəsə o ağzı yanmış.
Çoxdan bu rüşvətə o, dadanıbmış.

Sən demə məlun it uyub şəhvətə,
Veribmiş sürün o kəmfürsətə.

Erkək ki, dişini çəkib yatağa.
Sürü qurban gedib eşqbazlığa.

Onu əfv elədim bir neçə dəfə.
Bir gün: - Yetər! - dedim - baxmısan kefə.

Qurd ilə bir yerdə tutub saxladım.
Günahı üstündə bura bağladım.

İşgəncə verərək dustaq etdim ki,
Əmrə təslim olsun bəndəmiz təki.

Sürünü aşıran qurdmu bu harın.
Yoxsa qəssabıdır qoyunlarımın?

Xəyanət eylədi o, əmanətə,
Öz əminliyini satdı şəhvətə.

Qərara gəldim ki, ölüncəyədək
Aman görməyəcək bu satqın köpək.

Cəza verdim axır cinayətkara,
Gözə görünməsin qoy üzüqara.

Bəhram şah çobanı zirvədə gördü,
Üzə vurmasa da, ibrət götürdü.

Hekayət rəmz imiş, anladı bunu.
Duz-çörək kəsərək tərk etdi onu.

Dedi öz-özünə: "Adi çobandan
Mən şahlıq öyrəndim, çıxmasın yaddan!

Mən də bir çobanam, rəiyyət sürüm,
Gərək xalqa layiq bir dövran sürüm.

Bəsirət əhlisə vəzirim mənim,
Deməli, sürüyə zamindi, zamin.

Düzgün qurulmasa işin özülü,
Sorğu-sual edəm gərək vəziri.

Hanı ordu, qoşun, sərleşkər hanı?
Alim yox olmuşsa, bəs minbər hanı?

Nədir yurdu tutan kəsafət, deyin!
Kimdir səbəbkarı viranəliyin?!

- Bura tez çağırın işə baxanı,
Versin dustaqların sadalağını!

Tutuldu dəftərə o, baxan kimi,
Gün onun gözündə qara dəftərmi?

Gördü bir aləm var, başı bəlalı.
Ayağı zəncirli, bağrı yaralı.



Xeyir-şər bəndində gördü yazı var:
"Şah ölüm kəssə də vəzir bağışlar".

Gördü rüsvay edib o, hökmdarı,
Öz adına çıxıb yaxşılıqları.

Şah bildi, dərk etdi bu, nə üsuldur -
Evi talan edən ev oğrusudur.

Bildi ki, tapşırıb sürünü qurda,
Vəzir köpək kimi satqındı burda.

İtlər it işini beləcə görür,
Şəhvətə satılıb yalandan hürür.

Şah buyuruq verdi mərdi-mərdana:
- Tutub bu vəziri, atın zindana!

Qalsa vəzifədə, səddi su yarmaz.
Heç kəs əleyhinə qələm çıxarmaz.

Onu cəlalından uzaqlaşdırsam,
Qaranlıq gecədə şölə saçar şam.

## BƏHRAMIN ZÜLMKAR VƏZİRDƏN HESAB ÇƏKMƏSİ

Günəş "dɪtd" eləyib dan söküləncə,
Fərşini qatladı qaranlıq gecə.

Sübh iki qılıncla kəsib, doğrayıb
Qanilə doydurdu əjdaha Ayı.

Bəhram rəiyyəti qəsrə çağırıb,
Açdı göylər boyda qəbul çadırı.

Kiçiklər arxada, böyüklər öndə
Hər kişi yer tutdu öz cərgəsində

Saray qapısından girdi Rast - Rövşən,
Sədr mövqeyinə üz tutdu şən-şən.

- Öz yerində otur! - qışqırdı sultan.
Hökm keçdi onun yeddi qatından.

- Ey mənim ölkəmi viranə qılan,
Ey yurdu rövnəqdən, abırdan salan!

Gövhərlə doldurub öz xəzinəni,
Neçin quru yerdə qoymusan məni?!

Kəsmisən ellərin haq nəfəsini,
Yemisən ordunun azuqəsini.

Əllərin qanlıdır dirsəyə kimi,
Çapıb talamısan bəndələrimi.

Vergi əvəzinə bac istəmisən,
Xərac əvəzinə tac istəmisən!

Nə məndən utandın, nə çörəyimdən,
Lənət cəmdəyinə, alçaq, acgödən!

Naşükürlük edən ən yava kəsdir,
Çörəyi itirən kafərdən pisdir.

Nemətin haqqını itirməyən ər
Özünə daha bol nemət gətirər.

Adın Rast - Rövşən... bəli, Düz - Aydın.
Tərsavand adınla gərək bataydın.

Nə üzlə baxırsan mənim üzümə.
Nə qoşun qalıbdır, nə də xəzinə.

Ölkəm viran olub zülmündən sənin,
Qoşun qan ağlayır əlindən sənin.



Güman etmisən ki, mən tutanda cam,
Qəflət yuxusunda itib batacam.

Ey mənim taxtımı laxladan ləin,
Belini qırmısan rəiyyətimin.

Məni torpaq udsun, qaldıranda cam,
Bəhram qılıncını yaddan çıxarsam.

Badə və rud ilə məst olsam da, bil:
Nə yerdən qafiləm, nə göydən qafil.

Bəhram bu sözlərdən ilgək yaratdı,
Vəzirin boynuna bir kəmənd atdı.

Bir qanlı cəllada hayqırdı bərkdən:
- Apar cəhənnəmə onu cənnətdən!

Kəmənd düzəltdilər əmmaməsindən,
Zindan silkələndi sürünməsindən.

Ayağı kündəli, qolu zəncirli...
O vəzirmi, yoxsa bir cani-cinni.

Zülmün qəhrəmanı qəzəbə gəldi,
Car çəkən carçılar gəldi, nə gəldi:

- Siz ey zülm əlindən cana gələnlər,
Siz ey əzilənlər, incidilənlər!

Qəbul edəcəkdir şah hamınızı,
Şahdan tələb edin öz haqqınızı!

İlana dönəcək pis əməlləri,
Çalacaq vəziri - qanlı əjdəri.

Şah belə buyurur dustaq - bəxtsizə:
Qan olmuş qəlbini qoy açsın bizə.

Hər kəs öz dərdini desin, danışsın.
Haqqın açarıyla qıfılı açsın.

Dustaqlar məhbəsi az qala dəldi,
Şahın hüzuruna min dərdli gəldi.

Yeddi dustaq seçdi dərd içindən şah,
Ki, sorsun halını, olsun da agah.

- Nədir əslin, nəslin? Hardansan, söylə.
De, günahın nədir, səhvin, suçun nə?

## BİRİNCİ MƏZLUMUN ŞİKAYƏTİ

Var ol, ey şəhriyar, başa düş məni:
Sənin düşmənini əzsin düşməni.

Tökdü Rast - Rövşən gözüm yaşını,
Əzabla öldürdü qan qardaşımı.

Apardı nə qədər heyvanı vardı,
Üstəlik ömrünü çəkdi, apardı.

Qamətli, qüdrətli, gözəl cavandı,
Zülmü eşidənlər halına yandı,

Mən lənət yağdırdım zalım adama,
O, məni tutdurub basdırdı dama.

Dedi: - Sən düşmənin havadarısan,
Qardaşın əqrəbdir, özün də ilan.

Sonra bir qurluya işarət etdi,
Mənim var-yoxumu o, qarət etdi.

Zorla ayağımı qandalladılar.
Zindana saldılar, hayıf aldılar.



Canını qurtardı ölən qardaşım,
Mənimsə yandırır yeri göz yaşım.

Bir ildir çəkirəm bu müsibəti.
Mübarək falımdır şahın surəti.

Dustaq danışdıqca faş etdi onu,
Vəzirin canavar quduzluğunu.

Ona qaytarıldı mal-dövlət, oda.
Ölən qardaşının qan bahası da.

Şah ona bəxş etdi şadlıq, azadlıq.
- Get, iş başındasan, qüdrətsən artıq!

## İKİNCİ MƏZLUMUN ŞİKAYƏTİ

Şaha tapınmaqla əlac axtaran
İkinci dustağı dinlədi Bəhram.

Xeyir-dua verdi uzun-uzadı.
Sonra öpüb yeri sözə başladı:

- Mənim çox şahanə bir bağım vardı.
Baxsam, gözlərimə işıq olardı.

Behişt xalçası tək yamyaşıl, geniş.
Meyvəli budaqlar baş-başa vermiş.

O, mənə atamdan yadigar idi,
Payızı gözümdə növbahar idi.

Gəldi gülşənimə bir gün o yağı,
Çəkdi də sinəmə dağ üstdən dağı.

Qoydum süfrəsinə mey-məzə, şərbət
Verdim ona layiq gözəl ziyafət.

Tökdüm qabağına hər nəyim varsa,
Təki razı getsin, batmasın yasa.

İstədiyi qədər mey içdi qonaq,
Yedi, güldü, yatdı, rahatlanaraq.

Bağı seyr edəndə "sərxoşam" dedi,
Durub səhralara düşmək istədi.

Söylədi: - Sat mənə, bağ mənim olsun,
Pul verim, gözünə çıraq qoyulsun!

Dedim: - Necə satım, canımdır bu bağ.
Amanım, gümanım bir odur ancaq.

Hər kəs bir eşq ilə sinədağlıdır,
Mənim də həyatım bağa bağladır.

Elə zənn elə ki, səninkidir bağ,
Mən də öz bağbanın, qulunam ancaq.

Hansı gün bu bağa düşsə güzarın,
Nuş et səfasını bu laləzarın.

Nə varsa mətbəxdə... əsirgəmədən
Qoyar qabağına bir gümüşbədən.

Dedi: - At başından bu bəhanəni,
Sat bağı, yığışdır şələ-şüləni!

Qışqırdı, bağırdı... atmadım bağı,
Nə zərlə, nə zorla satmadım bağı.

Qızışdı, qudurdu, döndü qabana.
Bir gün saldı məni quru böhtana.

O - zorba qolçomaq, mən yazıq, naçar.
Bağımı əlimdən zorla aldılar.



Yoxdu haq divanı haqqı dirildə...
Zindan küncündəyəm bu iki ildə.

Nə bir əlim çatır haq divanına,
Nə ahım, fəryadım div vicdanına.

Şah ona qaytardı şahanə bağı.
Yeni Bağdad oldu bağı, otağı.

## ÜÇÜNCÜ MƏZLUMUN ŞİKAYƏTİ

Şaha xitab etdi üçüncü dustaq:
"- Ey hər diləyinə yol açan xoşbaxt!

Dəniz taciriydim... əhvalat uzun.
Dəniz yollarından çıxırdı ruzum.

Dəniz səfərlərim tay-tay yük dolu...
Gəlirim, çıxarım çox vaxt uğurlu.

Dərya dürlərini gördüm, vuruldum.
Hər hansı incinin sərrafı oldum.

Əlimə keçmişdi bir neçə lölə -
Dan ulduzu kimi saçırdı şölə.

Qayıtdım şəhərə kefim yuxarı.
Gözümə işıqdı nadir mirvari.

Dedim dürrü satar, rahat xərcləyərəm.
Əyin-baş düzəldər, yeyib içərəm.

Hardan zalım oğlu, öyrəndi bunu -
Məndə bir sap xalis dürr olduğunu?!

Çağırdı, əlimdən o dürrü aldı.
Dəyərini beş qat aşağı saldı.

Pulunu verməyin vaxtı çatanda
Neçə dona girdi o, bircə anda.

Mən dərd alovunda... canımda can yox.
Bəhanə gətirdi o, buzdan soyuq.

Uydurdu yalanın üstündən yalan.
Mən dağdan danışdım, o da arandan.

Dürrümü istədim, əsə gizlicə
Məni bu zindana saldırdı gecə.

Qatillər, canilər Yanında qaldım.
Həyasızcasına dürrümü çaldı.

Bir sap dürr əvəzi nə verdi mənə,
Baxın qolumdakı zəncirlərimə.

Başıma daş saldı dürr əvəzində,
Mənə qan uddurdu daş-tərəzidə.

Taxdı papağına nur mirvarimi,
Mən qaldım quyuda tək sədəf kimi.

Üç ildi dustağam, bu gün qurtuldum,
Gördüm şah üzünü, bəxtəvər oldum."

Bədgövhər vəzirdən aldı gövhəri,
Şah qızıl da verdi, şad etdi mərdi.

## DÖRDÜNCÜ MƏZLUMUN ŞİKAYƏTİ

Qorxa-qorxa gəldi dördüncü müdrik,
Dedi: - "Ey minlərcə alqışa layiq!

Mən aşiq xanəndə, qərib bir adam...
Çay kimi xoşahəng bərbət çalıram,



Bir sevgilim vardı... təzə, pakizə.
Əsli Çindən idi, özü möcüzə.

Çin-çin dərdlərimi aparan gözəl
O, baxsa, dönürdü gecəm gündüzə.

Bir heçdi əslində olmayan ağzı,
Şəkər sındırandı gülüşü, nazı.

O günəş önündə qəmər sönürdü,
Bahar, gözəl bahar heçə dönürdü.

Ətəyindən idi bənd-bənd hörüyü,
Sərv ondan öyrənib boy göstərməyi.

Min dürrə almışdım mən o afəti,
Afətim, sərvətim, vəlinemətim!

Qapqara saçları gecəyə günü.
Nəzərdən salmışdı tatar mülkünü.

Çalıb oxumağı öyrəndi məndən,
Cüt qanad alardın türkülərindən.

Bir evin içində şirin, səmimi
Dolanardıq şamla pərvanə kimi.

Mən bir gecə idim, o bir çilçıraq.
Mən bir ot ləçəyi, o ipək otlaq.

O, Rast - Rövşənim - Düzüm, Aydınım.
Çaldı Rast - Rövşən, getdi xatınım.

Pərvanə könlümə min dağ basaraq,
Şamı öz evində yandırdı alçaq.

Tab edə bilmədim ayrılığına.
Can atdım işığa, can atdım ona.

Məni gülə-gülə ağlatdı vəzir.
Dedi: - Vurmaq gərək dəliyə zəncir.

Mən zindan küncündə, qolumda buxov,
Mənim gəlinimi qucaqlayır o.

Dörd ildir tüstüsüz yanıram oda,
Mən rəzalət içrə, o, kef - damaqda."

Şah azad eylədi dərhal o mərdi,
Üstəlik dövlət də, sərvət də verdi.

Kənizə qızı tək cehiz də qoşdu,
Qəfəsdən qurtardı o bir cüt quşu.

## BEŞİNCİ MƏZLUMUN ŞİKAYƏTİ

Ulduzlar şahına dedi beşinci:
"- Ey qəsri fələyə tay olan inci!

Günəşli dağdakı ulduz evinin
Çoxdan başçısıydım... qulunam sənin.

Qulağı həlqəli bir qulun olmaq,
Yurdu bəzəməkdi sənətim ancaq.

Allahım, şahım da vermişdi dövlət -
İmarət, əzəmət, şöhrət, səadət!

Bütün üfüqlərdən asaraq qəndil,
Dedim: - Şərqin şahı yaşasın min il!

Şah üçün xeyirli işlər görərdim,
Xeyir-duam ilə ərzaq verərdim.

Şəhərlər sayəmdə şad-xürrəm idi.
Mənə üz tutardı min elm igidi.



Hər mötəbər alim günüm-gündüzüm -
Nemət baratını verərdim özüm.

Məndən dürr alırdı dara düşənlər,
Ac qalan yetimlər, dul qadın, dul ər.

Qızıl umanlara qızıl verirdim,
Əlindən tuturdum yıxılsa hər kim.

Heç bir zavallını qoymadım darda,
Hamsına hayandım hər vurhavurda.

Boş yola salmırdım gedib gələni,
Qonağa xərclikdi kəndin gəliri.

Gəlirim, çıxarım yerli yerində.
Məndən Tanrım razı... kəndçilərim də.

Bu xəbər elə ki, çatdı vəzirə.
Qızmış əfi oldu o, birdən-birə.

Cəld əlimdən aldı kəndxudalığı -
Bütün malı-mülkü, bağçanı, bağı.

Dedi: - Bu var-dövlət öz rəncin deyil,
Aldığın bəxşişlər qazancın deyil.

Xalvarla xəzinə tapmısan... ya da
Qızıl düzəldirsən iksirli odda.

Gərək pay verəsən hər ay başında,
Yoxsa bu kəl başın gedəcək bada.

Bu xam bəhanəni o, işə saldı,
Hər nə varımdısa əlimdən aldı.

İtirdim varımı, lüt, yoxsul oldum,
Bir vaxt ağa ikən, döndüm, qul oldum.

Beş ildir ki, boğur məni bu zindan.
Uzağam evimdən, yavrularımdan.

Şah dedi: - Azadsan, kefini sazla,
Evə qayıdırsan nemətlə, nazla.

## ALTINCI MƏZLUMUN ŞİKAYƏTİ

Altıncı dustağa növbə çatdımı,
Silkəyib oyatdı xumar baxtını.

Oxudu şah üçün zəfər duası:
- Xalqa çörək verən ey xalq atası!

Mən bir kürd oğluyam, özüm döyüşçü,
Əsil - nəsəbimin gövhəri, gücü.

Qoşun əhlindənəm, cəsur, vuruşqan.
Atam da "Şah!" deyə qazanıb ad-san.

Şaha sədaqətlə xidmət etmişəm.
Xidmətdə atam da açmış bir aləm.

Şahın düşməninin getsəm dalınca,
Qanım da, canım da dönür qılınca.

Mərhəmət qaynağı şahım atam tək
Vermişdi mənə də bir parça çörək.

Halal çörək yeyib işə gedirdim,
Şahın qapısında xidmət edirdim.

O cəfakar vəzir bir kor zavaldı,
Halal çörəyimi əlimdən aldı.

Özüm ev sahibi, malım, mülküm yox.
Bir tarladan savay bağım, ləkim yox.



Ona mənmi dedim, yoxsa fəryadım:
- Allah xatirinə əl tut! - yalvardım -

Əl tut, ədalətdən bir örnək göstər.
Rəhm et ailəmə, bir kömək göstər!

Ordudan qayıdan bir döyüşçü san,
Çörək pətəsi kəs mənə divandan.

Bağırdı üstümə: "- Kəs səsini, sus!
Get, öz oxunla vur, tap gətir ruzu.

Şah nə qəsbkardır, nə mərdümazar.
Sənin vurhavurda nə ölümün var?!

Gah qəsrə cumursan, gah qapısına.
Düşmən ki, dolmayıb şah qapısına.

Rədd ol, dilənçi tək əlini açma.
Yer billə, əkin ək, boş-boş danışma!

Azuqən yoxdursa, atdan əl çək, at.
Endir yəhərini, silahını sat!"

Dedim: - Çəkin bir az div şakərindən.
Barı Tanrıdan qorx, ey kəndir kəsən!

Mənim paltarımı, ruzumu kəsmə.
Tilsimə salmısan, son qoy tilsimə.

Yatmısan, başının altında balınc.
Mən səngər tutmuşam, əlimdə qılınc.

Sən qələm tutursan şan-şöhrət deyə.
Mən qılınc çalıram məmləkət deyə.

Sənin mürəkkəbin - xalqın qanıdır!
Mənim düşmənlərim - xalq düşmənidir.

Məndən şahim verən bağı alma sən,
Yoxsa yapışaram şah yəhərindən.

Burda tab etmədi acı, haq sözə.
Atdı mürəkkəbi mən qələmsizə.

Dedi: - Sən axmaqsan, üstəlik nadan.
Qayanı suylamı qorxudacaqsan?

Gah mənə çörək ver, su ver deyirsən,
Gah məni şah ilə hədələyirsən.

Şahı kim oturdub taxta? Mən özüm!
Mənəm nəqş eləyən gecə-gündüzü.

Ayağım altıdır şahların başı,
Tək məndən ötrüdür şah yaşayışı.

Məndən almasaydı şah hünərini,
Kərkəslər yeyərdi beyinlərini."

Mürəkkəb qabını çırpdı başıma,
Aldı atımı da, silahımı da.

Cəllada tapşırdı: - Apar zindana.
Altı il olar ki, düşmüşəm qana.

Qan olan ürəyim qəmlər yoludur.
Gecəm, gündüzüm də dərdlə doludur.

Şah aldı könlünü, onu oxşadı.
Sərvət, xələt verdi, mal bağışladı.

Gördü ki, açılıb qaşı, qabağı.
İkiqat böyütdü verdiyi bağı.



## YEDDİNCİ MƏZLUMUN ŞİKAYƏTİ

Min təşəkkür etdi şaha yeddinci,
Güləndə göstərdi bir neçə inci.

Dedi: - Nur alıram ulu göylərdən,
Dünyadan əl üzmüş bir zahidəm mən.

Mən kiməm? Gözləri gen açılan şam.
Özümü xalq üçün çox yandırmışam.

Oxuyub aqibət cəridəsini,
Tamam tərk etmişəm Yer kürəsini.

Gecə namaz üstə, gündüz orucam.
Yeməkdə, yatmaqda yox bir ilticam.

Gündüzlər yemirəm, duz-çörəyim yox.
Gecələr yatmıram, ev-eşiyim yox.

Bir köhnə məbəddə tutmuşam qərar.
Duam, ibadətim - tək pərvərdigar.

Hamı razı qalsın məndən dünyada
Deyib duam ilə salmışam yada.

Məni çağırtdırdı bir səhər vəzir.
Uzaqda oturdu, tökdü də tədbir.

Dedi: - Əzab versəm, dözməlisiniz.
Səndən şübhəliyəm, şübhəm yaman pis.

Soruşdum: - Ay ağam, nədəndi şübhən?
Mən ki, yaşayıram nə cür demisən...

Dedi: - Bəd duandan qorxuram yaman.
Ölüm istəyirəm sənə tanrıdan.

Saçırsan üstünə lənət və qarğış,
Cövhərin pislikdən, kindən yaranmış.

Qorxuram ox dəyə hədəfə bir gün,
Qorxuram bəd duan başıma düşsün.

Ədavət odundan, pis qarğışından
Bircə çınqı düşsə, od tutaram, qan!

Təkcə əlini yox, ey qoca köpək,
Boynunu sındıram, bağlayam gərək.

Nə Tanrıdan qorxdu, nə bir kimsədən.
Atdılar zindana, öldüm qüssədən.

Burda yeddi ildir zəncirlənmişəm,
Dəyirman hərləyən öküz kimiyəm.

Bağlayıb əlimi o, bir zəncirə,
Mənsə cüt əlimi ulu göylərə!

O, məni ayırmış xeyir-duadan,
Mən onun canını eldən-obadan.

O, məni salmışdır qalaya, bəndə.
Mən onun qırmışam dirəyini də.

Tanrım özü məni yetirdi şaha,
Onun bəhanəsi kəsilib daha.

Şah qucdu zahidi, üz tutdu xeyrə -
O kafir öldürən mücahid şirə:

- Düz sözü bircədir: qorxur tanrıdan.
Aldığı nəfəs də yalandır, yalan!

Zahid duasından nə cür qorunur?
Başı pambıq ilə kəsir o quldur.



Daşı öz başına düşdü vəzirin,
Lənəti özünü yandırar yəqin.

Onun küt başını ayıraram mən
İyrənc bədənindən, əmmaməsindən.

Götür, sənin olsun bütün sərvəti,
Bağı, malı-mülkü, ağ imarəti.

- Xayır! Özün üçün qatla o fərşi.
Mən çərxəm, bəlkə də çərxin günəşi.

Verirsənsə, bundan yaxşısını vur.
Xasını vermişəm, ən xasını ver!

Sonra o, çalğısız başladı rəqsə.
Və elə getdi ki, görmədi kimsə.

Bəli, haq yolçusu, ər vardı onda,
Göyü qaldırardı məğrur başında.

İndiki dəstələr bir azca nacins.
Üzü adam üzü, içi div, iblis.

Xalis bir şərabı tapınca, inan,
Min qora yeməyə məcbur olursan.

Dəryada nə üçün bulanıqdı su?
Çünki çirk axıdır min zülmət quyu.

Kimdir kamil adam? Xamdan, nakəsdən
Cibini bağlayan, əlini üzən.

## BƏHRAMIN ZÜLMKAR VƏZİRİ ÖLDÜRTMƏSİ

Günəşin üzündə Yerin kölgəsi,
Ağ toza bürünüb qara pərdəsi.

Bu torpaq kürədə Bəhramın qəmi
Asıldı bağrından qara daş kimi.

Nə cür çıxarmalı güldən tikanı?
Hardadır qurtuluş, nicat imkanı?

Bu cəfakeş cahan müsibətdədir,
Çarə zülmdə yox, ədalətdədir.

Vəzirin işləri yada düşəli,
Qalır qulağının dibində əli.

Yatmır, yata bilmir xəcalətindən.
Çimir də etmir heç gecə sübhəcən.

Dan üzü zülmətlə mübarizədə
Günəş reyhan əkir mavi kuzədə.

Yağış, yağmur görən reyhanlar kimi
Aləmə dür səpdi şahın şah qəlbi.

Əmr etdi qurulsun bir dar ağacı,
Bir də qəbul taxtı, - saray gültacı!

Yanında məmurlar, əli qılınclı,
Əyləşdi taxtına şah - qızıl taclı.

Ədalət dəvəsi çapır zirvədə,
Şöhrətli kişilər xeyli qəlbidə.

Uca dağlar kimi tamaşaçılar
Dünyaya əzəmət, ləyaqət saçar.

Zülmkar vəziri dartıb birtəhər
Başdan ayağadək zəncirlədilər.

Asdılar dipdiri dar ağacından,
Kor bir oğru kimi naçar verdi can.



"Nə qədər qalxsa da göyə sədası,
Bir gün yerə gəlir zülmün arxası.

Bədnamlıq gətirir xəyanət ancaq,
Hər pisliyin sonu pis bir oyuncaq.

Vay toxumu əkən bir gün vay dərər,
Onu haqqın əli gora göndərər.

Ədalət acizdir demə heç zaman.
Ədlin hökmündədir yer, göy, asiman.

Kim qoyursa çəkic, mıx qabağına,
Kündə hazırlayır öz ayağına".

Saldı xatirinə el həyatını,
Çobanla köpəyin əhvalatını.

Çağırdı, çobana bəxş etdi şahlıq,
Həm lütf göstərdi, həm xeyirxahlıq.

Kimsə bir-birinə olmasın günü
Deyib dibdən kəsdi zülmün kökünü.

Gördülər şahbağı açıb min çiçək,
Dəmiri zər olmuş, palazı ipək.

Gücləndi ordusu, xəzinəsi də,
Düz ötdü, dayandı dağ zirvəsində.

## ÇİN XAQANININ BƏHRAMDAN ÜZR İSTƏMƏSİ

Vəzir gəbərmişdir, eşitdi xaqan,
Əl çəkdi Bəhrama əngəl olmaqdan.

Elçilər göndərdi, üzr istəyərək.
Şahsız bir nəfəs də almadı gerçək.

- Vaxtında öldürdün! - dedi - vəziri,
Bəlkə vəziri yox, fitnəni, şəri.

O, məktub yazaraq çağırdı bizi,
Aldı da, çaldı da ürəyimiz.

O - adamaldadan, mən də - sadədil.
Başımı, beynimi yedi o qatil.

Yazırdı: "- Yol açıq, qızıl da bol-bol.
Yatır umursansa, dayanma, tez ol!

Cama əsir olub şah öz bağında,
Bacarmır üzünə su vurmağı da.

Sənə dəmsaz olmaq məqsədim, qəsdim...
Qılıncı sən gətir, başı mən kəsim."

Şahdan xəbər tutub mən anladım ki,
Hər şey əksinədir daşla zər təki.

Şah - barış zamanı - bağlar reyhanı,
Şah döyüş zamanı - dağlar qaplanı!

Qulağı həlqəli bir qulam şaha,
Türk idim, önündə həbəşəm daha.

Qızım kənizindir, ona özün bax.
Tacım astananın tozudur ancaq."

Xarabkar vəzirin hər əsrarını,
Xəyanət timsalı məktublarını

Yığmışdı, vermişdi gedən elçiyə,
Şəxsən Bəhram şaha çatdırsın deyə.



Elə ki, məktublar əlinə keçdi,
Katib qələmi tək şah itiləşdi.

- Şükür, başımızdan açdıq bəlanı.
Gərək möhkəm olsun haqqın divanı.

Ədalət ülkəri - şahın mayağı,
Oldu gözlərinin qarası, ağı.

Ədlin ulduzunu görəndən bəri,
Ona qurban etdi yeddi peykəri.

Xəzəl xəyalları şah ayaqladı.
Yalnız ədalətə könül bağladı.

## BƏHRAMIN SONU VƏ MAĞARADA YOX OLMASI

Bu inci sapına inci düzən ər
Yerin qulağına taxanda gövhər

Dedi: - O zaman ki, yeddi gülnəfəs,
O yeddi əfsanə, o yeddi günbəz,

Bəhrama bəxş etdi yeddi qızıl cam,
Beyin günbəzini dinlədi Bəhram:

- Bu torpaq günbəzli sənəm evindən
Çəkin ki, çəkinsin ölüm də səndən.

Qaynadı, od saçdı alovlu kürə:
- Neçin qulaq asdın əfsanələrə?

Gördü busat açmış göygünbəz fələk
Bütün gümbəzləri alt-üst edəcək.

Tapşırdı göylərə yeddi günbəzi.
Başqa bir günbəzin tapıldı izi.

Bir ölməz günbəz ki, qiyamətədək
Orda məst oluban uyusun gərək.

Yeddi möbid oğlu möbid səslədi,
Yeddi mərdə verdi yeddi məbədi.

Burda alışdırdı ocağı, odu.
Yeddi günbəz yeddi atəşgah oldu.

Altmışa çatanda o sərvin yaşı,
Yasəmən bitirdi bənövşə saçı.

Əl çəkdi özünə səcdə qılmaqdan,
Tanrı səcdəsinə əyildi müdam.

Bir gün təxtü-taca əlvida etdi,
Başında dostları, şikara getdi.

Elə çapırdı ki, o mərd süvari,
Ov deyil, özüydü ovu, şikarı.

Qoşun səpələndi ovlağa doğru,
Yığdılar nə qədər maralı, guru.

Çoxu gur gəzirdi, Bəhram isə gor.
Çapırdı, üzündə ilahi bir nur.

Təklik goru hara, çöl guru hara?
Tor atdı içində yatan şikara.

Ahu, gur axtarma şar yerdə, ey nur.
Onun ahusu ah, guru da gordur.

Dikdiri aşanda dayandı Gur - xan,
Gəldi, bir gur keçdi düz qabağından.

Nicat mələyidir, dərk elədi şah,
Cənnətin yolunu nişan verir, ah.



Qıy vurub atına cürət gətirdi,
Sürəti üstünə sürət gətirdi.

Şikarın ardınca uçan o tərlan
Keçdi biyabandan, xərabəzardan.

Dörd qanad taxmışdı sanki kəhəri,
Ardınca qaçırdı xidmətçiləri.

Bir mağara vardı çölün sonunda,
Yay sərinləyərdi buz quyusunda.

Yol yox qapısına, bacası vardı.
O da quyu kimi dərin və dardı.

Gur getdi, qorxmadan kahaya girdi.
Arxasınca gedən şah özgə şirdi.

Dərin mağaraya yetirdi sanki
Özüylə Key - Xosrov xəzinəsini.

Mağara pərdəsi gizlətdi şahı.
Qucdu öz yarını, oldu pənahı.

Keşikçi cavanlar orda qaldılar.
Kahanın ağzında məskən saldılar.

İçəri girməyə tapmadılar yol,
Geri qayıtmağa cürətləri yox.

Yola göz dikdilər soyuq nəfəslə,
Haçan görünəcək ağ tozlu şölə?

Nəhayət, gözlərə bir şölə düşdü.
Qoşun dörd tərəfdən gəldi, yetişdi.

Baxdılar kahaya, bildilər olan:
Başında aparmış möhrəni ilan.

Açdı keşikçilər böyük əsrarı,
Kaha necə uddu mərd şəhriyarı.

- Şahı cəzb elədi şikar - möcüzə,
Sürdü köhlənini bu dar dəhlizə.

Heç kəs inanmadı bu bakir sözə,
Kim kömək eləsin o köməksizə?

Dedilər: - Bu söhbət bomboş xəyaldı,
Hansı ağılsızlar ağzına aldı?

Dağdı, allah haqqı, filbədən xosrov,
Bu darısqal yerə girə bilməz o.

Bilən yox: bağ fili meysiz hallanıb,
Yuxu görüb Hindistana yollanıb.

Fələyin yemidir fil bədənli ər,
Fələk bağdayanı kim aça bilər?

- Taxtın xəlifəsi hanı, ey çəri?
Möhkəmcə döydülər keşikçiləri.

Yazıqlar ah çəkdi, tüstüləndi ah,
Birdən səda gəldi: - Kahadadır şah.

Siz geri qayıdın... onun işi var,
Burda iş görəcək ulu şəhriyar.

Sirdən agah oldu say-seçmə ərlər,
Girdilər kahaya ayıq, səfərbər.

Dibi bağlı kaha qaranlıq, soyuq.
Hörümçək xeyli çox, bir milçək də yox.

Soyuq mağarada isti göz yaşı,
Yüz yol aradılar hər çapıq daşı.



Şahı bulmadılar... gəzib o ki, var
Qıvrılan, açılan ilan oldular.

Qəmli gözlərində yaş sına-sına,
Xəbər göndərdilər şah anasına.

Ciyəri dağlanmış anası gəldi,
Hanı dağlar boyda oğlu, igidi?

Çoxu gözlərilə axtarır onu,
Ana ürəyilə gəzdi oğlunu.

Aradı, baş vurdu zülmət dəhlizə.
Quru tikan tapdı, gül gəzə-gəzə.

Dağ-dağ, təpə-təpə qızıl tökdü ki,
Qazsınlar kahanı, söksünlər dibi.

Gördü dar quyunu, bəs xəzinəni?
Yox, tapa bilmədi öz Yusifini.

Qarının qazdığı çin-çin çuxurlar
O yerdə hələ də durur yadigar.

Tanıyan adamlar - sirrə aşina,
"Bəhram-Gur kahası" deyirlər ona.

Orda bəlkə qırx gün torpaq qazdılar,
Cahanda nə qədər məzar qazan var.

Qazdılar, dibindən lap su çıxınca,
Heç kəs xəzinəni tapmadı ancaq.

Yerdən göyə uçmuş halal adamı
Yerdə axtarmağın mənası varmı?

Göy əhli, əlbəttə, göylərdə olar.
Yerdə sür-sümüyü qalar yadigar.

Çərxin altındadır hər xilqət, inan.
Bir anası - torpaq, bir anası - qan.

Qan anası onu naz ilə bəslər,
Torpaq anası da qoynuna səslər.

Bəhramı axtardı nahaq anası,
Bəhramı qucmuşdu torpaq anası.

Yer aldı, vermədi öz balasını,
Ana çarəsaza çarə sazını.

Topraq anasında min cəfa gördü,
Yazıq qan anası dözmədi, öldü.

Beyni andıranda qaynar qazanı,
Eşitdi Hatifdən gələn sədanı:

"- Sən ey divlər kimi vurnuxan Ana.
Qeybin quş südünü axtaran Ana!

Tanrı bir əmanət vermişdi sənə,
Aldı, apardı da öz aləminə.

Göylər aparıbsa əmanətini,
Özünü öldürmə qafillər təki.

Əl atma fələyə, öz işində ol.
Qayıt, macal azdır, dərd, əzab bol-bol."

Eşidib Hatifdən bu təsəllini,
Anası Bəhramdan üzdü əlini.

Oğlunun işləri kəsilən yerdə
Bağlı ürəyini açdı min dərdə.

Tacını, taxtını varisə verdi.
Varisi olanlar məgər ölərmi?



Sən ey Bəhram-Gurdan yazan Nizami,
Gəl, əbəs axtarma son o məzarı.

Nə qəbri bəllidir, nə qəbristanı.
Kim qaytara bilər gedən insanı?

Baxma ki, bir zaman gur ovlayardı,
Gur belində dağı, damğası vardı.

Axtarma adının dağ olduğunu,
Gör necə dağladı zəmanə onu.

Min gur ayağını qıran filbədən
Qurtula bilmədi gur təpiyindən.

Bu torpaq evində iki qapı var:
Bu başdan girənlər o başdan çıxar.

Ey eni-uzunu beş qulac insan,
Dörd küplü boyaqçı dükanındasan!

Tanı yer adlanan bu əjdahanı,
Öz rənginə salır hər bir loxmanı.

Cismini, təpəndən dırnağınacan
Əmanət almısan Yer adlı xıltdan.

Bu rənglər, donlar ki, sonu küldü, kül.
Nə üçün onlara verirsən könül?

Üzləri örtülən, gedənlər ki, var,
Bu rəngdən, qokudan xilas olublar.

Gedənlərdən heç kəs qiyamətədək
Örtülü üzünü göstərməyəcək.

Gecə xətərlidir, yol da qorxulu.
Darğa çoxdan yatıb, ayıqdı oğru.

Torpaq düşgününü torpaq doyurar,
Nəfsinə qul olan daim alçalar.

Ey əli yuxarı, insan oğlu, sən
Neçin əl altında qan-yaş tökəsən?

Qalx, ucal, göy sənin əlaltın olsun.
Qaç yerdən, göy uçar qanadın olsun.

Yerə baxma. Göyə yüksələn insan,
Ta ki, ucalıqdan yıxılmayasan!

Göyün ulduzları həmayilindir.
Hamsı vəsaitin, dürrün, hilindir.

Sənsən gen macalı darısqallığın.
Sənsən Təngluşası, bu xəyal bağın.

Neçin özgələrə açdırasan fal?
Sənsən onlar üçün ən yaxşı timsal.

Səndən nur alanlar parlaq, üzü ağ.
Neçin ulduzlardan düşmüsən uzaq?

Nöqtəni bəsləyən bir xətdən qeyri
Bütün hərflər sənin dəftərindədi.

Haqqı tanımağa bələdçi sənsən,
Haqqa şükr eləyən mələk özünsən.

Yaxşıya yaxşı bax, pis olmayasan.
Göz qoy yırtıcıya, can yırtmayasan.

Yaman da, yaxşı da sənin malındır,
Lakin səadətin öz kamalındır.

Döysən, çörəkli bir qapını döy sən,
Dağa çıx, heç bir kəs çıxa bilməyən!



Göz yumma işığa... pərdəli gözlər
Mələkdən, saflıqdan, göydən gen düşər.

Göy üçün örnəkdir bu yer, bu torpaq,
Sən ev sahibisən, mələklər - qonaq.

Sən bu dörd cəhətli bazardan çıx, get.
Sən bu dörd ünsürə, yetər, vida et!

Dörd tüstü bacası olan hücrədən
Cəzana gəlməsin könül, göz nədən?

Oğru evi kimi qapısı iki.
Əyyar torbası tək dördguşədir ki...

Zorla qovulmamış özün çıx kənddən,
Öz öküz yükünü eşşəyə ver sən.

Ruhun qanaddır, uç... ağırdı cismin.
At, yükün az olsun, miniyin yeyin.

Ruhu bədənindən bərk tutanların
Ölümü nəhs olur, halı da şaşğın.

Ruhu kəşf edənlər - ən böyük hünər.
Onlar bədənsiz də yaşaya bilər.

Ey bəhanə gəzən, güman etmə çox:
Bu iki aləmdən başqa heç nə yox.

Bir kaha boydadır qavradığımız,
Əslində dünyaya sığışmayırız.

Bizdən xeyli uzaq min-min xilqət var,
Bu nurdan, zülmətdən xəbərsiz, naçar.

Yaradılan çox-çox, yaradansa bir.
Bunu anlamayan bir heç, bir qəbir.

Bu yeddi lövhəli, dörd soylu nəqşi
Bircə qələm çəkib, yox özgə kişi.

Yeddi yox, yetmiş qat olsa da göylər,
Vahid iradəyə təslimdir bəşər.

Birdir ilkin təkan, sonuncu pərgar,
Birliyi pozmağa qadir gücmü var?!

Çox da fikir vermə sən ikiliyə,
Dərk et kainatı bir vəhdət deyə.

Birlikdən düzəlib bu qoşalıqlar,
Qoşalıq gedərsə, birlik yenə var.

Ayaqüstü gəlir bu evə hər kəs,
Elə o cür gedir. Getməyə bilməz.

Bu evdə asta gəz, oxdur gözü. ox.
Bəzən gec tutsa da, tez öldürür çox.

Demirəm acizi tez verir bada,
Heç kəs unudulmur haqq-hesabında.

Yüz min hoqqa, oyun çıxarsan da sən,
Öz ruzundan artıq yeyə bilməzsən.

Göyün buz bağlamış bir hovuzu var,
Buz ilə nə qədər fəxr etmək olar?

Neçin büzüşürsən, görüb rüzgarı?
Ölməmişdən öncə diri ol barı.

Aləmi çarx kimi hərlənənlər də
Bir gün yerdə qalır, qupquru yerdə.

Burulan çərx onu gör necə burdu,
Heç kəsə qalmayan... qəsdinə durdu.



Bu qoca dünyanın nemətlərindən
Yalnız öz payını vaxtında dad sən.

Səni həlak edən balta. qılınc, ox
Bir az yüngül olsan, qıvrılmazsan çox.

Bir az sən qanadlı. uç yüngül, asan.
Ölməmiş, ölümdən can qurtarasan.

Azalt yeməyini, evini xar et,
Sürünmə, dünyadan qanadlarla get!

Sən nicat taparsan iki köməklə:
Çox-çox bəxş eləmək. az-az yeməklə.

Kimdir yer üzündə ən kamil insan -
Özgəyə çox verən, özü az alan.

Çatıbmı rütbəyə çox-çox yeyənlər.
Yaxud az verənlər, az işləyənlər?!

Kimlər ki, az verir ayranı, yağı.
Onu möhkəm tutur darğa şallağı.

Kimdir gör bu kənddə hörmətli insan."
Yaxşılıq edənmi, ya qızıl yığan?

Dünyada kamillər, kəmlər də çox-çox.
Dünya heç birinə qalmayıb ancaq.

Sənin ətəyini, əlini kəsən
Bir əmələ nə cür könül verəsən?

Sən gül tök başına hər imarətin.
Torpaq. kül deyilmi əsli, fitrəti?

Fələyin torundan tez qaç. tez çəkil.
Sakın. dar ağacı olar minbərin.

Məsih diri-diri çəkildi dara,
Sakın, bircə Məsih bəsdir rüzgara.

Yer əhli qalxsa da ərşdən o yana,
Yer yenə çəkəcək onu kamına.

Tacını fələyə ucaldan belə,
Lap yeddi ölkədən bac alan belə

Bir də görürsən ki, getmişdir bada.
Batmışdır başı da, başağrısı da.

Yerin xəzinəsi ilansız deyil,
Səni xar etməyə o çoxdan mail.

De, hansı bağda var tikansız xurma,
İlansız nuşmöhrə, ya xalsız alma?

Yaman yaxşı ilə edir həsbhal,
Şirnidə zəhər var, zəhərdəsə bal.

Bircə şirni yeyən varmıdır məgər
Ardınca yeməsin tikan, ya neştər?

Şan quran arıya bənzər bu rüzgar:
Quyruğunda neştər, ağzında bal var.

Zülmət, nur pərdəsi altında bəzən
Ulaq uzaq olmur İsa mehrindən.

Göstər taxt ucaldan bir tac oğlunu,
Sonda Yer əzabla udmasın onu!

Yarəb, bəxş et bizə elə bir əkin,
Peşmanlıq verməsin, bəhrə, bar versin!

Mərhəmət qapısı aç Nizamiyə,
Qapında bəxş elə tac Nizamiyə.



Mənə sən vermisən əzəldən ad-san,
Son da yaxşı olsun, ulu Yaradan!

## KİTABIN SONU VƏ ƏLAƏDDİN KÖRPƏ ARSLANA XEYİR-DUA

Mən şahın əksini Rum çeşnisinə
Gəncədə həkk etdim bu nadir lələ.

Şahın ləl üstünə yazdım adını,
Özü cilalasın istedadını.

Çin taclı, Rum üzlü şahım alır bac -
Çin cizyə verməkdə, Rum isə xərac.

Dinin rüknüdür ki, çatmışdır ona
Bəxtiyşu bəxti də, İyşu taxdı da.

Əlini öpməyə yer-göy qalxışar.
Onun cəlalıyla kainat yaşar.

Göy ona xidmətlə alır göy payı -
Bir cüt ağ çörəyi - Günəşlə Ayı.

Özünün müşk saçan mürüvvətilə
Paylayır aləmə dürr, inci, lölə.

Yerdən ərşə qədər bomboş, ağ köpük.
Bircə nur qaynağı odur - saf, böyük!

Sailə səxada yox bərabəri
Məkkənin qumundan çox verir zəri.

Od, atəş xədəngi yandırdığı tək
Onun qılıncıyla yanır daş-kəsək.

Tükü iki bölən söyüd oxu var -
Dağın göbəyindən nafə çıxarar.

Sübhün süngüsünü qapır zirehi,
Süngüsü qoparır qəmərdən zehi.

Can zirehi bilir o, altı yönü,
Yeddi fələk onun - kəmər düyünü.

Ey şah, bel bağlayıb sənə Nizami,
Sənin əlindədir dövrün nizamı.

Yer sənin qədrinlə ucalır göyə,
Göylər fəxr eləyir sən varsan deyə.

Suda göy şəklisən - yaxın və uzaq,
Aynada günəşsən - təmkinli, parlaq.

Sənsən dövrümüzün qaimi, ey pir!
Qaim gələ bilmir, səndən çəkinir.

Hamıdan üstünsən mələklər kimi,
Hamıdan ucasan fələklər kimi.

Adına bağladım bu ləl kitabı,
Adından nur alan gözəl kitabı.

Kitabın tacına ləli taxanda
Adını yazdım ki, çatmasın yada.

Bəyənsən, əsərim kəsərli, qadir -
Sənin taxtın kimi yüksələcəkdir.

Tikanın üstünə bal tökən şair
Ona tərəngəbin - təbərrik deyir.

Yox, mənim könlümün başqadır barı -
O, südə qatılmış baldır, şan balı!

Onun hər misrası balgöbək əncir,
Badam ləpəsi tək saf, ləzzətlidir.

Hüsnündən nur alar surətpərəstlər.
Üzüm şəhdi içər kim məzmun istər.



Bağlı sandıqçadır - inci, dürr dolu.
Gözəl təşbehlərdir açarı, yolu.

Düşməz hər boyuna o dürrün sapı,
Gərək açar tapsın, açılsın qapı.

Yamanlı, yaxşılı hər sətrim zərdir,
Rəmzdən, hikmətdən işarələrdir.

Mənim hər əfsanəm ayrılıqda, bil
Sonsuz xəzinədir, əfsanə deyil.

Hansı bir əndamın gödəksə donu,
Mən öz şerim ilə uzatdım onu.

Uzun don geyibsə bir şux güləndam.
Donunu beytimlə qayçılamışam.

Al, töhfə verirəm, qollu-qanadlı.
Sümüyü yağlıdır, iliyi dadlı.

Şerə cilvə verib göstərdim hünər,
Hüsnünə sən, dedim, salasan nəzər.

Xərci az, gəliri çoxdur şerimin.
Bir ləl sandığı var hər bir sətrimin.

Tər, ipək yarpaqlı qönçələr kimi
Hər bakirə beytim alır min qəlbi.

Hər sətri - qızıldan, hər sözü - dürdən
Saf şerim xalidir boş ibarədən.

İkicə hərf ilə danışsam da mən,
Tikan çıxarıram milyon ürəkdən.

Mən Yeddi sirrimin xəzinəsinə
Min bəzək vurmuşam, bəxş edib sənə.

Bəzək vurmuşam ki, sərraf gözlərin
Vüsətdən həzz alıb bir az dincəlsin.

Bağrı çox genişdir yeddi otağın,
Dolan, şövqə gəlsin gözün, qulağın.

Mənim gözəl şerim - incə gülbədən
Çəkinir, yaşınır dargözlülərdən.

Yeddi xəzinədir bu yeddi nigar,
Zülfünün altında qızıldan açar.

Yalnız açar tapan sandığı açar,
O sandıq üzünə gövhər, dürr saçar.

Neyşkər qələmli bir nəqqaşam ki,
Bağım xurma verir şan balı təki.

Hünər tarlasını qələmim biçdi,
Sünbülüm yanında Ütarid heçdi.

Kim deyir, sözçünü xoşlamaz sözçü?
Aldı sünbülümü Sümbülə bürcü.

Şah baxsın təbimin söz qalasına,
Zərgərsən, dürrümü buyur, al, sına.

Ruyindiz qalası mənə borcludur,
Versin hər sətrimə qızıl, ya billur.

Yox, borclu olsa da, qarnı boş deyil,
Misdən tökülsə də dirhəmi var, bil!



O dağın dəmiri yüz fərsəngədək
Ləl, almaz saçır - hər bir şimşək.

Dostların ovcuna ləl qoyur şəksiz,
Düşmən dabanına biz batırır, biz.

Qala yox. Kəbədir müsəlmanlara.
Müqəddəs məbəddir daim onlara.

Ruindiz - möhkəmlik. sərtlik rəmzidir,
Yerin qızıl mıxı, tunc mərkəzidir.

Ona göz dikənlər gəlib çatmadı,
Qorxudan zirehi-zəhri partladı.

Ona bir qapıdır - Cəbəl - ür - Rəhmə,
Bu - Qubeys tacında dönmüş kəmərə.

Memarın, pərgarın xətti var olsun.
Günəşli nöqtəsi ərşə qoyulsun.

Hasar əhatəli qaladan yəqin
Aparar məktubu şaha göyərçin.

Aparsın göyərçin, çıxsın yuxum çin,
Dürrü dada çatan bir mərdə versin.

Mən öz diyarımda dustaq kimiyəm.
Arxam, önüm bağlı... dairəm möhkəm.

Naməni bağladım quş ayağına.
Azadlıq gətirsin qoy şahdan mana.

Ey Xətay geyimli, ey xəta örtən!
Fələyi qul edən hökmünə əhsən.

Sənə məhəbbətlə coşanda qəlbim.
Bir gör nə yaratdı sehrbaz təbim.

Beş yüz doxsan üçdə gül açdı təqvim.
Ad-sanıma layiq dastan bitirdim.

Orucluq ayının ondördü idi,
İkindi çağıydı, bəli, ikindi.

Sənə ərmağanım mübarək olsun,
Yeri taxtın kimi qoy yüksək olsun!

Dirilik suyu iç bulaq beytimdən,
Ta ki, Xızır təki ölməzləşəsən.

Ey şah, əbədi qal bu şahlığında,
Elin gözü səndə, sən şadlığında.

Əgər inciməsən, üzürlü saysan.
İncə bir mətləbi açardım əlan.

Sənin bayramların təmtəraqlıdır,
Əbədi bayramın mənə bağlıdır.

Sənin min xəzinən gəldi-gedərdir,
Mənimsə gövhərim başqa gövhərdir.

Məclisin beş yüz il dəyməsin daşa,
Yenə dağılacaq... Sən uzun yaşa!

Ancaq xəzinə ki, verdim əlinə,
Min il yol yoldaşı olacaq sənə.

Hikmətli şerimdən ilham al müdam,
Sənə alqışımla tamamlayıram:

Qızıl üzüyünə bəxtin qaş olsun,
Fələk üzəngində bir fərraş olsun.

Dövlətin ən böyük bir dövlət olsun,
İşin başdan-başa səadət olsun!

***Gəncə, 14 ramazan 593-cü il.***
***Miladi təqvim ilə:***
***31 iyul 1196.***

***Farscadan çevirmənin tamamlanması tarixi:***
***24 ocaq 1984, Türkan***



# İZAHLAR VƏ ŞƏRHLƏR[1]

## *LİRİKA*

1. Sən zənəxdan quyusundan çıxar öz Yusifini
Bir vəfa dolçası göndərdi ki, şəfaqət verəsən.

Zənəxdan quyusu - çənədə çökək. Vəfa dolçası - burada: busə, öpüş mənasında.

İncil və Quran kimi tarixi kitablarda haqqında bəhs olunan Yusif Yəqub oğlu onun gözəlliyinə və atası tərəfindən hədsiz sevilməsinə paxıllıq edən qardaşları tərəfindən quyuya salınan və su arayan karvan əhli tərəfindən xilas edilən əfsanəvi qəhrəmandır. Misir sultanına qul kimi satılan və onun qadını Züleyxa tərəfindən sevilən Yusifin başına gələn əhvalatlar əsrlərdən bəri Şərq şairlərinin diqqət mərkəzindədir. Burada həmin əfsanəyə işarə vuran Nizami zənəxdan quyusuna düşdüyünü bildirir və xilas üçün sevgilisindən vəfa dolçası umur.

2. Qul Nizaminindi coşan, yoxsa dərin dəryadır.
Sarbanam, bəlkə vəfadan mənə xələt verəsən.

Bu beyti açıqlayan professor Mübariz Əlizadə yazır: Keçmişdə uzaq səfərə, xüsusi dini ziyarətgahlara gedən karvanları ayrıca

1. Bu bölməni və ümumən kitabın elmi şərhlərini hazırlarkən Azərbaycan alimlərindən professor Mübariz Əlizadə, professor Əkrəm Cəfər, professor Rüstəm Əliyev, filologiya elmləri doktoru Azadə Rüstəmova, filologiya elmləri namizədi Xəlil Yusifov, filoloq Q. Məcnunbəyov, filologiya elmləri namizədi Nüşabə Araslı, türk alimi M.Nuri Gəncəosman, İran alimlərindən Vəhid Dəstgerdi, Səid Nəfisi, «Sirlər xəzinəsi»nin ruscaya tərcüməçisi Marietta Şaginyan və başqa nizamişünasların monoqrafiya və tədqiqatlarından, məqalə və şərhlərindən, qeydlərindən tənqidi surətdə bəhrələnmişik. Ölüb gedənlərin xatirəsinə sonsuz minnətdarlığımız, yaşayıb-yaradanların zəhmətinə böyük təşəkkürümüzü bildiririk- X R

bələdçilər müşayiət edirdi. Çavuş adlanan bu bələdçilər karvançıları ruhlandırmaq üçün yol uzunu, mənzilbaşı oxuyar və axırda sağ-salamat məqsədə çatanlardan xələt alardılar. Sevdiyi gözəlin qarşısında özünü bələdçi-çavuş adlandıran şair məhəbbəti və xidmətləri müqabilində bircə xələt umur - vəfa!

3. Səni bağda görən güllər pərdə çəkdi üzünə,
Reyhan zünnar bağlamağı rəva gördü özünə.

Zünnar - ip. Xüsusi mənada zünnar - bütpərəst, atəşpərəst və xaçpərəstlərin bellərinə bağladıqları ip. Müsəlmanlardan fərqlənmək və dünya nemətlərindən pəhriz saxlamaq, zahidcəsinə yaşamaq əlaməti olan bu qurşağı qaba yundan hazırlar və qırmızı rəngə boyarmışlar. Beytin mənası budur ki, səni gözəlliyinin mərtəbəsindən heyrətə gələn güllər, reyhanlar misilsiz müsəlman qızı ilə yanaşı dayanmağa cəsarət etmədilər, buna görə zünnar bağlamağa məcbur oldular.

4. Gəlin bəxtim, bəzənsən də, düyün, toy
Bu doqquz aynalı aləmdə yoxmuş.

Doqquz aynalı aləm - göyün doqquz qatı. Şair demək istəyir ki, yalnız az ömürlü səadət məqamları var, cahanda əzəli, əbədi səadətə heç kəsə nəsib olmayıb.

5. Bal yeyən milçəkdi, bəs neçin yanan pərvanədir?
Oğru qalmış, doğruya haqsız cəza lapdan çatar.

Professor Rüstəm Əliyev bildirir ki, haqsız cəzaya məruz qalanlar dedikdə şair öz dövrünün əyyarlar zümrəsini, «çevik və hünərli kişiləri» nəzərdə tutur. İstismarçı varlıların əmlakını çalıb çapan və yoxsullar, cəfakeşlər arasında bölüşdürən əyyarlar şairin rəğbət və tərənnüm obyektidir.

6. Bir gözəlin eşqi salıb qəlbimə od... qəşəng adı
Zöhrədi ki, al günəşi seyl - sirab edər gedər.



Ola bilsin ki, şeir, doğrudan da, Zöhrə adlı gözələ həsr olunmuşdur. Qəzəlin orijinalında Zöhrə və zəhr anlayışlarının fonetik bənzəyişindən məharətlə istifadə olunmuşdur. Şair deyir ki, Zöhrə adlı gözəlin bircə ləhzə görünməsi həm Zöhrə ulduzunun (Veneranın, gözəllik, musiqi və sehr ilahəsinin), həm də günəşin zəhrini, ödünü suya döndərir, onların igidlik və cəsarətini əlindən alır. Gözəlin hüsnü qarşısında günəş belə sönük görünür.

7. Aləmi odlandırır şəkkər ləbinlə ud xalın,
Udla bir şəkkər səpən məcmər mənim olsun gərək.

Yandırılanda xüsusi rayihə saçan ud - qara rəngli ud ağacı Nizami dövründə başlıca olaraq Hindistandan gətirilər və ondan manqal odunu kimi istifadə olunarmış. Üstünə şəkər səpilən ud manqalı daha yaxşı yanır. Gözəlin dodaqlarını şəkərə, xalını ud ağacına bənzədən Nizami onun surətini və varlığını şölə çəkən, ətir saçan ud manqalı kimi səciyyələndirir.

8. Şirvanı şah bilərək başına and içdi könül,
Gör, Nizami, yuxuna hanki susay gəlmiş idi.

Qəzəl Nizami dövründə Azərbaycanın və Zaqafqaziyanın ictimai, siyasi həyatında mühüm rol oynamış Şirvanşah Əxistana (1160-1196) həsr olunmuşdur.

# QƏSİDƏLƏR

1. Nəfəsimin ildırımı uca səsli zəngə bənzər,
Bayraqlaşan qələmimin sancıldığı yer - cahandır.

Nizami öz şair nəfəsinin dərinliyi və qüdrətilə öyünür və poeziyasının əzəməti ilə bütün dünyanı fəth etdiyini bildirir. Beyti açıqlayan professor Rüstəm Əliyev yazır ki, birinci misradakı bənzətmənin iki funksiyası nəzərə alınmalıdır: a) Keçmişdə şah qaravulunun başçısı gecələr zəngi çalarmış ki, keşikçilər yatmasın, ayıqlığı itirməsinlər; b) Şahın hərbi səfərlərində, yaxud səyahətlərində xüsusi zəng çalanlar onun gəlişini xəbər verərmiş,

2.Keyqubadın şah tacından çox ucadır qayəm mənim,
Cah-cəlalım, şan-şöhrətim Gürxan geyən qəbadandır.

Yəni: başımdakı fikirlər o qədər əzəmətlidir ki, əfsanəvi İran şahı Keyqubadın qızıl tacı bu əzəmət qarşısında kiçik görünür. Poeziya cəlalım o qədər yüksəlmişdir ki, türk hökmdarı Gürxanın şah libasını geyinməyə haqlıyam.

3. Mən - kainat məşəliyəm, mən - dördüncü qatda günəş,
Mən - ikinci İsayam ki, xoş nəfəsim bir Loğmandır.

Poeziya göylərinin günəşi mənəm. Nəfəsimin, şeirlərimin gücü Həzrət İsanın nəfəsi kimi ölüləri diriltməyə qadirdir.

4.Söz mülkündə hakim mənəm. Kim, söyləyin mənim təkin
Sahib - qiran qüdrətilə zəfər qapısı açandır?

Sahib - qiran (qiran sahibi) - xoşəxtlik ulduzu altında doğulan deməkdir və əzəmətli hökmdarlara aid edilən epitetdir. Nizami özünü poeziya kainatının hökmdarı, ən ulu tacidarı adlandırır və bu epiteti öz üstünə götürür.



5. Kəşfiyyatçı əql ordumu göndərirəm ön cəbhəyə,
Ədəb fəzlim ayıq-sayıq... silahlanmış pasibandır.

Beyti açıqlayan professor Mübariz Əlizadə göstərir ki, keçmişdə şahlar və el başçıları səfərə çıxanda irəli kəşfiyyat dəstəsi göndərər və qarşıdakı şah düşərgəsini nəzarət altında saxlardılar. Özünü poeziya şahı adlandıran Nizami idrakını kəşfiyyatçı, ədəb və fəzilətini isə keşikçi hesab edir.

6. Yemlədiyim ulduzlara mənəm verən ilk təkanı,
Pak dirilik suyu mənəm, onlar kasa, ya fincandır.

«Yemlədiyim ulduzlar» dedikdə Nizami saray şairlərini nəzərdə tutur. Onlar Nizaminin sözlərini, fikirlərini oğurlamaq hesabına şairlik edir, şöhrət qazanır və ulduz kimi parlayırlar.

7. Görsə inco, pak xəttimi şərəf tapar İbn Müğlə.
Şerimdəki cadulara İbn Hani də heyrandır.

Şair özünü məşhur siyasi xadim və ərəb xəttatı, məşhur nəsx xəttinin yaradıcısı İbn Müğlə (939-cu ildə vəfat etmişdir) və görkəmli ərəb şairi, natiq, sofist və mübahisə ustası İbn Hani (937-972) ilə müqayisə edir.

8. Umsan Misir bələsanı, məni dinlə, baldı nitqim
Xurma kimi dadlı, şirin, qaymaq tutan bir lisandır.

Şair «bələsan» və lisan sözlərinin fonetik yaxınlığından istifadə edir. Poeziyasının əhəmiyyətini və dəyərini Misir bələsanı(balzamı) və xurmasının funksiyası ilə müəyyənləşdirir. Xurma yalnız şirin meyvə deyil, həm də insanı bir sıra xəstəliklərdən qoruyan nemətdir. Nizami öz poeziyasının da belə bir keyfiyyətə malik olduğuna işarə vurur.

9. Göy sirrini nurlandıran mənim məşəl ürəyimdə
Əbədi bir kitabım var, əmillikdə o, Qurandır.

Şair özünü Məhəmməd peyğəmbərə, poeziyasını Qurana bənzədir. Quran bütün müqəddəs kitabların yolunu, Həzrət Məhəmməd peyğəmbərliyin son nümayəndəsi olduğu kimi bu misilsiz poeziya da bütün poetik sərvətlərin gültacıdır fikrini bizə aşılayır.

10. Zəndoxuyan mobidlərin nəfəsini kəsər nəğməm,
O nəğmə ki, zəbur təki dəhşət saçan bir tufandır.

«Zənd» böyük filosof Zərdüşt peyğəmbərin «Avesta» kitabına yazılmış açıqlama və yozumlardır. «Zəbur» isə Həzrət Davud pyğəmbərin əsəri sayılır. Şair öz poeziya cadularını bu iki kitabın qüdrəti ilə müqayisə edir, misraları səslənəndə zərduştçü kahinləri - möbidləri susdurmağa qadir olduğunu bildirir.

11. Sədəf kimi halalxoram, kövhər kimi halalzadə,
İki haramzadəninsə mənə uddurduğu qandır.

Dəniz canlısı sədəf (malyuska), deyilənə görə nisan (aprel) yağışları yağanda suyun üzünə qalxır və uddığu yağış damlası ilə dərinliyə çəkilir, illər keçəndən sonra bu damla onun bətnində gövhərə, mirvariyə çevrilir. Halallıqlıqda özünü sədəfə, poeziyasını gövhərə bənzədən Nizami onun misralarını, fikirlərini çırpışdıran saray şairlərinin bu keyfiyyətdən məhrum olduqlarını bildirir.

12. Atasından xəbərsizdir xəbis. Mənim ulduzumsa
Yüksək Yəmən ulduzu tək bicbalana batırandır.

Qanunsuz doğulanlara və qanunauyğun olmayan hadisələrə «vələddüzzina» deyilir. Xəbisləri bu epitet ilə damğalayan şair onları eyni zamanda yalançı sübhə - « karvanqırana, özünü isə Yəmən ülkərinə oxşadır ki, çıxanda batır, görünməz olur. (Prof. M.Əlizadə). «Arqo gəmisi» ulduz bürcünün başlıca ulduzu olan Yəmən ülkəri (Süheyl) Nizami dövründəki müsəlman dünyasının cənubunda yerləşən Yəməndə xüsusi bir parlaqlıqla işıq saçır, bu cür adlanması da həmin səbəbdəndir. Etiqada görə bütün xeyir işlərin hamisi və bəd əməllərin qənimi olan Sülheylin (Yəmən ulduzunun) səmada görünməsi məhsul yığımı mövsümünün başlandığını xəbər verir. (Prof. R.Əliyev)



13. Nizaminin söz köhləni ildırımdır deyənlər var,
Dərd dağının de, altında görünəmsi məgər cıdır?

Nizami öz parlaq, ülvi şairliyininin alçaq bir mühitə təsadüf etdiyini bildirir. Kirli və eybəcər antihumanist ictimai quruluş istedadın parlamasına nəinki imkan vermir, üstəlik onu boğur, batırmağa çalışır. Söz köhləni dərd dağlarını daşımalı olur.

14. Mən nə mahir hiyləgərəm, nə də nadir bir oyunbaz,
Ki, görələr göz yaşım al, rəngim, ruhum zəfərandır.

Şair şikarını ələ keçirmək üçün yalandan timsah kimi göz yaşları tökən, qan ağlayan hiyləgər və oyunbaz adamların sifətini qırmızı rəngli bəqəm bitkisinə və zəfərana bənzədir, özünün bəlalərinə zidd olduğunu bildirir.

15. Toxuduğum söz köynəyi bir hörümçək torudur ki,
Hər şeirimin bir bəzəyi quru nəfəs, quru candır.

Fəxriyyənin birinci hissəsində qürurlanan, hər şeyə meydan oxuyan şair ikinci hissəsində sanki göylərdən enir və əvvəlki fikirlərini inkar edir.

16. Hümmət sikkəxanəsində öyünümmü miss quruşla,
Fil önünə necə çıxsın türkmən köçü fağır-fağır?

Bu beyt qəsidənin birinci hissəsindəki yüksək iddialı üçüncü beytə cavabdır: «Keyqubadın şah tacından çox ucadır qayəm mənim. Cah-cəlalım, şan-şöhrətim Gürxan geyən qəbadandır». Şair burada öz evini, poeziyasını türkmənlərin köç arabasına bənzədir, özünü isə türkmən, türk adlandırır. «Fil» anlayışı ilə saray mədhiyyəçilərini, çələngli şairləri nəzərdə tutur. (Prof. R.Əliyev).

17. Şeir fənni nə şeydi ki, onunla sən fəxr edəsən,
Bilmirsənmi, «yaxşı şer - ən çox yalan olanıdır.»

Dırnaq işarəsi içində verilən sözlər Məhəmməd peyğəmbərə məxsusdur ki, sonralar şairlər, ədəbiyyatşünaslar və nəzəriyyəçilər tərəfindən az qala ədəbi qanın səviyyəsinə qaldırılmışdır. Bu qanuna görə əsl poeziya, əlbəttə, inandırma yolu ilə ağı qar və əksinə, qaranı ağ kimi qələmə verməyi bacaran poeziyadır. Nizami özünün xalq həyatı ilə dərindən bağlı realist məzmunlu humanist və həqiqətşünas poeziyası ilə bu ehkamı alt-üst etmişdir.

18. Amansızam, mən hər şeyi əks edirəm ayna kimi,
Güvəndiyim bir qala var: üzüm bərkdir, canım candır.

Burada Nizami öz səciyyəsinin mühüm bir keyfiyyətini açır. vəzifəsindən, ictimai mövqeyindən asılı olmayaraq hər kəsin kimliyini bildirən, eyib və qüsurlarını aşkarlayan şəxsiyyətini və poeziyasını düzü düz, əyrini əyri göstərən aynaya bənzədir. «Üzüm bərkdir» anlayışı ilə o, özünün sərtliyini, amansızlığı və obyektivliyini göstərir.

19. Vur naxışlar evində sən yenlərimə yarlığını,
Əl yelləyim köhnələrə, köhnə hikmət baş qatandır,

Yen - pencəyin, paltonun, yaxud köynəyin qolunun ağzı. Köhnə hikmət - burada: «Yunan məbədləri» mənasında. Müsəlman şair öz tanrısından imdal istəyir ki, başqa məbədlərə sığınmasın.

20. Hasarındır könlüm sənin, xəbislərdən gözlə məni:
Bir yuvaya sığa bilməz mələk, şeytan... onu qandır.

Burada «mələk» anlayışı şairin könlündə Tanrıya məhəbbəti, «şeytan» xəbisləri nişan verir.

21. Mənə elə nişan ver ki, tapa bilim nişanəni,
Yox, yanıldım, keç suçumdan, xaliq axı binişandır.

Burada Nizami Allahı insan keyfiyyətləri ilə səciyyələndirən filosoflara, antropomorfistlərə qarşı çıxır, Tanrının nə isim, nə cism nə sadə, nə mürəkkəb, nə yerdə, nə göydə olduğunu iddia edən.



yalnız idrak qüvvəsilə qavranılan bir qüdrət olduğunu bildirən Quran müddəasının müdafiəsinə qalxır.

22. Zınqırovlar zınqıldadı, budur, yola düşür karvan.
Sən bu qədim düşərgədən can mülkünə yönəl, ey can!

Nizami poeziyasında karvan əbədi hərəkətin, idraki axtarışların və həyatdan ölümə doğru aparan yolun timsalıdır. Şair ölümün labüdlüyünü qəbul etməyə, bu dünyaya acgözlüklə, hərisliklə bağlanmağı rədd etməyə çağırır.

Zınqıldayan zınqırovlar - həyatın bitməsinə dair xəbərdarlıq. Qədim düşərgə - bu dünya. Can mülkü - o dünya, axirət.

23.Oyuncaqsan, nə qədər ki. sən bir qapı cəftəsisən.
O zəng kimi nalə çək. get istəmə, ya istə aman.

Qapı cəftəsi - maddi aləmə möhkəm bağlanmağın timsalı. Şair maddi aləmdən dördəlli yapışan, mənəvi aləm haqqında düşünməyən sərvət və şöhrət düşkünlərini taleyin əlində oyuncaq adlandırır. Bələlərinin nəsibi daim dartılan, döyülən qapı cəftəsinin, yaxud qapı həlqəsinin aqibətindən artıq deyil.

24. Dörd hərifdi «cahan» sözü... qoy üçtə dörd barmağını,
Yerdən göyə məsafə də dörd barmaqdan kəmdir. inan.

Bir şeyə «barmaq qoymaq», yaxud qulp qoymaq onun dəyərini heçə endirmək deməkdir. Şair dörddə hərfdən ibarət «cahan» sözünün üstünə dörd barmağını qoymağa, yəni maddi aləmə o qədər də bənd olmamağa. ondan üz döndərməyə çağırır. İnsan. Nizaminin fikrincə, belə bir əxlaqi kamilliyə gəlib çatırsa, bu halda ölümün çətinliyi və dəhşəti onun üçün aradan qalxır, yerdən göyə (həyatdan ölümə) məsafə dörd barmaqdan da kəm görünür.

25. Səadəti cahanda yox. Dində ara...çün bu bağda
Yusif köynəyinə oxşar nə ətir var, nə ərğəvan.

Burada dini dünyadan, mənəvi aləmi maddi aləmdən üstün tutan şair həyatı etibarsız sayır. Məgər bu bağın - bu dünyanın bə-

növşəsində Yusif rahiyəsi, ərğəvanında Yusif köynəyinin kəraməti varmı ki, ona bel bağlayasan? Şair bu sorğu ilə məşhur rəvayətə işarə edir ki, oğlu Yusifin həsrətindən üzülüb kor olmuş Yəqub onun Misirdən taxıl çuvalında gətirilən köynəyindən ətrini alaraq sağalmış, gözləri açılmışdı (Prof. M. Əlizadə).

26. Boğ şəhvəti, dinə güc ver...Küzərliyin, udun külü
Azsa, demək, rayihəsi vurar səni lap uzaqdan.

Burada şəhvət anlayışı dünyaya və dünya malına hərislik, acgözlük, sərvət və şöhrət düşkünlüyü mənasındadır. Şairin fikrincə, kamil insan, dinə, məslək qəhrəmanlığına can atmalı, şəhvəti boğmağı bacarmalıdır. Külü yox. Rayihəni artırmalıdır. Necə ki, məclisdə havanı saflaşdırmaq, ətirləndirmək üçün alışdırılan ud, kündüf, buxur, məstəki, əbir, üzərrik kimi bitkilər nə qədər kamil yandırılırsa, gülü bir o qədər az, rayihəsi bir o qədər çox olur.

27. Bilik bizim darğamızsa, tamah onun qonşusudur,
Sağdı Rüstəm, amma durur hələ Ağ div, Mazandaran.

İran şahı Keykavus məşhur pəhləvan və sərkərdə Rüstəmə, deməli zəka, və qəhrəmanlığa məhəl qoymadan Mazandarana tamahı ucbatından hücum etmiş, orada Ağ divin tilsiminə düşmüş, həm ordusunu, həm də göz işığını itirmişdir, əsir düşmüşdür. Firdovsi «Şahnamə»sindəki bu epizoda işarə edərək Nizami nəfsin, tamahın deyil, sağlam düşüncənin ardınca getməyə çağırır.

28. Əgər Qurana əl bassan, ulduzlardan qurtularsan,
Quran Mehdi beşiyidir, Mehdi sahib axır zaman

Prof. R.Əliyev yazır ki, bu beytin ilk misrasında 1139-cu ildə Gəncə şəhərini dağıtmış və üç yüz min adamın ölümünə səbəb olmuş güclü zəlzələyə işarə olunur. İkinci misrada isə ulduzşünasların belə bir xəbərdarlığı nəzərə alınır ki, 1186-cı ildə Tərəzi bürcündə Yupiter ilə Marsın toqquşması nəticəsində dəhşətli burulğan baş verəcək, dünyanın axırı çatacaq, yaşayış kəsiləcəkdir. Şair bu bəladan qurtuluşu Qurana əl basmaqda, ona tapınmaqda görür. Orijinalda Quran və qiran (ulduzların yaxınlaşması) anlayışlarının tam



olmayan omonim gücündən istifadə olunmuşdur. (Qurana sığın, qurtul ulduzlar qiranından).

29. Köhlənin Tanrı əmri, peyğəmbərin şəriə çap,
Tanrı nə cür söyləmişsə, qurulmuşdur o cür cahan.

«Tanrı əmri» deyildikdə Quran nəzərdə tutular. Şair öz oxucularını Qurani-şərifdə yazılmışlara əməl etməyə çağırır. Beytdə belə bir incə işarə divardır ki, Həzrət Məhəmməd peyğəmbər şəriəti (müsəlmanlığın qanunlar külliyatı) özünün deyil, insanların mənafeyi üçün yaratmışlar.

30. Yer xalçası - qanlı bir teşt, bic doğulmuş nəfsin də şam,
Nə vaxtacan xizəran tək o xalçanı mıxlayasan?

Nizami dövründə ölüm cəzasına layiq görülənlərin qətli nət adlanan xüsusi bir örtük üstündə icra olunarmış, nəhəng heyvan dərisindən hazırlanmış mıxçalar ilə yerə bərkidilir və örtüyə səpilmiş qumun, torpağın üstündə baş kəsilərmiş. Şair insan nəfsini, tamahkarlığın bu örtük üstündəki teştdə başı kəsilməyə layiq şam adlandırır və soruşur ki, nə vaxtacan ölüm palazını açıq saxlamaq üçün xizəran çubuqları təkin ayağını yerə dirəyəcəksən?

31. Sən göy rəngə meyl eləsən, başın qalxar fələyəcən,
Qırmızı, ya sarı uman, xəzan kimi kül olarsan.

Göy-yaşıl – matəm rəngidir, qırmızı və sarı isə həyata vurğunluğun, eyş-işrəti sevməyin timsalı. Şair yüngül həyat və eyş-işrət dalınca qaçanları elə bu dünyada ölü sayır, gül hesab edir.

32. Qıymayanda mişki qalır ahunun dar kisəsində,
Paylandımı, ipək olar, tirmə olar mişgə yorğan.

İnsan dünyaya səxavət üçün, özünü başqalarına həsr etmək üçün gəlib. Ən böyük gözəlliklərdən biri varidatını başqalarının yolunda xərcləməkdir. Mişk nə qədər ki, toplu halında ahunun göbəyindədir, nəsibi yumurta boyda dar və kobud bir kisəcikdir, dəri

torbacıqdır, ancaq paylandıqda gözəlləşir, onu tirməyə, ipəyə bükürlər.

33. Tozlu xirqə geyənlər var, qəlbi səhər, beyni günəş,
Evdar qadın gül altında göz saxlayar zaman-zaman.

Burada dərvişlərin geyiminə işarə olunur. Böyük və zəngin məzmunun (qorun, odun, közün) bəzən o qədər də diqqəti cəlb etməyən formada (məsələn kül şəklində) aşkarlandığı bildirilir.

34. Sarı qızıl yarandı ki, bəxş edəsən insanlara,
Sarılığı sevirsənsə, buyur, bağda bol zəfəran.

Şair demək istəyir ki, qızıl məqsədə yox, yalnız vasitəyə çevrildikdə yaxşıdır - insanlara xidmət vasitəsinə!

35. Nə qədər ki, sür-sümüyün dönüb sürmə olmayıb , qalx!
Şəriətin torpağıyla sürmələnib hümmət qazan.

Qocalıb əldən düşəndə böyük məllər ardınca getmək gecdir. Sümüyün sürməyə dönəndə yox, bu işə gənclikdə başla, canının sulu vaxtında şəriət qanunlarını yerinə yetir, torpağını gözünə sürmə elə!

36. Cilov çəkən qul olmamış, daşı sultan damğasını,
Xəlifənin həlqəsini öz boynunda güc, qüvvə san.

Yəni miskin kölə, qul olmaq istəmirsənsə səlcuqların sultan hakimiyyətini qəbul et, müsəlman dünyasının mənəvi rəhbəri xəlifənin himayəsi altında yaşa!

37. Boyun midbər daşımalı, budsa...damğa...bu səbəbdən
Boyun əti dadlı olur, köklük buda gətirir can.

Heyvanların boyun əti və budu ona görə qüvvəli və dadlıtamlı olur ki, onlar boyunduruq və damğa daşıyırlar; yəni zəhmət və xidmət həmişə mükafatlandırılır. (Prof. R. Əliyev.)



38. Göz alınasında o bir cüt qara gövhər işıq alır
Səlcuqlular hilalından, Əbbaslılar bayrağından.

Əbbas xəlifələrinin (750-1256) və Səlcuq sultanlarının bayraqlarının göz bəbəyi kimi qara rəngli olmasına işarədir.

39. Qoy qaradan ağa qədər hökm eləsin bu qara rəng,
Bu qaralıq sayəsində zənci belə şad, xuraman.

Qoy Qərbdən Şərqə qədər bayrağı qara rəngli dövlətlər var olsun! Bu qaralıq sayəsində zənci belə şad və xoşbəxtdir, buna görədə güləndə dişləri ağappaq şölə saçır.

40. Mələk səni şeytanlardan xərac alan tanısın qoy,
Heç bir kəsin çörəyinə olma bais, az havalan.

Şeytanlardan xərac almaq - xeyir işlər görmək, iblisliyə yol verməmək deməkdir.

41. Bir içim su, çörək üçün hər ayağın tozu alma!
Gör nə günə saldı fələk, Adəm ilə Hüseyni an.

Şair insanları su və çörək üçün alçalmaqdan çəkindirir və xatırladır ki, tamah salıb buğda yediyi üçün Adəm cənnətdən qovulmuşdur. Məhəmməd peyğəmbərin nəvəsi, həzrət Əlinin oğlu Hüseyn isə xəlifə sərkərdəsi Yezid ibn Müaviyə Şümür ilə xilafə uğrunda mübarizədə, 681-ci ildə qanlı Kərbəla səhrasında susuzluqdan ölmüşdür.

42. Sal yadına keçmişini, əl çək «Mən! Mən!» deməkdən ... ey
Dünən kölə, bu gün əmri, bayaq xəstə, indi Loğman!

Şair belə bir fakta işarə vurur ki, Azərbaycan Atabəylərinin əcdadı, təqribən bütün səlcuqlular imperiyasını bərpa etmiş Şəmsəddin Eldəniz (1175-ci ildə vəfat etmişdir) yeniyetmə ikən kölə olmuşdur.

43. Di gəl, qorxma oyunbazın möhrə-möhrə daşlarından,
Əlində həm sapandı var, həm gərilmiş qövs-kaman.

Əjdaha və Qövs bürcü nəzərdə tutulur, fələyin amansızlığı göstərilir.

44. Mən Gəncədə günahkar bir keşikçiyəm xəzinəmə,
Yəməndə suç bağışlayan, Xütəndə qandan qurtaran.

Orijinalda Gəncə və gəncinə (xəzinə) sözlərinin fonetik uyarlığından məharətlə istifadə ounmuşdur. Öz poeziyasını xəzinə adlandıran şair doğma Gəncədə qiymətləndirilmədiyi halda, uzaqlarda xeyli böyük sənətkar nüfuzu qazanmasından bəhs edir. O, elə bir əzəmətli nüfuz sahibidir ki, Yəmən, Xütən kimi uzaq vilayətlərdə belə dustaqları həbsdən, qana düşənləri qandan qurtara bilər.

45. Nə qədər ki, daşda qalıb, gümüş almaz qiymətini,
Nə qədər ki, sədəfdədir, dəyərsizdir inci, mərcan.

«Daşda qalan gümüş», «sədəfdə qalan inci, mərcan» dedikdə şair öz poeziyasını nəzərdə tutur, qiymətləndirilmədiyindən şikayətlənir, bu dərddən qurtulmaq üçün çıxış yolunu Gəncəni tərk etməkdə görür. Burada «Gəncə» anlayışı «daş», «sədəf» məcazları ilə müəyyənləşir.

46. Ağ saçlarım xəbər verir ağ kafurun qokusundan.
Kafur - ölünü yumaq üçün işlədilən kəskin qoxulu ağ, kristal maddə.

47. Qara mişk ağ nafədəndir...
Nafə - ahunun göbəyi. Mişk deyilən qara maddə ahunun göbəyində - dəri kisəcikdə yerləşir.

48. Bu gülşənin ab-havası, inan mənə düşmür daha,
Xızrın suyu, lap İsanın nəfəsi də vurur ziyan.

Əfsanəyə görə zülmətdə dirilik suyu tapmış və bu sudan içməklə ölməzliyə qovuşmuş Xızr peyğəmbər və nəfsilə ölüləri diriltməyə qadir Həzrət İsa nəzərdə tutulur.



49. Kölgə kimi köməksizəm, dayağımdır yalnız divar,
Varmı yerdən qalxmağıma başqa çarə, başqa dərman.

Kölgə yalnız divara düşdükdə aydın görünür, başqa hallarda sürünür. Hədsiz zəifləmiş qocaların divardan tuta-tuta getməsinə işarə olunur.

## MÜŞƏŞDƏR

1. Toqquşur Ayla Günəş... göy itirir cüt zərini,
Tutulur altı xana... qoy qapasın dəftərini.

Bu şerin başlığı - «Münəşdər» anlayışı - şeşləmə, nərd oyununda altı xanənin tutulması, rəqib oyunçunun çıxılmaz vəziyyətə salınması, mars edilməsi deməkdir. Şair dünyanın axırının çatması, qiyamət günün nərd oyununda bu çıxılmaz vəziyyətə, toqquşan Ayla Günəşi cüt zərə və aləmin altı cəhətini (sağ, sol, ön, arxa, alt, üst) nərdin bağlanmış altı xanəsinə bənzədir.

2. Gecə gündüzlə bir olsun ki, qarışsın qara, ağ,
Axşamın alnına çırpsın da səmadan yerini.

İndi ki, belədir, qoy gündüz gecədən seçilməsin, qismətimizə düşən ömürlə birlikdə aləm batsın.

3. Parçalansın qoca yer kürrəsi, sussun da sular,
Tərgidər dörd okean mədd, cəzr şakərini.

Mədd - cəzr - qabarma, çəkilmə.
Şair Qurani - şərifin Qiyamət, Təkfir və İnfiyar surələrinə işarə vurur, məhşər deyilən cəza günü əlamətlərinin hazır olduğunu bildirir.

4. Uçur ağzında yügən, köhlənə bənzər gərdiş,
Hələ var vaxtı, qoparsın da Yerin mehvərini.

İnsanlardan üz döndərən fələk, gərdiş tamam başqa bir yön götürmüşdür. Haqqı var ki, insan məskən saldığı planeti alt-üst etsin, heçliyə yuvarlatsın.

5. Nola, yüngül dolana aləmin üstündə fələk,
Yüngül hərlənsə dəyirman itirir, ləngərini.

Dəyirman dəni üyütdüyü kimi fələk çərxi də insanların ömrünü üyütməklə məşğuldur. Şar fələyi dəyirmanın üst daşına bənzədir, suyu sovulmuş dəyirman kimi onun tezliklə dayanacağını bildirir.

6. Büdrəyən, mürgü vuran bir öküz üstündədi Yer
Hər nə qurduqsa qırır, qəbrə qoyur əksərini.

Qədim təsəvvürə görə Yer kürəsi öküz üstündə dayanmışdır, bu öküzün ani büdrəməsi planetdə dəhşətli zəlzələ və burulğanların yaranmasına səbəb olur. Beytin məcazi mənası budur ki, dünyaya etibar yoxdur.

7.Fələyin Şirinə pəncə uzadır Yer öküzü,
Gücü varmı, dizinin göstərə bilsin girini.

Kəhkəşandakı ulduz komplekslərindən biri Arslan (şir, əsəd) bürcü adlanır. Şair bu Arslanın qarşısında göylərə meydan oxumaq istəyən Yer öküzünün, insanın acizliyini, qələbə əzmindən yoksun (məhrum) olduğunu bildirir.

8. Çoxunun it qanı var... əhdi dönük, eşqi sönük.
Qorxuram tərk eləyə Şir öküzə öz yerini.

Dünya ki, belə eybəcər qurulub, damarlarından it qanı gəzdirənlər çoxluq təşkil edir, qorxuram şir (fələk çərxi) acizlik göstərsin, öz yerini öküzə tərk etsin, ictimai aləm əvvəlki təkin eybəcər qalsın.

Beytin mənası budur ki, şair qiyamətin, məhşərin tez gəlib çatmasını, şərin, alçaqlığın aradan qaldırılmasını arzulayır.



9. Şad olurmu bu yaşıl qübbədə qartal, qaraquş?
Nə qədər qüllə - qəfəs qırdı göyərçin pərini.

Yaşıl qübbə - bu dünya; Qartal, qaraquş (orijinalda: zirək quş)- insan. Qüllə - qəfəs - insanların yaşayış yeri.

Beytin mənası budur ki, insan dünyanın zahiri dəbdəbəsinə aldanmamalı, sərvət, şöhrət dalınca sinov getməməlidir.

10. Gəmi sürsən, fələk ümmanı səni qoy udsun,
Təslim addımı atıb tapşır ona lövbərini.

Beytin mənası budur ki, insan Yer qanunları əsasında deyil, kosmos qanunları əsasında yaşamağı bacarmalıdır, ömrünü xırda ehtiraslara deyil, böyük idrak axtarışlarına həsr etməlidir.

11. Qədəmin körpüyə dönsün bu yaşıl Dəclədə qoy,
Xızr tərk tək elə Bağdadı - cahan dilbərini.

Körpü - insanın bu dünyadakı xeyirxah əməlləri; Dəclə - qatqarış dünya hadisələri; Xızr - Yeraltı qaranlıq səltənətdə dirilik suyu tapmış, ölməzliyə qovuşmuş, yaşıl geyimli peyğəmbər, dənizdə boğulanların və səhrada susuzluqdan yananların dadına çatan sehrkar qüvvət sahibi, ozanların, bilginlərin və xeyirxahların hamisi; Bağdad- dünya gözəlliklərinin rəmzi.

Şair dünyanın varına, dövlətinə əsir olmamağa, Xızr peyğəmbər kimi mənalı və gözəl yaşamağa, ömrünü xeyir əməllər körpüsünə çevirməyə çağırır.

12. Hələ gənclikdə bacar, nəfsini öldür ki, ilan
Qocalıb əjdərə dönsə, itilər neştərini.

Belə bir etiqad var ki, ilan qocaldıqda əjdərə (əjdahaya) çevrilir. Şair alçaq ehtirasları (sərvət, şöhrət, vəzifə, dəbdəbə düşkünlüyünü) əjdahaya bənzədir və hələ gənc ikən bunları boğmağa, özündən uzaqlaşdırmağa çağırır.

13. Əfi zümrüd görə, dözməz, gözü dərhal kor olar.
Kar olar, dinləsə İblis Quran səslərini.

Orta əsr şərhçilərinin yazdığına görə ilan zümrüdə baxdıqda kor olur, zümrüd isə əriyir. Beytin məcazi mənası budur ki, alçaqlıq və eybəcərlik heç vaxt gözəllik və ülviyyətin təntənəsi qarşısında davam gətirmir.

14. Sən Xəlil tək çevik ol, haqqa itaət yolu seç,
Yolkəsənlər sənə yol göstərib atsın bərəni.

Dini etiqada görə yəhudilərin ilk peyğəmbəri İbrahim Xəlil (dost - Allahın dostu) zülmkar padşah Nəmrudun əmrilə tonqala atılmış, lakin tonqal atəşi laləzara çevrilmişdir. Bunu görənlər ona iman gətirmişlər. Şair xeyir əməllər ardınca gedirkən öz məramında sabitqədəm və cəsur olmağa, yolundan dönməməyə çağırır.

15 Necə hündürdü bu günbəz, verəməz əks-səda,
Gur səsin etsə də mat şöhrət, hünər Səncərini.

Prof. M. Ələizadənin yazdığı kimi, şöhrəti Şərqdən Qərbədək yayılmış Sultan Səncər səlguqluların ən qüdrətli şahlarından biri olmuşdur. Şair kainatın sonsuzluğu müqabilində şah məqamına çatanların belə cılız olduğunu, fələk çərxinin onlara heç bir əks-səda verməyəcəyini xatırladır, buna görə təvazökra yaşamağa çağırır.

16. Neçə ümman acısı dadmalısan, ta verəsən
Bir şirin qətrə udan ağ sədəfin gövhərini.

Etiqada görə dəniz canlısı sədəf (maşlyuska) nisan (aprel) yağışları yağan zaman su üzünə çıxır, yağmurdan bir və ya ikidamla udur, həmin damlacıqlar sədəfin bətnində illər keçəndən sonra inciyə, gövhərə çevrilir.

Beytin məcazi mənası budur ki, şirinliyə çatmaq üçün ağrıacılara, məşəqqətlərə tab etməlisən.

17. Başçı kimdir? Başı üstündə durub xidmət edən,
Əyri çövkan və top ilə dolanan dairəni.



Yalnız o adamlar başçı və müdrik adlanmağa layiqdirlər ki, əyriliyi ilə çövkana bənzər bu qatqarış qələmə top kimi dolanmağı, yaxınlara və yaxşılara xidmət etməyi bacarırlar.

18. Xidmət et, xidmət edən qalxır ulu xadim olur,
Hamı məhşər günü hakim bilir öz sərvərini.

Məhşər gününün hakimi - Həzrət Məhəmməd peyğəmbər. Beytin anlamı budur ki, bəşəriyyətə xidmət yolunu seçən hər kəs Məhəmməd peyğəmbərin şərafəti səviyyəsinə ucalmaq şansına malikdir.

19. Qaniçən öz qanını hamıdan əvvəl axıdır,
Günəşin qanın içən Ay dağıdıb mərmərini.

Günəşin hesabına işıqlanan Ayın ləkəli və çopur olmasına işarədir.

20. Yola çıxmaq diləyirsən, bir ovuc dən saxla,
Bircə sünbüllə də tarla yaradır bənzərini.

Yola çıxmaq - Ölüm yoluna çıxmaq. Beytin mənası budur ki, o dünyanı bu dünyada qazan. İkinci həyatının fəziləti birinci həyatını necə yaşamağından asılıdır.

21. Bəhmənin sağ qolunu qırdı bir əjdərni, nə qəm,
Yada sal əjdəri məğlub eləyən Heydərini.

Bəhmən - Əjdaha ilə döyüşdə bir qolunu itirmiş mifik qəhrəman; Heydər - Həzrət Əli ibn Əbutalibin ləğəbi. Dini etiqada görə Həzrət Əli qılıncı ilə əjdahanı iki bölmüşdür.

Beytin mənası budur ki, nə yaxşılıq batır, nə pislik. Zülmkar gec-tez öz cəzasını alır.

22. Sən polad ustası, incə, ulu Davud kimi ol,
Yumşalıb mum kimi öpsün də polad əllərini.

Dini rəvayətə görə yəhudilərin peyğəmbəri Həzrət Davud ilk dəfə polad əritməyi və hərbi zireh hazırlamağı insanlara öyrətmişdir.

23. Sən kamal əhli, cəsur, həzrəti İsa kimi ol,
Ona çarmıxda fələk verdi cahan minbərini.

Şair demək istəyir ki, insan ən çətin məqamda, ölüm ayağında belə məsləkindən dönməməlidir. Necə ki, islam etiqadına görə altı böyük peyğəmbərdən (Adəm, İbrahim, Nuh, Musa, isa, Məhəmməd) biri sayılan Həzrət İsa düşmənləri tərəfindən çarmıxa çəkilsə belə bəşəri kəşflərindən əl çəkməmişdir.

24. Suyu torpaq tanıdar, topağın ovcundadı su,
Oda kim şölə verir? Dinlə cahan yellərini.

Burada həyatın dörd ünsür vəhdəti (od, su, torpaq, külək) sayəsində mövcudluğundan bəhs olunur.

25. Bir sabundur bu günəş çərxi-fələk teştində,
Ruhların paltarı ondan tapar öz ənbərini.

Günəşi səma teştində sabuna, ruh geyimini tozdan təmizləyən qüdrətə bənzədən şair insanlara günəş kimi ülvi yaşamağı arzulayır. Yəni ölümdən qorxmamalı, ictimai aləmin çirkabından təmizlənməyi bacarmalısan!

26. Ey Nizami, hələ boynunda xəyali çənbər,
Aç başından, fələyin tulla yaşıl çənbərini.

Bu dünyada yaşayan insanın ruhu azad deyil, başı fələyin ilgəyində həlqəsindədir. Aç başından bu ilgəyi, bu həlqəni tulla ki, azad olasan, yəni bir güz kimi güllə qovuşmaqdan, ölməkdən qorxmamalısan.

27. Beş dəfə zəng çalınıb, çatdı vida taxtı, tələs,
Bəlkə söz qəsri özünsən, tapar el söz nərini.



Burada müsəlmanın hər gün qıldığı beş rükət namaz və şah qəsrində hər gün beş dəfə çalınan zəng nəzərdə tutula bilər.

## KƏBƏ SULTANI

[1] Odur, Kəbə sultanı yeddi ölkə təxtində.
Qara çətir başında, yaşıl diba əynində.
Kəbə çətir başında, yaşıl diba əynində.

Kəbə sultanı deməklə şair çox güman ki, Məhəmməd peyğəmbəri nəzərdə tutur. «Allahın evi» adlandırılıb neçə əsrdən bəri ziyarət olunan Kəbə bugünkü Səudiyyə Ərəbistanındakı Məkkə sözünün mənası hərfən «kub» deməkdir. Bütün dünya müsəlmanları məhz bura üz tütmaqla namaz qılırlar. Divarlarını yaşıl tirməyə, damını nəhəng qara çətirə oxşatmaqla ülviləşdirirlər. Müsəlmanların hələ islamdan əvvəl də müqəddəs saydıqları qar daş (meteorit) bu məsciddə saxlanır. Şair üstü qara parça, böyürləri yaşıl ipəklə süslənmiş bu qara daş ilə ən qüdrətli sultan hesab etdiyi Səlcuq türklərinin hökmdarlarının qara qaytanlı təxti arasında böyük bir oxşarlıq görür, hər ikisini böyük məhəbbət və tərənnüm obyektinə çevirir. «Yeddi ölkə» o zamankı coğrafi anlayışa görə yeddi qurşaqdan ibarət yer kürəsi deməkdir.

[2] Dördkünc, uca təxtində Xosrovlar tək əyləşib,
Həlqəsinin pərgarı göylər dairəsində.

Prof. R. Əliyevin qeyd etdiyi kimi, Xosrov islamdan əvvəlki bir sıra İran imperatorlarına verilmiş ləqəbdir ki, dördguşəli təxtdə türk hökmdarları kimi ayağının üstünə aşırmaqla əyləşərmişlər. Kəbə də bu gür dördkünc olduğu üçün müqayisə yerinə düşmüşdür. Pərgar deyildikdə Kəbənin başına ənənəvi şəkildə dolananların mərasimi nəzərdə tutulur. Deməli, Kəbənin ətrafında daim «göylər dairəsi» (fələk çərxi) kimi dolanıb dönən pərəstişkarlar axarı var.

[3] Ərəb bədənli türkdür, hər gün min könül ovlar.
Ənbərdən qara xal var, nurlu ağ çöhrəsində.

Nizami Gəncəvi Məhəmməd peyğəmbəri «ərəb bədənli türk» adlandırmaqla onun mənşəcə türklüyünə işarə vurur, Kəbədəki qara daşı («Həcərül əsvədi») onun ağ üzündəki qara xala bənzədir.

[4] Xalı tək olduğundan dərd də, bəla da tək-tək,
Qapı həlqəsi kimi daralmış, azdı fitnə.

Kəbənin ağ üzdə qara xala bənzər daşının, deməli, özünün varlığı, müqəddəsliyi və cazibə gücü sayəsində dünyada fəlakətlərin, bəlaların sayı da xeyli azalmış, fitnə-fəsad qapı həlqəsi kimi ram edilmiş və məhdudlaşdırılmışdır.

[5] Tərəzisi qızılın saflıq ölçüsü olmuş,
Arpa boyda qüsur yox daşının çəkisində.

Şair Kəbə daşını planetdəki bütün daşlar və qızıllar üçün saflıq, gözəllik və dəyər meyarı hesab edir, «Arpa boyda qüsur yox» dedikdə zərgərlikdə ən kiçik çəki vahidini nəzərdə tutur.

[6] Müşkü ipək içində saxlayırlar, qaydadır,
Müşk xalı gizlənib yaşıl ipək içində.

Şair Kəbənin qara daşını dünyada ən ətirli və bahalı maddə sayılan qara müşkə bənzədir, onun üstünə salınan yaşıl ipək parçanı ülviləşdirir, zira bu rəng islam aləmində müqəddəs hesab olunur, peyğəmbər və imamların geyimdə yaşıl parçaya üstünlük verdikləri yada salınır.

[7] Nə bir yelkən tapılar, nə lövbər, nə dənizər,
Sükanı bərk tutmasa o, dünya gəmisində.

Dənizər - admiral Beytin mənası: Kəbə olmasa, bəşəriyyət batar, heçlik girdabına qərq olar.

[8] Hündür divarı - xətkeş, mehrabı - paytaxt olub,
Altı yön pərgarına inayət cədvəlində.



Mehrab - məsciddə Kəbənin səmtini nişan verən mil sütun. Altı yön - sağ, sol, ön, arxa, yuxarı, aşağı. Beytin mənası: Bütün dünyaya şəfqət və xeyirxahlıq məhz burdan, Kəbədən saçılır.

[9] Torpağının göbəyi saçır ərzə rayihə,
Min-min könül saflaşır ehramının dibində.

Ən ətirli və qiymətli maddə sayılan müşkü ahu öz göbəyində - dəri kisəcik içində saxlayır. Burada Kəbə həm ahuya bənzədilir, həm də dünyanın saflıq, müqəddəslik mərkəzinə.

[10] Daş xalçası üstündə qartal kimi oturmuş,
Üzərindən uçmamış hətta bir göyərçin də.

Prof. R.Əliyevin şərh etdiyi kimi, Kəbəyə gələn ziyarətçilər axını o qədər güclüdür ki, bura quşlar yanaşa bilmir. Şair daş xalça üstündəki qara daşı - «həcərül əsvəd»i qanad gərmiş qartala bənzətməklə ülviləşdirir.

[11] Ulu tanrım, macal ver Nizamiyə, ölməmiş
Ürəyim dağa dönsün onun ziyarətində.

Nizami ömrü boyu həccə ziyarətə getməyi arzulamış, bunun üçün maddi yardım almaq məqsədilə çağdaşı olan hökmdarlara üz tutmuş, ancaq məqsədinə çatmamışdır.

[12] Taxtda Kəsradan üstün, at belində Səncərdən.
Gözü var onda min-min Kəsranın, Səncərin də.

Kəsra (yaxud: Qeysər) - Bizantiya imperatorlarının şahlıq titulu. Səncər - «Böyük səlcuqlular» sülaləsinin son böyük sultanı (1118-1157).

[13] Dövlət öz əlindədir, ordular öz əlində.
Odur ərzin Darası, Nüsrətəddin Bişginə (1194-1211) həsr olunmuşdur. Nüsrətəddin onun ləqəbidir.

[14] Məlik şah oğlu Mahmud, Fəridun oğlu Cəmşid,
Müzəffər oğlu Mənsur, Məhəmmədli Bəkir də.

Şair yenə Əbu Bəkr Bişgini tərənnümə davam edir, Məhəmməd dedikdə onun atası Məhəmməd Cahan Pəhləvan Şəmsəddin Eldənizi nəzərdə tutur, qalan şəxs adları da tərənnüm obyektini şərəfləndirmək üçündür.

[15] Çıxdı fikir taxtına, yalnız o vaxt inandıq:
Bir şəxs iki aləmi yaşadarmış özündə.

Şair bizə belə bir rəyini aşılayır ki, yalnız şahlıq taxtına deyil, həm də fikirlər taxtına çıxmış bu hökmdar, yəni Məhəmməd Cahan Pəhləvan Şəmsəddin Elədinizin oğlu Əbu Bəkr Bişgil Nüsrətəddin hər iki dünyanı Şəmsəddin Eldənizin oğlu Əbu Bəkr Bişgil Nüsrətəddin hər iki dünyanı qazanmış müstəsna kişidir. Bu dünyanı ona görə qazanıb ki, Allahın əmrinə, peyğəmbərin şəriətinə əməl edir, yaxın insanlara əl tutur, ölkəni abadlaşdırır, şəhər və kəndləri böyüdür, məscidlər, mədrəsələr tikdirir və s. O dünyanı ona görə qazanıb ki, bu dünyada yaxşı yaşayıb, buna görə cəhənnəm oduna yanmayacaq, əksinə orda da Tanrı lütfünə layiq görüləcək, əbədi səadətə çatacaq.



# "SİRLƏR XƏZİNƏSİ"[1]

1.B. «Şəfqətli, rəhimli Tanrının adı ilə... başlayıram»- müsəlmanların hər hansı işə, hətta yeməyə başladıqları zaman mütləq deməli olduqları ərəbcə ilk cümlə.

İkinci misra Məhəmməd peyğəmbər ilə bağlı bir hədisin məzmunundan götürülüb: güya Məhəmməd peyğəmbər Tanrının qəbuluna düşmək üçün merac edirkən qapısı bağlı möhtəşəm bir imarətə görür: «Ya Cəbrail, bu nə qəsrdir?» sorur və cavab alır ki. «Bu ərşin altındakı Tanrı xəzinəsidir, onun açarı isə şairlərin nitqidir». (Prof: R.Əliyev)

Müəllif burda «həkim» deyirkən özünü və tanrıya xitab etməyə layiq yaradıcıları nəzərdə tutur.

4. B. Qələmin boynundakı boyunbağı - söz. Qələm - tanrının qələmi. Hələ kainatı yaratmamış o, bu qələmi «dövhi-məhfuz»da göylərin lövhəsində saxlamış, onunla varlığın nəqşini çəkmişdir.

6.B. Tanrı fələklərin pərdəsi ardında baş verən bütün işlərdən agahdır, «pərdəli işləri bilənlərin», yəni peyğəmbər mərtəbəsinə yüksələnlərin isə sirrini saxlayandır.

8.B. Birinci misrada insanlara ən nəcib duyğular, müqəddəs fikirlər aşılayan, onları mənən paklaşdıran, saflaşdıran Tanrının böyük mürəbbi, tərbiyəçi funksiyası vəsf olunur. İkinci misra Quranın «Gündüzü ruzu üçün yaratdıq!» ayəsi əsasında qurulmuşdur.

10.B. Səcdə nişanı - möhür yeri. Müsəlman namaz qılarkən alnını möhürə vurur və pak alnında möhür - damğa yeri qalır. Misra «Onların surətlərində səcdə əsəri vardır» hədisinə işarə vurur. İkinci misrada bütün sultanlara, hökmdarlara taxt, tac bəxş edən tanrının qüdrəti, səxavəti vəsf olunur.

11.B. «Tədbir ilə bişirən...» bəndədir. «çiy bilib bala verən» tanrı, yaxud bütün qüvvətlərdən üstün duran fövqəl-qüvvə.

12. B. Öz bəndələrini fitnələrdən, qovğalardan qoruyan Tanrının hami rolu, həkimlər və bilginlər üçün ilham qaynağı olması

1. "Sirlər xəzinəsi"nə dair izahların müəllifi – Xəlil Rza

vəsf edilir.

15.B. «Bu varlıq mülkünün, kainatın sahibi məndən başqa kim ola bilər?» - Tanrıdan savayı kimin qüdrəti çatar ki, belə bir iddiaya düşsün?!

17.B. Ən müdrik alimlər, peyğəmbərlər belə Tanrı sirlərinə vaqif ola bilmədilər.

20.B. İnsanın bədəninə ruhu, canı, gözlərinə idrak işığını bəxş edən tanrıdır.

23.B. Yerin kəmərinə bənzər dağları, gültacına bənzəyən səmaları yaradan da Tanrıdır, hər şey ona minnətçidir. Hər şey onun böyüklüyündən, cəlalından və qüdrətindən xəbər verir.

24.B. Tanrı öz kəramətini, səxavətini nə qədər ki, gizli saxlamışdı, hələ nə gül ilə tikan vəhdəti vardı, nə də şəkərlə qamış birliyi. Kəramətini göstərənə o, bunları yoxdan yaratdı.

26.B. İki-üç viran kənd - Yer kürəsi. Quranda deyilir ki, dünyanın yaradılmasından öncə yerlə göy hələ bir-birindən ayrılmamışdı. Ayrılanda gecə, gündüz yarandı.

27.B. «Quranın» Ənbiya surəsinin 31-ci ayəsindən iqtibas yolu ilə deyilib: «İnanmayanlar, görmədilərmi ki, göylər və yerlər bitişik idilər və onları biz ayırdıq?!»

28.B. Gövhər - ulduzlar. Gövhəri sapa necə düzürlərsə, Tanrı göyə ulduzları eləcə düzdü, gecənin qara saçlarına sığal çəkərək, yoxluq tozunu sildi, varlıq yaratdı.

29.B. İki-üç çəmbər - ay və ulduzlar. Yeddi düküm - yeddi iqlim zonası, Qədim coğrafiyaçılar Yer kürəsinin yeddi iqlim qurşağından ibarət hesab etmişlər.

30.B. Günəşin donu - ağ ipəkdən, gündüzdən ibarətdir. Ayın donu isə qaranlıq gecədir. Tanrı gecəni, gündüzü belə bir hüsn ilə yaratmışdır.

31.B. Dənizlərin, ümmanların buxarlanması buludların yaranmasına səbəb oldu. Bir vaxt Xızır peyğəmbərin zülmətdə tapdığı dirilik suyuna bənzər bulaqlar, çeşmələr çəmənlərin yaşıl sinəsində qaynamağa başladı.

32. B. Gündüz badəsi - günəş şüaları. Şəfqət qətrəsi - lələ.

33. B. Su - yağış suyu. Od - Günəş şüaları. Dənizlər dibindəki ağappaq dürr və yerin təkindəki qırmızı yaqut əslində təbiətin nadir möcüzəsi kimi su ilə günəş şüalarının torpaqda, daşdakı vəhdətindən yaranmışdır.



34.B. Al qırmızı əlin daş içində necə yaranmasını aydınlaşdırır. Küləyin, qasırğanın, tufanın şiddətindən, günəşin istisindən buxarlanan su havaya qalxır və daşın, qayanın bağrına enir, sıxılır və yaranan ləlin rənginə qırmızılıq verir.

35.B. Səxavət baxçası - dünya gülşənləri, barlı bağlar. Söz quşu - yaradıcı ilhamın səsi.

36. B. Dil - nitq bağçası, xurma ağacı; söz - xurma; qulaq - sədəf; şair kəlamı - dürr, gövhər.

37.B. Şirin yuxu pərdə dalında əyləşmiş şirin dilli bir gözələ oxşadılır. İkinci misra Quran ayəsindən iqtibas edilib: «Qoy adam baxıb görsün ki, nədən yaranıb?» O, cərəyan edən sudan yaranıb!»

38.B. Yerin saçı - qədim astronomların fikrincə, yer yuvarlığının konusvari kölgəsi.

İkinci misranın məzmunu Quran ayəsindən alınıb: «...Adəm Tanrısına asi olub (qulaq asmayıb) yolundan azdı». Buna görə cəzalandırılmış və cənnətdən qovulmuşdur. «Yanağına vurulan üsyan damğası» buna işarədir.

39.B. Hədisə görə qızıl alçaq keyfiyyətli filiz sayılırmış. Lakin qonuşma zamanı Məhəmməd peyğəmbərə tanrı dərgahından vəhy gəlmişdir ki, qızıl xalis ülvi filizdir. Onun təbii şöhrətini bərpa etmək vacibdir.

İkinci misrada gülün qırmızılığı qadınlara məxsus heyz (aybaşı) hadisəsinə oxşadılır. Yağış yağanda gülün qırmızılığı nisbətən gedir, rəngi solur, deməli heyzi aradan qalxır.

40 B. Guya tanrı ulduzları göyə düzməmiş, göyün rəngi hisli, paslı təsir bağışlayırmış. Ulduzlar düzüləndən sonra göylər cilalanmış və hazırki görkəmini almışdır.

Səbanın reyhanlara tapşırılması məcazdır. Tanrı tərəfindən ruzigarın pak və ətirli yaradılmasını alqışlayır.

41. B. Torpağın qanı - torpağın qüdrəti, bərəkəti. Gülün qırmızılığı torpağın qanı, qüdrəti məcazı ilə mənalandırılır. Burada torpaqdan yaranmış insanın təbiətin ən böyük yetirməsi kimi qızılgülə bənzədilməsi ideyası da vardır.

İkinci misrada idraki fəaliyyətin yalnız emosional ruh ilə qaynayıb qarışması zəminində fayda verəcəyi fikri irəli sürülür. Nizaminin fikrincə, yalnız başı ilə düşünən adam həqiqətə çata bilməz.

həm də ürəklə düşünmək, ürək vasitəsilə fikirləşmək, düşüncəni hissi-emosional fəaliyyətlə birləşdirmək vacibdir.

46 B. Vəhm (düşüncə) özünə güvənərək Tanrının mahiyyətini dərk etməyə çalışdı. Heyhat, nail olmadı. Göz (vəhmin gözləri) axtardı, heyhat, o da kainatda Tanrının bənzərini, tayını bulmadı.

48.B. Kainatda Tanrının xəlq etdiyi hər nə varsa, hamısı onun eşqilə yaşayır, onun mahiyyətini dərk etməyə can atırlar. Heyhat, bu mümkün deyil. Yaradılmış yaradıcıdan yüksək dayana bilməz.

49.B. Sidr (Sidrət ül-Müntəha) Quran təliminə görə göyün yeddinci qatında bitmiş əzəmətli bir ağacın adıdır. Sidz ağacının qol-budağında əyləşənlər və ərşə çıxanlar mələklərdir.

50.B. Fələklər (göylər, çərx) Tanrının qolu bağlı köləsidir. Fəqət hamısının, yerin də, göyün də ürəyi onun məhəbbətilə döyünür.

52.B. Tanrının yaratdığı kainta sonsuz olduğu üçün bizim gördüyümüz dünya nemətləri onun cəlalı qarşısında bircə danə kimidir. Sonsuz gülşənlərinin, bağlarının yanında əfsanəvi cənnət bağı (İrəm bağı) heç kimidir.

53.B. Tövhid - təktanrılıq, monoteizm. Tanrının bircə, yeganə vahid olmasını qəbul etmək. Nizaminin ata yurdu Gəncə bu məfkurəni qəbul etdiyinə görə çiçəklənir, bar-bəhər yetirir.

## TÖVHİD VƏ MÜNACAT

54.B. İslam anlayışına görə torpaqdan yaranmış insan onun xüsusi bir növüdür - zəif torpaqdır.

57.B. Quranın: «O doğmayıb və doğulmayıb» ehkamına («əl-İxlas» surəsi, üçüncü ayə) işarədir.

59.B. Can duzu - ruh.

60.B. Əzəli və əbədi bir qüdrət olan Səndən başqa kimin cürəti çatar ki, müdrikliyin, qocamanlığın qarşısında xeyli gənc və az qala südəmər görünən bu əbləh, bu ikiüzlü, gecəli, gündüzlü dünyanın üstünə qışqıra bilsin ki, «həqq - mənəm, bu varlığın şəriksiz sahibi yalnız Mənəm!»

61.B. Məhəbbətin könüllərdə o qədər əzəmətlidir ki, adın çəkiləndə eşq sahiblərinin bağrı çatlaya bilər, yaxşı ki, onlara məhəbbətlə birlikdə səbr, səbat vermisən!



62.B. Sənin səxavətin, kəramətin aşkar olan gündən bəri Yer yuvarlağı öhdəsinə nə boyda məsuliyyət düşdüyünü anlayır, çiynində özü boyda yük daşıyır!

63.B. Lütfündən, səxavətindən yarandığını anlamasaydı, məgər Yer yuvarlığı, bəşəriyyətin və dağların ağırlığına tab edərdimi, onun ürək-göbəyi düşməzdimi?

67.B. Sənin birliyini dərk etməyə çalışanların qarşısından hər cür maneəni götür, hətta o maneə mən özüm olsam belə, rəhm eləmə, götür yolundan və qiyamət qopar!

71.B. Zülmətbazlar - Günəşə və oda tapınan atəşpərəstlər. Cövhərpərəstlər - antropomorfistlər və Tanrını cisim şəklində təsəvvür edənlər. Nizami onları müsəlmanlıq qarşısında əngəl sayır və rədd edir.

72.B. Altı guşə - altı cəhət: yuxarı, aşağı, ön, arxa, sağ, sol; Doqquz pilə - göyün doqquz təbəqəsi. Beytin mənası: qiyamət qopar, kainat zəlzələsi yarat, hər şeyi dağıt, məhv et!

73.B. Səmaların şənlənməsinə son qoy! Ayın işıq dolu camını Yer yuvarlağına çırpmaqla sındır! Tərslik, nəhslik rəmzi Zühəl (Saturn) ulduzunu müğənnilərin və musiqiçilərin hamisi olan, işrət məclislərindən başı ayılmayan, daim çalıb çağıran Veneranın (Zöhrə xanımın) piyaləsinə çırp!

## PEYĞƏMBƏRLƏRİN SONUNCUSU HƏZRƏT MƏHƏMMƏDƏ GÖZƏLLƏMƏ.

114. B. Tanrı dərgahında saxlanan Lövhi - məhfuzda Tanrının yazdığı ibirinci hərf - ərəb əlifbasının ilk hərfi - şaquli düz xətdən ibarət «əlif» olmuşdur. Ərəbcə şanlı, şərəfli mənasını verən Məhəmməd və Əhməd sözləri eyni kökdən olduqları və eyni mənanı bildirdikləri üçün Həzrət peyğəmbər ikinci adı ilə də məşhurdur.

115.B. Həzrət peyğəmbərin ikinci adındakı («Əhməd sözündəki» hərflər mənalandırılır. Əlif - Əhməd sözünün qapısı; hey - dövlət dairəsi; dal - gərdənlik, boyunbağı; mım - kəmər, xidmətdə dayanmaq hünərindən xəbər verən qurşaq.

118.B. Nizami turuncun bu keyfiyyətli ilə həzrət peyğəmbərin həyatı və taleyi arasında yaxın bənzəyiş görür. Bütün peyğəm-

bərlərdən, bütün Tanrı elçilərindən sonra gəlməsinə baxmayaraq Həzrət Məhəmmədin adı Tanrı dərgahınakı lövhi-məhfuzda ilk peyğəmbər sifətilə yazılıb. Deməli, turunc kimi o da öncə bar gətirib, bundan sonra çiçəkləyib, yəni bütün peyğəmbərlərdən sonra zühur edib, bəşəriyyətə bəlli olmuşdur.

119 B. «Adəm hələ su və torpaq şəklində olarkən mən peyğəmbər idim» hədisinə işarədir.

İkinci misra islam fəlsəfəsinin belə bir müddəasına əsaslanır ki, Məhəmməd peyğəmbərlərin sonuncusudur, ondan sonra dünyaya bir daha peyğəmbər gəlməyəcək.

120.B. İslam əsatirinə görə Məhəmməd peyğəmbərin möcüzələrindən biri «şəqqül qəmər» - onun barmağının işarəsi ilə ayın tən ortadan parçalanmasıdır. Guya həmin gündən etibarən parçalanmış, incəlmiş Ay onun hakimiyyət möhürünə çevrilmişdir. Nizami heç bir zəbərcəd qaşlı üzüyün gözəllikdə, şərafətdə bu möhürə (Aya) tay olmadığını bildirir. Zərbərcəd sarıya çalan yaşıl daşdır. Qədim astronomların fikrincə, əslində yaşıl rəngdə olan Ay da, günəş şüalarını əks etdirdiyi üçün sarımtıl görünür.

121.B. Ərəb əlifbasında yazılışına görə «Mum» hərfinin baş tərəfi dairəcikdən, həlqədən ibarətdir. Nizami bunu qulun qulağındakı köləlik həlqəsinə bənzədir və cahanın həzrət peyğəmbərə qul olduğunu bildirir. Lakin dünyanın özü də dairə, həlqə şəklindədir. Deməli, hər iki dünya Məhəmməd peyğəmbərin qulağı həlqəli quludur, köləsidir.

122.B. Merac zamanı yerdən göyün yeddinci qatına, Tanrı dərcahına bir göz qırpımında getdiyi üçün Məhəmməd peyğəmbərə «sahəölçən» ünvanı verilmişdir.

123.B. «Ümmi» ərəbcə savadsız deməkdir və Məhəmməd peyğəmbərin ünvanlarından biridir. «Ümmi» və «Adəm» sözləri Əlif və «Mum» ilə başlanır. Adların yazılışında hərflərin ortaqlığından istifadə edən Nizami sübüt etməyə çalışır ki, Məhəmməd peyğəmbər ondan əvvəl gəlmiş hər iki peyğəmbərdən: həm Adəmdən, həm də Məsihadan (həzrət İsadan) üstün dayanır.

125.B. İslam etiqadına görə kainat Tanrının «Kun»! («Ol!», buyruğu əsasında yaranmışdır. Nizami Gəncəvi Məhəmməd Peyğəmbərin adını Tanrı pərgarı ilə yaranmış bu aləmin ən işıqlı nöqtəsi hesab edir, onu dünya üzüyünün qaşı sayır.



Nüktə - incə məna, zərif fikirlər və düşüncələr. Nizamiyə görə, Məhəmməd məfkurəsi bütün deyilmişlərə son nöqtə qoymuş, bəşər fikrinin yekunu kimi ortaya çıxmışdır.

128.B. Həzrət Məhəmmədin ailə üzvlərinin ismət, ləyaqət sahibi olmalarına işarədir.

129.B. İslam etiqadına görə həzrət Məhəmmədin məqbərəsini məhəbbətlə seyr edənlərin cinayətləri və suçu əfv edilir.

İkinci misrada Məhəmməd peyğəmbərin Mədinəyə köçməsi ( sentyabr, 621) və müharibədə Məkkə mürtəcelərinə qalib gəlməsi ( 624-cü ildə) nəzərdə tutulur.

135.B. Həzrət Məhəmmədin yerdə ləng və təngnəfəs, göydə, merac zamanı isə ruh üstündə coşğun, qanadlı olduğunu alqışlayır.

136.B. Sənət süvariləri - ozanlar, şairlər; Boz at - ilham köhləni, yaxud yaradıcı qələm.

137.B. Həzrət Məhəmmədin meracı başqa şairlər tərəfindən vəsf olunduğu üçün Nizaminin yubanmasına işarədir.

## PEYĞƏMBƏRİN MERACI HAQQINDA

138.B. Cənub hökmdarı - Həzrət Məhəmmədin ləqəblərindən biri.

140.B. Kainatın hərəmxanəsi - maddi dünyanın göyləri.

142.B. Həzrət Məhəmmədin Tanrı dərgahına meracının ruhi deyil, cismani merac olması nəzərdə tutulur.

145.B. Yəni merac zamanı Həzrət Məhəmmədin bədəni. cismi də ruha, qanada çevrilmişdi.

151.B. Tərx öküzü - Sur bürcü; Yer öküzü - əfsanəyə görə Yer yuvarlağını öz belində saxlayan öküz; gövhər - Məhəmməd peyğəmbər.

152.B. Cevza bürcündə yerləşən ulduzlar öz düzülüş qaydasına görə kəmərə, Xərçəng bürcündəki 13 ulduzun topası isə taca bənzəyir.

153.B. Başaq bürcü Məhəmməd peyğəmbərin meracından o qədər fərəhləndi ki, bu gəlişdən feyz alıb tərtəzə sünbülə döndü və «Sünbülə» bürcünü qoparıb arslan bürcünə atdı.

154.B. Tərəzi (Mizan) bürcündə yerləşdiyinə görə Zöhrə ulduzu (Venera, Çolpan ulduzu) tərəziçi, mizançı ləqəbini qazanmış-

dır. Məhəmməd peyğəmbərin merac hünərini səciyyələndirmək üçün Nizami deyir ki, bu gecənin qədrini, qiymətini yalnız Zöhrə özünün Tərəzi bürcündə ölçə bilər.

155.B. Məhəmməd peyğəmbər öz mənəvi əzəmətinə görə o qədər siqlətlidir ki, Tərəzi bürcü bu sanbalın, bu çəkinin qarşısında səcdə qılmalı oldu. Zira Həzrət peyğəmbərini vəzni Mizan bürcünün daş - tərəzi vəznindən müqayisəedilməz dərəcədə ağırdı.

156 B. Süsənbər çiçəyinin şirəsi əqrəb zəhərindən qurtulmaq üçün məlhəm hesab olunur. Nizami Gəncəvi Məhəmməd peyğəmbərin nəfəsini Süsənbər məlhəmi hesab edir. Həzrət peyğəmbər Əqrəb bürcünün quyruğuna yanaşmaqla onu zərərsizləşdirir.

157 B. Məhəmməd peyğəmbər Yay bürcü kamanından elə bir ox atdı ki, zəhər onun evinin Çəpiş-Cüdəy bürcündən xeyli uzaqlaşdı, qaçdı. Kaman - Oxatan (qövs) bürcü; Ox (Tir) - Ütarid planeti; Çəpiş-Cüdəy bürcü.

Oxatan bürcünə daxil olanda Ütarid fəlakət törədir. Cüdəy-Çəpiş bürcündə Zühəd (Saturn) planetinin indi də işi fitnə-fəsaddan ibarətdir. Beytin mənası budur ki, həzrət Məhəmməd Oxatan bürcündən qovdu, buranı zəhərlənməkdən xilas etdi, Oxatan bürcündən çıxarmaqla Ütaridi də zərərsizləşdirdi.

Professor Rüstəm Əliyevin yozumuna görə, burada yəhudi harisin qızı Zeynəbin Həzrət Məhəmmədin çəpişinin zəhərlənməsinə işarə edilmişdir.

158.B. Su və yağmurluq bürcü sayılan Balıq (Hut) bürcünün başı günəşin yerləşdiyi dolça bürcünə doğru əyilmişdir. Gözəllik rəmzi olan və buna görə günəşə bənzədilən Yusifin qardaşları tərəfindən su quyusuna atılması Günəşin Dolça bürcündən keçməsinə bənzədilmişdir. Dənizdə üzərkən balina tərəfindən udulmuş Yunis su dolanda quyuya atıldığı kimi, həzrət peyğəmbər də Dolça bürcünün - balinanın Yunisidir.

159.B. 20 aprel çağlarına təsadüf edir. Süreyya bürcünün üç hissəsi Öküz bürcündə, yalnız bir hissəsi Quzu bürcündə yerləşdiyi üçün, Nizami səmanın bu hissəsini şah təxtinə bənzətmişdir. Yəni: Həzrət Məhəmməd öz Süreyya təxtini Quzu bürcündə qurandan sonra səhralara, çöllərə bahar gəldi, gül, çiçək ordusu aləmi bürüdü.

162.B. Həzrət peyğəmbər səma gülüstanından keçərkən Tan-



rıdan əmr gəldi ki, «Sən həndəvərə» baxma ki, diqqətin dağıdılmasın. Həzrət Məhəmməd «Yana baxmadı», yəni: bu kəlamı gözləri üstünə qoydu, gözləri bu nur ilə sürmələndi.

163.B. Həzrət Məhəmməd ilə bağlı hədislərdən birinə işarədir: «Mənim Tanrım mənə ədib öyrətdi».

165.B. Həzrət peyğəmbərin nəfəsinin ətri, mişki gecənin göbəyini mişgana çevirdi, aypara isə atı Borakın ayağında nal kimi parıldamağa başladı.

181.B. Yəni: həzrət peyğəmbər merac yürüşündə maddi aləmi arxada qoydu, Tanrı dərgahına gəlib yetdi.

184.B. Həzrət peyğəmbər meracda ruh üstündə uçub getdiyi üçün canında cismani müqavimət duymurdu.

187.B. Yəni: Həzrət peyğəmbər meracda Tanrı dərgahına daha ayaqları üstə deyil, başı üstə gedirdi.

## PEYĞƏMBƏRİMİZİ ÖYƏN İKİNCİ GÖZƏLLƏMƏ

207.B. Həzrət peyğəmbərin ayağının bildiyini özgələrin heç başı da bilmir. Yəni qeyri-adi zəka qüdrətinə malikdir.

210.B. Məhəmməd peyğəmbərin ciddi kişi olduğuna və çox nadir hallarda gülümsədiyinə işarədir.

211.B. 625-ci ildə Ühüd dağı ətəyindəki vuruşmada sapand ilə atılan daşdan Həzrət peyğəmbərin bir dişinin sınması hadisəsi yad olunur.

## SON PEYĞƏMBƏR HƏZRƏT MƏHƏMMƏDİN ÜSTÜNƏ ÜÇÜNCÜ GÖZƏLLƏMƏ

227.B. İslam etiqadına görə bədən natəmiz, ruh isə pakdır. Nizami Gəncəvi Məhəmməd peyğəmbərin fövqəlinsan yarandığını, deməli, həm cismən, həm də ruhən pak olduğunu bildirir.

228.B. Əski əlifba ilə yazdıqda «zəhmət» sözündəki «Z» hərfi üstündən nöqtə götürülərsə, həmin söz «rəhmət» oxunur. Beytin mənası budur ki, həzrət peyğəmbər hamının zəhmətini özü çəkdiyi üçün böyük təşəkkür, minnətdarlıq və rəhmət qazanmışdır.

237.B. Orijinalda «günahkar» əvəzinə «ətəyi islanmış» ifadəsi işlədilib. «Yerin göbəyi deyildik» - Kəbə nəzərdə tutulur. Beytin

mənası budur ki, sən öz nəcib əməllərinlə aləmi üz qaralığından xilas etdin. Kəbə torpağı sənin pak, müqəddəs nəfəsinlə ətirləndi, çiçəklənib şöhrət tapdı.

239.B. Dini etiqada görə Süleyman peyğəmbər təbiətin bütün xilqətləri, o cümlədən küləyin üstündə hakimiyyətə malikmiş. Onun əmrilə külək qasırğaya dönüb tufan qoparar, yaxud xoş bir nəsimə çevrilib bağların, gülüstanların üstündən əsər, aləmi gül, çiçək ətrinə qərq edərmiş: Nizami Gəncəvi Məhəmməd peyğəmbərin nəfəsini Həzrət Süleymanın mehindən də şəfa-bəxş və ətirli hesab edir, bu qüdrət sayəsində Həzrət peyğəmbərin ata yurdu hicazın və ümumən Ərəbistanın cənnət misallı bir məmləkətə çevrildiyini bildirir.

258.B. Cəmiyyətin və kainatın bilməcələrini tam dərk edə bilmədiyinə görə ağıl şikəstdir, onun yeganə loğmanı sənsən, gəl, yol göstər.

Həmişə yolda, səfərdə olan Ayın da arayıb axtardığı sənsən, gah batır, gah çıxır, gah incəlir, gah bədrlənir. Bütün bunlar sənin vücüdunu görmək həsrətindədir.

## PEYĞƏMBƏRİN ÜSTÜNƏ DÖRDÜNCÜ GÖZƏLLƏMƏ

260.B. Məkkə şəhərində anadan olmuş Məhəmməd peyğəmbərin Mədinədə vəfat və dəfn edilməsini nəzərdə tutur.

273.B. Məhəmməd peyğəmbərin əmisi oğlu və qızı Həzrət Fatimənin əri Həzrət Əli (656-661) öz əfsanəvi qəhrəmanlığı ilə islam dini tarixində məşhurdur. İkinci xəlifə Ömər (634-644) isə dini əsatirə görə hansı yerdən keçsəymiş, şeytan (iblis) həmin sahəyə üç gün ayaq basa bilməzmiş.

274.B. Rəvayətə görə, Məhəmməd peyğəmbər cümə və bayram günlərində özünün Yəmən şəhərində tikdirdiyi qara cübbəsini geyər və tellərini alnına tökərmiş.

276.B. Nizami Gəncəvi Məhəmməd peyğəmbərin 1559 il yatdığını, yəni dünyadana o vaxtdan bəri getdiyini bildirir. Həzrət Məhəmmədin 11-ci ildə vəfat etdiyini (miladi 632) nəzərə alsaq, «Sirlər xəzinəsini»nin qələmə alındığı tarix aydınlaşır. 559-11-570. Deməli. Nizami ilk poemasını 570-ci ildə (miladi 1174) yazmağa başlamışdır.



## PEYĞƏMBƏRİN ÜSTÜNƏ BEŞİNCİ GÖZƏLLƏMƏ

289.B. Bütün peyğəmbərlərindən sonra gəlməsinə baxmayaraq, Həzrət Məhəmməd bütün peyğəmbərlərin sonudur, yekunudur. Ondan sonra peyğəmbər gələ bilməz.

291.B. Beyt Həzrət Məhəmməd ilə bağlı bir hədis əsasında qurulmuşdur: «Mənimlə məndən əvvəlki peyğəmbərlərin məsəli ona oxşayır ki, bir kişi ev tikir, bitirir, bəzəyir, lakin bircə damının tacından başqa! Mən peyğəmbərlərin sonu olaraq həmin damın tacıyam».

292.B. Dini etiqada görə buğda yeyib cənnətdən qovulmuş Adəmin üzrü, tövbəsi yalnız Məhəmməd peyğəmbər tərəfindən qəbul edilmiş, Nuh peyğəmbər də ümumdünya daşqınından Həzrət Məhəmmədin yardımı sayəsində qurtula bilmişdir.

294.B. Dünya etiqada görə buğda yeyib cənnətdən qovulmuş Adəmin üzrü, tövbəsi yalnız Məhəmməd peyğəmbər tərəfindən qəbula yetmişdir.

295.B. Sənin hər sözünü şəkər və bal kimi yeyən, qəbul edən həzrət Adəm üzr istəyirkən, tövbə qılırkən, adi gülşəkər sənin qarşında öz adından utandı, gülşəkərlikdən əl çəkdi.

296.B. Qəbul topu - peyğəmbərlik mövqeyi. Tanrı bu mövqeyi lap əzəldən müəyyənləşdirsə də topu öz çövkanı ilə ələ gətirmək heç kəsə nəsib olmayıb, bu işi yalnız Həzrət Məhəmməd peyğəmbər bacarmışdır.

299.B. Professor Rüstəm Əliyev bu beytin məzmununun Quranın «Nuh» surəsindən iqtibas edildiyini bildirir. Nuh peyğəmbər öz ümmətini büdpərəstlikdən əl çəkməyə və bircə Tanrıya tapınmağa dəvət qılarkən ona qulaq asmayıb günah işlətdilər, kafirlik və asilik etdilər. Onda Həzrət Nuh Tanrıya üz tütmalı oldu: «Xudavəndə! Yer üzündə, evlərdə yaşayan heç bir kafəri saxlama!» Bu bəd duadan sonra Yer üzünü sel, su basdı., Nuh öz gəmisinə yalnız layiq bildiklərini götürüb xilas etdi. Həmin bəd dua Nuh peyğəmbərin səhvi, suçu sayılır.

300.B. Həzrət İbrahim ilə bağlı hədislərin birində onun həyatda üç dəfə yalan danışmasından, deməli, atının üç dəfə büdrə-

məsindən söhbət gedir.

301.B. Dini etiqada görə, nəğmənin yaradıcısı, şair Davud peyğəmbər Uriya xanına evləndikdən sonra səsini itirmişdir. Bəm səslə Tanrıya yalvarmaq əvəzinə o, zilə keçmiş, buna görə duası qəbula yetməmiş, peyğəmbərlik topunu əlində sonadək saxlaya bilməmişdir.

302.B. Qədim yəhudilərin peyğəmbərləri və padşahı sayılan Həzrət Süleyman peyğəmbərlik tacına layiq olduğu halda təxtindən, tacından əl çəkə bilməmiş, tanrının ortaya atdığı qəbul topunu götürüb saxlamağı bacarmamışdır.

303.B. İmkanı olduğu halda, fürsəti əldən vermiş, düşdüyü quyuda yalnız ucuna kəndir bağlı dolça görə bilmişdir.

304.B. «Ətəyi islanmış» ifadəsinin məcazi mənası «günahkar», «suçlu» deməkdir. Nizami deyir ki, Xızr peyğəmbər öz peyğəmbərlik funksiyasını yerinə yetirmək əvəzinə, əbədi yaşamaq eşqinə düşdü, dirilik suyunun ardınca zülmətə getdi və dirilik suyu bulağında ətəyini islatdı, yenə bəşəriyyətin qarşısında suçlu, günahkar qaldı.

305.B. Həzrət Musa peyğəmbərlik piyaləsini içmək istədi, ancaq bacarmadı. Şüşəsini Tur dağında qayaya çırpıb Tanrı dərgahına əl qaldırdı. «Özünü mənə göstər!» Lakin Tanrıdan cavab aldı ki, «Lən tərani» («Sən məni heç vaxt görə bilməzsən!»)

306.B. Atasından xəbərsiz olduğu üçün xalqın nəzərində ləkəli sayılan İsa peyğəmbər (Məsihə) peyğəmbərlik süfrəsinə heç tamah da salmadı. Yəni Tanrı dərgahına çatmaq, onunla görüşmək səadəti heç gümanına da gəlmədi.

307.B. Peyğəmbərlər içində Tanrı ilə görüşmək səadəti yalnız Sənə nəsib oldu, Tanrıdan başqa heç bir kimsəyə, heç bir nemətə ülvi məhəbbət bəsləmədin, qəbul topunu udub Tanrı görünüşünə nail olan bircə sənsən, öz qeyrət və iradən ilə fələkləri heyran qoyan qüdrətsən.

314.B. Sənin nəfəsində elə bir qüdrət var ki, dilsiz-ağızsız heyvanları, bitkiləri, cansız təbiəti belə dilə gətirir, onlara nitq verir.

316.B. «Kun - Ol!» əmri ilə Tanrının dünyanı altı günə yaratmasına işarə olunur.



## İSLAM PADŞAHI MƏLİK FƏXRƏDDİN BƏHRƏM ŞAH İBN DAVUDA ÖYGÜ

328.B. «Nöqtə kimi dügünləmək» Nizami Gəncəvinin Gəncədə yaşadığına və bu şəhərdən çıxıb gedə bilmədiyinə işarədir.

329.B. Hüma (Humay) əsatirə görə geniş qanadlı səadət quşudur, guya kimin üstünə qanadını gərsə, həmin adam xoşbəxt olar, hətta padşah seçilə bilər. Nizami Gəncəvi Bəhram şahı özünün hüma quşu, himayəçisi, hamisi olmağa çağırır.

334.B. Nizami Gəncəvi onun üstünə fərr(Ahuraməzda tərəfindən nəsib edilmiş nur həlqəsi) sala biləcək böyük hami, himayədar arzulayır.

338.B. Sən zülmətdə dirilik suyunu tapan Xızr peyğəmbər və iki qitənin fatehi Makedoniyalı İsgəndər qədər güclü şəxsiyyətsən, «Məcesti» (Şərqdə «Əlməcsidi») adlı ulduzşünaslıq əsəri yaratmış böyük yunan alimi Ptolomey (Petlimus) kimi bilginlərə qibləgahsan, yol göstərənsən.

340.B. Dini etiqada görə, üzüyünün qaşında «Tanrı» kəlməsi yazılmış Süleyman peyğəmbər bütün heyvanlar, quşlar, cinlər divlər və müxtəlif dilli tayfalar üzərində mütləq hakimiyyətə malikimiş.

341.B. Süleyman peyğəmbərin atası Davud peyğəmbər olduğu kimi, Fəxrəddin Bəhram şahın da atasının adı Davuddur. Bu bənzəyişdən istifadə edən Nizami Gəncəvi Bəhram şahın bütün təbiət üstündə mütləq hakimiyyətə malik Süleyman peyğəmbər səviyyəsində qüdrət, cəlal və istedad sahibi olduğunu bildirir.

344.B. Vuruş və müharibə ilahəsi, həmçinin cəngavər sayılan Mərrix ulduzunun farsca adı bəhramdır. Bu ad uyğunluğundan istifadə edən Nizami Gəncəvi bildirir ki, Bəhram şah Davud oğlu öz bəhramlığını, yəni müharibə meydanında cəngavərliyini aşkara çıxarsa, «Yeddi gözəl» qəhrəmanı Bəhram Gurun nəsibi yalnız kor olar, yəni Ərzincan hakiminin qarşısında davam gətirə bilməz.

346.B. XII əsrdə Bəhram şah Davud oğlunun hökmranlıq etdiyi Ərzincan vilayəti Ermənistanı, Rum elini (Bizansı) və Abxazstanın böyük bir hissəsini əhatə edirdi.

352.B. Mavi pəncərə - səma, fələk. Müəllif bildirir ki, hər kim Bəhram şaha pəncə qaldırmağa cəsarət etsə, pəncəsiz qalacaq, yəni istər-istəməz məğlubiyyətə düçar olacaqdır.

353.B. Bəhram şah elə əzəmətli bir hakimiyyətə malikdir ki, yola saldığı karvanların zınqırovlarının, zənglərinin səsi fələyin qulaq pərdəsini yırta bilər. Özünün alovlu, qızğın nəfəsi ayna kimi görünən Ay səthinin şüşəsini parçalaya bilər.

## HÜZURUNDA YER ÖPƏRKƏN SÖYLƏNİB

357.B. Bəhram şah Davud oğlunun bütün vuruşlardan müzəffər çıxması, doqquzqaltı göylərin belə onun qüdrətindən agah olması nəzərdə tutulur, alqışlanır.

358 B. «Yerin, göyün qulağı» deyildikdə iki balığın - səmadakı Hut (Balina) bürcünün və əsatirə görə Yer yuvarlığını öz belində saxlayan əfsanəvi balığın qulağı nəzərdə tutulur. Nizami demək istəyir ki, yerin dibindən tutmuş fələklərə, səyyarələrə qədər bütün incilər sənin zəfər qılıncına yaraşır.

360.B. Qılıncın Fərat çayı qədər qan tökmüş və düşməni dirilik suyundan yoksun (məhrum) etmişdir.

362.B. Key Xosrov - İranın tarixi, əfsanəvi qəhrəmanlarından biri : qüdrətli şah rəmzi, Firdovsi «Şahnaməsinin» başlıca personajlarından biri; Cəmşid - tarixi əfsanəyə görə İranın şahlar panteonunda Pişdadiyan sülaləsinin dördüncü hökmdarı. Rəvayətə görə şərab, mey onun zamanında kəşf edilmiş, Cəmşid adı və Cami - cəm deyilən piyalə Şərq poeziyasında şadlıq rəmzi kimi işlənmişdir.

Beytin anlamı budur ki, sənin piyalən iki qüdrətli sərkərdənin və padşahın qüvvəsini özündə təcəssüm etdirən möhtəşəm bir hökmdarın əlindədir. Buna görə sənin çıraq çöhrənin nuru və işığı günəş pərvanəsini yandırıb külə döndərə bilər.

367.B. Çoxlarını vəzir, vəkil mərtəbəsinə qaldırsan da, əlindən tutan, sənə yardım edən yalnız ulu Tanrıdır, onun mələkləridir.

371.B. Firudin - Dəmirçi Gavənin Zöhhaka qarşı üsyanından sonra taxta əyləşmiş əfsanəvi İran şahlarındandır. Özünü ikinci Zərdüşt elan edərək Zərdüşt dinini bərpa etməyə və əsrinin tələblərinə uyğunlaşdırmağa çalışmışdır.



Zöhhak - İranın klassik şahlar panteonunda Pişdadiyan sülaləsinin beşinci hökmdarı sayılır. Milliyətcə ərəb olduğuna görə onu Zöhhak zülm və istibçdad timsalıdır. Əfsanəyə görə çiyinlərindən çıxmış iki ilana hər gün iki gəncin başını yedizdirərmiş.

Beytin mənası : F irudin kimi haqsevər, mərd, əcəsur insanlara arxalanmasan, ölkəni zülm, istibdad bürüyər, çiyinlərindən ilan çıxmış Zöhhak kimi sital müstəbidlər baş qaldıra bilər.

374.B. Taxt, tac sənə irsən keçməsə də, onu döyüşdə qazanmısaen.

397.B. Beytin mənası : Nizaminin boş qalmış könül dənizini öz incilərinlə zənginləşdir, «Sirlər xəzinəsi»ni bəyən, təqdir et.

## KİTABIN YAZILMASININ SƏBƏBİ

399.B. Əfsanəyə görə, Nuh peyğəmbər qopacaq tufanı öncə bilib yaxşı bir gəmi düzəldir və Ümumdünya daşqınından xilas olur. Buna görə Nuh peyğəmbər heç bir tufanda qərq olmayan ilk və qüdrətli gəmiçi sayılır. Nizami demək istəyir ki, mənim tufanlı dənizə bənzər əsərimdə - «Sirlər xəzinə»mdə Nuhun özü qərq ola bilər.

Əsatirə görə Xızr peyğəmbər zülmətdə tapdığı dirilik suyundan içib əbədi yaşayan şəxsiyyətdir. Şairin fikrincə, Xızr kimi əzəmətli şəxs belə bu dirilik suyunda - «Sirlər xəzinə»ndə öz kuzəsini sındırıb naçar qala bilər.

403.B. Birinci misra «Hədiqətül-həqaiq» («Həqiqətlər bağçası») müəllifi Sənainin Qəznə hakimi tərəfindən qiymətləndirildiyini işıqlandırır. İkinci misrada Nizami deyir ki, «Sirlər xəzinəsi» dastanını yazmaqla damğamı Rum elində sikkəyə vurmuşam, yəni Ərzincan hakimi Bəhram şahın adına layiq əsər yaratmışam.

406.B. Nizami Gəncəvi türk - azərbaycanlı olduğuna işarə vurur və farsca yazan başqa şairlər içərisində özünü qərib hesab edir, onu bu qəriblikdən yalnız Bəhram şah kimi hökmdar türkün qurtara biləcəyini söyləyir.

407.B. Nizami Gəncəvi öz poeziyasının orijinallığına işarə vurur , təzə sözlərini bar gətirən ətirli bağa bənzədir, öz gücünü özgədən, piltədən və neftdən alan çırağa oxşamadığını, müstəqilliyini bildirir.

410-411.B. Professor Rüstəm Əliyev və professor Mübariz Əlizadə bu cür beytlərin Nizami üslübuna və xarakterinə zidd olduğunu və katiblər tərəfindən qondarıldığını bildirirlər.

417.B. Arxadan gələnlər - Nizamilə yarışmaq istəyən şairlər.

425.B. Nizami yenicə tamamladığı «Sirlər xəzinəsi»ni Ərzincan hakimi Bəhram şaha təqdim etməkdə çətinlik çəkdiyini bildirir. Görünür, həmin dövrdəki irili, xırdalı müharibələr gediş-gəliş yollarını kəsmişdir.

## SÖZ QOŞMAĞIN FƏZİLƏTİ ÜSTÜNƏ

432.B. Nizami cahanın Tanrı tərəfindən «Kun - Ol!» əmrilə yaradılmasına işarə edir. Onun əzəli qələmi lövhi-məhfuzda kainatın taleyini sözlə yazıb, deməli, hər şeydən öncə sözü yaratmışdır.

437.B. Yaradıcı şəxsiyyətin canı - bu aləmə yadigar qoyub getdiyi sözündədir, bədəni, cismi, gövdəsi gəldi-gedərdir, tələl (sklet) hökmündədir.

440.B. Kainatın yaradılışından məqsəd sözdür, onun sonu da sözdən ibarətdir. Əbədi qalan yalnız sözdür.

444.B. Yalnız həqiqəti axtaranlar və tapanlar böyük söz yaratmağa və bu sözün sayəsində yaşamağa qadirdirlər. Sözü gercəkliyi pərdələmək vasitəsinə çevirənlərə, bomboş xəyal uydurmaçılarına söz heç vaxt üz göstərmir, yalançıları, saxtakarları yaxına buraxmır.

445.B. Yaradıcı insanın taleyi yaratdığı sözün dəyərindən asılıdır.

446 B. Damarları donanlar, bağrı yananlar - bədii və elmi söz yaradıcıları, şairlər və alimlər.

450. B. Söz - Tanrının: «Kun - Ol!» əmri.
Candakı şah damar - ruh.
Kələfin ucu - maddi aləm.

Beytin anlamı : Tanrı nemətı söz kəşf edilməsəydi, ruhu və bu maddi aləmi tapmaq olardımı? Yox!

451.B. Təbiətin və şəriətin bütün qanunları yalnız bədii və elmi sözün sayəsində kəşf olunub və möhürlənib, təsdiq olunub.

454.B. Söz qasidi - qələm və dil



## ÖLÇÜLÜ SÖZÜN ÖLÇÜSÜZ SÖZDƏN ÜSTÜNLÜYÜ

462. B. Poemanın ilk beytindəki hədisin məzmunu yenidən yada salınır : « Ya Cəbrail, bu nə qəsdir?», «Ya Məhəmməd, bu ərşin altındakı Tanrı xəzinəsidir, onun açarı isə şairlərin nitqidir».

463 B. Sözün tərəzisini quran ulu hökmdar - Tanrı.
Sözün aşiqləri - peyğəmbərlər.

464.B. Ərşin bülbülləri - şairlər.

465.B. İlham məqamında şairlər mələk səviyyəsinə ucalırlar.

471.B. Şairlik əvəzinə saray məddahlığı edən, eybəcəri gözəl kimi qələmə verən şerbazların həyasızlığı, sərvət, şöhrət düşkünlüyü ucbatından poeziyanın ləyaqəti ayaqlar altına salınmışdır.

472.B. Söz pərdəsində ahəng yaratmağı bacaranlar, yəni şairlər şahlardan fərqli olaraq, qılınca və orduya ehtiyac hiss etmədən ürəkləri, ölkələri tutmağa qadirdilər. Buna görə onlar məğrur və əzəmətlidirlər, heç bir şahın dərgahına baş əyməzlər!

474.B. Yaradıcı qüdrət hər iki cahanın hökmdarıdır. Onun ömürdən başqa mənəvi ömrü, dünyadan başqa mənəvi dünyası var.

475.B. Dizinə dirsəklənib başını aşağı dikən sənətkar bu vəziyyətilə gərilmiş kamana bənzər. Kamandan çıxan ox şairin dilindən saçılan bədii sözdür ki, mənəvi şikarı ələ gətirir.

476.B. Yaradıcılıq məqamında böyük əzablar çəkən şair istədiyi sözü tapanda düşdüyü əzabdan qurtulur, öz kaman həlqəsini qırır, dikəlir.

477 B. Fələyin qulağına həlqə taxmaq onu özünə qul etmək deməkdir. Yalnız yaradıcı qüdrət sahibləri bu işi görməyi bacarır, zamanı özünə təslim edir, fələyi qulağı həlqəli qula çevirə bilirlər.

478 B. Hoqqabaz fələk hoqqa, oyun çıxardığı halda, yaradıcı qüdrət sahibi onun qarşına misilsiz söz inciləri çıxarır və buna görə fələyin belini sındırır, ona qalib gəlir.

479 B. Yaradıcı ilham məqamında sənətkarın ürəyi köks qəfəsini dağıdır, uçur, qanadlanır və sənətkarın dodağından öpmək istəyir. Niyə? Çünki indicə dodaqlarından dürrə, mərcana bənzər sözlər saçılmışdır.

489.B. Beli kəmərli mərdlər - şairlər.

491.B. Mәddah saray şairlәri, qarınqulular, ucuz şöhrәt vә sәrvәt düşkünlәri sözü satmaqla görün nә dәrәcәdә alçalır, sәnәtin sikkәsini hörmәtdәn salırlar.

492.B. Zülmәtә işıq salan lәl: günәş, yaxud poeziya.

494.B. Burada saray şairlәrinin aqibәtinә işarә olunur. Sultanın qızılı hesabına zәrli әba geyәn şerbazlar axırda sultanın qәzәbinә düçar olur, bәzәn dәmir çeynәmәk, qılınc zәrbәsi dadmaq dәrәcәsinә gәlib çatırlar. Burada saray şairlәrinin qızıl tökmәk dәbinә dә işarә var.

495.B. Nizaminin fikrincә, sultan qәzәbindәn qorunmağa, yeganә tәminat şairin öz nәfsini cilovlamağı bacarmasıdır, o, civә kimi saf, tәmiz qalmağı bacarmalıdır. Qәdim kimyagәrlәrin fikrincә, qızıl civәyә doğru can atdığı halda, civә qızıla doğru can atmır. O, müstәqildir, pakdır.

497.B. Özlәri vermәyincә hökmdarlardan pul, mükafat, imtiyaz umma!

500.B. Sәnәtkarın hörmәtini, nüfuzunu ucaldan yalnız öz poeziyasıdır. Yalnız böyük poeziyası sayәsindә o, göyün yeddinci qatında yerlәşәn әfsanәvi Sidr ağacı mövqeyinә yüksәlә bilәr, cәmiyyәtin әn uca qatında mövqe tutan sultanlardan, şahlardan belә yüksәk vә әzәmәtli görünәr.

501.B. Beyt «Şairlәr - söz hömdarıdır» әrәb mәsәli üstündә qürülmüşdür.

502.B. Sәn әsrlәrin, fәlәklәrin başı üstündәn keçib gedә bilәcәk böyük, qadir, ülvi söz yaratmağa borclusan. Nәfsini cilovla, özünü gәldi-gedәr şahlar, sultanlar önündә alçaltma!

503.B. Burada gündüzdәn daha çox gecәlәr çalışan şairlәr şama bәnzәdilir. Gündüzlәr sakit dayanan şamlar yalnız gecәlәr yaşayır, әriyә-әriyә işıq saçmaqla ayıq-sayıq ömür keçirirlәr.

508.B. Yalnız bәdii sözün lәyaqәtini uca tutan şairlәr Ay kimi işıqlı, günәş kimi qüdrәtli poeziya yarada bilәrlәr.

512.B. Düzәliş üçün şerlәrini başqa şairlәrin ixtiyarına vermә, onlar sәnin min bir әziyyәtlә becәrdiyin tarları tapdaya, inci düzdüyün sapı bilәrlәr.

515.B. Nizami öz poeziyasının inqilabi mahiyyәtini işıqlandırır: Mәn şerri ümumxalq malı etdim, meyxanәdәn vә saraya xidmәt vәzifәsindәn qurtardım, sәnәti uca bir mövqeyә qaldırdım.



516.B. Nizami Gәncәvi öz poeziyasının beynәlmilәl mahiyyәtinә işarә vurur. Bu poeziya yalnız xirqә (qıldan toxunma, yamaqlı, cındır әba) geyәn sufilәr, dәrvişlәr vә zahidlәr üçün deyil, belinә zünnar (qıldan toxunmuş kәmәr) bağlayan xaçpәrәstlәr, mәsihilәr üçün dә gәrәklidir. Nizami poeziyası olan yerdә nә xirqәyә ehtiyac qalır, nә zünnara. Bütün bәşәriyyәtә mәxsus Nizami sәnәti dini atributların hamısından yüksәk dayanır.

521.B. Harut vә Marut - Tanrı tәrәfindәn göndәrilmiş iki mәlәyin adıdır. Hәr ikisi Zöhrә xanıma vurulub onu yoldan çıxarmaq istәyirlәr. Tanrının buyruğu ilә Zöhrә planetә çevrilir. Harut ilә Marut isә Babilistanda cәzaya mәhkum olunur, dәrin bir quyudan başıaşağı asılırlar. Poeziyada Harut, Marut, Babil sehr, Әfsun rәmzi kimi işlәdilirlәr. Nizami ana yurdu Gәncәni Babilistana, öz poeziyasını isә cadugәrlәrin tilsimini qıran qüdrәtә, habelә, dan ulduzu Zöhrәyә bәnzәdir.

522.B. Bu mәntәqәnin (Gәncәnin) Zöhrәsi (musiqiçini vә müğәnnilәrin hamisi), mәnim Zöhrәm tәrәziçidir, sözümün dәyәrini tәrәzidә çәkir. Mizan bürcündә ölçür vә görür ki, mәnim şeir-sәnәt dilim ruh alәminin dilidir. Lәyaqәt vә gözәllik meyarıdır.

523.B. Harutun sehr vә tilsimlәri yalana, adamaldatmaya әsaslandığı üçün, zәhmәtimlә qazandığım gündәlik duzum, çörәyim qәdәr halaldır. Mәnim halalım hәr cür haramı sındırır, batil edir.

## GECӘNİN VӘSFİ VӘ KÖNÜLӘ DALMAQ SÖHBӘTİ

525.B. Qalxanı suya atmaq, qalxanı atmaq - tәslim olmaq demәkdir.

Beytin mәnası: gecә düşdü.

529.B. Ayın süd nәnәsi - fәlәk, göylәr.

Gündüz zınqırovu - günәş.

Beytin mәnası : Ay göy qübbәsindә bәdrlәndi , az qala günәş qüvvәsilә nur saçmağa başladı.

534.B. Üzü qara kafәr - gecәnin qaranlığı.

536.B. Burada söhbәt kәllә qәndә bәnzәyәn Ayın әtrafında yeı ulduzların doğmasından, müğәnnilәr vә musiqiçilәr hamisi

Zöhrə ulduzunun daha da şənlənməsindən, həndəvərə bol-bol sevinc, fərəh qığılcımları saçmasından gedir.

541.B. Pak, təmiz atəş - insanın mənəvi qüvvəti, yaradıcı ilhamı.

Atəşə su səpmək - mənəvi qüvvəti, yaradıcılıq ilhamını söndürmək, insanın nəfsə, tamaha uyması, kiməsə yalmanması, mədhnamə yazması və s.

Yel kimi yedək atını minmək - şöhrət, sərvət düşkünü olmaq, heyvani tələbləri ehtiraslar ocağında yelləyib qızışdırmaq.

553.B. Nizamiyə görə, insan yalnız qırx yaşından sonra kəmala yetməyə başlayır, çoxları üçün ömrün qırx ili hədər gedir, çünki bu dövrdə nəfsə, tamaha, ürəyi söküb tökən heyvani ehtiraslara uyur. Dərrakəli insan lap gənclikdən gərək bunun qarşısını alsın, öz ömrünün və mənliyini qədrini bilsin.

565.B. Qapı cəftəsi - qupquru, cansız predmet, biganəlik rəmzi. Qapı cəftəsinə bənzəyənlər dost deyil, onlar insan mənliyinə işıq, qüdrət gətirməyə qadir deyillər.

571.B. Yəməndə xüsusilə parlaq görünən Cənub ulduzu Süheylin işığı, qədim təsəvvürə görə, burada emal olunan əla növlü dərinin - ədimin şəffaflığına səbəb olur. Nizami ağ dərili, parlaq dərili insanların xoşbəxtliyini də bu ulduz altında doğulması ilə bağlayır və həmin ulduzun gözəlliyinə, nur qüdrətinə layiq olmağa çağırır.

572.B. Yəni : fikrim işıqlandı.

573.B. Hatif (ə) - qışqıran, bağıran, hayqıran, dəruni səs, mələklərin, yaxud vicdanın səsi.

576.B. Mən maddi dünyaya bağlayan təbii-bioloji instinktlərin hökmündən qurtulmağı bacardım, ruh qüdrəti qazandım.

578.B. Maddi aləmdən qurtulmaq, mənəvi yüksəkliyə qalxmağı bacarmaq insana baha tamam olur, yalnız canını dişinə tutmaqla bu işi görə bilirsən.

580.B. Yəni : açıldım, büküldüm, yumrulanıb topa döndüm, top kimi başsız, ayaqsız, bir şey oldum. Ətəyim yaxamdan seçilmədi.

587.B. Məhəbbət karvanının öncülləri mənə nəvaziş göstərdilər, vücudumun zahiri pərdəsini qaldırdılar ki, ürəyimi görə bilsinlər.



591.B. Professor Rüstəm Əliyevin yozumuna görə yeddi xəlifə - ürəyin yeddi xidmətçisidir : 1. Ürəkcik. 2. Ağ ciyər.3. Qara ciyər. 4. Öd kisəsi. 5 . Dalaq. 6. Mədə. 7. Böyrək.

Birinci misra Firdovsinin «Şahnaməsində» İsfəndiyar ilə bağlı «Yeddi xan» («Həft - xan») dastanına işarə vurur.

592.-595.B. Günorta şahı - Günəş (ürək). Nəfəsabadın istilənməsi - nəfəs alırkən ağ ciyərin istilənməsi. Qızıl donlu süvar - ürək. Paltarı ləl rəngli gənc - qara ciyər. Acıqlı bir cavan - öd kisəsi. Qədim təbabət anlayışına görə, öd kisəsinin iki ağzından biri ağ ciyərə açılıb qanı təmizləyir, onun tortasını özünə çəkir, ikinci ağzı isə qursaq ilə birləşib, qara səfranı mədəyə çatdırır, adama iştah gətirir, buna görə müəllif ona şikar kəşfiyyatçısı ləqəbi vermişdir. Qar qul - dalaq. Kəməndatan - mədə, onun kəməndi - bağırsaq. Misbədənli pəhləvan - böyrək.

600 B.. Dilək quşu - ruh. Dilək quşunun uçması - insanın dünyaya əlvida deməsi, ruhun cismdən xilas olması.

601.B. Könül deyir ki, mənim odum, atəşim cismani ürək yuvasının tüstüsü ilə ülfət yapa bilməz, çünki ürək səni maddi aləmə çəkir, məni isə mənəvi aləmə. Mən duzam, ürək isə duzun nə olduğunu bilməyən bir parça ət.

602.B. Söhbət yenə ruhun, könülün bədəndən, cisimdən, ürəkdən üstünlüyü haqqında gedir. İkincilər, Nizaminin fikrincə, gəldi-gedər və müvəqqətidir, birincilər əbədi, əzəli. Buna görə Nizami Gəncəvi ruhun kölgəsini dəhrin, bu dünyanın sərvindən daha əzəmətli hesab edir. Ruhun ayağı və addımları adi insan ayağından və insan addımlarından dahca cəsur, daha qüdrətlidir.

603.B. Mən elə bir xəzinəyəm ki, çox da uzaqda olmadığım üçün istəsən məni ələ gətirə bilərsən. Yaxşı ki, son dərəcə varlı olduğu halda həm də son dərəcə xəsis olan və buna görə Tanrı tərəfindən cəzalandırılan və xəzinələri ilə birlikdə yerin yarğanına gömdürülən Harunun ixtiyarında deyiləm.

## BİRİNCİ XƏLVƏT - QƏLBİN TƏRBİYƏSİ

608.B. Riyazətlə məşğul olmaq - oruc tutmaq, namaz qılmaq, az yatmaq, yemək, nəfsi, tamahı ram etmək və s. bu kimi vasitələr ilə qəlbi tərbiyələndirməkdir. Doqquz fələyin çevrəsindən çıxmaq

isə maddi aləm qayğılarından qurtulmaq deməkdir. «Riyazət öyrədən» anlayışı orijinalda «rayiz» şəklində işlədilmişdir. Bu sözün digər mənası xam atı ram edən minici deməkdir.

609.B. Keçmişdə döyüş atını döyüş şəraitinə alışdırmaq məqsədilə qıldan düzəldilmiş kəndirdə düyüm vurmaqla yeddi həlqə hazırlar, birincisini atın boynuna salar, qalan hissəni yerin üstünə sərrəmişlər. At ayağını həmin həlqələrə qoyub irəliləməyi bacarsa, onu əhlilləşmiş sayarmışlar. Riayət yolu ilə kamilləşən Nizami özünü həmin çətinlikləri dəf edən köhlənə bənzədir, qüdrətli əsər yazmaq üçün varlığında qüdrət qaynaqları kəşf etdiyini bildirir.

610.B. Riyazət öyrədən pir məni elə təlimlərdən keçirdi ki, bütün əzab-əziyyətlər, çətinliklər arxada qaldı, cismani düyümlərdən qurtuldum.

616.B. Qədim Misir fironu Əzizin həzrət Yusif peyğəmbərə vurulmuş arvadı Züleyxa klassik poeziyada eşqə sədaqəti, vəfa rəmzidir.

617.B. Sübhün çırağı - günəş.

619.B. Burada «bağa çatdıq» ifadəsi «ruh aləminə qovuşduq» mənasındadır.

622.B. Yəni: köksüm lalənin bağrı kimi dağlandı. Belimin qurşağı güllərin kəməri kimi ləçək-ləçək, dağım-dağım oldu.

626.B.Nəfəsimin qüdrətilə ölüləri dirildən İsa peyğəmbər (Məsiha, Məsih) kimi yarımın rayihəsi mənə ürək, ca verdi.

635.B. Göbəyinin yumşaq tükü ilə fərqlənən tülkü, dərisinin gözəl rəngini sanki tikanlara bəxş eləyib. Ceyranlari isə göbəyindəki mişki (ətirli maddəni) elə bil rayihəsi aləmi bürümüş çiçəklərə, güllərə bağışlamışlar.

639 B. Bir-birinə sarmaşan Xeyri gülləri yelpiyə dönərək bağın, gülüstanın ənbərini, ətrini hər tərəfə yaymaqdadır.

640.B. Qaşları, kirpikləri boyamaq üçün istifadə olunan sürmənin tərkibində zümrüd də vardır. Bu tərkib gözə işıq gətirdiyi halda, ilanın gözlərini kor edir.

642.B. Nizami Gəncəvi vur-tut bircə günlük ömrü olan süsən çiçəyini, dini əsatirə görə anadan olduğu gün açıb danışan həzrət İsa peyğəmbərə bənzədir. Bu çiçək dini rəvayətə görə, cibinə salıb çıxaran kimi əli şüa saçan Musa peyğəmbərə bənzəyir, həzrət Musanın ərəbcə «bəyza» deyilən ağ əlik kimi parıldayır.



646.B. Nizami yaradıcılığında Türk anlayışı gözəllik, qüvvət, paklıq, ağlıq və işıq anlayışlarının atributudur. Burada o, ağ yasəməni qıpçaklarda (əngin çöllərdə) yurd salmış türklərin aypara nişanlı döyüşçü çadırına oxşadır. Bu çadır o qədər əzəmətlidir ki, Süreyya ulduzunadək ucalıb da ona şölə verir.

647.B. Məcus - atəşpərəst, zərdüştçü Nizami laləni atəşgədə atəşinə, alov dillərini isə oda sitayiş qılan muğ kahinin yuxarı qalxmış əllərinə bənzədir.

648.B. Sehl və Lalə, Süheyl və Səmən əsatirdə aşiq-məşuqə sayılırlar. «Türk yasəmən» ifadəsi Nizamidə ənənvi məcazlardandır. Türkün əbədi bahar, təzəlik, paklıq rəmzi olduğuna işarədir.

649.B. Yaqum adlı heyvana yağı kəsilmiş sincabın mənası yaşıllıq deməkdir. Müəllif demək istəyir ki, yumşaq axar su yaşıl otlara toxunur.

652.B. Yarpaqlar və budaqlar arasından yerə düşən şüalar klassik şeirdə kölgənin dodaqlarına oxşadılır. Yarpaqlar tərpənirkən həmin şüalar da tərpəndiyinə və yer dəyişdiyinə görə bunu da kölgənin nitqi hesab etmişlər. Hərəkət etməyən quma məcazi mənada ölü qum deyilir.

İkinci misranın mənası: suyun təhriki ilə dirilmiş qum çay axarı boyunca yürüşdədir. (Prof. Rüstəm Əliyev).

655B. Lalənin manqalında (məcmərində) üzərrik yandırıb tüstünü söyüdə yelləyərlər ki, cadu sınsın, onun bədənindən çıxsın.

659 - 660.B. Keçmişdə güləş meydanına çıxan pəhləvan hərif axtaranda əlində narınc atıb tutaraq var-gəl edərmiş.

Birinci beytin mənası: günəş doğdu. Yəni: günəşi əlində narınc kimi atıb tutan göylər özünün yaşıl-mavi gözəlliyinə görə Yerə, onun turunclu bağlarına meydan oxuyur.

İkinci beytin anlamı: Öz gümrahlığı və coşğunluğu ilə öyünən bahar ilə bayrağını şəfəqlərlə süstləmiş fələklər arasında da belə bir rəqabət var.

663.B. Fələk bağlardan keçəndə yaşıllığını girov qoyub əvəzində yaqut kimi qırmızı, al şəfəqləri çalıb getmişdi.

667.B. Sərv ağacını çox sevən qırqovul adətən ölüm vaxtı yaxınlaşanda can vermək üçün onun dibinə gəlir. Burda həm də ölü turac tapılanda güman eləmişlər ki, o, qırqovulun canını almağa gəlmiş, caynaqları ilə sərvi zəncirləmək fikrinə düşmüşdür. Başqa

bir etiqada görə qırqovulu öldürən sərv ağacının qokusudur.

669.B. Etiqada görə bayquş xarabalıqda yaşayır. Xarabalıqda isə çox vaxt xəzinə yerləşir. Bayquşu adətən bəduğur sayıban öldürürlər. Nizami demək istəyir ki, xəzinə sirrini saxlamağına bayquş başı ilə cavab verir, viranədə yaşamaq və viran olmaq onun alnına yazılıb.

672.B. Şəmşad baharı gördüyü üçün qızışan, odlanan lalənin ürək döyüntülərini hiss etdi, kölgəsini onun yanar bağrının üstünə saldı ki, lalə alışıb yanmasın.

673.B. Gecənin göz titələri - ulduzlar.

674.B. Qızıl kəndirli Yusif - günəş, yaxud dan yeri.

Beytin mənası : Dan yeri söküləndə yasəmənlər çiçək açdı, şüalar çiçəkləri bürüdü.

675.B. Keçmişdə yəhudilər dini qaydalara əməl edərək müsəlmanlardan seçilsinlər deyə sarı paltar geyər, yaxud geyimlərinin üstünə «qiyar» deyilən sarı mahudu parça, çit tikərmişlər. İkinci misra sudan günəşin doğmasına işarədir ki, bu halda suyun qüdrəti həzrət Musa peyğəmbərin möcüzə göstərən ağ əlinə oxşadılır. Burada günəşin sudan çıxıb suda batmasına dar qədim təsəvvürə də işarə olunur.

676.B. Torpaq içdiyi suyun sayəsində qazandığı bütün möcüzələri: ormanları, gülüstanları, zəmiləri...dünyaya göstərdi.

678.B. Söhbət kölgə ilə işığın bir-birilə əylənməsindən, öpüşüb görüşməsindən, yarpaqlar və budaqlar arasından düşən şüaların kölgə yanında gözəlliyindən gedir.

## BİRİNCİ XƏLVƏTİN SƏMƏRİ

684.B. Güllərə gül ətrini, şəkərə şəkər dadını bəxş edən o gülnəfəslini, şəkər gülüşlünü gördüm.

688.B. O duzlu gözəl danışdıqca (cümlə-cümlə şəkər doğradıqca), başqa dodaqların şəkəri suya düşür, nitqi heçə-puça dönürdü.

689.B. Şəkər yeməyi xoşlayan tutuquşu klassik şeirdə natiqlik timsalıdır. Burada həm zahirən, həm də daxilən tutuquşundan üstün olan gözəl danışıq nümayiş etdirməkdə, şəkər saçmaqda hər cür rəqiblərini kölgədə qoymasından gedir.



692.B. Təbər (Xəzər, Kaspi) dənizinin cənub sahillərində yerləşən Təbəristan vilayəti özünün qırmızı rəngli innab ağacları ilə də məşhurdur ki, farsca bəzən balta sapı, yaxud gürz qayırmaq üçün istifadə olunur. Nizami burada gözəlin gül dodaqlarının balta, yaxud gürz funksiyasında işlədilən innabdan daha çox qan tökdüyünü, dil şirinliyinə görə qəndi, şəkəri xəcil etdiyini bildirir.

694.B. Ud ağacı düyümlü olduğuna və alışanda şiddətlə yanıb yandırdığına görə, ən başlıcası xoş, məstedici rayihə saçdığına görə Nizami gözəlin xalını ona bənzədir.

İkinci misra bu fikri daha da zənginləşdirir : ürəkləri alovlandıran gözəlin yanaqları o qədər ətirlidir ki, sanki gündüzə bənzər yanaq sədəfində qaliyə - ətir-ənbər əziblər.

700.B. Burada gözəlin dar ağzı inci qutusuna, dadlı, duzlu söz söyləməyə hazırlaşan dodaqları qəndə, şəkərə bənzədilir.

704.B. Nizami Gəncəvi gözəlliyin şiddəti önündə az qala dəli, divanə olduğunu bildirir. Həddini aşmasın deyə, keçmişdə dəlini qandallarmışlar.

705.B. Yəni: Günəşin üzünü gillə suvamaq mümkün olmadığı kimi ürəkdəki kədəri də meyin, şərab içməyin gətirdiyi ani nəşə ilə silib aparmaq mümkün deyil.

706.B. Yəni : Şərab düşkünlərinin əlacı şərabda, acı meyvə olduğu kimi dərdlilərin də çarəsi acı dərdi, qəmi çəkməyi bacarmasındadır.

## İKİNCİ XƏLVƏT - GECƏ GÖRÜŞÜ

717.B. Gecə şahı - darğa, şihnə. Gecə bəkçisi - keşikçi, qaravulçu, Çırpınan böcək - şirəyə batıb qanadsız qalan pərvanə, milçək.

Beytin mənası: Darğa keşikçilərinin qanını tökmüş və pərvanələri qanadsız qoymuşdu ki, məclisin gedişatına mane ola bilməsinlər.

718 B. Pərdə dalındakılar - hərəm sakinləri, həyalı məşuqələr.

719 B. Burada Süheyl-mey paylayan saqi, yetim dürr və şeh damlası kimi parlaq görünən - büllur piyalə, ləl və mirvari isə rəngino və dəyərinə görə onlara bərabər tutulan gül rəngli meydir.

720.B. Cigərin şamı - cigərin şam kimi alışıb-yanması. Şamın digəri - şamın piltəsi, fitili. Atəşin ürəyi od.

721.B. Ud ağacı şəkərsiz yana bilmir, odur ki, yandıranda ona şəkər qatırlar. Elə bir ülvi məclis açılıb ki, burada ud ağacı özü yanmağa can atır, buna görə şəkər saçır və bu şəkər onu alovlandırır.

722.B. Keçmiş toylarda gəlin ilə bəyin başına qızıl səpilməsinə, ətrafa noğul, şəkər yağdırılmasına işarədir.

725.B. Şirin vədə - vüsal vədəsi. Dirilik suyu - məşuqənin şirin dodaqlarının həyatverici qüvvəsi.

726.B. Tülkünün göbək xəzi onun bədəninin ən yumşaq hissəsi sayılır. Qaplan bu xəzi altına salıb, yəni məşuqəsini aşiq qucaqlayıb. Ceyranın (məşuqənin) vüsal yatağında göbəyinə düşən hörükləri isə arslanın (məşuqun) belində kəmərə çevrilmişdir.

728.B. Burada şamın nuru ilə dolmuş şamdanlar saqilərin dolu qədəhinə bənzədilir. Bu halda şamın başına dolanan pərvanələr şərab qoxusundan məst olmuş, bayılmışdır.

730.B. Musiqi və şənlik ilahəsi olan Zöhrə (Venera) bu məclisə o qədər vurulmuşdu ki, səmadan enib məclisə gəlmişdi. Sazını elə bir şövq ilə çalırdı ki, dürüst bir ahəng ilə çalan əlləriaz qala mizrabı sındırırdı.

731.B. Məclis elə qızışıb ki, uyğunsuzluqdan xumar olanlar belə yata bilmir, bir-birinə şölə verən çıraqlar kimi nur saçırlar.

735.B. Süreyya yeddi ulduz toplusundan ibarət Ülkər bürcüdür, yaxud Sur bürcüdür. Şənlik, fərəh və musiqi ilahəsi olan Zöhrə ulduzu da həmin bürcü də yerləşir. Məclisindən, gözəlliyindən vəcdə gələn şadlıq quşu elə qanadlanır ki, qanadlanıb ərşdə onların hamısından yuxarı qalxır.

736 B. Dan quşunu (xoruzu) kəsib kabab eləyirlər ki, banlamasın. Məclisin başa çatdığını xəbər verə bilməsin. Xoruzun od üstündə bişirilməsi məhəbbət quşlarının (sevənlərin) cigərinə su səpmiş kimi olur. Yəni onlar sevinirlər ki, banlama əhvalatı olmayacaq, məclis davam edəcək.

737 B. Səhər quşu - günəş.

743 . İnnabı pustə - al dodaqlar. İncə xət - üst dodağın göyərən zərif tükləri.

744 B. Gözəlin gecə kimi qapqara saçları qara hindliyə bənzər xal və Babil sehrindən üstün «Halal sehr» ilə, yəni naz, qəmzə



ilə ovsunlanmışdır. Müsəlmanlığa heç də zidd olmayan bu halal sehr Zöhrəni yoldan çıxarmağa çalışan və buna görə cəzalandırılmış, Babilistanda başıaşağı vəziyyətdə quyudan asılmış Harut ilə Marutun cadusundan üstündür.

749 B. Dini etiqada görə İsa peyğəmbər (Məsih, Məsiha) öz nəfəsinin gücü ilə ölünü dirildə bilirmiş, bu halda torpaqdan yaranmış ürəiyn ağzından dirilik suyu fışqırırmış.

750 B. Ayın yaşmağı - buludlar.

751 B. Al dodaqların şəkər saçması - şirin və gözəl qonuşmaq, gül üzün badam saçması isə - tərləməsi deməkdir. Gülün şəkərə pənah aparması yanaqların tərdən xilas olmasına və öz aşiqlərinə şirinlik, zövq bəxş etməsinə işarədir.

756.B. Yanağının atəşi - Bütpərəst Nəmrud tərəfindən oda atılan allah aşiqi Həzrət İbrahim Xəlilullah peyğəmbər. Bir dəstə reyhan - odun gülzara çevrilməsi, Nərgiz - gözlər, yaxud Allahın yolunda qurban kəsiləsi İsmayıl. Xəncər - kirpiklər.

759.-760.B. Gözəlin açılmış ağ yaxası elə bir şölə saçır ki, buhuri sifətlinin işığından yalnız qara camaat deyil seçmə adamlar da ovsunlanır, özlərini itirirlər. Qədim təbabət anlayışına görə sərsəmlər və epilektiklər güclü işığa dözə bilməz, qəşş edər, özlərindən gedərlərmiş.

762.B. Nərgizin ağ ləçəkləri gümüşə, ortasının sarı çiçəyi qızıla bənzədiyindən Nizami Gəncəvi zərli piyalələri ona oxşatmışdır.

765.B. Vüsal məqamına işarədir.

768.B. Əzəlin toxuduğu o xalça - poeziya və ümumən hər hansı incəsənət nümunəsi ömrə məna gətirir, hədər getmiş, itmiş günləri sanki geri qaytarır.

770 B. Nizamidə Türklük gözəlliyin ən yüksək mərtəbəsi deməkdir. Burada söhbət Türk gözəlindən və onun eşsizliyindən (misilsizliyindən) gedir.

771 B. Keçmişdə belə bir təsəvvür varmış ki, kətan Aya nöqsan gətirir (prof. R.Əliyev).

776 B. Mən bir su arxı kimi başımı o çəmənin (o gözəlin) ayağına qoymuşam ki, ondan qüvvət alır, gözəlin göz yaşıdır, məhəbbətdir arxımızı dirilk suyu ilə dolduran, bizi yaşadan. Mən yaşıllığamsa, o, günəşdir. Mənim nöqsanlarımı, ləkələrimi aradan

qaldıran, yuduğum libasımı qurudan və paka çıxaran da onun hüsnünün atəşidir.

791.B. Günəşin yaratdığı hövzə - dan yeri.

792.B. Beytdə gecənin əriməsi, səhərin açılması vəsf olunur. Ulduzların gümüşü günəşin qızılı altında qalır.

794.B. Yəni: gecə bitdiyi, sübh açıldığı üçün yarın vəslinə yetə bilmədim, canımı onun yolunda sübhə qurban verdim.

803.B. İlanın başındakı muncuq şəkilli buynuzcuq keçmişdə cadu və sehrin, gözdəymənin əlacı sayılarmış.

*BİRİNCİ SÖHBƏT*

## ADƏMİN YARADILMASINA DAİR

814.B. Burada hələ günah işlətməyən Adəmin Həvva ilə birlikdə cənnətdə dolaşması və paklığı, cocuqluğu nəzərdə tutulur.

815.B. Burada Adəmin buğda yeməklə günah işləməsinə və tövbə qılmasına işarə olunur.

816.B. Həzrət Adəm mələk və pərilərin son yavrusu sayılır. Beytin məzmunu Qurandan gəlmədir: «Biz səmum atəşindən əvvəl cinləri xəlq etdik»

818.B. Beytin məzmunu Qurani-şərifdən gəlmədir: «O, Adəmə torpaqdan yaratdı. Sonra ona «Ol!» dedi.

819.B. Bulaşıqdı - çünki torpaqdan xəlq olunub. Təmizdi - çünki ruhu var. Qızıldı - çünki İnsan yranıb. Sərrafdı - çünki günahları yoxlamaq üçün sınaq vasitəsidir. Bu təsvirlə Nizami Adəmin tam qiymətini verir.

820.B. Adəm səmada yaşayan mələklərin, pərilərin varisi və bütün bəşəriyyətin atasıdır və deməli, yaşamaq aynasıdır.

821.B. Canın şəkli - cism. Adəm bəşəriyyətin canının şəkli, biçimidir, yəni cismidir. Səmanın yeddi qatı onun qolunda bilərzik kimidir, yəni buyruğuna tabedir. Adəm kainatın əşrəfidir, bütün xilqətlərdən üstündür.

822.B. İki beşik - göylə yer, pərilər və insanlar aləmi.

823.B. Zindan əhli - Bu dünyada yaşayanlar. Ruh əhli - ruhanilər. Adəm ona görə saqi sayılır ki, Tanrının ona öyrətdiyi adları o, mələklərə və insanlara öyrətmişdir.

824.B. Cahan dairəsi Adəmin alış-veriş aləmi, bazarıdır, Tan-



rı öz yaradıcı qüdrətini ilk dəfə onun timsalında aşkarlayır.

827.B. Birinci misra Adəmin ən parlaq göz-nəzər sahibindən, yəni Həzrət Məhəmməd peyğəmbərdən peyğəmbərlik nuru almasına işarədir. Ən uca ağac-cənnət.

828.B. Cənnət quşları - mələklər. Dən aldı - bilik adı. Mələklər Adəmə ona görə minnətdardırlar ki, Adəm Tanrıdan öyrəndiklərini onlara öyrətmişdilər.

831.B. Beytin məzmunu Qurani-şərifdən gəlmədir: «Bütün mələklər ona (Adəmə) səcdə qıldılar. İblisdən başqa».

832.B. Beytin mənası Qurani-şərifdən gəlmədir: «O (Tanrı) dedi: - Ey iblis, sənə nə olub ki, baş əyənlərə birlikdə səcdə qılmırsan?»

O, cavab verdi: - Mən sənin quru torpaqdan, dağıdılmış qara gildən yaratdığına heç vaxt səcdə qılmaram».

838 B. Adəmin atasız, anasız yarandığına işarədir.

840 B. Cənnətdən qovulduqdan sonra Adəmin günəş altında yanması və dərisinin saman rənginə düşməsi nəzərdə tutulur.

845 B. Cəzalandırmaq məqsədilə buğda ağız açır ki, insanları udsun. Buğdanın ağzı - onu iki hissəyə bölən orta xət.

853 B. Onun günahı ucbatından solmuş ismət gülünü canlandırmaq üçün Adəm yağış yağdırdı, buna görə Sərəndibə köçüb çadır qurmağı lazım bildi. Sərəndib - Seylon.

854 B. Rəvayətə görə əməlindən peşman olub tövbə qılmış Həzrət Adəm Hindistanı qırx il dolaşaraq göz yaşları tökmüş, yas, matəm rəmzi olaraq nil(lil) rəngli paltarını daim əynində daşımış və başına bəla kəsilmiş nil çöhrəli fələk yalnız bundan sonra ondan əl çəkmiş, Adəmin tökdüyü göz yaşları yerində yaşıl çəmənlər göyərmişlər.

856.B. Fələk vuran ləkə - yeməyə məcbur edildiyi buğda sayəsində cənnətdən qovulması.

857.B. Turan dünyasının bir hissəsi olan Xəta(Xətay, Kitay, Xütən, Qara Kitay, qədim Türklərin iki qitəni qapsayan (ehtiva edən) məskənlərindən biridir. Dəqiq xəritəsini vermək çətindir. Ancaq hər halda Himalay dağlarından başlayaraq Əfqanıstanın şimal hüdudlarına, Xorasanın cənubunadək uzandığı, Tibet (türkcə, tanqut), Qaraqum, Pamir (türkcə hamar yer), əsası türklər tərəfindən qoyulmuş Xanbalıq (Pekin) ərazilərini qapsadığı şəksizdir.

Nizami Gəncəvi bütün türklərin o sırada Xəta türklərinin cismani və əxlaqi hüsnü ilə fəxr etdiyini bildirir. Üzüqara Adəmin Xəta türkləri kimi üzüağ olduğunu, Ay kimi şölə saldığını və qüsurlarını, xətalarını tövbə papağı altında gizlətdiyini vəsf edir.

860.B. Altıqapalı ev - dünyanın altı cəhəti : alt, üst, ön, arxa, sağ, sol. Dini rəvayətə görə Adəm cənnətdə olarkən cənnət xəzinəçisinin ona verdiyi gül və bitki toxumlarını qoruyub saxlamış və cənnətdən qovulandan sonra planetin hər tərəfinə səpmişdir.

862.B. Ud - Hindistanda bitən elə bir gözəl ağacdır ki, yandırılanda ətrafa xoş bir rayihə saçır, buna görə manqalda istifadə olunan odun sırasında ayrıca yer tutur.Nizami bəşəriyyət qarşısında böyük xidmətləri olan Adəmi «ud» və «eşşək» epitetləri ilə süsləyir. Burada «eşşək» zəhmət və cəfakeşlik timsalıdır.

863.B. Bu beyt ilə Nizami bəşəriyyətə xitab edir, onun yolunda Həzrət Adəmin nələr çəkdiyini bildirir.

864.B. Nə qədər ömrün bahar çağındasan, gəncsən, enerjini, gzünü gözəl əməllərə həsr et ki, alaq, tikan sayaraq səni bostandan, insanlıq aləmindən kənara atmasınlar.

865.B. Qocalıq ömrün son baharı, xəzan çağıdır. Buna görə gəncliyin qədrini bil, xalqa xidmətini gənclikdə gücləndir! Ömrün sonu titrəmə, qızdırma, möhnət və iztirab ilə doludur.

874.B. Nizaminin fikrincə, cismani və mənəvi hüsnün atributlarından biri - çeviklikdir. Yalnız nəfsini cilovlamağı bacaran, dünya yükünü çiyninə götürməyən pak nəfəsli, pak cövhərli insanlar çevik və ruhən qanadlı olurlar.

875.B. Bundan əvvəlki beytdə yürüdülmüş fikrin davamıdır. Nəfsini cilovlaya bilməyənlər, dünya yükünü öz öhdəsinə götürənlər Qaf dağı kimi ağırlaşıb öz yerində qalır, çevik, ruhən qanadlı insanlar isə ruzigar kimi azad və sərbəst dolaşırlar. Beləlari bütün kainatın mənəvi hökmdarıdır.

877.B. Divarları aynalı otaq - bizim dünya. Bu dünyaya hamı və hər şey səni gördüyü halda, sən yalnız özünü görürsən, deməli, xudbinsən, eqoistsən.

878.B. Nizaminin fikrincə, eqoist, xudbin adamlar diri olsalar da ölü kimidirlər, çünki hər şeydən üstün tutduqları vücudlarını cəmiyyətdən və təbiətdən özləri salmışlar.

879.B. Göyün əynindəki ayna - günəş.



## UMUDSUZ PADŞAHIN BAĞIŞLANMASI DASTANI

900.B. Fani muncuqlar - qızıl, mülk, varidat yığmaq aludəliyi.

*İKİNCİ SÖHBƏT*

## ƏDALƏTLİ VƏ İNSAFLI OLMAĞA DAİR.

907. - 908.B. Nizami kainatın əşrəfi, ən böyük yetirməsi. təbiətin nadir dürdanəsi hesab etdiyi İnsanı öz adına layiq olmağa çağırır: öz ömrünü, varlığını yalnız böyük və nəcib əməllərə, xeyirxah bəşəri qayələrə həsr edənlərin Tanrı xəzinəsində inci kimi yaşamağa layiq olduğunu bildirir.

910.B. Əzəli nur - kaintatı, təbiəti və bəşəriyyəti yaradan qüdrətin cövhəri. Nizaminin fikrincə, İnsan həmin cövhərdən daha çox bəhrələnmiş, başqa canlılardan fərqli olaraq ona idrak qüvvəsi verilmişdir. Buna görə insan canlıların şahı saylır və bütün xilqətlər üçün məsuliyyət onun boynuna düşür.

912.B. İnsanı şərəfləndirən əvvəlki parçada yürüdülmüş fikri davam etdirir. Öz zəka, humanizm və iradə gücünə görə bütün canlıların tacı və tacdarı aldanmağa layiq İnsan kainatda öz müstəsna rolu ilə fəxr edə bilər.

913.B. Dünya çevrəsinin dışı - ruh dünyası. Nizaminin fikrincə, yalnız öz insan funksiyasını dərk edən zəka və iradə sahibləri ona mənəvi ömür qazandıran ruh dünyasında yaşamağa qadirdirlər. Belələrinin qiyməti hər iki cahan üzüyünün qaşı qiymətindədir, yəni çox yüksəkdir.

926.B. Yəni: maddi varlıqları verib mənəvi sərvətləri qazanmaq imkanın var ikən neçin şeytana uyursan, əksinə davranırsan?

927.B. İksir - qədim kimyagərlərin nəzərində elə bir maddədir ki, guya onun sayəsində adi metalları qızıla çevirmək olar. Nizami demək istəyir ki, din kəhrəbasının bircə qırığı da bu cür qüdrətə malik batman-batman qızıldan üstündür.

928.B. Daş, qara torpaq - maddi aləm, bizim dünya.

Cəvahir, saf qızıl - ruhlar aləmi, din, mənəvi qüvvət.

941.B. Müsəlmanlıq mövqeyində mətin dayanan Nizami Gəncəvi atəşpərəstliyi (günəşpərəstliyi) rədd etdiyi üçün bu oyun ilə baş qatmaq, əylənmək ixtiyarına malikdirlər.

942.B. Doqquzu mıxlı çadır - bu dünya.

943.B. Dini anlayışına görə Həzrət Məsih (Məsiha, İsa) peyğəmbər atəşpərəstliyi aradan qaldırmaq üçün göyün dördüncü qatına qalxmışdır ki, günəşi öz nəfəsinin gücü ilə üfürüb söndürsün. (Prof. R. Əliyev).

## ADİL NUŞİRƏVAN İLƏ VƏZİRİN HEKAYƏSİ.

979.B. Çiynindəki yük - zülmün yükü.

990.B. Günəşə at çapanlar - Tanrıya can atanlar.

*ÜÇÜNCÜ SÖHBƏT*

## DÜNYA HADİSƏLƏRİNƏ DAİR

1011.B. Sam məşhur pəhləvan və qəhrəman Rüstəmin babası, Zalın isə atasıdır. Zal anadan olanda ağ saçlı imiş. Buna görə də Sam xalqa gülünc olmaq qorxusu ilə uğursuz saydığı cocuğunu bir dağ başına atıb qayıdır. Simürğ isə bunu bir ət parçası bilərək yuvasına gətirir. Fəqət başı tüklü olduğundan yemir, yavruları ilə birilkdə bəsləyib böyüdür. Atası qara saçdı, oğlu ağ saçlı nüktəsi Firdovsinin «Şahnamə»sində qələmə alınmış bu rəvaytdən doğmuşdur.

1016.B. Orijinalda « su içində odlanır» ifadəsi əvəzinə «nalı oda qoymaqdan» söhbət gedir. Keçmiş cadugərlər bir şeyi, yaxud şəxsi hüzura gətirmək məqsədilə nalı oda qoyub əfsun oxuyurmuşlar. Nizami demək istəyir ki, ümmanda, dənizdə əziyyət çəkənlər hər cür vasitəyə əl atırlar ki, sahilə çıxa bilsinlər.

1017.B. Ən bəxtəvər insan belə sonadək tam bəxtəvər deyil, çünki ölümdən qurtuluş yoxdur.

1023.B. Fikrin ona görə cılız və dardır ki, nəfsinə əsir olmusan, maddi aləmdən dördəlli yapışmısan, ruh mənəviyyat aləmindən xəbərsizsən.



1029.B. Nəbatat alimlərinin fikrincə, gül bağlarında xüsusi növlü bir tikan olur, sünbül çiçəyinin kökunu o tikana sarıyıb bir müddət saxladıqda sünbülün ətri çoxalır.

1030.B. Nizami Gəncəvi «cigərlər dağlamış» səhranın timsalında zalimləri,zülmkar sultanları, qanlı imperiyaları qələmə alır və onların bəşər məhkəməsi önündə mütləq cavab verməli olacaqlarına hökm verir.

1041.B. Ədalətli, humanist Həzrət Süleyman peyğəmbərin dünyası çoxdan arxada qalıb, zülmkarlıq, qəddarlıq dövrü başlanıb, buna görə də cəmiyyətdə kişi yox kimidir.

## SÜLEYMAN PEYĞƏMBƏR İLƏ ƏKİNCİ QOCANIN HEKAYƏTİ

1053.B. Quş dililə danışmaq - mənasız, boş danışmaq.

1066.B. Hər kəs gücü çatan işdən yapışmalıdır.

1070.B. Yalnız nadir qəhrəmanlar xalqın qayğısını çəkməyə qadirdirlər. Sirri hər kişi saxlaya bilməz.

*DÖRDÜNCÜ SÖHBƏT*

## RƏİYYƏTİN HAQLARINI PADŞAHIN QORUMASI

1077.B. Bəsrəli Rəbiə məşhur qadın olmuşdur. Bir gün yanar çöldə susuzluqdan bayğın bir it görür, başındakı gülahını saçlarıyla bağlayır, quyuya dol kimi sallayır, su çıxarır. Əshabi Kəhfin yeddincisi sayılan heyvanı ölümdən qurtarır. Bu yolla övliya mərtəbəsinə qalxır. Quranın «əl-Kəhf» surəsinin 21-ci ayəsində dini təqiblərindən çəkinib mağarada gizlənmiş altı gənc və onların itindən söhbət gedir. Sahiblərinə qeyri-adi sədaqətinə görə həmin itə danışıq qabiliyyəti verilib Nizami bu ayədən istifadə etmişdir.

1079 B. Yalnız erkəklik aktını yerinə yetirənlər, Nizaminin fikrincə, kişi sayla bilməz. Kişi olmaq böyük, xeyirxah iş görmək, tərəqqi uğrunda mübarizə aparmaq deməkdir.

1088 B. Rəvayətə görə Qəznəli Sultan Mahmud (997-1030)

məcusilərin (atəşpərəstlərin) mərkəzi olan Sumenat şəhərini zəbt edirkən oradakı bir atəş məbədini dağıtmış, bundan mütəəssir olan möbidlərdən biri sultana ölüm diləmək üçün xəlvətə çəkilmiş, sultan xəstələnmiş, heç bir dava-dərman dadına yetməmiş, ölümünün qaçılmaz olduğu astreoloji hesablamalar ilə anlaşılınca ariflərdən birinin məsləhətilə möbidin bəd dumasını pozmaq qərarına gəlmiş, buna görə sağaldığını yalandan bildirmiş, bəd dua pozulmuş, ödümdən qurtulan sultan böyük şənlik ziyafəti vermişdir.

Beytin mənası zülmkarlıqdan əl çəkməyə çağırışdır.

1090 B. Su tısbağası sahilə çıxıb yumurtlayır və yumurtalarını qumma basdırıb dənizə qayıdar. Yumurtalar qumda qızıb yetişəndən sonra qabığı partlayıb çıxan tısbağa yavruları özləri analarının ardınca dənizə gedirlər.

Beytin mənası: Əgər su tısbağası belə bir qabiliyyətə malikdirlərsə, onda görün mələklərdən daha yüksək mövqe ğuğan İnsan nələrə, ən azı zülmkarlığı aradan qaldırmağa qadirdir, əlbəttə ulu Tanrının mərhəməti sayəsində!

## QARI VƏ SULTAN SƏNCƏRİN HEKAYƏTİ

1108.B. Abxaz qarəti - 1139-un sentyabrında Gəncədə baş vermiş fəlakətli zəlzələdən sonra şəhəri dağılmış və viran görən Gürcüstan çarı Gəncəyə hücum edərək yəğmalamış, dinc əhalini qarət və əsir etmişdir. ((Prof. R. Əliyev).

1127.B. Xeyirxahlığın və ağ günün timsalı olan Simurğ quşu. Əfsanəyə görə Elbrus dağının əlçatmaz zirvəsində yaşadığına görə, Nizami ədalətin cəmiyyətdə yoxa çıxdığını və qalxıb yalnız Simurğ qanadı altına sığındığını bildirir.

***BEŞİNCİ SÖHBƏT***

## QOCALIĞIN SİFƏTLƏRİ

1130.B. Dörd ünsürün vəhdətini alqışlayan bu beytdə atəşlə su - gəncliyin, torpaqla yel - qocalığın rəmzidir.

1133.B. Yəni : qocalmısan.

1138.B. Nizami insan cismində gənclik ilə qogalığın çarpışdı-



ğını təsvir edir. Qara saçlar qara zənci ordusuna bənzədildiyi halda ağ saçlar ağ üzlü, müdrik və müzəffər türk ordusuna oxşadılır. Nizamidə türklük paklığın, üz ağlığının, istedad və qəhrəmanlığın, ən başlıcası humanizmin timsalıdır. «Bu qara, ağ saçların nəyi öyrədir sənə? Türklük, burada zəka qüvvəsi, təfəkkür gündüzü, idrak günəşi biçimində aşkarlanır.

1143.B. Cəmşid dövləti - gənclik, Nizami üçün mənəvi çiçəklənmə və kamal çağları - qırx yaş dolaylarıdır.

1151.B. Qara daş məhəng daşı.

1153.B. Burada kafurun kimyəvi maddə kimi soyuqluğu və ağlığı qocalığın soyuqluğuna, qocanın saçlarının ağlığına təşbeh gətirilir.

1155.B. Əfsanəyə görə günəş batarkən rəngləri çalaraq (oğurlayaraq) göyün dördüncü qatında nəhəng bir küpün içinə doldururmuşlar. Həmin mövqedə yaşayan İsa peyğəmbər bu böyük sərmayə sayəsində boyaqçılıq edərmiş. İsanın arkadaşları həvarilər bez ağartmaqla dolanarmışlar. Şair bezağardan ilə boyaqçıların münasibətinə işarə edir.

1156.B. Bu beytin dürüst elmi şərhini verən prfessor Rüstəm Əliyevin yazdığına görə paltaryuyan ilə boyaqçının yaxınlığı sübutlarından biri də budur ki, su (ab) və ay işığı (möhtab) arasında sıx bağlılıq var, çünki dənizlərdə, ümmanlarda qabarma (mədd), çəkilmə (cəzr) hadisəsi, habelə yağışların yağması Ayın hərəkətindən, dövriyyəsindən ayrılmazdır.

1160.B. Bir şəxsdə rumluluq (üz ağlığı) ilə zənciliyin (üz qaralığı) birləşməsi onun ikiüzlü olması deməkdir. İkiüzlülər, elm, maarif yolunda dəridən, qabıqdan çıxsalar belə Nizaminin fikrincə, kəmalə yetə bilməzlər, onların alnında həmişə zalım və cahil damğası görünəcək.

1162.B. Ağaclar yazağcı çiçəkləyəndə sanki başlarına ağ tac qoyurlar, mövsüm dəyişdikdə isə başqa rəngə düşürlər.

Beytin anlamı : Kainatın əşrəfi olan insan bu cür davrana bilməz, o , bir rəngli, bir sifətli olmalıdır.

1168.B. Müstəqim mənasından başqa beytin məcazi mənası budur ki, dörd ünsürün: torpağın, odun, küləyin (ruzigarın) suyun vəhdətini alqışlayır. Təbiətin və cəmiyyətin bu özülə söykəndiyini bildirir.

## KƏRPİCKƏSƏN QOCANIN HEKAYƏTİ

1178 B. Əmirlər , sərkərdə və qəhrəmanlar basıldıqda (məğlub edildikdə). ölüm məqamının yaxınlaşdığını hiss edincə vəsiyyətlərində arzu edərdilər ki, məzarlarının üstü həmin qocanın kəsdiyi kərpicləri ilə götürülsün. Bu halda onlar bəsləyirdilər ki, bu süpər (bu kərpiclər) onları himayə edəcək, qəbir əzabından qoruyacaqdır.

1183.B. Birinci misrada yer səthi qalxana, torpaq qazan bel isə qılınca oxşadılıb. (Prof. R. Əliyev).

1188.B.Kölələr yük daşıyır - Zülmə boyun əyənlər, təslimçilər və fərarilər özlərinə layiq rəzil həyata məhkumdurlar. Mən belələrinə nifrət bəsləyirəm, öz zəhmətimlə dolanıram.

### *ALTINCI SÖHBƏT*

1196. B. Bu göy rəngli pərdə - səma, fələk.
Müvəqqəti vücud - insanlar.

Beytin anlamı : Yalnız insanlığa xidmət yolunu tutan insanlar yaşamağa və mənəvi ömrə layiqdirlər. Qalanları müvəqqətidirlər və həddindən artıq olduqları üçün gərəksizdirlər. İnsanlıq özünü özgələrə həsr etməkdən başlanır. Belələri ədəb nuru ilə parlayan gözlərinin gövhərini başqalarının xidmət kəmərinə dikiblər.

1198.B. Bu pərgar nöqtəsində , bu dönüb dolanan dünyada elə bir vücud yoxdur ki, müəyyən bir işlə məşğul olmasın.

1199.B. Neçə yəhərli at - fələklər, göylər, ulduzlar. Süvarilər - insanlar.

Beytin mənası : Kaintada hər şey insan üçün yaradılıb. İnsan öz zəka gücü sayəsində ulduzları köhlən kimi yəhərləyib çapa bilər, deməli, bütün kainat onun hökmündə, iradə və ixtiyarındadır.

1200 - 1201.B. Nizaminin fikrincə, Tanrı hələ «Ol!» (Kun!) əmri ilə kainatı yaratmaq ərəfəsində İnsanı düşünmüş, kainatı İnsan üçün xəlq etdiyini qərarlaşdırmışdır. Buna görə Nizami insanın və məhəbbətin hər şeydən qədim, qocaman və əzəli olduğu fikrini qətiyyətlə bildirir.



1202.B. Yəni: yaxşını yamandan, gözəli eybəcərdən seçmək üçün sənə iradə və ixtiyar verildi.

1203.B. Quş dəni necə dənləyirsə, əcəl də səni eləcə dənləyib torpağın kamına çəkəcəkdir. İndi ki, belədir, gözəl yaşamağın yolunu öyrən, maddi aləmi müvəqqəti say və mənəvi aləm üçün yaşa!

1204.B. Leş yeyən kərkəs və quzğun kimi yaşama, təbiəti cırmaqlayan bu quşları tərk et və onların hamısının başı üstündə yaşarı, ruh, paklıq, nicatvericilik timsalı Simürğ kimi qanadlan!

1205 B. Can qəfəsindəki quş - ruh, Nizaminin fikrincə. insan özü gəldi-gedər xilqət olsa da, ruhu əbədi, ölməzdir. İnsan cismində yaşasa da, özü bu cisimdən xeyli yüksəklərdə durur.

1211 B. İki aləm : maddi və ruh aləmi.

1214.- 1216.B. Nərgizin gözlərinə sürmə çəkən dan yelləri. misə qızıl rəngini verən kimyəvi iksir olduğu kimi insanı da insan mərtəbəsinə qaldıran onun ruhudur. Ürəkdə yerləşən gücünü dərk edə bilsən, sən bütün kainatın sultanı. hökmranı ola bilərsən. Bəşəriyyətin ən böyük sərvəti olan elm və bədii söz də ruhun yetirməsidir, idrakın hər cür töhfələri də. Yalnız ruhuna xidmət et!

1217.B. Ceyran göbəyi - ceyranın müşk vəzləri. «Müşk» deyilən ətirli maddə burda yerləşir.

1219.B. Ceyranın dərisi nisbətən yüngül, zərif və möhkəm olduğuna görə qədimlərdə bundan kağız yerinə istifadə olunarmış. Dərdi - gön üstündə məktub yazılarmış. İlk kitablar dəri-gön vərəqələrdən ibarətmiş. Türk mənşəli «göniqa» (kniqa) sözünün yaranması da bizcə bu məna ilə əlaqəlidir.

1222.B. Gecədən səhərə doğru yürü, dan yeri sürdüyün köhlənin ağ nalı kimi şəfəqlənsin. Yəni : ibadətlə məşğul ol, şüalardan yaralanan səhər kimi ahın, naləm ürəyini yaralasın, nalə qılıb Tanrıya yalvar, səhər namazının nuruna bürün!

1231.B. Prof. R.Əliyevin yozumuna görə bu beytin ikinci misrası Qurani-şərifin «ət-Təlaq» surəsinin yeddinci ayəsinin tərcüməsidir. Ayə belədir: «Tanrı hər sıxıntıdan sonra genişlik (asanlıq, şadlıq) gətirir».

## OVÇU İLƏ İTİN VƏ TÜLKÜNÜN HEKAYƏTİ

1233.B. Ovçunun elə bir cəld, yavuz, sərt və iti qaçan iti vardı ki, günəş şüası belə ona arxadan çata bilməzdi., buna görə it işıq sürətinə nöqsan tutardı. Prof. R. Əliyev yazır ki, şair «ahu gereftən» mürəkkəb felini ustalıqla oynadıb ettesa deyilən şairanə məcaz yaradır. Həmin felin ilk mənası «ahu tutmaq», digər mənası isə «irad tutmaq» deməkdir.

1240.B. Ara - ən kiçik çəki vahidi. Dirhəm - çəki vahidi altı danka bərabərdir : Hər dan kiki karat, hər karat isə dörd arpa çəkisindədir.

1247.B. Köhnə təbiblərin fikrincə, yağlı xörək ziyandır, səfraya gətirib çıxarır.

1254.B. Beytin məzmunu Qurani-şərifin «ət-Təlaq» surəsinin yeddinci ayəsindən gəlmədir: Həyatda, insan varlığında hər bir qəmdən, kədərdən sonra fərəh və şadlıq gəlir.

1261.-1265.B. Beytlərdə yəqin anlayışı fəlsəfi termin kimi işlədilib. Mənası əqidədə möhkəmlik, sabitqədəmlik, özünə inam və qüdrət deməkdir. Nizami haqqa inamında qətiyyətli olmağa çağırır.

1270.B. - 1271.B. Yəqin əhli misilsiz. Kamil - onlar, naşı - biz. Yəqin əhli kamil insan simvoludur. Onlar Qurani-şərifin haram elan etdiyi şərabı içdikdə belə halallığı nuş edirlər, bu nemətə bal dadı gətirirlər. Çünki müstəqil şəxsiyyətə malikdirlər və nəyin halal, nəyin haram olduğunu bizdən yaxşı bilirlər.

***YEDDİNCİ SÖHBƏT***

## İNSANLIQ MƏRTƏBƏSİNİN BÜTÜN XİLQƏTLƏRDƏN ÜSTÜNLÜYÜ

1279.B. Nizaminin fikrincə, İnsan kainatın əşrəfidir və əslində Tanrı kainatı İnsanın şərəfilə yaratmışdır. Ay, Günəş, bütün səyyarələr və bütün nemətlər İnsana xidmət naminə xəlq olunub. Buna görə İnsanı təbiətin nazlı yavrusu adlandırmaq olar. «Qurani-şərifin» «ət-Tin» surəsinin dördüncü ayəsində deyilir: «Biz insanı ən



gözəl şəkildə yaratdıq. Buna görə insan bütün xilqətlərdən daha kamil olması müqabilində nəcib, xeyirxah, humanist olmalı, özündən aşağı pillədə duranların hamısı qarşısında məsuliyyətini, cavabdehliyini daim dərk etməlidir. İnsan bütün flora, fauna aləmini, bütün təbiəti sevib qorumağa, yaşatmağa borcludu. Onun başlıca məziyyətlərindən biri cəmiyyəti kamilləşdirmək və təbiətlə cəmiyyət arasında üzvi ahəngdarlıq yaratmaqdan ibarətdir.

1280.B. Bu beytdə Nizaminin humanizm konsepsiyasının məğzi verilib. Tanrıdan öyrəndiyi «adlar elmi»ni və bütün bəşəri təcrübəsini Adəm öz törəmələri üçün qoyub getmişdir. İnsan bu məsuliyyəti və kainatın əşrəfi olduğunu dərk etməlidir.

1280.- 1283.B. İnsan əzəli dayədən süd əmməyincə qənd, şəkər dadıb, yəni: xilqətcə gözəl, ülvi, humanist yaradılıb, suyu şirin və qanışirin xəlq olunub. Məgər bundan böyük yaxşılıq olar? İnsana yalnız mənəvi üstünlük, idrak adlı misilsiz töhfə deyil, həm də cismani üstünlük verilib. Bütün xilqətlər ilə müqayisədə ən kamili, ən gözəli İnsandır!

1286.B. Nizaminin fikrincə, bütün heyvanlar və quşlar və ümumən canlı-cansız təbiət İnsana xidmət üçün yaradılmışdır. Buna görə insan öz xidmətçisinin qədrini bilməli, flora, fauna aləmini, ümumən təbiəti qorumalıdır.

1294.B. Ay gündüzlər pərdəli gəldiyi, görünmədiyi halda, gecələr, görünür, deməli, pərdəsiz qalır.

1295.B. Gecə hər şeyi öz qaranlıq pərdəsi altında saxladığı haldan yeri - sübh bu pərdəni aradan qaldırır və bütün gizlinləri faş edir.

1296.B. Yəni : Bal arısının sirləri bəzən elə sirr olaraq qala bildiyi halda, sənin heç bir sirrin bəşəriyyətin nəzərindən yayınmır. Bal arısının gül pərdəsi deşiksiz, bütöv olduğu halda, sənin fəza, fələk , göy adlı pərdən şan-şan, göz-gözdür. O gözlər hər şeyi apaşkar görür.

1297.B. Hörümçək toru - acgözlük, nəfs, tamah toru, şöhrət, sərvət düşkünlüyü.

1298.-1299.B. Pərdə ardındakı Tanrı ərənləri - ilahi qüvvələr.Pərdə dalından çıxmaq - din yolundan çıxmaq.

1304.B. Sən heç olmasa qırx gün riyazət cəbrinə qatlaşa bilsən, bədənin cürbəcür ehtiraslardan : sərvət, şöhrət, qadın düşkün-

lüyü və acgözlük azarı kimi müxtəlif xıltlardan təmizləməyi bacarsan, ruhun yuvası, qaynağı olan könül kimi, can kimi paka çıxarsan. (Prof. R.Əliyev).

1311 B. Ucuz ehtiraslar ardınca qoşmaq dəmirçixanaya getmək və od kürəsinə yanaşmaq kimidir: üstünə çınqıllar səpələnəcək, bəlkə də səni yandıracaqdır. Zəka və təfəkkür, insanlığa xidmət ardınca getmək isə əttar dükanına varmağa bənzər. Bu halda sən düşüncə və idrak rayihəsinə qərq olacaqsan!

1318.B. Məhəmməd peyğəmbərin əmisi Əbu-Talib islamiyyəti qəbul etmədiyinə görə əslində cəhənnəmə vasil olmalıdır. Lakn Həzrətlə qohumluğu onu əsfələsafilin atəşindən qoruyur. İslamı qəbul etməsə də, Əbu-Talib nəcib, xeyirxah kişi olmuş, həzrət peyğəmbər onun xətrini istəmişdir.

## FİRİDUN ŞAHIN CEYRAN OVU HEKAYƏTİ

1325.B. Ahunun belinin dərisi sərt, qaba olduğu halda, qarnının dərisi, xüsusilə göbək ətrafı hamar, incə və yumşaq olur. Şah əlindəki kamanın kirişini o qədər dartdı və sürtdü ki, ceyranın göbəyi kimi yumşaldı və öz Qıratını (Rəxşini) odlanmış cigəri kimi qızışdırdı.

1330.B. Kaman dilə gəlib deyir ki, bu ceyran yavrusu sənin nəzərinin himayəsində irəliləyir. Kimin cürəti çatar ki, sənin diqqətinə, zirehinə tərəf ox tuşlasın?!

1331.B. Sən çalğıçısan, şahim, məgər razı olarsanmı ki, sənin ceyranını ovlasınlar, dərisindən dəf düzəldib özgələr çalsın?! Yaxud dümbək çalanların əlləri ilə döyəclənsin?! (Prof R.Əliyev).

1336.B. Mənası: Hər kim öz xalqına, bəşəriyyətə sədaqətlə və təmənnasız xidmət etməyi bacarırsa, o, xəzinə sahibi olacaqdır.

## *SƏKKİZİNCİ SÖHBƏT*

## YARADILIŞIN HÜSNÜNƏ DAİR

1341.-1342.B. Yəni : insanlıq və kainat yaradılmazdan öncə varlıq bomboş və olduqca yoxsul idi. Prof. R.Əliyevin elmi açıqla-



masından aydınlaşır ki, bu məqamda Nizami məşhur yunan filosofu Ərəstunun yaradan və yaradılmışlar arasındakı fəsilələri öyrənmək üçün icad etdiyi on qatlı (mərtəbəli) əql nəzəriyyəsindən bəhrələnmişdir: birinci əql, küll əql, fərdi əql və sair.

1348.- 1350.B. Axar su - hərəkətdə olan göy, yaxud onun qar, yağış yağdırma şakəri. Yəni: Tanrı öz kəraməti ilə yerləri, göyləri hərəkətə gətirməklə. Səni su ilə gtltn vəhdətindən yaratdı. sən bir toz zərrəsi kimisən, dünyanı tutsan da yenə zərrəçiyə çevrilib yox olacaqsan, bir cüz ikən küllə qovuşacaqsan.

Səndə nəfs, tamah, sərvət, şöhrət düşkünlüyündən ibarət o qədər kirli ehtiraslar var ki, dünya sənsiz çağlarını şükranlıqla xatırlayır.

1355.B. Əski astronomiyaya görə, göydəki on iki ulduzlar topasından biri sayılan Cevza, yaxud baş-başa vermiş iki qızcığaz şəklində Əkizlər bürcü Külək bürcü hesab edilir. Buna görə soyuqdəymə və qan aldırma hadisəsi ilə əlaqələndirilir.

1356.B. Keçmişdə Ay tutulanda teşti, ləyəni döyəcləyib, yaxud mis qapaqları bir-birinə çırpıb haray-həşir qoparardılar. O çağlar sən yox idi, deməli, teşt də sənin mənasız hay-küyün, döyəclənməyin ugbatından zərbələr yemirdi.

1357.B. Dini əsatirə görə Harut və Marut adlı iki şənlik ilahəsi Zöhrə ayağı sürüşkənliyinə görə Tanrı tərəfindən cəzalandırılmış, yerdən göyə qovulmuş, Venera ulduzuna çevrilmişdir. Onu yoldan çıxaran Harut və Marut isə qanddan məhrum edilmiş və Babilistanda bir quyuda başıaşağı halda asılmışlar.

1360.B. Sən dünyaya gələndən sonra ulduzları gözə gətirdin və bəd nəzərinlə onların şən gecəvəsi üstündəki bayrağın ulduzunu qırdın (Prof. R. Əliyev).

1363.B. Səhərin məşəli - günəş. Sadiq Sübh - buludsuz. dumansız, parəaq sübh. Kazib fəcr - yalançı şəfəq. Yaxud alatoran sübh.

1364.B. Sən ki, göylərə bunca əzab, əziyyət vermisən, gör nə qədər miskindir ki, hələ də sənə təcdə qılır, sənə xidmət etmək üçün belinə kəmər bağlayır!

1365.B. İsa peyğəmbərin təliminə görə «insan ruhun səməridir», şair buna işarə ilə bildirir ki, eşit, inanma, çünki bunlar ürəyin yox, dilin sözüdür (Prof. R. Əliyev).

1366.B. Sən daşıdığın İnsan adına layiqdeyilsən. Tacın başından daha qiymətlidir. Elə bir itsən ki, boynunda gəzdirdiyin xalta belə səndən bahalıdır. O qədər eşşəklik eləmisən ki, qarşındakı arpa-saman torbasına da layiq deyilsən. Nizami bu cür ittihamlar irəli sürürkən insanın heyvansal mahiyyətini, acgözlüyünü, sərvət və şöhrət düşkünlüyünü ruh və mənəviyyat zənginliyi qayğısı çəkmədiyini ifşa edir.

1367.B. laqqırtı evi - dünyamız.

1368.B. Bircə ovuc torpaq - bədən. Bircə gil qırığı - bədən, cism, can yuvası - ürək olan ruh aləmi.

Beytin mənası : Sən bədənini yaşatmaq naminə ruh aləmindən əl çəkdin. O dünyanı atdın, yalnız bu dünyanı tutdun.

1370.B. Nizami Gəncəvi yenə insanın maddi aləmə aludəliyini və mənəvi aləmə biganəliyini rüsvay edir. Maddi nemətlər sırasında fındaq soyuducu maddə sayılır.

Beytin anlamı : Sincab kimi çevik, mütəhərrik, qaynar beyin, alovlu zəka sənə ona görə verilmişdir ki, öz ruhunun qayğısını çəkəsən! Amma sən əksin davrandın, fındıq rəngli torpağa bağlanmağınla onu soyutdun, korladın, öz qanadlarını qırdın. Özünü dəli, divanə etdin.

1371.B. «Ölməmişdən əvvəl ölün!» - Əl çəkin zülm etməkdən, yırtıcı ehtiraslardan, acgözlükdən, sərvət və şöhrət düşkünlüyündən. Əl çəkin!

1372.B. Dünya budaqdan budağa atılıb səninlə əylənən sincab deyil, qədrini bilməsən, yaşamağı bacarmasan, səni kamına çəkən əjdahadır, yırtıcıdır, gecəsi, gündüzü kimi ikiüzlüdür, yəni aldadacıdır.

1373.B. Dələ yalnız pişikdən qorxur. Sən ki pişik deyilsən, dələ-duzluqdan, pişiyi qorxutmaqdan, alçaq ehtiraslar ilə əylənməkdən əl çək! Gecə-gündüz kimi tülkülük etmə, ikiüzlülükdən əl çək!

1374.B. Ovçuların dediyinə görə maralı, Ceyranı və cüyürü asan ovlamaq üçün arslan heyvanların üz tutduğu çeşmənin, yaxud irmağın ətrafına selik tökür. Burdan keçən heyvanlar selik sahibinin, arslanın qoxusunu alan kimi özləmi itirir və yırtıcıya təslim olurlar.

1377.B. Qədimdə şəkər qamışından hazırlanan xüsusi təbaşir susuzluğu yatırmaq vasitəsi sayılırmış. Bunun üçün şəkər qamışını yığıb xırmanda alışdırar, yanıb kül olmamış üstünə torpaq atar, söndürər və içindəki ağ kristalları yığarmışlar. Bu ağ kristallar susuzluğu yatırmaq vasitəsi kimi işlədilərmiş. (Prof. R.Əliyev)

1380 - 1381 B. Dünya malına aludəliyin, nəfsin, tamahın, ucbatından dilxorsan, saralmısan. Onillik sirkə içibmiş kimi üz-gözünü turşudursan. Heyhat, sənin az qala yüzilik acgözlüyünü onillik sirkə apara bilərmi? Səfranı sirkə ilə müalicə etsələr də bunun sənə xeyri yoxdur.

1382 B. Dədən Həzrət Adəmin qanı yeddi qatlı göylərin sürfəsində ikən ey yeddi çörək kömbəsinə bənzər yeddi səyyarəyə əl açıb dilənən İnsan, deyilmi nə üçün abrını-həyanı tökürsən? Yetər, üzünün suyunu tökmə!

1387.B - 1388.B. Ey yırtıcı nəfsinin yağında yanıb qovrulan İnsan! Nə qədər ki, sağsan, bu cahan mətbəxinin ocağında quru odun kimi od tutub yanacaqsan, o dünyada səni yalnız cəhənnəm alovları gözləyir.

*DOQQUZUNCU SÖHBƏT*

## DÜNYA QAYĞILARINDAN QURTULMA BƏHSİ

1422.B. Biz kainatın əşrəfi yaranmışıq. Bütün başqa varlıqlardan fərqli olaraq bizə düşünmək və dünya bilməcələrini qavramaq, anlamaq istedadı verilib. Yeddi qat göylərin sirlərini açan da bizik, fələyin əbcəddini, əlifbada hərflərin düzülüş qaydasını Yerin yazı taxtasında yazıb oxuyan da bizik !

1430 B. Sən qeyri-müəyyən bir nur damlası idin, Tanrı səni xəlq etdi. Öz təfəkkürün, ruh qüdrətin sayəsində Quzu (Həməl) bürcündən də yuxarılara ucaldın, bəxtəvərlik elçisi hüma quşu sənin uca başın üstündə qanadlarını gərdi.

1431-1435.B. Bir nur damlası ikən göydə sənin uçuş meydanın ucsuz-bucaqsız idi. Getdiyi yolun da sonu görünmürdü, göydə aciz, avara qalıb yerə endin, gil ilə, su ilə birləşib xəlq olundun. Lakin yenə narahatsan.Bəzən günəşi özünə doğru çəkir, bəzən də günəş mövqeyinə yüksəlmək istəyirsən. Yer yuvarlığı dar gəlir sənə.

Bircə ip üstündə oynamaq səni təmin etmir. Arzu və təfəkkür, ruh və könül səni yeni-yeni xariqələrə haraylayır, başqa iqlimləri kəşf etmək, ucalmaq sevdasındasan. Heç yanda qərar tuta bilmirsən.

1436.B. Kamil insan özünün bütün qüvvəsini, bədən və idrak enerjisini bəşəriyyət və Tərəqqi naminə xərcləyir, özü üçün yox, özgələr üçün yaşayır. Buna görə müflisdir. O, qədim və köhnədir, çünki bədəni ruhundan qat-qat gəncdir, dünnə doğulub.

1437-1438 B .Yavrusunu öldürən ana - dünyamız. Ata öyüdləri - Həzrət Adəmin öyüdləri, günaha batmamaq və tövbə etmək tələbləri.

Beytin anlamı : Səni maddi dünyaya bağlayan yırtıcı ehtiraslarından əl çək, mənəvi aləminin qayğısına qall! Atan Həzrət Adəmin yolu ilə get! Günahlarından əl çəkmək üçün tövbə qıl, təmizlən, pak ol!

1440.B. Hədər günlər - zülm etməyə, ucuhz ehtiraslara, sərvət, şöhrət, düşkünlüyünə sərf olunan çağlar. Bu hədər günlərin yerini doldurmağın yeganə çarəsi tövbə qılmaq, din yoluna qayıtmaq və gözəl yaşamağın qaydalarını öyrənməkdir.

1448.B. Bu beyt bizi Adəm gilinin qırx günə yoğrulması, cocuğun ana bətnində doqquz ay, doqquz gün, doqquz saat, doqquz saniyə yetişməsi və insanın yalnız 40 yaşında az-çox kamalə yetməsi barədə düşüncələrə sövq edir.

1449.B. Ölərik. Adımızı yeni doğulan cocuqlara, rütbəmizi, yerimizi başqa insanlara tərk edərik.

1450.B. Dini etiqada görə İnsan qiyamət günü mizan-tərəzi və haq - məhkəmə qarşısında bu dünyadakı əməlləri üçün hesab verməlidir, buna görə o, haqqın hökmü ilə dirildilir və məhkəməyə gətirilir.

## TÖVBƏSİNİ POZAN ZAHİDİN HEKAYƏTİ

1460.B. Alnımdakı yazı məni Kəbədən meyxanəyə atdı. Halalımdan əl çəkib harama qurşandım. Paklıq əlimdən çıxdı, çirkaba batdım, insanlıqdan əl çəkib nəfsə, tamaha uydum.

1470.B. Ulu göylər daim öz qasırğaları, ildırımları və göy gürültuları ilə yatmış insanı ayıltmağa, xəbərdar etməyə çalışır ki,



ömürdən sonra da başqa bir mənəvi ömür var. Onu düşün! Öləndə yatmaq eyib deyil. Həyatda yatmaq isə eyibdir. Ayıl! O dünyaya köçmək üçün azuqə yığ, mənəvi ömrünü uzatmaq üçün çarələr tap.

1473.Gecə yarı - Ömür yarı.

*ONUNCU SÖHBƏT*

## DÜNYANIN SONU HAQQINDA

1476.B. Prof R.Əliyev yazır ki, onuncu qoşmanı Nizami Gəncəvi sultan Səncərin (1117-1153) məşhur saray şairi Əvhədəddin Ənvəri (vəfatı :1188) və bir bölük Xorasan münəccimi tərəfindən xəbər verilmiş tufana həsr etmişdir. Ənvərinin və onunla rəydaş olan ulduzşünasların 1176-cı ildə verdikləri xəbərə görə, 1186-cı ilin yayında iki nəhs səyyarə - Saturn ilə Mars Tərəzi (Mizan) bürcündə qarşılaşacaq, bunun nəticəsində Ay tutulacaq və böyük tufan qalxıb Yer yuvarlağı ilə fələkləri alt-üst edəcəkdir. Nizami o çağın bir çox alim və ulduzşunasları kimi bir müddət Ənvərinin nəhs falına inanmış, onların yalançılığına bələd olandan sonra isə falın puçluğunu sübuta çalışmışdır. 1186-nın yayında nəzərdə tutulmuş gündə nəinki heç bir tufan, qasırğa baş verməmiş, əksinə, hava çox mülayim və xoş keçmişdir. Bu halda camaat Ənvərini təqib edərək ələ salmağa başlamışdır. İndiyəcən araşdırıcıların diqqətini çəkməmiş bu fakt «Sirlər xəzinə»sinin yazılması tarixinin dürüstləşdirilməsində ciddi əhəmiyyətə malikdir.

1488.B. Bircə ovuc torpaq : insanın cismi.

1491.B. Qəm küpü - Yer kürəsi. Matəm yaşılı - Yer kürəsinin əhatə edən fəza, göy.

Beytin anlamı : Kədər bu dünyanın fitrətindədir, çünki kainatın əşrəfi olan İnsan gəldi-gedərdir, mahiyyətcə nakamdır.

1492.B. Qəm küpünü (Yer kürəsini) torpaqdan təmizləmək onu fələn Yer kürəsi funksiyasından azad edib göyə, səmaya çevirmək deməkdir. Başqa sözdə desək, burada söhbət maddi aləmə aludəlikdən, acgözlükdən, şəhvətpərəstlikdən və s. eybəcər ehtiraslardan əl çəkib saflaşmaqdan, göylər kimi pak olmaqdan, mənəvi səmaya qovuşmaqdan gedir. Buna qadir olmayanlar çərxin qarşısında məğmun, aciz bəndələrdir, üzüqara adamlardır.

1493.B. Yeddi nəhr - yeddi səyyarə. Dumanlı çevrə - dünyamız. Beytin mənası: Dumanlı çevrədən, ətəyinizi murdarlayan dünyadan, maddi aləmdən qurtulmağa, bulaşıq ehtiraslardan təmizlənməyə, pak olmağa çalışın, səyyarələr dünyasına, mənəviyyat aləminə can atın!

1494.B. Bir halda ki, mənəvi aləmdən bunca xəbərsizsiniz, onda əl çəkin bu maddi aləmdən, qara bir xətt ilə damğalayın yer kürəsini, yeri-göyü alt-üst edin, alın, çıxarın səmaların əynindən ulduzlar ilə düymələnmiş geyimini!

1498.B. Bütövlükdə göylər əzəmətli bir sədəfə bənzəsə də, əsil sədəf deyil, gözləri ulduz kimi işıldayan yırtıcıdır.

1500.B. Keçmiş münəccimlərin fikrincə, ulduzlara hədsiz diqqət yetirmək ziyandır. İlan zümrüd şöləsindən kor olduğu kimi ulduza baxmaq ölçüsünü itirmiş insan da ziyan çəkə bilər.

1501.B. Göylər zahirən sədəfə bənzəsə də nə şöləsi var, nə də içərisinin sağlam dürrü, gövhəri. Ulduzlardan ibarət min-min gözü olsa da, kordur.

1505.B. Qəbir - dünyamız. Damın bacası - dünyamızın ən uca nöqtəsi , məsələn, Everest.

Beytin mənası: Dünyada ölüm hadisəsinin qarşısını almaq mümkün deyil. Dünya fövqündə dayanmaq da qeyri-mümkündür. Qurtuluş yoxdur.

1506.B. Sərsəmlər, epleptiklər sağalmaq üçün, klassik təbiblərin göstərişilə qapısı, pəncərəsi bağlı qaranlıq odalarda yaşar və gün işığı görməzlərmiş (Prof. R.Əliyev)

1510- 1512.B. Təbiətin və cəmiyyətin inkişaf qanunauyğunluqlarını, çərxin gərdişini, onun teldən nazik, sapdan incə hərəkət yollarını anlamaq, dərk eləmək dünyada hər kişiyə müyəssər deyil, çox çətin, zor işdir, bəlkə də qeyri-mümkündür. Sən tükün ucundan da incə olan bu mətləbləri dərk etməyə girişsən, mətləbə çatacağına əmin olma, işin gedişi səni xəmirdən bir tük kimi kənara atar.

1515.B. Başında papağın varsa, kişisənsə, deməli, ülvi bir mərama tapınmalı, baş əyməli, bu məram yolunda can yandırmalısan. Belində kəmərin varsa, deməli, bu xidmət kəməridir, qulluq etməli, insani borcunu yerinə yetirməlisən.

1517.B. Həyat ocağının şöləsi işlədilib. 1. Nəfəs. 2. Ah-nalə, qarbın (Prof. R.Əliyev).



Başqalarının eybini göstərsən, əks hücuma keçər, səni ləkələməyə çalışarlar. Necə ki, aynaya nəfəs dəyəndə ayna dumanlanır, ləkələnir.

1528.B. Nizami Gəncəvi hər hansı canlı və cansızda, təbiət, yaxud cəmiyyət hadisəsində ilk növbədə gözəli, yaxşını, müsbəti görməyə və bu barədə danışmağa çağırır. Tovuz quşunun əlvan güllər kimi rənglər sərgisini, görmədiyi halda, bu barədə danışmaq sənə yaraşmaz və hətta, eyib gətirər.

1529.B. Nizami bundan əvvəlki beytdə dediyini təkrar edir və bir az da zənginləşdirir. Çirkində gözəli, adidə ülvini, qarada ağı görə bilmək, kəşf eləmək yalnız müdrik kişilərin hünəridir.

## İSA PEYĞƏMBƏRİN HEKAYƏTİ

1537.B. Əntiq Romada və Yunanıstanda eyvanlar dürlü quş və heyvan rəsmləri ilə bəzənmişlər. Şair həmin adətə işarə vuraraq həzrət İsa peyğəmbərin dili ilə bildirir ki, bu it vaxtilə o qədər mahir, çevik, qüdrətli şikarçı olub ki, sahibi onun şəklini eyvanına çəkdirib.

1542.B. Dini anlayışa görə Tanrı doqquz fələyi ona görə yaradıb ki, insanların eybinin üstünə pərdə çəksin və mələklər insanın yalnız savab işlərini görsün, günahlarını tam müşahidə etməyə macal tapmasınlar (Prof. R.Əliyev).

1543.B. Həlqə - xalta, köləlik xaltası. Şair deyir ki, bu dar, üzükvari dünyada hər şey sənin boynuna köləlik xaltası taxmaq, səni nökər, qul görmək istəyir. Əgər özün də bunu istəyirsənsə, deməli, kişi deyil, qulsan.

1544.B. Qədim münəccimlərin dediyinə görə Süreyya ulduz topası Böyük köpək bürcünün xaltası mövqeyindədir, daha doğrusu, ikinci birincidə yerləşir. İkinci misra eşşəkdən yalnız yük daşımaq üçün deyil, həm də nəqliyyat vasitəsi kimi istifadə edən İsa peyğəmbəri yada salır. Şair özünün vəsf və ifşa obyekti olan qəhrəmanını - İnsanı xalta gəzdirməməyə, eşşəklik etməməyə çağırır.

1547.B. Yəni : Nizaminin dərdini çəkmək sənə qalmayıb.

*ON BİRİNCİ SÖHBƏT*

## DÜNYANIN VƏFASIZLIĞI HAQQINDA

1552.B. Qəm gəmisi - dünyamız. Yük - yığdığın var, dövlət. Aydındır ki, nə qədər çox var-dövlət yığırsansa, gəmidə yükün bir o qədər ağır olacaq və tufan, qasırğa başlananda ilk növbədə yükü ağır olanlar batacaq.

1561- 1562.B. O dünyanı bu dünyaya satma. Mənəvi aləmi, ruh dünyasını kaftara bənzəyən bu maddi aləmdən üstün tutmağı bacar!

1569.B. Orijinalda Nizami «hərislər» əvəzinə, «duzsuz»lar məcazını işlədir. Bu səhra - dünyamız.

Beytin anlamı: Yalnız kabab və şərab düşkünləri, hərislər və tamahkarlar bu səhranın, bu dünyanın od rənginə, zahiri parıltısına uyurlar. Düz və duzlu adamlar isə yanıb kabab olurlar.

*ON İKİNCİ SÖHBƏT*

## DÜNYAYA VİDA

1607.B. Bu dünyanı at, o dünyanı tut. Bu dünya tor kimidir, qoy o tora dən yemək istəyənlər düşsün.

1610.B. Ölmək ərəfəsində ağla. O göz yaşından göyərən çəmən, yaxud fidan sənin bağışlanmağının rəmzi kimi yaşar, ruhunu yaşadar.

1611.B. Dəvə xislətli olmaq - oynamağı, gülməyi, sevinib rəqs etməyi bacarmaq. Dəbbə - içərisi otla və saman ilə doldurulmuş xaral. Bu xaralı filin ayağı altına atarmışlar ki, onu döyüş meydanına çıxmağa hazırlasınlar, düşmənləri bu xaral kimi tapdasın, əzişdirsin. Sonralar bu ifadə məcazi məna qazanmışdır. «Fil ayağı altına dəbbə atmaq» - boş yerə haray-həşir salmaq anlayışının sinoniminə çevrilmişdir.

Beytin anlamı: Ölüm məqamı çatanda sevin, şadlan. dəvə kimi rəqs elə ki, bu dünyadan gedirsən. Bunu bacarmasan barı haray-həşir qoparmağı unut. ölümünü cəsur, mərd qarşıla!



1615.B. Bu natəmiz torpaq - dünyamız.

Beytin mənası: Dünyamız bütünlükdə natəmizdirsə, orada təmizlik aramaq hədər deyilmi? Natəmizlikdən əl çəkib təmiz, pak ruh dünyasına qanadlan! Könlünü yalnız bu yolla saf su kimi paka çıxara bilərsən.

1616.B. O dünyaya yüngül, asan getməyini istəyirsənsə, bu dünyada yığdıqlarını payla, bəxş et ki, çevikləşəsən, son mənzilə uça-uça gedəsən.

1621.B. Bu çövrə sınırı - dünyamızın sərhədləri.

Beytin anlamı: Maddi aləm hüdudlarını qıra bilməsən, mənəviyyat dünyası səni öz oxlarına hədəf qılacaq, ulduzlarını sənə tuşlayacaqdır.

1622.B. Gecənin, gündüzün cızığı - ömrün hüdudları.

Bu çevrə xətti - dünyamızın hüdudları.

Beytin anlamı: Maddi aləmə bağlı ömrün hüdudlarından kənara çıxmağı bacarsan, dünyamızın hüdudlarını da vurub keçəcəksən, yeni dünya - ruh və mənviyyat aləmi qazanacaqsan.

1627- 1629 B. Dolaşıq kələklər - fələyin kələfləri.

Beytin anlamı: Özünün ruh və zəka qüdrətini dərk eləmiş və istedadını bəşəriyyətə həsr etməyə qadir insanın böyüklüyü qarşısında fələk heç bir şeydir, hətta, ilan kimi qıvrılıb açılsa da, acizdir.

1641 - 1642 B. Bu mətndə «şəkər» sözünün ikinci, məcazı mənası bilikdir, elm, tədbir, şirin dil kimi ülvi anlayışlardır. Nizami deyir ki, qızıla, yaxud şöhrətə, sərvətə, var-dövlət yığmağa susuzluğunu, təşnəliyini yalnız və yalnız zəka, səbr, təmkin sayəsində söndürə, öldürə bilərsən. Necə ki, gündüz gecəni öz nuru ilə boğub öldürür, yaxud tədbirli filosof əfsun oxuyub təqdim etdiyi çiçəklə öz rəqibinə qalib gəlir.

## ÇƏKİŞƏN İKİ FİLOSOFUN DASTANI

1656.B. « Nuşi - qiya» - novruz otu deyilən bitkidən hazırlanmış məlhəm («Burhani qatı»).

1667.B. Beytin məzmunu Quranı-şərifin «Əl- Ənam» surəsinin 77-ci ayəsindən iqtibas olunub: «O (İbrahim) çıxan Ayı görəndə dedi: « Mənim Tanrım məni düz yola hidayət etməsə, mən yolunu azmış adamlardan» olacağam. (Prof R.Əliyev )

1669.B. Nizamiyə görə könlü işıqlandıra bilmək - maddi dünyadan əl çəkib mənəvi dünyaya qovuşmaqdır. Ən böyük səadət heç də maddi aləmdə deyil, yalnız ruhun qüdrəti sayəsində qazandığın mənəvi aləmdədir.

1670.B. Ağ, qara lövhə - gündüz, gecə. İnsan öz ömrünün gecəsini, gündüzünü təmizə çıxarıb pak etmək üçün tövbə qılmalı, suçlarının, günahlarının bağışlanmasını sidq ürəkdən ulu Tanrıdan diləməli və tövbəsinə layiq yaşamalıdır. Bu halda göz yaşı tökmək mənən təmizlənməyin rəhnidir və bu göz yaşı umud gülabıdır. Başqa sözlə desək, sən bağışlanacağına və bundan sonra İnsan kimi yaşayacağına ümid bəsləyə bilərsən.

1671.B. Nizamiyə görə ölçü-biçi əsasında yaşamaq özünü nəfsə, tamaha, yırtıcı ehtiraslara təslim etməməyi bacarmaq deməkdir. Yalnız bu dünyada gözəl yaşamaqla o dünyanı qazana bilərsən.

*ON ÜÇÜNCÜ SÖHBƏT*

## DÜNYADAN ƏL ÜZMƏYƏ DAİR

1677.B. Bu dünyaya aldanma. Onun çeşməsi ilğımdır, aldadıcı sərab (miraj) hökmündədir. Ömürdən sonrakı ömrünü düşün.

1684.B. Cəfəri qızıl - xıltı olmayan, ən saf, təmiz qızıl deməkdir. Prof. R. Əliyevin yazdığına görə, buna ona görə cəfəri qızıl deyirlər ki, məşhur ərəb xəlifəsi Harun ər-Rəşidin (783-809) vəziri Cəfər Bərməkinin əmri ilə yüzdə yüz, xalis qızıla sikkə vurmağa başlayıblar

Beytin məzmunu : bu sarı gülə bənzər cəfəri altununu payla, bağışla. Şam kimi qızıl şölə saç ki, öz nurun ilə işıqlanasan, bu dünyada rəhmət, o dünyada şəfqət qazanasan.

1685 B. Bütün canlılarda bədənin doqquz qapısı var: iki göz, iki qulaq, ağız, burun deşikləri və s. Altıbaşlı altun - məşhur İran alimi Vəhid Dəstgirdinin yazdığına görə xalis qızıldan qaynılmış altı başlı büt olmuş, sonralar bu ad həmin qızıl növünə aid edilmişdir.

1687.B. Məqsəd sikkəsi - Tanrının razılığını qazanmaq və el içində yaxşı ad qoyub getmək.

1689.B. Bəlkə, hətta, xeyli üstündürlər. Çünki şahlar, krallar,



səltənət və imperiya başçıları xalqların, müstəmləkə məngənəsinə saldıqları ulusların qanını şüşəyə tutmaq hesabına varlanır, özlərinə qızıldan taxt, tac düzəltməklə bəşəriyyətin nifrətini, qəzəbini qazanırlar. Sikkə vuran dəmirçilər ilə hasal əmək adamlarıdır, buna görə rəğbətə, məhəbbətə layiqdirlər.

1690.B. İncil kitabında həyat tarixçəsi tam işıqlandırılmış əfsanəvi xəsis və hədsiz dərəcədə dövlətli Qarun ifrat simicliyinə görə Tanrı tərəfindən cəzalandırılmış, yer yarılmış və Qarunu saysız-hesabsız xəzinələri ilə birlikdə udmuşdur.

1691.B. Özünü qızıla təslim edənlər bədbəxtdir. Qızılı özünə təslim edənlər isə xoşbəxt. Sonuncular qızılı bir qızıl köhlənə döndərib cilovlayıb, sürür, məqsəd mənzilinə çatırlar.

1696.B. Belə bir təsəvvür varmış ki, qızıl mədənləri yalnız şərqdə, gündoğandadır. Beytin yürütdüyü digər fikir budur ki, qızıl günəş Şərqdən doğur, Qərbdə batır. Deməli, qızılın, işığın, səxavətin ilk vətəni şərqdir.

1698.B. Burada Günəş şərqli, Ay isə qərbli kimi təqdim olunur. Bəllidir ki, Ayın öz nuru yoxdur, yalnız günəşin verdiyi şölə hesabına işıqlanır. Deməli, nur dilənçisidir.

1700 - 1701.B. Keçmişdə məhək daşını ən çox Dəməşq şəhərindən gətirərdilər. Xalislik əyarına malik ən saf qızıl isə Kiçik Asiyadakı Bizans imperatorlarına məxsus olmuş, bunu Rum qızılı adlandırmışlar.

1717.B. Sofu elə yedi ki, əlinə düşən ovu,
Çırağı da bir gilə yağın möhtacı oldu.

Yəni: əmanət pulu son qəpiyinədək xərclədi. Keçmişdə başqalarının heyvani ilə qarışıq salmamaq üçün mal-qaranı damğalarmışlar. Bununla bağlı idiomatik ifadə yaranmışdır. «Filankəs ovunu elə yedi ki, heç damğa yeri də qalmadı». Şeyx də əlinə keçən əmanət ilə bu cür davranır.

1718.B. Bizim Hacı elə ki, Kəbədən geri döndü,
Öz hindlisi önündə bir Türk kimi göründü.

Burada «hindli» anlayışı «üzüqaralıq», «Türk» ifadəsi isə «cəsurluq», «tələbkarlıq», «öz haqqını tələb edən qüdrət sahibi» ifadələrinin sinonimi kimi işlənmişdir.

1723.B. Belimi qırdı mənim o Rükni qızılların,
Dözə bilmədim, yedim boynumdadır vəbalın.

Rükni qızıl - öz xalisliyi ilə məşhur olan və hömdar Rüki-əd-Din Deyləmi tərəfindən zərb edilmiş qızıl pul.

1729.B. Öyüd verdi özünə: - Azca təsəllimiz var.
Dərvişin heç nəyi yox... Heçdən nə almaq olar?

Doğrudan da, dərvişin itaət və ibadətdən başqa nəyi var ki, ala biləsən?!

1731.B. Sofunun boğazından keçən o maldan qalan
Başı halqalı «Mim»lə kufi «Əlif»dir, inan.

«Mal» anlayışından yalnız «MA» hecası qalıb ki, bu da ərəbcə «yox», «heç» deməkdir. Sofunun başı halqalı «Mim» dən və kufi «Əlif»dən savayı verməli heç nəyi yoxdur.

1735.B. Din - əyarlı qızıldır, vermə onu şeytana,
Fəğfurun şərəfini layiq görmə səkbana.

Fəğfur (Baqpur) - Tanrı oğlu. Bu söz Yaxın və Orta Şərqdə Çin imperatorlarının ləqəbi olmuşdur. Burada isə şah mənasındadır. (Prof R.Əliyev).

Beytin anlamı: Saf qızıl olan dini şeytanlara sofular kimi təslim etmə, ulu şahların bilərziyini it saxlayanların əlində xaltaya, midbərə döndərmə!

1743.B. Torpaqla qurd dostluğu eləyir daim külək,
Özü yüngül, əli boş, heç nə itirməyəcək.
Qurd dostluğu - fələn düşmənlik.

1744.B. Sənin diləklərinin tərəzisi olan zər
Beş rükət namazının fatihəsinə bənzər.

Yəni: namaz qılanda sən Allahı, peyğəmbəri yox, öz varidatını artırmaq yollarını düşünürsən. Bu cür namaz qılmaq əslində bütün namazlarının axırına çıxmağın deməkdir.





## QƏFLƏTDƏN OYANMA ŞƏRTLƏRİ

1748.B. Xəbərsizsən aləmin mavi dairəsindən,
Dövr eləyən günəşdən, göylərin mərkəzindən.

Yalnız özünün zəka və ruh qüdrətini dərk edənlər - ariflər bu dünyanın gedişini, kainatın bilməcələrini anlamağa qadirdirlər, sən yox!

1761.B. Kabab olan cigərə səpilmiş duzdur şərab.
Duzsuzlara, kəmlərə qismət olsun bu əzab.

Duz qatılmış üzüm suyu olan şərab əslində ciərləmi yandırıb kabab edən oddur, atəşdir. Duzsuuzlar, ağıldan kəmlər bu odla ciyərlərini yandırırlar.

1766.B. Əlifsənsə, qanadsız quşa dön, barsız yaşa!
Ya «Bey» kimi bar gətir, ömrü gözəl vur başa.

Şax və məğrur qamətinlə öyünmək istəyirsənsə, « Əlif» kimi yalqız və mütəkəbbir dayan və əksinə, həyat xəzinəsindən bəhrələnmək istəyirsənsə, başıaşağı, təvazökar «Bey» kimi dolan, məhsuldar ömür sür!

1768 B. Sən ki, tikan deyilsən dırmanma yüksəklərə.
Əlsiz, ayaqsız gül ol, bizi qərq elə ətrə.

Lovğalığı ucbatından dimdik dayanan, yüksəklərə can atan, bəzən, hətta, divar üstündə bitən, hər şeydən uca görünmək istəyən tikan kimi gözə girmə, başıaşağı, təvazökar yaşayan, bəzən, hətta əli, ayağı bilinməyən qızılgül kimi yaşa ki, həndəvəri rayihənə qərq edəsən.

1772.B. Özünü kölgəlikdən qurtara bilsən əgər,
İnan, eyiblərin də kölgə kimi çəkilər.

Gözəl və cəsur yaşamağı, içəridən nurlanmağı bacaran kölgəlikdən, köləlikdən, mənəvi zülmətdən, ətalətdən, sıxıntı və eybəcərlikdən xilas ola bilərsən. Öz işığında eyiblərin əriyər, yox olar.

1773.B. Zülmətdə əyləşməyə dözə bilmir hər kişi,
Təkcə dirilik suyu görə bilir bu işi.

Cəbrə qatlaşmaq, unudularaq yaşamaq, irtica zülmətinə davam gətirmək, dözümlü və iradəli olmaq hər kişinin işi deyil. Yalnız öz köks qəfəsinin qaranlığında dirilik suyu saxlamağı bacaranlar, bəşəriyyətə xidmətin, nəciblik və xeyirxahlığın dərin qaynaqlarını öz varlığında yaşatmağa qadir olanlar bu səadətə çatırlar.

1774.B. Başı yerdə, ayağı göydə olan ey qafil,
Sənin fikir göylərin alt-üst olub, bunu bil!

Sən ruh aləmində yaşamaq əvəzinə maddi aləmə yapışıb qalmısan. Nəciblik, xeyirxahlıq, insana xidmət bayrağı daşımaq əvəzinə sərvət, şöhrət dalınca sürünürsən, yırtıcı ehtiraslara kölənsən. Ömrün baş-ayaqdır. Özünü dərk et, ayağa qalx!

1776.B. Paltarını bu teştdə təmiz yumaq istəsən,
Ucal, suyu günəşin qaynağından istə sən!

Yəni: cəmiyyət əlaqələrindəki çirkdən təmizlənmək istəsən, yüksəlməli, öz ruhunun günəşinə qovuşmalısan!

## ZALİM PADŞAH İLƏ DÜZDANIŞAN KİŞİNİN DASTANI

1790.B. Ürəkləri sındıran zülmkar bir şah vardı,
Dirəşməkdə, höcətdə Həccacı mat qoyardı.

Həccac Yusif oğlu (661-714) öməmilər sülaləsinin xəlifələri adından xilafətin müəyyən vilayətlərini idarə edən görkəmli dövlət xadimi olmuşdur. Xilafət düşmənlərinə qarşı mübarizədə, güman ki, əsl rəqəmləri şişirdən salnaməçilərin dediyinə görə 130 min



adamı edama məhkum etmişdir. Həccacın vəfatı günündə isə öməvilərin dustaq evlərində onun əmrilə azadlıqdan məhrum edilmiş 15 min kişi və 30 min qadın olmuşdur. Buna görə Yaxın Şərq ədəbiyyatında onu qəddar zülmkar saymaq dəb halına düşmüşdür. Bununla belə güman etmək olar ki, onun surəti öməvilərə düşmən kəsilmiş abbasilər sülaləsinin tarixçiləri tərəfindən təhrif edilmişdir. Qədim salnamələrin birində deyilir: «Namuslu adamlara münasibətində o, yaxşı insan, üsyançılara münasibətində isə qəddar idi». Nəzərə almalıyıq ki, Həccacın hakimiyyət illəri zidd qüvvələrin toqquşduğu, həyəcanlı və mürəkkəb bir dövr olmuşdur.

1792.B. Aytək, güntək itigöz bir xəfiyyəsi vardı,
Bağlı qalan işləri ustalıqla açardı.

Gecənin qaranlığı hər şeyi gizlətdiyi, sirri batırdığı halda Ay və dan yeri sirr açan sayılır. İşıqda hər şey görünür, gizlinlər, bilməcələr açılır.

*ON BEŞİNCİ SÖHBƏT*

## PAXILLARDAN ƏLHƏZƏR

1818 - 1819.B. Çınlayır dünya sazı ...rəqqası yoxdur, heyhat!
Dəniz cəvahir dolu...qəvvası yoxdur, heyhat!
Qılınc, tac parıltısı, dirhəm şöləsi, gövhər.
Nə istəsən buyur, seç... bərq vurur xəzinələr.

Təbiət və cəmiyyət gözəlliklər, ülviliklər ilə doludur. Oğul istəyir ki, qollarını çirməsin, istedadına arxalansın və bu sonsuz gözəllikləri bədii lövhələrdə canlandırmağa qadir olsun! Gerçəklikdən gözəllikləri canlandırmağa böyük sənət, böyük sənətkar gərək!

1827.B. Dünya yolçuluğunda gör nə qədər yolgedən.
Bir az da ağıllıdır daldakı öndəkindən.

Arxadan gələn şairlər, yəni gənclər öndə gedənlərdən, qocalardan, bəzən daha ağıllı, daha istedadlı olurlar. Çünki onlar qabaq-

da gedənin də təcrübəsini mənimsəyə bilirlər. Halbuki öndə gedən çox vaxt arxada gələnin özündən və irsindən xəbərsizdir.

1828.B. Yalnız idrak əhlinə yaraşır şərəf, ad-san,
İdrak üçün fərqi yox, cavansan, ya qocasan.

Sənət aləmində başlıca meyar heç də gənclik, yaxud qocalıq deyil, ilk növbədə istedaddır, idrakın qüdrətidir. Buna görə şərəf də, çələn də, ad-san da yalnız və yalnız istedada görə müəyyənləşdirilməlidir. İstedadı qiymətləndirməyi bacarmayan cəmiyyət naqisdir və bəlkə antihumanistdir.

1829 B. Eşitdim: qocalırkən mərcana çevrilir daş.
Düşün bir az, hər daşdan mərcan yaranmır, qardaş!

Məgər hər saçı ağarmışa ağsaqqal demək olar? Məgər hər daş mərcana çevrilir?

Nizami poemanın bu fəslini yazırkən saraya soxulmuş qoca şeirbazlardan şiddətli dərəcədə pislik görmüş, zərbə dadmışdır. Buna görə fəslin demək olar ki, hər beyti mənəvi cəhətdən qocalmışlara qarşı hiddətlə, sağlam nifrətlə doludur.

1830 B. Xəbislər qocaldıqca bir az da quduzlaşır.
Ləçər arvadlar kimi qeyzi başından aşır.

Poemanın orijinalında «ləçər arvad» ifadəsi əvəzinə «dağlı arvad» məcazı işlədilir. Dağlı arvad - əfsanəyə görə dağda yaşayan, gözəgörünməyən bir qadındır, qışqırana əks-səda verən odur. Əslində əks-sədanı yaradan içiboş yuvalar, zağa, kaha və mağaralardır. Nizami saraya soxulmuş şerbaz əleyhdarlarını həmin içiboşlara, ilan, əqrəb yuvası mağaralara və boş, hay-küy salan ləçər arvadlara bənzədir.

1833.B. - Qbnçədən çıxmış gülün ətri zərif, incədir.
1839.B. Fəqət köhnə tikanın yarası bərk incidir.

Dəyib xal salan üzüm göz üçün bir tutiya
İlansa qocalırkən dönüb olur əjdaha.



Cavanların başında ağıl qollu, budaqlı,
Kif atan başlar isə çox da xoşlamır ağlı.

Ayı, günü, həftəni öyrənmək istəyənlər
Baxmaz köhnə təqvimə, baxsa da, verməz səmər.

Arslandan çox yeyər acgöz qoca köpəklər,
Ceyranın göbəyini canavar kimi sökər.

Məni çox da qınama, qorxsam qoca qurdlardan,
Mən ki məzlum Yusifəm, yerim də quyu, zindan.

Yox, qocalar gənc kimi vura bilməzlər yara,
Gəncin əlinin suyu bənzər yanar odlara.

Bu parçanın və onun davamının başlıca münaqişəsi gənclik ilə qocalıq arasında gedən mübarizədir. Nizami mənəvi qocalığı mənəvi gəncliyin ilk düşməni, başlıca döyüş və mübarizə qaynağı hesab edir, buna görə təfəkkürü, ruhu qocalmışları «yara vuran köhnə tikana», «Əjdahaya çevrilmiş qartımış ilana» ağıldan başqa hər şey olan «kif atmış başa», «köhnəlmiş və əhəmiyyətini itirmiş cırdır təqvimə, arslanlardan çox yeyən «qoca köpəyə», «ceyranın göbəyini sökən canavara bənzədir və əksinə», gəncliyi, birinci növbədə mənəvi gəncliyi səciyyələndirmək üçün ən gözəl, şıqlı bənzətmələr seçir: quru tikanın antonimi olan «qönçədən çıxmış gül», «dəyib xal salan üzüm», «qollu-qanadlı zəka ağacı», «əlinin suyu oddan, alovdan qüdrətli» xilqət bu bənzətmələr sırasındadır.

1841.B. Ağ yasəmən çatarmı yamyaşıl, tər söyüdə?
Ağ saçları qoymarıq o bənzəsin hindliyə?

Burada yasəmən qocalığın, söyüd gəncliyin rəmzidir. Məgər istedadsız ağ saçlı qocalar istedad və gənclik timsalı hindliyə bənzəyə bilərmi?

1843.B. Yalnız xudbinlərdi, bax, bərk tutanlar köhnəni.
Haqqa tapınan ərlər xudbinliyin düşməni.

Mənəvi cəhətdən qocalmışlar, xudbinlər yaşamaq haqqını itirmiş köhnəlikdən dördəlli yapışmışlar, buna görə onlar Allah, insaf, vicdan kimi ulu anlayışlardan min ağac uzaq duşmuşlər. Haqqı, Allah yolunu tutan gənclər isə xudbinliyin düşmənidirlər, tərəqqi uğrunda sağlam mübarizdirlər.

1844.B. İndi hilal gördüyün Ay ki, saçır nurunu,
Kamal çağına ercək, bədr adlandır sən onu.

Bu gün aypara sandığın gənc sənətkar sabah dolğun ay kimi şəfəq saça bilər, ovun bədrini hilal ikən görməyi bacar.

1845. B. Cavan xurma ağacı yüksəldimi səmaya,
Əlini elə at ki, çata bilsin xurmaya.

Nizami özünü və öz poeziyasını artıq bar verən xurma ağacına bənzədir, əleydarlarını xəbərdar edir ki, bu xurma ağacına hörmətlə, ehtiramla yanaşmalısan. Əks halda xurma yemək əvəzinə əlinə, ağzına tikan batar.

1853.B. Bəxt ucaldan bayrağı kim aparsın irəli?
Yalnız onu hifz edən igidlərin əlləri!

Böyük bir poeziya bayrağı ucaldılıbsa, gərək hamı, qocalı-cavanlı öz nəfəsilə onu dalğalandırsın, ucaltsın, irəli getməsinə yardım qılsın!

## GƏNC ŞAHZADƏ VƏ ONUN QOCA DÜŞMƏNLƏRİNİN HEKAYƏTİ

1867.B. Bağlamasan kökünə təzə bulağı, arxı,
Tufanla güləşərmi çinarın qol-budağı?

Köhnəlmiş, sozalmış, qurumuş arxın lili, üfunəti təzə fidanın köklərini yandırıb çürüdə bilər, sən onun kökünə can verəcək yeni arx, yeni bulaq çək ki, qalxıb qanadlansın, qasırğalarla güləşə biləcək əzəmətli çinara çevrilsin!



1869.B. Özünü dərk edənin öz könül vaizi var,
Ən gözəl öyüdləri qulağına pıçıldar.

Nizami Gəncəvi burada «özünü dərk edən» hökmdar deyərkən Bəhram şah Ərzincanlını, «ən gözəl öyüdləri» onun qulağına pıçıldamağa qadir «könül vaizi» dedikdə isə özünü nəzərdə tutur.

1870 B. Ağlını - qılıncını çıxar qınından bir an,
Nə vaxtacan onu sən qında saxlayacaqsan?

Bəhram şah Ərzincanlıya üz tutan Nizami özünü zəka qılıncına bənzədir və şahdan tələb edir ki, bu qılınc qında qalmasın. Zira bu sənət qılıncı köhnə mücrüdən çıxarılmayıb, Tanrı tərəfindən göndərilmiş ülvi bir töhfədir. Pak nəfəsli ilham, istedad sahiblərindən hökmdarlar gərək heç nəyini əsirgəməsin.

*ON ALTINCI SÖHBƏT*

## MƏSLƏKDƏ ÇAPUQ İRƏLİLƏMƏ

1882.B. Adəm asqırığının Məsihə çatdı səsi,
Qoy natiqlərə çatsın yalnız dövlət xütbəsi.

Cəbrail Həzrət Adəmin birinci asqırığını gizlətmiş və Məryəm ananı köynəyinin qoluna üfürmüşdür ki, bundan boylu olub cocuğunu, gələcək peyğəmbər İsanı - Məsihi dünyaya gətirsin. Belə bir qüdrət, Cəbrail vasitəçiliyi dövlət başçıları üçün xütbə oxuma girəvəsi yalnız Nizami kimi natiq sənətkarlara yaraşır!

1887 B. Yalnız saxta sikkənin paxırını açır od,
Oddan nə qorxun sənin, ey saf qızıl, ey yaqut!

İradə və məslək xadimləri çətinlikdə daha da bərkiyir, saflaşır, həyatın nə şaxtasından çəkinir, nə atəşindən. Necə ki, od içinə düşəndə qızıl daha da saflaşır, başqa ərintilərdən təmizlənir. Yaqut isə odda yanmır.

1912.B. Cevza bürcündən doğub çağır səadətini,
Dövrün xoşbəxt oğlu ol, sən də sına bəxtini.

Klassik astronomların dediyinə görə Günəşin Cevza (Əkizlər) bürcündən keçdiyi çağlarda (22 may - 22 iyun) anadan olan cocuqlar xoşbəxt taleyə malik olur. Çoxuşaqlı hökmdarlar bu etiqad ilə öz dəliqanlılarına eyni sayda qoz verir, qozu sındırmalarına tamaşa edərmişlər. Kimin heç bir qozu - cevizi çürük çıxmasa o, Cevza bürcü şöləsinə layiq sayılar, vəliəhd təyin olunarmış. Nizami burada «ceviz» və «cevza» sözlərindən mahiranə istifadə etmişdir.

1914.B. Rahat çağladığından sellər, sular bəxtiyar.
Dügümlü ud ağacı odda yanar, gül olar.

Ud ağacı odda yandıqda ətir saçır. Buna görə manqalı udun köməyilə qalayırlar.

1922.B. Bizim doqquz katibin bir cüt hünərnaməsi
Nişan verə bilmədi mənə dolu bir əksi.
Bir cüt hünərnamə - gecə, gündüz.
Doqquz katib - doqquz fələk.

Beytin mənası: Yer üzündə elə bir kişi tapılmadı ki, yaşamaq qanunlarını tam dərk etməyə qadir olsun. Doqquz katibin (doqquz fələyin) nə gecəsi, nə gündüzü həmin adamı nişan verə bilmədi.

### *ON YEDDİNCİ SÖHBƏT*

## TAPINMA VƏ TƏCRİD BƏHSİ

1964.B. Əqlin - canındır sənin, bədəni, cismi sənsən.
Canın bir xəzinədir, sehri, tilsimi sənsən.

Buna görə tilsimi sındırmalısan bədəninə əziyyət verməlisə ki, canını - xəzinəni xilas edə biləsən. Yalnız bircə yola - sərvət, şöhrət, şəhvət acgözlüyündən, kirli ehtiraslardan əl çəkməklə sən bu nadir xəzinəni özündə kəşf edə bilərsən.



1972.B. Tutuquşu güləndə orta həddi gözlədiyi və gözəl nitq nümayiş etdirdiyi üçün onun şirindilliyindən qənd, şəkər xəcalət çəkdi, bağrı çatladı. Kəklik isə orta həddi gözləyə bilmədi, qaqqıltıları dünyanı başına götürdü, buna görə özünü qartallara nişan verdi, ovlandı, ağzı biryolluq yumuldu
Nəticə: güləndə, qonuşanda çatladı qəndin bağrı.
Kəkliyinsə ağzını yumdu qaqqıltıları.

1980 B. Hər sevinən ürəkdə yanqılı bir qəm də var.
Hər gündüzün gövhəri gecə bətnindən doğar.
Gündüzün gövhəri - günəş.

## MÜRŞİD İLƏ MÜRİDİN HEKAYƏTİ

Mürşid - yol göstərən,rəhbər, nəsihətçi, bələdçi, öz müridlərinə rəhbərlik edən dini təriqət başçısı. Mürid - şagird, tərəfdar, ardıcıl; bir təriqətdə şeyxin, yaxud mürşidin ardınca qoşan təriqətçi. Təriqət - yol, dini məslək yolu.

1998 B. Sən ki, eşşək deyilsən, əl çək bədən yükündən.
Zahidlik yükü daşı, xam deyilsən əgər sən.

Başqalarının qanını sormaq, zülm etmək, nəfs, tamah acgözlüyü, şöhrət və şəhvət düşkünlüyü kimi murdar ehtiraslara təslim olanlar bu dünyada öz boynuna çox ağır yük götürür və yükün ağırlığıy altında çökürlər. Arif və cəsur insanlar isə bu cür qeyri-insani yükdən imtina edir, bəşəriyyətə xidmət yolunu seçirlər.

1999 B. Sənin zahidlik xəttin əyilməsə, düz olsa,
Yas nədir bilməyəcək, hamı batsa da yasa.

Zahid - ibadətçi, pəhrizkar, asket. Sənin zahidliyini zahiri deyilsə, doğrudan da dinə, Tanrıya, düzlüyə, bəşəriyyətə xidmətdən ibarətdirsə, onda sənə zaval yoxdur, heç vaxt ətəyin yaş olmayacaq, biabır olmayacaqsan.

2000.B. Zahidsultan bürünsə zərli şah xələtinə,
Bənzəyər Süleymanla zənbil hekayətinə.

Dünyanın məşhur tacidarları başını qızıl tac qoyub əyninə zərli libas geyənlər zahidlik yoluna düşdükdə daha əzəmətli görünürlər. Beləlləri ən böyük hökmdar olduğu halda, zənbil hörən və öz əllərinin rəngi ilə yaşayan Süleyman peyğəmbərə bənzər.

2001.B. Dəruni zahidliyin qəbası altında şam
Hidayət nuru saçar, qızıl səpər hər axşam.

Piltəsindən, yağından və alışıb yanan cismindən, canından başqa, heç nəyi olmayan şam gecələr əsil zahidə bənzər: həndəvərinə düzlük (hidayət) nuru və qızıl səpdiyi halda, hay-küy salmadan yanar və bu yolda canını qurban verər.

2002.B. Xoşdur, zahid görünsə, hətta, meyxanələrdə.
Xəzinələr saxlanır çünki viranələrdə.

Aclıq, qıtlıq, yoxsulluq olan yerdə, zahidlik onsuz labüddür. Meyxanələrdə, nemətlərin sərgisi açılan yerlərdə, saray və kəşanələrdə zahidlik etmək isə ikiqat qəhrəmanlıqdır. Çünki burada nəfsi saxlamaq və başqaları haqqında düşünmək, onların, yoxsulların rifahı haqında qayğı bəsləmək daha böyük hünər istəyir. Bir də zahidin (Tanrı bəndəsinin), halal adamın hərəmxanaya qədəm qoyması - viranəyə, xarabalığa girməsi kimidir. Nə qəm, ən yaxşı xəzinələr məgər elə xarabalıqda yerləşmirmi?

2003.B. Zər yelənli bayrağın altında olduğundan
Nizami zahidliyi səfa gətirir müdam.

Nizami zahidliyi heç də nemət qıtlığı ucbatından deyil, əksinə o zər yelənli bayrağın altında, hökmdar, sultan himayəsində yaşayır, buna görə qənaətcilliyi və zahidliyi ikiqat igidlikdir, səfa gətirən zahidlikdir.

*ON SƏKKİZİNCİ SÖHBƏT*

## İKİÜZLÜLƏRDƏN ƏLHƏZƏR

2004.B. Daim özünə bənzər saxta sikkələr kəsən
Qəlbi kimi boş qəlib yapanları tanı sən.



Könül mədənindən inci və dürr kimi çıxardığın sözləri saxtakarlara, saraya və soxulmuş şeirbazlara, sərvət və şöhrət dilənçilərinə göstərmə. Onların qəlbi qəlpdir. Onlar bəşəriyyətə sənət nümunəsi əvəzinə, «boş qəlib» təqdim edirlər ki, içində heç nə yoxdur.

2006.B. Qarşında işıq kimi parlaq görünər onlar,
Arxanca kölgə kimi oğrun, sürünər onlar.

Zahiri bəzək-düzəklərinə, rütbə, vəzifə, çələng və təltiflərinə, imtiyazlarına uyma. Üzdə parıltılı görünsələr də, içəri də zülmət kimidirlər, arxanca kölgə kimi sürünən casuslar, şaiyəbazlar səni güdaza vermək üçün fürsət, girəvə güdənlərdir.

## SİRSAXLAYAN İLƏ CƏMŞİDİN DASTANI

2072.B. Başını doqquz göydən dışarı çıxaranlar
Dəruni aləminin meydanında at çapar.

Kainatın mənəvi hökmdarları, yalnız və yalnız öz nəfsinə qalib gəlməyi bacaranlar, hər cür acgöz və yırtıcı ehtirasları boğub ram edə bilənlərdir ki, göylərin doqquzuncu qatından yuxarı qalxırdı ərşə, Tanrı mərtəbəsinə yüksəlir və özlərinin ruh aləmində köhlən səyirdirlər.

2074.B. Eşqin gizli qalması bir möcüzə sayılır,
Elə ki, üzə çıxdı, xərabatda bayılır.

Eşq yalnız o zaman möcüzə səviyyəli gözəlliyə, ülviyyətə çevrilir ki, ürəkdə bəslənir, faş edilmir. Elə ki, aşiq və məşuq bu sirri açdı, dilə-dişə saldı, bir gün onları xərabatda bayılmış görürlər. Yəni: böyük məhəbbət əvəzinə, yataq həyatı, cismani yaxınlıq müşahidə edilir.

2075.B. Sirr dügümü vurarkən din ipliyi seçdilər,
Həllacın da ipini bu pambıqdan eşdilər.

Həllac - pambıqdarayan və X əsrin məşhur filosof - sufi şairi Mənsurun ləqəbi.

Beytin mənası: məhəbbətin sirr kisəsinin ağzı dinin sapı ilə bağlanıb. Onu bağlı saxlamağı bacarmalısan. Əks halda səni Mənsur Həllacın aqibəti bəklər. Sirri açdığına, «mən - həqqəm!» deyə haray çəkdiyinə görə boğazına sabunlu ip, kəndir keçirildi.

2076.B. Nə qədər ki, bağlıdır, qönçə rahat, salamat.
Dönür qan çanağına açılan kimi, heyhat.

Nə qədər ki, səba və günəşlə vüsal sirrini saxlaya bilir, qönçə salamatdır. Elə ki, bu sirri açıb gülə çevrilir, dərhal qanını töküb onu dərri, aprırlar.

Nəticə : sirri qorumalısan!

*ON DOQQUZUNCU SÖHBƏT*

## AXİRƏTİ QARŞILAMAQ HAQQINDA

2087. - Sənə - Dindən əl çəkib dünya tələb edənə
88.B. Dinin keşikçiləri gör nələr söyləməkdə :
«Qayıt ədalətsizin», nakəsin qapısından,
Bu sirlər sarayının ətrafını gəz, dolan!»

Dinin keşikçiləri - peyğəmbərlər. Ədalətsizin, nakəsin qapısı - dünyamız. Sirr sarayı - axirət evi.

2089. B.Dünya bu odlu səhrada gördüyün ilğımlar - dəbdəbələr, kəşanələr, sərvət, şöhrət və şəhvət yollarında qazandığın zahiri və müvəqqəti uğurlar səni coşdurur, havalandırır, unudursan ki, bu dünyadakı alçaqlıqların üçün o dünyada haq məhkəməsi, mizan - tərəzi qarşısında hesab verməli olacaqsan! Bütün zülmlərin, xalqların qanını sormaq üçün tələ, tor qurmağın, əliuzunluğun, acgözlüyün üzünə çırpılacaq, haqqın divanından yaxa qurtara bilməyəcəksən.

2116. B. Çərxin dərinliyində itib batar mağaran,
O sonsuzluq yanında özün bir heç olarsan.
Mağara - dünyamız.
Beytin anlamı : Mənasız yaşayanların dünyada heç bir izi qalmır. Beləlləri kainat adlı sonsuzluqda heç kimdirlər, sanki heç dünyaya gəlməyiblər.



2120.B. Hanı, biçə bilibmi göylər elə bir donu,
İki papaqlı oğru çala bilməsin onu?
İki papaqlı oğru - gecə-gündüz: çərxin gərdişi.
Beytin anlamı: Elə bir adam varmı ki, əcəl onu apara bilməsin?!
2122.B. Üzr, naz qapısından de hansını açdın sən?
Həmin qapı üzünə açılacaq təzədən.

Yəni: bu dünyada nə əkmisənsə, o dünyada onu biçəcəksən.
2131.B. Qurşun rəngli qalanı - bu göyləri zəbt elə,
Bu əbləh Xüttəlanı yəhərlə min, dön yelə.

Xüttəlan - Şərqi Türküstanda vilayət adı. Burda türklər öz cins atları ilə məşhurdur.

Beytin anlamı : Xüttəlan atını minib çap, bu dünyadan elə sürətlə get ki, heç izin-tozun da qalmasın. Ruh aləmini, qurşun qalanı tutmağa tələs.

## HARUN-ƏR-RƏŞİD İLƏ DƏLLƏYİN DASTANI

2138.B. Xəlifəlik təxtini alırkən ələ Harun,
Ucalmışdı bayrağı Abbas oğlullarının.

Abbas - Məhəmməd peyğəmbərin əmisi. Abbasilər xilafəti (750-1256) onun xələfləri və din tərəfdarları tərəfindən təşkil edilmişdir.

*İYİRMİNCİ SÖHBƏT*

## ƏSRDAŞLARIN YARAMAZLIĞINA DAİR

2167 B. Çiynimizdə cüt mələk dərdimizi çəkmədə,
Bizimlə ülfətindən şeytan belə qüssədə.

Dini etiqada görə qiyamət - məhşər günü gəlib çatanda hər in-

sanın çiynində əyləşəcək Rzqib və Ətid adlanan iki mələkdən biri savab işlərimizi, o biri bəd əməllərimizi qələmə alacaqlar. Onlar indidən bizim üçün qüssə çəkirlər ki, görün bəşəriyyətin gördüyü savab iş nə qədər cılız, alçaqlıqları, suçları, günahları nə qədər böyükdür. Bizi yoldan çıxarmalı şeytanlar, divlər belə qüssə çəkir ki, görün kimə yoldaş, qohum olmuşuq?! (Vahid Dəstgirdi).

2170.B. Gecədən qaranlıqmış qiyamətin səhəri,
Sübh namaz qılanların hanı bayraq əlləri.

Bayraq - paklıq və zəfər timsalıdır. Hanı elə insanlar ki, sübh namazına qalxanda göylərə doğru açılmış əlləri bayraq qədər pak və zəfər müjdəçisi olsun?!

2176.B. Gülə döndər qəlbini, vəfa yalnız ondadır,
İnsaf gilindən doğan reyhanımız ondadır.

Torpağa dön ki, hər şey torpaqdan doğur.
2177.B. Ürəyin qazandığı hər qələbə, hər zəfər
Sədaqətdən eşilmiş ən möhkəm yaya bənzər.

İnsanda ən ülvi hisslərin, xeyirxahlıq və qəhrəmanlığın qaynağı ürəkdir. Buna görə Nizami onu möhkəmlikdə kaman kirişinə bənzədir.

2184.B. Riyazət hünərini bir tamaşa zənn edər
Ərənlər barəsində qara fikrə düşənlər.

Paxıl və alçaq adamlar qəhrəmanlığı bəyənməz, bunu qəhrəmanın özünü göstərməsi, oyunu kimi qələmə verərlər.

2185.B. Səxavətli mərdlərə israfçı deyər onlar,
Sədaqəti, vəfanı müftə qulluq sayanlar.

Vəfa və sədaqət duyğusundan yoksun (məhrum) olanlar bu hünərin daşıyıcılarını lağa qoyar, özünü bütünlüklə xalqa, sənətə və bəşəriyyətə həsr etməyi gərəksiz, boş şey, israfçılıq adlandırarlar.



2186. Səxavət onlar üçün yalnız rişxənd qaynağı,
Müdrik söz, qüdrətli söz - qurumuş sel yatağı.

Qəhrəmanlıqla nəfəs alan böyük söz yaradıcılarının gündəlik mətanəti cır, cılız, miskin adamların rişxəndinə səbəb olar. Poeziya bahadırlarının yaratdığı müdrik sözü, qüdrətli sözü «qurumuş sel yatağı» adlandırmaqdan utanmayan bu zavallılar yaddan çıxarırlar ki, həyatda hər şey gəldi-gedəridir, qalan bircə iradə, ilham və zəka gücündən yaranmış sözdür.

2201.B. Sən ey Xızrın bayrağı, ucal, bir qəza törət!
Oyan, xoş nəfəsli Nuh, məlunlara qarğış et!

Dini etiqada görə, İsgəndər zülmətə dirilik suyu ardınca gedəndə bu dirilk suyunu çoxdan içmiş, əbədiyyət qazanmış, yaşıl geyimli Xızr da ona qoşulmuş, dara düşənlərə, nicat umanlara öz nicat funksiyasını yerinə yetirmişdir. Nizami bircə gilə nura tamarzı qalan bu qaranlıq dünyada, alcaq mühitdə poeziyanın, böyük sənətin, dirilik suyu ardınca qoşduğunu bildirir, bu yolda Xızrı yardıma haraylayır, onun bayrağını öz başı üstündə görmək istədiyini bildirir. Nuh peyğəmbəri də çağırır ki, bəd duası ilə məlunları - onu gözü götürməyən saray məddahlarını tufana qərq etsin.

## BÜLBÜL İLƏ QIZILQUŞUN DASTANI

2221.B. Fələk görür işini daim dinməz-söyləməz.
Çəmbərindən başını qurtara bilməz heç kəs.

Haray-həşir qoparmadığına və işini sakitcə gördüyünə görə hər şey fələyin ixtiyarında, hövmündədir. Hələ bircə nəfər də tapılmayıb ki, onun çəmbərindən, həlqəsindən dar ağacının ilgəyindən başını qurtara bilsin.

## KİTABIN SON SÖZÜ

2223.B. - Tanrı sənə yar olsun, katib, sabahın xeyir!
2224.B. Mən son nöqtəmi qoydum, daha qələm sənindir.
Naxış vur ki, bu xalçam səmalarla yarışsın,
Buqələmun qələmim rənglər sərgisi açsın.

Dan yeri sökülәndə bitirdiyim kitabım, ey katib, daha indən belə sənin qələminin hökmündədir. Ona elə bir naxış vur ki, yaratdığım xalça öz rəngləri, xalları, ovsunları ilə səmaları heyran qoysun, fələklərin xalçasından daha zivər, daha münəvvər görünsün.

2235 B. Ayaqlarım bu yurda bənd olsa da... nə zərər?
Əlimdə, ovcumdadır bəlkə bütün ölkələr.

Özü Gəncədən çıxa bilməsə də, Nizami poeziyasının cahan şöhrəti qazanacağını elan edir.

2239.B. Uca boyun geyimi boya bərabər gərək,
Ta qalxarkən ayağa utanmaya o mələk.

Nizami Gəncəvi mələk kimi gözəl bir poema yaratdığını bildirir və bu gözələ yaraşan geyim, mükafat, çələng umduğunu dastanın ithaf obyektindən - Bəhramşah Ərzincanlıdan gizlətmir.



## XƏLİL RZA ULUTÜRKÜN HƏYAT YOLUNUN BAŞLICA MƏQAMLARI

21 oktyabr 1933 – Salyan qəzasının Pirəbbə kəndində anadan olmuşdur (indi həmin kənd Neftçala rayonu ərazisindədir).

1948 – ilk mətbu şeri «Kitab» «Azərbaycan pioneri» qəzetində dərc edilmişdir.

1949-1954 – ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır.

1954 – SSRİ Yazıçılar Birliyinin üzvü olmuşdur.

1955-1957 – «Azərbaycan qadını» dərgisi redaksiyasında əməkdaşlıq etmişdir.

1957-1959 – Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu nəzdində yazıçılar üçün açılmış ikiillik Ali Ədəbiyyat kurslarının dinləyicisi olmuşdur.

1963 – filologiya elmləri namizədi adını almışdır. Həmin ildə N.Tusi adına Pedaqoji Universitetdə dosent vəzifəsində çalışmışdır.

1967 – Azərbaycan yazıçıları sırasında Türkiyədə olmuşdur.

1969-1994 – Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda çalışmışdır.

1985 – filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır.

1986 – Azərbaycan Əməkdar İncəsənət xadimi adını almışdır.

1990 – «Davam edir 37» şerinə görə M.F.Axundov mükafatı laureatı adına layiq görülmüşdür.

26 yanvar 1990 – Azərbaycan milli hərəkatının fəal xadimlərindən olduğuna görə Bakını işğal etmiş rus hərbçiləri tərəfindən həbs edilmiş, Bakı, Rostov, Voronej, Moskva (Lefortovo) zindanlarında 8 ay 13 gün yatmışdır.

1991 – Azərbaycan Ali Sovetinə seçkilərdə iştirak etmiş, öncə 79, sonra 98,7 faiz səs çoxluğu ilə millət vəkili seçilsə də, «kvorum yoxdur» bəhanəsi ilə deputatlıqdan məhrum edilmişdir.

1991 – «Türk milləti» mükafatı laureatı fəxri adını almışdır.

1992 – Azərbaycan Respublikasının «Xalq şairi» adına layiq görülmüşdür.

1994 – (22 iyun) vəfat etmişdir.

1995 – «İstiqlal» ordeni ilə təltif edilmişdir (ölümündən sonra).

1995 – Anadan olmasının 60 illiyi dövlət səviyyəsində qeyd olunmuşdur.

1995 – Türkiyə Respublikasının Milli şairi adı verilmişdir.

2002 – (14 noyabr) – xatirəsinin əbədiləşdirilməsi haqqında Respublika Prezidenti H.Ə. Əliyev sərəncam vermişdir.

2004 – Respublika sarayında Dövlət sərəncamına əsasən 70 illik yubileyi keçirilmişdir.



## BƏDİİ ƏSƏRLƏRİ

1. «Bahar gəlir». Bakı, «Uşaqgəncnəşr», 1957.
2. «Bəhrəli gün». Moskva, «Molodaya qvardiya», 1959.
3. «Sevən gözlər». Bakı, «Azərnəşr», 1959.
4. «Məhəbbət dastanı». Bakı, «Uşaqgəncnəşr», 1961.
5. «Poema o lyubvi». Moskva, «Sovetskiy pisatel», 1961.
6. «Mənim günəşim». Bakı, «Azərnəşr», 1963.
7. «Qollarını geniş aç». Bakı, «Azərnəşr», 1965.
8. «Krasnodon qartalları». Bakı, «Gənclik», 1967.
9. «Yeni zirvələrə». Bakı, «Azərnəşr», 1971.
10. «Ucalıq». Bakı, «Gənclik», 1973.
11. «Doğmalıq». Bakı, «Azərnəşr», 1977.
12. «Taparam səni». Bakı, «Yazıçı», 1980.
13. «Marallar da duz yeyərmiş». Bakı, «Gənclik», 1981.
14. «Ömürdən uzun gecələr». Bakı, «Gənclik», 1982.
15. «Hara gedir bu dünya». Bakı «Yazıçı», 1983.
16. «Daşdan çıxan bulaq». Bakı, «Gənclik», 1986.
17. «Məndən başlanır vətən». Bakı, «Yazıçı», 1988.
18. «Davam edir 37». Bakı, «Gənclik», 1992.
19. «Ayla Günəş arasında». Bakı, «Yazıçı», 1992.
20. «Uzun sürən gənclik». Bakı, «Azərnəşr», 1994.
21. «Mən Şərqəm», Bakı, «Elm» , 1994.
22. «Bağışla, ey vətən». Bakı, "Qorqud" 1995.
23. «Azadlıq», (şeirlər). «Türkiyə, Ankara Kültür Bakanlığı», 1998.
24. «Uzun sürən gənclik». Bakı, «Kitab cəmiyyəti», 1998.
25. «Türkün dastanı». Bakı, «Gənclik», 2000.
26. «Seçilmiş əsərləri», 1-ci cild. Bakı, «Gənclik», 2001.
27. «Mən onsuz da əbədiyəm». Bakı, «Gənclik», 2003.
28. «Seçilmiş əsərləri».,2 cilddə. I və II cildlər. Bakı, «Qərb-Şərq» , 2005
29. «Seçilmiş əsərləri», 5 cilddə, I cild. Bakı, «Elm», 2007.

30. «Çıxış edir Xəlil Rza». (şeirlər), İran, Təbriz, Əxtər , 2008.
31. «Marallar da duz yeyərmiş», (təkrar nəşr). Bakı, «Çinar-Çap», 2009.
32. «Daşdan çıxan bulaq», (təkrar nəşr). Bakı, «Çinar-Çap», 2009.
33. "Seçilmiş əsərləri", 5 cilddə, II cild, Bakı, "Elm", 2011



## TƏRCÜMƏLƏRİ

1. A.Laptev. «Balacalar». Bakı, «Gənclik», 1972.
2. İlya Selvinski. «Babək». Bakı, «Gənclik», 1975.
3. Musa Cəlil. «Moabit dəftəri». Bakı, «Yazıçı», 1979.
4. «Qardaşlıq çələngi». Bakı, «Maarif», 1982.
5. «Dünyaya pəncərə». Bakı, «Maarif», 1984.
6. Robert Rojdestvenski. «Otuzuncu əsrə məktub». Bakı, «Gənclik», 1984.
7. «Turan çələngi».Bakı, «Elm», 1993.
8. Yusif Balasaqunlu. «Qutadqu-bilik». Bakı, «Gənclik», 1994.
9. N.Gəncəvi. «Sirlər xəzinəsi. Lirikası, Bakı, «Yazıçı», 1988.
10. N.Gəncəvi. «Yeddi gözəl». «Ensiklopediya», 2000.
11. N.Gəncəvi. «İsgəndərnamə», Bakı, «Gənclik», 2002.
12. Yusif Balasaqunlu. «Qutadqu-bilik», Bakı, 2003.
13. «Turan çələngi», Bakı, «Çinar-Çap», 2005
14. «Dünyaya pəncərə». Bakı, «Çinar-Çap», 2010
15. N.Gəncəvi. Lirika, "Sirlər xəzinəsi", "Yeddi gözəl". Bakı, "İdeal-Print". 2011

## DİSSERTASİYA VƏ ELMİ ƏSƏRLƏRİ

1. "Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)". Namizədlik dissertasiyasının əlyazması Azərbaycan Pedaqoji Universitetinin kitabxanasında saxlanılır.
2. M.Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan – özbək ədəbi əlaqələrinin aktual problemləri. Doktorluq dissertasiyasının əlyazması Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun kitabxanasında saxlanılır.
3. Məqsud Şeyxzadə. Bakı, «Elm», 1978.
4. Məqsud Şeyxzadənin bədii yaradıcılığı, Bakı, «Elm», 1980.
5. Dramaturgiyada ədəbi əlaqələr, Bakı, «Elm», 1987.
6. Sabir Rüstəmxanlı haqqında. Bakı, «Mütərcim», 1998.
7. Ustadı Bəxtiyar Vahabzadə haqqında. Bakı, «Azərbaycan», 1999.
8. Rəfiq Zəka Xəndan haqqında. Bakı, «Mütərcim», 1999.
9. Rəsul Rza həsrəti. Bakı, «Elm», 2000.
10. Mənə bənzə. Bakı, «Gənclik», 2000.
11. Ədəbi tənqid. Bakı, «Mütərcim», 2003.
12. Dünyanın ədəbi xəritəsi, Bakı, «Çinar-Çap», 2008



## HAQQINDA YAZILANLAR

1. İlk Allahım, son Allahım mübarizə.(məqalələr) Bakı, «Gənclik». 1999.
2. Mail Dəmirli. Xəlil Rza Ulutürkün poeziyası (monoqrafiya). Bakı, «Təfəkkür Universiteti», 1996.
3. Bəkir Nəbiyev. İstiqlal şairi (monoqrafiya), Bakı. «Elm», 2001.
4. Teymur Əhmədov, "Xəlil Rza Ulutürk" (kitab-albom). Bakı, « Azərbaycan Ensiklopediyası», NPB 2000.
5. Müasirləri Xəlil Rza Ulutürk haqqında (məqalələr). Bakı. «Çinar-Çap». 2004.
6. Yavuz Axundlu, "İstiqlal şairləri" (monoqrafiya). Bakı. «Elm», 1998.
7. Dilek Erenoğlu. Azerbaycan şairi Halil Rıza ve Men Şerqem adlı eseri. Eserdeki şiirler üzerinde dil incilemesi. (monoqrafiya)İzmir. 2005.
8. Əlizadə Əsgərli. Milli İdeal mücahidi. (monoqrafiya)Bakı. «Elm». 2005.
9.Əlizadə Əsgərli. Xəlil Rza Ulutürkün poetikası. (monoqrafiya) Bakı. «BQU». 2009.

## ELMİ-TARİXİ MEMUARLARI

1. Xəlil Rza Ulutürk. Lefortovo zindanında. Bakı, «Azərnəşr», 1998
2. Xəlil Rza Ulutürk. Ustadım Əkrəm Cəfər. Bakı, «Mütərcim», 2005
3. Xəlil Rza Ulutürk. Lefortovo zindanında. Bakı, «Çinar-Çap», 2006
4. Xəlil Rza Ulutürk. Gəl, ey səhər. Bakı, «Nağıl evi» , 2004
5. Xəlil Rza Ulutürk.Bir odlu gözləri, bir də xoş səsi. Bakı,«Çinar-Çap», 2007
6. Xəlil Rza Ulutürk. Həyat, həyat deyə çırpınan könül. Bakı, «Çinar-Çap», 2009
7. Xəlil Rza Ulutürk. Mənim Tanrım gözəllikdir. Bakı, «Çinar-Çap», 2009.



## M Ü N D Ə R İ C A T

NİZAMİ ƏSƏRLƏRİ YENİ POETİK NƏFƏSDƏ ............ 3
BƏDİİ SÖZÜN TANRISI ............ 8
**LİRİKA**
**QƏZƏLLƏR**
*Öz yaman halımı açdım sənə, diqqət verəsən* ............ 39
*Sən gəncliyin qədrini bil, bir an kimi keçib gedər.* ............ 40
*Sən ey yüz min cana dinçlik verən can* ............ 40
*Arpa qədər də tabım yox, a buğdayı üzlü nigar!* ............ 41
*Ürəyimə yara vurdun öz əlinlə, gülə-gülə* ............ 42
*Ey uğurlu qasid, bir xəbər yetir* ............ 42
*Səni bağda görən güllər pərdə çəkdi üzünə.* ............ 43
*Gözlərin gözlərimə xeyli tanış.* ............ 44
*Həyatdan kam alan fəxrəndə yoxmuş.* ............ 45
*Könlüm evi xarab olur, canım alan o can hanı?* ............ 45
*Dərd başdan aşıb da canə yetdi.* ............ 46
*Oylə şirin söz de ki, ta şəkər ərzan ola.* ............ 47
*Xoşbəxt yaşa, qəm çəkməyə dəyməz.* ............ 47
*Qəm yemə, qəm əhlinin imdadına canan çatar.* ............ 48
*Ey mö'cüzə Ay, sən kimə mehman olacaqsan?* ............ 48
*Tövbə binasını yenə eşq xərab edər, gedər.* ............ 49
*Ceyrana bənzər olsa da o, şirləri şikar edər* ............ 51
*A xidmət etdiyim gözəl, qazancım intizar olur.* ............ 51
*Bu gecə yatmaq nədir? Ləzzət çəkək ta sübhədək.* ............ 52
*Kecən zülmət, yolun müşkül, cilov çək, girmə yarğanə.* ............ 53
*Tutdu məni eşqin, sevda məni çəkdi.* ............ 53
*Alım səndən ürəyimi... düşünürəm dönə-dönə.* ............ 54
*Gedir əldən gecələr səbrü qərarım sənsiz.* ............ 54
*Yoxdu xəzinəm ki, saçım ustünə.* ............ 55
*Baş apar, nazlan ki, mən nazın çəkim.* ............ 55
*Apardın könlümü, dilbər, fusunxanlıq yetər, bəsdir.* ............ 56
*Ey sənəm, gözün fədası, bizə bir gecə səfa qıl.* ............ 56
*Söndür şamı, pərvanə tez gəldi çırağı-canımız.* ............ 57
*Mən öz gəncliyimi sənə verdim, yar.* ............ 58
*Sən, a bütün türkləri hindu qılan,* ............ 59
*Gözlərinə and olsun, məndə yüz nişanən var.* ............ 60
*Sən – bütün qızlardakı hüsnü tamam* ............ 60
*Bəlkə bir ləhzəni qurban edəsən,* ............ 61
*Gül surətə nəzər sal, ta gör də ləlazarı.* ............ 62

Apardın könlümü, canım da səndə. ....62
Verməram can sənə mən, can alan olsan da, gülüm. ....63
Mənim dərdim böyük dastan... oxu, dərmanım ol, ey dost! ....65
Məftundu sənə könlüm, tədbir elə ey canım. ....66
Hər çilvəni tanrım sənə əl'an ....66
Qəmin kəm, ey gözəl, vardır mənim tək köhnə qəmxarın. ....68
Min sevincə dəyişmərəm uğrundakı bircə qəmi ....68
Günüm batdı, gəl, ay bədrim, bir anlıq gəl, amanım ol! ....69
Gəncliyimi sənə verdim, bu möhnətdən şirinsənmiş. ....70
Sığar qəlbə, qəmin dunyaya sığmaz. ....70
Ey əhdimizə ən uca ünvan. ....71
Mən kiməm ki, söyləyim: eşqim mənə mehman olub. ....72
Harda ki, sən varsan, qəmər gərəkməz. ....72
Təəssüf, min təəssüf ki, təkəm, dildarə möhtacam. ....75
Yüz Yusifi Kən'ani ....74
Saçların dağnıqmıdır, aləmmi, ya karım mənim? ....75
QƏSİDƏLƏR
ŞAHLAR ŞAHI ....76
MƏTLƏ'İN DAVAMI ....78
BU DÜŞƏRGƏ ....81
QOCALIQ ....86
KƏ'BƏ SULTANI ....90
MÜŞƏŞDƏR ....93
RÜBAİLƏR
Özün yaxşı bilirsən: etsəm səndən şikayət ....98
Baş saldıran sünbuldə üsyankarlıq gördülər ....98
Üzun mişkə bənzəyir, hörüyün qandı, canan ....98
Ədalət yer uzundə zəfərlərin tacıdır. ....98
İndi ki yoxmuş ümid axşamdan ta səhərə. ....98
Kimin ki, deyilməsi qeyri-mümkün dərdi var. ....98
Heç xəbərin oldumu, mələk qızı, ey nigar! ....99
Hərgah, ah-nalə qılsam, kim yetəcək dadıma? ....99
Kimsəsizlik yamandır, həzər, ey ulu Tanrı. ....99
Ey qəddi baş uçaldan, qürur doğuran gözəl. ....99
Günəş üzlüm, səslənir əraq pərdəsi, yatma! ....99
Bizim manqalımızda daim ud kimidir can. ....99
Sən günəş mövqeyində... biz yaramaz, yarıtmaz ....99
Mənim sevinc tarlamı suvardı qəm buludu. ....100
Sənin səxavətindən hanı bizə duşən pay? ....100
Umud varmı çıxmağa bu axşamdan səhərə? ....100
Külüng vurduq, nə qədər dağ çapdıq, keçdi getdi. ....100
On namə yazdı Tanrı doqquz fələk altında. ....100


Dərdli açıb dərdini hər yetənə söyləməz. ....100
Ey göz, məgər görmədin yolda canan gedirdi. ....100
O gündən ki, eşqinin daddım qəm şərbətini. ....101
Ey mələk qızı mələk, ey dürdanə, ey bahar! ....101
Dedim: – Sözüm kaş sənə insaf açarı versin. ....101
Nə zamandır ürəyim ayda, gündə hərlənir. ....101
Dolanırsan özun də bir gözəlin başına. ....101
Yenə yarım əlində çiçək tutub, baxın bir: ....101
Vusal gecəsindəyik, gəzir bayırda dərğa. ....101
Qurban verək bədəni fəqr, fəna yolunda. ....102
Kabab yeyə bilmirəm, kabab olmuşam özüm. ....102
Gəncliyinə guvənmə, yel əsər, solub gedər. ....102
Hallılara fikir ver, şərab olub qisməti ....102
Məni naqis sanırsan, nə qəm, elə o cür san. ....102
«SİRLƏR XƏZİNƏSİ»
BAŞLANĞIC ....105
TÖVHİD VƏ MİNACAT ....109
İKİNCİ MİNACAT ....112
PEYĞƏMBƏRLƏRİN SONUNCUSU HƏZRƏT MƏHƏMMƏDƏ GÖZƏLLƏMƏ ....114
PEYĞƏMBƏRİN MERACI ....116
PEYĞƏMBƏRİMİZİ ÖYƏN İKİNCİ GÖZƏLLƏMƏ ....121
SON PEYĞƏMBƏR HƏZRƏT MƏHƏMMƏDƏ ÜÇÜNCÜ GÖZƏLLƏMƏ ....123
PEYĞƏMBƏRİN ÜSTÜNƏ DÖRDÜNCÜ GÖZƏLLƏMƏ ....125
PEYĞƏMBƏRİMİZƏ BEŞİNCİ GÖZƏLLƏMƏ ....127
İSLAM PADŞAHI MƏLİK FƏXRƏDDİN BƏHRAM ŞAH İBN DAVUDA ÖYGÜ ....131
HÜZURUNDA YER ÖPƏRKƏN SÖYLƏNİB ....133
KİTABIN YAZILMASI SƏBƏBİ ....136
SÖZ QOŞMAĞIN FƏZİLƏTİ HAQQINDA ....139
ÖLÇÜLÜ SÖZÜN ÖLÇÜSÜZ SÖZDƏN ÜSTÜNLÜYÜ ....141
GECƏNİN VƏSFİ VƏ KÖNÜLƏ DALMA ....146
BİRİNCİ XƏLVƏT. QƏLBİN TƏRBİYƏSİ ....153
BİRİNCİ XƏLVƏTİN SƏMƏRƏSİ ....159
İKİNCİ XƏLVƏT. GECƏ GÖRÜŞÜ ....161
İKİNCİ XƏLVƏTİN SƏMƏRƏSİ ....165
BİRİNCİ SÖHBƏT
ADƏMİN YARADILMASINA DAİR ....169
ÜMÜDSÜZ PADŞAHIN BAĞIŞLANMASI DASTANI ....174
İKİNCİ SÖHBƏT

ƏDALƏTLİ VƏ İNSAFLI OLMAĞA DAİR ....176
ADİL NUŞİRƏVAN İLƏ VƏZİRİN HEKAYƏTİ ....180
*ÜÇÜNCÜ SÖHBƏT*
DÜNYA HADİSƏLƏRİNƏ DAİR ....182
SÜLEYMAN PEYĞƏMBƏRLƏ QOCA ƏKİNÇİNİN HEKAYƏTİ ....187
*DÖRDÜNCÜ SÖHBƏT*
RƏİYYƏTİN HAQQINI PADŞAHIN QORUMASI ....189
QARI İLƏ SULTAN SƏNCƏRİN HEKAYƏTİ ....191
*BEŞİNCİ SÖHBƏT*
QOCALIĞIN SİFƏTLƏRİ ....194
KƏRPİCKƏSƏN QOCANIN HEKAYƏTİ ....198
*ALTINCI SÖHBƏT*
VARLIĞIN ETİBARI HAQQINDA ....199
OVÇU İLƏ İTİN VƏ TÜLKÜNÜN HEKAYƏTİ ....202
*YEDDİNCİ SÖHBƏT*
İNSANLIQ MƏRTƏBƏSİNİN BÜTÜN XİLQƏTLƏRDƏN ÜSTÜNLÜYÜ ....206
FİRUDİN ŞAHIN CEYRAN OVU HEKAYƏTİ ....209
*SƏKKİZİNCİ SÖHBƏT*
YARADILIŞIN HÜSNÜNƏ DAİR ....211
MEYVƏSATANLA TÜLKÜNÜN VƏ CİBKƏSƏNİN HEKAYƏTİ ....215
DÜNYA QAYĞILARINDAN QURTULMA BƏHSİ ....216
TÖVBƏSİNİ POZAN ZAHİDİN HEKAYƏTİ ....220
*ONUNCU SÖHBƏT*
DÜNYANIN SONU HAQQINDA ....222
İSA PEYĞƏMBƏRİN HEKAYƏTİ ....226
*ON BİRİNCİ SÖHBƏT*
DÜNYANIN VƏFASIZLIĞI HAQQINDA ....228
NƏZƏR SAHİBİ BİR MÖBİDİN DASTANI ....230
*ON İKİNCİ SÖHBƏT*
DÜNYAYA VİDA ....232
ÇƏKİŞƏN İKİ FİLOSOFUN DASTANI ....235
*ON ÜÇÜNCÜ SÖHBƏT*
DÜNYADAN ƏL ÜZMƏYƏ DAİR ....238
XAİN SOFU İLƏ HACININ DASTANI ....240
*ON DÖRDÜNCÜ SÖHBƏT*
QƏFLƏTDƏN OYANMA ŞƏRTLƏRİ ....244
ZALIM PADŞAHLA DÜZ DANIŞAN



KİŞİNİN DASTANI ....247
*ON BEŞİNCİ SÖHBƏT*
PAXILLARDAN ƏLHƏZƏR ....249
GƏNC ŞAHZADƏ VƏ ONUN QOCA DÜŞMƏNLƏRİNİN HEKAYƏTİ ....252
*ON ALTINCI SÖHBƏT*
MƏSLƏKDƏ ÇAPUQ İRƏLİLƏMƏ
YARALI ÇOCUĞUN DASTANI ....258
*ON YEDDİNCİ SÖHBƏT*
TAPINMA VƏ TƏCRİD BƏHSİ ....259
MÜRŞÜD İLƏ MÜRİDİN HEKAYƏTİ ....263
*ON SƏKKİZİNCİ SÖHBƏT*
İKİÜZLÜLƏRDƏN ƏLHƏZƏR ....264
SİRSAXLAYAN İLƏ CƏMŞİDİN DASTANI ....267
*ON DOQQUZUNCU SÖHBƏT*
AXİRƏTİ QARŞILAMAQ HAQQINDA ....271
HARUN-ƏR-RƏŞİD İLƏ DƏLLƏYİN DASTANI ....275
*İYİRMİNCİ SÖHBƏT*
ƏSRDAŞLARIN YARAMAZLIĞINA DAİR ....277
BÜLBÜL İLƏ QIZILQUŞUN DASTANI ....281
KİTABIN SON SÖZÜ ....282
**«YEDDİ GÖZƏL»**
BAŞLANĞIC ....287
PEYĞƏMBƏRƏ TAPINMA ....291
PEYĞƏMBƏRİN MERACI ....294
KİTABIN YAZILMASI SƏBƏBİ ....300
ƏLAƏDDİN KÖRPƏ ARSLAN ŞAHA XEYİR-DUA ....306
ŞAHA TƏZİM XİTABI ....312
SÖZƏ SİTAYİŞ. TÖVSİYƏ VƏ ÖYÜD ....318
OĞLUM MƏHƏMMƏDƏ ÖYÜDÜM ....331
BƏHRAM DASTANININ BAŞLANĞICI ....336
SİMNARIN SİMASI VƏ XAVƏRNƏQ QƏSRİNİN TİKİLMƏSİ ....340
XAVƏRNƏQİN VƏSFİ VƏ NEMANIN YOXA ÇIXMASI ....345
BƏHRAMIN OVA ÇIXMASI VƏ GURLARI DAĞLAMASI ....351
BƏHRAMIN BİR OXLA ŞİRİ VƏ GURU ÖLDÜRMƏSİ ....353
BƏHRAMIN ƏJDAHANI ÖLDÜRMƏSİ VƏ XƏZİNƏ TAPMASI ....355
BƏHRAMIN XAVƏRNƏQDƏ YEDDİ GÖZƏLİN ŞƏKLİNİ GÖRMƏSİ ....361
ATASININ VƏFATINDAN BƏHRAMIN XƏBƏR TUTMASI ....364
BƏHRAMIN İRANA QOŞUN ÇƏKMƏSİ ....368

İRAN PADŞAHININ BƏHRAMA MƏKTUBU......371
BƏHRAMIN İRANLILARA CAVABI......375
BƏHRAMIN İKİ ŞİR ARASINDAN TAC GÖTÜRMƏSİ......385
BƏHRAMIN TAXTA ƏYLƏŞMƏSİ......387
BƏHRAMIN ƏDALƏT NİTQİ......389
BƏHRAM GURUN ŞAHLIĞI......390
QURAQLIQ İLİNİN TƏSVİRİ VƏ BƏHRAMIN ŞƏFQƏTİ......394
BƏHRAMIN ÖZ KƏNİZİLƏ MACƏRASI......398
ŞAHA QONAQLIQ HAQQINDA
KƏNİZİN SƏRHƏNG İLƏ SÖHBƏTİ......405
SƏRHƏNGİN BƏHRAM GURU QONAQ APARMASI......406
ÇİN XAQANININ QOŞUN ÇƏKMƏSİ VƏ
BƏHRAMIN QƏLƏBƏSİ......414
BƏHRAMIN ORDU BAŞÇILARINI QINAMASI......422
BƏHRAMIN YEDDİ İQLİMDƏN ŞAH QIZLARINI İSTƏMƏSİ......430
BƏHRAMIN QIŞ MƏCLİSİNİN VƏSFİ
VƏ ONUN YEDDİ GÜNBƏZ TİKDİRMƏSİ......432
YEDDİ GÜNBƏZƏ ÖYGÜ......441
BƏHRAMIN ŞƏNBƏ GÜNÜ QARA GÜNBƏZƏ
GETMƏSİ VƏ BİRİNCİ İQLİMDƏN ŞAH QIZININ ƏFSANƏSİ......443
HEKAYƏT......445
BƏHRAMIN YEKŞƏNBƏ GÜNÜ SARI
GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ İKİNCİ İQLİMDƏN
ŞAH QIZININ ƏFSANƏSİ......485
HEKAYƏT......486
BƏHRAMIN DÜŞƏNBƏ GÜNÜ YAŞIL GÜNBƏZDƏ
ƏYLƏŞMƏSİ VƏ ÜÇÜNCÜ İQLİMDƏN
ŞAH QIZININ ƏFSANƏ SÖYLƏMƏSİ......503
HEKAYƏT......504
BƏHRAMIN SEŞƏNBƏ GÜNÜ
QIRMIZI GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ DÖRDÜNCÜ İQLİMDƏN
ŞAH QIZININ HEKAYƏT SÖYLƏMƏSİ......523
HEKAYƏT......524
BƏHRAMIN ÇƏRŞƏNBƏ GÜNÜ FİRUZƏ RƏNGLİ
GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ BEŞİNCİ İQLİMDƏN
ŞAH QIZININ HEKAYƏT SÖYLƏMƏSİ......547
HEKAYƏT......548
BƏHRAMIN PƏNCŞƏNBƏ GÜNÜ SƏNDƏL RƏNGLİ
GÜNBƏZDƏ ƏYLƏŞMƏSİ VƏ ALTINCI
İQLİMDƏN ŞAH QIZININ HEKAYƏTİ......583
HEKAYƏT......584
BƏHRAMIN ADINA GÜNÜ AĞ GÜNBƏZDƏ



ƏYLƏŞMƏSİ VƏ YEDDİNCİ İQLİMDƏN
ŞAH QIZININ HEKAYƏTİ......612
HEKAYƏT......613
ÇİN XAQANININ BİR DƏ QOŞUN
ÇƏKMƏSİNDƏN BƏHRAMIN AGAH OLMASI......638
BƏHRAMIN ÇOBANDAN İBRƏT ALMASI......647
BƏHRAMIN ZÜLMKAR VƏZİRDƏN
HESAB ÇƏKMƏSİ......653
BİRİNCİ MƏZLUMUN ŞİKAYƏTİ......656
İKİNCİ MƏZLUMUN ŞİKAYƏTİ......657
ÜÇÜNCÜ MƏZLUMUN ŞİKAYƏTİ......659
DÖRDÜNCÜ MƏZLUMUN ŞİKAYƏTİ......660
BEŞİNCİ MƏZLUMUN ŞİKAYƏTİ......662
ALTINCI MƏZLUMUN ŞİKAYƏTİ......664
YEDDİNCİ MƏZLUMUN ŞİKAYƏTİ......667
BƏHRAMIN ZÜLMKAR VƏZİRİ ÖLDÜRTMƏSİ......669
ÇİN XAQANININ BƏHRAMDAN ÜZR İSTƏMƏSİ......671
BƏHRAMIN SONU VƏ MAĞARADA YOX OLMASI......673
KİTABIN SONU VƏ ƏLAƏDDİN KÖRPƏ
ARSLANA XEYİR-DUA......685
**İZAHLAR VƏ ŞƏRHLƏR**......691
***XƏLİL RZA ULUTÜRKÜN HƏYAT YOLUNUN***
***BAŞLICA MƏQAMLARI***......784
*Bədii əsərləri*......785
*Tərcümələri*......787
*Dissertasiya və elmi əsərləri*......786
*Haqqında yazılanlar*......787
*Elmi-tarixi memuarları*......788

**XƏLİL RZA oğlu XƏLİLOV**
(XƏLİL RZA ULUTÜRK)

**NƏŞRİYYATIN YARADICISI**
**QOŞQAR İSMAYILOĞLU**

NƏŞRİYYAT DİREKTORU
*Alpay PAŞA,*
TEXNİKİ REDAKTORU
*Ellada SƏFƏRƏLİYEVA,*
KORREKTORLAR
*Fəridə ƏLƏSGƏRLİ,*
OPERATORLAR
*Rəna ƏZİZOVA,*
ÇAPA MƏSUL
*Cəlil QULİYEV,*

Yığılmağa verilmiş 28.01.2011,
çapa imzalanmış 14.02.2011,
formatı 60x90 1/16,
fiziki ç.v 50,25, tayms qarnituru,
sifariş K-54. Sayı 500

Kitab
**"İDEAL-PRİNT"**
nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap olunmuşdur

• *AZ 1025. Bakı şəhəri, Xocalı pr., 24.*
*T/F.: 4989555, 342-67-67*
www.ideal-print.az